ATALAR DEYIR

ATALARSÖZÜ

Işləyən

Bey Hadi

23 800.S

Turuz-Tebriz

1991-2018

♠♠♠♠♠♠

♠♠♠♠♠

♠♠♠♠

♠♠♠

♠♠

♠

abağudan qorxan quş ac qalar. (**abağudan**: quyğundan. mətərsək).

abal abal dərviş, pulla bitər hər iş. (abal: yaval. yava. yoxsul. korluq çəkən).

aban aban iş olmaz, bəsləməsən qız olmaz. (**abal**: yavan. quru quru).

abay vurqan ağrıtmaz: baba kötəyi acıtmaz. (**abay**: yavay. boş. yüngül).

(vurqan: kötək).

abaymadan söylür, ağrımadan ölur. (qorxmadan söyləyən, əriməz ölər).

abdaldan paşa olmaz, taxtadan maşa.

ac aca gün verməz, gönü gönüyə nə verməz. (**könükmək**. **könmək**: sevmək). (**gönü**: məhbub).

ac acı dalayar, tox toxu yalayar.

ac ağız gəm götürməz. (**gəm**: noxda. cilov).

ac aman bülməz. (ac macal verməz, gözlə bilməz).

ac ayı oynamaz.

ac bay yeyər qoymaz, acgöz yeyər doymaz.

ac bıraxma tox gəzdir, az söyləyib, köp yazdır. (eli yazıb oxumağa yönət. **bil qurtul!**).

ac böri tox böri ağzı qan.

ac çapılar, bay tapılar. (parasız dağlı, paralı yağlı).

ac doğuz darıdan çıxmaz.

ac doya bilir, kəmək səmirə bilir.(**kəmək**: zayıf).

ac doya bilir, kəmək səmirə bilir.(**kəmək**: zayıf).

ac doyar, arıq toxar. (**toxar**: səmizər. şişir). (ac doymaz demə, arıq toxmaz demə) **(toxmaz:**toxmaz səmizməz. şişməz).

ac doymam, tox acmam sanır.

ac eşiyə, lüt içəri qaçar.

ac evində qatıq uyumaz (tutmaz).

ac gələni doyduran, gec gələni qonduran.

ac gələni doyduran, gec gələni qonduran.

ac gəzməkdənsə, tox ölmək yeğdir (**yeğdir**: yaxşıdır).

ac göz (gözü ac) yeyər, özüdə doysa, gözü doymaz. (ac göz yeyər, özüdə doysa, gözü ac qalar).

ac gözlülük heyvanı kökəldər, kişini çökərdər (dizə köçürdər, salar).

ac ilə toxun işi tutmaz.

ac it dəğnəkdən qorxmaz.

ac it evdə durmaz.

ac it havlamaz.

ac it, ocaq sökər. (ac it fırın yıxar).

ac itin götün, tox it yalar.

ac ivək, tox dolaq. (ac iti, gəzəgən olur, tox oturan, oturqan olur).

ac izini tox tutmaz, tox izini ac tutar.

ac kişi it olar.

ac kişi, kəndin oda salır.

ac kişini, qurd yeməz.

ac könüllərin acısı yaman, yanıq toprağın yanqısı yaman.

ac köpək, qazan yıxar.

ac qalanın, çörək açar dilini. (**qala**: dərvaza. böyük qapı).

ac qalıb alçalmayan (bu söz kişini könül yelinə verərək, başın alçaqlıqa soxmaqdan oyatı (oyarı) verir.

ac qarın acı bilməz.

ac qarın duymaz.

ac qarınqa gəp yakmaz.(**gəp**: söz).

ac qarınlı dik durmaz.

ac qatıq istəməz, uykulu yasdıq. (**qatıq**: yavanlıq. yavan əkməyə qatılan nərsə, dadlıq, məzə).

ac qatıq istəməz, yuxu yastıq istəməz. (ac qatıq, yuxu yastıq istəməz).

ac qazan assa, yeyəcək qoymaz. lüt odun yaxsa, yanacaq.

ac qılıca sarılır. (ac qalan üsyan edər).

ac qoyma hırsız, çox söyləmə üzsüz olur.

ac qoyursun hırsız, çox deyərsin arsız olur. (**hırsız**: oğru).

ac qudurğan olar, tox oynağan.

ac qurd aslana saldırır (yıxar).

ac qurdlar, ağz ağıza yatmış. (biri birinə yem olmaq qorxusundan).

ac nə edməz, tox nə deməz.

ac nə olsa yeyər, acıyan nə olsa deyər.

ac nə yeməz, tox nə deməz.

ac olan qarın, acıqlı baş diş (dinc) durmaz.

ac oldun çobana qoşul, yoruldun karvana.

ac olub sürünən, bayram günü ac qalır.

ac oynasa alaydı, bəy oynasa halaydı. (**alaydı**: ələ salma. məsxərə).

(**halaydı: qalaydı**. şənlik).

ac oynasa alaydı, bəy oynasa halaydı. (**alaydı**: ələ salma. məsxərə).

(**halaydı**: qalaydı. şənlik).

ac oynasa çapılar, bəy oynasa tapılar. (**çapılar**: döğülər. əzilər). (**tapılar**: alqış alar).

ac ölmez, gözü qararır, susuz ölmez, benzi sararır.

ac pişikdən sıçan qurtulmaz.

ac sığıra baxarsın, ağzın dolu dad olur, azqın birin doyğursun, baş çanağın qan olur. {ağzın dolu dad olur. (yaxud) mal davarın bol olur}.

ac toxdan nə gözləməz, tox toxdan nə söyləməz. (**söyləməz**: tə'rifləməz).

ac toxu anmış, tox acı anmamış. (**anmaq**: yada salmaq).

ac toyuğun avlağı, yuxuda buğda ambarı.

ac toyuq özün taxıl bazarında görər.

ac uşaq tox uşaqla oynamaz, tox uşaq ac uşağı oylamaz. (**oylamaz**: düşünməz).

ac yaxılar, bay tapılar.

ac yediyin bilməz, tox dediyin bilməz.

ac yeyər sıçar, lüt geyər vurar. (lüt qızsa vurar).

ac, acı yalar, çılpaq tumançağ qalır.

ac, acınan yatar (yatsa), dilənçi doğar.

ac, arrıq itin götün yalar.

ac, əlinə düşəni yeyər, tox ağzına gələni deyər.

ac, qılıncı çapar.

ac, qurda oxşar, çılpaq, cinə.

ac, yanından qaç!.

aca carçı gərəkməz, götə falçı.

aca qazan asdırsan, yeyəcək qalmaz, lütə odun yaxdırsan, yanacaq qalmaz. (aca qazan asma, üşüyənə odun yaxma, o yeyər sıçar, bu qızar vurar).

aca yaxınlaşma, toxu dindirmə, biri yeyər, biri sıçar.

aca, türmə gərəkməz. (o çörək əsiridir).

acalan karvana taxılar, döğüşə çıxan qalxana. (**taxılmaq**. qatışmaq. qatılmaq. girmək. girinmək).

acan qazan asmağa, donan ocaq yaxmağa, yanan içim tapmağa.

acar, qılıncı çapar.

acatıq cocuq hırsız, döğülən cocuq, arsız olur. (**acatıq**: ac saxlanılan).

acba susuz bir kimsəsiz pişik kimi sevdim onu.

acçıl börü, gündə alar verməz geri, yoxdur onda doymaq yeri. (**acçıl**: acqarın).

acda alqın, bəyə bergin olmasın. (**alqın**: alacağın. alcağın). (**bergin**: borcun).

acda alqın, bəyə vergin olmasın. (**alqın**: alacağın). (**vergin**: verəcağın).

acdan alqın olmasın, bəyqə vergin olmasın. (**alqın**: alacağın). (**vergin**: verəcəyin).

acdan soruşdular ki, ən ağır yük nədir, dedi: - boş qarın.

acgöz (gözü ac) yeyər, özüdə doysa, gözü doymaz.

acgöz doyamaz dünyanı versən, toxgözdə nəvar, əksiyi bilməz.

acgöz doymaz gözü, ya yalıq ya bayıq. (**yalıq**: yoxlu). (**bayıq**: varlı).

acgöz, maldan bükməz. (**maldan:** vardan. sərvətdən). (**bükmək**: doymaq).

acgöz, yalançı toruna düşər.

acgözlünün cicikilinin, gündən günə dərdi artıb baradur. (**artıb baradur**: artıb gedər).

acgözün gözü topraqda doyar, sevingil könül yalanla bıkar. (**sevingil**: sevəcən. məhəbbətli).

acı acırı şaxda çalmaz! (**acır**: dadlı nəsənin acısı, yararsızı. acı qarabadımcan, patlıcan).

acı acırı şaxda tutmaz, ac adamı qurd yeməz.

acı acıya əşit. (kötü kötüdür).

acı acıyı su sancıyı batırır.

acı badam, acı söz, biri partlar ağızda, biri çalar qulaqda. (**çalar**: sancar).

acı basarsa içim, öc biçər boğaz, soluq qısar dil susar.

acı beşikdə doğur, dadlı deşikdən olur. (onsuzda acılıq, ağrı doğaldırlar, çalış toxluq, xoşluq yarat). {acı beşikdə doğur, dadlı böyütsən onur. (**ösütsən**: böyütsən)}. (xoşluğa kürə dar gəlir, acı bir deşikdən yer elər).

acı bilmərsən, dadı bilmərsən. (**acı**: yeməli olmayan) (**dadı**: süycü. yeməli olan).

acı bilmərsən, güntay ola bilmərsən. (**güntay**: xoşbəx). (yaşlı gözü qanmayan, gülər gözü tanımaz). (yamanlığı qanmıyan yaxcılığın nisgini). (**nisgin**: həsrətli).

acı bilməz nə bilir dadlı nədir.

acı çayın suyu getdi, acısı qaldı.

acı çəkən dev olmaz.

acı çəkən qınanmasın, sınananlar sınanmasın.

acı çəkmək gücə gedməz, oğudan olsa. (**oğudan**: təsəlli verən).

acı çəkmək ölməyin, dadın almaq olmağın.

acı dadlı düz görülən yalanlar, qurmuş durmuş ertəkin. (**durmuş**: yaşam).

(**ertəkin**: hikayəsin. nağılın).

acı dadlını dadan bilər, yak uzağı yürən.

acı danış, acı eşit.

acı dildi ağuq ilan, dadlı dilə can qurban. (**ağuq**: ağulu. ağılı. zəhərli).

acı dindirmə, toxu təprətmə.

acı ək, acı biç.

acı gəplətmə, toxu təprətmə.

acı ilə dadlı çıxdı savaşa, acı güc gəldi vurdu daşa çıxdı başa, dadlı qaldı tumaşa hay tamaşa!. (**tam aşa**: çox təəccüblü. çox mat).

acı işlətmə, toxu dəprətmə. (acı, söylətmə, toxu, tərpətmə).

acı qalsa içində, paylaşmasan kimsələ, dadlı qaçar yadından, yaşın sönər tez çağın.

acı qovusan susuz gəlir.

acı sorağ verib, süycü yanıt qarşama. (**sorağ**: sual). (**süycü**: gözləmə).

acı soruqa dadlı soraq gözlənməz. (**soruqa**: suala). (**soraq**: yanıt. cəvab).

acı söylə acı topla.

acı verən dadlı gözləməz, arpa əkən buğda.

acı verən dadlı güdəməz.

acı yardan ayrılan, sürər yaşam dad ilə. (**dad ilə**: ləzzətlə).

acı yoxdur dinilməsin ölümlə, olay yoxdu batılmasın ötünlə. (**ötünlə**: zamanla).

acıda yesən, şirin danış.

acığ gəlsə, ağıl gedər (qaçar).

acığ gəlsə, us qaçar.

acığ girdi, baş köçdü.

acığ tutdu, baş geddi.

acığ tutsa, baş gedər.

acığan börü qan seçməz!. (acığan börü qan görməz).

acığan çalğar, quduran qalxar. (**çalğar**: **çalar**. oğurlar).

acığan doymam sanır.

acığan doymam, yanığan qanmam sanır. (**yanığan**: susayan).

acığan yatmış, acıyan qalxmış.

acığan yatmış, acıyan yox. (acığan yatmış, acıyan qalxmış).

acığın utan küyməmiş. (**acığın**: acırın) (**küyməmiş**: yanmamış).

acığlı baş işləməz.

acığlı hara, baş hara, ağıllı hara daş hara? (acıqlı baş neylər, ağıllı daşı neylər ?).

acıq dadı bilməyən, bal dadını seçənməz.

acıqlansa dilənçi torbasıda boş qalır.

acıqlı başda ağıl olmaz.

acıqlı başda, ağıl olmaz, basılmasa, doğan olmaz.

acıqlı başda, ağıl olmaz, bəslənməsə, doğan olmaz.

acıqlı dilənçinin torbası boş qalar.

acıqlı dilənçinin torbası, boş qalar.

acıqlı, başı neylər, ağıllı, daşı neylər ?. (acığlı hara, baş hara, ağıllı hara, daş hara ?).

acıqlıda baş olmaz. (**baş olmaz**: kəllə işləməz).

acılar bitər, yaxcılar itər. (acılar bitir, yaxcılar itir).

acıları dadlıq ilə almaşsan, acı köçər xoşluq alar yerini. (**almaşsan**: dəğişdirsən). (necə tutsan öylə keçər).

acıları dadlıq ilə almaşsan, acı köçər xoşluq alar yerini. (**almaşsan**: dəğişdirsən). (necə tutsan öylə keçər).

acıları görməyən, dadlı bilər hərnəyi, aclıq nədir bilməyən, tox bilərmiş hərkimi.

acıları görməyən, dadlı bilər hərnəyi, aclıq nədir bilməyən, tox bilərmiş hərkimi.

acıları görüb, hər nəyi acı görmə.

acıların ucuz satan, süycülərin yerə basan dünya. (**süycülərin**: dadlıların).

acılarla gürəş, yenməlisən, sevinclərlə barış, isənməlisən, itinmişlər, bir daş atdan bir daş üsdən qoyub, itib atmalısan. (**isənməlisən**: iyələnməlisən). (**itinmişlər**: itirilmişlər).

acımağan sağmal, içi yanat : əkşiməmiş qımız qarnı yandırır, pozur. (**sağmal**:qımız).

acımağan sağmal, içi yanat: əkşiməmiş qımız qarnı yandırır, pozur. (**sağmal**: qımız).

acın acığı yaman.

acın başı bəlalı olur, toxun başı bəla doğurur.

acın başı qarnında olur.

acın evində, nə od olar nə də ocaq.

acın gözdə çəmçəsi, odunçuya omçası. (**omça**: kündə. kütə. yarılası ağac).

acın gözü, çörək təknəsindədir.

acın imanı olmaz, toxun amanı, qanmazın dərmanı. (acın imanı olmaz, toxun gumanı).

acın imanı olmaz, toxun gümanı. (**gümanı**: quşqusu. şəggi). (ac doymam deyər, tox acmam deyər).

acın imanı, toxun amanı olmaz.

acın qarnı doyar, gözü doymaz.

acın nə yuxusu gələr, nə gülməyi. (acın üstünə doqquz yorqan atmışlar, genə uyumamış).

acın yuxusu, çörək xurcunu.

acınan toxun arası, bir çörək.

acından gün orta durur, buğların yağ ilə burur. (acından gün orta durur, buğların, yağınan burur).

acından it götü yalır.

acından qarnı gurlar, başında nələr oylar. (**oylar**: düşunər).

acından qarnı quruldayan, su içip tuluqlanar.

acından ölən yox, toxundan ölən çox.

acındırsan arsız, acıqdırsan hırsız (oğru) olur.

acındırsan arsız, acıqdırsan hırsız olur. (üz verirsən arsız, az verirsən hırsız olur).

acını acı kəsər, dadlını dadlı bəsər. (**bəsər**: bəslər). (acı üstə acı var, dadlı üstə dadlı. ac göz kişini, topraq doyuyar). (dəngəli pozuq, dinc olmaz).

acını atmayan, dadlını tutanmaz.

acını tanımayan, dadlı nə bilir. (acının dadın bilməyən, şirinlikdə dad bilməz).

acını unut, sevincə umut. (acıyı unut, dadlıya umut).

acını unut, sevinci tutun.

acını utun, sevincə tutun.

acının dadın bilməyən, dadlılıqda (şirinlikdə) dad bilməz.

acınmadan canıva qıyar sevən, görənməyən inanmaz.

acınmasan canıva, hər iş gələr başıva.

acınmış acı nisgilə dönər. (**acınmış: aşınmış**).

acınmış acı nisgilə dönər. (**acınmış**: aşınmış. köhnəlmiş).

acısa utma, dadlısa atma!.

acısı yoxun, süycüsü yox. (**süycüsü**: dadlısı).

acısın bilməz süycüsün çəkməz. (**süycüsün:** şirinin**)**.

acısın doğar süycüsün boğar bu evrən. (**süycü**: dadlı).

acısız süycü, üfüsüz büycü olmaz. (**acısız**: əməksiz. zəhmətsiz). (**süycü**: dadlı). (üfüsüz: püfüsüz: kələksiz). (**büycü**: **büyücü:** cadıçı).

acışan yaram olsun, acınan kimsəm yox.

acıya qurt düşməz.

acıyan eşşək atdan keçər.

acıyan susmaz, qanığan susamaz.

acıyan yanağından, susayan dodağından belli.

acıyı böylə sevən, dadlını yalaya sevər. (**yalaya**: yalıya yalıya).

acıyı unut, dadlıya umut. (acını unut, sevincə umut).

acqarın başı dinc almaz.

acqarın, əsnəməz. (ac qarın).

acqarını çörək bassan toxdamış, gözü acı topraq basar toxdadar.

acla ac dalaşar, ortada dilənçi doğar, toxla tox yalaşar, ortada yalançı doğar. (**yalançı**: yaltaq).

acla ac dalaşar, toxla tox yalaşar.

acla ac poxlu, toxla tox toxlu.

acla dosluq edsən, qarnıvı doyur.

aclamaz qarın demə, bitləməz kanım demə. (hər nəyin sonu var).

aclığ korluğun unudan, toxluğunda kor olur.

aclığa tuşlanan yer, güvən inamdan olmuş.

aclığa tuşlanan yer, güvən inamdan olmuş.

aclığı dənədim, yeməyin dəyərin bildim, ayrıldım yandım, birliyin dərəkin bildim. yoxluğun yaşadım, varlığın ardağın bildim. (**ardağ**: qiymət. tutar. ərdiş).

aclığı sınamadan toxluğu sına.

aclığın dərdin çəkən, toxluğun dərkin bilər. (**dərkin: dərəkin**. dəğərin. qədrin).

aclığın əlin toxluğa sığın, ac qalmasan.

aclığnı yastıq götürər. (yatan aclıq bilməz).

aclıq acıdar, allıq qızadar. (**allıq**: **ənlik. ənnik. enlik**. üzə yaxıların al boya).

aclıq baş itirdər, diş itildər.

aclıq dışar çıxarır, lütlük içər qaçırır. (**lütlük**: yalınlıq).

aclıq doğru amaca, sevgi könül əğri yamaca. (**könül**: həvəs. istək). (ac yemək gəzib ağ bozuna baxmadan, eşqi çəkən könlü kimi oynayar). (yaşamda aclığı gidərən son, yaşam top kimi onatılır).

aclıq görməyən, nə bilir toxluq nədir.

aclıq qurddan ayrılmaz, toxluq igiddən.

aclıq qurduda, meşədən qovar.

aclıq nə edirməz, toxluq nə dedirməz. (aclıq nə etdirməz, toxluq nə dedirtməz).

aclıq susuzluğa qardaşdır.

aclıq tokluq, gülüv yığlav, eylik pislik dinsiz olub,dilsiz doğub. (**gülüv:** gülmək). (**yığlav**: ağlamaq).

aclıq yaman olur yeyir doyur, toxluq yaman olur şişir qudurur.

aclıq yoxsulluqdan, yoxsulluq biliksizlikdəndir.

aclıq, adama oyun öğrədər.

aclıq, dad bilməz, yuxu, yer bilməz, qorxu, utanc.

aclıq, sevgilər pozar.

acmış alar, quduran yügürər.

acun eldən dosd olmaz, öcü qalsa, dinc almaz (**acun**: yağun. düşman) (**öcü**: kini).

acun işi, qapan götdü, utan öttü, gileyliyə yer qalmaz. (**acun**: evrən).

acun qurulmuş belə. -azığan kişi azığ evində tapmış, yazılan kişi tapmaq üçün çalışsın. (**acun** dünya). (**azığan**: əğri. yasıya, qanuna boyun qoymamış, müti' olmamış) (**azığ**: ağızlıq. yemək). (**yazılan: yasılan**: doğru. yasıya, qanuna boyun qoymuş, müti').

aç ağız gülə, uğur gülə. (ağız aç gülə, uğur gülə). (ağzın xeyrə aç) (ağzın uğra aç).

aç gözünü kor olma, yoxsulluqdan xor olma, ölüm ovçu ov olma, çağı varan gedərmiş, başı varsa yaşarikən istəklərin edərmiş. (**başı**: ağlı).

açan olsa, döğülü qapı açılır.

açan varsa, bükəndə var.

açana inanmıyan, bükəndən qorxmaz.

açanda göz qalmağı gəlmir, yumanda göz köçməyi. (**köçməyi**: ölməyi). (heç durumda din olamır).

açarın gücü, qıfıl basdı.

açarmı tün, atarmı dan, saçarmı gün keçmişləri qapatmadan, anıları unutmadan?.

açdığın yara sevməsin yerin, itmisən itil dönmədə geyin.

açdım gözüm gördüm səni, hər bir nərsə sənsin deyu, dünüm sənli, günüm sənli, tünüm sənli, tümüm sənli. (**deyu:** sandım).

açdırma qutuyu, söylətmə kötüyü.

açdırmağa gərək yox, hər nə sənə açıqdır, bütün ürək vermişdim, gör necədə yarıqdır.

açdırmağa gərək yox, hər nə sənə açıqdır, bütün ürək vermişdim, gör necədə yarıqdır.

açığlı ər, çabıq qarımaz: varlı kişi tez qocalmaz.

açıq ağız ac qalmaz.

açıq ağza sinək düşər.

açıq ağzı, əli açıq boş qalmaz. (açıq ağız, açıq əl, boş qalmaz).

açıq baş, daşa tuş. (**açıq**: gizlənməmiş). (**tuş**: yem).

açıq ələ dos görünən çox olar, yumuldusa, göründüklər yok olar, kəndinə sən yetinməyi öğrənsən, gözün doyar könlün qalmaz tox olar. (**kəndinə yetinmək**: kəndi onayıb (onğayıb), razı saxlamaq).

açıq əli güdmə, bağlı əli atma.

açıq göz, ışıqsız, açıq ağız, paysız qalmaz!.

açıq göz, ışıqsız, açıq ağız, paysız qalmaz. (kişi öz gücünə, biliyinə, biləyinə inanmalıdı).

açıq gözlə görülən yuxu, başa oyun gətirir!.

açıq gözlə seçənmir, qapıq gözlə axdarır. (çıxarsızlıqla koranlığdan, kütlükdən əksiyi olmayan).

açıq gözlə sevənlər, çətin olar ökünə, qapıq gözlə sevənlər, sonu çətin sevinə. (**ökünə**: peşman ola).

açıq gözlə sevənlər, çətin olar ökünə, qapıq gözlə sevənlər, sonu çətin sevinə. (**ökünə** : peşman ola).

açıq gözlə sevənlər, çətin olar ökünə, yapıq gözlə sevənlər, öküncəlik işləri. (**ökünə**: peşman ola). (**öküncəlik**: peşmançılıq).

açıq gözlə sevənlər, çətin olar ökünə, yapıq gözlə sevənlər, öküncəlik işləri. (**ökünə**: peşman ola). (**öküncəlik**: peşmançılıq).

açıq gözlü, kor olmaz, aslaq qulaq kar olmaz.

açıq idişi it pişik yalar. (**idişi**: qabı).

açıq könül səggiz uçmaq eşigin açar. (vardı könül kömür qarası, vardı könül könül alası).

açıq qapı döğülməz.

açıq qapı girgənini tanımaz.

açıq qapıdan min bir bəla gələr deyiblər, bağlı qapının min bir bəla içində.

açıq qapılar qapanır günündə gülüm, qalmamış açıq sonsuzadək bir açıq qapı. (**günündə**: günü yetdikdə).

açıq qapız, qonaqcağız. (açıq qapı qonaqlı olur).

açıq qıl tut göz qulağ, yüz qonan var yüz köçən, gedən gəlməz, gələn qalmaz. (yalan dünya qalan dünya). ({(dörd yaşada beş yaşa, barçıya gəlcək başa). (**barçıya**: hamı üçün)}.

açıq qucaq, sarmalı qol boş qalmaz.

açıq qulaq nə dinləməz, ağzı açıq nə söyləməz.

açıq saçıq gəpçilərə, gopçulara yox deyin.

açıq tutun qapını, alışmaz can tusdağa, könül çəkir uçmağa.

açıq yarıya, qurd düşməz.

açıqbaşa bir söz (**açıqbaşa**: söz eşidənə).

açıqdır ağzı, söyləyir elim, mindirəm gərək kürsüyə dilim.

açıqlı ər çabuq qarımaz: varlı kişi tez qocalmaz.

açıqlıq, qaçıqlıq, qaçıqlıq, saçıqlıq gətirər.

açıqsa qapı, öğünc avucu güdür, qapıqsa qapı, döğünc döğməmiş girir.

(**öğünc**: sevinc) (**avucu**: qarşılayan. alıcı. alan. qəbul edən). (sevinc, şadlıq özbaşına gəlməz, bələtçi güdər, qaxınc çilə başçı aramaz, özbaşa girər).

açılan əllərə, nisgilli ürəklərə, yol çəkən gözlərə, quru qalan göllərə, yağıt yağış, yağdır yağış (**yağış: yağmur**. rəhmət).

açılan ətək yapılmış, şəkli göz içrə qalmış. (işlərin görünməz üzüdə var).

açılan solar, ağlayan gülər. (açıl sol, ağla gül).

açılan solar.

açıldı qəfəs, girdi içəri, nisgilli biri sevəcən biri.

açılmayan düğün yoxdur.

açınan at yüyrək olur. (tumar görmüş at yeyrək, yorqa olur).

açma ağız qavqalı yerdə olsan.

açmasan için, kim bilir içində nə var, tanılmadıq qapı, tanılmazı qavalar.

açması yox , açmazı çox bu evrən.

açması yox, açmazı çox bu evrən.

açmasız açmaz, keçitsiz çay olmaz. (çıxılmaz çıxmaz tapılmaz). (**açmasız**: yolsuz. çarasız. tədbirsiz). (**açmaz**: qıyın soru. müəmma).

açmayınca ağız sözə bir kişi, bəllənilməz dilək çəki, iç işi. (**çəki**: qəsdi. niyyəti).

açmaz qapı bıraxmaz, tovlu olsa sevgimiz. (**tovlu**: güclü).

açmazdı aşq. –ac qarına aş, nisgil gözə yaş, biri bağrına daş. (**açmazdı:** müəmmadı).

açsa ağız kişi sözə, kim olduğu çıxar üzə!. (**kimi olduğu**: kimsəliyi) (**açsa kişi ağız sözə**, kim olduğu çıxar üzə!).

ad igitlik gətirmir, igitlik ad gətirir. (ad, igitlik qazanmır, igid, ad qazanır).

ad kimindir, göt kimin. (işi kim görür, ad kimin olur).

ad otuz minlə alınır, üç manatla satılır.

ad var adamı bəzir, adamda var adı bəzir.

ad var dadladır, dad var adladır.

ada mənə, adayım sənə. (iyilik qarşılıqlı yapılır). (**adamaq**: nəzr, nəzər edmək).

adal bilməz, inam gəzməz. adal: (**insaf:** insaf). yok, inamı yok).

adam adamdır olmasa pulu, hayvan hayvandır, atlasdan çulu.

adam adamdır, olmasa pulu, eşek eşekdir, ətləsdən çulu.

adam başı söz ilə, qazan altı köz ilə.

adam başı, daşla daşı.

adam çoxaldıqca, adamlıq azalır.

adam qaynar söziylə, qazan qaynar köziylə.

adam qohumun ətini yesədə, sümüyün atmaz.

adam olmaq asta- asta, heyvan olmaq bir anda.

adam pulla, eşşək çulla tanınmaz.

adam sandıq eşeği, qatqat sərdik döşəği.

adam sandıq eşəği, altın sardıq döşəği.

adam var 'ər' dəğişir, adamda var 'əl' dəğişir.

adam var pulu tapır, pul var adamı.

adam var pulu tapır, pulda var adamı tapır.

adam var yaşır yeyir, adamda var yeyir yaşır.

adam vardı adamların oxşarı, adam vardı adamların poxşarı, adam vardı dindirəndə can deyər, adam vardı dindirməsən yaxşarı.

adam vardı adamlığın örnəyi, adamda var geymiş adam köynəyi, adam vardı adamlığı qaldırar , adamda var adamlığı batırar.

adam vardı para örtər manını, adamda var açar para manını. (**manını**: aybını).

adam vardı yerin bulmaz, adam vardı yerin bular özün bulmaz, adam yoxdur özün bulsun yerin bulmasın.

adam vardır gözəl alma oxşarı, adam vardır içi poxdan qoxşarı. (**qoxşarı**: artıq qoxan).

adama oxşar yamandan, yaxşıya oxşar ilandan qorx.

adamaq qolay, ödəmək güc. (**adamaq**: iddia edmək).

adamdı adam, olmasun puluda, heyvandı heyvan, ətləs olsun çuluda.

adamdısa ünü yok, qoyundusa yunu yok.

adamı başdan tanı, ağacı yaşdan.

adamı başdan, ağacı yaşdan (tanı).

adamı qeyrət işlədər, dəyirmanı su.

adamı qeyrət, dəyirmanı su işlədər.

adamı pula, eşşəyi çula satma.

adamı sözündən tut, heyvanı burnundan.

adamın gözə baxanından, suyun xım axanından qorx!.

adamın gözü bir dənizdiki su içməkdən doymaz. sudandanda doysa suya dolmaz.

adamın üzünə yox, sözünə bax.

adamın vayı, xocanın payı.

adamın yerı baxanından, suyun lam axanından qorx!.

adamki mindi adın atına, yel yetişərmi onun çatına. (**çatına**: izinə). (ada qapılan sana sığmaz).

adamlığın ərkəyi yox, dişisi yox.

adamlığın ərkəyi yox, dişisi yox.

adamlıq, adamlarda toplanıb, (birində yok).

adaşqana manğ yok, qaydıb evin tapqan sonğ. (**adaşqana: azaşqana**). (**manğ**: ayıb)**. (sonğ**:sonra).

adət ağlı aldadır. (aldış alıq aldadır). (**alqı**: şuur. biliklik. aqahlıq). **(**aldış bilik aldadır**)**. (**aldış**: adət). (adət gücü, alqı gücün yenər, üstələr).

adı başqa, dadı başqa.

adı çəkilməsin, göz görməsin, qulaq duymasın. (yaman nərsədən söz gedəndə).

adı qonağın, dadı qonağçının.

adı tutulmayır meşədə, küsmüş ayı meşədən.

adı uluğ, səprəsi quruq. (**səprəsi quruq**: süfrəsi qıs, dar). (adı hündür, əli qıs). (**səprə**:**səpər**. saçağ. süfrə).

adım dərviş, puldur görür hər iş, pulun var giriş, pulun yoxdur sürüş.

adın çək qulağın bur. (qurd ağzasan quyruğu görünət). (köpləncc, sözü keçən başa gələn olur). (**köpləncc**: koplanç. çoxraq. əğləb).

adın çəkmə, özün gətir.

adın nədir ? - dərviş, pul ilə olur hər iş, pulun var giriş, pulun yox, sürüş.

adın nökər, durma bekar.

adını eşit, görmə üzünü.

adlanan atlıda olar, atsızda, atlanan adlıda olar, adsızda.

adlım kişi adından qorxduqca, adsız kişi tanrıdan qorxmaz!.

adlımların hər dedigi dəğər daşımır!.

afdafa görməyən göt, lüleyin görəndə xoruldar.

ağ akca qara işlər işlər, qara işlər içlər. (kötü, pis işlər var para üçün görülür, gizli işlər para ilə çözülü).

ağ almanı alarla, ağ boşqaba qoyarlar, çağrılmamış qonağı, qaş qabaqla qoğarlar. (ağ almanı soyarlar, ağ boşqaba qoyarlar, çağırmamış qonağı, **qaş gözülən** qovarlar).

ağ almanı alarla, ağ boşqaba qoyarlar, çağrılmamış qonağı, qaş qabaqla qoğarlar.

ağ bulutdan yağış yağar, yerli yerdən bulaq çoğar, xoş yuxumlu günəş doğar, yaz gəliri, yaz gəlir. (**çoğar**: çoğ çoğ vurub qaynar).

ağ dediyin alqışdır, qara dediyin qarqışdır.

ağ gündə ağarsan, qara gündə qararsan.

ağ günüdən yaman günə dos saxla, varlı çağdan , yoxsulluğa pay saxla.

ağ günün ağçası çatar, ağçalının ağ günlüsü bəllənməz.

ağ ipəkdə geyinsən, kölgən qara görünəcək.

ağ kirlənsə qaralar, qara kirlənsə ağarmaz.

ağ qara yaşqasını gözdən alıb ellərə at. (**yaşqasını**: pərdəsini). (**ellərə**: yadlara). (çevrəvi, dünyavı ağ qarıya bölmə).

ağ qaralı var ilan, ey kötüsü seçilməz!. (**ey** eyi. iyi).

ağ qaralı, güllü kitli yol, yaşam yolu uzun yol, yaşam budur, bilisən bil, bilməsən yür. (**yür**: çəkdir ged).

ağ qaralıq ilanda, soxmağına dəğdirməz, yalançılıq oğurluq, doğruluqa sığışmaz.

ağ qoyunu görənlər, için dolu yağ bilər. (**bilər**: sanar).

ağ olsun, qara olsun, istiyot acıdır.

ağ paltar tez kirlənir. (1. ağ kir götürməz. 2. iyilərin kötülüyü çabıq gözə çarpır).

ağ saqqal sözün, axıra saxlar.

ağ saqqalın yaşına yox, başına bax.

ağa deyib sağallar, yava deyib yapallar.

ağa ilə bostan əkənin tağı çiynində bitər.

ağa itinə, itdə quyruğuna toxladar. (**toxlatmaq**: irca vermək **)**.

ağa yeyib toxdur, nökərə bir çörək yoxdur.

ağac aymaz kölgəsini baltadan. (**aymaz**: qısmaz. əsir gəməz).

ağac başına yel dəğir, gözəllərə söz gəlir.

ağac dalı ilə gürlər.

ağac dibdən su içər, kişi başdan.

ağac dibindən su içər.

ağac əğildi sındı, yiğit əğildi öldü. (Kordus).

ağac göydə bitməz.

ağac göydə bitməz.

ağac içmiş kökündən su, umut içdən.

ağac istəməzsə, yapraq düşürməz, bir nədən olmazsa, yaluğ ölürməz, sən köçüb içə yandırıb yaxdın, tanrım sənin içqayın versin. (**yaluğ**: adam). (**içqayın:** nədəni bəlli olmaz içə düşən, içdən yıxan bəla).

ağac kəsəninə kölgə salar.

ağac kəsildi düşdü yerə, dost oldu baltaynan ərə.

ağac kökü üsdə bitər, el dili üstə.

ağac kökündən güclənir, kişi, eldən.

ağac kökündən quruyar.

ağac kökündən su içər.

ağac kökündən su içər.

ağac qança ösürsə göy üzünə, barıbir yapraqları düşür dibinə. (**ösür**: ötür. ucalır. rüşd edir). (**barıbir**: sonunda).

ağac qapı yapılırsa, altın qapı açılır.

ağac qarır, devran dönür, quş budağa bir kəz qonur.

ağac qatısı soxu, kişi qatısı çomuq olur. (**soxu**: six. şiş. biz). (**çomuq**: çomaq).

ağac quru doğrulmur, kotan beyin yoğrulmur!.

ağac quru əğilməz, su olmasa əkilməz. (hərnə yaşlıqda, gənclikdə oluşur, əkində susuz olamaz).

ağac quru əğməqin, sözün yokdur dinləqin, başın çıxmır soxməgin, qarnın toxdur yeyməqin, axmaq ilə oturdun, duyduğuva dinməqin. (**məqin**: olumsuz yapan **"mə**. **ma"** əki).

ağac qurur, devran dönür.

ağac nə qədər boy atsada, kökü topraqda olur.

ağac nə qədər yoğunsa, bir elə bərk sınar.

ağac olan yerdə budax sınar.

ağac olub yad ölkədə, kölgə salırsa bəlkədə, doğma eliqə kol olub, doğanda batsa yaxşıdır. (**eliqə**: elinə. millətinə).

ağac olursa gərək, olur ağacan.

ağac tutan ağac vurandan artıq.

ağac vardır çəmçəliyə kəsilir, qaymaq olur yoldaşı, ağac vardır qazıqlığa kəsilir, toxmaq olur yoldaşı.

ağac yaprağıyla gurlar.

ağac yaprağıyla gurlar.

ağac yarananda, baltada yaramışdır.

ağac yaranmış, baltası dibində.

ağac yaş ikən əğilir. (ağac barlı ikən əğilir).

ağac yemişindən, kişi qılışından.

ağac yemişindən, kişi qılmışından.

ağac yıxılsa, kölgəsi qalmaz.

ağac, ağac içində böyüyür.

ağac, kökündən güclənir, kişi, elindən.

ağac, kökündən su içər.

ağaca balta vurmuşlar, ahhh sapı məndən demiş.

ağaca çıxan geçinin, dala baxan oğlağı olur.

ağaca çıxan keçinin, budağa baxan oğlağı olur.

ağaca dayan çürür, özgəyə güvən gövür, kəndivə güvən, iki evrənin görür.

(**gövür**: cumur. şumlur. puç olur).

ağacdır gətirən yemişi, paradır qutaran işi.

ağacı demə, yemişin de, üzünü demə, özünü de.

ağacı elə kəsmə ki, başına düşsün.

ağacı qurd, kişini dərd yeyər.

ağacı qut yeyər, kişini dəd.

ağacı ortasından tut, iki başıynan vur. (ağacı ortasından tutan, iki başdan vurar).

ağacı yalınqu pozar, yalınqu yalan. (**yalınqu**: **yalınğ**. kişi. adam).

ağacı yaran bir pay, higgəsin deyən iki pay. (**yaran**: ayıran).

ağacın ağırıda suda üzər.

ağacın barı gərək, iyidin yarı gərək.

ağacın barı, iyidin yarı. (ağacın barı gərək, iyidin yarı gərək).

ağacın böyügü, bürküdəndə qoruyar, yağışdanda. (**bürküdəndə**: tufandanda).

ağacın gördük yemişin yok. (ondan bizə elə kar dammadı).

ağacın gördün yemişin atma. (ağacın görüb yemişin atma). (üzünə baxıb için daşlama).

ağacın kökü yerdələr. adamın gözü yerdədir.

ağacın kölgəsin kəsən, ağacı qırandı.

ağacın qurdu içindən olur.

ağacın qurdu özündə olur, igidin kəmi sözündə olur.

ağacın qurdu özündə olur, igidin kəmi sözündə olur.

ağacın qurdu özündə olur, igidin kəmi, sözündə olur.

ağacın qurdu, öz dibindədir.

ağacın uzun olsun, qolun dinc.

ağaclı köyü su basmaz.

ağacsız bağ olmaz, gəlinsiz ev.

ağacsız meşə, sapsız teşə, otsuz neşə, burunsuz deşə, gəlirsiz peşə olunmaz.

ağacsız meşə, sapsız teşə, otsuz neşə, burunsuz deşə, gəlirsiz peşə olunmaz. (**ot**: göyətilərdən yapılan uyuşdurucu).

ağacsız, orman olmaz.

ağalar sözə baxmır, qağalar söz başarmır.

ağalıq verməklə, iyitlik vurmaqla. (ağalıq əliaçıqla, pəhləvanlıq qoçaqlıqla bəllənir).

ağamdan bir at isdərim, verirsə minər gəlirim, verməzsə, dönər gəlirim.

ağan eşşək olsada, 'hoş' demə.

ağanın bir gözü korsa, nökərin ikisi kordu.

ağanın gözü, igidin sözü. (ağa çevrəsin gözətliyə bilirsə, iğitdə sözün tuta bilirsə, sayın, hörmətli olur).

ağanın malı çıxar, nökərin canı.

ağaran baş, ağlayan göz, gizlənilməz.

ağaran baş, ağlayan göz, gizlənilməz.

ağarıb önə düşmə, qaralıb sona düşmə, ortalığa nə gəlib.

ağarıb önə düşmə, qaralıb sona qalma!.

ağarıb önə düşmə, qaralıb sona qalma. {uçurluq edmə. **(uçurluq:** ifrat təfrit)}. (hammını qınama, kəndivi bir sına). (lovğalıqla gurranıb, alda düşüb aldanıb).

ağası ağanın qulu quduz. (**ağası** : ağalar ağası. ağabaşı. başağa). (başağa bəyin nökəri qudurqan olur.).

ağası ağanın qulu quduz. (**ağası**: ağalar ağası. ağabaşı. başağa). (başağa bəyin nökəri qudurqan olur.).

Ağası gülüm olanın başına külüm olar. (Araz Gunduz).

ağası qul olanın, qulu quduran olur.

ağasız yeri, domuz sürər.

ağaşdan budaxdan, biridə gəldi bucaxdan.

ağaşdan budaxdan, biridə gəldi bucakdan.

ağbirçəksiz ev, karvansız yol olmasın.

ağca axca, qaragündə işgələr. **(işgələr:** dərdə dəğər).

ağca axca, qaragündə işgələr. **(işgələr:** dərdə dəğər).

ağcaqovaq, çartıldayıb yanar, amma közü düşməz.

ağça demə açğa de. (**açğa**: açar).

ağça gücü qara gündə bəlgürür, kosuq gücü qara qışda bəlgürür. (**kosuq**: kiçik dəlik).

ağça sayış, don yeriyiş öğrətir. ağça sayış (**ağça sayış öğrətir**: pul güvənc, itminan gətiri, verir).

ağça, qananın qulu, qanmazın çulu.

ağçaya inan, gücün varsa, gücə inan, inamın varsa.

ağçaya inan, gücün varsa, gücə inan, inamın varsa.

ağdarı yağsada oxları qınağ, dönmərəm verdigim ilqarı pozam birdə geri.

{**ağdarı: ağıdar**. **yağıdar** (**axmaq**. **ağmaq**. **yağmaq**). (ağıdar baran. durmadan iti axan, yağan. sağanaq. (rəgbar)}.

ağdı qızıl bayraq, doğdu qara topraq.

ağgünün akcası, qaragünün yarcası. (**yarcası**: lap yaxın köməyi). {ağgünün akcası, qaragünün yarqacı. (**yarqacı**: açarı. ışıqcısı)}.

ağgünün akcası, qaragünün yarcası. (**yarcası**: lap yaxın köməyi). {ağgünün akcası, qaragünün yarqacı. (**yarqacı**: açarı. ışıqcısı)}.

ağgünün akcası, qaragünün yarqacı. (**yarqacı**: açarı. ışıqcısı). (ağgünün akcası, qaragünün yarcası. (**yarcası**: lap yaxın köməyi).

ağgünün sirri, keçmişdə qalma, özgəyə baxma!.

ağgünün sirri, keçmişdə qalma, özgəyə baxma!.

ağı acı, bal süycü, biri söğücü, biri söyücü. (biri söğücü, biri söyücü: biri çəkinməli, biri çəkici).

ağı acısı, bal süycüsü danılmaz, gün gözündə, qurtlu paxla satılmaz.

ağı ağlatar, sevik söylədər. (**sevik**: eşq).

ağı dağa gəlməz, başa gəlir.

ağı dərmandan qaçar, dərman ağrını qapar.

ağı qatar aşımıza, işlər gələr başımıza, bu bir oyun evrənə, daşın vurar başımıza.

ağı qatar aşımıza, işlər gələr başımıza, bu bir oyun evrənə, daşın vurar başımıza.

ağı var qarası var, hər olasın çağı var. qudurub çıxan taxda, onunda düşən çağı var.

ağıdan sağuq qəlməz, qəhbədən bağuq gəlməz. (**sağuq**: dərman). (**bağuq**: bəfa).

ağıdan sağuq, qəhbədən bağuq gəlməz. (**ağı**: zəhər). (**sağuq**: dərman). (bağuq: bəfa).

ağigidin gözü tox, könlü ac olur, eyilik etdikcə, könül ona yar olur. (**ağigid**: covmərd. centilmən).

ağıl ağıldan üstün olur, söz sözdən ötgün olur.

ağıl başda, çörək daşda. (ağıl başdan çıxır, çörək daşdan).

ağıl başdan çıxır, çörək daşdan.

ağıl çaşsa saxlamaq çətin, öz işivə kəndliyin yetin. (başqa əldən yeyən doymaz, baş gedirsə ayaq durmaz).

ağıl çürümür, qızıl paslanmır.

ağıl xəznə, könül yozaq, dil açar. (**açar**: açqıç) (akıl hazine, gönül kilit, dil açar).

ağıl olsa baş içində, arzu gülər (çiçəklənər) daş içində.

ağıl pula satılar, pulla satılmaz.

ağıl tanrı vergisi yox, sınağ ötəridir. (ötəridir: örünüdür. hasilidir).

ağıl ulusdan çıxar, dərman kol kosdan.

ağıl üçün, yol birdir.

ağıl, ağıldan keçər, söz danışıqdan ötər.

ağıl, ağıldan üstün, söz, sözdən ötgün. (ağıl, ağıldan keçər, söz danışıqdan ötər).

ağıl, əli öğrədər, əl, işi görər.

ağıl, qızıl tacdır, hər başa qonmaz.

ağıla paxıllıq olmaz, ağıldan artıq var olmaz.

ağılda (: tövlədə) oğlaq doğsa, ovada otu bitər. (qurd olan yerdə yemdə tapılar).

ağılda göz olsa, özün qoruyar.

ağılda oğlaq doğsa, arükdə otu önər.

ağılda oğlaq doğsa, yaruğda otu önər. (yaruğ: otlağ. bayır).

ağıldan uca, var olmaz, ağıldan yaxın dost olmaz.

ağıldan uca, var olmaz, ağıldan yaxın dost olmaz. (ağıldan artıq var olmaz). (ağıla paxıllıq olmaz, ağıldan artıq var olmaz).

ağıldan yavansın, cibindən yağ damsın.

ağıldan yavası var, cibindən yağ damır.

ağılı diş ilanda, ağılı dil oğlanda. (**oğlanda**: insanda).

ağılı dişlər ilan üçün bəs edməz, əzik başlı yamanın quyruğunda unutma.

(ilanın sarılıb sıxaraq öldürmə gücüdə çoxdur).

ağılı dişlər ilana bəs edməmiş ayaq gəzmiş. {utsuz üzü sulanmaz.

(**sulanmaz**: **ıslanmaz**. utanmaz)}.

ağılı dişlər ilana bəs edməmiş ayaq gəzmiş. {utsuz üzü sulanmaz.

(**sulanmaz**: **ıslanmaz**. utanmaz)}.

ağılı evdə qoyub gedərik, axmağın qulluğuna yetərik.

ağılı qısanın, dili uzun.

ağılı olan ərinməz, gücü olan sürünməz.

ağılla saqqal bir doğulmamışlar. (ağılla saqqalın, doğanlığı (qohumluğu)

hardandır).

ağılla var birləşsə, devlət qurar.

ağıllı ağladırsa, öğün (sevin), səfeh güldürürsə döğün (düşün).

ağıllı bildiyin söyləməz, dəli söylədiyin bilməz.

ağıllı **"bizi"** tapınca, dəli bacadan düşər.

ağıllı duşməndən qorxma, dəli dostdan qorx.

ağıllı işinə baxar, dəli dişinə.

ağıllı qırqı, caynaqların gizlətir.

ağıllı olub dərd çəkincə, dəli ol, dərdivi çəksinlər.

ağıllı öğrənər, axmağ öğrədər.

ağıllı söz, daşdan qala, ağılsız söz başa bəla.

ağıllıdan, səfeh olmağın qədir qiymətin öğrən.

ağıllıların yükü, axmaqların çiğnində olar.

ağıllının ağlı səfehdə olsaydı, dünya cənnətə dönərdi.

ağıllıya demə biləcək, yaxşıya demə verəcək.

ağıllıynan daş daşı, axmağla yemə aşı.

ağılsız başın, ya gözlüsü, ya koru. (nə dəyişər).

ağını çəkdin, balını çək.

ağır (dəğərli. bahal) papaq, başa ağıl qoymaz.

ağır ağrını, ağı qoyur (toxdatır).

ağır al, ucuz saxla.

ağır basar, yüngül (yeyni) qalxar.

ağır çilə içdə yatır. (**çilə**: dərd). (ağır sular gurlamaz. (**ağır sular**: dərin sular).

ağır daş, batman döğər.

ağır daşı altdan qoy, keçənləri yaddan qoy. (**yaddan qoymaq**: başdan çıxartmaq).

ağır daşı su axızmaz.

ağır daşı yel qoparmaz, sel aparmaz.

ağır daşı yel qoparmaz, sel aparmaz. (ağır daşı, nə yel alır, nə sel).

ağır daşı, nə yel alır, nə sel.

ağır dərdə ağır dərman, ömür qıssa, uzaq arman. (**arman**: arzu. çatılası istək).

ağır gedən, yol alar, yeyin gedən, yolda qalar.

ağır gülmək, ağır ağlamaq.

ağır işlə çalışma, sınırları sındırar.

ağır kişi apardı, yüngül olan yapandı (olundu. alındı).

ağır qazan, gec qaynar.

ağır qəmlər gəpiməyə söz bulmaz.

ağır qulaq baş ağrıdar, sağır qulaq göt.

ağır qulaq baş ağrıdar, sağır qulaq göt.

ağır qulaq baş ağrıdar, sağır qulaq göt. (**sağır** : kar). (**ağır qulaq**: söz dinləməz, öğrəşməz).(kar dümsüklə, dürtüklə söz dinlər).

ağır ol, batman döv.

ağır olan, altda olar.

ağır olda yeğ dinlə. (**ağır**: sakit). (ağır olduqca yeğrək eşidirsin. (səssiz olduqca yaxşı eşidirsin). (səssiz olub yeğ dinlə).

ağır olda yeğ dinlə. (**ağır**: sakit). (ağır olduqca yeğrək eşidirsin. (səssiz olduqca yaxşı eşidirsin). (səssiz olub yeğ dinlə).

ağır olsa bir bölük, parçalasan sürərsən..

ağır olur ağrısı, düz yerinə almış olursan yalan.

ağır olur daş köpdüğü yerdə.

ağır otur batman gəz.

ağır otur yüngül qalx, yüngül qalxun batman gəl.

ağır otur yüngül qalx.

ağır otur yüngül qop, gerçək içrə olmaz gop.

ağır otur, yüngül dur. (**dur**: qalx). (**ağır otur**, yüngül qop. (**qop**: qalx).

ağır sevgi, ağır yük.

ağır sular gurlamaz. (**çilə**: dərd). (**ağır sular**: dərin sular). (ağır çilə içdə yatır). (**çilə**: dərd).

ağır sular, dərin yatar.

ağır sular, lam axar.

ağır təprin, yuğaş gör, yüngül təprin, savaş gör..**(təprinmək.** devrinmək. davranmaq. təvşinmək. devşinmək. təpşinmək. davşınmaq yorışmaq. yerişmək. hərəkətlənmək. hərəkət edmək. rəfdar edmək).

ağır tutsan yıxılmaz, yüngül tutsan yaxılmaz. (yaşamın keçim, qazanc təmənin köklə (bəslə, tə'min ed), soruların, gedişatın çox ağır, ciddi tutmayıb yandırma, zay eləmə, zəhrmar eləmə).

ağır yaşam kişini filosof edər. (başına gələn başmaqçı olar).

ağır yük barha batar. (**barha**: barır. gəlir. bir gün).

ağır yük, yolu uzadar.

ağırbaşın ağrımaz başı**!**. (**ağırbaşın**: mətin olanın).

ağırın davran ərisin dağlar. (**ağırın**. dərin. mətin).

ağırın düşün yapınma acraş. (**ağırın**. dərin. mətin). (**acraş:** tələsik).

ağırın üstündən, yüngülün dibindən keç.

ağırlıq edsə qatı, çökər damı. (**qat**: dam). (**damı**: evi).

ağırlıq qızıl qala, yüngüllük başa bəla.

ağısız dərman, ağrısız ilac olmaz. (hər nəyin öz çətinliyi var).

ağıtla umut bir yola gedməz. (**ağıtla**: yə'slə. üzgünlüklə).

ağız aç gülə, uğur gülə. (aç ağız gülə, uğur gülə). (ağzın xeyrə aç) (ağzın uğra aç).

ağız açdın daşatma, baş itirib daş atma. (**ağız açdın daşatma**: ağzıva gələni danışma).

ağız açdın ölçü bil, iş yapındın ülgü bil.

ağız açıb gəpirməz, kim olduğu bəlirməz.

ağız açma söğgüyə, qavqa dönsün sevgiyə.

ağız ağıza verilmiş, diş dişə verilməz. (olamaz, görünməmiş iş). (ət ətə dəğər, sümük sümükdən qaçar).

ağız ağızdan yel alar.

ağız ağızdan yel alar. (**yel alar**: güc alar). (ağız ağıza güc verər).

ağız ala itlərdə, börü görcək birləşər. (**ağzala**: ağız ala).

ağız alalıq pozar dağıdar, pozar yoxadar. (**ağız alalıq**: birgəşməzlik. qeyri müttəhidlik).

ağız bəzəyi sözdür, üz bəzəyi, gözdür.

ağız bir, qulağ iki, söz bir, eşit iki.

ağız birlik ağır basdı, ağzaralar dağıb çaşdı. (**dağıb çaşdı**: dağılıb yozuldular). (**dağıb çaşdı**: dağılıb yozuldular).

ağız burnun tutmuş göz qulağın açmış.

ağız çoxu aşa qolay, əlin çoxu işə.

ağız dadın bal olsa, alışdınsa yad olar.

ağız deyər baş ağrıyar. (dil ağrısın baş çəkər).

ağız deyər qulaq duyar, iş olmasa , sevgi yalan söz qalar.

ağız deyər, qulaq duyar, göz görər.

ağız deyər, qulaq duyar, könül dinər. (ağız deyər, qulaq duyar, ürək bulanar).

{sözlə sözün, duyan qulağın alan ürəyin çox dərki var. (çox fərqi var)}.

ağız deyir, sol göz görür, sağ göz qıyır.

ağız dolduran, qoltuq şişirən, beyin pukaldan sözlərdən uzaq ol!.

ağız doyar qarın yox.

ağız qapıq, gözün açıq.

ağız qulaqdan söz alır. (ağız dinlənən sözü təkərlər).

ağız püflər od yanar, ağız ki yox.

ağız verən aş verməz.

ağız yağlanar, mala baxsan, könül dincələr, pul qazansan.

ağız yandıran aşı, qaşıq tanıyar.

ağız yeməz, üz utmaz. (ağız yeməsə üz utanmaz). (ağız, yemək yaluq yılıqda (insan heyvanda) əş gəlir, bir dəğər bəslir. kişioğlu ağzın, yeməyinin önün alanmasa, sonucun toplar).

ağız yeyər, göz utanar.

ağız yeyər, göz uyazar (utanar).

ağız yeyər, qarın çəkməz bulğanar. (hər iş iki başlıdır).

ağızala el olmaz. (**ağızala**: bir ağız olmayan).

ağızbir götürsən, ağır olmaz. (**ağızbir**: biləkdə. ittihadla).

ağızbirə tanrı vər. (ağzı bir olana tanrı verir).

ağızbirlər göyüzdəkin qapçırar, ağzalalar əlindəkin qaçqırar. (**qaçqırar**: uçurar).

ağızbirlik güc yasar. (**yasar**: qurar).

ağızbirlik, güclülük.

ağızda dilin olsun, əlində yaraq.

ağızda yerləşən dildir, acı süycünü bildirir. (**süycünü**: dadlını. şirini).

ağızdan bir, qulaqdan iki, söz bir, eşitmək iki.

ağızdan çıxan başa qada, ağızdan girən içə qada. (ağızdan çıxan baş qadası, ağızdan girən iç qadası).

ağızdan çıxan söz, topunan belə tutammazsan. (ağızdan çıxan söz, yanılmaz (qayıtmaz).

ağızdan çıxan söz, yanılmaz (qayıtmaz).

ağızdan ön qulaq aç.

ağızdan, burun yaxın, qardaşdan, qarın yaxın.

ağızıın olsa tanrı yetgər hər yerdə. (**ağızıın**: qismətin).

ağızın qapa, gözün aç.

ağızla gəmir, dilinlə gəpir, qulaqla səmir. (**səmir**: bəslən).

ağızla pilav pişməz, yağla düğü olmayınca.

ağla batan yumşaq sözlər, nə yorar nə üzər.

ağla qara ilədi evrən qılışı, böylədir ta ki durur evrənimiz. (**qılışı**: işi. əməli. kirdari). (**ağla qara**: yaxcı pis yaxa yaxmaz. yax yamaz).

ağladınsa iş yaşdı, başladınsa iş başdı. (**başladınsa**: işə geçdinsə).

ağlağan göz kor qalır, açıqsa göz pay alır.

ağlama gülüm qoy düşmanın ağlasun, alalvan geyin, yağun qara bağlasun. (**yağun**: düşmanın).

ağlamağa döşəkli yer salınmış, çalış gülmək üçün yaşamında yer axdar.

ağlamağı sevənlər, gülməkliyi sevənməz.

ağlamağın yüz nədəni yaşamda, çalışda tap yüzbirini gülməyə.

ağlamaq, anlamağa yol açmır.

ağlamaqdan iş bitməz, salıb çıxsan iş kitməz. (**kitməz**. düğünlənməz). (düşünüb qılınsan iş düğün düşməz).

ağlamaqla gülmək, yoldaşdılar.

ağlamam, toplayaram yaşlarımı, toxlataram damarıma, qan edərəm. (**toxlataram:** doldoraram).

ağlamaz bala süt yeməz.

ağlamaz bala, məməsiz qala.

ağlamıyan uşağa, laylay deməzlər.

ağlar gözdən yaş kəməlməz, gülər dodaqdan gülüş. (qəm qəmi gəttirir, dəm dəmi).

ağlar gözdən, saxta sözdən, özünü gözlə.

ağlar gözə, dadlı sözə inanma, düz qılığa, doğru özə işənqıl. (**işənqıl**: inanda).

ağlaram ağlar kimi, toğluyam toğlar kimi, soğur urdu töküldüm, urğana bağlar kimi. (**toğluyam**: dağlıyam. dərdliyəm) (**toğlar:** dağlar**)**. (**soğur**: xəzan. (savır. üzün: üyzün < üzmək) (**urğana**: vırğana. xaraba).

ağlasan yağmurda ağla, əssən küləkdə.

ağlaya - ağlaya quyu qaz, gülə - gülə suyun iç. (ağlaya ağlaya arx qazsan, gülə gülə su içərsən).

ağlayacaqsan, sağlığımda ağla sən.

ağlayan var ölü üçün, ağlayanda var diri üçün.

ağlayıb inləmə, oxşusan içli kamana, dəğiş havan, silkə yuvan, bu evrəndə duran deyil. (dünya belə qalmaz).

ağlı qısanın, dili uzun olar.

ağlı qıssada, dil uzun.

ağlı olan ərinməz, güclü olan sürünməz.

ağlın azlığı, ağır yükdür.

ağlın ilə gör, ürəklə eşit.

ağlın yüngüllüyündən, ayağa ağırlıq düşər.

ağlıva bir ağıl qat, düşmanı gözdən qoyma.

ağlıva gəlməyənin, önündən keçmə.

ağllı kişi, saqqallı keçiyə inanmaz.

ağnasa dağ, dərələr boş qalmaz. (dağ yıxılmasa dərə dolmaz). (olan versə, acıq ac qalmaz). (**acıq**: möhtac. ac olan).

ağrı dilən töksün başdan sanasız, bir sevinci iğnə ilə arasan.

ağrı əkən ağrı biçər, əğri tutan, əğri tikər.

ağrı gircək, bütün dadlar yad olur, könül bulsan, bütün dərdlər dad olur. (**könül bulmaq**: huzur bulmaq. sevmək. dinolmaq).

ağrı varsa ölüm deyil, ölüm varsa ağrı deyil. (ağrı başqa ölüm başqa). (hər ölüm ağrılı, hər ağrı ölümlü olmaz). (incəlik konuları ayırmaqdadır).

ağrıdı ürək darıxdı könül, duydu genə ayrılıq sözün, olcağıydısa ayrılıq ölüm, açmayaydı kaş evrənə gözüm.

ağrıq atlana atlana gələr, sallana sallana çıxar. (ağrıq atlı girər, yayaq çıxar). (**yayaq**: piyada).

ağrıq atlı girər, yayaq çıxar. (**yayaq**: piyada). (ağrıq atlana atlana gələr, sallana sallana çıxar).

ağrıq yamanın sağ bilməz, aclıq yamanın tox bilməz.

ağrıqlı baş yastığında yatanmaz. (başa gələn qada bala soxulduğun durumdandır).

ağrılar birlə çalışda, ölüm ilə barışma!.

ağrılar var çəkilirdə qaçınılmaz!..

ağrımasa, göz yaşmaz, şeh olmasa, pas basmaz. (yaşmaz: yaşarmaz).

ağrımaz baş saqqız götürməz.

ağrımaz başa salma saqqızı, düşünlmədən açma ağızı.

ağrını ağını, ağı qoyur (toxdadır).

ağrını danmaqla yok, çəkib çözməklə gidər.

ağrısı var sınağın, gülmək olmaz sınanda.

ağrısın deməz qulunc olar, deyər gülünc olar. (**qulunc**: sancı).

ağrısız baş, qəbirdə olur.

ağrıtmazki saç başı (saçdan başa yük olmaz). (saçın başa yükü yox).

ağrıyan ölmədi, havlığan öldü. (**havlığan**: tələsən).

ağrıyı kölgələyən, özü ağrıya dönür. (siqar. tüstü).

ağruda sancı yaman, sözdə qanğı yaman. (qanğı: sinsi kinayə. istehzalı ima. təlmih). (xəstəlikta sancı kötü, qonuşmada sinsi, təlmih kötüdır).

ağruda sancı yaman, sözdə qanğı yaman. (qanğı: sinsi kinayə. istehzalı ima. təlmih).(xəstəlikta sancı kötü, qonuşmada sinsi, təlmih kötüdır).

ağsa qızıl bayraq, doğar qara topraq. (**qızıl bayraq**: günəş).

ağsa yoxsul, düşman belə dosd olur, düşənlərdən, ən yoxunlar yox olur.

(**ağsa**: yüksəlsə).

ağsa yoxsul, düşman belə dosd olur, düşənlərdən, ən yoxunlar yox olur.

(**ağsa**: yüksəlsə).

ağsaqqalda baş olsa, keçi başa keçənməz.

ağsoyluq (nəciblik) qanda yox, ürəkdədir, başdadır.

ağu olsun ana sütü kimsəyə, anadilin daşlayıbda yad saya.

ağu olsun ana sütü kimsəyə, anadilin daşlayıbda yad saya.

ağudan acı, qılıcdan ötgür, balcadan dadlı, könülə hopar. (**balcadan**: beçə baldan). **(ötgür:** iti. kəsgin). (**dil**. **söz)**.

ağulda oğlaq doğsa, otlağda otu biter.

ağulu aşım, altun tasım batası. (zəqqum aşım olmasın, qızıl kasam olmasın).

ağuz açıb duşunmə, ilkin düşün, aç ağuz.

ağuzsan çox ayaq çalmaq gərək. (ağuzdu çox ayaq çalsın gərək). (pişməyə uzun yol var). (**ağuzsan**. naşısan. xamsan. əcəmisin).

ağza baxıb, tikə kəs.

ağza sal duyqların dillənsin!. (**dillənsin**: səslənsin).

ağza sığmayan, qarna sığmaz.

ağza yüyən, ağza gələn samranmaz. (**yüyən**: yular. cilov). (**samranmaz:** söylənməz).

ağzı açığın malını, gözü açık yeyər.

ağzı açıq ac qalmaz.

ağzı açıq ac ölməz. (acında ölməz).

ağzı açıq tikəsin qapar, təndiri sıcaq, çörəyin yapar.

ağzı bağlı itinən, avdan gələr nəyinən.

ağzı bağlı itinən, avdan gələr nəyinən. (ağzın bağlayıb, gözün dağlayıb).

ağzı birin gücü artar, köpçül sözü dağı yartar. (**köpçül**. çoxluq).

ağzı bol aşa, gəpə, əli bol işə yaxşı. (**gəpə**: söyləşə).

ağzı büzük bəy olsa, doğru çıxar söz ondan.

ağzı dadlı, gözü qapaqlı, başı papaqlı.

ağzı dişsiz, diş ağrısın it qapanda bilər.

ağzı dişsiz, əli dırnaqsız börü olamaz.

ağzı əğri, dili düz. (**dili**: sözü).

ağzı gülüb, könlü pozuq ərlərə, yoldaş olub yaxın durma ıraq eylə özünğü. (**özünğü: özünü)**.

ağzı küygən, savuq suyu püfleb içər. (**küygən**: yanan).

ağzı qarnından yekə ac qalar.

ağzı qarnından yekə ac qalar.

ağzı qışıq bolsada, bəyin oğlu gəpləsin. (**qışıq**: **qıyşıq**. **qayşıq**. əğri).

ağzı pişib süytdə, üfləp içər suyudə.

ağzı sözdən boşalmaz, sözü sözə oxşamaz.

ağzı uğra aç. (verən əllər boş qalmaz). (bolluq dilə, bol olsun, korluq dilə, kor olsun).

ağzı uğra aç. (verən əllər boş qalmaz). (bolluq dilə, bol olsun, korluq dilə, kor olsun).

ağzı ütük aş bitirir, əli ütük iş.

ağzı varsa dili yox, ölü yaratıq diri yox.

ağzı yağlanan, dili bağlanan.

ağzı yağlı, dili bağlı.

ağzı yağlı, dili bağlı. (ağzı yağlanan, dili bağlanan).

ağzı yanan, püflər içər.

ağzı yarın aşa yatğın, əli yarın işə yatğın. (**yarın**: yarqın. yaraqlı).

ağzı yoxdu dişi var, başımızda işi var. (tapmaca) (**daraq**).

ağzıdan qaşığa çox yol var.

ağzın aç, "dişi" olsa qaç.

ağzın açan tutuldu, başı olan qurtuldu.

ağzın açıb söyləyən, istənməzi dinləyər, dadlı denən dad gəlsin, acı demə yad gəlsin.

ağzın açıq yaşamda gərək, düşsə payın qapasan. (**qapasan**: yığasan. tutasan).

ağzın bir olsada, qarnın iki tut.

ağzın deyəni, qulağın eşidər.

ağzın dolu qan olsa, düşman gülər, tüpürmə.

ağzın əğridə olsa, düz danış.

ağzın sözün, başın börkün, ayağqabın bulmalı. (**bulmalı**: **bilməli**. tanımalı). (götüvün qabın, ağzıvın sözün tanı).

ağzına gələni samrap yürmə. (**samramaq**: sayqarmaq. sadalamaq).

ağzına hoy ver, əlinə bel ver.

ağzına qoysan belə gətirməzin, tüpürüb qoyar ac, qarnın. (**belə**: hətta). (**gətirməzin**: şansısızın. qarabaxdın).

ağzında bal dadlı dilin! gedmədən ön dənğə bilin. (**dənğə bilin**: qiymət verə bilin).

ağzında bircə dişi yox, yaşamda görcək işi yox.

ağzında bircə dişi yox, yaşamda görcək işi yox.

ağzında dadı yox, başı umut yeliylə əsir. (qurusuyla umut olmaz, umut ilə qarın dolmaz).

ağzında dili yox baş, kəsilməli.

ağzında əmzik tutanmır, mənə çörək yemək öğrədir.

ağzında quş danışma, özgə işə qarışma. (**quş**: yem).

ağzındaki doğma dilin danırsa, özgə poxun istəyilə yalırsa, nəyivə yarar belə biri.

ağzındakı doğma dilin kəsib at, özgə dilə ağız qatıb olub tat.

ağzındaki sözün bil, başındaki börkün bil, ayağdaki qabın bil. (**bil: bul**. tanı).

ağzındaki sözün bil, başındaki börkün bil, ayağdaki qabın bil. (**bil: bul**. tanı).

ağzından çıxan söz, səndə qanac sərgəni. (**qanac**: dərk gücü. qanma, dərk gücü. şuur). (**sərgəni**: vitrini).

ağzından çıxan yaxavı tutsun. (qarqışın özüvü tutsun).

ağzından çıxan yaxavı tutsun. (qarqışın özüvü tutsun).

ağzındaykən sənindi, çıxdı isə özgənin. (söz).

ağzıva bax kəs tikə, ağzı kiçik, yekə tikə.

ağzıva bax tikə kəs, yağdaya bax yürə kəs. (**yağdaya**: duruma) (**yürə**: tədbir).

ağzıva çatmır, dişi suçlama.

ağzız dadlı çayız şirin olsun.

ağzun açmadan, gözün aç.

ahda yerin bulur, hakda, sən iyi düşün, o olur.

axacaq qan, damarda durmaz. (olan olacaq).

axan arx, axmadan, durmaz.

axan su yolun tapar.

axan su yolun tapar.

axan su yolun tapar.

axan su, arxa dönməz.

axan suda, kir qalmaz.

axan suya dayanma, hər deyənə inanma.

axan tərlə, sızan qanla ıslaq topraq qurumaz.

axan, arxa gedər!.

axar axarda gedər, barıb oluna yetər. (**oluna**: olacağına).

axar çaylar qurudu, kəsən çayı, əlin qurusun.

axar su, yerin tapar.

axar sular dənizə batar, yaşam keçər ölümə çatar.

axar sular durar olsa ısqanar. (**ısqanar**: iylənər).

axar sular keçiksiz, duran nərsə ölümsüz olmaz.

axar suya gedirsə, axar sular quruyar, əğilirsə su içə, qaynar bulaq quruyar. (**kütaçuğ**. şansısız). (əğilmişsə içə su, qaynar bulaq qurudu).

axar suyun yolağun tapar, gedən yolçu barcağa çatar. **(barcağa:** amaca. məqsədə. mənzilə).

axdar tap, yoğur yap. (**yoğur**: əllə. çapış. çalbış. uğraş. sə'y ed. himmət ed. cəhd ed).

axdaran çox tapan yox, mutluluğa tək haçar , düşünməklə anlamaqla düşünməklə.

axdaran çox tapan yox, mutluluğa tək haçar, düşünməklə anlamaqla düşünməklə.

axdaran tapabilimiş olur, qaçan qurtulabilmiş olur, çabasız oturan aldanır kəsin.

axdaran tapar, qayrağan yapar. (**qayrağan**: güclənən: qeyrətə gələn).

axdaran tapar, yoğuran yapar.

axdaranda tapılmaz, gərəkməzsə (boş yerdə) guruldar.

axdarışdır düşünmək, gerçək olan mutluluq.

axdarışdır düşünmək, gerçək olan mutluluq.

axdarma sən göyçəyini yaşamda, axdar birin gözəlliklər gətirsin.

axıc, için bildirir. (süzəyin gördün, için bil).

axıc, için bildirir. (süzəyin gördün, için bil).

axırda yatanla saman satan qardaşdır.

axırda yatanla, saman satan qardaşdır.

axırda, atda olur, eşşəkdə.

axmağ baş, ayağa daş.

axmağ bir söz deyər, ağıllar inanar.

axmağ elçidən umma.

axmağa qarşı susunmaq yeğ durur, kar qulaq qanday olurki dinləsin.

(**qanday**: necə).

axmağa yaxınlaşan, ağıllı olmalı, yamana yaxınlaşan, yaxşı olmalı.

axmağın ağası olunca, ağıllının, nökəri ol.

axmağın atı, noxdasıyla sürünür.

axmağın duyğusu, yeltağın yuxusu bitməz. (**yeltağın**: yalqavın. təmbəlin).

axmağla aş işməkdən, ağıllıya daş daşı (ağıllıynan daş daşı).

axmax bir söz deyər ağıllar inanar.

axmaxla aş işməkdən, ağıllıya daş daşı. (ağıllıya daş daşı, axmaqıla, yemə aşı).

axmaq belə susunca bilgə kişi görünmüş.

axmaq dindi, bilgin (ağıllı) susdu.

axmaq dosdan, ağıllı düşman yeğ. (yaxcıdır).

axmaq elçi, dilənçi doğar.

axmaq elçi, qonçu ellər pozar.

axmaq kişi arvadıından pul güdər.

axmaq olan döşək salar eşşəyə. (axmaq olan döşək salar köşşəyə).

axmaq özünə əş tapmaz, təmbəl iş.

axmaq susanda, ağıllı görünər.

axmaqla söz sözə gələn, ağıllı birinci susar.

axmaqlar belə düşünürlərki heç kim özünə axmaq deməz.

axmaqlar böyük olduqca, sözləri güclü keçir.

axmaqlar hər nə yapabilirlər.

axmaqlar olmasaydı, bilginlərə (ağıllılara) baxmazdılar.

axmaqları, saymaqla qurtulmaz.

axmaqların kölgəsi böyüdükcə, günəş batmağa yürür.

axsa bulaq qapından, suya dəğər bilinməz.

axsa sular, əssə yellər çevirgələr dərmanım.

axsa sular, əssə yellər çevirgələr dərmanım.

axsağ, yügürgən olur.

axsağı dayaq saxlar.

axsağı dayaq saxlar.

axsağın əlindən alsan ağcın, yaman dərdə düşər tapmaz əlacın..

(məxtuqulu**)**.

axsağsız sürü, tapılmaz. (sürü axsaqsız olmaz).

axsaq ayaq qızıl geyik qaçanmaz, qaçırsada qayavçudan qurtulmaz.

(**qayavçudan**: naməd ovçudan).

axsaq eşşəyin, kor taxcısı (nalbəndi) olar.

axsaq eşşəyin, kor taxcısı olar. **(taxçısı**: nalbədçisi).

axsaq yalan toxsaq doğurdan gur qaçar. (**qaçar**: yayılar).

axsaq yügürgən ölür.

axsaqlığın bilənlər, yanılmadan qorxmazlar. (**axsaqlığın**: kəndi zəf nuqtəsin).

axsın gözdən qanlı yaş, yağsın göydən qara daş.(**qarqış**).

axşam bazarı, dana yümdür.

axşam döz, yarın göz (gör). (axşam dün, səhər gör).

axşam qon, ertin köç. (**qon: qonğ**).

axşam qonğ ertin köç.

axşam olar gün qalmaz, olan ölər can qalmaz, olanından verənlər,

qalanına heç yanmaz.

axşam olar gün qalmaz, olan ölər can qalmaz, olanından verənlər, qalanına heç yanmaz.

axşam örtəni, dan bilir (bəlirir).

axşam örtəni, dan bilir (bəlirir). (axşamın sırrın, dan bilir).

axşamın sırrın, dan bilir.

axşamın uğrundan, ertirin oğru yeğ. (**uğrundan**: xeyrindən). (**ertirin**: sabahın). (**oğru**: şərri).

axşamın uğrundansa, ertirin ağru yeğ. (**uğrundansar**: xeyrindənsə). (**ertirin**: səhərin). (**ağru**: şərri).

axşamlığın tapan, ertirliyin qayğırmaz. (**ertirliyin**: sbahlığın. səhərliyin) (köçəbə yaşam).

axtar, axtaranıvı!.

axtaran tapar, yoğuran yapar.

axtaranda tapılmaz, gərəkməzsə (boş yerdə) guruldar.

al əlivə yarağı, tanrı verər yararı (yardımı).

al geyən, alınır oğul.

al geyən, alınır.

al gilas üstünə qar yağar. (bəklənilməz olaylar).

al gömlek gizlenmez. (olağan veya yasa dışı olaraq yapılan bir işi gizləmək imkansızdır. mutlaqa bir şekilde duyulur yada görülür).

al gördün, qan demə. (işin için bil danış).

al gül ağ gül qırmızı, törür barı yerdə yatan topraqdan. (törür barı qara üzlü topraqdan). (**barı**: hamısı).

al gül ağ gül qırmızı, törür barı yerdə yatan topraqdan. (törür barı qara üzlü topraqdan). (**barı**: hamısı).

al gülüm, ver gülüm.

al ilə arslan tutular. (**al**: kələk).

al ilə aslan tutulur, zor ilə köçən tutulmaz.

al köynəkli gizlənəməz.

al utanma, ver qorxma.

al ver deyiblər, al ye yox.

al ver deyiblər, al ye yox.

al verdiyin çiçəkləri geri sən, hər çiçək bir tikən olub batır içimə.

al! malın iyisini, çəkmə qayğısını.

ala gəldi az sayma, verə geddi çox sayma. {gedəni daşla, gələni haxla (qalanı saxla)}.

ala it çaqqalın dayısıdır.

ala qarğa suya düşsədə, qaz olmaz.

ala qarqada haqqım olsun, alammasam, gözüm oysun.

alacağ ilə, borc (verəcək) ödənməz. (alacağına güvənərək borc alan, sıxıntıya düşər).

alacağa göz tikmiş, əlindəkin vermiş.

alacaq biri, könlümdə yerin, gedəcəksin çək gid, gözümdən itin.

alacaq birin, içdəki yerin. (**birin**: birisi).

alacaqla ev yığılımaz, alacaqla boğaz tıxılmaz.

alaçiy ət qarın pozar, alaçal söz, dosluğu. (**alaçal**: ala yarımçıq).

alağız itlər birikər, qənşər çıxanda qurda. (**qənşər**: üzbəüz). (**alağız:** səsbir olmayan. xtilaflı).

alağuz itlər qurd görüncə ağuz bir. (**alağuz**: birgəşməyən. çəlişli. ixtilaflı).

alan alıb varlanıb, satan satıb aldanıb.

alan asğın, verən salqın. (**salqın**: ağır). (alanın dili qısa, verəninki uzun).

alan çoxsa satan yox, mal tutarı köpərmiş, satan çoxsa alan yox, mal tutarı kəmərmiş.

alan əl asğın, verən əl üstün. (**asğın**: tabe'. alçaq).

alan əl asğın, verən əl üstün. (**asğın**: tabe'. alçaq).

alan əllər aldıqların bilirlər, verən əldə verdiklərin bilməli. (hər işivi çək ilə, görən desin ha böylə). (**çək**: həd).

alan gətirir, satan itirir.

alan ölür, satan köçür, eykiliklər yarqanır, kötülüklər qarqanır, kimsəyə kəmdən kandan qalmayır. (**kəmdən kandan**: azdan çoxdan).

alan satandan umar.

alan satandan umsa, satan alana cumar (kələk gələr).

alan satandan, satan alandan umar.

alan uçdu, qalan cumdü. (**uçdu**: qurtuldu).

alan verən evrən, duranları devirən.

alana altı az gəlir, verənə beşdə çox gəlir.

alana altısı az, verənə beşi çox. (alcıya altı azdı, vericiyə beşdə çox).

alanda hopur, verəndə qopur.

alanda qızsanır, satanda qırcanır.

alanın gözü göz olsa, satanın götündə (uzundə) qalmaz.

alanın gözü olsa, satan acından ölər.

alanın gözü satanın əlində olar.

alanıva bəğinmə, berənivə qınanma. (qazandığıva çox sevinmə, verdiyivə çox acınma, yaşam ilərdədir) (qazandığıva çox şişinmə, verdiyimə heç yanma).

alası olsa içində, göz yahalar seçimdə.

alat işin sonu onat olmaz.

alavanla qıyıda sən oynarsan, suda o sən ilə. (**alavan**: nək. nak).

alba alba iş olmaz, dama dama göl olmaz. (**albac**. **albas:** (albadal). basınc. güc. zor. fişar. təzyiq).

alcağın olsada, vercəğın qalmasın.

alcağını bilməcək, itirdiyin bilənoq. (**bilməcək**: bilənməyən). (**bilənoq**: bilənməz).

alcağlardan baş alan dursun, ulcağlardan daş alan. (**dursun: gəlsin**: yaşasın).

alcıya altı azdı, vericiyə beşdə çox. alana altısı az, verənə beşi çox.

alçağa dartan hər nə vardan ayrılmadan, uçuş oyun, qalxış duyun at başdan.

alçağı ayaxdan yıx, böyügü başdan.

alçağı sel alar, yüksəyi yel alır.

alçağın biri, kölgəsi burut. (**burut**: mundar). (yaman).

alçak xalqın ağısı böyük olur.

alçaq aşa, kişi işə gəlir. (**alçaq**: yerik). (yerik aşa, yeğik işə gəlir). (yeriki aşda, yeğiki işdə gör).

alçaq baxar döğünər, doslar görər sevinər!.

alçaq eşşək, minməyə qolay, öksüz cocuq, dövməyə.

alçaq eşşəyi, yükləməyə navar ki.

alçaq görməz ucalmaz,endirilmədən ər olmaz, duzlu sudan buz olmaz.

alçaq görüb daşlanma, yüksək görüb, alçalma.

alçaq kişi verirsə söz tutanmaz. qırar ilqar, dönər üzün utanmaz. (**ilqar**: əhd).

alçaq kişilərin böyük kölgəsi olan yerdən qaçın, orda gün batışda donub, gün verməz. (alçaq: kiçik). (**gün**: keçinəcək. keçirin. güzəran).

alçaq könül sevgini gizli tut, umsulğu unut. (**umsulğu: umsulluğu**: acgözlügü).

alçaq könül uca başı qoruyar.

alçaq kötü dağ başına çıxmaqilə ucalmaz.

alçaq qapıdan engəşib öt. (**engəşib: yengəşib**: əğilib).

alçaq oldun aldatdın, axmaq oldun aldandın. (alçaq sayar aldatsan, axmaq görür aldansan). (aldatırsan alçaqsan, aldanırsan axmaqsan).

alçaq sayar aldatsan, axmaq görür aldansan. (aldatırsan alçaqsan, aldanırsan axmaqsan). (alçaq oldun aldatdın, axmaq oldun aldandın).

alçaq selin, yüksək yelin.

alçaq uçan uca qonar, uca uçan alçaq.

alçaq ulçağa borc vermiş köprü üsdə istəmiş. (namət mərdə borc vermiş köprü üsdə istəmiş).

alçaq ulçağı köprü üsdə yaxalar. (mət namət köprü üsdə yaxalar).

alçaq yer, iyidi xor göstərir. (kötü çevrədə, kişilik alçalır).

alçaq yerdə yatma, sel alar, uca yerdə yatma, yel alar.

alçaq yerdə, təpəcik kəndini, dağ sanır. (alçaq yerdə, təpəcik özün dağ sanır).

alçaq yerdə, təpəcik özün dağ sanır.

alçaqda yatsan sel alar, ucada yatsan yel alar. (alçaq yerdə yatma, sel alar, uca yerdə yatma, yel alar). (alçağı sel alar, yüksəyi yel alır).

alçaqdan (soysuzdan) bəfa gəlməz, qəhbədən ar (namus).

alçaqdan uçan ucaya qonar, ucadan qonan, alçağa.

alçaqlala tutuşma, nərsəsi yox itirsin.

alçaqlar ucalanda, ucalar alçalır, ayaq tutsa alçaqlar, ayaqdan düşər ucalar.

alçaqlara vermə aşın, bəklətməzin verər daşın.

alçaqlardan yapışma, qalxmaq könlündə varsa. (**alçaqlardan**: əclaflardan).

alçaqlardan yapışsan, ucalmağa boy verməz. (**alçaqlardan**: şərəfsizlərdən) (**boy verməz**: imkan verməz).

alçaqların yasal dini kitozluq (**yasal**: rəsmi). (**kitozluq**: ikiüzlük).

alçaqlıqlar kötüsü, ən yovuqdan gələsi.

alçaquca qaraçı sözü, "yalan demə, düzündə demə". (**alçaquca**: böyük əsgik kişi. böyüklük tasası olub, kötü diləkli olan). (**qaraçı**: ləkə yapan. araqarışdıran. ara vuran).

alçalanlar basılır, yüksələnlər asılır.

alda keçdin bij olursn, arda qaldın gij.

alda qara, yalan qara qaradan, yalançının yox qorxusu qaradan. (**alda**: xəta. iştibah. səhv). (**qara**: pis). (yamanlar yamanı, kötülər kötüsü yalandır, yalançıya pislik nədir manlıq nədir alınmaz) **(alınmaz**: sanılmaz).

alda özün, dalda pulun olsun. (**alda**: qabaqda. birinci). (yaşamda özün, kimliyin birinci keçir, bırak (ama) ardında pulunun olsun).

alda yürü dağlar aş, başqa yeri görməsən qoyulduğun çuxurdan. (doğulduğun çuxurdan). (**alda**: irəli).

aldadan, almadan inanmaz.

aldadan, almadan inanmaz. (toğlayan, torbalamadan, inanmaz). (bu söz, kişini rialisligə çağırır). kişi aldıya (nəğdə) inanmalıdır, yox aldana (nisyiyə). {aldı: (alınmış). enik (< enmək). movcud. nəğd. (-enik olsa para, əl atıb tutmağa nə var)}. {aldan: (alınan nərsənin alda, qabaqda, irəldə verilən parası). nisyə}.

aldadırsan birin, sanma abdalından, güvənmiş biridir o lap artığınıdan (**artığınıdan**: gərəkdiyindən). (sənə aldanan birini axmaq sayma, o çəkdən, həddən artıq sənə inanıb, güvənib).

aldan ala düşərmiş, uyan yada dosda, doğan olub yoldaşa.

aldanıldığın düşünən yanmış, üzülmüş, hayıfsınmış.

aldanırsın dününə, qalırsın qara gününə, gəlcəyini güdənlər, heç dönərmiş dününə. oxun atmış yayın gizmiş, dəmin almış qəmin vermiş bu evrən. (yalan dünya).

aldanma aldışalara, isti qalmaz qışalara. (**aldışlara**: adətlərə**)**.

aldanmaqıl sözünə, yoxla işin hər kəsin, iç üzünü istəsən.

aldatan ağladarmış bir gün!.

aldatan varsa demək aldatılan var.

aldatanı qınama, aldatıldın qınanqıl. (aldatanı təpikləmə, aldatıldınsa kəndini təpiklə).

aldatırsan alçaqsan, aldanırsan axmaqsan. (alçaq sayar aldatsan, axmaq görür aldansan). (alçaq oldun aldatdın, axmaq oldun aldandın).

aldatma kəndi kəndivi, yalanda yaşanar, yalanlada.

aldatmasan aldanarsan. aldatılmadan, aldat!, al, dad!.

aldı verməz, dad bir deməz, ölüm itin dünyadır.

aldığın verməyən, axdardığın tapmaz.

aldın ast, geyin üst. (ilk alt, son üst). (**aldın:** ilkin). (**geyin**. sonra. sohra).

aldın düşün yoldaşın, geyin qoyun yol daşın. (**aldın**: ilkin. əvvəl). (**yol daşın qoyunmaq**: yola çıxmaq. : yola çıxmağa başlamaq). (çalış köməksiz qalma).

aldın düşün yoldaşın, geyin qoyun yol daşın. (**aldın**: ilkin. əvvəl). (**yol daşın qoyunmaq**: yola çıxmaq. : yola çıxmağa başlamaq). (çalış köməksiz qalma).

aldın gedən yol alır. (**aldın gedən**: irəli gedən).

aldın odun savurma külün.

aldın oylan, ardın aytan. (ilkin düşün, geyin söylən).

aldın yemək, sonun demək. (**aldın**: ilkin. əvvəl). (ilkin yaşantıvı qur, çörəyin qazan, sonra sözü becərt).

aldınsa bəğin, verdinsə bəğin, qınaş qoy yada qalsın, payın alsın. (**bəğin**: seviş) (**qınaş**: korluq).

aldınsa qul olma, verdinsə qul edmə.

aldış alıq aldadır. (**alqı**: şuur. biliklik. aqahlıq). **(**aldış bilik aldadır**)**. (**aldış**: adət). (adət ağlı aldadır). (adət gücü, alqı gücün yenər, üstələr).

aldış atışı, qınasız olmaz, toyla düğün zırnasız. (**aldış**: alışqanlıq. adət). (**qınasız**: zəhmətsiz. çorsuz, korluqsuz).

aldış bilik aldadır. (aldış alıq aldadır). (**alqı**: şuur. biliklik. aqahlıq). (**aldış**: adət). (adət ağlı aldadır). (adət gücü, alqı gücün yenər, üstələr).

aldış budur, boyun əğsən minərlər. (**aldış**: adət).

aldış budur, ensə boyun minən çox, dinməz dilə çörək yox, bir vurursa hən desən, ağzuvada qoyan çox. (qoyan\soxar).

aldış gücü bilincaltın güc basar. (**aldış**: adət). (adət şuuraltın üstələr, bilikləri (hikmətləri) kor yapar).

aldış hər nə ola, hər kim ola təpgiləyib etgilər. (**aldış**: adət).

aldış qılma çevrənə, duruq vermə devrənə. (**aldış**: adət). (**duruq**: subat. dəğişməzlik. qərar).

aldış qılma çevrənə, duruq vermə devrənə. (**aldış**: adət). (**duruq**: subat. dəğişməzlik. qərar).

aldış qoyan, qıncıqmasın neyləsin. (**aldış**: alışqanlıq. adət).

aldış olsa yalana, altar əri çalana. (adət edilirisə yalana, kişini oğru edər, kişini oğruluğa alçadar). (**aldış**: adət). (**altarmaq**: alçatmaq. alta endirmək. dəğişmək).

aldış tullayan, qınasın çəkər. (**aldış**: alışqanlıq. adət). (**qınasınsın**: cəzasın).

aldış tullayan, qınasın çəkər. (**aldış**: alışqanlıq. adət). (**qınasınsın**: cəzasın).

aldış varsa bilincaltın güc basar. (**aldış**: adət). (**bilincaltın**: şuur altını). (adət olan yerdə zehniyyət etgisiz qalmaz).

aldış, bilinc altından baş gəlir. (**aldış**: adət). (**baş gəlir**: güc gəlir). (**bilinc altından**: şuur altından).

aldış, ötgərir yaşam yolunu. (**ötgərir**: özgərir. dəğişir).

aldışa bax aldışa, qoyar əri hər işə. (**aldışa**: adətə). (aldışın gücü).

aldışa əsir, tüm qılıq kəsir. (nərsiyə öğrəncəklik, tüm karakteri etgilir).

aldışa tutul, hər nəyə utul. (**aldış**: alışqanlıq. adət). (kişi nərsiyə alışandan, öğrəşəndən son, başqaların dəğərləri dəğişər, düşər) (aldışlıq, alışqanlıqçox itgilər uyartır).

aldışa tutulan, qıyın dəğişər. (**aldış**: alışqanlıq. adət). (çətin dəğişər, atar. dəğişə bilməz).

aldışa yoxdur gərəkin itməyə, devrişməgə, dəğişməgə güc istir. (**aldışa**: adətə).

aldışa yoxdur gərəkin itməyə, devrişməgə, dəğişməgə güc istir. (**aldışa**: adətə).

aldışı ötür, yaxısın götür. (**aldış**: alışqanlıq. adət). (**yaxısın götür**: əzabın, mərəzin çək).

aldışın dəğiş, özgürlük qazan. (**aldışın**: aldışıvı).

aldışın dəğiş, ulduğa əriş. (**aldışın**: adətin**)**. (**ulduğa**: ösüşə. böyüklüyə). (kişi üçün alışqanlıqlar, adətlər ən bayağı dustaq qurur).

aldışın qoyan, sancısın çəkər. (**aldış**: alışqanlıq. adət).

aldışın tulladın, ağramın tuşla. (**aldış**: alışqanlıq. adət). (**ağramın tuşla**: əzabın rasla, qarşıla).

aldışın yenən, gücə güj gələr. (**aldışın**: adətin). (**güj: güc)**.

aldışlar bizlə doğur bizlə ölür. (1. aldışlar bizimlə doğur bizimlə ölür). (2. aldışlar biz ilə doğur biz ilə ölür). (**biz**: miz. yılxı sürmədə işlənən iti uclu kiçik arac) (**biz il**ə: güc ilə. zorla).

aldışların qarışar, onda başda şaşırar. (**aldış**: adət**)**. **(**adətlər kəndləri üçün gizli düzən yaradar).

aldışma dözümə, dözümlə çalış, dözüb yatan, yerə batmış. (**aldışma**: yahalma. alınma. qapılma).

aldışmırsın, özgür qalırsın. (**aldışmırsın**: öğrəşikli olmayırsansa).

aldrışın köpəlsə, qazaş ona neyləsin. (**aldrış**: xərc. məsrəf). (**köpəlsə**. çoxalsa).

alğa iyi irisin, dalğa kirlisin. (**alğa**: qabağa) (**dalğa**: dalıya).

alğası bəzək, dalğası təzək. (**alğası**: üzü. qabağı). (**dalğası**: dalısı).

alğısız, söz yaranmamış, dilsiz, söz dayanmamış. (**alğı**: duyum. idrak. şuur). (qanıclıq, düşünüş, şuur sözə qaynaqdır, dili qorunmayıb yazılmayıb, qısılan, darıtılan dağıtılan elin, sözləridə uzun sürə, sürməmiş. {dilivi qoru sözüvü yarat, yavuz düşmanın bağrın qarat. (**bağrın qarat**: umutsuz, mutsuz eylə)}.

alıb asğun oluncaq, verib ökdə ol. (**asğun:** bağlı, verəcəkli). (**ökdə:** üsdə. alacaqlı).

alıb asılı olmaqdansa, verib, asılı ol.

alıb asqın olunca, verib ökdə ol. (**ökdə**: usdə).

alıb vermək, görüş qaydası, gedib gəlmək, elçi qaydası.

alıb vermək, görüş qaydası, gedib gəlmək, elçi qaydası.

alıcı çok, satıcı az, aracı çok.

alıcı çok, satıcı az, aracı çok.

alıcı havada gərək, tutunmağı öz əlidə. (dolanıb avlamağı öz əlindədir).

alıcı havada gərək, tutunmağı öz əlində. (dolanıb avlamağı öz əlindədir) (alıcının ömrü az olar).

alıcı quşun ömrü az olur. (saldırqana, günlərin biridə saldırılır). (**alıcı**: yırtıcı).

alıcının ömrü az olar.

alığ başda ağıl yox. (**alığ** : vurqun. aşıq).

alığ başda ağıl yox. (**alığ**: vurqun. aşıq).

alım alınmış, verilməmiş. (**alım**: haqq. həqq).

alım birlə (ilə) borc ödənməz.

alim unutmuş, qələm unutmamış.

Alimden zalim, zalimden alim doğar. Allah takdir ederse alim aileden kan dökücü kişi, zalim aileden bilgin saygıdeğer insanlar doğabilir. (Bayram Özdemir).

alimin biliyindən, yalançının dilindən yapışarlar.

alimin biliyindən, yalançının dilindən yapışarlar. (alimin elmindən, yalançının dilindən yapışarlar).

alimin sözündən de, iyidin özündən.

alimin sözündən de, iyidin özündən.

alımlı arslan, berimli sıçan. (alan arslan, verən sıçan kimidi).

alın arslan tutar, gücün kösgük tutmaz. (**alın**: kələk). (**kösgük**: qorxuluq. oyuq)**.**

alın arslan tutar, gücün kösgük tutmaz. (**alın**: kələk). (**kösgük**: qorxuluq. oyuq)**.**

alın dartıb yağıya, düzlük yalnız dosluğa. (**alın dartıb**: qızqın olub).

alın daşa, usun başa, əlin işə, ağzın aşa.

alın yazısın, yazılar pozmur, cinlər yozmur, alın yazısı seçim qoludur, seçimlərin quludur.

alınan bilim yaşınmasın, yaşansın. (öğrəşdiyin bacarığı yaşıtma yaşat. (**yaşıtma**: gizlətmə).

alınanı yoxla, satılanı boşla.

alınca son kəsin canında ölüm, deyəcəm yaşasın yaşam, yox olsun ölüm.

alında yazılmış, əl ilə pozulmamış.

alınmaza, satılmaza çatarsan, kəndi özən güvənsən, var yoxundan olarsan, özgə izdən sürənsən.

alınmaza, satılmaza çatarsan, kəndi özən güvənsən, var yoxundan olarsan, özgə izdən sürənsən.

alınyazı yazılmamış səndən ön, etdiklərin yazdırır, çəkdiklərin qurar yazıvı.

alınyazısı deyə nərsə yox, başa gələn alna yazılır.

alış al dadını gündən günəki sən yaşısan, yarına qalsa kefin, dadğınıbən dadı qaçar. (**dadınıbən:** dadığıbən. yad, başqa dad tutaraq).

alış oğlu, verişdi.

alış səssiz girər, dinməz öldürər. (**alış**: adət). {adət bala bala özünə yer elər, sonucunda bildirmədən edigər (**edigər**: qılar. e'mal edər)}. (alşın kəndi alışın önəmsəməz, nə olduğun biləməz. yan yörədən deyilən sözlərə uyarlı olmalıyıq. (**alşın**: alışqan. mö'tad).

alış veriş dosluğa körpüdür.

alışan, aşılarda, aşınarda.

alışdığın dadlı bal, keçsə günü acıyar.

alışdığın içində dursun, dışda duran gedər bir gün.

alışıq (adət), varlığın ikinci özüdür.

alışqanlıq hər nəyə, çevrir özün ölçüyə. (**ölçüyə**: me'yara).

alışqanlıq köləsi, tam yaddışın kölgəsi. (**yaddışın**: özgənin).

alışmağa min qapı , bıraxmağa bir qapı.

alışmağın nədəni, içdə olan boşluqdur.

alışmağın nədəni, içdə olan boşluqdur.

alışmaq yer alanda, sarışmaq yerdən qalır. (**sarışmaq**: çin diləklə, ixlasla qulluqda olmaq).

alışmasa, daşlanmaz, od olmasa köz salmaz.

alışmısan seçim yox, başarmısan keçim (nəcat) yox.

alışmış qudurmuşdan, öğrəşən hürgəşəndən betər.

alqaçan su, dənizə çatmamış (çox oyan buyana qaçan su gor ba gor olar).

alqanda canım canım, bergəndə çıqdı canım.

alqı düşər yol üsdə, basqı doğar sənilə. (**alqı**: istənilməz nədənlə doğulan. istənilmədən verilən. şansı. təsadüfi). (**basqı**: istənilən nədənlə doğulan. istənilərək əldə edilən. iradi).

alqış alsan elindən, yüksək durar altından.

alqış alsan elindən, yüksək olmaz altından.

alqış aman, qarqış yaman. (**aman**: sağlamlıq).

alqış aman, qarqış yaman. (**aman**: sağlamlıq).

alqış bilə ər kökər, yağmur birlə yer. (**alqış ilə**: təşviq ilə) (**kökər**: **gögər**. **gögərər**. becərər. bəsər).

alqış ilə ər gögər, yağmur ilə yer gögər. (**gögər**: gövərər. ösüşər).

alqış qaldırar, qarqış öldürməz.

alqış, iki əldən (çıxar).

allah bilər, qul sezər (görər).

allah bilir, qul sezir (görür).

allah qonağı allah evində olar.

allah ona qıymasın, tanrısı var, saxlasın.

allah pisindən gözləsin.

allah səni iki qaşıqlı, min külüklü eləsin.

allahım aşdır daşdır, umurqanın bol olsun, doğurduğun ərəndən, düşman qaytan ər olsun (**umurqanın:** azığın. zumarın. hasılın. rizqin). (**qaytan**: qaytaran). (yeni doğan uşağa sılağ vermə qutluğu).

alma dalda durar, hər gələn daşını atar.

alma dalda durar, hər gələn daşını atar. (alma dalda durunca, hər kərkəs daşını atar).

alma könül sevəni, algilən el sevəni.

alma piş ağzıma düş.

alma pişə ağzıma düşə öğrəşmə, günü gəlir işlər gedir tərsinə.

alma pişə ağzıma düşə, işə.qovaq yeri tələs işə. (**qovaq**: yerin).

alma yeyib ağrıyınca, ərik yedə öl.

alma yeyib ağrıyınca, ərik yedə öl.

alma, dibindən uzağa düşməz.

almadım verməm, görmədim bilməm.

almaq öğrətmir, satmaq öğrətir.

almaq üçün verirlər.

almaq, öğrətmir, satmaq öğrətir.

almanı atsan göyə, min dönüşük vardı düşüncə yerə. (gözlənilməz olaylar, bəklənilməz olur).

almaşdır tüm aldışların yarağı. (**almaşdır**: çalışdırmaqdır. yerinə başqasın qoymaqdır. tə'vizdir). (**aldışların**: adetlerin). (**yarağı**: dərmanı).

almayınca heç bir nəyi içivə, heç bir yara iç üzündə iz qoymaz.

almayırsa söz qulaq, çözüm qalır tək çomaq, qulaq verib yol alsa, axar ömürlük bulaq. kar qulaqda söz cayar, qanmaz başda baş yarar.

almayırsa söz qulaq, çözüm qalır tək çomaq, qulaq verib yol alsa, axar ömürlük bulaq. kar qulaqda söz cayar, qanmaz başda baş yarar.

almaz daşı bir çobanın əlində, çaxmaq daşı sanlanıbən kullanar. (**almaz: almas**). (**sanlanıbən**: güman edilərək).

almış güğümləri, qızlar gedər oluğa (bulağa), atam verərmi məni, sənin biri qopuğa. **qopuğa**. (**qopuq**: yersiz. avara. salma).

almış güğümləri, qızlar gedər oluğa (bulağa), atam verərmi məni, sənin biri qopuğa. **qopuğa**. (**qopuq**: yersiz. avara. salma).

almış yolun yürüyən, qalmış yolda yürüməz.

alnı yazan yiyəsi,heç bir alına yox yazı.

alnı yazan yiyəsi,heç bir alına yox yazı.

alnından, igit burnundan, atın iyi olacağı alnından, igitin cesur ve kahraman olacağı burnundan belli olar. (Bayram Özdemir).

alovsuz tütün, tütünsüz alovdan qorun. (qara yaxmalardan).

alp çərikdə, bilgə dirikdə.

alp çərikdə, bilgə dirikdə. (döğüşməyə iyidlik, yaşamğa bilik, elm gərək).

alp çəriktə, bilgə tirikdə. (biləkli savaşda, bilikli dolanşıqda, yaşamda bəllənir, seçilir). (**biləkli**: batur, tovğac, pəhləvan) (**savaşda**: qoşunda),.

alplar birlə vuruşma, bəylər birlə duruşma.

alsan bitər, satsan itər. {baxsan bitər (cücərər), savsan itər. (başı soyuqluqluq edsən əldən gedər)}. (bu evrən özənlə, yığmaqla, qorumaqla gəlişmiş, sovsalamaq, başı soyuqluqla, satıb savmaqla olan qurum durum tozar, dağılar).

alsan boyna yalanı, boşla gedsin qalanı.

alsan boyna yalanı, boşla gedsin qalanı.

alt dəğrman güclü axır.

alt dəğrman güclü axır.

alt üst edmə yaşamın, altı quyla, üstü qılın yaşamın.

alt üst edmə yaşamın, altı quyla, üstü qılın yaşamın.

alta baxan altı görər, tərsə baxan tərsi.

alta baxıb yerin tanı, üstə baxıb özün tanı. (alta baxıb daşma, üstə baxıb çaşma). (Sadece senden güçlü, bay insanları düşünme, güç bakımından senden aşağıda olanları da düşün. Güç ve zenginlik bakıından senden aşağıda olan insanlara bakarak gururlanma, senden daha güçlü ve zengin insanların olduğunu da unutma) (Bayram Özdemir).

altda qalanın canı çıxsın. { asda qaçan namətdi. kimi (hər kəs) başın çarasın bulsun. kimi (hər kəs) özün qurtarsın}.

altı ağız birləşmiş, göy üzdəkin endirmiş, altmış ağız alalmış, əlindəkin aldırmış. (**alalmış**: sözdaşlığın, sözbirliğin itirmiş).

altı alay, üsdü qalay. (altı kaval, üsdü qabal. görnüşü özənli, içi kövənli (boş). üzü bəzək, içi təzək).

altı dolu, gumbuldar (altı dolu, uca danışar).

altı dolu, uca danışar. (altı dolu, gumbuldar).

altı ola, ayrıq ola, altındakın aldırır, iki ola, birlik ola, təpədəkin endirir.

altı olub ağızbir, göyüzdəkin endirər, altı olub ağzala ağızdakın aldırar.

altı olub ağzıbir, göy üzdəkin endirər, altmış olub ağzala ağzındakın aldırar. (**ağzıbir**: sözbir olan). (**ağzala:** sözbir olmayan).

altı olub alaağız ağızdakın aldırar, iki olub birgəağız, göy üzdəkin endirər.

altı olub, ağızala, ağzındakın aldırar, iki olub, ağızbir, göy üzdəkin endirər. (**ağızala: ağzala**: birik olmayan). (**biriq**: müttəhid).

altı ötər, yeddi yetər, birdə görüşərik.

altı ötər, yeddi yetər, birdə görüşərik.

altın alma, alqış al. (**alqış** : uğur duva).

altın alma, alqış al. (**alqış**: uğur duva).

altın ayır dosd artır, düşman ocaq başında.

altın ayır gümüşdən, yaman batsın yerində, dosdun artır günündən, yağun yatsın sinində.

altın əli pıçaq kəsməz.

altın gəlsə gümüş düşməz gözümdən, dəğər biçsin qoy dəğərləri bilənlər.

altın gümüş əsgiməz, ata ana püsgüməz. (**püsgüməz**: dəğərdən düşməz. pozulmaz).

altın qılıc dəmir açar, çəlik yarar. (**çəlik**: polad). (**qılıc**: yaraq) (**çəlik**: polad).

altın qılıc, dəmir qapı açar.

altın yerdə qalmır, yaxşılıq ayaqda. (yaxşılığa deyer verilmir).

altın yerdə yatmaz, yaxşılıq əldə qalmaz.

altına dəmir azmaz, ölülər diril verməz, yaşlılar gəniclənməz, çoğan dönüb, evlər yıxar demişlər.. (**azmaz**: çönməz.-altına dəmir azmaz: dəmir qızıl olmaz). (**diril verməz**: yenidən dirilməz). (**gəniclənməz**: yenidən gəncolmaz). (**çoğan**: > cihan).

altına dəmir azmaz, ölülər diril verməz, yaşlılar gəniclənməz, çoğan dönüb, evlər yıxar demişlər.. (**azmaz**: çönməz.-altına dəmir azmaz: dəmir qızıl olmaz). (**diril verməz**: yenidən dirilməz). (**gəniclənməz**: yenidən gəncolmaz). (**çoğan**: > cihan).

altını odda sına, kişini işdə.

altınlı evdən, can dadlı.

altısı bir olsa, göydəkin yendirər (qapdırar), atmışın ayrıqsa, ağızdakın aldırar (qapdırar). (ayrıqmaq: təfrəqəli olmaq). (altı ola, ayrıq ola,

altındakın aldırır, iki ola, birlik ola, təpədəkin endirir). (altağu alaqsa, altundakın alquzur, dördəvü düzəlsə, təpədəkin endirir).

altısın sevməmiş, birindən qalmış.

altız atsız, yanız yarsız bolbasın.

altmış olub ağzala, ağzındakın aldırar, altı olub ağzıbir, göy üzdəkin aldırar.

altmışa girdin arxana bax.

altmışa girdin arxana qara.

altmışa girdin arxana qara.

altmışında əkən, yetmişində yemiş (alma).

altun bilim birgəşsə, könül usun dincələr. (para ilə bilgi birləşsə, **könül usun dincələr**: canın başın dinc alar).

altun düşər palçuğa, palçuğ minər edərə. (**edərə**: dəğərə).

altun haçar, açmaz açar.

altun haçar, qapılar açar.

altun olan yıltılar, hər yırtılan altun dəl. (**yıltılar**: parıldar). (**dəl**: değil).

altun tasın ağılı aşın, dadlı aşım, paxır tasım. (**paxır** : mis).

altun tasın ağılı aşın, dadlı aşım, paxır tasım. (**paxır**: mis).

altun tasın görsədər, ağulu aşın içirər.

altun tasın görsədər, ağulu aşın içirər.

altun yaraq, dos inaq. (**inaq**: andaş). (**yaraq**: arac).

altunu od sınar, əri altun.

altunyüz, işlərin düz. (**altunyüz**: yüzdə yüz altun).

alver dosluq götürməz, bütöv ağız hər bir söz ötürməz.

alver dosluq götürməz, bütöv ağız hər bir söz ötürməz.

alver dosluq götürməz, içi bütün hər bir söz ötürməz.

alver dosluq götürməz, içi bütün hər bir söz ötürməz.

alver ilə çöllüklə, dos kimliyin sınarlar.

alveri bilən ac qalmaz, yolunu bilən gej qalmaz.

amac alda, pul dalda dursun. (parasız çətinki iş görülə). (**alda**: öndə).

amac arac qarışmaz, eyku kötü yarışmaz. (**eyku**: yaxcı).

amac aracı açıqlayamaz. (**açıqlayamaz**: doğrultamaz. tovcih edəməz).

amac bəlli yol bəlli. (burda çətin nə varki).

amac bulub düşünməyən yol bulmaz.

amac çatı, çatığın bulur. (**çatı**: pillə). (**çatığın**: pilləkanın. nərdüvanın). {amaclar aracın tapır, istəklilər yerin yapır. (**tapır**: ardır)}.

amac doğru işin doğru. (istəyin doğruysa, yalnışlıqın ötüşər).

amac hara, çataq ora. (**çataq**: **çatcaq**. mənzil).

amac hara, çataq ora. (**çataq**: **çatcaq**. mənzil).

amac hər yolun dalqacıdır. (**dalqacı:** çaxmıqı. mühərriki). (ərənlərin nərsəsi yox itirsin, itirmişsə ümidin). (**ərənlərin nərsəsi yox**: ərənlərə nərsə qalmaz). (**ümidin**: umacağın. amacın). (kişi üçün durmuş, yaşam seçdiyi diləklə sürür).

amac itib qurban olsa araca, güman qalmaz buyruq düşə aş aca. (**buyruq düşə**: qismət ola).

amac itirsə gözdən, yalnızlıqlar güc basar.

amac itirsə gözdən, yalnızlıqlar güc basar.

amac qaxsa yol qalmaz. (**qaxsa** : aradan çıxsa).

amac qaxsa yol qalmaz. (**qaxsa**: aradan çıxsa).

amac olsa gülər kişi yaşamı, amac itsə yolun azar yelən verər ömrünü. (**yelən**: boşa).

amac vardır yol kəsdirər yol üsdə, amac vardır dərd artırar dərd üsdə. (**yol üsdə yol kəsdirmək**: yoldan yola keçməklə ən uyğun, qısa yolu seçmək).

amac varsa, arac var.

amac varsa, sapar yollar qapanmış. (**sapar**: **sapıyan.** şaşıran. iğva edən. vəsvəsə edən. istəkdən uzaq. vəsvəsəli).

amaca çatmaq üçün, yamac keçməli.

amaca çatmay toxtamay, bəlləmədən oxlamay. (diləyi almadan oturma, nişalamadan vurma).

amaca tutun, doğruca yürün.

amaca tutun, doğruca yürün.

amacı bil, seçdin sev, qutluq sana bal dadar.

amacı itik, yol bulmaz.

amacı yoxla, özüvü toxla. (**toxla**: yasa. mücəhhəz ol).

amacı yoxla, özüvü toxla. (**toxla**: yasa. mücəhhəz ol).

amacın bilən düşünmədən yol bulmaz.

amaclar aracın tapır, istəklilər yerin yapır. (**tapır**: ardır). {amac çatı, çatığın bulur. (**çatı**: pillə). (**çatığın**: pilləkanın. nərdüvanın)}.

amacsız yaşam, mən onsuz çaşam. (**çaşam**: gicəm). (amacsız yaşam, mən onsuz boşam).

amacsız yol duranmaz. (**duranmaz**: dayannamaz. istiqamət tapabilməz).

amacsız, yol tapılmaz. (amacsızlıq sapıq yol. amacsız, yolsuz qalar).

amacsız, yolsuz qalar. (amacsızlıq sapıq yol. amacsız, yol tapılmaz).

amacsızlıq sapıq yol. (amacsız, yol tapılmaz. amacsız, yolsuz qalar).

aman aman çox inanan az düşənən əlindən.

aman aman çox inanan az düşənən əlindən.

aman qadın zarıdar, yaman qoduğ dığladar, yaman qonşu bezdirər.

aman olsaq görəyin, yağnu gora basayın. (**yağnu**: yağını. düşmanı).

amanlığa gəpirməz, yaman olursa kişi.

amsaxla (arvad bazla) qurumsaq birbirin tapar.

ana baladan, bala oyundan doymaz.

ana dansa ana dilin, bala seçər dana dilin!.

ana dansa anadilin necə deyim anadili.

ana dili, süt dili.

ana dilin danan "öksüz" olar. (ata anasın itirən soysuz).

ana dilin dananlar, özgə dilə yananlar.

ana dilin 'elə belə' atanlara. onlarki kimlik anlamın qanmırlar, düşünmürlər, ÖLÜ kimidirlər,.

ana dilin itirən qarabaş, ad tapanmaz olar külbaş.

ana dilin iyi gəpir, gəpirməsən, sümük gəmir. (it ol!).

ana dilin qorumazsa ana, nə deyim ona!.

ana könlü bilməz yazı bilməz qışı, gülürsə bala oda güləyər, tutulsa ürək, oda kitirər. (**kitirər**: tutular).

ana qızın ülgüsü, təpə dağın çölgüsü. (**çölgüsü**: genişliyi).

ana öğrətən uşağ, diribaş, ata öğrədən uşaq, bilgin olur.

ana ölüncə, ata, amca olur. (qadını ölmüş, yenidən evlənən ata, uşaqlarından uzaqlaşır).

ana sevir, ata qorur. (sevəcən ana, qorağan ata).

ana sevir, ata qorur. (sevəcən ana, qorağan ata).

ana yerdən çıxmır, erkək balası, bala göydən düşmür, ana balası.

ana yol nə ölməkdir nə öldürmək. (igidlik nə ölməkdir nə öldürmək) **(**qozavada işlənən yasa). (qozovada, daldurumda: ıssız, ucqar, bəllənməz yerdə, çağda).

ana yurdun altın beşik.

ana yurdun aman olsa, üzün öngü saman olmaz. (**öngü**: rəngi).

ana, bala dilmacı, dansa dilin çox acı.

anadan doğmaq, ölmək üçündür.

anadan keçdi, yardan yox.

anadil, anayol yasar, atagüc, yağunu basar. (**yasar**: hazırlar).

anadilim genə evdə qalacaq, duzu artsa yavanmıyacaq.. (**yavanmıyacaq**: xərab olmuyacaq**)**.

anadilin bilməyən, öksüz oğlu öküzdür. (**öksüz**: soysuz).

anadilin danan, dana. (anadilin danmaq danalıqdır).

anadilin danmaq danalıqdır. (anadilin danan, dana!).

anadilin danmamış belə, danadan hələ süt yeyən ana.

anadilin unutma, doğma elə çet qalma. (**çet**: yad).

anadilindən dad alamazsan, sümük yala.

anadır bəslir cocuqda dilək, könüldə əkir dilə bağlı çiçək.

anadır bəslir cocuqda dilək, könüldə əkir dilə bağlı çiçək.

anadır bəslir cocuqda həvəs, könüldə əkir dilə bağlı çiçək.

anadır bəslir diləsi, könüldə varsa bəsi, əkilər dilin səpəsi. (**bəsi**: mə'nəvi gücü). (**səpəsi**: tuxum).

anadır bəslir diləsi, könüldə varsa bəsi, əkilər dilin səpəsi. (**bəsi**: mə'nəvi gücü). (**səpəsi**: tuxum).

anadır bəslir həvəsi, könüldə varsa bəsi, əkilər dilin səpəsi. (**bəsi**: mə'nəvi gücü). (**səpəsi**: tuxum).

analar aldanmaz, atalar aldatmaz, sevişib doğar uşağı, ozaldan budur uğraşı.

analar tək sevigin eşqin əsiri sanamam huv tapılarmış.

analları nəki, danaları nə olsun.

analı qız bəlli qız, anasız qız - dəli qız.

analı uşağa öğrətərlər, öksüz görüb götürər.

anam elə çox bilirki, kündəni xırda salır, atam elə çox bilirki, ikisin birdən alır. (anam elə çox bilirki, kündəni xırda götürür, atam elə çox bilirki, ikisin birdən götürür).

anam elə çox bilirki, kündəni xırda salır, atam elə çox bilirki, ikisin birdən alır.

ananın aşı, ağzıvın dadı, təndirin başı, yedin yat.

ananın aşı, təndirin başı.

ananın başqası, daşqaçı olar. (başqası: başqaca. başqa görülən. ali görülən. ərköyülü).

anasa yaman qızı nə, eşiyi yaman evi nə?. (ana olursa yaman, qızıda yaman olur. eşidə yaman davranın ev davranışıda yaman olur). (anası yaman qızını alma, eşiyi yaman evinə varma).

anasan dansan anadilin, çora dönsün ağuzda dilin.

anası çıxan ağacı, qızı budaq-budaq gəzər!.

anası çıxar yamacdan, qızı dırmaşar ağacdan.

anası tökəni, balası yığar (qız anasından öyrənər).

anası tökər, balası yığar. (bu söz ana ilə balanın tzm əməkdaşlığın bildirir) (bu söz iki kişini birbirinə uymağı bəlgitir). (ananın qılığın, ülgüsün, qızı yiyələnər).

anası tökər, balası yığar. 6anası tökər, balası yığar.

anası yaman qızını alma, eşiyi yaman evinə varma. (anasa yaman qızı nə, eşiyi yaman evi nə?). (ana olursa yaman, qızıda yaman olur. eşidə yaman davranın ev davranışıda yaman olur).

anasın görüb qızın almaq güc deyil, bacarırsan yarasına bax acısın al.

anasına bax, qızın al, qırağına bax, bezin al.

anasız pətək bal bağlamaz.

anasız pətək bal bağlamaz.

anasız, arılar pətəkdəcə ölür.

anavı tanı sılağla, anadilin unutma. (**sılağla**: hörmət qoy).

anbar sıçanı, ac qalmaz.

and içmə almağa, kimsənin güvəncini sən. -kəndivə güvən. götürdüyün yükü apara bilsən, ellər uyar sənə, yolun sürəli duralı olur, bilgiləsən.

andağan olub günün itirmə, unutğan olub dünün. (**unutğan**: yaddan çıxaran. (**andağan**: yadda saxlayan).

andağan olub günün itirmə, unutğan olub dünün. (**unutğan**: yaddan çıxaran. (**andağan**: yadda saxlayan).

andıq olmadan son, sandıq nədir, sağlıq nə. (**andıq**: anlaq. baş. bigi).

andlı yağu, dönən yardan dosd olmaz. (**andlı yağu**: əsgi yağu). (**dönən**: sözün, bəfasın qıran).

anıda yaşıyan indidə ölür, anıyla yaşıyan yarını görür.

anıq qılınsa, yoxa sanılmaz. əldə olan işlənirsə, yox deyilməz, etgilər.

anılar bassa altına, dağ belə olsan ərdər səni. (**ərdər**: **əridər)**.

anılar bassa altına, dağ belə olsan ərdər səni. (**ərdər**:**əridər)**.

anılar batlağına batmağı gör çıxmağı yox. (anıya batdınisə çıxmağıvı güdmə gülüm, ki dönən yoxdu geri) (keçmişin quysu dərin olur. çətinki bir batan, birdə çıxa).

anılar keçmiş, pisi yaxşısı, yaxşısı nisgil, pisi qaxınc.

anılar ölümdən olur, əsgi bir yol yolçunu yorur.

anılar ölümdən olur, əsgi bir yol yolçunu yorur.

anılar yası, gün itrər.

anılara batan, günə yad qalır. (günün, yaşamın itirir). ('keçmiş' su üzrə düşüb duran görüntülərdir. anılara, şəkillərə qapılmaq ayna (güzgüdə), su üzündə duman içində yaşamsamaqdır, yuxudur, etgi bəklənməz).

anılara batan, günün itirib, oyanan çağı gec olar.

anılmağa umut olamaz, sevilməyə güman qalamaz. için yaşa, kimi alamaz. (bu evrəndə unutulmamağa umut yoxadur, sevilməyədə inam yoxadur. yalnız kəndi içivə, kəndiliyivə yiyə durub yaşa. bu bəyliyivi almağa, heç nəyin, heç kimin gücü çatmaz).

anıya batan, sinində yatan.

anıya batan, sinində yatan.

anıya batan, sinində yatan.

anıya batan, sinində yatan.

anıya batmış, dalıya qalmış.

anıya yaxın qızdan qorx, meşəyə yaxın qurddan qorx.

anıya yaxın, qızdan qorx, meşiyə yaxın, qurddan.

anıya yatan batmış, anıya batan qatmış. (**anıya :** keçmişlərə).

anıya yatan batmış, anıya batan qatmış. (**anıya:** keçmişlərə).

anqıran eşək az yemlər.

anqıran eşşək, öz tayın tapar.

anqıran tayın tapar.

anqırmaqla eşşək tutar tapmamış. (**tutar**: qiymət).

anladım onamadım, ondum anlamadım.

anlağın gücü: - gözdə, qulağda, başdadır. (anlağ: ağıl).

anlaqlıya sivri sinək saz gəlir, anlaqsıza, zurna - döğül az gəlir.

anlaqsızdan doluq alnaq gözlənməz. (**alnaq**: xiyal). (içi boşdan doluq alnaq gözlənməz).

anlamadı bitməz olur sev yolu. (anlamadı bitməyi yox sev yolu). (**sev**: aşq. eşq). (sevgi sınır tanımaz, keçmişlərin anımaz).

anlamamaqla, qorxmaq, əkizdilər (bir doğulubdurlar).

anlamasa sevilməsini sevməsin, bıraq gedə anma artıq öyləsin.

anlamasa sevilməsini sevməsin, bıraq gedə anma artıq öyləsin.

anlamayan istəməz, qananmıyan dirənməz, yeriməyən girənməz.

anlamaz baş kişi üçün ölümü yaşadır.

anlamaz üçün dilin yorma, gedilər üçün ürəgin. (gedi: gedici. vəfasız).

anlamaza bir qanıt, susub susmaqdır yanıt. (**qanıt**:dəlil). (**yanıt**: cəvab).

anlamaza dil tökmə, dəyərsizə can yorma.

anlamaza dil tökmə, dəyərsizə can yorma.

anlamaza söyləmə, dəğirməzə sözləmə. (**dəğirməzə**: dərk edməyənə. dəğərsizə).

anlamaza söyləmə, dəğirməzə sözləmə. (**dəğirməzə**: dərk edməyənə. dəğərsizə).

anlamazla yeyib - içiplər, danışmayıblar.

anlamsız söz, dənəsiz çöp.

anlar anıtılır, günlər unutulur.

anlat için susmadan, anlayanın tapınca, danla doğub tünlə yat, yarın dursa yanınca.

anlatan köçdü, söz qaldı. (anlatan köçər, söz qalar). (**anlatan:** ravi).

anlatan köçdü, söz qaldı. (anlatan köçər, söz qalar). (**anlatan:** ravi).

anlatan köçər, söz qalar. (**anlatan**: ravi). (**söz**: söylənti).

anlayan olsa gülüm bəsdir ona bircə çəkə. (**çəkə**: qətrə).

anlayana bir sözüm, anlamaza min dözüm.

anlayana sivri sinək saz, anlamaza davul zırna az.

anlayana sıvri sinək, saz gəlir, anlamaza döhül zırna az gəlir. (iş uzmanı, əlindəkindən yararlana bilir, iş bilməz, işin harda olduğun nə bilir).

anlayanın qulu ol, anlamayanın ağası.

anlayanla daş daşı, anlamazla yemə aşı.

anlayanlar uçdular, anlatanlar susdular.

anlayanlar uçdular, anlatanlar susdular.

anlıq başa, ayaq ol, qanlı başda, papağ yox. (**anlıq**: bulqa. arif).

anmır dodaq adıvı, əsgimişmi nə bilim. o keçən anılar, ən gözəl umutlar, ən gözəl uykular, ən gözəl oykular əsgidilər gözümdə, silindilər könlümdə.

anmır dodaq adıvı, əsgimişmi nə bilim. o keçən anılar, ən gözəl umutlar, ən gözəl uykular, ən gözəl oykular əsgidilər gözümdə , silindilər könlümdə.

ansızın tutar ölüm, verməz yaraq (**yaraq**: fürsət).

aparan bıraxmaz, bıraxan aparmaz.

aparan bıraxmaz, bıraxan aparmaz.

ar gördüyün, kor tutduğun bıraxmaz.

ar olmuşdu ana dilin duymayan, kor qalırmış gözəlliyi seçməyən, ürək deyil taxda kürək doğma dilin sevməyən.

ara ayrı olsa, aradakı alınır. (ara pozuq olursa, aradaki əldən gedər).

ara olsa, içdə çıxar, üzə çıxar. (**ara olsa**: imkan yaransa. şərayit uyğun olsa).

ara yolda malın qalmasın, orta yolda atın ölməsin.

araba devrilincə, yol göstərən çox olur. (pis, ağır durumlarda hammı ağıl qoyar).

arac amac bəllətməz, amac arac gizlətməz.

arac amac bəllətməz, amac arac gizlətməz.

arac ələ baxar. (arac işlədəndən asılıdır).

arac işlər, əl öyünər, qılıc işlər ər öyünər.

arac qulluqçudur amaca.

arac sənin qulun, işlədən yolun.

arac yonur əl öğünür.

araça dayaq dəgir. **(araça:** davər).

araça dayaq dəğər. (**araça**: aralayıcıya).

araçıdan (vasitədən) yara əsgik olmaz.

arada yeyir, qırağda gəzir.

aradığın bulunmaz, bulanmışsa durulmaz, kəndivi bul güvənqil, ağız deyən qulaq duyan tüpənqil. (**tüpənqil**: geri tüp. geri təp. rədd ed).

aradığın, səni arayan olsun. (mevlana).

aradım cihanda bulamadım başıma tac, əğriləri tox gördüm, doğruları ac.

aradım cihanda bulamadım başıma tac, əğriləri tox gördüm, doğruları ac.

arağ başa çıxsa, ağıl başdan çıxar.

arağan ərir. (axdaran tapır).

arağın birinci bardağın kişi içir, ikincisin arağ içir, üçüncüsü, kişini içir.

arağın necə olduğun içən bilər, nə olduğun çəkən.

aralaşan baş daşlı, ardalaşan dağ aşdı. (**aralaşan**: birbirindən ayrılan). (**ardalaşan:** arxalaşan).

arama yoxdu gözü oymağa heç bir gecənin, koru bir quşdu qanatsız düşəcək odda yana.

aranın dağı var olsun, qarlıda olar, qarsızda. iyidin başı sağ olsun, varlıda olar, varsızda.

arayan bulmuş, inləyən ölmüş.

arayan çatar, ölülər yatar!. (çalışmaq, dirilik bəlgəsidir, yatmaq, ölülük imgəsidir).

arayan ellər, əsəyən yellər çoxlu görər görməzin yerlər. (**görməzin**: görünməmiş. çatınılmaz. əcayib).

arayan əldə, yatan yuxuda. (arayan əldə edər, yatan yuxuda görər).

arayan tapar, bacaran yapar. (**arayan**: qımıran. qıdıran. qıbıran).

arayan tapdı. tikilən qaldı (yatdı).

arayıb yoxlayan, toxun bulmuş. (**toxun**: gerçəyin. həqiqətin). {hər amaca çatmaq üçün, nə dərək kiçikdə olsa, çalış dalış gərəkki. (**dərək**: qədər). (**çalış dalış**: sə'y kuşiş. (**dalış**: > **tələş**)}.

arçağı çox toprağ ilə toprağın, daşla daş var biri ağdur ol biri qarə durur. (**arçağı**: fərqi).

arçalı, barçalı. (nəqədər fərqli, çeşitli olursa, onca barlı, zəngin olur).

arda baxan yol azmaz.

ardağ kişi, gördü işi. (ardağ kişi, görər işi). (**ardağ**: ciddi).

ardağı yox işində, kəsər qalmaz dişində. (**ardağı**: qayratı. ciddiliyi).

ardağsıza iş vermə, qarınpaya üz. (**ardağsız:** ciddi olmayan. ehtiyatsız).

ardına daşlasan önünə çıxar. (**ardına daşlasan**: arxana bıraxırsan).

ardına keç bir söz eşid, aldına keç ikisin. {heç çağun könətilməz kimsə. (**könətilməz**: razı salınamaz. razı ediləməz)}.

ardınca qaçanda deyiləm, qayıt son kərəmdi deyirəm.

ardınca qoşun qoşun uşağlar, əhvalına kim gülər kim ağlar.

ardında bədov at var, düşman qarşına bat bar.

ardından yüz it hürməyən qurt sayılmaz.

arğaç kimi uzanan, əriş kimi dirənən.

arğın arğın olduran işi, günəşdi yetişdirən yemişi.

arx axan yerinə, baxt baxan yerinə gedər. (güdülmüş nərsiyə çatmaq qolay ola bilir).

arxa dağdan, ürək daşdan olan var.

arxa önün bilməyən çatanmamış barınqa.. (**barınqa**: mənzilə**)**.

arxadan gələn düşman, üzə gəlincə dost olar.

arxadan kəsər, ətəyə yamar.

arxadan kəsir, ətəyə yamır.

Arxadaş başa, yağı ayağa baxar. (Araz Gunduz).

arxadaşı içində daşı (arxandan vurmasın deyə).

arxadır yurdumuza, eşq olsun ordumuza.

arxalaşan dağ aşar. (**arxalaşan**: köməkli olan).

arxalaşan dağ aşdı, yalınlaşan düz çaşdı.

arxalaşan yağu qaytar. (arxası olan yağu basar).

arxalaşan, yov qaytar. (**arxalaşan**, yov qaytarar). (yov: yoğ. yağu. düşman).

(**arxalaşmaq:** müttəfiq olmaq. **(**birağız olan düşman dəf edər).

arxalı el gur çapar, arxalı it qurd basar.

arxalı it qurt basar.

arxalı it, qurd alar. (**alar**: çalar. basar. qələbə qazanar. şikəs verər).

arxalı kişi, yüksüz qalmaz. (**arxalı**: çullu).

arxalıya arxa durma deyərlərki yamaqdır, arxasıza arxa dur desinlərki dayaqdır.

arxamda duran var deyibən, arxayın olma!, dağlarda dayağ olsa! güvənmə, ayın olma. (**ayın**: aydın. arxayın. dinc).

arxasız kişi, savaş gəzməz. (**arxasız:** köməksiz**)**.

arxaya baxma qoca, öngürə bax ay qoca.

arxdan su kəsildi saçaqdan çörək. **(saçaqdan:** süfrədən).

arxdan su kəsilməsə saçaq çörəksiz qalmaz. **(saçaq:** sü'frə).

arxı salan bir kişi, suyun içən min kişi.

arxıl diləklə yok, dirəklə yazılır. (**arxıl:** tarix).

arxız sulu, əkiniz dənli, saçağız nənli (nənğli: ne'mətli), biçinçiyə, yolağçıya quraqlıq, əkinçiyə sulaqlıq, yaxcılara uvatlıq, yamanlara yavatlıq.

arxlar axar, çay olar.

arxlar axar, çaylar olar.

arı bal qoyub pətəkdən uçur, bal yeyən yox, qab yalıyan tutulur.

arı bal verən çiçiəyi tanıyar. (arı bal alacağı çiçəyi bilir).

arı baldan olmaz, türk dilindən. (**olmaz**: ayrılmaz).

arı çaqqan bal dadını itirməz.

arı görməmiş bal olmaz, nazdan əksik yar olmaz.

arı iğnəsin çəkməmiş varlı, bal dəyərin nə bilsin.

arı oldun gülə qon, milçək oldun təzəyə.

arı soxnaq varlıdan, bal dəğəri sorulmaz. (**soxnaq**: sancmamış).

Arı yuvasına çöp uzatma. (Ara Gündüz).

arıdan arı, gündən duru.

arıdan arı, gündən duru.

arıdur artığu, əksik tözündən, bəridur azlığu, çoxluq sözündən. (**töz:** düz. öz. təməl).

arif olan işarədən söz qanar (ərgin olan qaşdan anlar (bilər) işini).

arığ atın barınqa, çatmaz olur gec yolun. (**barınqa**: mənzilə).

arıx qoyunu qıçından püləllər, şişər.

arıq ata, qamçı ağır gəlir.

arıq ata, qamçı düşman, yırtıq dama, damcı.

arıq diləklə olursa hər iş xoşdur. (**arığ diləklə**: xilusi niyyətlə).

arıq ölsə yağı bolmas, yadıq ölsə ağı. (**yadıq**: yad. qərib).

arıq ölsə yağı bolmaz, yadıq ölsə sağı bulmaz. (**yadıq**: qərib). (**sağı**: oxşayan).

arıq ölsə yağı bolmaz, yadıq ölsə sağı bulmaz. (**yadıq**: qərib). (**sağı** : oxşayan).

arıq saxla, yağu olmasun. (**arıq**: ac). (ac saxla qudurmasın).

arılara inam yox, pətəkçiyə güman yox.

arın könül duru sevgi varlığım.

arın könül duru sevgi varlığım.

arın su axar, kirlisi qoxar.

arının ağın dartan, balna dəğər biçsin.

arının ağına (zəhərinə, ağrısına) dözüb, balını süz.

arının ağına dözüb, balını süz. (zəhərinə, ağrısına).

arının balı gedər, iğnəsi qalar.

arının qonduğu gül, güllərin seçini. (yaxşısı olar).

arınlıqla iş görən, iş görəni kor qoyar. (**arınlıqla**: ərginliklə. ərgənəgün).

arınlıqla iş yapan, günü qalarmış çora, işi çatarmış gora. (**arınlıqla**: ərginliklə. ərgənəgün).

arınlıqla iş yapan, heç bir işi bitirməz. (**arınlıqla**: ərginliklə. ərgənəgün).

arınlıqla iş yapma, bitirməmişdə yatma. (**arınlıqla**: ərginliklə. ərgənəgün).

arınmamış bulanlı su başdansa.

arınmamış bulanlı su başdansa.

arışıq qızıl, dənəyi (məhəki) sevməz.

arışlarda yürüşlü, savaşlarda ürəkli, el dərdinə gərəkli.

arıya düşən yırtılar. (araçılıq işi incədən incədi. hər yanda, hər işdə, hər kəslərə araçılıq edəməzsin).

arman qalan sevgilim, eniştəyə oxşarsan, yanımda yoxsan bırak, könlüm içrə yaşarsan. (**arman qalan**: nisgil qalan). (**eniştəyə**: firişdəyə. məleykəyə). (**bırak**: ama).

armanilə ulduzun iki olur oxşarı, hər ikisi tutlmaz, bırak tün gecədə yol açır. (**bırak**: fəqət. ama). (**tün gecədə yol açır**: tul qaranlıq gecəcədə gılavuzluq edir).

armanilə ulduzun iki olur oxşarı, hər ikisi tutlmaz, bırak tün gecədə yol açır. (**bırak**: fəqət. ama). (**tün gecədə yol açır**: tul qaranlıq gecəcədə gılavuzluq edir).

armanlara çatmaqda qılmadığın işi gör. (**armanlara**: arzulara) (**çatmaqda:** çatmaq üçün).

armanlara çatmaqda qılmadığın işi gör. (**armanlara**: arzulara) (**çatmaqda:** çatmaq üçün).

armanları talan oldu, sevmişimiş yalan oldu. (**armanları**: arzıları).

armanlı ölməkdənsə, doyumlu yaşa. (nisgilli, həsrətli ölməkdənsə, doya doya yaşa). (ac olub ölüncə, doyub öl).

armazlıqla iş görən, çatmaz istək görməmiş. (**armazlıqla**: yorulmadan. bıqqınmadan).

armıd ağacı alma verməz, yaramazdan uğur gəlməz.

armıd dibinə düşər. (soydan gələn, soy özəlliklərin daşır).

armıd piş, ağzıma düş.

armıdın sapı var, üzümün çöpü.

arpa buğda yağ verməz, yaş ötürsə dad verməz.

arpa əkən buğda biçməz.

arpa əkən buğda güdməz.

arpa əkən, buğda biçməmiş.

arpa əkib, buğda gözləmə.

arpa kükəsi, təndir aşı, dad ələ düşməz, dosdosdu sikər yad ələ düşməz.(**dad**: daad. ey dad).

arpa pişər işin düşər, oraq deyib gəzərsən.

arpa pişər, işiniz düşər.

arpa yeyən, ipək geyən.

arpaçıdan borc alan, axırını tez satar.

arpadan kökə, qırnadan bikə olmaz. (**qırnadan:** kənizdən). (**bikə**: bəycək. gəlincik).

arpala ya buğdala, adam olsa bəlgürür, samanla ya yoncala, eşşək olsa bəlgürür.

arpalığa gedən yollar. (uçuruma, kağıllığa götürən yollar).

arpası var tapar nökər, atına tökər. (çox işlər pulla, başla aşrılır).

arpasız at, aşumaz, arxasız alp, çərik sıyumaz. qoşun qırmaz.

arpasız, at aşmaz daşumaz, arxasız alp, çərik sıyumaz (qoşun qırmaz).

arsıza üz verdik, ocağına köz verdik.

arslan ağzından ov alınmaz. (güclülərlə alışverişdə hər nə gözlənə bilir).

arslan arslan olduğun, tülkü tülkü oldğun bilməyə çox yol var.

arslan kükrəsə, at ayağı tüşənər. (arslan böğürür, atın ayağı büdürür, çalınır).

arslan kükrəsə, at ayağı tüşənər. (arslan böqürür, atın ayağı çalınır).

arslan ovun verməz.

arslan tapar, iğlən batar. (**iğlən**: iğlənmiş. ğlinmiş. hasta. xəstələnmiş. armış). (arslan irdəli, qovi istəkli tapar, ular, kəsəl, aciz avara yolda batar).

arslana quyruğ olunca, itə baş ol.

arslanı ac gəzdirən, tülkünü tox.

arslanı ac gəzdirir, tülkünü tox.

arslanı yatağında avla. (kişini yaşadığı yerdən avla).

arslanıda alçov bilə yeydilər (**yendilər**: məğlub etdilər). (**alçov**: aldağ. kələk).

arslanın ölüsündən, siçanın dirisi (siçanın dirisindən yeğdir).

arslanlıq iki qıç arasında yok, ürəkdə yerləşir.

arşınla bez ölçülər, çuvalla qoz.

artı olsa alıymaz, kəm olsa qoşar. (**artı**: artıq. izafə. ziyadə). (**qoşar**. artar. artırar). (**alıymaz**: əl vurmaz. götürməz).

artığın arağ axdırar başı.

artıq aş, qabında dursun, artıq söz, içində dursun.

artıq aş, qabında, artıq söz, içində dursun.

artıq buda adamdı sən deyirsən. -gözlü olub korlar kimi yaşandan, dilli olub öz dilini danandan, yurtlu olub öz yurdunu atandan, daşla uzaq, çəkin durqıl adamdan. (**daşla uzaq:** tulla uzağa**)**. **(çəkin durqıl**: qıraq gəzdur).

artıq danışmaq suçdursa, əksik danışmaq böyügündəndir.

artıq dəğər, başıvı əyər. (çox yaxcılıq qarşılığı yamanlıq).

artıq dəğər, başıvı əyər. (çox yaxcılıq qarşılığı yamanlıq).

artıq dəmir almaq günü gəlmişsə çağundan, boşlunqa gedən bir gəmi qalxar bu barından. (**dəmir almaq**: ləngər almaq. köçmək). (**barından**: limandan).

artıq düşün , az güvən, qoyun olsan qurd yiyən.

artıq düşün, az güvən, qoyun olsan qurd yiyən.

artıq inanc istəyi kor edərmiş gözləri.

artıq inanc istəyi, usandırır us başı. (**usandırar us başı**: ağıl başı çaşdırır). (artıq inanc istəyi kor edərmiş gözləri).

artıq keçmir çağım, kəsib soluq boğuluram mən, nədən belə dönüb evrən, tüm tanışlara yadaldım mən.

artıq qıvanc baş ağrıdır, artıq güvənc göt. (**qıvanc**: sevinc).

artıq mal, göz çıxarmaz.

artıq məndə dözüm yox, uzun yaşa gözüm yox, gedir gedsin, qalır qalsın sözüm yox.

artıq sevgi vurqunluq. (aşırı sevgi dəlirir).

artıq sevgi vurqunluq. (aşırı sevgi dəlirir).

artıq tamah daş yarar, daş qayıdıb baş yarar.

artıq tamah daş yarar, daş qayıdıb baş yarar.

artıq yanğı baş yarar. (**yanğı**: tamah). {yanğarıq baş yarıq (**yanğarıq**: tamahkarlıq edən)}.

artqı güvənc, doğru yoldan sapdırar. (**artqı**: çədən aşa. həddən artıq).

artqı sözə gərək yok, bu gün varsın, yarın bir olasın. (**artqı**: artıq. ziyadə) (**olasın**: ihtimal).

artmadan yetmez.

arvad aldın bir cola, ondan olan min cola.

arvad alsan, ürəkdən, qonşu alsan dirəkdən.

arvad bir şeydi ki: alanda peşman, almıyanda.

arvad boşuna yalanlamasa, düz danışan çıxar.

arvad düşünən işi, kişi görər.

arvad eldən, oğul beldən.

arvad gedir paltar almağa, kişi gedir ona baxmağa.

arvad gərək qalçalı, oğlan aslan pəncəli.

arvad gərək qalçalı, oğlan aslan pəncəli.

arvad ilə at, iyidin bəxtinə bax.

arvad ilə at, iyidin bəxtinə qalıb. (arvad ilə at, iyidin bəxtinə bax).

arvad kimi düşman yox, gülər bildirməz, köpək kimi dost olmaz, ölər bildirməz.

arvad quran evi, tanrı dağırtmadı, tanrı quran evi, arvad dağıtdı.

arvad malı alçaq qapıdı, bir girəndə dəyər, bir çıxanda.

arvad malı, qab dəsmalı.

arvad malı, sapı mandalı.

arvad nədir: - yersiz deyinən, bilə bilə yalan deyən, görə görə ağlayan, gizlində gülən.

arvad ölsə, taparsan, ağıl itsə batarsan.

arvad ölüb, yalxu kişi, yatma sıvay nədir işi. **(yalxı**. **yalxu**. tək).

arvad öz başına olsa, çillə çağı keçi qırxar.

arvad təğvim değilki ildən ilə yenilə.

arvad üzlü kişidən, kişi üzlü arvad yeğdir.

arvad var qadan alar, ocağıva kömür qalar.

arvad yuxusu yan çalar. (yalan çıxar).

arvad, dildən yanar, kişi gözdən yahalar (aldanar).

arvad, dildən yanar, kişi gözdən yahalar (**yanmaq: yahalmaq**: aldanmaq).

arvada toy, kişiyə tor.

arvada toy, kişiyə tor. (evlənmək).

arvadı arvaddan soruş.

arvadı bərbər olanın, qonşusu kosa gərək.

arvadı gözlə yox, qulaqla seç.

arvadı saxlar əri, pendiri saxlar dəri.

arvadı sırdaş edən, dəllal aramaz.

arvadı sırdaş olan, dəllal aramaz.

arvadın ağzın, kişinin qolun güd (saxla, gözəddə).

arvadın biliklisi, kişinin varlısı.

arvadın koru, ərin karı.

arvadın lalı, kişinin koru, biri deyinməz, biri görməz. (arvadın koru, ərin karı).

(arvad alsan lal olsun, ərə gedsən, kor olsun).

arvadın nə olduğun subaydan sor. arvadın necə olduğun evlidən.

arvadın sözün inanan qıssa yolu uzun gedər.

arvadın yaxşısı, yaşamın yarısı. (**yaşam**: ömür).

arvadınan at, kişinin bəxdinə bax.

arvatsız kişi, çataqsız ev (kimidir). (**çataqsız**: damsız).

arzı dilək, könüldə bitir (**bitir**: gücərir).

arzılıya sınır yok, arzısıza dinir yok. (**dinir**: huzur. dinclik. iç yapıncı).

arzıyan ərir. (arağan ərir. axdaran tapır).

arzu bitməz, ömür yetməz.

arzu sürər yol bitər, xoşluq gələr qay gedər. (**qay**: pis).

arzu varıydı bucağa, sürüdü düşdü qucağa.

arzular könüldə doğur, könüldə yatır. başqa biri görəməz, kimsə onu biləməz.

arzular uzanıb sonsuza gedər.

arzular uzun ömrümüz güdə, kimləri yetə, kimləri gedə!.

arzular uzun, diləkdi güdə, qısa yaşam vermə gedə.

arzular yaşa baxmır, qocalıq başa baxmır, çox çabala az isdə, yaş çaxmaqdan od çaxmır.

arzular yelə, yaşamım çilə. (arzularım heçə getde, yaşamım dərdə döndü).

arzulara tutuşduq, sevib aldıq utuşduq, gizli saklı öpüşdük, yaram sürər qan verər.

arzusuz yaşam, dığırlaq daşam. (**yaşam**: gəncəm).

arzuya yoxmuş sınır.

asda danış, usda danış. (asdaca, usdaca).

asda danış, usda ged.

asda danış, usda ged. (**usda ged**: usca, usda, ağıllı, bilgin davranmaq). (yavaş gedib gec qalmandan qayğınma, darıxma. asda ged, düşün, bilənlərdən sor, olursa çatacaqsın).

asda gedən pasda (altda) qalır.

asda gedən pasda (altda) qalır.

asda gedən uz gedər. (qızqınçılıqdan, aşırçılıqdan (aşamaçlıqdan.

ifratkarlıqdan) uzaq durmaq) (çax çax özün yırtar, dəğirman bildiyin edər).

asda gedən, usda gedər.

asda qaçan armadı. (**armadı: armaz**: yorulmaz).

asdan alan qul olur, üsdən verən qul edir.

asdar bol olmayınca, üzə gəlməz.

asdar olsa, üz tapılar, un tapılsa, çörək yapılar.

asdar var, üzündən dəğərli, üz var, asdarından dəğərsiz.

asdar var, üzündən dəğərsiz, üz var, asdarından dəğərli.

asdar verib, üz alır, götün verib, baş alır.

asdar yatmış üz astında (**astında**: altında).

asdara baxıb, üz biçir, üzünə baxıb, don tikir.

asdardan kəsib, üzə yamır.

asdarı olan, üzün tapar, unun tapan, çörəyin yapar.

asdarı üzündən baha.

asdarı var qızıldan, çivi çıxmaz qızıldan.

asdarı var odundan, yeyər yeməz yoğunlar.

asdarın çevir üzünə, ətəyin çevir başına, üzü mənim, içi sənin.

asdarın gizir (gizlədir: saxlır), üzün bəzir.

asdarın gizir, üzün bəzir. (**gizlədir**: saxlır).

asdarlı üz, islanmaz, su görməyən, çırmanmaz.

asıb asılma, asdırıb asdırılma, kişilik değil.

asıq üzü boşla, açıq üzü tuşla.

asılacaq başın yox, kəsiləcək dilin, nədən qorxursan poxoğlu pox.

asılan qulaq, baş asdırmaz. (qulaq asanın, başı sağ qalar). (**qulaq asmaq**: söz eşitmək). {eşidən qulağ (eşitdiyin doğruca açıqlamış, qavramış kişi), başın dardan qurtarar, başın dara verməz. }. (qulaq asmaz, asıtdı baş) (asmaz qulaq, asıdar baş).

asılan qulaq, baş asdırmaz. (söz eşidəni öldürməzlər).

asılcağun başdansa, bir köşəyə daş olqıl.

asılı evdə, danışma ipdən. (kimsəsi asılmış olanın yanında, ip sözünü işlətmə).

asılmağa başım yox, kəsilməyə dilim yox, uçunmağa güvənim, qırılmağa ilqarım.

asılmamış qazandan, ovlanmamış dovşandan şorba pişməz. (asılmamış qazanla, ovlanmamış dovşanla şorba pişməz).

aslan dişinə, kişi işinə güvənər.

aslan izin, igid sözün bıraxmaz. (aslan izdən igid sözdən qayıtmaz).

aslan qalan yeri, tülkü aşdı.

aslana əl uzatsan əlin, baş uzatsan başın gedər. (qarşıvı tanı danış).

asmağa baş aranır, kəsməyə dil, kəndivə güvən, elindən öğrən.

asta gedən uz gedər, usta gedən düz gedər. (**uz** : uzaq).

asta gedən uz gedər, usta gedən düz gedər. (**uz**: uzaq).

asta gedən uz gedmiş. (**asta**: yeyin yox. az yavaş).

asta gedən yorulmaz, qurd düşməsə çorulmaz. (**çorulmaz**: çürüməz).

astar bol olmayınca, üzə gəlməz.

astaşana yetdilər, yastaşanı əzdilər. (**astaşmaq**:. yavaşlamaq).. (**yastaşmaq**: əğilmək).

astaşana yetdilər, yastaşanı əzdilər. (**astaşmaq**:. yavaşlamaq).. (**yastaşmaq**: əğilmək).

aş atana, yastanma, daş atana daşlanma. {abayla davran. (**abayla:** siyasətlə)}. (qarnıvı toxlatana, qoduğlanma, daşı görcək daşlanma, düşün yanıtla).

aş atlının, toy donlunundu.

aş başladın, başı daşlama. (**daşlama**: atma. bıraxma). (yeməkdə əlivi güd). (yeməkdə ölçü saxla).

aş başlanır, baş daşlanır. (yemək görəndə özündən çıxır). (xoşboğaz. qarınpa. qarınqulu).

aş dadın yeyən bilər, yol ağramın, gedən. (**ağramın**: əzabın).

aş daşınca, kömçəyin qiyməti artar.

aş desən çapar, iş desən qaçar.

aş duzla, duz oranla dadlanar. (**oranla**: ölçüylə).

aş gəgirdir, tox səkirtir.

aş hara ayaq ora, baş hara könül ora. (bu bir seçimdir).

aş suyuqluğu dən azlığındandır. (aşın suyuqluğu **dənin azlığındandır**).

aş şorluğu qablamadan olanmaz!! (iş qılığın, yolun bilməli).

aş verən, daş, daşıdar.

aş verənə daş vermə, daş verənə aş vermə.

aş verənə daş vermə, daş verənə aş vermə.

aş yeməyin bilməyən, ev yiyəsin uyaldar. (yeməkdən anlamayan kimsə ev iyəsini utandırır). (**uyaldar**: utandırar).

aş yeməyin bilməyən, ev yiyəsin uyaldar. (yeməkdən anlamayan kimsə ev iyəsini utandırır). (**uyaldar**: utandırar).

aş, hamıdan baş.

aşa aşa aşınar, daşa daşa daşınar.

aşa aşa aşındıq, daşa daşa daşındıq. (bizdə yaşı belə sürdük).

aşa baş gərək, başa aş. (aş (yemək) qazanmağa baş gərək, başlı olanada (ağıllı olanada) yemək gərək).

aşa başlanır, başı daşlanır. (**daşlanır**: atılır. bıraxılır). (yemək gələndə başı unutur).

aşa çəksən, çək, yurda çəkmə. (aşıvı palaş, yurduvu yok**)**.

aşa gələndə var, başa gələndə. (**baş**: bilgi. ağıl).

aşa sevgi aşırar, daşa sevgi daşırar. (**aşa**: müfrit. artıq). (**daşırar**: çaşdırar. partladar).

aşa sevgi aşırar, daşa sevgi daşırar. (**aşa**: müfrit. artıq). (**daşırar**: çaşdırar. partladar).

aşa tez qızan, aşa tez soğur. (**aşa** : çox).

aşa tez qızan, aşa tez soğur. (**aşa**: çox).

aşa yaman asılır, aşa yuvaş basılır! (**aşa**: artıq. çox**).**

aşa yavaş asıldı, aşa yavaş basıldı. (**aşa**: artıq. çox).

aşados var, başados var. (dos var aşa, dos var başa). (**başa**: ağla).

aşağ baxıb yoğuş qıl, yuxar baxıb düşün qıl (**yoğuş**: şükür) (**düşün qıl**: oyuş qıl).

aşağı baxıb, yüksəkligin bilginən, yuxarı baxıb, alçaqlığın bil ginən.

aşağı baxıb, yüksəkligin, yuxarı baxıb, alçaqlığın bil ginən.

aşağıda yuxarıdan (ucadan) deyən sözləri, yuxarıda aşağıdan demək gərək.

aşam boyu yaşanan ağrı yox.

aşamda gərəksiz bir şey yoxdu olabilməzdə, yaşamın özündədə gərək yoxdu. ölməkdən olmaqdan danışmaq ola bilər, amma gərək deyir, bəs bu gərək hardan doğdu.

aşan dağdan ov güdmə, çoraq yerdən ot güdmə. (**aşan dağdan** : dalda qalan dağdan).

aşan dağdan ov güdmə, çoraq yerdən ot güdmə. (**aşan dağdan**: dalda qalan dağdan).

aşan günün qırıq qab, hər nə qoysan saxlamaz, olan günün sənindir, dayan desən dayanmaz, olan günə gün çatmaz. (**aşan**: keçən).

aşan günün qırıq qab, hər nə qoysan saxlamaz, olan günün sənindir, dayan desən dayanmaz, olan günə gün çatmaz. (**aşan** :keçən).

aşçıda var, daşçıda.

aşı aşçıya ver, qoyu çobana. (**aşçıya** aşpaza). (**qoyu**: qoyunu).

aşı daşı qarşısız qaldı, yaxşı pis hər nə var aldı. (yaman dünyan).

aşı isti, yeri yastı. (**yastı yasdı:** : rahat).

aşı pişən bizə gəlməz, işi düşən gələr.

aşı pişirən yağdır, gəlinin üzü ağdır.

aşı yox oruc tutur, işi yox, namaz oxur.

aşıc ayür, dibim altun, qamuc ayür, mən qandamən. (**aşıc**: qazan).(**ayür**: aytır. deyir). (**qamuc**: kəmçə). (**mən qandamən**: mən hardıyam).

aşıc deyür dibim altun, qamuc deyür, mən hardayam.

aşıcın vermə, qaşığın ver, yerin vermə, yolun ver. (**aşıcın**: qazanın).

aşığın sazın al, gəlinin nazın. (**almaq**: öznəmək. diqqət göstərmək).

aşığın sözü qurtulanda, yaram yaram çağırar.

aşıq deyər içindən, düşman deyər eşindən, dəli söylər hər gələ, doslar deyər olandan. (**eşindən**: kələk olan, uydurma işlərindən).

aşıq dərdli üzüm dadlı.

aşıq dünyanı kor sanır, dörd yanı duvar. (aşığ olan özündən bilgisiz, xəbərsiz olur).

Aşıq gördüyün çağırar. (Araz Gunduz).

aşıq görüşə doyman, seviyə qanman.

aşıq herkesi kor, çevrəni duvar sanır.

aşıq olan bilməz nədir sevinmək, onun işi vırqın gəzib dəlirmək.

aşiq olan dərdəcər, eşqi olan dərd çəkməz. (**dərdəcər**: dərd çəkən).

aşiq olan, bıkıbda sevər, sevgiyə doyan çəkibdə gedər.

aşiq oldun nə gördügün sevərsin, nə olduğun bilməzsin.

aşiq oldun nə gördügün sevərsin, nə olduğun bilməzsin.

aşıq oldur ki tapa tanrısın, yox o ki tapduğunu tanrı sana.

aşiq olub nə olduğun bilmərsən, xoş görərsən sevərsən,.

aşiq olub nə olduğun bilmərsən, xoş görərsən sevərsən,.

aşıq olub umdasan birinə, çevirər könlüvü kin gövürünə. (**umdasan**: umut bağlasan). (**gövürünə: gövürüngünə**: sinliyinə. qəbistan) {aşıqlıq nərsiyə uyar, sınadıq birinə nisgilə döndü). nərsiyə: adamdan başqa hər nə)}.

aşıq oynar sazilə, gəlin olar nazilə.

aşıq ölsə kimsə ağlamaz.

aşıq sevdiyinə, göz gördüyünə inanar.

aşıq toyda, xoca gorda.

aşıq uşuq bir damlada birgəşir. (**aşıq uşuq**: aşıq məşuq).

aşıqğan, aşda pişər. (tələsən aşda pişər. tələsən aşa düşər).

aşıqın "hayı", xocanın "vayı".

aşıqla aşıq atılmaz. (aşıqla oyun oynanılmaz).

aşıqlıq nərsiyə (adama yox) uyar, sınadıq birinə nisgilə döndü. (aşıq olub umdasan birinə, çevirər könlüvü kin gövürüngünə). (**gövürüngünə**: sinliyinə. qəbistan).

aşıqlıq nərsiyə uyar, sınadıq birinə nisgilə döndü. (**nərsiyə**: adamdan başqa hər nə). (canlı birindən başqa nərsiyə ola bil aşıq) {aşıq olub umdasan birinə, çevirər könlüvü kin gövürünə. (**umdasan**: umut bağlasan). (**gövürünə: gövürüngünə**: sinliyinə. qəbistan)}.

aşımı yeyən olardı, yaşını tökən olardı.

aşın az çoxun qazan bilməz, qab bilər. yolun az çoxun ər bilməz, at bilər.

aşın çoxu azu qarın ağrıdar, azu başın aldırar. (**azu**: ya).

aşın dadı duz, ərin dadı söz.

aşın dadı duzdadı, duzun dadı düzdə. (**düzdə**: ölçüdə).

aşın dadı duzdadı, duzun dadı ölçüdə.

aşın dadı duzdur, duzun dadı düz. (**düz**: ölçü). {aş duz ilə, duz oran (ölçü) ilə}.

aşın duzu qarzandan olmaz.

aşın duzun ölçülə, havan, sözün bil çilə. (**havan**: axmaq) (axmaq sözün bil danış).

aşın işin bilməyən, hər keçənə yem olar.

aşın verən daş almış.

aşın yedin, daşın atma.

aşın yeyib, daşın atıb.

aşın yeyib, daşın görməyib hələ.

aşına aşına , çıxdı ocaq başına. (**aşına aşına**: qımıla qımıla. götün basa basa) **(aşınmaq**:öğrəşmək. öğrəşərək ilərləmək).

aşına bax, daşını ölç.

aşınada qurban, daşınada.

aşınan, qaşıq tapmasa, çəmçəylə qaşınar. (**çəmçə**: çömçə).

aşını yeməz işin görməz.

aşını yeyən çox olar, yaşını tökən az olar.

aşınmış yola sevinməyin nə gərək, tutduğun yola inanmaq gərək.

aşıran bilməz, doğrayan bilər.

aşıran bilməz, doğrayan bilər. (**aşıran**: yeyən).

aşıran, aşacaq. (aşıran, aşar). (aşıran, aşar. tutun qopuran iylənir. tüstü salan tüstüyə tutular. odu pülüyən, oda düşər).

aşıran, aşacaq. (aşıran, aşar). (aşıran, aşar. tutun qopuran iylənir. tüstü salan tüstüyə tutular. odu pülüyən, oda düşər).

aşırı qeyrət, axırı zillət. (aşırı: artıq).

aşırı sevgi dəlirir. (artıq sevgi vurqunluq).

aşırı sevgi dəlirir. (artıq sevgi vurqunluq).

aşırıb doymadı, yaladı nə doyar.

aşırıb doymadı, yaladı nə doyar. (aşırıb doymayan, yalamaq ilə nə doyar).

aşırıb doymayan, yalamaq ilə nə doyar.

aşırtçılıq sapıqlığa yol açar. (**aşırtçılıq**: ifratkarlıq. panlıq. artıq gedmə).

aşk könül yemi, aş qarın.

aşk sağır duymazki, aşk soğur görməzki. (**sağır soğur**: kar kor).

aşk, olanağı aşmaqdır. (**olanağı**: mümkünü. ehtimalı).

aşq ağladar, dərd söylədər, qanmaza çörək versən, çomaq göstərər.

aşq alar başdan başı, diş bıraxmaz külbaşı, dedilər başdan edər, başıdaşlı daşbaşı. (**diş**: dinc). (**aşq**: hər nəyə aşırı vurqunluq).

aşq almaq deyil verməkdir, aşq itmək deyil, sevməkdir, aşq könül yolun gedməkdir. (**itmək**: iğrənmək. nifrət edmək).

aşq almaq deyil verməkdir, aşq itmək deyil, sevməkdir, aşq könül yolun gedməkdir. (**itmək**: iğrənmək. nifrət edmək).

aşq almaq deyil verməkdir, aşq itmək deyil, sevməkdir, aşq könül yolun gedməkdir. (**itmək**: iğrənmək. nifrət edmək).

aşq almaq deyil verməkdir, aşq itmək deyil, sevməkdir, aşq könül yolun gedməkdir. (**itmək**: iğrənmək. nifrət edmək).

aşq birinciylə doğur, sevgi birinciylə gedir, baş seçimlə yaşır.

aşq birinciylə doğur, sevgi birinciylə gedir, baş seçimlə yaşır.

aşq duraq bilməz, aşmadan aşq bitməz.

aşq gəlcək baş dönür, günü batcaq qaş çönür. (**qaş çönür:** göy dəğişir. cəvv dəğişir).

aşq girdi başa, ağıl çıxdı qaça.

aşq mənə ərdi, incəltdi bilgətdi, seviymiş bu, bilməzdim, aşqı mənə bəligitdi.

aşq olan yerdən suç günah qaçmış.

aşq oyunu bir olay, sevən itirir, sevilən itir.

aşq sonsuz bir sürüm, yorumsuz bir sorum. (**sürüm**: pırosə).

aşq sonsuz bir sürüm, yorumsuz bir sorum. (**sürüm**: pırosə).

aşq ürəkdə doğar, ürəkdə yaşar.

aşq var tapar səni, aşq var yapar səni.

aşq yarıqları doldurur, düşükleri öldürür. (**düşükleri**: zayıfları).

aşq yaşanır, hər kəs bacardığın oynur.

aşqa dönük bağışlanmamış.

aşqa düşən sözə dolur, kökə vurulur. (**kökə**: kefə).

aşqazanın qardaşı, yaman üçün daş daşı. (**yaman**: yağu).

aşqazanın yoldaşı, yaman günün yadğanı. (**yadğanı**: biqanəsi).

aşqdır verir anlam yaşam gücünə, aşq olmasa yaşam gedər gücünə.

aşqı belə göz alsada ürəkdə qalır.

aşqı nisgillə yaşa, nisgili aşqla yok.

aşqın gəlişi, başın gedişi. (**başın**: ağlın).

aşqın gözü kor, qulağı kar (olur).

aşqın köləsi, enər gələsin, önünə çıxasın. (**enər: yenər**: üstələr).

aşqlar dilək durunca durur, sevda soluq solunca solur. (**dilək**: istək. həvəs).

aşqlar dilək durunca durur, sevda soluq solunca solur. (**dilək**: istək. həvəs).

aşlı bizi tapmaz, işsiz bizi qoymaz. (varlı bizi saymaz, yoxsul bizi gözdən qoymaz)). {qoymaz (gözdən qoymaz)}.

aşmış çayı dəlibaş, körpü arır uslubaş. (**toğarsız (**risksiz) kişi gəlişməz) **{tağar:** < **toğar**. **tuğar**. (< **tuğ**) (iki dalqa arasında oluşan qorxunc oyuq). təhlükə. risk}. (risksiz gənc pişməz).

aşnalıqlar aş ilə, acralıqlar daş ilə. (**acralıqlar**: ayrılıqlar).

aşnıb al, ayrıq qalma. (**aşnıqmaq**: yaxınlaşmaq. yoğuqlaşmaq). (qoşulub al, tək düşmə). (hər nəyə yanaşma yolu var, qaçma yol deyil).

aşra aşra doyanmaz, yalamaqla heç doymaz. (**aşra aşra**: **aşıra aşıra**: tıxa tıxa. təpə təpə).

aşsa suyu təpədən, arşın qarış ölçülməz.

aşsız baş dolanmaz.

aşsız yurda girən yox.

aşşağı baxıb yüksəkliyin bilgilən, yoxuşa baxıb alçaqlığın neylisən.

at adımına göre değil, adamına göre yürür.(ata iyi binmek için qorxmaz (cesur) ve yetenekli olmaq gərəkir. bunun gibi, bir işin de doğru yönetilebilmesi için o işin başındaki kişinin qorxmaz, bilgili ve ileri görüşlü olması gerekir).

at aldını qarar, eşək astını. (**aldını qarar**: qabağına baxar).

at aldınsa yorqa bilən yüvrük al, arvad aldın duzlu bilən uslu al.

at alırsan minib al, ev qurursan, tanab qur. **(ev qurmaq**: evlənmək). (**tanab**: tanıyıb).

at alırsan minib al, ev qurursan, tanab qur. **(ev qurmaq**: evlənmək). (**tanab**: tanıyıb).

at alırsan minib al, evlənirsən eşid al. (minib yürşün bil, dinib (eşidib. qulaq verib) sözün için) bil).

at almağa qoçaq göndər, qız almağa qoca.

at almağa yaş göndər, qız almağa yaşlı. (**yaş**: gənc).

at almamış arx çəkmə, bellənməmiş yer əkmə..

at almamış arx çəkmə, bellənməmiş yer əkmə..

at almamış, axır çəkmə.

at alsan qonan, dəvə alsan enən. (**qonan**: iki üç yaşlı at). (**enən**: doğan).

at alsan qonan, dəvə alsan enən. (**qonan**: iki üç yaşlı at). (**enən**: doğan).

at alsan minib al, xatın alsan duyurkən görüb al.

at alsan, nal tapılar.

at arıq, evlək uzaq. (**evlək**: mənzil).

at arıq, yollar uzaq.

at arıtmaq yorqat, yurt arıtmaq gücqat. (**arıtmaq**: yaxcı qılmaq. əkitmək. tərbiyət edmək). (**yorqat**: qolay). (**yurt**: el. xalq). (**gücqat**: çox güc).

at arvadın pisini, işdən salar kişini.

at at olsa yəhəri buraxar, yiyəni yox.

at ayağı nallanır, eşşək ayağ qaldırır.

at aylamda, bay sayanda. (**aylamda**: meydanda) (**sayanda**: bağışda. verəndə. nisarda).

at aylamda, bay sayanda. (**aylamda**: meydanda) (**sayanda**: bağışda. verəndə. nisarda).

at aylanda, bay saymanda. (**aylanda**: dolanşığında. alanda. meydanda). (**saymanda**: hesabda).

at aylanda, bay saymanda. (**aylanda**: dolanşığında. alanda. meydanda). (**saymanda**: hesabda).

at aylanıb qazığın tapar. (at dolanıb mıxtövləsin tapar).

at aylanıb qazığın tapar. (**aylanıb**: gəzib. dolanıb) (**qazığın**: mıxtövləsin) (at dolanıb noxdasın bular).

at aylığın, dəvə illigin düşünür.

at aylığın, dəvə illigin düşünür.

at bəllənər yürtüşdə, qurd bəllidir yırtışda.

at bəllənər yürtüşdə, qurd bəllidir yırtışda.

at bəslənirkən, qız istənirkən.

at bəslənirkən, qız istənirkən.

at bulunca, ayaqla. (**bulunca**: **bulğunça**: tapınca). (iş var bəkləməz. kişi varıyla, olduğuyla, əldəkiylə çalışmalıdır). (ayaqla çap, ata çatınca). {ayaq çalan, at çapar: çalışmaqla, atda tapılar). (qurçaçılıq, mahanaçılıq kişini, eli batırar).

at da qarın, "it"də burun.

at dişindən, kişi işindən tanınar.

at dizdən yıxılar, kişi sözdən.

at dörd ayağla yeririr, oda büdrür, yıxılır.

at əsrəgən yolda qalmaz, el əsrəgən çöldə qalmaz. (**əsrəgən**: əsirgəyən. qoruyan. baxan. göz olan. becərən).

at əsrəgən yolda qalmaz, el əsrəgən çöldə qalmaz. (**əsrəgən**: əsirgəyən. qoruyan. baxan. göz olan. becərən).

at getdi qaldı qatır, dünya sona çatır. (qapı bir dabanda dolanmazmış).

at gəlsə, axır çəkilər.

at görəndə axsar, su görəndə susar.

at görməyən at görsə çapar çapar öldürər.

at gözündən yaşqanı, girdir başın oldağlara, görgilən keçmişləri gəlcək günə yordav qıl. (**yaşqa**: tutu. pərdə) (**oldağlara**: olanlara. veqeiyyətlərə). (yordav: yoldav. çara. olçat. çıxış (yolu). tədbir).

at gücünü karvanda gör, ər gücünü meydanda.

at ilə arvad, iyidin bəxdinə bax.

at itirmiş qulağından atın səsi kəsilməz.

at iyidin altında, söz bilgənin ağzında.

at izi, it izinə qarışmış.

at qaça qaça, quş uça uça yetişər. (at qaça qaça, quş uça uça, kişi diyə diyə (kişi çala çala yetişər).

at qaçar, atlı özün övər (tə'rifləyir).

at qanlı, igid canlı gərək, qadın baxmadı sözə, saxlamaq nə gərək.

at qanlı, igid canlı gərək. qadın sözə baxmır, saxlamaq nə gərək.

at qazanır eşşək yər.

at qazanır eşşək yər.

at qazığı (mıxtöglə) gümüşdən, yol azığı yemişdən.

at qılığın iyesi biler.

at qılığına iyəsi, cocuğunkuna anası yetik. (qılığına: xəsiyətinə). (yetik: varid).

at minəndə, öz atıva minginən, özgə atı tez arır.

at minənin, ət yeyənin, don geyənin, yol gedənin, dəd çəkənin, kef görənin, qut qapanın. (**qut**: baxt).

at minənindi, ev qonanındı, don geyənin.

at minənindi, ev qonanındı, don geyənindi.

at olmasa, yol olmaz, dil olmasa, el olmaz.

at olmasa, yol olmaz, dil olmasa, el olmaz.

at olsa ət tapılar, dad olsa ad tapılar.

at olsa ət tapılar, dad olsa ad tapılar. (at olsa, yəhər tapılır.

at osdurağı, arpa gücüdür.

at öldürməyən, baytar olmaz. (baytar: malotac: mal həkimi).

at öldürməyən, baytar olmaz. (**baytar**: malotac: mal həkimi).

at ölənəcən otlar.

at ölər meydan qalar, iyid ölər ad san qalar.

at ölümü, itə bayram.

at ölümü, itə bayram.

at ölüncən otlar. (at ölənəcən otlar).

at ölür taxa qalır, igit ölür yada qalır. (**taxa**: nal) (**yada**: xatirə).

at sürüsün axdarar, qartal yuvasın. (at sürüsün, qartal yuvasın güdər).

at sürüsün, qartal yuvasın güdər. (at sürüsün axtarar, qartal yuvasın).

at təpirməz, ilan soxmaz deyilməz.

at uçub alan qaldı, igit köçüb san qaldı, gəlcəklərə öğüc qaldı. (**öğüc:** ibrət).

at üsdə düşmanca, endisə dosca davrananlar.

at yemdən, yer kübrədən öğünər.

at yoldaşın pisini, işdən qoyar kişini.

at yürüşdə, qurd yırtışda, ər gürəşdə, batır savaşda.

at, çapa çapa, quş, uça uça.

at, ər altında, ər, qeyrət altında.

ata ana acı alma yesə, oğul qızın dişi qamar. (**qamar**: qamışır).

ata ana körpüdür, sevgi yara çatınca.

ata ana qayqusudur, ev eşik, uşaqların qayquşudur oy deşik (qayquşudur: fikr zikridir. məşquliyyətidir).

ata ana yenilməz, qızıl gümüş köhnəlməz. (**yenilməz: yenilənməz**. təzələnməz).

ata arxadan, öküzə öndən, axmağa heç yöndən, yoxunma. (**yoxunma**: yaxınlaşma).

ata ata atıcı, baxa baxa baxıcı olar.

ata babasın tanımıyan xanlıq iddiası edər.

ata baxsan barlı bax, yağu qarşa yar olsun. {**barlı**: sürəli (dəvamlı) iyi}. (**qarşa** qarşında). (ata baxarsan barlı bax, döğüş gün yar olsun).

ata dirək, oğul bilək. (ata kökdür, oğul qoldur).

ata dos kimi bax, düşman kimi min.

ata düşmanı, dosd olmaz.

ata evində ügey ana, ər evində qaynana.

ata ət verənin, itə ot verənin, qalmağa göt verənin sonu olmaz.

ata ət, itə ot verilməz.

ata göylü balada, bala göylü havada.

ata göylü balada, bala göylü havada.

ata güc, adama baş (gərək).

ata qabağdan, itə daldan yanaş.

ata maldan kar çıxmaz, başda baxtın olmasa!.

ata min, həq danış. (həqqi, at üstə danış).

ata mindi, atasını, atdan endi, atını tanımadı. (ata minər, atasın danır, atdan enir, atın danır. (ata mindi atasın tanımadı, atdan düşdü atın).

(ata mindin, özüvü unutma, atdan düşdün, atıvı. (atdasan özünü, atdan endin atın unutma)).

ata mindin, özüvü unutma, atdan endin, atıvı. (atdasan özünü, atdan endin atın unutma).

ata minər, atasın danar, atdan enər, atın danar. (ata mindi, atasını, atdan endi, atını tanımadı). (ata mindi, atasın tanımadı. atdan düşdü, atın tanımadı).

ata minib atanı, atdan düşüb atın unutma.

ata oğlu, ataç doğar.

ata oğul dış bolmuş, doğma doğan yad olmuş, torqa başlar baş olmuş, şoraqlıqda göy çıxmaz, böylə eldən el çıxmaz. **(dış bolmuş**: yad olmuş). (**doğma doğan**: qohum tanış). (**torqa**: uşaq. axmaq). (**şoraqlıqda: çoraqlıqda**).

ata oğula bağ bağışlamış, oğul atıya salxımın belə qıymamış (verməmiş).

ata olandan, balanı tutmusan, qalanı atmısan!.

ata sapılı ataş, ana sapılı anaç. (**sapılı**: əğimli. meyilli).

ata saplı ataş, ana saplı anaş. (ata səpir ataş olur, ana səpirsə anaş olur – səpmək: əkmək. böyütmək).

ata sevgiyə işənmə.

ata sovğası tirk ötər, tez tükər. (**sovğası**: irsi). (**tirk**: iti).

ata yaxşı bax, öküzüdə unutma.

ata yəhər, dilənçiyə torba ağırlığ edməz.

ata yumağlanar, oğul budağlanar.

ata yumaqlanar, oğul budaklanar.

ata, toprağı ələk vələk edir, oğlu əkir, törəni yığır.

atacaq daşın, at uzaqlara bildiyin dərək, tutduğun yolu bitəcək sonu gedəsin gərək.

atacaq daşın, at uzaqlara bildiyin dərək, tutduğun yolu bitəcək sonu gedəsin gərək.

atadan altı olunca, anadan iki ol.

atadan güdmə qomar, ilkin dadar, sonğun qoxar. (**qomar**: sovğa. irs. miras).

atadan güdmə qomar, ilkin dadar, sonğun qoxar. (**qomar**: sovğa. irs. miras).

ataq üçün yol varanlar, hər gələnə yalvaranlar, yaltaqlar, dalqavaqlar. (**ataq**: ləqəb. ünvan. (**dalqavaqlar**: fürsəttəlblər).

atalar dedi, bizdə dinlədik, vermədik qulaq, dura inlədik. (**dura**: durmadan).

atalar sözü bazarlarda satılmaz.

atalar sözü elin gözü.

atalar sözü iki olmaz. (atalar sözünün doğruluğunda quşqu yoxdur).

atalar sözü qurana girməz, yanında gedər. (atalar sözü qurana girməz, yanınca yelişir).

atalar sözü qurana girməz, yanında gedər. (atalar sözü qurana girməz yanıca gedər).

atalar sözü sözün düzü.

atalar sözü, ağlın gözü.

atalar sözü, atar sözü. (sözün için söylər).

atalar sözü, söz bəzəyi, saqqal qoysan, üz bəzəyi.

atalar sözü, sözlərin düzü.

atalar sözü, sözün yarışı.

atalar sözün saxla, könlüvü açar hər vax.

atalar sözünə uy, işinə uyma, onlar qələmi bıraxıb oxu seçdilər. (**uy**: bax). (**qələmi:** yazını) (yazı bilgi oxu (təhsil), dəlir oxu yazır alnı). (bilgisiz ellər, çölü gəzləyir).

ataların söziylə, Türkün tatlı diliylə, yol yürüyən yorulmaz!.

Ataların sözüdür, deyərlər: “yük əyiləndə daşı da yerindən (yurdundan) eylər”. Anlamını bilməyənlər üçün deyim, bilsinlər: hansısa daşqaçı heyvanın belinə çatılan yükün dəngəsi (tarazlığı) pozulanda, yükün əyilən yüngül tayına bir daş qoyub dəngəni düzəldərlər, gəlib uğrağa

(mənzilbaşına) çatdıqları yerdə isə daşı götürüb atarlar qırağa, daş da beləcə yerindən ayrı düşər.

atalarsözü, adalı sözlər. (**adalı**: dərs almalı. ibrətli).

atalarsözü, atanın qanı, ananın canı.

atalarsözü, başın gözü. (**başın**: ağlın).

atalarsözü, başın gözü. (**başın**: ağlın).

atalarsözü, dosları, dosda eşir, düşmanın bağrın deşir.

atalarsözü, için sözü.

atalarsözü, özün özü.

atalı söz, ağıla göz.

atalı söz, başıva göz. (ağıla göz).

atam dedim atılmır, satam dedim satılmır, gecə gündüz yapılmır.

atam ilə atanı deyincə, özüm ilə özünü de.

atam oğlu dura dur, börüngə bax, ula dur! (**ula dur**: ayıq dur). (kardışim, evrin (evir. dünya) duranca durasın, qurd kimi, ayıq olasın).

atamazsan ağuzundan dadı baldursa dilin!.

atan balası olma, adam balası ol.

atan çatdı, yatan qaldı.

atan çatdı, yatan qaldı.

atan soğan, anan sarımsaq, hardan oldun gülbəşəkər?!. (**gülbəşəkər**: dadlı duzlu, eyi qoxulu).

atana gözü oğul ilə uşaqda, oğlun gözü avlu ilə bayırda.

atanadan öğrəşirik danışmaq, çevrə bizə öğrədəcək susmağı. (**çevrə:** mihit).

atananla, dilinlə, topraqınla övünmə, kim olub, gördügün işinlə övün.

atanası sevən kimi sevəmədi heç uşaq atanasını.

atanın düşmanı, oğula dosd olmaz.

atanın qılığı, balağa giriş. (atanın edişi, adəti, işi balaya örnək kimi keçə bilər).

Atanla atamdan niyə danişırsan, özünlə özümdən danışsana. (Araz Gunduz).

atanlardan içində yer qalmasın, sevənlərdən çalış dilin azmasın.

atanlardan qalmaz yadımda bir iz, başqa donda gəzirsək, içlərmizdə biriz.

atanlardan qalmaz yadımda bir iz, başqa donda gəzirsək, içlərmizdə biriz.

atanlardan yadında iz qalmasın, sevənlərin çalış yadın salmasın. (**salmasın**: itirməsin).

atarsın yün olur, təpərsin keçə, sivridirsin (uzaldırsın) börk. (hər iş qıraqdan qolay gəlir).

atası acı alma yesə, oğlanın dişi qamar.

atası kəsir, bala baltalır (birbirindən kopoyğludurlar).

atası qoruk yer, oğlun dişi qamaşır. (**qoruk: qora**).

atasın sayan, oğlu sayalar. (atasın sayığan, oğlu sayğılar).

atasın sayığan, oğlu sayğılar. (atasına hörmət göstərən, oğlundan görər hörmət). (atasın sayan, oğlu sayalar).

atçı gördün atçılıq, aşçı gördü aşçılığın alıbgör. (**alıbgör**: öğrən).

atda ayaq, ərdə bağır olmasa, yurdun dağar, ölkə qalır özgəyə. (**bağır**: qayrat).

atda güclə yeriş, ərdə başla iş (sayılır, hesaba gəlir).

atda qarın, itdə burun.

atdan düş, addan yox.

atdan düşən eşşək axdarar.

atdan düşən, eşək arar.

atdan düşən, yenə atlanar.

atdan düşmüş, yəhərdən yox.

atdan düşüb, yəhərdən düşmür. (atdan düşüb, yəhərin buraxmır).

atdan salıb ad yaxarlar. kəndivə güvən.

atdığın daş düşəcək, yaşın uzaq sürəcək, amac qursan çəkin bil, son durağa yetingil. (**çəkin**: ağırlığın).

atdığın ox havıya, dalqılar bir gün dalıva. **(dalqılmaq:** qayıtmaq).

atdığın vurar, tutduğun qoparar.

atdımı kiçik sayma!. -yaşam iki atdımlar arası yaşanır.

atdıya çatmaz yayaq, bu dosluğu sən bırax. (**yayaq**. piyada).

atğır ovçu atanda oxu, dəlib deşmiş, yağu gözünü. (**atğır**: nişançı).

atı arıyanda (yorulanda) gör, igidi qarıyanda gör.

atı at yanında bağlasanğ, soydaşmazsa, suvdaşar. (**suvdaşar**: tavtuşar. tüvtəşər). (**suv**: **suy.** davranış. tüvarış. xulq. xuy).

atı atın yanına bağlasan ya hayın götürər ya xuyun.

atı çabıq, əti çapıq. (**əti çapıq**: əti hazır. əti kəsik, doğraq). (atı çabıq, çapıq, yüyrək, hızlı olanın, yaşamda gücülü yetərli olur).

atı çapar minəni, qılış çalar tutanı.

atı dişdən, kişini işdən tanı.

atı itiyin qulağı kişnəşər.

atı itiyin qulağı kişnəşər.

atı itmiş qulağından atın səsi kəsilməz.

atı olan qaldı, yəhəri olan geddi. (atı olan qaldı, yəhəri olan minib getdi).

atı olmayan, arpa nə gəzər. atı olmayan, ayağla gəzər.

atı saxlayan, oğlu əkləyən tanır. (**əkləyən:** əkidən. eğitən. becərən. tərbiyət verən).

atı taxalanca, yolu baxala. (**taxalanca**: nallayınca). (atı nallamaqdansa, yola baxdır, yolu düzəlt, yol düzəlt).

atı ürkən, əri qorxan yerindən saxla. (yaşam oldağla, başa gələnlərə çəliş çalışdır. evrən dənək yok, yaşam yeridir).

atı yoxdu, eşşəyi də bəğənmir.

atı yorğana kimsə çatmamış. (**yorğana**: yorğa olana). (atına baxan, ardına baxmaz). (işin qeyim tutan, izçisinin gözün oyar).

atı, arıyanda gör!, eydi, qarıyanda gör!. (**arıyanda**: yorulanda). (**gör**: gözətlə. bax. baxmaçılıq ed). (**eydi**: eyidi. iyidi. iğidi. igidi).

atı, yoluyla tanı, eli diliynən. (**yoluyla**: yürüşilə).

atıb gedincə, əkib ged.

atıb gördü, əkib biçdi.

atıb tutmanı sevməmiş yaşam, tutub oynadır yaşamın yolu. (**yolu**: fırıldağı. dolanbacı. çarxı).

atıcı ovçunun, tüfəyi paslanmaz.

atığı quyruğdan, bu günkü öpgə yaxcı. (**atığı**: **atınğı**: yarınkı). (**öpgə**: ağciyər).

atılan daş geri döndü, baxtım onda çöndü.

atılan daşa baxdıqara tuşlanar. (atılan daş qarabaxdı tutar).

atılan ox atan yayı unutmaz.

atılan ox daşdan qayıtmaz, daş ilə qayıdar. (atılan ox daşdan qayıtmaz, daşla qayıdar).

atılan ox, aydılan söz qaytmamış. (**aydılan**: deyilən).

atılan ox, daşada dəysə, qayıtmaz, yayılar.

atılan oxsa, saxlanmaz, aytılan sözsə, tutulmaz. (**aytılan**: deyilən).

atılmış ox, deyilmiş söz, savılmış gün qayıtmaz.

atılsa yarıcı, vurduğu yara onunla itər. (biri səni çox sinsidirsə, yaxcı pisin büküb tulla).

atım dedim atılmıyır, satım dedim satılmıyır, gecə gündüz yapılmıyır.

atım yoxdu aranda, qayğım olmaz borandan. (boran yoxdu atım vura, yolum yoxdu atım yora).

atın adı ulu, dəvənin dabanı. (**ulu**: yekə).

atın ayağına, itin quyruğuna bax.

atın başı keçibsə, quyruğundan tutulmaz.

atın dişinə bax, kişinin işinə.

atın dişinə, adamın işinə (bax).

atın əşgin, qılıcın olsun. əşgin (**kəsgin**: yarqın). (**əşgin** yürgün).

atın gücü yerişi, mərdin ərliyi işi (sayılır, hesaba gəlir).

atın itirib noxdasın axdarır.

atın iyi, yol qısa, yarın iyi, yaş uzun.

atın qarnı itin burnu.

atın satıb eşşək alan, toyuq satıb yumurta alar.

atın sirrin gözündən, ərin sirrin sözündən.

atın sirrin gözündən, mərdin sirrin sözündən.

atın varkən yol tanı, atan varkən dos tanı.

atın varsa, nəyin yoxdur, atın yoxsa, nəyin vardı.

atın yaman yol almaz, qadın yaman ev qalmaz.

atın yaman, sat, qardaşın yaman, qaç, arvadın yaman, at.

atın yorqa, uzaq yolu yaxın gör!.

atın yüvrək yol bitər, qolun yevrək iş bitər.

atına acıyan, yəhərin arxalar (daşıyar).

atına baxan, ardına baxmaz.

atınğ yaxşı olsa yolun ırağı, oğlun yaxşı olsa, könül çırağı: atın iyi olursa uzun yol (xoştur), oğlan iyi olursa könül çırağıdır, ışığıdur.

atışsan, söz çıxar, tutuşsan göz çıxar.

atla ilan quyruğundan tutulmaz.

atla itlə doslaşan, kişilərlə duzlaşar. (**duzlaşmaq**: yediyi çörəyə, kişiligə dəğər vermək).

atla itlə doslaşan, kişilərlə duzlaşar. (**duzlaşmaq**: yediyi çörəyə, kişiligə dəğər vermək).

atla qadın tumarsızın duranmaz.

atla qatır qatnaşıban çaqcışar, ortadaki eşək börkü yırtışar. **(çaqcışmaq.** taxcışmaq. birbirinə çaxılmaq, taxılmaq. savaşmaq).

atla yola çıxan, eşşəkçini yolda bıraxar (qoyar).

atlacaq daşlar olurmuş sənə sarı, sənə qalmış yasamaq köprü duvari. (yoluva qarşı atılmış əngəlik daşlarından köprü azu (yaki) duvar yapmaq sənə qalmış).

atlan oxun, aytan sözün qaytılmaz. (**aytan**: dediyin).

atlansan özünü, atdan endin, atını unutma.

atlar ölüb, itlərin bayramıdır.

atlatan deyiləm gücün günlərim təkinə, çatmayıb hələ umuq təkinə. (**umuq**: gözlənilən açıqlıq).

atlı . **-atlı oldun** lağa qoyma yayanı. (**yayanı**: piyadanı).

atlı çapar atını, dayça çınlar mən qaldım. (**çınlar**: dəlirər).

atlı ilə yayaq, savaşa qıldılar ayaq).

atlı qonağı ata mindirərək, yaya qonağı uğurlayaraq yolçu edərlər.

(**uğulayaraq**: yola salaraq).

atlı olan ətsiz qalmaz. (atlı oldun, yol yaxın).

atlı olan yolun aldı, atsız olan, yolda qaldı.

atlı olan, altda qalmaz. (yaraqlı ol, işi apar).

atlı oldun lağa qoyma yayanı. (**yayanı**: piyadanı).

atlı oldun yayanlığı unutma. (**yayanlığı**: piyadalığı).

atlı oldun, yol yaxın.

atom bombu dağ yarar, sevgi odu dağlayar.

atsa birin sənin çün, atar səni obri çün. (**çün**: **üçün). (obri:obiri. olbiri)**.

atsan daşı quyuya, yoxsa dibi danqamaz, aytsan sözü kişiyə, yoxsa başı anlamaz. (**danqamaz: çanqamaz**: səs verməz).

atsan imgəyə dəğər oxun doğrusu, bir barığa yetməz yükün oğrusu.

(**imgəyə**:nişana). (**barığa**: mənzilə). (**oğrusu**: əğrisi).

atsan kəsək dosduva, çanğı tozu gözündə.

atsan tutular, sorsan tapılar. (qaçsan tutular, sorsan tapılar).

atsan tutular, sorsan tapılar. (qaçsan tutular, sorsan tapılar).

atuva yüyən, kəndivə güvən. (saxlayırsa qorxu yok, saxlamırsa qayğu yok).

av avlanar, tav tavlanar, (iş olub bitər).

av avlandı, tav tavlandı. (iş olub bitər).

ava gedən, avlanır.

ava gəlməz quş olmaz, başa gəlməz iş.

avara it, gündüz hürər.

avçı avında, yolçu yolunda.

avçı bilər alları, ayı bilər yolları!.

avçı bilir alları, ayı bilir yolları. (avçı bilir alların, ayıda bilir yolların).

avçı bilir alların, ayıda bilir yolların.

avçı düşman kor olur, avçı dosdun gözü var.

avçı girməyən qulağda geyik çox olur.

avçı neçə al bilir, ayı onca yol bilir.

avçı neçə al bilir, ayı onca yol bilir.

avçı nə bilir ürək nədir, ürəkdən vurmağa ürək istəmir.

avçı nə bilir ürək nədir, ürəkdən vurmağa ürək istəmir.

avın quşu büründən, bilgə kişi dilindən (bəllənir). (**büründən:** qılığından).

avına boysanar çimənli düzlər, çimən solar, ceylan qaçar əylənməz, bilgə aydar bilən dosduna, kim olar düşməsin ölüm tosquna, çoğun fırlab salar yerin astına, qalan olmaz kimsə burda əylənməz. (**tosquna:**

posquna: pusquna. duzağına. cələsinə. tələsinə). (**bilgə**: həkim. hikmətçi). (**çoğun fırlab**: fələk fırladıb).

avlanmamış balıq, soyulmamış dəri satılmaz.

avsalanmasa, avsalar könül. (könlüvü (həvəsivi) cilovlamasan, osəni cilovlayacaq).

avulu yaxın it, qaşqırdan qorxmaz. (kəndi, köyu yaxın it, qurtdan qorxmaz).

avulu yaxın it, qaşqırdan qorxmaz. (kəndi, köyu yaxın it, qurtdan qorxmaz).

ay aylanar il olar, don dəğişər, don olar. (**aylanar**: dolanar). (**don**: 1. fəsil. fəsl. -**don dəğişər**: hər nə dəğişər. 1. buz. ölüm. -**don olar**: dona dönüşür).

ay balam yoxsuz, umarım xoşsuz. (çoxan görüşməmiş dosda deyilir).

ay bu evrəni tutuzlu sanan, sonun gəlmiş al palanıvı. kürün pulun qoyub gedisən, al bu ağ, dön verrəm qalanını. (**tutuzlu**: bəfalı).

ay çevrəyə oyunçaq, könüldə baş doluncaq. (baş onmayıb inanmayınca könül əsəcək). (**onmayıb**: hinməyib, razılaşmayıb).

ay çıxalı tanışdıq, gün batalı yadışdıq. (çox sürməyən dosluqlar üzrə deyilir).

ay doğsa hammı görər.

ay doğursa el görür. (**el**: hammı. aləm).

ay doğuşundan, ər yerişindən bəllənir.

ay görününcə, ulduza artıq gəzinməz.

ay gün (göy), su topraq yel qamançılığın təmělləridir.

ay gün (göy), su topraq yel qamançılığın təmělləridir.

ay günü gözlər, gün ayı gözləməz.

ay ışığın evrənə, şam ışığın dibinə.

ay ışığın, gündən alır.

ay kiçildikcə, ulduzlar gurca ışınar. (aysız gecə, ulduz gurca ışınar). (kiçik ayla ulduz ışar artığın).

ay kimi yandı gecəmdə gül üzün, gələcəksən di du gəl tarın üçün. (**tarın üçün**: sən bil allah. səni and verrəm allaha).

ay qəmin bir kərə, el qəmin min kərə düşün.

ay qız səni qara batası, yaz gələli gülə yatası. (**alqış**).

ay qoca ivrən, köçən kimdi, köçürən kim.

ay olub günə, günü (rəqib), bulut gizlədir günü, günü günə satma, xoş keçir günü.

ay tünü yarıtır, baş durmuşu. (**yarıtır**: aydınladır). (**baş**: us. ağıl). (**durmuşu: yaşamı**).

ay tünü yarıtır, baş durmuşu. (**yarıtır**: aydınladır). (**baş**: us. ağıl). (**durmuşu: yaşamı**).

ay ulduzun batıran, qara günü gözətən. (**gözətən**: gözləyən).(**qarqış**).

ay var ili gözlər, il var ayı gözlər.

ay var, ili gözlər, iş var günü gözləməz.

ay yanar tün yarğıtar, gün yanarmış gündüzü, baş ışıqsa yarğıtarmış durmuşu. (**yarğıtar**: ışıqladar). (**durmuşu:** yaşamı).

ay yaşdıqca ışlanar. (ay qocaldıqca, böyüdükcə ışıqlanar, ışığı çoxalar).

ay yayana gülən atlı. (**yayana**: piyadıya).

ay yazan yazı, belə yazı yaz, mutlu bayram, qutlu yaz.

ay! qoca ivrən, köçən kimdi, köçürən kim.

ay, örtüklə qapanmaz, qurçamasan bulaq suyu bulanmaz.

ay, örtüklə qapanmaz.

ayağ ayağ nərdivənə çıxarlar.

ayağ bir olsada, min kərə atılar. (ayağ birdir, atdığı min).

ayağ gedməsə əl gətirməz.

ayağ gedməsə əl gətirməz.

ayağ kiçilmək yox, böyümək güdər.

ayağ sığmaz, baş soxar. (ayağı sığmır, başın soxur).

ayağ sınmayınca, cingildəyəcək. (**ayağ**: qədəh).

ayağ yalın, qanqal qalın. (**qanqal**: dəvə tikan).

ayağ yeriməzsə, iz düşməz.

ayağa dəğməz daş olmaz, başa gəlməz iş olmaz.

ayağa dəğməz daş olmaz, başa gəlməz iş olmaz.

ayağan görə çaruğun, könlüvə görə yaruğun.

ayağan görən yorqanın uzat. (işlə. çalış. yaşamla dəğiş, yaşamı dəğiş).

ayağan qalıb, yoluva görən başmaq al.

ayağdaki bit, atdan düşürər.

ayağdakın yığır, əlindəkin bıraxır. (yazdaki suvlınu izləyib, evdəki toyuğu ıçqınma).

ayağdan çıxan toz, ağıza girər.

ayağdan çıxan toz, baş üsdə qonar.

ayağdan iz bıraxmaq üçün çiynivə çox yük götürməlisən.

ayağı qıssa, dayağı uzun.

ayağı qutsuz deyincə, utsuz desinlər.

ayağı yelli, iti qaçar, başı yelli, dərin batar.

ayağın altına "bir" bax, qabağa "min" bax.

ayağın yekə olsa, atdımın kiçik tut.

ayağın yerdə süzür, uyalın göydə üzür. (**uyalın**: xəyalın).

ayağın yükü, başdandır.

ayağını isti tut, başını sərin, yeməyinə düşün, düşünmə dərin.

ayağının altına baxan, yıxılmaz.

ayağıva elə daş bağlakı, başıva dən gəlsin.

ayağla ayağ işləsə, gözlə baş yerində olar.

ayağla gələn qonağı, atınan yola salarlar.

ayağla yoluva görən başmağın olsun.

ayağun altda bu günsə bitən ot, gələcək gün sinin üsdə bitəcək.

ayağun görən, yolun görən başmağun.

ayağun uzat, güdə gəlsə yorqanun, kütləmə ayağ, uzun götür yorqanun.

(yaşamda istəkləri, gərəklərivi sağlamağa, tə'min edməyə çalış).

ayaq ayaq nərdivənə çıxarlar.

ayaq bir olsada, min kərə atılar.

ayaq birdir, atdıqı min.

ayaq büdrəsin, dil sürücməsin. (**sürücməsin**: **sürcəməsin**. yanılmasın. xəta edməsin).

ayaq çiçilmək yox, böyümək güdər.

ayaq qabı dar olunca, dünya başa dar gələr. { ayağ qabın dar olsa, dünyanın genliyindən, sənə nə asar (fayda)}.

ayaq qabı dar olunca, dünya başa dar gəlir.

ayaq qabın dar olsa, dünyanın genliyindən, sənə nə asar (fayda).

ayaq üsdə, qırxı çıxıb.

ayaq vardır yürməyə, əldə vardır almağa, qulaq vardır duymağa, beyin vardır gördüklərin, duyduqların qanmağa.

ayaq vardır yürməyə, əldə vardır almağa, qulaq vardır duymağa, beyin vardır gördüklərin, duyduqların qanmağa.

ayaq yeriməzsə, iz düşməz.

ayaq yetmədik yerlərə yet könül. (ayaq çatmadıq yerlərə çat könül).

ayaq yükü baş boşu, boyuna yük sınıq qol.

ayaq, qorxaqa, qaçqu yaraq, alqara durqu yaraq. (ayaq, qorxaq üçün, qaçmağa yarar, qormaza durmaq üçün yarar).

ayaqdakən doğrular, tapar dəğər varlılıq. toxluq olub doğru girsə meydana, çoğun girər dövrana. (**çoğun: > cühan. cihan. cəhan**).

ayaqdakən düşündüyün görgilən, ölüm gəlsə çağun qalmaz oymağa, töküb geri başın çəkib gedərsən.

ayaqdaki bit, atdan düşürər, başdaki bit baş itirər.

ayaqdakın yığır, əlindəkin buraxır. (yazdaki suvlın izləyib, evdəki toyuğu ıçqınma).

ayaqdan çıxan toz, baş üsdə qonar.

ayaqdan düş, ayağa düşmə. (**ayaqdan düşmək**: gücün itirmək). (**ayağa düşmək**: gücə yenilmək. gücə boyun olmaq, qoyun olmaq. təslim olmaq).

ayaqdan iz buraqmaq üçün, kəndivi ağır yükünməlisin.

ayaqıva daş bağlakı, başıva dən gəlsin.

ayaqqabın dar olsa, evin genliyi nəyə kar.

ayaqla gələn qonağı, atla yola salarlar.

ayaqla gəz başla dolan. (dolan: düşün, ağılla idarə ed).

ayaqla vurur, ağızla tutur.

ayaqsızdır yalan, üstüvə palan. (eşşək, qanmaz olub inanma yalanın ayaqsızlığına. çolaq yalan düz doğrudan iti qaçar).

ayaqsızı unutma, ayaqyalın gəzinsən.

ayanı güdən, ayaxdan olar. (**ayanı güdən**: ovuca baxan, ələ baxan).

ayasın (ələ baxan) güdən, ayaxdan olar.

ayaz günü unutma, gön çarığı qurutma.

ayda bir gəl dosduna, qalxsın ayaq üstünə, gündə bir gəl dosduna,yatsın sırtı üstünə.

ayda gəl, ildə gəl altına sərrəm xalı, yeddidə gəl, gündə gəl astuva sürrəm çalı. (**çalı**: çər çöp). (**astuva**:altuva).

ayda gələn asov yeyər, gündə gələn kəsov. (**asov**: asma. asıb pişirik. özəlliklə ət yeməyi).

ayda ışığın gündən alır. (ay ışığın, gündən alır).

aydan arı, gündən duru.

aydıla söz, aydılacaq sözün qaynansı. (deyilən söz, deyiləcək sözün qaynansı).

aydılan söz, aydılacaq sözün qaynanası. (**aydamaq: ayıtmaq**: demək).

aydılan söz, aydılcaq söz qaynanası. (**aydılan**: deyilən). (**aydılcaq**: deyiləcəl).

aydılmadıq gəp yok, duyulmadıq gəp çok. (**aydılmadıq**: deyilmədik).

aydılmadıq söz yox, eşidilmədik söz çox.

aydın olsun günlərin, ışıldasın gözlərin, keçmiş ola nə varsa, qutlu olsun gəlcəyin.

aydın olursa eşik, dinc yatar qara pişik. (pişik gecə ova çıxar).

aydın sana, doğru sözə, düz ilqara eşq olsun. (**aydın sana**: açıq fikrə).

aydıngünüz danından. (günün necəkeçməsi səhərindən bəllənər).

ayğaq deyinər yaşdı güdə hər iki başdan, aydınlara aydın görünər tünlü gecə danda boğulmuş. (**ayğaq: aylaq**. qanmaz. gic). (avara birinə yaşam güdə gəlir, qanan gecəni ışıqla boğur).

ayı biləyinə, yaluğ ürəyinə güvənir. (**yaluğ**: insan).

ayı dayındı, köprü aşınca, dayça atındı, ata çatınca.

ayı ilə meymun, bir birinə uyğun.

ayı kim görmüş, kor qoca məmi.

ayı olsunda belə düşsə ələ oynadılarmış, əyilən ənsə əğildikcə aşağı vurularmış.

ayı vurulmadan, dərisi satılmaz.

ayı vurulmadan, dərisi satılmaz. dil (söz) deyilmədən iyid başı alınmaz.

ayı yuvasında, qoz axdarma.

ayıbsız dənğ izləyən, dənğsiz qalır. (**dənğ**: tay. tuş).

ayıbsız, nə dost olar nədə arvad olur. ayıbsız dənq izləyən, dənqsiz qalır.

ayıdan qaçıb börüyə, yağışdan qaçıb damcıya düşmək. (**düşmək**: tutulmaq).

ayıdan qorxan, meşədə nə gəzir. (ayıdan qorxan, meşəyə girməz).

ayıdan qorxan, meşəyə girməz.

ayığ verdin qılınqılı. (və'də verdin əməl ed).

ayığın başında olan keflinin dilində olar.

ayığın başında olan keflinin dilində olar.

ayığın düşündüyün, əsrük (kefli) deyər.

ayığın içində olan, əsrüyün (keflinin) dilində olur.

ayıq aytdın tutqınan. {ayıq aytdın **qaymağun. (qaymağun:** gözlə cayma)}. (**ayıq aytdın**: söz verdin).

ayıq ol! sevdiyin səni dəğişir, sənlə dəğişmir.

ayıq ol! sevdiyin səni dəğişir, sənlə dəğişmir.

ayın başı, səndə bir, məndə bir.

ayın on beşi ışıq, on beşi qaranlıq (dı).

ayın on beşi ışıq, on beşi qaranlıq olur.

ayın onbeşi qarıq, onbeşi yarq.

ayın yarısı qaruq, yarısı yaruq. (ayın onbeşi qaruq, onbeşi yaruq).

ayını hamı tanıyır, amma ayı heç kəsi.

ayını öldürərlər, dərisinə qiymət qoyarlar. (ayını öldür ilkin, sonra dərisinə qiymət qoyqil).

ayının acı, oynamaz.

ayının özündəndə qorx, izindəndə (ləpirindəndə).

ayır buyur. (ayrat buyrat). (**ayrat: ayır**: təfrəqə sal). (**buyrat**: buyur. buyruq sür. hikumət ed)}. {bulat, durut. (bulandır, istədiyini qalxıt). (aranı qarışdır sözüvü yerit)}. {bölüt burut). **(burut:** hükm ed)}. {ikit**,** buyur. **(ikit**: təfrəqə sal)}.

ayırmasan sevgi çağın payını, gözləgilən özləgiyin qayını. (**özləgiyin**: **özləginin**: nisgilinin). (**qayını**: bəlasını).

ayqır görməyən qısraq, qulunlamaz. (**qulunlamaz**: balalamaz).

ayqır görməyən qısraq, qulunlanmaz.

ayqıt işlər, əl övünər. (**ayqıt**: əbzar).

aylanan baş yönün bilməz. (**aylanan**: dönən. gicələn) (**bilməz**: tanımaz).

aylanc olsada yol yaxşı. (aylanc olsun yol yaxşı). (**aylanc**: dolambac).

aymaz kişi yatma dur qıl işini, keçdi karvan, durmaz qığırmaq bilən, ölüm gəlib tutar yaxandan bir gün, tutdusa ayrılmaz çığırmaq bilən. (**aymaz**: qafil).

aynaya baxaraq yox, adama baxaraq düzəl.

ayran aşı,dalımı qaşı,anan xoşu,mən oynaşı.. (deyim).

ayran aşı,dalımı qaşı,anan xoşu,mən oynaşı.(deyim).

ayran tapmaz aşına, soxmalar soxar başına.

ayran ver ayransıza, qalmaz bu devran sizə, vaxt olar ayran olar, verməzlər ayran sizə.

ayran! ayran! ayran! ayrandan için, somusuz, çörəksiz doyuran.

ayrana gələn qabın yaşırmaz. (**yaşırmaz**: gizləməz).

ayrana gələn qabını, aşa gələn qaşığın gizlətməz.

ayrandan aş olmaz, sınanmadan yoldaş.

ayranı içən qurtuldu, çanağ yalayan tutuldu.

ayranı içən qurtuldu, çəlik yalayan tutuldu.

ayranı yox içməğə, atla gedir sikməyə.

ayranın iç, taxılın biç.

ayrat buyrat. (ayır buyur). (ayrat buyrat). (**ayrat: ayır**: təfrəqə sal). (**buyrat**: buyur. buyruq sür. hikumət ed)}. {bulat, durut. (bulandır, istədiyini qalxıt). (aranı qarışdır sözüvü yerit)}. {bölüt burut). **(burut:** hükm ed)}. {ikit**,** buyur. **(ikit**: təfrəqə sal)}.

ayrı düşən sürüdən, aman qalmaz börüdən.

ayrı düşmə karvandan, böylə demiş yaradan, yağu basar tez səni, tez gedərsən aradan.

ayrılan aparar kəndi yarasın, saxlamam könüldə onun qarasın. (**qarasın**: izin. ləkəsin. korluğun). (acılar basdırılmayınca qan verər).

ayrılan yolda, bölünən dalda qalır.

ayrılan, yolda, bölünən, dalda qalmış.

ayrılanı ayı, bölünəni börü yər.

ayrılanı qurd yemiş, bölünəni dağ bərə.

ayrılarsan elindən, gücdə gedər belindən.

ayrıldı yarım, arzular yarım, gəzəgən tapdı, itirmiş tayın.

ayrıldınsa unut, geriyə yoxdu umut. (ayrılıq adlı yoxdurur yol, ardıca gəzilən umut, ayrılıq ölümdü demiş, 'əldə olan' umud adlanır). (umut varlığından

gəlir, gün düşərsə qarlar ərir). (belin bağlı əlindəkinə, göz yumular dalındakına).

ayrılığı dadmayan, nə bilsinki çillə nədir, dərd nədir.

ayrılığın çətinliyi, ona öğrəşməkdir. (ayrılığın çətinliyi, ona əllicə il dözməkdir).

ayrılıq acı, ölümdə acı.

ayrılıq adlı yoxdurur yol, ardıca gəzilən umut, ayrılıq ölümdü demiş, 'əldə olan' umud adlanır. (ayrıldınsa unut, geriyə yoxdu umut). (umut varlığından gəlir, gün düşərsə qarlar ərir). (belin bağlı əlindəkinə, göz yumular dalındakına).

ayrılıq ağrıqı tovlu ata bilməz kimsə, dava dərman bitər, bitməyi yok ayrılığın. (**ayrılıq ağrıqı tovlu**: hicrin acıdan, odlu kəsəli. hicr ısıqlığı, təb kəsəli).

ayrılıq ayrılanı gücləsə, qırıq könül param parça tökülər.

ayrılıq can yakar, çiyər sökər, öggə oyar, soluq kəsər.

ayrılıq çatar, gizli sevgini bəllədər. dərdli gözü gizlətmə, yaşı axır bəllədər.

ayrılıq itməz, ölüm gitməz, yoxsulluğa qıl yaraq. (**yaraq**: çara. tədbir).

ayrılıq odun görməyən pişməz.

ayrılıq olamaz dedim, bu sevgiyə doyamaz dedim, acılıq yoramaz dedim, sevgi boşa, ayrılıq yola, acılıq yora, sanmazım ola.

ayrılıq olamaz dedim, bu sevgiyə doyamaz dedim, acılıq yoramaz dedim, sevgi boşa, ayrılıq yola, acılıq yora, sanmazım ola.

ayrılıq ondan acı, olmaz ölüm əlacı.

ayrılıq ölüm kölgəsi, ölüm ötəsi. (**ötəsi:** bətəri. pisi).

ayrılıq ölüm kölgəsi, ölümdən ötəsi. (**ötəsi**: bətəri. pisi).

ayrılıq ölüm kölgəsi, ölümdən ötəsi. (**ötəsi**: bətəri. pisi).

ayrılıq ölüm, qardaşla bacı, qoşası acı.

ayrılıq var yaşam ağacı, ayrılıq var ölümdən acı.

ayrılıq vardı çatır min uğur üzlü çatışa. (**çatışa**: vəslətə. nailiyyətə).

ayrılıq vardır tüstüsüz yanar, sevgilər yolun kol kosun yaxar.

ayrılıq yaramaz yaşamaq üçün, sevir qoşalıq yaratmaq üçün. (yaşamı sevən ölməyi sevməz, yol yolağ arayıb seçməz. **(yol yolağ:** arac tədbir).

ayrılıq yarar, yarıq düzəlməz, qan verməsin deyə, yamaq vurulur.

ayrılıqdan sızlamaz könlüm mənim, qovşalıqdır sızladar ayruq evin. (**qovşalıqdır**: vüsaldır. vəslətdir). (**ayruq**: hicran). (**sızladar**: pis günə qoyar).

ayrılıqla ölüm ayraqı bir, yarası ayrıq. (**ayraqı**: arası. fasiləsi). (**ayrıq**: dəğişik. dərkli. fərqli).

ayrılıqlar birliklərə son qoysa, dəğərlisə birliklərin bəllənər.

ayrılıqlar birliklərə son qoysa, dəğərlisə birliklərin bəllənər.

ayrılıqlar uzun yolda toxdanar. (**toxdanar**: bitər. sakinləşər. yaddan çıxar).

(ötün ötər keçən itər). (**ötün**: tarix. zaman).

ayrılıqlar yarar keçər, ölüm gəlsə alar gedər.

ayrılıqlardan canım, söz edmirək, titrədir köksüm, üzür candan ürək!.

ayrılmasın quş qanatdan ər atdan.

ayrılmasın parayla güc, inamdan!. (yoğuş: munacat).

aysız gecə, ulduz gurca ışınar. (ay kiçildikcə, ulduzlar gurca ışınar). (kiçik ayla

ulduz ışar artığın).

aysız gecədə, ulduzlar parıl parlar.

aytaqan yerdən qalma, aytmaqan yergə barma. (**aytaqan**: çağrılan).

(**aytmaqan**: çağrılmayan).

aytdığınız sözcüklər, yuva qurar könüllər.

aytıb etdirib bolmasa, vurub etdirib bolmaz. (**aytıb**: deyib).

aytılan söz yığılmaz, atılan ox tutulmaz.

aytılan söz, atılan ox. (**aytılan**: deyilən).

aytılan yerə gedsən ged, aytılmazın yerdə gəzirsinn nəçün. (**aytılan**:

çağrılan).

aytılmaz söz, atılmaz ox yanılmaz. (**aytılmaz**: deyilməz).

aytış eytiş bir olsa, yazı işlər düzənlənər. (**aytış eytiş**: deyiş eytiş).

aytışıqdan söz doğar. (söz danışıqdan keçər). (danışıq, qonuşuq, gəpiş olan yerdə söz, oy gəlişər).

aytışsan söz çıxar, dürtüsən göz. (**aytışsan**: deyişsən. sözə söz edsən. sözü sözləsən. bəsə bəs edsən).

aytqamadan düşün qıl. (ər aytmaz, aytqandan qayıtmaz).

aytqan yerə ərinmə, aytmaqan yerdə görünmə. (**aytqan**: çağrılan).

aytma gizin dosduva, verər anı düşmana.

aytmadan oylan. (danışmadan düşün).

aytmasa kim bilər, açmasa kim görər. (**aytmasa**: söyləməsə).

aytmayınca kim bilər! açmayınça, kim qörər!. (söyləməyincə kim bilir! açmayınca kim görür!).

aytsam dışım küyər, aytmasam içim küyər. (**aytsam**: desən). (**dışım**: yadlar. özgələr).

aytsam söz olar, aytmasam dərd olar. (**aytsam**: desəm).

ayvalmasa gül olmaz, baxılmasa bağ olmaz. (**ayvalmasa**: baxılmasa. muvazibət olunmasa).

az aşanında uyat (ayb) yox, qaydıb izin tapın son, açılanda uyat yox, özü bilib yapan son.

az aşım, ağrımaz başım.

az azda, tez tezdə olsa, ək.

az bilənlər çox bilənə söz qoymaz, heç bilməyən, az bilənə yer qoymaz.

az bilirsən, heç inanma.

az danış, düz danış.

az danış, qıs danış.

az danışmaq, az yemək, insanı eylər mələk, çox danışmaq, çox yemək, insanı eylər hələk.

az düşünmək pis düşünməkdən yaxşıdır.

az düşünüb çox inanma.

az getdi uz getdi, iynə yarım yol getdi, dərə təpə düz getdi.

az gəpin, kop yapın. **(gəpin:** qonuş). (**kop**: çox).

az gəpir köp eşid.

az heçdən yeğ. (az heçdən baş).

az inanda çox düşün, yalançıdan oq üşün. (**oq**: zatən).

az inanda çox düşün, yalançıdan oq üşün. (**oq**: zatən).

az qalıb ömrün sənin, qış çıxar asdar qəmin. (**asdar**: azalar).

az qalıb ömrün sənin, yaz gələr artar qəmin. **(qış**. **qar)**.

az qalmışdı qovuşmağa, qoymadı çoğun, üzüldü ip, qırıldı savun. (**çoğun**: fələk). (**savun**: savun. qab. güldan).

az qanan çox inanar.

az qanan çox inanar.

az qonuşub, az anlatıb, anlasan az çox, birgəlik sürər, bilgəlik qalxar, çəkməyə acı yox.

az mal, qan utdurur, çoxu, birbirini gütdürür.

az mal, qan utdurur, çoxu, birbirini gütdürür.

az 'maz' gərək, iş yaxcı keçə işgilə. (**maz**: yağ).

az olsun uz olsun. (uz: uyğun, münasib).

az olsun, saz olsun. **(saz**: yaxcı).

az ödündə çox yol alan, uzun yolda yalnız qalır. (**ödündə**: çağda. sürədə. zamanda).

az söyləyib çox dinlə, az əlləyib çox işlə. (**əlləmək**: qurcalamaq).

az söyləyib çox dinlə, min oylayıb, bir söylə.

az söz verib, çox bacar (**az**: kəm) (**söz**: və'də).

az tamah, çox azar gətirər.

az ver, çox yalvar, çox ver, yalvarma.

az verən candan, çox verən maldan verir.

az verib gəzdirmə, çox verib azdırma.

az veribən aratma, çox veribən qozatma (qudutma).

az yaşa çox yaşa, minlər toxa gəlir başa. (**toxa** : qəza).

az yaşa çox yaşa, minlər toxa gəlir başa. (**toxa**: qəza).

az yaşa çox yaşa, sonda gəlir başa.

az yaşa çox yaşa, sonda gəlir başa. (az yaşa, çox yaşa, sonu bir gün gələr başa). (**sonu**: axır). (az yaşa, çox yaşa, bir gün gəlir başa).

az yaşa, ya çox yaşa, sonunda gəlgir başa.

az ye, ağır yuxla.

az yeyərəm, həkim görmərəm, uz (düz) dolanlam, hakim görmərəm.

az yeyir küsür, çox yeyir qusur.

az yırğanan, ac qalar.

az yiyərəm, həkim görmərəm, düz dolannam, hakim görmərəm.

az yiyir küsür, çox yiyir qusur.

az, çox yanına gedər. ac, tox yanına gedər.

az, çox yanına gedər. ac, tox yanına.

aza dedilər: hara gedirsən, dedi: çoxun yanına.

aza qanığan, özgüsündə könlü tox, özgəkində gözü yox.

azacıq aşım, ağrımaz başım.

azacıq sevdim üstünü yapdın, bütövün aldın.

azağa qısqac, burxana çırağ gərəkməz. (**azağa**: şeytana) (**burxana**: bilənə. alimə). (işi bilən aparır).

azaldıqca güvəncəyin kəndivə, bəkləntilər özgələrdən çoxalar.

azaldıqca güvəncəyin kəndivə, bəkləntilər özgələrdən çoxalar.

azar qaça qaça gələr, ağır ağır gedər.

azar, ayağdanda girsə, başdan çıxar.

azarlı tələsər, armud, vaxda yetişər.

azaşdığın kim aydar, doğan aydar dos aydar, düşən yolun doğru deb, yağu aydar yoz aydar. (**düşən yolun**: batası yolun) (**doğan**: qardaş).

azaşıb qalsan, doğruya qara. (**doğruya qara**: düzə bax).

azaşıb yolda qaldı yaşamlığı bilməyən, azıb yolda qalmamış iz izəyi güdləyən. (**yaşamlıq**: yaşam savsalı, fəlsəfəsi). (**iz izək**: iz nişan).

azcaq olursa oğul uşağın, dosdan atadan baydan gör. (**azcaq**: azmış. pozuq) (gənclərin pozuğluğu devlət, dos, evdən asılıdır).

azcıq (azıcıq) aşım, ağrımaz başım.

azdan gedib azışma, çoxdan gedib üzüşmə, güdə görub yürüşmə, uzun görüb büzüşmə. kəndivə güvən, yularlı yürən. (**yularlı yürən**: ortamı, yoxlamı tut. toxdan, kontrol ed. e'tidalı saklan). (evrənin görgəzdiklərin tam varlıq, tüm varlığın sanma, bətəri var). {boq görməyən sıçdığını boq sanar,

asda usda düz gedən, yaşar sürər yorqalar. **(boq: pox)**. **(yorqalar**: çox qolayına istəklərinə çalışar)}.

azərbaycan ölkədir, ağız dilmiz türkcədir. (azerbaycan ölkədi, söz dilimiz türkcədir). (azərbaycan ölkədir, dilimiz türkcədir).

azı cocuğa, çoxu xocuya gösterme.

azı saysan kopalar. (**kopalar**: çoxalar).

azığlı at, arınmaz (yorulmaz).

azıq bol olsun, dəniz aş olsun, varız çox olsun. (**alqış**).

azıqlı at arımaz.

azıqlı at, arınmaz (yorulmaz).

azıqlı ər, ərməz. (yol yarağı yeməkdir, el dayağı bilikdir). (çöl yarağı suluqdur).

azıqlı kişi ərib ərməz. (yeməyi olan arınıb yorulmaz). (**ərib ərməz: ərib armaz**: ərinib, təmbəlləşib yorulmaz).

azıqsız çıxan yola, gəzər gözü el torbasın.

azıqsız çölə çıxma, yaraqsız yola.

azıqsız yola çıxan, gözü özgə götündə qalar. (**götündə**: heybəsində. kisəsində. əl çantasında).

azıqsız yola çıxanın iki gözü torbada qalar.

azım yoxdu gizlənəm, çoxum yoxdu gizlədəm. (işim düzdür).

azın aşda, çoxun işdə gör.

azın bəslə, çoxun qoru.

azın bəslə, çoxun səslə.

azın bəsləmisən, çoxdan quru qalmısan.

azın kəmin bilməyən, çoxun görsə şıllaqlar. (**şıllaqlar**: qudurar. azar).

azına inan, çoxun tanrı yetirər.

azına utqunma, çoxuna qudrunma.

azınan çoxun oyunu olmaz.

azını gör, çoxunu bil. (azına şükr ed, çoxuna qədrdanlıq ed).

azıydı arıq-uruq, biri gəldi boynu buruq, o birsidə boynu yoluq.

azqın at dayçıya iyərər (icəşər).

azqın olsan asarlar, yavaş olsan basarlar.

azqın olsan asarlar, yavaş olsan basarlar. orta olsan başarlar (orta olsan elbaşlığı yasarlar: yaparlar).

azlığı daranmayan, çoxluğda dartınar. (**daranmayan**: dartanmayan. çəkənməyən). (**dartınar**: özündən çıxar).

azma oğul düşmanındır erməni, düşman yanmaz düşmana. (**yanmaz**: acımaz. rəhm edməz).

azı yetik, çoxu itik, yeyənlər! (**yetik**: fayda). (**itik**: zərər). (azı karar, çoxu zarar, yeyənlər!).

bacardığın tanırsan, seçdiyivə güvən qıl. (əlindən gələni, bacarığıvı bilsən seçdiyinde qeyim ol).

bacarıqlıya yardım ol, bacarıqsızlar yol tapar.

bağ tutan suya bulaşar. (**bağ: vağ**. vırğan.).

bağa bax barın olsun, düzü de arın olsun.

bağa bax barın olsun, düzü de arın olsun.

bağında varsa üzüm, yetişmişyə bul dözüm, öz varıma qanıqdım, özgə mala yox gözüm.

bağır çağır gələn olmaz dadıva, ölüm gəlsə tutub alar canıvı, keçirməsən boş boşuna yaşamı, günlər keçər sorur qurur qanıvı. (**ölüm**: əcəl). (**qurur**: qurudur).

bağışlamağı bildinsə, aşqda geri dönməməyidə öğrən. (**bildinsə**: öğrəndinsə).

bağışlamaq bilməyən, ötüşməyi seçməyən, kinlə öcəş qıxıntılar toplamış. (**öcəş** : intiqam).

bağlanan qapı, açılan qapı salıtır. (**salıtır**: bəşarət verir. xəbər verir).

bağlanan qapı, qapılar açır. (iyimsərlik).

bağlanırsa tüm qapılar sənə, bilki açıq biri vardı yenə.

bağlı qapı bir alsa, açıq qapı min alar.

bağlı qapıya qıfıl vurda, açıq qapıya haçar salma.

balduzda var, dadduzda.

balıq suda can tapar.

balıq suda can tapar.

balıqlar susamaz.

balta kəndi sapın kəsməz.

baltalıya baltasıza yıxıq ağac yem olar.

baran qapın min olsa, yatan qapun bir olsun. (**baran: varan**: gedən. geddigin).

baraş nisgil tikan tək sancılıb başə, baraşqa yox ümidim gecdi artıq son dəmim gəlmiş. (**baraş** : vəslət. vüsal). (**baraşqa**: vüsalə).

baryan qapın min bolası, yatyan qapın bir bolsın. (**baryan**: gedən. keçən). (**bolası**: olası. olmuşsa).

baş ağır gərək, qulaq sağır.

baş başa verməyincə daş yerindən oynamaz.

baş başa verməyincə daş yerindən qalxmaz.

baş başa verməyincə daş yerindən qalxmaz.

baş başdan sürşükdü. (ağıl ağıldan üstündü). (**sürşük**: **süyşük**. **sivişik**. **sirşik**. **sırşıq**. sürülü. üstün. kəsərli. gedərli).

baş əğməklə baş ağrımaz.

baş əğməklə baş ağrımaz.

baş görəndə daşdır, aş görəndə başdır. (**baş** : adam).

baş gözü gördügün qulu, iç gözü duydügün qulu. (**qulu**: əsiri).

baş gözü, gördügün qulu, iç gözü, duyduğun qulu. (**qulu**: əsiri).

baş öğrəşsə ayaq axar.

baş qoşan dəli sözüne, govur qazar özünə.

baş qoyub yastıqa qoşluqda keçirsən ömürü, hər nəyin bir sonu vardı günü çatcaq olacaq..

baş sevgidə dad olur, ötün ötür keçmişlərin yad olur, günlə doğul, günü yaşa gündəsi, bəlli deyil yarın gələ nə olacaq olası. (**baş** : ilk).

baş yazısı tam yönlərə əsdirir.

baş yazısı tam yönlərə əsdirir.

baş yazısı yazılmaz, yazılmamış okunmaz, qurqu yoxsa qurulmaz, yalançıdır döndürübən dondurarda evrənim.

baş yazıvı yazmış giləm öz əlin, pozmağına özgə əli gözləmə.

baş yetməsə qırxında, baş qutarrmaz qırğında.

baş yoxsa, yaşlılıqdan iş çıxmaz.

baş yoxsa, yaşlılıqdan iş çıxmaz.

başar yola çıxmağı, nə gərəkir yol çəkir. (**yol çəkir**: yol görkəzir).

başardığın işə başla, başarmadın daşla. (**daşla**: uzaq gəz).

başda beyin, qolda gücün işləsə, yorqan cırıq mitilsiz qalmaz. ər qarısız, qarı ərsiz olanmaz.

başdan artıq baylıq yok, söz artıq yarlıq yok. (**başdan**: ağıldan). (**yarlıq**: bəxşiş).

başı boş ağzı dolu, qarnıda tox könlü pozuq, neylirəm paslı atılmış köşəyə bir yaşamı.

başı çəkməyən bilməz, tulalı arvad nədir, hər ikisin doyursan, sonu deyər bu nədir.

başı güdə uzun quyruq evrənin. (**başı** : ağlı).

başın eşşəgə qoşan, arpa tarlasından baş çıxarır.

başına gələn otaçı olur. (**otaçı**: həkim) (bir durumla qarşılaşan onun çıxar yolunda öğrənir).

basına gələn, basmaqçı olar. (başına gələn, başmaqçı olar). (**başına < basına**: zulma). (**başmaqçı < basmaqçı**. zalim. **zumkar**). (zulum görən zalim olur).

başına gələn, başmaqçı olar. (basına gələn, basmaqçı olar). (**başına < basına**: zulma). (**başmaqçı < basmaqçı**. zalim. **zumkar**). (zulum görən zalim olur).

başla işi hardansan, sürmə işi tək başa, düşün daşın yardaşla, qoyma işi tək başa.

başla könül, bir gövdədə yaranmış.

başlamadan çatanmasan.

başlamadan qormasan, bitirməgə umut var.

başlar başa qovuşar, daşlar daşa toxuşar. dağlar dağa qovuşmaz.

başlı düşman dos kimisi görünür.

başlı düşün yapınca, yapan aşmış köprünü.

başlı gördüyün, başsız duyduğun söylər. (**başlı**: uslu) (**başsız**: ussuz).

başlı kişi öğrənməyə əğimli, başqaları öğrətməyə eyimli. (**başlı**: ağıllı). (**eyimli: əğimli**: meyilli. tərcih edir).

başlı kişi öğrəşər, başsız kişi öğrədər.

başlı olub çox bilənlər az gürlər, başsız bilən axmağa tay çox gürlər. (**gürlər**: danışar).

başlı yarar hər işə, yetərli yox heç işə.

başlılıq başqa, başarçılıq başda. (**başlılıq**: ağıllılıq).

başlıya bir söz yetər, başsıza min az gələr.

başqalarının yapdıqları yox, yapmadıqları maraqlıdır.

başqasına iş dedim, dayaq gəldi mən yedim.

basqıdaki altından, asqıdaki salxım yeğ.(**basqı**: gizli. örtnük).

basqıdaki altından, asqıdaki salxım yeğ.(**basqı**: gizli. örtnük).

başsız yurtda tülkü bəy.

başsıza börk nə gərək.

başsıza börk nə gərək.

başuvu qoyma dola keçmişilə, cibivi doldura qoy qozla noxud kişimiş ilə, necə tutsan keçəcəkdir qolay olsun ya çətin.

bataman iki daşlı, iyilik iki başdan.

bataman iki daşlı, iyilik iki başdan.

batan günün atan danı var.

batan günün atan danı var.

batan günün çıxacaq, keçən günün qayıtmaz.

batar doğru, yanlışlıqı unutsan.

batmış günlə yaşayan, atan danın nisgili. (**nisgili**: nisgillisi.həsrətlisi).

bax bazarda satılmaz, saman suya batılmaz.

baxcalar barı, sevənin yarı, hamı dinsədə, sən dinmə barı.

baxla ölüm tay çalmaz qapını açar.

baylıq, **ağz birlikdə**, kölelik, **ağz alalıqda**. (**ağz birlikdə**: **ağz birçilikdə:** ittihatda). (**ağz alalıqdə: ağz alaçilikdə**: təfrəqədə).

bayramda aclıqdan ölən, yayda donuqdan ölür.

bəkləməzdən gələnin salınmışın yeri yox, uykusuzdan duyqusuz mutluluğun adı yox..

bəkləntidən uzaq ol, qutluq sənə yarqısın, bəkləntilər əkit sən, qutluq səndən ıraqsın.

bəkləntisi olanın, nisgil qalar qutluğa.

bəkləntisi var olan, nisgillidür qutluğa, bəkləntisin yox edən, qonşuluqdur qutluğa.

bəkləyiş yaşama yaramaz.

bəkləyişin sonu var, hər biçimin donu var.(**biçimin** : əğinin).

beldən enik qıçdan olar, qoldan enik işdən.. (**enik**: fələc).

belə qoyuldu kökü dünyanın, evi yıxıldı tez inananın.

bendən ayrı yol batsın, sevgidirsə, sinə yatsın. (**sinə**: qəbrə).

bəsli gecə dan doğar. (**bəsli** : boylu).

bəxdəvərin başı qalsız, dəmirçinin atı taxsız. (**qalsız**: qovqasız). (**taxsız**: nalsız).

bəy qarşıdan keçənlər var it kimi, it qarşıdan keçənlər var bəy kimi.

bəyə vergin, acda alğın olmasın. (**vergin**: verəcəyin). (**alğın**: alacağın).

bəyə versən aşını, sılar sənin başını, qaya versən aşını, başa salar daşını. (**sılar**: sayqılar. ikram edər). (**qaya**: namərdə).

beyin dolu boş cibi.

beyin qızsa us gedər.

beyin qızsa us gedər.

bəylik nədir bilməyən, xorlanmadıq el qalmaz.

bez sizdən arşın bizdən.

bibər acı, dadlı yesən dad verər.

biçilən taxıldan, yerdə çöşən qalır. (**köşən**: **çöşən**. çükəş. küləş).

bildik ətçi, ət yerinə gəmik vər. **(bildik**. tanış). **(ətçi**:qəssab).

bildiklərin sınırlı, bilməzlərin sınırsız.

bildiyin verməz, aldığın danar, haylar haylar, ermənidir bunlar. (**haylar**: ermənilər).

bilək yıxmazı, bilik yıxar.

biləkli var biliksiz, bilikli var biləksiz.

bilən biləni anlar, bilməz biləni danlar.

bilən qanan mutluluğun içində.

bilən varsa nədir aşq, gərək yokdur söz deyə, könüldə varsa aşqın, gəlməz ağza söz ilə.

bilənə dağ, bilməzə yağ.

biləyi yoğun birin yıxmış, biligisi yoğun minin. (**yoğun**: zor. güc).

bilgə olub yemə özgə qəmini, dəmi tut qoy yesin özgə qəmivi.

bilgəlik sanağı, bilgisizlik. (**sanağı**: **sanağı**: gümanı. təsəvvürü).

bilgən bilənin yapar, bilməyən nəyini yapar.

bilgi inanc barışmaz.

bilgi inanc barışmaz.

bilgi inanc düşmanı.

bilgi inanc düşmanı.

bilgi qonaq, us ev yiyəsi. (**bilgi**: savad).

bilgi qonaq, us ev yiyəsi. (**bilgi**: savad).

bilgi quşqudan yaranır, quşquyla qurulmur. (quşqudan, quşquyla).

bilgi yoxsa düşüncələr çalışmaz.

bilgililər yetgisiz, yetgililər bilgisiz.

bilgivə görə biləyin olsa, dağ qoyarsan dağ üsdə.

bilik biləkdən güclü.

bilik, bilik bilməkdi, duyqu, duyuq duymaqdı. (hiss, xiyal bilim, doğru sayılmaz).

bilikli duyqu sezikli duyqu.

bilikliyə güc gərək.

bilim başın qıvancı, sağlıq yaşam güvənci. (**bilim**: elm). (**qıvancı**: fəxri). (**güvənci**: dayağı).

bilim insanlığın ortaq değeridir. (bayram özdemir).

bilimsiz ol bir gün üçün dokuz çalış, bilimli ol dokuz üçün bir gün çalış.

bilimsizlər başarmaz, yorumsuzlar qayğılı. (**yorumsuzlar:** yoğursuzlar. sanalanmazlar. düşünəməzlər).(**qayğılı**: anqıra. şaşa. heyran).

bilinc qafanı açmış, inanc qafanı yapmış. (**yapmış**: qapamış. qapmış).

bilinc qafanı açmış, inanc qafanı yapmış. (**yapmış**: qapamış. qapmış).

bilirəm sən məni, mənsiz yaşadın, ötdü yandı yaşamın, heç yerinə sən yaşadın. (**yaşadın: yaşaldın)**.

bilirsen, bir söz de! seni örnək saysınlar, bilmeyiren sus, seni adam sansınlar.

bilisən sözlə, bilmisən gözlə.

bilisən sözlə, bilmisən gözlə.

bilki yol bitsədə, istəklərimiz sonsuz olur.

bilki yollar bitəcək arzu kanı bitməyəcək.

bilmədi bilmədi sevən onu kimidir!.

bilməm demək, minlər qadanı qoğar. (**qadanı**: bəlanı).

bilməm nədən dolu başlar cibi boş, cibi boşlar başı boş.

bilməm nədən hərdən olur, göz görəni könül danır.

bilməqilə duymaqın çox arası var hələ, qovuşurmağa ikisin, çox bacarıqlar gərək.

bilməyən bilənə gedmiş, biləsi gəlməz tutduğun edmiş.

bilsən söylə, bilməsən dinlə.

bilsən sözlə, bilməsən gözlə. (diyan dinlə).

bilseydi sevirsən onu, gedməzdi bəlkə dönərdi yolu. demədin demədin içindəkini, yarar nəyəki döğünüb anasan onu.

bir ağaçdan direkdə çıxar, kürəkdə. (**direklə** ev qurulur, **kürəklə** yer süprülür).

bir ağız söylər min biri işlər. (bir başçı min işçi).

bir arpa dəğiş (qədər) boyu var, harda olsan sözü var. (**qədər** :dəğiş).

bir avuc topraq, birazda suyum ben, nəyimlə övünəyim, işdə buyum ben. (mevlana).

bir baş dərin, yeddisi ondan derin.

bir başçı min işçi. (bir ağız söylər min biri işlər).

bir başlısı min daşlıdan qorunmuş, bir daşlı baş, bir başsıza yenilmiş.

bir bayrağı əsdirməyə güc gərək.

bir bulut qış gətirməz, bir çiçək yaz.

bir bulut qış gətirməz, bir çiçək yaz.

bir bulutla yağış, bir çiçəklə yaz gəlməz.

bir bulutla yağış, bir çiçəklə yaz gəlməz.

bir çağun avçı olan indi ava dönmüş. (**avçı: ovçu). (ava: ova**).

bir çındırı ya sindir ya sındır ya at. (**çındır**: 1.diş kəsmə qarın açmaz

tikə.1.çətin soru).

bir çıplağı, qırx çapqınçı soyanmaz.

bir cocuğa qırxca ebe baxırsa, ya kor olur, ya topal.

bir dağ cumar, min dərə yarar, min dərə dolar, bir dağ olar.

bir dala basınca, min dal sallanır.

bir dala basınca, min dal sallanır.

bir daşla duvar qalanmaz. (**duvar qalanmaz**: duvar hörülməz).

bir döngədir hər ölüm , dönməsi yoxdur onun.

bir əlin nəsi var, iki əlin səsi var.

bir əlin nəsi var, ikinin səsi var.

bir əlin verdiyin ötəki bilməz.

bir əlin verdiyini, öbür əlin duymasın.

bir əlin verdiyini, öbür əlin duymasın.

bir görkənlə tanışlıq, iki görkən qarındaş.

bir gün gəldik, bir gün getdik, bilib bilməz nələr etdik.

bir gün gəli qan utturan, qan utar.

bir gün irtə əkirsin, on gün irtə ürərsin. (**irtə**: tez). (**ürərsin**: biçərsin).

bir gün utan, günü gəlmiş utuzmuş, çox görübdə bilənlər, çağı varmış unutmuş.

bir iğnə düşdü samanlığa, odlandı saman onu tapmağa.

bir iyidən min eşit, min kötüdən birin yox.

bir kərə aldanan suçsuz, ikincidə suçlu çıxır.

bir kərə aldanan suçsuz, ikincidə suçlu çıxır.

bir kərə yüklənir bir ömür daşınır.

bir kişi qazmış quyu, min kişi içmiş suyu.

bir kölgə var ürək görsə sərinər, bir kölgə var görsə ürək döğünər. (**sərinər**: dincənər).

bir könül üç açar. -sevmək sevinmək sevilmək.

bir kötünün etdigi, artıq poxdur yeməyə, bir iyinin bir sözü, baldan dadlı deməyə.

bir oda sevnic, bir evə dəgər. (**oda: otaq**).

bir oda sevnic, bir evə dəgər. (**oda: otaq**).

bir qıçı göydə, bir qıçı gorda.

bir qıçı göydə, bir qıçı gorda.

bir şəkildə doğuruq, min şəkildə ölürüz.

bir şəkildə doğuruq, min şəkildə ölürüz.

bir toxlunun dərisi, on qat dona dəğərmiş, bir igidin telcigi, min dönüyü satarmış. (**telcigi: telciyi**: qılcığı. kəsilib atılan tük). (**dönüyü**: xaini).

bir tülkü yeddi qurdu yədəklər. (**yədəklər**: dalıcan çəkər. dolaşdırar.).

bir tülküdə bir dəri. (bir tilkinin derisi iki kere soyulmaz).

bir ürək var min dilək, bir sevinci min çilək, çilək sevinc qarışıq, qoşalıqda birligində yaşırıq. (**çilək**: çilə. dərd).

bir yamana uğraşsan, artıq durma ötüş keç, bir yaxşıya ulaşsan, izlə yolun bırxma.

bir yaxşını yoxlasan, min bir kötü qarşıdar, min kötüyə qarşınaq, çalış sürsün iyi yol. (**yoxlasan**: yaxınlaşsan). (**qarşıdar**: əngəllər. mane' olar). (**qarşınaq**: tərsinə. muxalif).

bir yaz günü enişdim, bir yaz günü uçuşdum, güz qış günün savırdum, yaza çatcaq sevindim, sevə sevə uçuşdum. (**enişmək**: doğulmaq). (**uçuşmaq**: ölmək). (**sevə sevə uçuşmaq**: sevib doymamışdan ölmək).

bir yazıqla ər ölməz, heç yazıqsız ər bolmaz. **(yazıq**: suç. günah).

bir yəşil yapraq olur derviş əlindən sovqat.

bıraq, olmasın olsun, ip incəcikdən qopsun.

biri edindiyin sevər, biri sevdiyin edər. (**edindiyin** : qazandığın).

biri gedər sevinər, biri gedər sevindirər, biri gedər üzər, biri gedər üzünər.

biri ölmədən, biri gülməz.

biri sarınır biri sağılır. sarınan kim, sağılan kim: yoğunan kim, soyunan kim. **(sarınır** :.yoğunur. geyinir). (**sağılır:** soyunur). (**sağmaq**: açmaq. boşaltmaq. çözmək). (**sarmaq**: 1. dolamaq. 1. doldurmaq).

biri var qoşuyla yaşır,biri var qoşu yaradır , biri var qoşuq yaşadır. (**qoşuq:qoşuy: qoşu:** şeir).

biri var tanıdıqca üzülürsün, biri var tanıdıqca sevinirsin.

biri yatdı durmadı, biri otdu qalxmadı.

biri yükün sarır, biri yükün sağır. (**sağır:** sarığın, ipin açır).

birin kəssən onun ək, onun yesən birin qoy. (**qoy**: saxla).

birin kəssən onun ək. (ağac).

birin, nəyi sevmək, gözlənilməzdən özün onda görməkdir.

birinə həmməşə yalan demək olar, bıraq hamıya həmməşə yok. (**bıraq** : ama).

birinə tapqanı, birinə qapqanı buyruq. (**buyruq**: qismət).

birinki binə, bininki onbinə.

birinki minə çatır, mininki minlərə.

birləşmək başlanqıcdır, birliyi sürdürmək gəlişmək, birlikdə çalışmaq başarıdır.

birləşmək başlanqıcdır, birliyi sürdürmək gəlişmək, birlikdə çalışmaq başarıdır.

birlik, qıyaşsız olmaz. **(qıyaş:** qıyşı. (< **qıymaq**). birbirinə qıyma işi. güvəniş. e'timadlaşış)..

birquşam bir qəfəs içrə dururam, qırasan tellərini bu qəfəsin el bağırar sən kişisən.

bitə qızıb, yorqanı yaxma.

bitən gülün çətəni, olan işin nədəni var. (**çətən**: **çitən:** tuxum).

bitəni düşünməkdənsə, yoldakın düşün.

bitinə qızan, donun yaxmaz. (təpilirsə saman gözə, od vurma samanlığa). (soxulursa çöp gözə, od vurulmaz çöplügə).

bitmədən yaşam, itmədən dilək, istəyivi sev, könlüvü doyur.

bitməyir könüldə yatan şüvənin, sevilən tezin unutur sevənin.

bizdə qonaq evrəndə, qonaq köçər günündə.

bizə qoşulan könlü tox, bizdən qıran üzü yox.

bolluq yaşam, sevgi yoxsa daşa dəğsin.

bölüngəni yağu yer. **(**bölüngəni börü yer).

borc almaq, dilənməyə yol açar.

borc bitər, ödə, yol tükər, yürü.

borclunun duvaçısı, alacaqlısı.

borcu varsa bir kişinin kişiyə, sayqı dəğər biçməyidir son sana. (**son sana**: son sözdə).

börüdən qorxan toquqa girməz. (**toq**: meşə).

boş evdə siçanda qalmaz.

boş evdə siçanda qalmaz.

boş küzə tez büdürər dursa qırağında damın.

boş ver canım dəyməz onu sevdiyinədə, söydüyünədə.

boş ver canım dəyməz onu sevdiyinədə, söydüyünədə.

boşanmış arvad alma tulalıdan uzaq dur, boşanmış alsa biri, ensəsindən birin vur.

boşla yarış, qıl barış, küsməyə çağ qalmamış.

boşlu boşludan sürüşər. {sürüşmək. sürgəşmək. (nərsədən) zıvışmaq, qaçışmaq. ara açmaq. salışmaq. alısmaq üzüşmək**}**..

boşlu gördü yasanar, alçığ gördü dirənər. **(**yaşanmaq**:** yasanmaq. yaşmaq. yasmaq. gizlənmək). (**alçığ**: verəcəyi olan).

boyalar ağdan doğur, qaracığ onları boğur. (**qaracığ**: ilənmiş qara. lə'nətlik qara).

böylə bir sona ərişim, bir ömür sonu kəvişim, nədə yalqızım, təki umacaq bir sıcacıq əlimiş, çöndü daşa, soyuq daşa, dəğdi başa bu evrən. (**kəvişim**: boşluq. pukluq).

böylə gələr, böylə gedər, biri düzər, biri büzər. (**büzər**: pozar).

böylə gəlmiş böylə gedər, qolaylıqlar güclüklərin izində!.

boynuvu çox uzadıb ördəyikən qaz olma, nazlı qıza göz süzütüb kişilərə ar olma.

böyümək qocalmaq olsada, qocalmaq böyümək deyil.

böyüyüb işləmə, işlərək böyü.

bu bir quyu dibsiz quyu, bura düşən çıxmaz quyu, ipin uzun ipin qısa, bir gün gələr olar kuta. **(kuta < kutaq > kutah > güdə**. **küt**. **qıt)**.

bu çağum sevişib ayrılma sevmə yasası, sevişib qalma bir başqala. (**başqala**: istisna).

bu dağ saysov, gədiklərinin girintisi qolay, çıxıntısı çoral (**çoral**: güc). (**saysov**: göründüyü kimi olmayan).

bu dünyanın daşıda atılmışdı boşuna, düşünmə sən yapasan gələn işlər xoşuna. (**daşıda**: təməlidə).

bu dünyanın daşıda atılmışdı boşuna, düşünmə sən yapasan gələn işlər xoşuna. (**daşıda**: təməlidə).

bu evrən nə iyi nə kötü, könlüğüzcə durubda otu.

bu evrənin ilkin son, ağulu aşdır, altun tas. (**ilkin son**: baş götü).

bu gördüyündə durmaz, -gələr gedər, durmaz ötər, gəldiyi yer getdiyi yer bəllənməz. (**durmaz**: dəvam tapmaz).

bu gün avçı yarın dönür avına, yalan dünya çoxun qoyar oyuna.

bu gün doğdun, bu gün oldun, bu gün öl.

bu gün dünü tanımaz, yarın gələr bu günləri anımaz.

bu gün keçər dün günüvü tanımaz, yarın gələr bu günləri anımaz. (**anımaz**: **anırmaz**. yada salmaz).

bu güvəndir verən qan turuza, bəlkə yazı bu eli duruza (yaşada).

bu incəlik olqunluq tapılmaz hələ, deyiblər quyruğu uzun, tez keçər ələ.

buğday qutunda, sarğucda suvalır. (**qutunda**: varlığında. qatında. kölgəsində). (sarğuc: ot alağ). (**suvalır**: suvarılır).

bugünün ertəsi var.

bugünün ertəsi var.

bulağ öz gözündən su içər. (ot kökü üsdə bitər.). (qoç iyid, dayısına çəkər.) (olduğun, doğulduğun, bulunduğun yerin, qoşutun, quşağın, şərayitin etgisi altında qalma.).

bulaq başdan bulansa, tınğızacaq kim olur, ağac dibden yıxılsa, durğuzacaq kim olur. (**tınğızacaq**: duruldacaq).

bulaq suyu qaynaqdan, gözün yaşı yanıqdan. (**yanıqdan**: şikayətdən. dərddən).

bulduğun qoğma, bildiyin izlə.

buldurayıb buldura, kəssək düşsə quyuğa. (daş salsan quyuya, bulduraman (pılomb səsi kimi səs çıxarmq). (daş salısan quyuğa, gumbuldamaz iş olmaz).

bulut kükrər, göy ağlayu yer gülər.

bulutla gün barışsa , yazın gülər gül açar, bulutla gün qarışsa , yazın ağlar gül qaçar.

bura dustaq içi bir quş qalıb bağlı qanat bağırır, bilməzləri harayına çağırır.

burda orda sağumaq, böylə olmaz yaşamaq.(**sağumaq**: **sağımaq.** yaşamaq. durmaq. gün keçirmək).

buruş barış sönməz döğüş içində.

bütün yetgin sevgilər, düşdə doğar orda yaşar, durmuşa heç uyanmaz. (**bütün**: mükəmməl) (**durmuşa** : yaşama).

buyanlıq kişi burkanlar birlə düz ol, buyansız kişi buk bakır birlə düz ol. (**buyanlıq**: iyilik yapan. nikukar) (**burkanlar**: din yöndəri) (**buyansız**: iyilik yapmayan) (**buk bakır**: boş qab) (**düz ol**: birdir).

buyanlıq kişi burkanlar birlə düz ol, buyansız kişi buk bakır birlə düz ol. (**buyanlıq**: iyilik yapan. nikukar) (**burkanlar**: din yöndəri) (**buyansız**: iyilik yapmayan) (**buk bakır**: boş qab) (**düz ol**: birdir).

buz üstündə toz qalmaz.

bab gələməz yaman olan yaxcı düzə. (**bab:** uyqun).

bacanın əğrisinə baxan, tüsdünün düzündən qalar.

bacarana yaşam olar yapmaca, yoxsa adı qoyun qala tapmaca. {yaşama oldağu (vaqeiyyət) kimi baxsan, yaratçılığa çönür, yoxsa açmaza dönür (**açmaza**: müəmmaya)}.

bacaranın ağzı aşlı, bacarmayanın gözü yaşlı.

bacaranların bacarıksızların günülüğü ucundan iyilərin, ululların yatluları, düşmanları üstün gəldi.

bacarçıdan iş qalar, sözərindən söz qalar, igid ölər iz qalar, odu sönər köz qalar, karvan köçər yurt qalar. (**bacarçıdan**: ustaçı. peşəkardan). (**sözərindən**: bilgədən. çeçendən. xətibdən. ədibdən)).

bacardığın yaparsan, istədiyin yasırsan.

bacarığı bacarmaq, dilək qıldım tanrıdan.

bacarıq başla gəlir, qocalıq yaşla.

bacarıq qapılar açır.

bacarıq yoxsa çözə bir sorunu, yemə qayğı bırak olsun başına, gücüvü istəyivi yığ başıva.

bacarıq, siz görən deyil, siz yaradandır. (**görən**: qılan). (**yaradandır**: qayırandır. düzəldəndir).

bacarıqda ölçülər, başaq başqa, baş başqa. (**başaq**: şəxs). (fikir, oyu, ağıl adamdan adama dəğişir).

bacarıqla, istəmək, birləşirsə dağ yarır.

bacarıqlar istəməkdən doğmamış, istəməklər bacarmadan olmamış.

bacarıqlar uğursuzlar uğradır. (**uğursuzlar**: şanssızlar. çarəsizlər). (**uğradır**: onğarır. doğruldur).

bacarıqlar uğursuzlar uğradır. (**uğursuzlar**: şanssızlar. çarəsizlər). (**uğradır**: onğarır. doğruldur).

bacarıqlı, iş yartışar, bacarıqsız qayğışar. (**qayğışar**: qayğı çəkər. boş oysanla uğraşar).

bacarışın tanırsan, seçdiklərin uğurlu.

bacarışın tanırsan, seçdiklərin uğurlu.

bacarışlar yaşamında yol açır, istəyişlər bulutlara yol salır. (**bulutlara yol salır**: uçurur).

bacarışlar yaşamında yol açır, istəyişlər bulutlara yol salır. (**bulutlara yol salır**: uçurur).

bacarışlı doğru seçimlər yapmış.

bacarışlı doğru seçimlər yapmış.

bacarışlıq gərəkir, doğru seçim yapmağa.

bacarışlıq gərəkir, doğru seçim yapmağa.

bacarmayan yaşamı, adın qoyar tapmaca.

bacarmayan yaşamı, adın qoyar tapmaca.

bacarmayan yaşamı, adın qoyar tapmaca.

bacarmayan yaşamı, adın qoyar tapmaca.

bacarmısan sevməyi, evrəni heç suçlama, mutluq doğar ürəgdə, sevmə yolun bacarsan.

bacarmısan sevməyi, evrəni heç suçlama, mutluq doğar ürəgdə, sevmə yolun bacarsan.

bacım yoxdur sızıldıya yaş tökə, saçın yolub, sinə sökə, singirimə taş tökə. (**singirimə**: məzarıma) (ağı).

bacqardaşın dosdunisə nə yaxcı, dosdan mosdan bacqardaşlıq çıxanmaz.

bağ alısan, qışda al, bağ satısan, yazda sat.

bağ almağa, qış yeğ, bağ satmağa yaz.

bağ belə bostan belə, nə istisən ged elə.

bağ salan, bağvan olur, tovlayanın tovun alın, dağ salmasın. (ara qatanın aracın alın, yara vurmasın) (**tov: > dağ**: od).

bağ tutan suya bulaşar. (**bağ: vağ**. vırğan.).

bağ yemişi dadlı olmaz dil yalı, sözün vardır bəlli barı bal yalı. (**yalı**: kimi).

bağ yiyəsiz, pıçaq tiyəsiz olmaz.

bağa bax üzüm olsun, yeməyə üzün olsun.

bağa bax üzüm olsun, yeməyə üzün olsun.

bağa özün çəkə bilməz, evin dalına alar.

bağa sezmir kəndi qıçın əğrisin, ilanı görüb əğri büğrü qınayar. (**bağa**: qurbağa).

bağanın özü çöldə, qözü göldə. (**çöldə**: çöldəsə). {Igid, Könül (Dilin, Dinin) Danmaz. } (qurbağanın kəndisi çöldə olsa belə, dahi gözi göldədir). (igid ürəkli harda olursada, könlü, kəndi özün (dilin inamın, elin toprağın) yadırqamaz (tüpürməz. satmaz). (aşıq gördüyün, könül sevdiyin).

bağban köçər bağı qalar, kişi köçər izi qalar.

bağban qocalır tikən uzanır.

bağçam. (bağçam dolu almadı), qonşuda alma bitər, nisgili bizə düşər. (qonşu tavuğun qaz görən, onun qarısın qız görər).

bağçam. (bağçam dolu almadı), qonşuda alma bitər, nisgili bizə düşər. (qonşu tavuğun qaz görən, onun qarısın qız görər).

bağçı bağına qıydı bağban bir giləyə qıymadı.

bağda ərik varıdı, dosluqlarda sazıdı, bağda ərik qutuldu, dusluqlarda qırıldı.

bağda ərik varıdı, dosluqlarda sazıdı, bağda ərik qutuldu, dusluqlarda qırıldı.

bağdalı dos, illər ötər, üzün görməz, yad olmaz. (**bağdalı**: bəfalı).

bağdan dağ olmaz, dağdan bağ olmaz.

bağdan dağ olmaz, dağdan bağ.

bağdan ərik qurtuldu, gəliş gediş qurtuldu.

bağdan ərik qurtuldu, gəliş gediş qurtuldu.

bağı ağlayanın, üzü gülər. (**bağ**: möv. üzüm tingəsi). (budanmış mövdən su çıxar, sonundada üzümü çox olar).

bağında varsa üzüm, yetişmişyə bul dözüm, öz varıma qanıqdım, özgə mala yox gözüm.

bağır dağlayar, içi yandırar, birin güldürər, minin ağladar, alan dünya, danan dünya.

bağırlının baxışı, kəsgin olar qorxaq əldə qılıcdan. (**bağırlının**: ürəklinin. cəsurun).

bağırtıya yanqı uyar. (necə bağırsan, yanıt alırsan).

bağış kişi gözün kor edər. (**bağış**: hidyə).

bağış kişi gözün kor edər. (**bağış**: hidyə).

bağışlamadan dos qalmaz.

bağışlamadan dos qalmaz.

bağışlamağı bildinsə, aşqda geri dönməməyidə öğrən. (**bildinsə**: öğrəndinsə).

bağışlamaq bilməyən, ötüşməyi seçməyən, kinlə öcəş qıxıntılar toplamış. (**öcəş**: intiqam).

bağışlamaq, başarlığa yol açır.

bağışlamamaq, çalvalığdan doğur. (**çalvalığdan**: başarcansızlıqdan. acizlikdəm).

bağışlamaz, dos tapmaz.

bağışlamaz, dos tapmaz.

bağışlamı, ötüşməyi bilməyən, gücün sürər yaşamı, aşa bilməz aşamı. (**aşamı**: dəğişgən devrələri).

bağışlamı, ötüşməyi bilməyən, gücün sürər yaşamı, aşa bilməz aşamı. (**aşamı**: dəğişgən devrələri).

bağışlanmaq, kişiyə zülmün nə olduğun qandırır.

bağışlayan yağışlanar. (**yağışlanar**: rəhmət qazanar).

bağışlı könül, dinclik bulur. (**dinclik bulur**: **tin durur**: huzur bulur).

bağışlı ürək, tin durar. (**tin durar**: huzur bulur). (**bağışlı**: rəuf. mehriban. rəhimli).

bağla qapat keçmişi, yarınlara üzün tut.

bağla qapat keçmişi, yarınlara üzün tut.

bağlantılar dönməsin ağlantılara. (**bağlantılar**: əlaqələr. istiliklər).

bağlasan şalvarıva köynıyivin düğməsini, qalasan qəddi bükük açanmasan boy buxunun.

bağlı ağız, ac qalar.

bağlı bağın qıydı, bağban salxım qıymadı.

bağlı dursan keçmişə, yarın qalarsan işə.

bağlı dursan keçmişə, yarın qalarsan işə.

bağlı it ova yaramaz.

bağlı qapı bir alsa, açıq qapı min alar.

bağlı qapı yoxdurur, açarçılıq bilənə. (**açarçılıq**: tədbirçilik. müdəbbirlik).

bağlı qapı yoxdurur, açarçılıq bilənə. (**açarçılıq**: tədbirçilik. müdəbbirlik).

bağlı qapıya xətə girməz.

bağlı qapıya qıfıl vurda, açıq qapıya haçar salma.

bağlı tora ov düşməz.

bağlı yoldan savrul, yarınlıq yoldan yürqıl.

bağlı yoldan savrul, yarınlıq yoldan yürqıl.

bağmeşədə bar qalmamış, bağmeşənin son teşəsi vurulmuş.

bağmeşədə bar qalmamış, bağmeşənin son teşəsi vurulmuş.

bağrı dəmir pas atar.

bağrı dəmir pas atar.

bağşıt barışdırır, qarşıt qarışdırır. (hələlzada barışdırır, həramsada qarışdırır).

(**bağşıt**: hələlzada). (**qarşıt**: həramsada).

bağşıt barışdırır, qarşıt qarışdırır. (həlalzada barışdırır, həramsada qarışdırır).

(**bağşıt**: həlalzada). (**qarşıt**: həramsada).

bax bu qaşa bax bu gözə, ciyər kabab oldu közə.

bax bu qaşa, bax bu közə, ciyər kabab oldu közə.

bax qayıtsa döşünə düşən tuşundan qaçıb, düşüvə girər.

baxar dona, qalar dona. (bax dona, qal dona). (baxda dona, qalma dona).

{(sili bıraq sini tut: zahiri bıraq batini tut) (qapını bıraq, qarına keç)

(**qarına:** içəri) (qapıda durma, qarına keç).

baxar dona, qalar dona. (bax dona, qal dona). (baxda dona, qalma dona).

{(sili bıraq sini tut: zahiri bıraq batini tut) (qapını bıraq, qarına keç)

(**qarına:** içəri) (qapıda durma, qarına keç). (don: 1. üz. üzlük. zahir. hər nəyin aldatıcı yönü. 1. kilitli. qıfıllı. buzbalta kəsilmiş. düşünməz qalmış. ölmüş)}.

baxcalar barı heyvalar narı, hamı dinsədə, dinmə sən barı.

baxcalar barı, heyvası narı, hamı dinsədə, dinmə sən barı.

baxcalar barı, sevənin yarı, hamı dinsədə, sən dinmə barı.

baxıcı öz baxtını açanmaz. (**baxıcı**: falçı).

baxılı ağacı, nə içindən nə dışından, qurd yeməz.

baxla ölüm tay çalmaz qapını açar.

baxlı gör yaşın gör, baxsız gör yaşın gör. (**baxlı gör" yaşın" (göylük**. **bolluq) gör, baxsız gör "yaşın" (göz yaşın) gör)**.

baxma adam oğlunun uyruğuna, tanıyanmazsın, basmadıqca quyruğuna. (-uyruğuna: **uyqalığına**. mədəniliyinə).

baxma buzun sətliyinə, oda sudan olmuş.

baxma eloğlunun uyruğuna, bilinməz, basmadan quyruğuna. (uyruğna: üzü yolalığına. uyqarlığına. mədəniliyinə).

baxma qayasına, baxma daşına, yerisən, çıxarsan dağın başına.

baxma qayasına, baxma daşına, yerisən, çıxarsan dağın başına.

baxma yaşıma, çox iş gəlib başıma.

baxmagilən kim deyir, düşün daşın nə deyir. (kim olursa dedikdə, **dediklərin didiklə**. (**dedikdə**: danşıqda). (**didiklə**: araşdır. düşün).

baxmagilən kim deyir, düşün daşın nə deyir. (kim olursa dedikdə, **dediklərin didiklə**. (**dedikdə**: danşıqda). (**didiklə**: araşdır. düşün).

Baxmaqla öyrənmək olsa, itlər hamısı ətçi (qəssab) olardı.

baxsan bitər, savsan itər. (**bitər**: cücərər) (**savsan**: başı soyuqluqluq edsən) (**itər**: əldən gedər). (alsan bitər, satsan itər). (bu evrən özənlə, yığmaqla, qorumaqla gəlişmiş, sovsalamaq, başı soyuqluqla, satıb savmaqla olan qurum durum tozar, dağılar).

baxsız bala hər iş görsə gücə düşür, mal bölünsə ona payı gücə düşür.

baxsız bala hər iş görsə gücə düşür, mal bölünsə ona payı gücə düşür.

baxsız qızıl tapdı, baxlı qapdı.

baxsızın ağzı aşa, başı daşa.

baxt kordu. bu kora kor baxmayın.

baxt olmasa başda, nə quruda bitər nə yaşda.

baxt olmasa başda, nə quruda bitər, nə yaşda.

baxtı onmaza un çatdı, çay keçəndə suya batdı.

baxtı oyaq çalanın, baxtı yatmış yatanın.

baxtı oyaq çalanın, baxtı yatmış yatanın.

baxtı tutuq düşən daşa tuş gələr, baxtı açıq düşən daşdan ıraqda.

baxtı yürük, atı yorqa. (yürük baxlı, yoraq atlı).

baxtı yürük, atı yorqa. (yürük baxlı, yoraq atlı).

baxtı yürük, atı yürükdən iləri.

baxtım deyə çox çınladım, söylədilər ki, axdarma itən iğnəni xırmanın içində. əroğlu isə ər, qıra bilməz onu qanmaz, əroğlu qalar ər kimi qanmazlar içində. (**çınladım**: dərdləndim).

baxtın dar gəlməsin çuxa əğninə. (baxtın açıq olsun).

baxtın taxdı satılmaz.

baxtın uğrundan (yolundan) çönməsin.

baxtsız tapsada pul, tapmaz onu yernə qoya.

baxtsızın ağzı aşa, başı daşa.

bal aldadır, duz suçlanır.

bal demək, bal verməkdən yey (yaxcıdı), boş demək, boş verməkdən yey.

(**yey**: yaxcıdı).

bal deməklə ağız süycüməz.

bal deməklə, ağız dadlanmaz. (sözlə iş bitməz).

bal diləsəndə, bol diləmə. (bal diləyir, bol diləyir).

bal diləyir, bol diləyir. (bal diləsəndə, bol diləmə).

bal ilə duz qarışmaz. (**aralaşmaz**: qarışmaz. qoşulmaz).

bal qoxumaz, kişi (yolun) azmaz.

bal olda sınıq qabda, qan olma qızıl qabda.

bal olsa, sinək tapılar. (**başına:** təbii halətdə).

bal süyci, baldan bala süyci. (**süyci**: dadlı).

bal süyci, baldan bala süyci. (**süyci**: dadlı).

bal süycü, baldan bala süycü. (**süycü**: dadlı. şirin).

bal tutan barmağın yalar.

bal tutan barmağın yalar. (iş görən, qazanc sağlar, aparar).

bal yeyən, arı iğnəsinə dözər.

bal, ağısız olmur.

bal, ağısız olmur.

bala görənin qılar, ata bilənin.

bala olsa, beşik tapılar, baş olursa, yol tapılar.

bala üçün ürəkdə ağrıyar, biləkdə.

bala üçün ürəkdə ağrıyar, biləkdə.

bala vardır ata ondan altı batman çox gəlir, ata vardır bala ondan altı batman az gəlir. (oddan kül, küldən od törür).

bala yaşıdan kişi başıdan bəslənsin. (**yaşıdan**: gənckən).

bala, balım (dı), balası, canım (dı).

bala, balım (dı), balası, canım (dı).

bala, balım (dı), balası, canım (dı).

bala, balım, balası, canım.

bala, balım, balası, canım.

bala, balım, balası, canım.

bala, balım, balası, canım.

bala, balım, balası, canım.

bala, balım, balası, canım.

bala, balım, balası, canım.

balaban çalanındı, at minənin.

balaban çalanındı, at minənin.

balaban çalanındı, at minənin.

balaban çalanındı, at minənin.

balaban çalanındı, at minənin.

balaban çalanındı, at minənin.

balabanda qandırmaq: al dili, ima-işarə ilə söz qandırmaq.

balaca daş, sındırar baş.

balacan bas oyuvu at başıvı yatgiləsən. (**bas oyuvu**: bəsdir oy xiyalların. düşünmə artıq).

balacan bas oyuvu at başıvı yatgiləsən. (**bas oyuvu**: bəsdir oy xiyalların. düşünmə artıq).

balalı evdə sır yatmaz, oğurluq yerdə, mal qalmaz. (**oğurluq yerdə**: oğurluq olan yerdə yerdə).

balama qurban inəklər, balam havax iməklər.

balanı yaşdan, qadını başdan. (**yaşdan**: kiçiliyindən). (**başdan**: ilk gündən).

balası olan beşiyin tapar, siçanı olan deşiyin.

balası yox, quruq soy. (**quruq soy:** sonsuz).

balasın gördün, atasın sorma (balanı tanıdınsa, atasın tanımışsın). (bu söz, kişini, oğul, uşaq eğitiminə çağırır).

balasız qadın, gəlincik, parasız igid, ərincik. (gəlincik: gəlin kimi şən, ərincik: qaçağan. çəkingən).

balçıya doşab (pəkməz) satılmaz.

baldan bala dadlıdır.

baldan dadlı, duzdan çor (iti).

baldırda bit, başa çıxar. (baldırdaki bit başa da çıxar). (içi pis, işi kötüdən iyilik gözlənilməz). domuzu süfrəyə oturtsan, ayaqlarını süfrəyə qoyar).

baldız gəlindən, bacı, biri birindən acı.

balı dibindən, yağı üzündən tanı.

balı olan sözün kökünə yetər.

balı, barmağı uzun yox, buyruqlu yeyər. (buyruqlu: qisməti olan).

balıda çox yeyəndə acı dadlanar.

balığ ağa girdikdən sonra, başı ayılır.

balığ balığçıya yönəlir, quş ovçuya.

balığ balığı tutmasaydı, balığ dənizi tutardı.

balığ başdan tutular, kişi dildən.

balığ başsız, bağ bildəsiz salınmaz. (**balığ**: şəhər. ölkə). (**bildəsiz: bələtsiz**: bilgisiz. mə'lumatsız).

balığ dənizdə batmaz.

balığ suda, gözü dışda (: bilən nərsəni bilməzdən gəlmək).

balığ üzər çay bilər, quşlar uçar, yel bilər.

balığa üzüş, tülküyə kələş, qurda yırtış, itə boğuş öğrətilməz.

balığa yem olur qarışqa, qarışqa balığ yeyir.

balığçı, balığ yalı (qədər) gözəl olmaz.

balığda qonaqda, iki gün söna ağı olan.

balığı başından avlamaq. (balığ başından avlanır). (işi başından, kökündən sağlam tutmaq).

balığın böyüyün, bataqlıqda arama.

balığın canı sudadır, yalığun canı dildə. (**yalığun**: insanın) **(**kişi, içsəl, ruhsal yaşamın, dil ilə, söz ilə yaşadır. dil, söz, kişi üçün, balığa su yerindədir**)**.

balığın günü suda keçir, iyidin günü işdə.

balığsan balıq. balaca ballıca, ala dilli dodaqlı balıq. (körpə uşağa deyilir).

balıx balığı tutmasaydı, balıx dənizi tutardı.

Balık baştan kokar. Değersiz yönetiler başa geçtiğinde toplumun bozulması hızlanır. (Bayram Özdemir).

balıq başdan çürür. (**balıq**: ölkə. şəhər). (poyuz yozuq başçılarla ölkə durmaz).

balıq başdan qoxar. (**balıq**: > bəlx. ölkə. şəhər). (toplumun alt orta qatlarında nə var ki). (ölkə başdan pozular).

balıq başdan pusar. (**balıq**: > bəlx. ölkə. şəhər). (**pusar**: qoxar). (toplumun alt orta qatlarında nə var ki). (ölkə başdan pozular).

balıq başdan sasır, ağac içdən çürür. (**balıq**: el. ölkə).

balıq başdan şişər, yox quyruğundan, yaluğ başdan qoxar, yox qursağundan. (**yaluğ**: kişi) (kişi başdan azar, yeməyindən, qarnından yox). (kişilik ölümü başdan olur).

balıq küsürsə sudan, yaşam köçər ondan.

balıq onqar su ilə, bilgə onqar el ilə. (**onqar**: əmələ gələr).

balıq suda can tapar.

balıq suda can tapar.

balıq suda, gözü dışda (: bilən nərsəni bilməzdən gəlmək).

balıq susuz onğmaz, bilik başsız onğmaz. (**onğmaz**: becərilməz. böyüməz. ösməz).

balıq tutulduqda yenidir.

balıqlar susamaz.

balın təkini ye, sütün üzünü.

balsızda ağlar, balalıda.

balşı düşününcə, əlli bitirmiş işi.

balta ağacdan sorar. -necəsin. –ağac demiş. –sapından ayrıl, danış!.

balta başı salqımlı, sapı çəkişli olar. (**salqımlı**: ağır. vəznli). (**çəkişli**: əsnək. qayışqaq. flexible. elastik).

balta başıynan işləməz, sıpıynan işlər.

balta dişi ilə işlər, sapından asılar. (balta dişi ilə işlər, quyruğundan asılar).

balta düşsə, sapına bax (baltaya tutuldunsa, sapı gör kimdədir).

balta görməmiş, orman yox. (orman: meşə) (sıxıntısız, inciksiz iş, kimisə yoxdur). (igit deyingən, dəymədüşər, ərgil (ərgçil), ərköyül olmamalıdır. (**ərgil**: ərgçil. ərköyül: kəmaltələb).

balta gücü sapından.

balta qızıldan olsa genə yeri odunluq.

balta sapda salqımlı. (**salqımlı**: ağır. vəznli). (baltanın gücü sapın tutandandır).

balta sapın tanımır, ona qulluq edir. (balta sapın tanımır, dediyin elir).

balta varım, odun yox, ocaq varım, otum yox.

balta yönün sapından sor. **(yönün:** tuşun. səmtin) (**sapından:** dəsdəsindən).

baltaçı nə bilir ürək nədir, ürəyi atmağa ürək istəmir.

baltaçının yardımı, baltasız olmaz. (yardımı: köməyi).

baltada varsa, sapındada var. (əksiklik yalınız bir yandan değil).

baltalıda, baltasızda, yıxılan ağacın üstünə axışar.

baltanın boğazına sap soxulmasa baltalanmaz. (baltanın götünə) (**baltalanmaz**: baltalıq edəməz).

baltanın sapın tanı, qulluq ed.

baltanma belə, sapıva bax kimdədir. (**baltanma** baltalıq edmə).

baltası kütükdən çıxmaq. **(kütükdən: kötükdən)**. **(**güc durumdan sıyrılmaq, qurtulmaq, nəcat tapmaq).

baltasız, bağ meşəyə dönər.

baltaya sap olmaq. (1. inanc, məslə yiyəsi olmaq. 2. işə yaramaq, dəğmək).

bamağ arsı baxmaq: elə belə baxmaq.

Bana değmeyen yılan bin yaşasın. İnsanların bencilliğini anlatır. Bana bir kötülüğü olmasında başkalarına ne yaparsa yapsın. (Bayram Özdemir).

bansa toyuq bir evdə, dişlik köçər o yerdən. (**dişlik: dinclik**. huzur).

bar güdən bağ əkmiş, daş əkən dağ dərmiş.

barağan yürmüş, arayan bulmuş. (çatan yerimiş, axdaran tapmış).

baraş nisgil tikan tək sancılıb başə, baraşqa yox ümidim gecdi artıq son dəmim gəlmiş. (**baraş**: vəslət. vüsal). (**baraşqa**: vüsalə).

barça ondan alqu bular, öznü aldan ıraq qılar, qara günün sonu çatar, danlar atar yollar açar. (**alqu**: boya. rəng. güc. tovan. bacarıq).

barçağ görməz yük əğrisi, amac tutmaz ox əğrisi. (**barçağ görməz**: yurduna, yerinə çatmaz).

barçağ görməz yük əğrisi, amac tutmaz ox əğrisi. (**barçağ görməz**: yurduna, yerinə çatmaz).

barçanı könətmək güc. (hamını razı salmaq zor).

barçanı qucmuş sonunda ol qara üzlü ölüm.

barçanın yenğisi, yaxşısı. (hər nəyin yenğisi, yaxşısı).

barçasın itirən, parçasın özlər. (**barçasın**: hamısın). (**parçasın**: tikəsin).

barçaya yenğiliq yeğ. (**barçaya**: hər nəyə).

bardaqda batan, göldə batandan çox olar.

bardı ərən, qonağ görüb, qutqa sağar, qaldı alığ, oyuğ görüb evin yıxar. (**bardı**: geddi) (xoş düşünər), (**alığ**: səfeh gədə). (**oyuğ görüb**: qaraltı görcək). (geddilər o kişilər ki qonağın gəlməyin qutluq sanardılar, qaldılar hüllük küllük kişilər ki, bir qaraltını qonağ sanıban kəndi evin yıxır).

barığ orta tutulsa, yoxdan yeğ. (olan nərsə olmuyandan yeğ). (nəğdin azı, nisyənin çoxundan yeğ.

barın qalı, bir qalıta qapqarma. **(barın:** tamam). (**qalı**: malı). (**qalıta**: çuvala). (**qapqarma**: doldurma). (yumurtanıı bir səbətə, yığmazlar).

barınmasa çatılmaz, yağınmasa açılmaz. (gedilməsə yetinməz, su düşməsə göğənməz).

barısının başı, sağlıq. (**barısının**: hamısının).

barış dəğəri, savaşda biçilər.

barış günü bir cücə, savaş günü bir öküzdən yeğ basır. (**yeğ basır**: baş gəlir).

barış savaşdan doğar!.

barış sevən, savaşa yaraqlı gərək. (**yaraqlı**: hazir. mücəhhəz).

barış sevsən döğüşməyə yaraqlan.

barışıq yapar, savaşıq yıxar.

barlı ağac baş əğmiş, barsız olan dikəlmiş.

barlı ağac çırpılır.

barlı ağac daş alar, kövrək ürək göz yaşar.

barlı gözəl qoz ağaca, daş gələr.

barmağın heç ağza qoyma, qoyursan, dişlənir.

barmağından bal damır, çanağından yağ.

barmaq başqa demə, biləyi birsə.

barmaq soksa, bal əkşir (turşar).

barmaq soksa, bal əkşir (turşar). (bu söz pis niyyətli, qaramsər haqda söylənir).

barsız ağaca, ağac tolazlama.

barsların anısın, bişilərə balasın. (**bars**: pələng). (**balasın**: sevimlisin). (pişiklər barslardan yadgardır, insanlara sevimlilərdir).

bartın sağası sağlıq. (hər nəyin dəvamı, durmusu sağlıqdır).

bas dağlama dilinə, bas palanı belinə.

basaq basaq çıxalı, uca yerlər alalı. (pillə pillə çıxıb ucalıqlaları qapsayar).

basaq basaq yolları, asda gedən yorulmaz. (pillə pillə yolları yavaş gedən yorulmaz).

basaq basaq, aşam aşam yolun sürək yaşamın. (**basaq basaq:** pillə pillə). (**aşam**: mərhələ).

basda yürü, yetirsin, əkdə suvar, dərirsin.

basıb yaylağın, qoruğun, çayırların alıb.

basıda balığ olmaz. (basıda: bostanda).

basına gələn, basmaqçı olar. (başına gələn, başmaqçı olar). (**başına < basına**: zulma). (**başmaqçı < basmaqçı**. zalim. **zumkar**). (zulum görən zalim olur).

basqa basqa çıxan yorulmaz. (**basqa basqa: basaq basaq:** pillə pillə).

basqıdakı altından, asqıdakı salxım yeğ. (**basqıdakı**: dəfinədəki).

basqın basanın : basqın yapan öncəlik qazanır.

basqısız taxtanı, yel alır, yel almazsa, sel alır.

basmadan yuxu, yerivi sal.

basmaq bir övüd verər, basılmaq ikisin.

basmaqdan bir övüd alsan, basılmaqdan ikisin alarsan.

bastan yerdə altın var, varsan paxır tapılmaz. (**bastan**: filan). (**paxır**: mis). (el ağzında çox söz gəzər, qulaq bəzər, boş olduğu ürək əzər).

bastıran barar, çapağan qalar.

baş açığın qaçağı, börkçü tükanıdır.

baş açılar dil ilə, qay açılar söz ilə. (**qay**: qussə).

baş ağır, qulağ sağır gərək.

baş axdaranda var, yaş axdaran da.

baş aldansa dadağa, tez tutular qadağa. (**qadağa**: bəliya).

baş anlamasa könül çəkməz. (**anlamasa**: başa düşməsə)}. {baş qopmasa can qopmaz. (**qopmaq**: qalxmaq. durmaq). {baş qoymasa can qoymaz. (**qoymaq:** toxdamaq. dinmək)}. (kişi olaraq baş tüm varlığın yönətir. baş olmayınca doğru, uyqun yol bulunmur).

baş aparıb yırtdı qulaq, boş idişin ciringi, boş kəllənin gəpingi. (**idişin**: qabın). (**ciringi**: cırınğ cırınğ) (**gəpingi**: danışması).

baş arayar bir yol sala könülə, can evində könül salmış yurdunu. (**baş**: ağıl).

baş ayrışır börk üçün, qol sındırılır yenğ üçün: baştan ayrılırsaq, qalpaq üçünə, qolumuz qırılırsa, yenğ üçünə. (üzün verdik, astr üçün).

baş baş olsa dilin qorar, dil yiyəsi baş olsa, başın qorar. (**baş baş olsa**: kəllədə us, ağıl olsa). (**baş olsa**: uslu, ağıllı olsa). (**qorar**: saxlar).

baş baş olsa kişi başına iş gəlməz. (kişi başına iş gələr!!!, demişlər).

baş baş olsa, börk tapılıb baş qorar, başında baş yoxunsa, börklü olsun el savar. (savar: sovurar. dağıdar. bərbad edər).

baş baş olsa, səhvidə başa düşər.

baş başdan üstün. (bilik bilikdən üstün).

baş başdan üstündür.

baş baylığı, mal baylığı. (varlılıq usuğluqda sayılır, mallılıqda). (**usuğluqda**: ağıllılıqda).

baş baylığı, mal baylığı. (varlılıq usuğluqda sayılır, mallılıqda). (**usuğluqda**: ağıllılıqda).

baş bir olsada, qayğısı mindir.

baş boş olsa dil çaşar, baş baş olsa, dil yarar. (**dil**: söz).

baş boşludur daşa, birdə üstəlik.

baş börksüz olur, biliksiz yox. (börksüz baş qalır, biliksiz yox).

baş bulandısa, vay qalanın halına.

baş çanağı boş qalmasın beyindən, qaraş olsa, güldə bitər peyindən.

(**qaraş**: baxım. muvazibət. muraqibət). (**peyin:** pisgil).

baş çönürsə daşa, könül susar, dil deməyə söz tapmaz.

baş daş ilə dənənməsin, daş baş ilə dənənsin!.

baş daşa, ağıl başa, əl işə, ağız aşa.

baş daşa aşlandı, aşda qaldı, yaşlandı.

baş daşisə, gövrə ləş. (baş olmasa, gövrə daş). (**gövrə**: tən. ləş).

baş dedim papax gəldi, əy dedim, sınıq gəldi.

baş dəğişir, dil dəğişmir.

baş dildən, qoy boğazdan səmrər. (**qoy**: qoyun). (**səmrər**: becərər).

baş dillə dartılır.

baş düşdüyündən, göz gördüyündən, qulaq duyduğundan, tən çəkdiyindən qorxar.

baş düşünər, könül inanar!. (kişini iki yol ayratır. (ayrıdır, ayrı, aralı salır, fərqləndirir). düşünüb inanma, inanıb düşünmə. (1. düşünürsən, inanma, inandınsa, düşünmə). (1. düşünüb inanma, inanıb düşünmə). (düşünürsə inanmır, inanırsa, düşünmür). (düşüncənin sonu, inancdır!. (**sonu**: ölümü). (**inancdır**: inanmaqdır). (düşünəndə inanc qalmaz, inanmışsa, düşünc almaz. (düşünc almaz: oylanmaz. fikirləşməz). düşünən inanc almaz.

canlını sev, vurulma. -bir canlının vurqunu, tuta bilməz baxtını. (**vurulma:** aşiq olma. aşırılıq edmə). (aşırı sevgi iç yiyəlikdə dursun, paylaşa bilsən belə, ölüb qalsan sənindi) (**yiyəlikdə**: milkiyyətdə).

cansız, yara bilməz, ölüm, çara bilməz.

caylağa (nabələdə. naşı) zurna verdilər, gen başından pilədi. (gen başın tutdu).

caymasan yoldan, qılarsan yuva.

Cevahirli minare, Kanuni (Allah rahmet eylesin) Mimar Sinan'a Süleymaniye Camisini yaptırırken, Safevi Türk Devleti'nin hükümdarı I. Şah Tahmasb Han (Allah rahmet eylesin) OsmanlıDevlet'ine bir elçiyle caminin inşaatında harcanmak üzere bir sandık dolusu mücevher göndermiş. Kanunide teşekkür etmiş. Elçinin gözü önünde mücevherleri bir potada erittirmiş caminin minaresinin taşlarına harç olarak döktürmüş. Şimdi süleymaniye camiinin minaresi Cevahirli minare adını taşımakta. Anadolu Türkleri ile Azerbaycan Türklerinin dostluğunun sembolü gibi yükselmekte. (Bayram Özdemir).

cəhrə əğirər, hörəgə görər.

cəvanlıqdan qocalığa hay saxla, varlılıqdan yoxsulluğa pay saxla.

cəviz ilə çınar bir yaşadı, min yaşadı.

cib boşluğu könül toxluğu barışmaz. {cib boşluğu könül toxluğu yarşınmaz. (**yarşınmır**: birbirinə yaraşmaz)}.

cib boşluğu könül toxluğu barışmaz. {cib boşluğu könül toxluğu yarşınmaz. (**yarşınmır**: birbirinə yaraşmaz)}.

cib parasız ev dincsiz olmasın.

cibi parasız, ölü neylər, girər ağlar çıxar ağlar, cibi paralı, toyu neylər, girər oynar, çıxar oynar.

cibi yırtıq, pul durmaz, ağız yırtıq söz durmaz.

cibivi bağla, sonra ürək bağla.

cicik girsə qapıdan, sevgi uçar bacadan.

cicik odu yaş qurunu yaxdırar.

ciciklə sevgi birgə doğulur, bıraq birgə boğulmur. (**ciciklə sevgi**: həsədlə eşq) (**bıraq**: ama).

ciciklənmə, çiçəklən!.

cığan verməyinə qısqanar, yalan deyər utanmaz. (**cığan**: paxıl).

cığana, eşitməsi mut gəlməz, qonşu çalan zırnanın. (**cığana**: paxıla). (**mut**: xoş).

cığanıq öldürgənin, kösəvi gögərər. (paxıllığı öldürgənin, kösəvi gövərər). (**kösəvi**: közərmiş çubuğu).

cığanın bağı gögərməz, gögərsədə bar verməz. (**cığanın:** paxılın).

cığanlıq ölütən, kösəvi gögər. (cığanlığın, paxıllığın öldürgənin, kösəvi gögrər. (paxıllığın, buxlun öldürənin, közəvi göyərər) (**kösəv**: yarı yanmış, başı yanmış çubuğ. köz qarışdıran). (cığanlığı, paxıllığı, cicikliyi kəndindən qoğan, hər amacına yüryüb çata bilər).

cığrı izləsən yola varar, yolu izləsən elə.

cihan xalqı səni görməyə aşıq, sanımda üzün göyçək yaraşıq.

cihanda hər kişi oyun utamaz, ata yerin hər kişi tutamaz.

ciqqə dursun, bök dursun, oğul dursun, el dursun!. (bu evrən aşıq oyunun andırır. bökdə durur, cikdə. hər necə olursa olsun, kişilik dursun, elim dursun. çevirəni, dunyanı dolandırıb çevirən, tanrı qulu, kişi oğlu, elimdir).

cin azıdı cinlikdə, biridə çıxdı küllükdən.

cında yamaq bəlirtməz.

cinə papaq tikir, şeytana başmaq.

cırıq çarıq, uzun yol, otur evdə saçın yol. yeni çarıq yol qısaldar, evdə oturan yol uzaldar.

cocuğ arur oynamağa çöl deşik.

cocuğun toxu qonağın acından yeğdir.

cocuğun toxu qonağın acından yeğdir.

cocukikən küsdüm demək man deyil, yaşlı olub küsdüm desən man olur.

cocukikən küsdüm demək man deyil, yaşlı olub küsdüm desən man olur.

cocuq könlüm aldanır, alanına bəğinir, verəninə qınanır. (**bəğinir**: sevinir). (**qınanır**: döğünür. üzülür).

coladan çıxıb quyuya düşməkdənsə, quyuydan çıxıb colaya düşmək yeğ (iyi).

coladan çıxıb quyuya düşməkdənsə, quyuydan çıxıb colaya düşmək yeğ (iyi).

colanı sıçan qazar, öküz büdrər.

culğa kələtsiz ölər. (**culğa**: çulqaçı. çulqalıq toxuyan) (**kələtsiz**: kəfənsiz).

cumaz qutlu, eliz utlu. (**ut**: şərəf).

cumuş daban altda.

cütcü yağış isdər, yolçu quraqlıq.

cütçü yağış isdər, yolçu quraqlıq.

cütlügünə daş atan, yalnızlığın yaşarmış.

cütlügünə daş atan, yalnızlığın yaşarmış.

çaba göstərmə qapanmış qapılardan açasan, vardı minbir açığı səndə yetərki çalasan.

çaba göstərmə qapanmış qapılardan açasan, vardı minbir açığı səndə yetərki çalasan.

çaban nəsə yazın o, istək nəsə çalış ol. (**çaban**: qeyrətin. çalışman).

çabayıb olmaq, oturub ölmək, kimliyin seçmək.

çabayıb olmaq, oturub ölmək, kimliyin seçmək.

çadır, ana qazıq çaxılmadan qurulmaz. (**ana qazıq:** orta dirək).

çadır, ana qazıq çaxılmadan qurulmaz. (**ana qazıq:** orta dirək).

çadır, ana qazıq çaxılmadan qurulmaz. (**ana qazıq:** orta dirək).

çadır, ana qazıq çaxılmadan qurulmaz. (**ana qazıq:** orta dirək).

çadra altda bəğənmə, qaplıcada bəğən qız. (**qaplıcada**: hamamda).

çağ barınar durmadan, ölüm qapar sormadan. (**barınar**: axar).

çağ itgini sağaldar. (**çağ**: sürə. zaman keçməsi).

çağ ötmədən gör işin, igit ikən yaraqlan, var gücünlə, tam ərdəmlə işlə qıl, ağız əğrər, dişlər düşər, dil gedər, huşda çaşar, başın titrər diz əsər.

çağ səni ötmədən, sən çağı öt.

çağ səssiz çakar. (**çakar**: cırar. ayırar).

çağ səssiz çakar. (**çakar**: cırar. ayırar).

çağa yıxıla yıxıla ulağar, ulu əğilə əğilə sınağar. (**çağa**: bala). (**ulu**: böyük). (**ulağar**: böyüyər). **(sınağar:** sınar).

çağa yıxıla yıxıla ulağar, ulu əğilə əğilə sınağar. (**çağa**: bala). (**ulu**: böyük). (**ulağar**: böyüyər). **(sınağar:** sınar).

çağalanı çağında dəğ.

çağasan pişməmisən, pişməyivə edgi gərək. (**çağasan**: uşaqsan). (**edgi**. əməl). (aşınmamış (təcrübəsiz) kişiyə deyilir).

çağı buraxsan çağa, açılmaz düğünlər açar.

çağı buraxsan çağa, açılmaz düğünlər açar.

çağı gəlir özün basar üzdəkin. (**özün**: içindəki). **(üzdəkin**: zahirdə olanı)}. (yaşam sürmür üz ilə, üzləşiri öz ilə). {iç, üz basa. (**üz**: surət)}. (içdə olan üzə damar). (üz dad alar içindən, iç bəzəməz üzdəki).

çağı vardır eşq odu güllənər, çağunda var eşq ocağı küllənər.

çağı vardır eşq odu güllənər, çağunda var eşq ocağı küllənər.

çağı yetsə pişər, pişirsə düşər.

çağilə gələn çağilə gedir.

çağilə gələn çağilə gedir.

çağın bitsə (dolsa), ötün yetsə getməyivi, dönməyivi bilməli. (**ötün**: və'dən. müdətin. tarixin).

çağın bitsə (dolsa), ötün yetsə getməyivi, dönməyivi bilməli. (**ötün**: və'dən. müdətin. tarixin).

çağın keçmişi yok, gəlcəyi yok. -hər nə çağında yaranmış, nə arda qalmış, nə iləri qaçmış.

çağın varkən yaraqlan, keçirmə çağ yalandan.

çağın varkən yaraqlan, keçirmə çağ yalandan.

çağında əkər, çağında bitər, çağında biçər.

çağında əkər, çağında bitər, çağında biçər.

çağında yat ertin dur, ayaq basıb belin ur. ("ayaq basıb belin ur" işlə deyir).

çağında yat ertin dur, ayaq basıb belin ur. ("ayaq basıb belin ur" işlə deyir).

çağından kəsik, özünə gəzik. (heç nəyi saymaz, aldırmaz).

çağınla ayaqlaş, olma keçmişə yoldaş.

çağırğan yerdən qalma, çağrılmayan yerdə qalma.

çağırğan yerə barmayıb ar qılma, çağrılmayan yerə barıb dar qılma.

çağırğan yerə gedməyib ar etmə, çağırmağan yerə gedib yeri dar etmə.

çağırmasan (çığırmasan) qonşu köməyə gəlməz.

çağla altın ölçülməz, altınla çağ alınmaz. (**çağ**: vaxt. zaman).

çağla altın ölçülməz, altınla çağ alınmaz. (**çağ**: vaxt. zaman).

çağla öğrəşilən, çağla unudulur.

çağla öğrəşilən, çağla unudulur.

çağlan ürək, çox bir üzü güldürər, tutqun ürək, bənizləri söldürər. (**çağlan**: şad olan).

çağlar çağul, ir keçər. (hər nəyin coşqun, qızqın, dəliqanlıq çağı tez bitir). (**çağul**: fəsl).

çağlar kəçər, tozlar köçər güzgüyə.

çağlar ötər heç bir acı öz başına sağalmaz.

çağlar ötər heç bir acı öz başına sağalmaz.

çağlasın qoy dilə gəlsin yanıq ellərdə dilim.

çağrılan yerdə bit, çağrılmayan yerdən it.

çağrılan yerdə bit, çağrılmayan yerdən it.

çağrılan yerə ar etmə, çağrılmayan yeri dar etmə.

çağrılan yerə ar etmə, çağrılmayan yeri dar etmə.

çağrılan yerə ərinmə, çağrılmayan yerdə görünmə.

çağrılan yerə ərinmə, çağrılmayan yerdə görünmə.

çağrılan yerə gec qalma, çağrılmaz yerə tez varma.

çağrılan yerə getməyib ar etmə (çağırğan yergə barmayıb ar etmə).

çağrılan yerə var, çağrılmayan yerdə nəyin var.

çağrılan yerə var, çağrılmayan yerdə nəyin var.

çağrılıbsan gedirsən (toy), çağrılmadan gedirsən (yas).

çağrılıbsan gedirsən (toy), çağrılmadan gedirsən (yas).

çağrılırsan gedməli, dinməkliyə qalmaz gərək, yoxku bayraq bildirə, yoxdur ölümdə savçılar. (dinməkliyə: e'tiraza). (qıl yaruğun gəlmədən ölümdə yox savucluq, gəlsə bir gün dinmədən, çapmış gedər tinivi). (savucluq: elçilik. sözçülük. raporçuluq. quzariş vermə).

çağrılmamış qonaq döşəksiz oturar.

çağrılmayan yere, çörekçi geder.

çağrılmayan yerə, pişiklə it gedər.

çağrılmayan yerə, pişiklə it gedər.

çağrısız baran, döşəksiz qalır.

çağrısız baran, döşəksiz qalır. (**çağrısız baran**: də'vətsiz gedən).

çağsız çiçək açılmaz.

çağsız çiçək yarılmaz. (açılmaq).

çağul değişir, kişi işləməzsədə. (**çağul**: fəsl).

çağun çağlar bəkləməyi bilinməz, çaysa aşar, yaşlamağı sezinməz, kişioğlu doğub olub keçəndir, bəngü yaşam arar bıraq görüməz. (**bıraq**: ama).

çağun gözlə, gözü gözə yetirər, gözü gözüdən edirər. (itirdər).

çağun ötər gözləməyə yarıq yox, yer əkməsən yarın üçün dənin yox, gün işini yerində gör qoyma qala yarına, əkən biçər güman qalmaz yarına. (**yarıq**: fürsət. macal). (**yarına**: yoldaşına).

çağun ötər gözləməyə yarıq yox, yer əkməsən yarın üçün dənin yox, gün işini yerində gör qoyma qala yarına, əkən biçər güman qalmaz yarına. (**yarıq**: fürsət. macal). (**yarına**: yoldaşına).

çağun ötür, çağ karvanı dayanmaz, ölüb köçən, ötüb keçən aranmaz, can varikən qıl yaraq, başqaları sən yapanı yapanmaz.

çağun ötür, çağ karvanı dayanmaz, ölüb köçən, ötüb keçən aranmaz, can varikən qıl yaraq, başqaları sən yapanı yapanmaz.

çağun susqun biçər, səssiz keçər, qırar ölməz, ötən bilməz, görən sanmaz, bilən qanmaz. {çağan çağan içində, yaman iyğan izində (**çağan**: **çağun**: zaman). (**iyğan**: iyi)}.

çağun susqun biçər, səssiz keçər, qırar ölməz, ötən bilməz, görən sanmaz, bilən qanmaz. {çağan çağan içində, yaman iyğan izində (**çağan**: **çağun**: zaman). (**iyğan**: iyi)}.

çağuva, yaşıva uyqun işlərindən qalma, –yaşlılıq gəldi getməzdir, yaşarlıq getdi gəlməzdir! (**yaşlılıq**: qocalıq) (**yaşarlıq**: gənclik).

çağuva, yaşıva uyqun işlərindən qalma. –yaşlılıq gəldi getməzdir, yaşarlıq getdi gəlməzdir! (**yaşlılıq**: qocalıq) (**yaşarlıq**: gənclik).

çax çax özün yırtar, dəğirman bildiyin edər. (asda gedən uz gedər). (qızqınçılıqdan, aşırçılıqdan (aşamaçlıqdan. ifratkarlıqdan) uzaq durmaq).

çaxçax başın döğər, dəyirman bildiyin elər.

çaxçax hər nə başın yerə döysədə, dəgirmanın bildiyi əlindədi.

çaxır işsən baş oynadar, yel var əssə kök oynadar!.

çaxmağı yandıran kavdır, demiri dövdüren tavdır, dayan İnce Memed dayan, şimdi direnecek çağdır. (**tavdır**: oddur).

çaxmaq çaxar, çaxanı yaxar. (**çaxmaq çaxar:** ışıq saçar). (**çaxan**: yalan).

çaxmaq çalınsa od çıxar, söz deyilsə oy çıxar. **(oy çıxar**: fikir doğar). (çaxsa tütünür, çalsa bilinür). (fikir, dilək bəllənər) (çaxmaq çalınsa (nərsə yansa) tüstülər, söz eşidilsə, dilək, istək bəllənər, anlaşar).

çaxmaq məndən, qov səndən.

çaxmaq məndən, qov səndən.

çaxsa tütünür, çalsa bilinür.

çaxsa tütünür, çalsa bilinür. (çaxmaq çalınsa (nərsə yansa) tüstülər, söz eşidilsə, dilək, istək bəllənər, anlaşar. (çaxmaq çalınsa od çıxar, söz deyilsə oy çıxar. (fikir, dilək bəllənər).

çaxsa tütünür, çalsa bilinür. (çaxmaq çalınsa od çıxar, söz deyilsə oy çıxar) (fikir, dilək bəllənər) (çaxmaq çalınsa (nərsə yansa) tüstülər, söz eşidilsə, dilək, istək bəllənər, anlaşar).

çaxsa tütünür, çalsa bilinür. (**çaxsa**: yansa).

çaxşaq üzə ot olmaz, çaxraq üzdə ut olmaz**. (**daşlıqda, daş üzündə ot çıxmaz, keçəlin üzündə utanc olmaz).

çaxşaq üzrə ot bitməz, çağra (keçəl) ilə ut olmaz. **(ut: üz**. **həya)**.

çaxşaq üzrə ot bitməz, çağra ilə ut bolməz. (**çaxşaq**: daşlıq). (çağra: keçəl). (**ut**: üz. həya). (**bolməz**: olmaz).

çaqqal baş qoparır qurdun adı yamandır, atıb birbirizi ayrılmayın amandır.

çaqqal becət bars olmaz. (**bars**: bəbir).

çaqqalın qurd ilə tutmaz oyunu.

çaqqalın qurd ilə tutmaz oyunu.

çaqsa tutunur, çalsa bilinir.

Çal çoban çal, Ertuğrul gimi oğlun mu öldi. Sıvas gimi galan mı gitti? I. Ildırım Bayezıt Han'ın sevdiği şehzadesi Ertuğrul Çelebi vefat etmişti. O sırada Emir Timur Bek ordusuyla Anadolu sınırına gelmiş Sıvas'ı kuşatmış. Halkı ve askerleri şiddetli bir şekilde

cezalandırmış. Sıvas'ı da Emir Mutahareddin'e vermişti. Anadolu da düzeni sağlamak için bulunan Ildırım Bayezıd Han bakmış bir çoban, almış eline kavalı çalıyormuş dertli, dertli. Bunu gören ıldırım Bayezıd Han, Çal çoban, çal. seninde Ertuğrul gimi oğlun mu öldi. Sıvas gimi galan mı gitti? demiş. (Bayram Özdemir).

çalağan sözlər, çılqınlara yarar. (**çılqınlara**: vırqnlara. dəlilərə).

çalan bilsə çalmağın, çökəçi uzun ağ eylər. (**çökəçi**: oynuyan. oyunçu).

çalan çoxdu, oynayan yoxdu.

çalan çoxdu, oynayan yoxdu.

çalan ordu, haqlı çıxar. (**çalan**: qalib).

çalıda gül bitmez, kalağa söz yetmez. (**kalağa:** kala. cahile).

çalınan qulağı kəsməzlər. (çalınan qulağ kəsilməz). qulağ eşitdiyin, göz gördüyün suçlusu deyil. (**qulağa çalmaq**: eşitdirmək).

çalındıqca tikildi, dadındıqca bitindi, qırıldıqca düzüldü, düzən qalmır düzməyə, tabım yoxdu dözməyə.

çalındıqca tikildi, dadındıqca bitindi, qırıldıqca düzüldü, düzən qalmır düzməyə, tabım yoxdur dözməyə.

çalınmasa tikilməz, dadınmasa bitilmək.

çalınmasa tikilməz, dadınmasa bitilmək.

çalış açqıl işgili, işgil açmaz işgili.

çalış açqıl işgili, işgil açmaz işgili.

çalış axmaqla yola ged, uslu səninlə yolun tapar.

çalış axmaqla yola ged, uslu səninlə yolun tapar.

çalış alqıl payıvı, kim atasi, kim tutasi, kim utasi bəllənməz.

çalış bacardığın olasan.

çalış bacardığın olasan.

çalış belə, dos qazan, düşman ocaq başında.

çalış dəğiş yaşam yolun istəsən, istəmədən olunmamış almaşıq.

(**almaşıq**: dəğişiklik).

çalış dəğiş yaşam yolun istəsən, istəmədən olunmamış almaşıq.

(**almaşıq**: dəğişiklik).

çalış döğün bilik al, dincliyin yolun sal.

çalış döğüşçü ol, söğüşçü yox. (**döğüşçü**: nərsəni oğub yox çıxaran, qaldıran).

(acı sözlə, yamanl ilə başa çıxmaz işlər, baş açılmaz işdən!). (**iş**: bəla).

çalış düşman ələ düşmüyəsən, yağu əldə ölmüyəsən.

çalış düşün, bilim artsın, yeb iç yatın, baxtın batsın.

çalış edin sevdiyin, olanmadı edindigin sevgilən. yaşın ötər sevdigivi bəkləməz, artar dərdin, ondan biri kəmləməz. (**kəmləməz**: azalmaz). (**edin**: əldə ed).

çalış edin sevdiyin, olanmadı edindigin sevgilən. yaşın ötər sevdigivi bəkləməz, artar dərdin, ondan biri kəmləməz. (**kəmləməz**: azalmaz). (**edin**: əldə ed).

çalış günülən yaşa, günündə yaşa. (düşüncən yerin bulsa, işlərin onarılsa, kim keçmişin yadavur, sönən külün savurur). (**yadavur:** yada salır). (yaşam günündə belə yaşansın).

çalış günüvü yaşa, keçmişi boşa.

çalış günüvü yaşa, keçmişi boşa.

çalış istəyivi amacıvı görüb biləsən. **oykuvu duyğuvu fikrivi ona tuşla, cala**. **görünməyib ki kişi özün görünmədiyi şeyə çatdıra, yada kişi tanımadığı şeyi isdiyə**.

çalış kəndivi tanı, olduğunda sev, yoxsa dəğiş.

çalış kəndivi tanı, olduğunda sev, yoxsa dəğiş.

çalış kimsəyə dil dəğirmə. (**dil dəğirmək**:. söz toxundurub incitmək). (kimsəni dilinlə, sözünlə incitmə, çalma).

çalış kimsəyə dil dəğirmə. (**dil dəğirmək**:. söz toxundurub incitmək). (kimsəni dilinlə, sözünlə incitmə, çalma).

çalış könülki vurquna heçyan ıraq değil.

çalış qazan içinlik, yoxsa qapandı cinlik (kinlik): o ki səmimiyyət qazanmağa can atmır, öcəş gürəş, kin ədavət dərə bilər. **(için:** səmimi. xodi).

çalış qazan içinlik, yoxsa qapandı cinlik (kinlik): o ki səmimiyyət qazanmağa can atmır, öcəş gürəş, kin ədavət dərə bilər. **(için:** səmimi. xodi).

çalış qızı ucuz al.

çalış ol yazan kəndi yazıvı.

çalış ol yazan kəndi yazıvı.

çalış seçdiyin yolda, yolla yaşa.

çalış sevdir sevənlərin könülün, budur gəlir uzaq deyil ölümün.

çalış sevdir sevənlərin könülün, budur gəlir uzaq deyil ölümün.

çalış sevə yaşamı. -yaşam sevinci, tüm keçrilən acıları unutturur. (**sevə:** sev). (**sevinci**: sevişi).

çalış sevə yaşamı. -yaşam sevinci, tüm keçrilən acıları unutturur.(**sevə:** sev). (**sevinci**: sevişi).

çalış sevənin bulasan, sevilmədin atasan..

çalış sevənin bulasan, sevilmədin atasan..

çalış sorun saranmasın içivi, sorun içdə alar içdən dincivi. (**sorun**: pıroblem).

çalış sorun saranmasın içivi, sorun içdə alar içdən dincivi. (**sorun** : pıroblem).

çalış tanı əldə olan varıvı, mutluğuvun burda durur haçarı.

çalış tanı əldə olan varıvı, mutluğuvun burda durur haçarı.

çalış tanı yalanı, doğru çıxsın uğruna.

çalış tanı yalanı, doğru çıxsın uğruna.

çalış tanı yalanı, doğru çıxsın uğruna.

çalış yapasan bir ürək, minlər ürək qırıq qaykişidən. (**qaykişidən**: nakişidən).

çalış yarış yollar açmış barışa. (**barışa**. çatağa. ərişə. nailiyyətə).

çalış yarış yollar açmış barışa. (**barışa**. çatağa. ərişə. nailiyyətə).

çalış yaşa bu yaşamı eninə, uzun gələr yaylnırsan geninə.

çalış, diniş. (çalışmadan son dincəlmə sırası).

çalış, diniş. (çalışmadan son dincəlmə sırası).

çalışan aparır, çox yeyən qabarır.

çalışan əldir yaratır umut, çalışmasa əl yaşamı unut.

çalışan qolun yarlığı dinər, işləyən başlar arzular enər. (**yarlığı dinər**: kasıbçılığı qoyar).

çalışan yaşadı, oturan yatdı, sorası batdı.

çalışan yaşadı, oturan yatdı, sorası batdı.

çalışanın çörəyi dadlı, ərincəyin canı.

çalışanın çörəyi dadlı, ərincəyin canı.

çalışanın çörəyi dadlı, ərincəyin canı.

çalışdınsa əldə bul, çalışmadın eldə bul. (**eldə**: başqalarında). (çabanmadan əldə edinmir).

çalışki bir dar ağacın yıxasan, çalışmaki dar başına çıxasan. (xoş armanlar uğrunda).

çalışqan əl boş qalmaz, qanığan könül ac qalmaz. (**qanığan**: çox göydən gedməyən. alçaq könül. qane' olan).

çalışqan kişi üzrə deyilir. -dinməz uymaz, izin üzməz, ırman arman, izigedər çalışqan. (**izin**: dəvamın). (**izigedər**: dəvamlı).

çalışqanın biri iki olsa, ərincəyin ikisi bir olar.

çalışqanın biri iki olsa, ərincəyin ikisi bir olar.

çalışqanın "biri" iki olsa, ərincəyin "ikisi" bir olar.

çalışma atadır, yer anadır.

çalışma atadır, yer anadır.

çalışma başqalaşmağa, çalış yaxşılaşmağa, yaxlaşmaq başqalıqdan **'başqa'** dır. (**başqalaşmağa**: mütəfavit olmağa). (**başqa: ə'la)**.

çalışma gün adamı olasan, çalış öz adamın olasan, gün dəğişir, öz gəlişir.

çalışma inandırasan kimsəki ola! -türlü dillərdə türlü dillər tökdüm, inanmadı üzün uzluğuna, sözün düzlüğünə. (**uzluğuna**: sədaqətinə).

çalışmadan , itinmədən istənilmiş yol açılmaz.

çalışmadan çalınmar. (**çalışmadan: çəlişmədən**. döğüşmədən). (**çalınmar**: alınmır. nail olunmur).

çalışmadan çalınmar. (**çalışmadan: çəlişmədən**. döğüşmədən). (**çalınmar**: alınmır. nail olunmur).

çalışmadan, itinmədən istənilmiş yol açılmaz.

Çalışmak ibadetin yarısıdır, İnsanların kendisine, ailesine, çevresine, ülkesine yararlı işler yapması da hayırlı bir iştir. (Bayram Özdemir).

çalışmaki öğrəşəsən keçmişdən, bax irəli bir atdım, qılcağın oylar öğrəş.

çalışmaq atadır, yer ana.

çalışmamış otursan, alın yazı yazılmış, sin qazanı qazılmış. (çalışmayan ölcəyə qazılıbaş) (**qazılıbaş**: məhkum).

çalışman ekiz olsa, bəyligin səkiz olar. (ikiyə çalışsan varın səkkiz olar).

çalışman ekiz olsa, bəyligin səkiz olar. (**ikiyə çalışsan varın səkkiz olar**).

çalışmanda yaşamında itgilərin sanama, edgilərin alqına. (**itgilərin**: əldə verdiklərin. itirdiklərin. ziyanların. (**edgilərin**: əl çatmışların. nailiyyətlərin). (yaşamıvı quran qazandıqlarındır, itirdiklərinyox).

çalışmanda yaşamında itgilərin sanama, edgilərin alqına. (**itgilərin**: əldə verdiklərin. itirdiklərin. ziyanların. (**edgilərin** : əl çatmışların. nailiyyətlərin). (yaşamıvı quran qazandıqlarındır , itirdiklərinyox).

çalışmasa beyin, vursa ürək nəyə gərək.

çalışmasa beyin, vursa ürək nəyə gərək.

çalışmasa, çalğaşdır. (işləməsə dəğişdir).

çalışmasan, düşünməsən astacana ölürsün, yaşlıqında, yaşlanmamış parça daşa dönürsün. (**yaşlıqında**: gəncligində).

çalışmasan, düşünməsən astacana ölürsün, yaşlıqında, yaşlanmamış parça daşa dönürsün. (**yaşlıqında**: gəncligində).

çalışsın beyin, qolayca yeyin.

çalışsın beyin, qolayca yeyin.

çalıyı dolanda, itə dalanma.

çalıyı dolanda, itə dalanma.

çalqını çalana (çalara), sözü danışana, işi bilənə, yolu gedənə, atı sürənə, malı alana, qızı sevənə, biçini əkənə ver deyiblər.

çalqını çalana, sözü danışana, işi bilənə, yolu gedənə, atı sürənə, malı alana, qızı sevənə, biçini əkənə ver deyiplər.

çalqınraq görüb gürəşər, çılqınraq gürəşib görər. (**çalqınraq**: çalışqançıl). (çılqınraq: cinişqıncıl. dəliçil).

çalqıya sevi ulu kiçi tanımaz. (**sevi**: əlaqə).

Çalma elin kapısını, çalarlar kapını. Başkalarına kötülük yapma, bir başkası dasana kötülük yapar. (Bayram Özdemir).

çalma qapım, çalır qapın.

çalma qapım, çalır qapın.

çaloyludan uzağ gəz, özün alıb, özün kəs. **(çaloyu** yalotu**.** quşoy. çalbacay. səlbə. oyun, fikrin, sözün, yönün tez tez dəğişən).

çalsa ilan yatan bilməz, duran bilməz, tutursa kor uluğ bilməz, kiçik bilməz. (**uluğ**: böyük) (**bilməz**: tanımaz).

çalsa ilan yatan bilməz, duran bilməz, tutursa kor uluğ bilməz, kiçik bilməz. (**uluğ**: böyük) (**bilməz**: tanımaz).

çalşamaz bir qırmasın, mində sevindirsən könül. (**çalşamaz**: qarşamaz. almaşamaz. dəğişəməz. bədəli olamaz). (birini min kərə sevindirməkdənsə, çalış bir kərə olsun belə qırma).

çaltaq qapıdan nələr keçməz. (açıq qapıdan min bəla gəlir).

çam ağacı qocalanda, şirəsi öz kötüyünə axar.

çaman ördək ir uçar. {**çaman: çalaman**. şıltaq. cıddan. çuvaluz (**çiv**. **siv**: iti). iti, yelkən olan}. (**ir**: tez). (yaqub bayat).

çamsaqqızı, çoban ərməğanı : dəğərsiz, yalnız içdən olan, təbii qonca, sovğat.

çamurdan çıxdıq, palçığa batdıq.

çamurdan çıxdıq, palçığa batdıq.

çapqınçlar bir qapıdan doyanmaz. (**çapqın**: əyyaş).

çapqınçlar bir qapıdan doyanmaz. (**çapqın**: əyyaş).

çapqır at, ötgür pıçaq.

çaputuna bax bezini al. (**çapıtına**: köhnəsinə).

çara gəlməz ağlamaqdan, ayrılırmış ət dırnaqdan. iştə yazı bu, qalan uçan qu. (**qu**: gözəl quş türü).

çara gəlməz ağlamaqdan, ayrılırmış ət dırnaqdan. iştə yazı bu, qalan uçan qu. (**qu**: gözəl quş türü).

çarığ tapan, dolağın tapar.

çarıq tapan dolağında tapar.

çarıq tapan, dolağın tapar.

çarıq tapan, dolağın tapar.

çarıq tapan, dolağında tapar. (çarıq tapan, dolağın tapar).

çarıq tapan, dolağında tapar. (**çarıq tapan, dolağın tapar**).

çarpan ürək, sevən könül dilənmədən duranmaz.

çarşı iti, qoyun bəkləməz.

çaş baş yalağa qarşılı durma. (beyni pehin, sapıqları (səfehləri) yanıtma).

çaşanda, baş var, aşanda başmaq.

çaşıb diş qıranı dişləmə, işin onmazını işləmə. (**çaşıb**: kırıxıb. yanılıb. tələsib). {yanmazağun yanmayacaq ətəklə sən yellə sən. (**yanmazağun**: yanmayacaq)}.

çaşqın çay, dənizdən qay. (**çay:** su). (**qay: qayar**. cayar. çaşar. uzaq düşər). (çaşqın çaylar, dənizdən geyin qalar). (geyin qalmaq: dalı qalmaq. umacına, məqsədinə çatmamaq). (azıq su, dənizə varmaz). (sapıq yol, doğru amaca varmaz). (sapıq yol, doğru amac qazanmaz).

çaşqın oldun bayıldın, daşqın oldun asıldın.

çaşqın oldun bayıldın, daşqın oldun asıldın.

çaşma hər dən!, nəyi gördün. oxşadıb da deyəsən "can", budur ol, hər nəyin, öz adı var, uz adı var, doğrusun, öz adını söyləgilən.

çaşmayan atıcı olmaz, yanılmayan bilge.

çaşmayan atıcı olmaz, yanılmayan bilge.

çaşmışdı iğid demədi kimisə, getdiyin yol çoradır, yox dənizə. (**çoradır: şoradır:** ılqım. sütgölü. sərab. uzaqdan görünən suysuq çöllük).

çaşsa para ışıq ilə bəlqürür, çaşsa kişi iş başında aldırır. (**çaşsa:** saxdadırsa). (**aldırır**: özün açığa vurur).

çaşsa para ışıq ilə bəlqürür, çaşsa kişi iş başında aldırır. (**çaşsa** : saxdadırsa). (**aldırır**: özün açığa vurur).

çatal qazıq yerə keçməz (batmaz). (çox başlı işlərdən sonuc alınmaz). (**çatal qazıq**: haçalı yekə çivi, mismar).

çatar barğa doğru yük, tuşlar amac doğru ox.

çatı yekə, qarı çox, göyçəkciyin yarı.

çatıq qaşın soyuğ suyundan, öz ılıq suyun yeğdir.

çatıq qaşın soyuq suyundan, öz ılıq suyun yeğdir (çatıq qaş: qaşqaxlı. - yeğ: yaxşı).

çatıq qaşın soyuq suyundan, öz ılıq suyun yeğdir. (**çatıq qaşın**: qaşqabaqlı). (**yeğdir**: yaxcıdır).

çatılcağın bilməyən, itmişlərdən sayılmış. (**çatılcağın**: barılcağın. mənzilini. amacını).

çatılcağın bilməyən, itmişlərdən sayılmış. (**çatılcağın**: barılcağın. mənzilini. amacını).

çatımazları tez görər qonaq.

çatımazları tez görər qonaq.

çatın hara, çatağ ora: məqsəd hara, mənzil ora.

çatırsa ərkin, unutma atanın. (**ərkin**: gücün). {atanın: ata anavı (ananı)}. -altı ağa yığnaşar, bir atalıq quramaz, yeddi əkə can atar, bir anaya yetəməz. (**ağa**: erkək) (**əkə**: əçə. dişi).

çatlaq bardaq, su qoymaz, yaşam keçər, gül qoymaz. olsun iyi olsun kötü, sov yamanı çək kökün. (**kökün**: kefin).

çatlaq bardaq, su qoymaz, yaşam keçər, gül qoymaz. olsun iyi olsun kötü, sov yamanı çək kökün. (**kökün**: kefin).

çatlaq olsa, su içində bəlgürür.

çatlaq olsa, su içindən bəlgürür.

- hər nəyin deşiyi, su içində bəllənir.

çatlaqsa qab su qalmaz. (çatlaq qabda su qalmaz).

çatlaqsa qab su qalmaz. (çatlaq qabda su qalmaz).

çatmadım çağında işin, çatanda ya tez hələ dedilər, yada kim gec deyib geddilər.

çatmağa varsa umudun min çalış, olca varsa təkcəsi sən yüz sına. (**olca**: ehtimal. şans).

çatmanı çat, içində yat. (işin bitir sonra dinc al!).

çatmaz gücün iyiliğə, yapma barı yamanlıq.

çavuş yox, savuş yox. (**çavuş**: xəbərçi). (**savuş**:xəbər).

çay bir olar, çeşmə min.

çay bir olar, çeşmə min.

çay daşı hamar olar. (çay daşı sürtük olar, borc ödəməyən sırtıq).

çay daşı yosun tutmaz, yalnız qalan evin qurmaz.

çay dənizi bulandırmaz.

çay qırağın ev tikmə selə gedər, başsız yerə vermə salam, yelə gedər, qoca yaşda gənc alma, elə gedər.

çay quşu çay daşı ilə vurular.

çay öz yatağın itirməz.

çaydan axan, çağdan gedən birdə geri dönüşməz.

çaydan axan, çağdan gedən birdə geri dönüşməz.

Çayı geçerken at değiştirilmez. Her türlü hazırlık yapılmış iş bitirilmek üzereyken iş bırakılamaz. Bir işi bitirilmek üzereyken, araçlar ve planlar değiştirilemez. (Bayram Özdemir).

çayı içənə, yolu gedənə, canı sevənə ver. (çayı içənə, yolu gedənə, könül sevənə verməli).

çayı içənə, yolu gedənə, canı sevənə ver. (çayı içənə, yolu gedənə, könül sevənə verməli).

çayı içənə, yolu gedənə, könül sevənə verməli. (çayı içənə, yolu gedənə, **canı sevənə ver)**.

çayı içənə, yolu gedənə, könül sevənə verməli. (çayı içənə, yolu gedənə, **canı sevənə ver)**.

çayın suyu göyə baxır, dəniz suyu çaya baxır, boğdasan çay axarın, gülməz sənə dəniz suyu, olar duzağ onun duzu. (**boğdasan**: bət çəksən. səd bağlasan. mane' qoysan).

çayla gedən dənizə, arxla gedən nərə çatar.

çeçenin sözü kəsgin, ustanın gözü kəsgin (**çeçenin**: söz usdasının. xatibin).

çeşmədən umman yaranar.

çevirəngə görə könlüvü gen tut, istəklərin artıq gəlirisə diləyin ut.

çevrədir kimin heçətir, kimin yekətir.

çevrəmiz dağdur, gələn ondan yanuq. sən nə versən ol geri vermiş aluq. (**yanuq: yanğu. pejvak**). (**aluq**: halu. qanmaz. məftun. şeyda). (bu dünya dağ kimidir, verdiyin səsi, nəyi geri verir. əkdiyin biçilir).

çevrən dolu qurğular, burulduqca burular.

çevrən işi saldı talaşa, od çəkməyə gərəkdi maşa.

çevrəndəki keçənləri dəğişməyə olan gücün yetincə, topla tovun iç dünyavı dəğişsən. (**tovun**: gücün).

çevrəndəki keçənləri dəğişməyə olan gücün yetincə, topla tovun iç dünyavı dəğişsən. (**tovun** :gücün).

çevrənə görə dəğişsən, bizlərə görə, evrənin işi dəğişməz.

çevrənə görə dəğişsən, bizlərə görə, evrənin işi dəğişməz.

çevrənə səs düşür, qulaq deşilir. köhnə palanların içi eşilir. (çevrənə: evrənə: acuna. aşuna. dünyaya. aləmə). (**köhnə palanların içi eşilir**: əski dərnəklər sökülər, sorquya tutular). (**dərnəklər**: hesab kitablar).

çevrəni bəkləyən geridə qalar. –irəli!.

çevrəni bəzər, özü lüt gəzər, türk oğlu türk olursa dana, çet dilin seçib kəndini əzər. (**çet**: yad. qıraq).

çevrənin eşi oyunu, sandan eşər, sandan deşər. (dünyanın kələyi oyunu, gahdan toxur, gahdan sökür). (**eşi**: kələyi) (dünyanın kələyi oyunu, gahdan

toxur, gahdan sökür. bu dünyanın sıy sayına (e'tibarına) uymamalıyıq. bu evrəndə, istədiyin kimi yapın, dərgələn (pılanlan)).

çevrəvi bıraq, kəndivi dəğiş.

çevrəvi bıraq, kəndivi dəğiş.

çevrəvi dəğişmək üçün, kəndivi dəğişməlisin.

çevrəvi dəğişmək üçün, kəndivi dəğişməlisin.

çevrəyə bak, avcunda yaşa. (mihiti gözdə saxla, kəndivi toparlayıb yaşa).

çevrilir evrən keçir, ardı sonu görünməz. (heç nə belədə qalmaz).

çevrənən evrən, onmaza qıymaz. (**onmaza**: olduğun danana. islah olunmaza).

{bu çoğun, cihan kəmdələ rəhm edməz. (**kəmdələ**: duzbilməzə. naşükürə)}.

çək çıxınca bəzəyə toy.

çək iki aləm payından sən könül, keç ikidən bir üçü ol kirtü qul.

çək iki aləm payından sən könül, keç ikidən bir üçün, ol kirtü qul.

çəkdən aşa ərkinlik, çəkdən aşa sinsitir. (**çəkdən aşa**: həddən artıq).

(**ərkinlik**: mehribanlıq). (birinə qarşı artıq yumşaqlıq, o kimsəni başın üsdə mindirir).

çəkdən aşa ərkinlik, çəkdən aşa sinsitir. (**çəkdən aşa**: həddən artıq).

(**ərkinlik**: mehribanlıq). (birinə qarşı artıq yumşaqlıq, o kimsəni başın üsdə mindirir).

çəkəcəkdə uzunundan uzası, görmüyəcəksən səhəri, yaşa öz ömrüvüki düz səhərində doğmuş. (olduğun, istəyin kimi yaşa). (yaşam güdmür sevəni, sevmir güdəni).

çəkələn kişi seşmiyə düşər. (**çəkələn:** çox axdaran). çox axdaran, küllüyə düşər. (qurdcalıyan, küllüyə düşər).

çəkən kimdir verən kim, gələn kimdir, gedən kim, alan kimdir satan kim, qalan kimdir, köçən kim, yalan dünya, yaman dünya.

çəki gedmiş, ciki qalmış. (üzü, gözəlliyi gedmiş, içi qalmış). (paltarın, bəzəyin soyunmuş, özü, tözü çıxmış üzə).

çəkib əmək, yeyib əkmək. (**əmək**: zəhmət).

çəkici gəl sevgimin şəklini sən çək, o gözəldir səndə gözəl çək, nazına yetişincə fırçadan əl çək, qoy onun nazını mən özüm çəkim. (arif quliyev).

çəkil geri, gördün dəli.

çəkilən yerdə durma, içilən yerdən qalma. (**çəkilən**: dözülən. mütəhəmmil olunan).

çəkilməsən belə çəkməlisin, sevilməsən belə sevməlisin.

çəkin bilən, könüldə durar. (davranışda ortalığı tutan, könüllərdə yer tutar). (bu söz, kimsəni alçaqkönüllüyə, yavaş olmağa çağrıda deyilir).

çəkini bilmək ərdəmçilikdə baş söz. (həddini bilmək, adamçılıqda birinci yeri tutur). (**ərdəmçilikdə**. adamçılıqda. adamkarçılıqda).

çəkini bilmək. - (çəkini bilmək) özgürlügün, ərginligin, dimoqrasının təməli.

çəkinmək, əğri yolun, düzə olan borcudu.

çəkinmək, əğri yolun, düzə olan borcudu.

çəkir varlığımı dara gözlərin, aparır tinimi hara gözlərin, qara bir türmə qara gözlərin, aç gözüvü dustağım sənin (dustağun mənin).

çəkirgədən qorxan əkin əkməmiş, qurttan qorxan orman gəzməmış.

çəkirsən dərdi sən, tüstü çıxır başdan.

çəkişməsə, bərkişməz, dartışmasa alışmaz.

çəkişməzdən bərkişməz, çalışmazdan açılmaz, dözüm ilə heç bir aşcaq aşılmaz, dilək barçaq barılmaz.

çəkişsiz el, gərişsiz ev olmaz.

çəklə sevib, çəklə umut qılqılan, artıq umut bel qırar. (**çəklə** : ölçüylə).

çəklə sevib, çəklə umut qılqılan, artıq umut bel qırar. (**çəklə**: ölçüylə).

çəklə ver, yoxla al. (**çəklə**: ölçülə). (verən əllər boşalır, alan əllər boş qalır).

çəklənməmiş çəkilər ölçülməmiş dartılardır ev yıxan.

çəklənməmiş çəkilər ölçülməmiş dartılardır ev yıxan.

çəkmə qılıc gərəkligi olmasa, qoyma qına yapındığın yapmadan.

çəkmə qılıc gərəkligi olmasa, qoyma qına yapındığın yapmadan.

çəkməz ata, quyruq yük. (**çəkməz**: zayıf. aciz).

çəksən dərdi birlikdə, yüngül keçər ağrısı.

çəksən əmək, bitirə bərə, işin işdir demək.

çəksən əmgək, yağar ətmək. (**əmgək**: zəhmət). (**ətmək: əkmək**).

çəksən əmgək, yağar ətmək. (**əmgək**: zəhmət). (**ətmək: əkmək**).

çəqiz: **çəkiz**. namərd. - kişi özündən görər, **çəkiz** yoldaşından.

çələ quşu unutmadı, quş çələni unutdu. (**çələ**: tələ).

çələb qaldırdığın, kimsə basamaz, yayı kim (: o yayı ki) haq basa, kimsə yasamaz.

çələb şam'ı sanma söynər, kim ana püf dərisə üzü göynər. (tanrı odu sanma sönər, kimsə onu püləsə, özü yanar).

çələbim! sən qoxulat uçmaq qoxusun.

çəliklə qızıl döğülməz, qızılla çəlik döğülür.

çənçəkin olmasa bir işdə balam, qırılar incə belin, tov gətiməz dayanmağa. (**çənçəkin:** ölçü ölçəyin). (duruma görə uyum bəsləməli).

çər çöpə qarışıb yellə sürünən, sevirəm deyib yanlışıb sevinən..

çər çöpə qarışıb yellə sürünən, sevirəm deyib yanlışıb sevinən..

çətin deyil yaşam yolu, tapa bilsən ana qolu, vardır onun bərki şolu, darlıq bolu. çətin deyil yaşam yolu.

çətin gələr ilkin günü hər işin.

çətin gələr ilkin günü hər işin.

çətin gördüm güclü olan dinc ola.

çətinligə düşməmiş, gücü nədir bilməmiş.

çətinligə düşməmiş, gücü nədir bilməmiş.

çətinligə qarşı dur, gücün nədir bilərsin.

çətinlik qarşısında, duruşub üstələyən güclüdür, qaça bilən ağıllı.

çətinliklərdə çökünməyin hər nəyivi dağıdar, heç nəyivi yarıtmaz. (**çökünməyin**: təslim olmağın).

çətinliklərdə çökünməyin hər nəyivi dağıdar, heç nəyivi yarıtmaz. (**çökünməyin** : təslim olmağın).

çiçək olsan solarsan, budaq olsan qoparsan, sözlər sözü söz olsan, könüllərdə yaşarsan.

çiçək olsan solarsan, budaq olsan qoparsan, sözlər sözü söz olsan, könüllərdə yaşarsan.

çiçəklənmirsə ağac ondan yemiş gözləmə.

çiğ odun yanmadan tütər. (**çiğ**: şeh. öl).

çiğ odun yanmadan tütər. **(tütər**: düdlər). (**çiğ**: yaş).

çiğ sözlərə inanma, keçən günə dayanma.

çiğ unun yılpışması, çilindəndir (unun yapışması, şehindən, yaşındandır).

çiğdən çıxdığ gilə düşdük: şehdən qurtulub palçığa düşdük.. (**gil**: **gir**. **git**. **kit**. ət palçığ. sıx, yapışqan palçıq.).

çiğin unudan, dərin yatar. (**çiğin**: dərdin).

çığırsan səsin keçər, danışsan sözün.

çiğm dərdim havalani, könül istər savalani, ayrı düşən ev, eldən, ömür üstü havalani.

çıx dışarı gedər aclığın, yol üstədir sənin zumarın.

çıx dışarı yollar açıq üzünə, qoyma çəkə yol gözün, çöp düşəcək gözünə. (**çöp düşəcək**: ağ düşəcək).

çıx dışarı yollar açıq üzünə, qoyma çəkə yol gözün, çöp düşəcək gözünə. (**çöp düşəcək**: ağ düşəcək).

çıxa bilməz başına bir ağacın, tırmadırsan bir ömürsə balığı. (içində olmasa çıxar, pox quyudan, pox çıxar).

çıxar ölüm yadımdan, içimdə sən olanda..

çıxar ölüm yadımdan, içimdə sən olanda..

çıxarıqsız olda iyissiz qalma. (qabiliyetsiz olda karaktersiz qalma). (**qabiliyet**: çıxarıq. başarıq). (**karakter**: iyis. qılıq. xəsiyət). (əlayaqsız olsanda, yararsız olma).

çıxarlılar çıxar yolun tapallar, iş bilənlə söz qanan, atın minib çaparlar.

çıxarsan gözündü, tüpürsən üzündü.

çıxarsız danışandısa (danışan çıxarsızdırsa) dinləyəndə olsun çıxar gərək.

çıxarsızlıq olasıdır, ıssızlıq, keçinilməz. (**ıssızlıq**: xəsiyətsizlik. qılığsızlıq. kimdiksizlik. möhməllik. karaktersizlik).

çıxdaçı çıxman, girdəçi girməz. (çıxmalı çıxmayınca, girməli girəməz). (istər istəməz sıra işin görür).

çıxdığın dağın təpəsin qara, aldığın kişinin ağzını qara. (**qara**: yoxla). (**aldığın kişinin**: evlənmədə erkək, dişi). (**ağzın**: sözün).

çıxılmaz çıxmaz tapılmaz. {açmasız açmaz, keçitsiz çay olmaz). (**açmasız**: yolsuz. çarasız. tədbirsiz). (**açmaz**: qıyın soru. müəmma)}.

çıxırsa sevgidən dönük, könül qızıq təndirə dönür.

çıxış keçiş, dönüş oluş bilməsən, evlənməyin ölümdür. (**çıxış**: başarı). (**keçiş**: keçinmə. göz yumma). (**dönüş**: boşanma). (**oluş**: pişmə).

çıxış keçiş, dönüş oluş bilməsən, evlənməyin ölümdür. (**çıxış**: başarı). (**keçiş**: keçinmə. göz yumma). (**dönüş**: boşanma). (**oluş**: pişmə).

çıxma yola yarqasız**,** qurma döğüş arkasız, dəngə olmaz arbasız.

{**yarqasız**: bələdsiz. imsiz. nişansız. (**yarqa**: im olaraq qoyulmuş kərtik)}. (**dəngə**: ədalət). {**arbasız**: dəngəsiz. əşsiz. bərabərsizlik). (**arba**: barabar. birə bir. dəş. dəh. dəng. müsavi}.

çıxma yola yarqasız**,** qurma döğüş arkasız, dəngə olmaz arbasız.

{**yarqasız**: bələdsiz. imsiz. nişansız. (**yarqa**: im olaraq qoyulmuş kərtik)}. (**dəngə**: ədalət). {**arbasız**: dəngəsiz. əşsiz. bərabərsizlik). (**arba**: barabar. birə bir. dəş. dəh. dəng. müsavi}.

çıxmadıq candan umud kəsilməz.

çıxmayan dışa gün görməzindən yatar.

çıxmayan dışa gün görməzindən yatar.

çıxmaz yoldan dön, batarsan, düşən yerdən qalx ölərsən.

çıxmaz yoldan qayıt.

çıqqan dağ uca olsa, yırğıtan daşın ıraq düşər. (çıxdığın dağ yüksək isə, attığın daş uzağ gedər).

çıldırası sevənləriz, dəli qibi atanlar.

çıldırası sevənləriz, dəli qibi atanlar.

çıldıtan sevgivi kəndivə bırax, könüldə saklanan qəm çilən bırax. (**çıldıtan**: cinlədən. dəlirdən) (**qəm çilən**: qəm qussən).

çıldıtan sevgivi kəndivə bırax, könüldə saklanan qəm çilən bırax. (**çıldıtan**: cinlədən. dəlirdən) (**qəm çilən**: qəm qussən).

çilə dolu umut yolu. (**çilə**: dərd).

çilə dolu umut yolu. (**çilə**: dərd).

çilə paylaşdıqca azalar, yatır tükətdikcə. (**yatır:** yədək. daldıq. ekonomi.pəsəndaz).

çilənsən yov sevinər, dos döğünər. (**çilənsən**: çiğin söyləsən. çiğin desən. şikayət edsən). (**çiğ**: dərd). (**yov**: yavuz. düşman).

çılxa sevgini satan olsada alan olamaz. (**çılxa**: teyxa. xalis).

çımcıq səmirip, batmanğa dolmaz. (serçə səmirməkle, şişməklə batman çəkəməz).

çimis iki dəfə xərcə düşür.

çiməndən üz öz gülün, gülün solar, çağ qalmaz.

çiməndən üz öz gülün, gülün solar, çağ qalmaz.

çin çilənir duzağa, quş ilənir kozağa. (**çin**: dən. dənə). (**ilənir**: ilişir). (**kozağa**: tələ).

çin çilənir duzağa, quş ilənir kozağa. (**çin**: dən. dənə). (**ilənir**: ilişir). (**kozağa**: tələ).

çin dos tapsan qın gündə, qulluğun ed hər yöndə.

çin dos tapsan qın gündə, qulluğun ed hər yöndə.

çin qızıl, oddan qorxmaz.

çin qızılın, oddan nə qorxusu.

çin sevgiyə bir ömür yetməz, çin sevgilər ölümlə bitər.

çin sevgiyə bir ömür yetməz, çin sevgilər ölümlə bitər.

çin söylə, çin dinlə. (doğur söylə, doğur dinlə). (**çin:** təmiz. doğur).

çin sözün deyən, qutulur, sözün çinin deyən, tutulur.

çin sözün deyən, qutulur, sözün çinin deyən, tutulur.

çindəş, qıyın günü bəllənir. (**çindəş** düz tuxum. içi düz. həlalzada. içi üzü bir olan). (**qıyın günü**: çətin gündə). {çindos, qıyın günü bəllənir. (**çindos**: doğru dos)}.

çinər, olduğun deyər. (**çin ər**: doğru kişi).

çinər, olduğun deyər. **(çin ər: doğrukişi)**.

Çingeneye beylik vermişler, önce babasını asmış. Sonradan görmüşe yöneticilik vermişler, ilk önce kötülüğü yakınlarına yapmış. (Bayram Özdemir).

çinin sözü, sözün çini. (gerçəyin sözü, sözün gerçəyi).

çinin sözü, sözün çini: gerçəyin sözü, sözün gerçəyi.

çinis nə yeyər nə yedirər. (**çinis**: çimri. qıtmır).

çinisin malın yeyib qabın qırarlar.

çinisin malın yeyib qabın qırarlar.

çırağ his verərək yanar. (gül tikansız olmaz).

çırağ uçmaz yağ bolsa, çırağ durmaz yağ yoxsa. (**uçmaz**: sönməz) (**durmaz**: sönər) (yağlı çıraq sönməz).

çırağ üstün yarar astın korar. (**yarar**: yartır. ışıqlatır) (**astın**: altın. dibin). (**korar**: kölgələr. ışıqlatmaz) (çırağ üstün görür astın yox).

çıraq dibi qaranlıq.

çirkin bürünər, gözəl görünər.

çirkin bürünər, gözəl görünər.

çirkin görsə, gözü yatsama (danma), söz eşitsə, qulağı.

çirkin kotan, qanmaz kişi olmasa, çirkin yaşam bulunmaz.

çirkin kotan, qanmaz kişi olmasa, çirkin yaşam bulunmaz.

çirkin olsun qız olsun, əğri olsun yol olsun.

çirkin olsun qız olsun, əğri olsun yol olsun.

çirkin özün gizlədi, gözəl açqara (aşqara) gəzir.

çirkin özün gizlədi, gözəl aşgara (açıqara) gəzir.

çirkin üzün gizlədir, göyçək budaqlar gəzir.

çirkinə, güzgü gərəkməz.

çırpıq özün dal oylayt (düşünər): qurumuş dal kəndini söğüt sanar (zənn edər).

çırtmasın sərimiş, yünün ərimiş. (**çırtma:** göz göz olan quş duzağı, tələsi. tor).

çivi çalı, çal atı, at atlını yürüdür. (**çalı**: nalı).

çivi çalı, çal atı, at atlını yürüdür. (**çalı**: nalı).

çivi çivini sökər. (pisliyə dəngiylə qarşılıq verilərək, çözülür).

çivi itdi, taka getdi, taka getdi, at getdi, at getdi, atlı getdi, atlı getdi, dil getdi, dil getdi, el getdi. (**dil**: düşman casut).

çivi, taxanı, taxa, atı, at kişini, kişi yurdu qorar! (taxa: nal). (qorar: saxlar. (çivi saxlar taxanı, taxa -atı, at kişini, kişi vatanı).

çiy unun yılpışması, çilindəndir (unun yapışması, şehindən, yaşındandır).

çiy yumurta soyulmaz, qonşu payı doyurmaz. (kişi umağı, kəndi dumağı). (**umağı**: ümüd yeri). (**dumağı**: damı).

Çoban armağanı, çam sakızı. Çam sakızı çoban armağanı. Hediyenin büyüğü ve küçüğü olmaz. Önemli olan kişileri sayarak, gönlünden koparak getirilen hediyedir. (Bayram Özdemir).

çoban baxdığın, kəndli əkdiyin yeyər.

çoban baxdığın, kəndli əkdiyin yeyər.

çoban dayağı ilə, gəlin duvağı ilə.

çoban dayağsız olmaz.

çoban kövnəsə, sirkə sağıb süt verər. (**kövnəsə**. ürək eləsə. istəsə).

çoban küsdü itindən, düşdü qurda toy halay.

çoban küsdü itindən, düşdü qurda toy halay.

çoban nədir, təsbeh nə.

çobana dayaq, gəlinə duvaq ver.

çobana sormuşlar, –namaz oxurmusun, demiş. –sürünün duruşuna bağlı.

çobana vermə qızı, ya qoyun güddürər ya quzu.

çobana vermə qızı, ya qoyun güddürər, ya quzu.

çobana yanaş, acığmısan, karvana yanaş, yorulmusan.

çobana yanaş, acıqmısan, karvana qoşul, yorulmusan.

çobanı özündən olanın, qoyunu dişi doğar.

çobanı özündən olanın, qoyunu dişi doğar.

çobanın ayağı yetməsə, dayağı yetər.

çobanın könlü olsa, təkədən süd sağar. (təkədən: ərkək).

çobanın könlü olsa, təkədən süd sağar. **(təkədən: ərkək)**.

çobanın könlü olsa, təkədən süt sağar.

çobansız qoy, börüyə yem.

çobansız qoyun dağar. (**dağar**: dağılar).

çobansız qoyun, qurda pay olar.

çobansız qoyunu qurd yeyər.

çobansız qoyunu qurd yeyər.

çobansız sürü baş tutmaz, bakansız ölkə.

çobansız sürü yolu azar.

çobansız sürü, yolu azar.

çobanun koru, ölünün goru. (gözsüz bəkçi kar zırnaçı).

çocuğun sözünə, qocanın gücünə güvən olmaz.

çocuğun sözünə, qocanın gücünə güvən olmaz.

çocuq anadan yetim qalar! (**yetim**: pişmiş. yetik. (< **yetmək**). yetli. yetil. kamil. olqun. varqın. dəymiş) (**yetim qalar**: yetim durar. yetik olar. kamilləşər). (öğrəşdiyimiz toplum durumuna görə, cocuğun əkdisi (tərbiyəti), eğitimi, ilkin anasından asılıdır).

çocuqlarız önündə əşinlə nə duruş nə vuruş. (**əşinlə**: yasdaşınla. yatdaşınla).(**duruş**: muqabilə ed. təqabül ed. savın savış. mudafiə həmlə ed. mahakimə).

Çoğu zarar azı karar. İnsan hırsının esiri olmamalı, yapacağı işlerde orta yolu tercih etmeli. (Bayram Özdemir).

çoğun bizə əğri bakır, əl oynadır avsun oxur, yol ortası dənə tökər, torun qurar başımıza. (**çoğun**: fələh).

çoğun bizə əğri bakır, əl oynadır avsun oxur, yol ortası dənə tökər, torun qurar başımıza. (**çoğun** : fələh).

çoğun malı çoğunda qalar, başlı olan keyfin alar. (**çoğun**: fələk. evrən).

çoğun malı çoğunda qalar, başlı olan keyfin alar. (**çoğun**: fələk. evrən).

çoğun, acısın ucuz satar, bu gün tutar yarın atar, sevinci harda tapar, yasa qaptırar!. **(çoğun**: cihan. fələk. dünya. evrən).

çoğunda, dözümlü yanılmaz, yanar. (**çoğunda**: çox çağların. əksərən).

çox ağız bir olsa, bir ağız yox olar.

çox ağruğa dünya üzü gen gəlməz. (**ağruqa**: **ağrıqa**. həssasa).

çox anlayan, çox bilər. çoxlu görən, yol bilər.

çox anlayan, çox bilər. çoxlu görən, yol bilər.

çox anlayan, çox bilər. çoxlu görən, yol bilər.

çox arayandan, çox soran yeğdir.

çox arayandan, çox soran yeydir.

çox aşıqmadan, armıd pişmədən, sökəl ölmədən. (**aşıqmadan**: tələsmədən). (**sökəl**: xəsdə).

çox aylanan yıxılar, ağrıq könül sıxılar. (**aylanan**: fırlanan). (**ağrıq**: sinsik. sinsiyən).

çox aylanan yıxılar. (**aylanan**: dolanan. fırlanan).

çox baş olda çox ağız olma. (çox ağız çox gəpirər).

çox başçılı ölkə, tez dağılar.

çox başçılıq, ayrılıq tuxumun səpir (becərir).

çox bildə, az inan.

çox bilən az inanar.

çox bilən çox yanılır.

çox bilən çox yanılır.

çox bilən yalnız qalar.

çox bilən, az danışar.

çox bilənin az inancı olsada, az bilənin çox inancın basar.

çox bilənlə, az inanan, uzun yolu tez gedər.

çox bilibdə dəli ol. (bilməginlə birlikdə dəlilikdən, risqdən qalma, necəki yaşamın dadı duzu qovqasında, gürəşində bir sözlə dəliligindədir).

çox bilsəndə, az inan.

çox çaldılar bəzək, yapışmaz oldu içə.

çox çalınan birgün sınar. (**çalınan**: döğülən).

çox çalınan birgün sınar. (**çalınan**: döğülən).

çox çalışma sən sevgini ölçməyə, heç bir sevgi, heç bir çəklə ölçülməz.

(**çəklə**: ölçü ilə. miqdarla).

çox çalışma sən sevgini ölçməyə, heç bir sevgi, heç bir çəklə ölçülməz.

(**çəklə**: ölçü ilə. miqdarla).

çox danışan, az eşidər.

çox danışıb iş görməməkdənsə, susup işləmək yaxşi.

çox danışıb, az qonuş. (**danışıb**: məsləhət).

çox danışma, ağzın böyüyər.

çox darıxma nol sırayladır. (**nol**: su. dəğirman).

çox darıxma nol sırayladır. (**nol**: su. dəğirman).

çox darlığın genəlməsi güc olmaz, çox genəlsə daralması güc olar.

çox darlığın genəlməsi güc olmaz, çox genəlsə daralması güc olar.

çox daşar, az dolar, az daşsa, çox dolabilməz.

çox daşıyan eşşəyin palanı, yırtıq olar.

çox daşıyan eşşəyin palanı, yırtıq olar.

çox daşsanda, bil dediyin, az danışsanda, qıl dediyin.

çox demə sayqını, çox yemə sağlığı qoru.

çox deyən yanılar, adın bilənçi qoyar.

çox dinlən, az dillən. (çox eşiti, az danış).

çox dinləyib az söylə. (on dinləyib bir söylə).

çox dözdüm ama yetmədi dərman, bir kərrə dedim yıx evimi, durmadi gəldi!.

çox dözümlünü sin gözlər.

çox durandansa, çox yürəndən sor!. (**duran**: yaşıyan) (**yürəndən**: gəzəndən).

çox duru olan, tez bulanar.

çox duru olan, tez bulanar.

çox düşünmə başan gəlcək pişləri, uçraş yapar sanmadığın işləri. (**pişləri**: oyunları). (çox düşünmə olacağı, görmədiklərini görərsin).

çox düşünməli az eşitməli. (baş ağır gərək, qulaq sağır).

çox eşidəndən, bir görən yaxşı.

çox eşidəndən, bir görən yaxşı.

çox əğilmə yıxılasan, çox yeyin qaçma, büdürəsən.

çox əl olsa aşda qalmaz, işdə.

çox əl olsa aşda qalmaz, işdə.

çox əli işdə gör, az əli aşda gör.

çox əli işdə gör, az əli aşda gör.

çox gen olsa saxlamaz, çox dar olsa bıraxmaz.

çox gen olsa saxlamaz, çox dar olsa bıraxmaz.

çox gezen ayağ poxa düşər.

çox gəzən başmaqını, çox işliyən gərəcini, geyəcini, çox anqıran torbasını tez yırtar.

çox gəzməsən aralı, tez tapılar yaralı, dərmanın qıl dərdin al, yaxcı bilə yaxcı işi aralı. (**aralı**: ıraqdan).

çox gör, çox eşit, az gəplə.

çox görən bilər, çox yaşayan gördüyün bilər.

çox görən çox istər, az görənin yadınada düşməz.

çox gözlədin yanıldın, az gözlədin qalındın. (çox gözləsən yahalıb aldanarsın, düş qırıqlığına qapılırsın, az gözləsən geridə qalırsın).

çox gözlədin yanıldın, az gözlədin qalındın. (çox gözləsən yahalıb aldanarsın, düş qırıqlığına qapılırsın, az gözləsən geridə qalırsın).

çox gözləyən kor olar, susuz yerlər çor olar.

çox gurlayan bulut, az verir yağış.

çox guruldayan bulutdan, yağış umma.

çox gurulduyan bulutlar, az verər barlar.

çox gurulduyan bulutlar, az verər barlar.

çox gurulduyan bulutlar, az verir yağışlar.

çox güc olur ayrılıq, gedmək istərsə biri, dilərsə qalmaq olbiri.

çox güc olur ayrılıq, gedmək istərsə biri, dilərsə qalmaq olbiri.

çox gücdür hər nədən qorxmaq, nə qolay gedər, heç nədən qorxmaq.

çox gücdür hər nədən qorxmaq, nə qolay gedər, heç nədən qorxmaq.

çox gülən bir ağlar.

çox hövül olma könül devran üçün, duramaz dörd beşi aşcaq belə devran sürməz. (**hövül**: tələsən. acil).

çox igitlər gəldi keçdi dünyadan, çox diləklər batdı çıxmaq bulmadı. (**çıxmaq bulmadı**: çıxmaq yolun tapmadı). (hər istəyin yolu var, hər işin yarağı).

çox işlənən, aşınır, çox ünlənən, deyilir. (çox kullanan yeyilir, çox səslən dillərə düşür.

çox iti qılınc, qınını kəsər.

çox küplərin yanında çox küzələr qırıldı. {bir yaşlı min yaşın düşməsin görər. (**yaşın**: gəncin)}.

çox küplərin yanında çox küzələr qırıldı. {bir yaşlı min yaşın düşməsin görər. (**yaşın**: gəncin)}.

çox qalxan, yıxılar, çox uzanan qırılar.

çox qanıbda az danış, qanmaz ilə az yanış. (**yanış**: yaxınlaş).

çox qanıbda az danış, qanmaz ilə az yanış. (**yanış**: yaxınlaş).

çox qıdıran, bir büdürər. (**qıdıran**: təprəşən).

çox qolaylıqla unutmuşdu döğən, çox çətinki unuda bir döğülən.

çox qolaylıqla unutmuşdu döğən, çox çətinki unuda bir döğülən.

çox qonuşdur, az qonuş, az anlat, çox dinlə, az an, çox anla.

çox qonuşdur, az qonuş, az anlat, çox dinlə, az an, çox anla.

çox quduran, bir büdrər.

çox nələr dan atar başlar, gün batar bitər.

çox nəyin dərki ölər bilinər, gedər bilinər. (**dərki**: qədri).

Çox oxuyan çox bilməz, çox gəzən çox bilər. (Ara Gündüz).

çox olar döğən alt olan başı, yavu caydırar dik tutsan başı. (**yavu: yağu. düşmən**). (**caydırar**: azdırar).

çox olar döğən alt olan başı, yavu caydırar dik tutsan başı. (**yavu: yağu. düşmən**). (**caydırar**: azdırar).

çox olsa qoz, kovsuz (çürüksüz) olmaz.

çox övünmə keçmişindən bir oyan, güzgüyə baxsa pişik kəndin belə aslan görər.

çox savaşan rüşvət verər.

çox sözün azı yaxşı, az sözün özü yaxşı. (**özü**: cirgəsi. xulaləsi).

çox sözün azı yaxşı, az sözün uzu.

çox tez düşər gördüyünün izinə, arın könül aldanırmış tezinə. **(arın:** aras. təmiz**)**.

çox tez düşər gördüyünün izinə, arın könül aldanırmış tezinə. **(arın:** aras. təmiz**)**.

çox tələsən tez yoruldu.

çox tələsmək iti gedmək, uzun yolda gec qoyar.

çox töv edən, gerü sırar.

çox töv edən, gerü sırar. (çox tələsən, geri sıçar, sıçrar, qalar).

çox uçunma göylərdən, lap ucanın gömən yeri topraqdır, hər nərsənin sonu var, hər əğinin donu var. (**əğinin**. gövdənin).

çox uçunma göylərdən, lap ucanın gömən yeri topraqdır, hər nərsənin sonu var, hər əğinin donu var. (**əğinin**. gövdənin).

çox verib arsız, az veib hırsız edmə.

çox yaxcılıq, yamanlıq.

çox yaxcılıq, yamanlıq. (sevginin çoxu ürək ağrıdır).

çox yaxcılıq, yamanlıq. (sevginin çoxu ürək ağrıdır).

çox yaxşı olmağa gərək yox, yetərki yamanlığın olmasın.

çox yaş olan sıxılmış, çox qurusa qırılmış.

çox yaş olan sıxılmış, çox qurusa qırılmış.

çox yaş olma – sıxılarsan, çoxda quru olma qırılarsan.

çox yaş olma, sıxılarsan, çoxda quru, qırılarsan.

çox yaşayan gördüyün, çox görəgən çox bilər.

çox yaşıyan, çox gəzən, çox görən, çox bilənləri qoruyun!.

çox yatan, az bilər.

çox yazıqlayan, yazığa qalar. (çox əfsuslayan əsəfli günə düşər).

çox yazıqlayan, yazığa qalar. (çox əfsuslayan əsəfli günə düşər).

çox yemə qəmdə könül ötüb küçüb keçənlərin, ki sənə qalmayacaqdur nəyisə çox yediyin qəmdən ötür.

çox yeməkdə uğur yox, az yeməkdə ölüm yox.

çox yeməkdə uğur yox, az yeməkdə ölüm yox.

çox yeyəndə ağzın dadı, çox deyəndə sözün dadı qaçar.

çox yeyənin qarnı, çox deyənin başı şişər.

dəğər verən ağlatmaz.

dəğər vermiş kişiyə, sözü işi düşünü. (**düşünü**: düşüncəsi).

dəğərlər itəndə, dəğişiklər dəğərə minər!.

dəğərlərin üstünü, sağlı əğin uslu baş. (**əğin**: tən).

dəğərsiz dəğərə minsə, dərək, dərəkə gedər. (qədir gedər cəhənnəmə).

dəğgin (yetgin) yemiş budağda durmaz.

dəğirman bildiyin edər, çax çaxı başı ağrıdar.

dəğirman dinləmədən bildiyin edmiş.

dəğirman doğulu siçan, göy kükrəşindən qorxmaz. (**dəğirman doğulu:** dəğirmanda doğmuş) (**kükrəşindən**: gurultusundan).

dəğirman iki daşdan, sevişmə iki başdan.

dəğirman qatırrasa, dən qutarır, daş daşı yeyib sındırdı. (**qatırramaq**: **qatırlamaq**. 1. iti davranmaq. iti qılınmaq. 1. yeyin yeyin gedmək, təprəşmək. tiz, tiz olmaq).

dəğirman qatırrasa, dən qutarır, daş daşı yeyib sındırdı. (**qatırramaq**: **qatırlamaq**. 1. iti davranmaq. iti qılınmaq. 1. yeyin yeyin gedmək, təprəşmək. tiz, tiz olmaq).

dəğirman öz işindedir,caxcax baş ağrıdır.

dəğirman sırayla dönər, biri iner, biri miner.

dəğirman, çaxçaxanı güdməz.

dəğirmançı qırılsa, dəğirmanı yıxılmaz. (dəğirmançını qırsanda, dəğirmanı yıxmamalısın).

dəğirmanı çöğürən kim, dəğirmanla çönən kim. (**çöğürmək**: çevirmək. çöğgürmək. işlətmək. çalışdırmaq).

dəğirmanın gurrası, xərməndə yox hurrası.

dəğirmanlar fırlanar, evrən çönər sırlanar, sıra gələr bizədə, tələsmə sən görərsən. (**sırlanar**: sır, boya, don dəğişər).

dəğişə bilməyirəm mən səni bil heç nəyilə, gedisən ged qalısan qal bu açıq yol sən üçün.

dəğişə bilməyirəm mən səni bil heç nəyilə, gedisən ged qalısan qal bu açıq yol sən üçün.

dəğişənməsən, böyüyənməsən, böyüyənməsən, yaşayanmasan.

dəğişib don aya dönmüş günəşim.

dəğişmədən duranmaz. (**tapmaca)**. **(evrən**. **dünya**).

dəğişmədən durmamış. (**tapmaca)**. **(evrən**. **dünya**).

dəğişmədən köprüyə, çıxmaz sözü ərənin**.** (iş çətinliyə, son dərcəyə, dar yerə yetişmədən, kişilər ara, dalaş çətin çıxar).

dəğişmədir durmanın siri, dəğişmədən durmadi diri.

dəğişmədir durmanın siri, dəğişmədən durmadi diri.

dəğişmək qolay deyil, dəğişsəndə qolaylqla olan deyil.

dəğişmələr seçimdən doğur.

dəğişmələri boyun olmayan, boynu üzülər.

dəğişməli dünya yox, dəğişməlisən özün.

dəğişməyə güc saxla, qeyim otur az laxla.

dəğişməyə güc saxla, qeyim otur az laxla.

dəğişməyən toplum, atılar!.

dəğişməyi istəmədən, dəğintilər yaşamıvı dəğişməz. (**dəğintilər**: şanslar. təsadüflər).

dəğişməyi istəmədən, dəğintilər yaşamıvı dəğişməz. (**dəğintilər**: şanslar. təsadüflər).

dəğişməyi istəyən, dəğintilər yardımı. (**dəğintilər:** şanslar. təsadüflər).

dəğişməzi unutsən, yalnız ölmüş dəğişməz.

dəğişməzi unutsən, yalnız ölmüş dəğişməz.

dəğişsəndə dünyavı, dünya dəğişmiyəcək.

dəğmə (ras gələ) kişi öz olmaz,, yadla yağuq düz olmaz: hər gələnə öz demə, hər gedəni, qov demə.

Dəğmə bana, dəğməyim sana: sana zarar verməyənə səndə dokunma, zarar verme. (Bayram Özdemir).

dəğmə kişi öz olmaz, yadla yağuq düz olmaz. **(dəğmə:** hərkəs). hər yetən kişi öz (içdən. səmimi. məhrəm. xodi) olmaz, yadla düşman düz, doğru ola bilməz).

dəğməz kişi sevdinsə, sayqısızlıq gördünsə, unut sil at yadından.

dəğməzini sevərsin, acıların çəkərsin, aldandığın görərsin.

dəğsə əli altun olur tansuq nə, bassa ayağ kanğu olur tansuq yər. (hər nəyə əl vurur altun olur, ayaq basdığı kana (kanğa, mə'dənə) dönür**)**. **(kanğu:** kan. mə'dən). (**tansuq**: müqəddəs**)**. **(nə: nənğ**. varlıq).

dəh kişinin savuni, qayluq kişi bəllədər. (**dəh: dəng**: doğru. aman). (**savuni**: xəbərin). (**qaylıq**: kötü kişi. pis diləkli, niyyətli. yamanlıq istəyən). (**bəllədər**: deyər. əyn edər).

dəhlə gözün sakıncana bax mənə, çaşma əlin tuta bilər özgəsin. (**dəhlə**: tarazla). (**sakıncana**: ehtiyatla).

dəhlə gözün sakıncana bax mənə, çaşma əlin tuta bilər özgəsin. (**dəhlə**: tarazla). (**sakıncana** : ehtiyatla).

dək gəzən tox gəzər. (yaşamda insafı güdən, dinc yaşar).

dək gəzən, tox durar. (**dək**: gəl gedin bilən).

dələk yoxsa dolab dönməz. (dünyanın işi fuzulsuz açımdan düşər). (**dolab**: dünya).

dəli (abdal) toydan, uşağ oyundan doymaz.

dəli "bizdən" gen durmaz, "biz" tapmasa, diş durmaz.

dəli daşır, ağıllı aşır.

dəli dəli görüncə, sobasın saxlar. (saxlar: işlətməz. gizlədər) (**soba: dəğənək**) (əş netəlikdə olan iki kişi, birbirinə qarşı durmaqdan çəkinər).

dəli dəliçi, xoca ölüçü.

dəli dəlidən xoşlanar, xoca ölüdən.

dəli dəlil aramaz!.

dəli dəlini görəndə çomağın gizlədər.

dəli dəlini uslu sayar.

dəli dəlini uslu sayar.

dəli dəliyə qoşulsa, göydən dəyənək yağar.

dəli gəzir dünyanı, uslu onun bayranı. (**bayranı**: heyranı).

dəli hoyu, qız toyu sevər.

dəli ilə qudurmuş ortaqdılar.

dəli ilə ötüşmən, ellər onilə düşmən. (**ötüşmən**: ötüşməyən. keçinməyən).

{dəliyə qarşı yanqılanmaz. (**yanqılanmaz**: şikayətlənəməz)}.

dəli ilə ötüşmən, ellər onilə düşmən. (**ötüşmən**: ötüşməyən. keçinməyən).

{dəliyə qarşı yanqılanmaz. (**yanqılanmaz**: şikayətlənəməz)}.

dəli ilə uşaq yarqac (məhkəmə) götürməz.

dəli ilə, nə axdar, nə bölüş.

dəli inəyin, dəli də buynuzu olar.

dəli itdən, it dəlidən ürkümüş.

dəli könlüm darıxma çox yurdunda, yad ellərdə yurd salma, göbək qanım yurdumda. , yaslı günüm, gülər üzüm, hərnə varım yurdumda.

dəli könlüm sevinsizin kişidən, dış eyləyib, ıraq eylə özünü. (**sevinsizin**: məhəbbətsiz).

dəli könlüm talvasama, dincək yerim yurdumda,

oxu öğrən çin ürəkdən, adım sanım yurdumda,

qış qutarıb göğrəp gilən, coşqun yazım yurdumda yazım, yaslı

günüm, gülər üzüm hərnə varım yurdumda,

yad ellərdə yurd yasalma, göbək qanım yurdumda.

dəli qırmızı sevər, gic sarı.

dəli qız deyər: anasız olaydım, bədəsil gəlin deyər: qaynanasız.

dəli özün oda, gənc özün moda vurar.

dəli vurqunun gecəsi, qara çillədən uzanar, bir baxışın könül candan, dan

yerinin ışığın saçar.

dəli yadına daş salmayın.

dəli yel yelkən yırar, dəli at ovsar qırar. (**yırar: cırar)**.

dəli yel yelkən yırar, dəli at ovsar qırar. (**yırar: cırar)**.

dəli, törün verməz **(dəli başköşəsin verməz)**.

dəlicə sevən, iticə qırılır.

dəlicəsinə sevənlər, kötücəsinə ayrılır.

dəliçinin dosdu çox olar. (**dəliçinin**: dəli sevicinin. dəlibazın).

dəlidə dinməyənə dək, ağıllı görünür.

dəlik böyük, yama kiçik.

dəlik qulaq nə eşitməz ?.

dəlik tava yağ tutmaz, çürük taxda mıx tutmaz.

dəliqanlı qorxu, oğru doğru bilməz.

dəliqanlılar ölər ölmək üçün.

dəliqanlılar ölər ölmək üçün.

dəliqanlıya yaş yazılmaz, evlənmək günlə sayılmaz.

dəliqanlıya yaş yazılmaz, evlənmək günlə sayılmaz.

dəlilər edmiş, təlbələr baxmış. (**dəlilər**: dəliqanlılar. igidlər). (**təlbələr**: təmbəllər).

dəlilər önün yelə qoy. (dəlilik edənə qarşılıq vermə).

dəlilər sözü, - sevsəndə sevəcəm, sevməsəndə. (**dəlilər**: aşıqlar. vurqunlar).

dəlilər sözü, - sevsəndə sevəcəm, sevməsəndə. (**dəlilər**: aşıqlar. vurqunlar).

dəliligin donu var, hər nəyinsə yolu var.

dəlini oynatmağada, gərəkli baş gərək.

dəlinin daşı, çəlik dələr.

dəlinin gücünə bax, başına yox.

dəlinin könlü dilində, bilgənin dili könlündə.

dəlirmək inanmaq deyil, sevişmək dəlirmək deyil. eşq bir durum durur, yox inanc olur.

dəlisiz el olmaz, bəlisiz toy. (on kişi bir ara gəli, arada var biri dəli).

dəlisiz el olmaz. elsiz dəli.

dəliye osur desən, sıçı verər.

dəliyə baxıb dəli olma.

dəliyə hər yanda yer tapılar.

dəliyə hoy ver, əlinə bel ver.

dəliyə isti soyuq dəğişməz. (**dəğişməz**: fərq edməz).

dəliyə isti soyuq dəğişməz. (**dəğişməz**: fərq edməz).

dəliyə qanun yazılmaz.

dəliyə qarşı yanqılanmaz. (**yanqılanmaz**: şikayətlənəməz). {dəli ilə ötüşmən, ellər onilə düşmən. (**ötüşmən**: ötüşməyən. keçinməyən)}.

dəliyə qarşı yanqılanmaz. (**yanqılanmaz**: şikayətlənəməz). {dəli ilə ötüşmən, ellər onilə düşmən. (**ötüşmən**: ötüşməyən. keçinməyən)}.

dəliyə öz bəlasi bəsdir.

dəliyə savaş bayram, iğidə savaş qayrağ. (**qayrağ:** qeyrət. qayırma, başarma, edmə gücü). (dəli üçün savaş dalaş toy gəlir. dəlinin işi qavqa savaşdır, ama igid, ərkişi üçün savaş, kimliyin, qeyrətin qorumaqdır).

dəliyə yel ver, əlinə bel, dünyanı belləsin töksün ora.

dəliyə yel ver, əlinə bel.

dəliyə yel, əlinə bel.

dəliylə dalaşma, çalıya dolaşma.

dəliylə uşaq, düşük quşaq. (**düşük quşaq**: tumanı düşük. burda anlam genətməsi, onlardan nə desən, çıxar. gözlənilməlidirlər).

dəliylə uşaq, sıçanla muşaq. (**muşaq**: pişik). (evrən başa çevrilir).

dəm alınsın, qəm qavılsın.

dəm bu dəmdi, yey içib dündən demə, ertiki gündən ötün heç qəm yemə. (**ertiki gündən**: qabağki gündən. keçən gündən dünəndən). (**ötün**: keç).

dəm çəkən qəm çəkməz. (**dəm verən: dəm çəkən:** yaşamla ayaq olan).

dəm verən qəm çəkməz. (**dəm verən: dəm çəkən:** yaşamla ayaq olan).

dəmi var dərmanı yok. (tiryək).

dəmir dəmiri döğər, biri isdi biri soyuq.

dəmir döğən dəmirçi, gəp gəpləyən gəpirçi (olur).

dəmir islanmaz, dəli uslanmaz (ağıllanmaz).

dəmir islanmaz, dəli uslanmaz.

dəmir islanmaz, dəli uslanmaz.

dəmir islanmaz, dəli uslanmaz. (**uslanmaz**: ağıllanmaz).

dəmir qapı ağac qapıya diləyi düşər**. (diləyi düşmək**: işi düşmək).

dəmir odda, kişi işdə bərkiyər.

dəmir tavında, hərnə çağında. (qırnadan su axırkən qabı doldur). (çeşmədən su axarkən qabı doldur. (hernə zamanında yapılır).

dəmir tavında, iş çağında.

dəmir təpən dəmirçi, oraq uran biçinçi, toxum əkən əkinçi, odun yaran odunçu. (**təpən**: soxan. döğən).

dəmir, tovla bəkiyər.

dəmirçi atı, taxovsuz olur. (**taxov**. **nal)**.

dəmirçidə altın dəğər tapanmaz.

dəmiri dəmirlə yumuşat.

dəmiri döyən dəmirçi olar.

dəmiri qızığıda bas.

dəmiri oğraq edər olsa çəkic altundan.

dəmiri tavında döy.

dəmiri tovday təp, işi yoxlay yap. (**tovday**: **tavday**. tovunda. tavında. isti isti).

dəmiri, dəmir yumşatar.

dəmiri, tavında bas.

dən çəkib salar duzağa, könlə uyma çəkər uzağa. (**könlə**: həvəs).

dən daşlısı dərman bilən dartılar. (**dərman**: dəğirman).

dən səpilir duzağa, quş gedməsin uzağa. (**çin**: dən. dənə).

dənək, iki daşlı, sevgi, iki başlı. (hər nəyi dənəməyə dənək daşı, ölçüt, me'yar gərəkir. çin sevgidə iki yanlı, qarşıtlı, iki başlı olmalıdır. (sevgi daşı, təkcə başda daşınmaz, iki könül çırpınmasa alınmaz).

dənənəmiyən nərsiyə nə giriş, nə inan, nə güvən.

dənənmiş iş, dənənməmiş bilgidən yeğ basar.

dənənmiş iş, dənənməmiş bilgidən yeğ basar.

dəngəli qıl qarşılıq, giley uçsun aradan.

dəngəli qıl qarşılıq, giley uçsun aradan.

dəngi yoxdur evrənin hər gələnlə çevrənir. (**dəngi**: mədarı. e'tibarı). (**çevrənər**: fırlanar).

dəngliklər aranmaqla tapılmaz, dəngliklər yaratmasan yaranmaz. (**dəngliklər**: ədalət dediyin).

dəni bizdən, başqası dartar, özgəsi yeyər.

dəni bizdən, başqası dartar, özgəsi yeyər.

dəni görmüş, quş olan, yox duzağı. (quş beyinli, sadə, dəni görür).

dəniz çömçə ilə boşalmaz.

dəniz dalqasız, dağ dumansız olmaz.

dəniz daşsa, dalay boğular. (**dalay**: çöl. səhra).

dəniz döndü xəşil (xaş) oldu, uğursuza qaşıq çatmadı.

dəniz görür meşə eşidir.

dəniz kimi xoşgörülü, topraq kimi alçaqkönül, yuturqan, dağ kimi ulqarlı, sel kimi ilqarlı, eykuluq, yardamda axarsu tək, ısıq ısğutda günəş kimi, dos kəs kütün örtmədə gecə kimi, qızıb öfgədə ölü kimi ol. (**yuturqan**: mütəvaze'). (**ısıq ısğutda**: rəhm şəfəqətdə). (**kəs kütün**: ayıbların).

dəniz qaxmışisə, artıq gəlir o, və gər inmişisə, əksik gəlir o.

dəniz qayıqdan, dağ qurtdan qorxmaz, uslu yaşam dad dolusu, yaşandıqca doyulmaz. (**uslu yaşam**: saysanalı, hesab kitabla sevib, yeyib içib, çalışma).

dəniz qaynaşsə, artıq gəlir o, inmişisə, əksik gələr o.

dəniz qırında, çay qırağında quyu qazmazlar.

dəniz qıyı quy qazma!. (dəniz suyu şor olar. süzülməmiş su olar). (quyu qazmaq su üçündürsə, elə dənizdən al).

dəniz qıyı quy qazma!. (dəniz suyu şor olar. süzülməmiş su olar). (quyu qazmaq su üçündürsə, elə dənizdən al).

dəniz sığmaz gölçüyə,dəvə doymaz çömüçüyə.

dəniz sığmaz gölçüyə,dəvə doymaz çömüçüyə.

dənizdə iz qalmaz.

dənizdən bir damla, çalış bunu anla.

dənizdən bir damla, çalış bunu anla.

dənizdən çıxmış balığa dönmək. (böyük sıxıntı çəkmək).

dənizdən keçmiş, çayda boğulmuş.

dənizdən köpük bağışlamaq. (xəllifə cibindən bağışlamaq).

dənizə düşən yılana sarılır. {üzgünlərə iyi kötü sayılmaz. (**üzgünlərə**: umutsuzlara)}. (əlin canından üzən iyi kötü sayanmaz). (batan biri saman ilan seçənməz).

dənizə gedən susuz qayıdar. (dəniz suyu şor olduğundan içməyə uymaz).

dənizi keçip, çayda boğuldu.

dənizin dərinliyin sudan yox, dağdan soruş, təpənin nə olduğun dərədən yox dağdan.

dənizin suyun paylasan, dənizdə su qalmaz.

dənizlərə dalqa ol, yarınlara yağqıt ol. (**yağqıt**: ışıq. məşəl).

dənsiz döşsüz aş olmaz, biməz gəzməz baş olmaz.

dərd ağladar, eşq söylədər.

dərd ağu boğazdan girir.

dərd çəkənə verilər.

dərd çəkənindi, sevgi sevənin.

dərd çəkməyən, dərd qınqatın biləmək. (**qınqatın**: əzabın nə olduğun).

dərd dartmayan dərd bilməz.

dərd əkən, çilə biçmiş. (**çilə**: ağrı).

dərd uzansa çözüdər, borc qaldıqca üzüdər. (**çözüdər**: pozub dağıdar. çürüdər).

dərd var acı, çəkməyi çətin, dərd var dadlı, çəkməyə nəvar.

dərd var gəlib keçər, dərd var dəlib keçər.

dərdi atan dəmi artar.

dərdi atdı dəmi artdı.

dərdi çəkən bilər, dayağı yeyən.

dərdi çəkən sən, tüstüsü başdan çıxar.

dərdi çəkən, yükü dartan bilir.

dərdi desən dərd qalanar dağ üstünə, sevincdən söylə çıxa yağ qaymağı yağ üstünə.

dərdi olan dartılır, dartılmasa artırır.

dərdi olan deyingən, dərdli olan çalışqan. (**dərdi olan**: ağrısı olan). (**dərdli olan**: armanlı olan).

dərdi olmadıq, dərman izləməz. (**olmadıq**: olmayan).

dərdim ağır dərman ağır, ömür qıssa, arman yağır. (**arman**: nisgil).

dərdim ağır dərman ağır, yazı gözlə, bilik sözlə, gözüm soğur, qulaq sağır.

dərdim ağır dərman ağır, yüküm ağır, belim yağır. (**yağır**: yara).

dərdimiz bir olsa, dərd yarı.

dərdin gizlədən adam ağrıdan eyikməmiş **(düzəlməmiş)**.

dərdin yansan dərmana, dərman fır fır fırlanar.(**dərdin yanmaq**: dərtdən gileylənmək).

dərdin yansan dərmana, dərman fır fır fırlanar.(**dərdin yanmaq**: dərtdən gileylənmək).

dərdini söyləməyən dərman bulamaz. {Dərdini saklayan insan çaresini bulamaz. Derdimize kendimizin bulamadığı çareyi bir başkasıı bulabilir. O kişilerin de derdimizi bilmesi gerekir ki çaresini bulsunlar. (Bayram Özdemir)}.

dərdlərə dərman qara, bu qara dərdə dərman arama.

dərdli deyəgən, qımlı yatağan. (**qımlı**: qussəli). (**deyəgən**: deyingən).

dərdli deyingən, qəmli yatağan olar. (**dərdli**: didikli, açılmış büklü olan). (qəmli: açılmamış bükü olan. kitirli. kədərli).

dərdli deyingən, sözlü söyülgən olur.

dərdli dərman aramış, dərdsizə dərman nə gərək.

dərdli ilə dərdləşsən, dərd üstündən dərd alar, dərdsiz ilə dərdləşsən, dərd üstünə dərd qoyar.

dərdli, dəddən danışanda, dərdsiz baş ağrısı tutar.

dərdsiz baş qorxuluğun ucunda. (**qorxuluğun**: mətərsəkin.

dərdsiz kişi dərdli sözün dinləməz, axmaq sözə dəğər verməz anlamaz, buluğ bolsan söz anlamın seçərsən. (**buluğ**: arif).

dərdsiz kişi dərdli sözün dinləməz, axmaq, sözdən dəğər almaz anlamaz, bulqun bolsan söz anlamın seçərsən. (**bulqun**: arif).

dərə daşın sel alsın, ocaq başın sağ olsun. (**daşın: dışın)**.

dərə görməz dağ bilməz nədir.

dərə görməz dağ bilməz.

dərə olmadan çay olmaz, axar olmadan arx olmaz, el olmadan bay (bəy) olmaz, günəş olmadan ay olaz.

dərə olmadan çay olmaz, axar olmadan arx olmaz, elin olmadan bay olmaz, günəş olmadan ay olaz.

dərə yudun sel almış, dağ doruğun yel çalmış..

dərə yudun sel almış, dağ doruğun yel çalmış..

dərədə yel qalxsa, art başı dalğanar. (art başı: bel başı. gədik). (**dalğanar:** burğanar**).**

dərədi bolmadıq, dərmən izləməz (**izləməz**: aramaz).

dərək bilməz qardaşdan, dərək bilən yad yaxşı. (**dərək bilməz**: qədir bilməz).

dərək bilsə yeni gəlsin yad deyil, dərək bilməz əski olsun dos deyil.

dərəkən, dəğmiş dərəkləyən, dəğinmiş: axdaran tapmış.

dərəki bilən qadın al, dənğləb bilən odun al. (**dərəki bilən**: qədir bilən).

(**dənğləb bilən**: olçü ilə).

dərəkin bilən samanı qorar, çağı gəlincə işinə yorar. (**dərək**: edək. yarar.

(**yorar**: işlədər. istifadə edər).

dərələr çatışarsada, iki dağ başı birbirinə çatmaz.

dərələr düz oldu, düzlər təpə, təpələr dağ.

dərgəşəli bir yerə, güc birgəşər dirgəşər. (**dərgəşəli**: toplanıban). (**dirgəşər**:

dirəniş, muqavimət göstərər).

dəri biçib don tikmək, hər kişiyə iş olmaz.

dəri boyası, iç boyasın üstələr.

dərik varsa, sayqı duysa, dəğər bilsə, sevgidirsə, can qurban. (**dərik varsa**:

ddəğər verilə bilirsə. qədirşinaslıq varsa). (**sevgidirsə**: sevilməlidirsə).

dərildik bulaq olduq, irikdik ırmağ olduq. (**irikmək**: birikmək).

dərin dərin öğrəş işi, iş arası, qalma kişi!.

dərin kəllə düşüncəni incələr, orta beyin olayları ardalar, küçük başlar özgələri qurdalar. (**ardalar**: izləyib araşdırar).

dərin qazma quyu ayruq üçün, içində sən yatırsan biri gün.

dərin quyu yokdur, güdək ip vardır. (**güdək**: qıssa).

dərin quyudan su qurtarmaz.

dərin sözdən ağırı, kəsə yoldan qısası tapılmaz. (**kəsə yoldan**: çapa yol).

dərin su bulanmaz.

dərin sular, dinc axar.

dərinliyin dibi, hündürlüyün ucu var, hər birnəyin sonu var.

dərisinə sığmamaq, onulmaz dərd. (çox qurranmaq çıxılmaz dərd).

dəriyə yenib birin vurmaqdan, dəyənək yeyib təpəyə çıx.

dərmana gedən una bələşər. **(dərmana: dəgirmana).**

dərsən biçərsən.

dərtli olan düşünməsin boşuna, hər iş gəlir kül olanın başına.

dərtsiz qul (baş) olmaz. (her insanın az veya çok kendine göre bir derdi vardır). (Bayram Özdemir).

dərviş dərvişi təggədə, hacı hacını məggədə bulur.

dərvişin fikri nəysə odur, İnsan nə kadar düşüncelerini kontrol ederse etsin, ağzından çıkan söz düşüncelerini ortaya koyur. Söz bizde

düşünceyken kimse bilemez, ağzımızdan söz olarak çıktığı an herkes öğrenir. (Bayram Özdemir).

dərya yanında quyu qazma.

dəryada balığ, göydə quş, meşədə ayı dərisi satılmaz.

dəryada balıq, göydəki quş, meşədəki ayının dərisi satılmaz.

dərzi öz söküyün tikənməz.

dərzi "tikənə" yox, biçənə demişlər.

dəvə acığı bilər, acını yox. (**acığı**: öcü. kini).

dəvə bəzərəm, belə gəzərəm.

dəvə boynun əğriliyin bilsə yaxşı.

dəvə boynun əğriliyin bilsə yaxşı. (el üçün hər çağun oldağı, vaqeiyyəti danışmaq yeğdir).

dəvə böyük ərsə, mayaqı böyüməz.

- dəvə böyüyür, poxu yox.

dəvə böyük ərsədə, mayağı böyüməz. (dəvə böyüyür, poxu yox).

dəvə buynuz axdarırdı, qulaqdanda oldu.

dəvə dağa çıxtı.

dəvə gərəyi şor yandaq, əğər boynun, uzadar. (**şor yandaq**: dəvə tikanı).

dəvə gördünmü desə kimsə sana, kössəyin belə de görmədim de ana.

dəvə qayadan çıxınca, can təndən çıxar.

dəvə qırda gözü şorda.

dəvə qulağından asılmaz.

dəvə minən, qoyun ara yaşanmaz. **(**gizlənə bilməz). **(**yaşanmaq**:** yasanmaq. yaşmaq. yasmaq. gizlənmək).

dəvə minib qoyun ara yaşılmaz. (dəvə üstündə olsan, qoyun sürüsündə gizlənmək olmaz).

dəvə minib qoyun ara, yaşmazlar.

- dəvə üstündə olsan, qoyun sürüsündə gizlənmək olmaz.

dəvə nə qədər uzaq gedsə, qatarın gözlər.

dəvə öz gəvşədiyin udar.

dəvə silkənsə, eşşəyə yük çıxar**. (**tutulan nərsənin böyüklüyün göstərir).

dəvə silkinsə bir eşşəklik yük çıxar.

dəvə üsdə it qapmaz, qonşu evdə söz qalmaz.

dəvə yaxını otlayıb, uzağı gözləyər.

dəvə yergiləsə burnuza, olar bir gün qulaqdan. (**yergiləsə**: yerikləsə. istəsə. həvəs edsə). (**olar**: itirər. itimiş olar).

dəvə yerine deve çöker: Önemli yöneticinin yerini ancak, önceki yönetici gibi yetenekli kişiler doldurabilir. (Bayram Özdemir).

dəvə yunu yumşaqsada, dolqundur. (**davamlıdır**. möhkəmdir).

dəvə yükü aş olsa, aca az görünür.

dəvə yükü aş olsa, acğa azğanır. (dəvə yükü ac olana az gəlir (**azğanır:** az gəlir).

dəvə, qara yerin, qayığıdır.

dəvə, qara yerin, qayığıdır. (**qara yer**: çöl).

Dəvəçi ilə arxadaşlıq eləyən qapısını geniş tikməli. (Ara Gündüz).

dəvəçiyə xıx deməzlər, kor birinə bax deməzlər.

dəvədə könül olsa, qanqala boyun əğər.

dəvədə könül olsa, qanqala boyun əğər.

dəvəni dəpətsə yel.

dəvəni görən tanır, ağını udan.

dəvəni yel aparsa, geçini göydə gör.

dəvənin böyügü, köprüdə dayaqdı.

dəvənin dizi, yağının gözü. (yağı: düşman) (dəvəni dizindən, yağını gözündən vur).

dəvənin irisi, köprü üsdə dayaq yer.

dəvənin quruğu yerə dəyməz.

dəvənin quyruğu yerə dəyəndə. (nərsənin olmazlığın imkansızlığın göstərir).

dəvənin quyruğu yerə dəyməz.

dəvənində oynamağına az qalıb.

dəvəsi ölmüş ərəb, arvadı ölmüş türk kimiyəm.

dəvəsin itirib ovsarın gəzir.

dəvəyə boynun əğri demişlər. dəvədə nərəm doğruki demiş. (kötülüğü ile tanınmış, boğazına kadar kötülük bataklığına gömülmüş insanların doğru taraflarının olmayacağı anlamında kullanılan bir söz). (Bayram Özdemir).

dəvəyə dedilər: - xan səni istəyib. dedi: ya yola çıxır, ya yoldan qayıdır, ya duzu bitib, ya taxılı.

dəvəyə minib yaya pusma. (dəvə üsdə düzlükdə gizləniləməz).

dəvəyə minib yaya pusma. (düzlükdə gizlənmək olmaz).

dəvəyə yandaq gərək olsa boynun üzer.

dəviyə bürc gərəkirsə boynun uzadar.

dəviyə bürç gərəkirsə boynun uzadar. bilə (bahəm) yaşamın dadın yalnız qalan bilər ölkə yağışdan çıxıp yağmıra düşüb.

dəviyə minib, dəvə izlə.

dəviyə su gərəkirsə, boynun əgir.

dəviyə şoryandaq gərəkirsə, boynun uzar. (**şoryandaq:** dəvə tikəni).

dəyənə dəyir, dəymədiyə daş atır. (yetənə yetir, yetməyənə daş atır).

dəyər verməgin bilməyirsə biri, yaramaz ona heç kötüdən iyi. (bilmirsə biri tutar daşı, sil könüldən at o taydaşı).

dəyiman kimi, bərk götür, ağır qaytar.

dəyirman iki daşlı, məhəbbət iki başlı.

dəyirman iki daşlı, sevşik (məhəbbət) iki başlı.

dəyirman öz səsin eşitməz.

dəyirman öz səsin eşitməz.

dəyirmanda doğan sıçan, gurultudan qorxmaz.

dibin qazıb qaşa yaz, xoşun gəlsə daşa yaz.

dibin tapan, başa süzər, başın tapan, dibə süzər, özün tapan, içə süzər.

dibsiz quyu daş atmaqla dolmamış, söz öğütlə hovan adam olmamış. (**hovan**: axmaq).

dibsiz quyu ip güdə, sonsuz arzu, yaş güdə.

didiksiz baş uzaq gedməz. (**didik**: titik. tetik. göz. güdücü. qılavuz).

dığalara yamanlıq, ana yurda amanlıq. (**yamanlıq:** qaragün. korluq) (**amanlıq**: ağgün. dinclik).

dığırlaq daş yosun yığmaz, mutluluq başa sığmaz. (**başa**: ağla).

dığıya qız verənin, anası batsın, ər verənin, atası batsın. (**dığıya**: ermənіyə).

dığraq daşda yosun bitməz.

dığraq daşda yosun bitməz.

dığraq daşlar yosun tutmaz.

dığraq daşlar yosun tutmaz.

dik demək birdir, dik saxlamaq min.

dil ağacdırsa, yıxılmadan dayan.

dil ağrısın baş çəkər. (**ağrısın:** yamanın. yükün) (ağız deyər baş ağrıyar).

dil alanı çalış çəliş alanı, qorxan geri, qalxan önə apardı.

dil alanı çalış çəliş alanı, qorxan geri, qalxan önə apardı.

dil basıq, baş basıq, bolluq olsa, qasıq basıq. (**qasıq**: qursaq).

dil başın elçisi.

dil başın həm bəlasıdır, həm qalasıdır (**qala**: hörügü, səngəridir).

dil baylığı, el baylığı. (**baylıq**: devlət).

dil bəla, diş qala, dildən gəlir hər bəla.

dil bilən orağ ursan, belin ağrımaz. (biligin sal işə, biləgin yox).

dil bilən yolda qalmaz.

dil bilginin elçisi. (**dil**: söz).

dil biligin elçisi.

dil bilim, kəllə olan yerdə yaşır, kəllə yoxan yerdə batır.

dil bilməz nökər, avqarın sökər. (**avqarın**: evin sözün işin, iç dünyavı eşiyə açar).

dil bir elin, keçmişi, baylığı varlığı, ulamıdır. (**baylığı**: bəyliyi) (**ulamıdır**: dəvamıdır).

dil bolmasa el bolmas, el bolmasa, yurt bolmas.

dil boyur, könül doyur (**boyurmaq:** nəql edmək. nağıl demək).

dil çaşırsa söz ölər, solar tini qalar təni, ölümçuluq varlıq olar.

dil çiçəkdirsə solmadan suvar.

dil dadlısı, elçi yaçağı. (**yaçağı:** yaraşığı). (elçi danışıb qonuşmağın bilməlidir).

dil daş deyil, başdır, dilin daşıda başdır. (**daşıda**: təməlidə).

dil dediyin elə (həman) dindi, dilin tap, dinin tap.

dil deməklə itilər, tirə sürtməklə. (**tirə:** piçaq).

dil deyər, qulaq dinlər, göz görər.

dil diri, el diri!.

dil doğrusu, daş yarır, dil əğrisi, baş yarır.

dil düğünlədi, diş açanmadı.(ağızdan çıxan söz, çox ağır sonuclana bilir!).

dil düğünun, diş yazmaz (açmaz).

dil düğünü boğaza tez düşər.

dil düşüncə açarı. (**açarı**: açıqlayanı. aşqarladanı). (dilsiz düşünə bilməsən).

dil düz olmaqdansa, könlü onğatlığı (düzlügü) yeğdir.

dil elitin, bayrağı, yurd elitin, baylağı. {hər elin (millətin) varlığını bəllətən (var olduğun tanıtan özəl, özgür bəlgə) sözü, savı, dilidir. }. {hər elin (millətin) balyağı (balı yağı), kan dağarı, nəni devləti, yurdu, torprqıdır}.

dil ətdən, çəlik əridir. (**çəlik**: tapdanmış dəmir. polad).

dil ətdəndir, nəyə vursan yapışar.

dil getdi, el getdi.

dil görən işi əl görəməz.

dil görən işi əl görəməz.

dil xoş ötsə qulaq səmirər.

dil ilə baş danışır, dilsiz baş, necə danışır.

dil ilə biçin biçsən, bel ağrımaz.

dil ilə vurulan, içi qırılar.

dil ilə, baş kəsilir.

dil ilən bağlanan, diş ilə çözülməz.

dil imit, bayraq durur ellər ara. (**imit:** təmsil).

dil istəyər, əl edər.

dil kişinin bəzəyi.

dil könül haçarı. (**dil**: söz).

dil qandalı boyunda.

dil qırıldı, can töküldü, sevgi dildə, oldu tapmaz öz sözün.

dil qorunur el içrə, qoç igitlər bağmanı, ana doğan danırsa, yadlar onun yağvanı. (**doğan**: qohum) (yağvanı: öcəni. ocanı. düşmancısı. yağuçluq, düşmanlıq yapanı).

dil olan yerdə əl işləməz.

dil olan yerdə əl işləməz.

dil olan yerdə gərəkməzdi çəlik çalsın ürək. **(dil:** söz). (**çəlik**: polad). (dilin gücü, süngü dələr). (**süngü**: neyzə).

dil olmasa, baş qabağ. (**dil**: söz).

dil olmasa, el olmaz. (dil yoxdusa, el yoxdu).

dil olmasa, yaşam bomboş, din olmasa yaşam bom boş.

dil olmasa, yaşam bomboş.

dil oraqı tutsa kəsər.

dil öğrəşsə ağız qalmaz,.

dil öğrəşsə ağız qalmaz,.

dil ölkənin bayrağı, bayraq saxlar ölkəni.

dil ölkənin dirəyi, dil qafanın biləyi, dil ürəgin diləyi, dil yelkənin yeləyi. (**dil qafanın biləyi**: söz başın gücü). (**yeləyi**: qanatı).

dil ötən yerdən od ötməz.

dil ötər göt yemiş, dil ötmuş baş yemiş.

dil salan düğünü, diş çözəməz.

dil sevgisi coşmuş olur könüldən, batsan içə dalsan sözə görərsən, dil yoxdusa söz anlamı tapılmaz, söz yoxdusa heç bir qavram yapılmaz, başlar kütər, beyin küsər, heç bir kimlik arınmaz, nə bir duyqu, nə bir savsal, nə bir kimlik yarınmaz. (**savsal**: fəlsəfə). (**yarınmaz**: yaranmaz).

dil söz ilə tanınar.

dil susarsa, göz qonuşsa, can könül içdən qopar. (**can könül içdən qopar**: içim titrər).

dil sussada, göz danışır.

dil sümüksüzdü, sümük dəlir. (dil sümüksüzdür, amma sümüyü sındırar). (dil sümüksüzdür, sümüyüdə doğrur).

dil sümüksüzdür, amma sümüyü sındırar.

dil sümüksüzdür, hər cürə fırlanır.

dil sürcü, yalan. (dil səhvi, yalan). (dil çaşırsa, kırıxsa yalan söylər).

dil tanrı qayrıdır kişiyə.

dil toxusa, diş açanmaz.

dil toxuşu diş qırar.

dil toxuşun, diş açamaz.

dil tutula bilməsə, baş dinəcə oturmaz. (**dinəcə**: huzurda. asayişdə). (dilin tuta bilməyən, tez başını uçurmuş).

dil ucundan itən başlar.

dil uzun us qısa, us uzun dil qısa.

dil ürəkdəkin söylər.

dil ürəyin dilmancıdır.

dil var dişi qorur, diş var dili qorur. (dil var dişi saxlar, diş var dili saxlar).

dil var dişi qorur, diş var dili qorur. (**dil var dişi saxlar, diş var dili saxlar**).

dil var quyuya salar, dil var quyudan alar.

dil var ötər göt yeyər, dil var ötər baş yeyər.

dil var utulur, dil var ötünür (danışır).

dil var, ütər qılıcı.

dil yaxımlı yalxım kimidir, qanlı açıq yara bitirər.

dil yarası, il yarası. (qılınc yarası sağalar, söz yarası sağalmaz). (qılınc yarası, iz qoyar, söz yarası, köz qoyar!).

dil yaşasın, el dursun.

dil yoxdusa, el yoxdu. (dil olmasa, el olmaz).

dil!, dilə düşmədən, ələ gəlməz, ələ gəldisə, dildən düşməz.

dil, ağız yaraşığı, söz, dil yaraşığı, sözilə dil, kişi yaraşığı. (kişi dərəki, dəğəri, ağırlığı düşüncədən başqa, nədə ola bilir. düşüncəni canlandıran, dildən-sözdən başqa nə var!!!!!?????. {{-oyan. }}).

dil, bilim qolu, dil, bilim qulu. (**qulu**: qulluqçusu).

dil, din. birin elim qoymaz, birində beyin. (**qoymaz**: tərk edməz).

dil, düşürsə dildən, dil, yadırqay yiyəsin.

dil, elin elçisidi.

dil, ellərin bayrağı!!!.

dil, ellərin bayrağı!!!.

dil, küsürsə dildən, dil, qarğayar yiyəsin.

dil, küsürsə dildən, dil, tanımaz yiyəsin.

dil, utdurar (yem), dil, uçdurar (söz).

dilab açıq, pişiyin qurası (həyası) nərdə.

dildaş təndaş tindaş: bir dil bir tən bir tin. dilbir tinbir tənbir.

dildə qolay, işə alay. (danışmada iti, işdə güc).

dildə sevən çox olar, işdə sevən yox olar.

dildən gələn dartılmaz, əldən gələn datılar.

dildən gələn əldən gəlsə, hər kimsə xanlıq edər. (dildən gələn əldən gəlsə, hər kimsə paşa olar).

dildən gələn əldən gəlsin.

dildən gələn əldən gəlsin.

dildən unudan türküsünü türk qala bilməz. (**türküsünü**: türkcəsini).

dildi dildir paxtadan yumşaq durur daşdan qatı, ağqulardan çox acı, baldan belə süycü durur. (**paxtadan**: pambıqdan).

dildi səngər, dil övüş dildir döğüş. (sığıncaq, dil. sevinc, dil. döğünc (qayğı), dil).

dildir quran, ürəkdən ürəklərə yol. (**dildir**: sözdür).

dildir, sırlar haçarı, sözdür, könül yaparı.

Dile gelen ele (başa) gelir: Sürekli bir şeyi dile plesenk yaparsak, tekrar edersek, başımıza gelebilir. Bunun için kötü söz söyleyenlere ağzını hayra aç denir. (Bayram Özdemir).

Dilencinin torbası olmaz: Deşircilerin hiç bir isteği bitmez. Ne verirsen ver, daha fazlasını isterler. (Bayram Özdemir).

dilə sal dilə, var olsun dilin.

dilə sal dilə, var olsun dilin. (nərsəni gündəmə gətirməklə, aldışmaqla diri saxlayıb yürkütmək olayı). (**yürkütmək**: rayic edmək).

dilə tut sözün al, oxa tut gözün.

diləgingə tez yetər qoysa qıraqa ağanı, kimi tutsa üzünü yolçu gədadan diləsə.

diləgingə tez yetər qoysa qıraqa ağanı, kimi tutsa üzünü yolçu gədadan diləsə.

dilək başı bir olsa, tək əllidən səs çıxar.

dilək başı bir olsa, tək əllidən səs çıxar.

dilək budur sizlərə, yaxşı yaman saylansın.

dilək buğdada qalır, saman qurçalaq olur. (**qurçalaq**: mahana).

dilək çantasının, dibi olmaz.

dilək dadlı alışmağa nəvarmış, kəsiş acı, ağırlığı yıxarmış.

dilək dadlı alışmağa nəvarmış, kəsiş acı, ağırlığı yıxarmış.

dilək dadlı alışmağa nəvarmış, kəsiş acı, ağırlığı yıxarmış.

dilək doğru yönəlsə, amac kolu gül açar.

dilək doğru yönəlsə, amac kolu gül açar.

dilək hara yuvaq ora. (**yuvaq**: mənzil).

dilək olsa, dağada aşar, dağdanda aşar.

dilək olsa, ilik işlər. (**ilik**: qeyrət).

dilək səndə qapnıqı çalmaqdır, açılmasa dam duvar aşmaqdır. (**qapnıqı: qapınğı**. **qapını**).

dilək səndə qapnıqı çalmaqdır, açılmasa dam duvar aşmaqdır. (**qapnıqı :qapınğı**.**qapını**).

dilək tap, tikin qal.

dilək tap, tikin qal. (**tikin qal**: qayım qal).

dilək varsa yaşam sürür dayanmaz, dilək yoksa yaşarsanda yaranmaz. (**yaranmaz**: fayda verməz).

dilək varsa, dəlik tapılar. (**dəlik**: yol).

dilək varsa, dəlik tapılar. (**dəlik**: yol).

diləklə dirəş birgə doğur, birgə olur. (**diləklə dirəş**: arzu ilə istiqamət). (diləklə dirəş, birgə doğur, birgə ölur).

diləklə dirəş, birgə doğur, birgə ölur.

diləklə yaşa, diləkdə yaşa, diləkə yaşa.

diləkli qalan döğvəsin çəkər, könüldən uçan gözdəndə düşər. (**dləkli**: könüllü). (**döğvəsin**: dağvasın. qavqasın).

diləm dildən gileyli, dilim candan gileyli, canım üzgün dilimdən, dilim darqın diləmdən. {(**diləm:** iç özüğü. istək. içözdən doğan istək). (**içözdən**:

vicdandan)}. (**gileyli**: sızınlı. şikayətli). (**canım üzgün dilimdən**: dilimin kəmligindən içim üzülür) (**dilim darqın diləmdən**: sözüm sıxılır diləkləri açıqlayamadan).

dilənçi aldında yançıq kavlama. (**aldında**: qabğıında) (**yançıq kavlama**: cibin sökmə, axdarma).

dilənçi dilənçidən pay güdər.

dilənçi əlivi güdər ağzıvı yox.

dilənçi küsmüş, üləkin (böləgin. qismətin) kəsmiş.

dilənçi küsük, torbası büzük. (küsən dilənçinin, torbası boş qalır).

dilənçi torbası dolmaz, min qapıdan uman doymaz.

dilənçi varlansa, yovğa (sədəqə) verməz.

dilənçi yanında əl torbaya girilməz.

dilənçi yeyər doymaz, bağlasan durmaz.

dilənçidən dilənçi doğar, itilə yatan bitilə durar.

dilənçidən dilənçi doğar, itilə yatan bitilə durar.

dilənçidən dilənçi doğar, itilə yatan itilən durar.

dilənçidən dilənçi doğar, poxilə yatan poxunda qoxar.

dilənçidən dilənçi doğar, poxilə yatan poxunda qoxar.

dilənçidən dilənmə.

dilənçidən pay, həm çətin həmdə az olur.

dilənçilikdə güvənc olmaz. (güvənc içə baxır, dışa yox).

dilənçiliklə uçmaq yolu alınmaz. (**uçmaq**: cənnət).

dilənçinin dağarcığı dolmaz.

dilənçinin doldu xurcunu, doymadı gözü.

dilənçinin dosluğu gec olur, tez kəsilir.

dilənçinin ətəyi deşik. (dilənçi gözü toxmaz. (doymaz). (görməsən diənçi gözü tox ola).

dilənçinin xurcunu dolsada, göz torbası dolmaz.

dilənçinin payı qalannan olur.

dilənçinin yaş köynəyi, əğnində quruyar.

dilənçiyə borclu olma, ya düğünde istər, ya bayramda.

dilənçiyə çarıq versən, yamaqlığında istər. (dilənçiyə üzün sən ver, asdarın özü istər).

dilənçiyə seçim yox.

dilənçiyə üz vermə, xəbərçiyə söz vermə.

dilənçiyə üz vermə, xəbərçiyə söz.

dilənçiyə üzün sən ver, asdarın özü istər. (dilənçiyə çarıq versən, yamaqlığında istər).

dilənçiyə, bələtçi gərək deyir.

dilənçiynən it, bir çuvala sığmaz.

dilənən nə isə olsun, təki sevgi seviş olmasın.

dilənən nə isə olsun, təki sevgi seviş olmasın.

dilənən tapar, tikilən qalar.

dilənmədən yaşam dadı dadınmaz. (**dilənmədən**: istəmədən. çabanmadan).

(qəm yerində doğur, dəm yaratsan olur).

diləyə qoysan yoluva çıxar. (dilivə qoysan gözüvə çıxar). (ağzıva qoysan başıva çıxar). (yola qoysan uğra çıxar).

dili bağlının başı bağlı.

dili ballı, işi allı yaramaz. (**işi allı**: edni pozuq. kirdarı yaman).

dili dişiynən tutma, dişi dil ilən tut.

dili doğru, yolu doğru.

dili gözdən qoymasan, saxlar səni, gözdən qoysan satar səni.

dili ilən quş tutar.

dili işə tutmaq gərək, -dil gözlə qulaq yoldaşı, sevgilərin sırdaşı.

dili işə tutmaq gərək, -dil gözlə qulaq yoldaşı, sevgilərin sırdaşı.

dili kəsik, başı kəsik.

dili kəsilmiş, həqqı kəsilmiş.

dili qalmaz , el qalmaz, yolçu qalmaz, yol qalmaz.

dili qalmaz, el qalmaz, yolçu qalmaz, yol qalmaz.

dili qorumaq təkərləməkdir tikrarlamaqdır.

dili uca tutan baş əğrilməz. (**dil**: söz).

dili uzun olmazın, yaşı uzar. (**yaşı**: ömrü).

dili yüngül tutanın başı gedər.

dili, diş ilə tutma, dişi, dil ilə tut.

dilim bayraq, topraq duraq.

dilim dildir, dilim kimi, başım yoxdur elim kimi.

dilim səni dilim dilim dilərəm, hər başıma gələni səndən bilirəm.

dilim səni dilim dilim dilərəm, hər başıma gələni səndən bilirəm.

dilim var, elim var.

dilim! dirçəl, dirən!, bat istəməzlərin gözünə.

dilimdə türk görür, dilimi tükə bağlır.

dilin arıt sən qoru, duran beyin durulsun, sözdür dilin qaynağı, bu qaynağı qoyma heçkəz qopunsun.

dilin atan kütlə olar el olmaz. (kütlə: biçimsiz bir yığın, topar).

dilin başı sağ olsa, dirçəlməyə yer olsa, oğul iyid var olsa, türküm türküm bağırar, qanlı savuş yağuya.

dilin bəlası uzunluğundandı.

dilin bilən elin bilər.

dilin bilməyən anasın tanımaz.

dilin borcu, uğur (xeyir) deməkdir.

dilin büdrəyincə, ayağın büdrəsin.

dilin danmış ana dilinə, dana dili demişlər.

dilin danmış ana, yekə baş dana.

dilin danmış ananın dilinə, dana dili demişlər.

dilin danmış, torba ağız el olarmış!.

dilin dərgitə dəğir: **(dərgit**: süfrə). yumşaq dillə süfrəyə çatılır. kişi dili altındadır.

dilin dinin bir yana, kişi dəğər işiylə (**dilin**: sözün). (**kişi dəğər işiylə:** kişi tapmış dəğər işindən).

dilin dolan başına, el qadasın al vədəsində!.

dilin gücü dişdədir, dişin gücü **"dildə"**.

dilin gücü dişdədir, dişin gücü dildədir.

dilin gücü, kişi onatı (kişinin bərkliyi, tovu, sözündən asılıdır). (onatı: təsdigi. doğruluğu, gücü).

dilin gücü, süngü dələr. (**süngü**: neyzə). (dil olan yerdə gərəkməzdi çəlik çalsın ürək) (**dil**: söz). (**çəlik**: polad).

dilin itirən dinsiz qalır.

dilin kəsik olsa, baş nəyə gərək.

dilin qanmaz yazıqlar, özgə götün yer bilər.

dilin qanmaz yazıqlar, "poxa" "qoh" diyər, tamaha düşər! (tamaha düşər: umsunar).

dilin önəmi. -bu dil ilə durar adımız, bəllənər dönük yadımız.

dilin satmaz özün bilən, dilin atmaz sözün bilən.

dilin sevən, elin sevər.

dilin suçu yox, dildə yalan yox. (otuz iki qalalı dil var olsun. iki qulaq arasında oturan yalançı baş yox olsun). (**otuz iki qalalı**: otuz iki qapılı. hər diş bir qapı).

dilin sümüyü, dəyər ətinə.

dilin tuta bilməyən, tez başını uçurmuş. (dil tutula bilməsə, baş dinəcə oturmaz). (**dinəcə**: huzurda. asayişdə).

dilin tutan baş qutarır.

dilin tutan baş qutarır.

dilin tutanmıyan, qulağından yeyər. (**qulağından yeyər**: ursanar: (< **vur**). cəzalanar). (hər sözü hər yanda demək olmaz).

dilin tutmazın başı ağırlıq edər. (dilinə yiyə çıxmayanın 1. başı itər, gedər, 1. kimliyi batar).

dilin tutmuyan güdaza gedər. (**güdaza**: tovtiə. tələ). (1. düşmana yem olar. 1..).

dilin tutsaydı dinc ağzında ilan, yatardı xoş inində o, çıxarsa dilin başı yancılır, ya çomaq yeyər ya oxa sancılır.

dilin tükmüşün dişin yazmaz. (**tükmüşün**: düğünlədiyin). (**yazmaz**: açmaz). (dilin, sözün düğünlədiyin, diş açmaz).

dilin tükmüşün dişin yazmaz. (**tükmüşün**: düğünlədiyin). (**yazmaz**: açmaz). (dilin, sözün düğünlədiyin, diş açmaz).

dilin uzundusa, dişinlə tut.

dilin vur düğünü, dişin yazmaz.

dilin yoxsa baş qalmaz, başın yoxsa el qalmaz.

dilin yoxsa baş qalmaz, başın yoxsa el qalmaz.

dilin yurdsu, könül orun, dillə sözü, könüllə yorun. (**yurdsu**: yurdu. sevimli yurdu). (**orun**: yer. könül orun: könüldü yeri). (**dillə**: dil ilə. -dillə sözü: dil ilə sözü). (**yorun**: yozun. açıqla).

dilindən utanma, durundan utan. (**durundan**: halından).

dilindi varlığın sənin, dilsiz varlıq nəyivə gərək, öykün oyun, sayın sanağın, dil oylanış, usuş qanış kişiyə gərək. {dil oylanış (sözlə duşünmə) birgə yaranmış}. (öykün oyun, sayın sanağın: zikrin fikrin). (**usuş qanış**: düşünüb qanma).

dilinən əkmək birikməz. **(dilinmək:** doğranmaq).

dilini gör, elini gör.

dilini tanan var olmuş, dilini danan bok olmuş!. (dilin tanan var olmuş, dilin danan bok olmuş) !.

dilivə yalan, belivə palan.

dilivi arıt qoru, işivi yarıt qoru, igidi bilit qoru.

dilivi qoru sözüvü yarat, yavuz düşmanın bağrın qarat. (**bağrın qarat**: umutsuz, mutsuz eylə).

dilivi sözdə, əlivi işdə gözlə.

dilivi tanı, var ol!.

dillə dünya qurulur, dilsiz dünya şumulur. (**şumur**: cumur).

dillənirsə səs, səslənər dilim.

dillənmədik, dindik, dirikən, sına girdik. (**sın**: qəbir).

dillənməsən, dilin yoxdur.

dillər susub könül könlə danışsın, çin doğrular birbirilə barışsın.

dillər susub könül könlə danışsın, çin doğrular birbirilə barışsın.

dilli elin, özüdə var üzüdə var.

dilli elin, özüdə var, üzüdə var, sözüdə var.

dilsiz ağız, kəsik baş. (ağızda dil gərək).

dilsiz baş öküz başı, ölü başı.

dilsiz baş, baş deyil, daşdır.

dilsiz baş, başsız gövdə.

dilsiz baş, uzaq getməz. (dilsiz, başı uzaq getməz).

dilsiz başa, necə deyim kişi mən!. (**başa**: adama. kəsə).

dilsiz başın, doğrusu yox, yalanı yox, dilsiz elin varı yox, yoxu yox.

dilsiz başlar əzilmiş, qolsuz dillər kəsilmiş, götsüz ellər asılmış.

dilsiz başlar əzilmiş, qolsuz dillər kəsilmiş, götsüz ellər asılmış.

dilsiz beyin söz qanmaz, dil dananı könl almaz.

dilsiz düşünə bilməsən. {dil düşüncə açarı. (**açarı**: açıqlayanı. aşqarladanı)}.

dilsiz düşünə bilməsən. {dil düşüncə açarı. (**açarı**: açıqlayanı. aşqarladanı)}.

dilsiz el qalmaz, tinsiz el durmaz!. (**tin:** duyqu, inanc, iç evrəni).

dilsiz elə toprağ yox.

dilsiz elim var neyniyim, daşsız dağım var, neyniyim, amansız düşmanım var neyniyim, ağılsız başım var neyniyim.

dilsiz elin atı eşşək dəvəsi köşşək sayılır.

dilsiz elin daşı çox, ürək kövrək dağı çox, öz dilini bilməsə, doğma elin yadı çox.

dilsiz elin dərdi basar dərdləri. (dilsiz elin qayu üsdə yox qayu). (**qay**: bəla. soru).

dilsiz elin qayu üsdə yox qayu. (**qay**: bəla. soru). (dilsiz elin dərdi basar dərdləri).

dilsiz elin, sözü yox.

dilsiz ellər yurtsuz qalır, yurtlu ellər dilin tapır. (**tapır**: tapınır. övür. sevir).

dilsiz ellər, ölməyə büktüm. (**büktüm**: məhkum).

dilsiz kimsə, dünya gəzənməz.

dilsiz millət, çəkər zillət.

dilsiz, uluslar solur.

dilsizlikdən gələn bəla, baş üzər.

din özlüyündə, kişinin ən yaxın dosdu olaraq düşmanıda olmayıbdır. qalıb dinə necə baxasan.

din soludan aran, başna qadasın alar. (rahat nəfəs almadan bıkan, qalxıb başının bəlasın arar).

dincik kanı, pozuqlardan ıraqlıq, düzüklərə yaxınlıq. (**dincik**: huzur).

(**düzüklərə**: təmizlərə).

dincik kanı, pozuqlardan ıraqlıq, düzüklərə yaxınlıq. (**dincik**: huzur).

(**düzüklərə** : təmizlərə).

dincin alıb çetdə yaşam xoş gəlir, əldə çəlik, qıçda dayaq olunca. (**çetdə**:

qıraq).

dinclik üçün sayrasın dilim, ovatlıq üçün işləsin elim. (barış üçün ötsün dilim).

dinclik, başda yaransın, könlə insin!.

dinclik, sağlamlıq qaravu. (arxayınlıq təhlükəsizlik zamini).

dinclikdə aramadım qutluluq, qutluluğumdur yaratansa dinclik.

dinclikdə aramadım qutluluq, qutluluğumdur yaratansa dinclik.

dindirən yox bu könül özbaşına sızlarmış. (**dindirən**: təsgin verən).

dindirmə dəmirçini, qəm yeyibdi içini.

dindirməsən kişini, bilinməmiş dəğəri.

dinək dilli qanlı başı görməmiş.

dinər qalı kişilər, bolluq olsa ölkədə. **(dinər qalı**: dinc yaşır).

dingə yeyən, dingə sıçar. (**dingə**: təkinə).

dinlcəlmək qabağdadır, işlədikcə, yaşam dadılır (dad alınır. dadlanır).

dinlə kötünü, itir özünü. (yamanın sözün boş ver).

dinlə pulun gizli tut. (dinin ilə puluvu).

dinləgənin dosdunsa, dilin sözün düz olsun.

dinləməm çalqı, içmərəm boza, sevmərəm qoşu, böylə birisin alma könülə, vermə könlüvü.

dinləməm çalqı, içmərəm boza, sevmərəm qoşu, böylə birisin alma könülə, vermə könlüvü.

dinləməsən bilgələrin söyləşin, ömür boyu yığnağanın boş gedər. **(yığnağanın:** yığdığın. topladığın).

dinləməyin unudan, gəpirməyin bacarmaz.

dinlər qulaq bir söz ilə yol tapar, dinləməzsə min söz belə boş çalar. (eşidənə bir söz keçər, eşitməzə mini neylər).

dinləyən olsa kahıl, danışan hər kimisə yox dəğəri. (**kahıl**: cahil).

dinli olan dilin qorur.

dinləməz qulaq başış ağrıdar, söyləyən ağız qınağ yağdırar. (**qınağ**: nəqd. intiqad).

dinləməz qulaq başış ağrıdar, söyləyən ağız qınağ yağdırar. (**qınağ** : nəqd. intiqad).

dinmədim mən, deməyin ki tanımır güllə tikanın dərkin. (**dərkin**: fərqin).

dinməmək yatmaq deyil, yatanlarda dinən deyil.

dinməmək yatmaq deyil, yatanlarda dinən deyil.

dinməməzlik kimlik qırar kişidə, beyin kortur, geri qalır işidə.

dinməməzlik kimlik qırar kişidə, beyin kortur, geri qalır işidə.

dinməsə kişi açılmaz işi (içi. özü), girməsə siki açılmaz üzü. **(**evlilik**)**.

dinməsə kişi, bəlləməz işi, dinirsə kişi, bəllənər işi.

dinməz acılar ölüncə dinir. (**dinməz**: sakitləşməz).

dinməz dilim yoldaşım, dinər dilim başdaşım.

dinməz kişi, bəlli dəl işi. (**bəlli dəl**: bəlli deyil. bəlləməz).

dinməz olursa biri, nə söyləsən yapışmaz.

dinməz olursa biri, nə söyləsən yapışmaz.

dinsəlik dəğişməzmiş görsəlik. (eşitmək, görmək yerin verməz).

dinsiz olan dilin danalar, tanrı qatı onu qavalar. (**danalar**: lap dana, öküz kimi danar) (**tanrı qatı**: tanrı qulluğu, qapısı).

dinsizin ağzın, imansız yumar.

Dinsizin hakkından imansız gelir: Kötü insanları, kendisinden daha acımasız, daha kötü insanlar yola getirebilir. (Bayram Özdemir).

dirək olmaz, dirəş olmaz. tikən olmaz, tikik qalmaz.

dirəkdi saxlayan göydə tavanı, yarmaz incidə sevən sevəni. (**yarmaz**: **yaramaz**. çıxmaz).

dirəniş bitər, dözüm qalmaz gəlirsə anı ‘‘alım, ya ölüm’’.

dirənişgənin təri çıxar, gəvşək görər canı çıxar.

diri daddan doymaz, ölü aytdan. (**aytdan**: duadan. virddən).

diri gəzən ölülər, unutulmuş dirilər.

diri oldun sanda ol. (**sanda ol**: nərsiyə yara). (ölür isən gordan başqa yerin yox, yaşında sən nərsə üçün yarar ol).

diri ölüyə dəğşilməzlər.

diri ölüyə dəğşilməzlər.

diri sıçan, ölü qaplan üstələr.

dirik əsən bolsa, tan oluş görər. **(tan**: tanğ. çox**)**.

dirik olda darda yok, yolçu olda qarda yok.

dirik ölməkliğin düşünsə, ölmək üçün darıxmaz.

dirilər darda qalsa darıxır, ölülər darıxmaz axı.

dirilər darda qalsa darıxır, ölülər darıxmaz axı.

dirilərin ölümün nə olduğundan danışmaqlarına inanmıyın.

diriliyin bacarmıyan ölməlidir.

diriliyin bacarmıyan ölməlidir.

dirişgən tapır, daşa mıx təpir.

dırmaşan dağdan aşar.

dırnağətin yoxdu yeri girməyə. (**dırnağətin**: dırnağla ətin) (ər arvad dırnağla ət kimidir) (ər arvad arasına girilməz).

dırnağtay ağ qarası. (var yoxu dırnaq qədərdir).

dırnaq ətsiz, kişi ərdəmsiz olmasın.

dirnəklik yol açar, təmbəllik gor açar.(**dirnəklik**: çalışqanlıq).

diş ağrısı gəlirsə gecə, qaçar gözdən yuxu, qoymaz dinclik keçə.

diş artıbən iş azalsa, yaman günü savlayır. (**savlayır**: xəbər verir).

dış atılsın içi belə sevilsin, söz dışarı, öz içəri keçilsin, tənin bırax, tini belə içilsin.

diş çıxarmış balıya çörəyi çeynəb verməzlər.

diş deşikdən yaxın. (diş boğazdan yaxın). (diş ağrısa boğaz yaddan çıxar).

diş dəyir deşilir, iş gəlir, eşinir.

diş dilin qoruqudu.

dış görüşə dözməyən, büktü qalmış ölümə. (**büktü**: məhkum). (**dış görüşə**: özgələrin nəzərinə).

diş tapılar küfdə tapılsa iştə. palan yasır qapıda eşşək olursan işdə. (**yasır**: hazır).

diş tökülməsi, saç ağarması qocaltmaz, diş töküldü, saç ağardı qocaldım.

diş, dilin qoruğudu.

dışar sezsə seyrəşər, içər sızsa çağlaşar. **(sezsə: süzsə)**.

dışdakına güvənib, evdəkindən olunma, göy üzdəkin güdüncə, əlindəkin unutma.

dışdakına güvənib, evdəkindən olunma, göy üzdəkin güdüncə, əlindəkin unutma.

dişdən kəsib işə qoyma, cibdən kəsib elə qoyma, **hər kişiyə yaxmamış**. (**yaxmamış**: xoş gəlməz).

dişə aş, işə baş gərək.

dışı ağ içi qara olmaqdansa, dışın qara için ağ olsun.

dışı ağ içi qara olmaqdansa, dışın qara için ağ olsun.

dişi erkək pul kesəsi qatılmaz.

dişi kişi, qadın altın, altın alov birbiriylə sınanar.

dişi vardır ərliklərin başıdır, erkək vardır, ərliksizi tanıdır. (**tanıdır**: adalladır. numayəndəlik edir).

dişim evdə, könül şad, sevim içdə, dəmim çağ, pulum cibdə, kefim saz.

dişin aşınuptur titrərir başın, yaşun doldu, gözdən tökülər yaşın.

dişin varcan malıvı ye, canın varcan balıvı!. (**varcan**: ta varındı) (yaşam sandığın tək uzun deyir, dəğib keçir, dəlib keçir, gözləyəni yaxıb keçir) (sandığın tək: gümanın dək).

dişin varsa dişligini tapınqıl, başın varsa başlığıvı yapınqıl.

dişini gör, işini ver.

dişlənir daş öpülməz, tikinməz bez, sökülməz. (ısırılan nərsəyə, əsirgənilməz). (gücü çatsa, acımaz) (dəlinməyib tikiləmiyən nərsə necə sökülür). (ısırılmayan daşı, öpmək gərək). (kəsiləməyən əl, öpülməli). (harda gördün lotu, yanında otu). (işlərdə yumuşaqlıq gərək).

dişləyə bilmədiyin əli, öpməlisən.

dişliyənməsən diş ititmə.

dişsiz ağız, daşsız dəyirman.

dişsiz ağız, süycü (şəkər) qamışı soranmaz.

dişsiz dil, yaramaz, dilsiz diş, azar. (dişsiz, dil yaramaz. dilsiz, diş azar).

dişsiz nənənin, dişli sözü olar.

dişsiz öğru poxun basar. (dişsiz öğru öz poxun basar).

dişsiz, dil yaramaz. dilsiz, diş azar.

diyən bilmir, bilən demir.

diz çöküb yaşıyandan, dik durub ölən yaxşı.

diz köçüp yaşayandan, dik durub ölən yaxşı.

dodağ gülərdə, büzülərdə, göz ağlarda, yumularda.

dodaq görkü gülüşdü, üzün görkü gözlə qaş. (**görkü** : gözəlliyi).

dodaq görkü gülüşdü, üzün görkü gözlə qaş. (**görkü**: gözəlliyi).

dodaqdan boğaza dadı qalır, ondan sora adı. (dodaqdan boğaza dadı qalır, ondan sora yadı).

dodaqdan boğaza dadı qalır, ondan sora adı. (dodaqdan boğaza dadı qalır, ondan sora yadı).

dodula bazar, dosluğu pozar.

doğacan qonşun olursa, ayıq düşməlisin. (**doğacan**: doğmağa meyilli).

doğada iyi kötü seçilməz, doğru yalan tapılmaz. (bu konular kişiyə, kişiliyə özdür). (**doğada**: təbiətdə) (**özdür**: məxsusdur).

doğan bilən quda oldum, doğanımdan oldum. (**doğan**: qohum). (**quda**: qohum) (**doğanından olmaq**: qohumundan olmaq. qohumun itirmək).

doğan sevgi doğurdan, yer salırsa ürəkdə, dodaq gülər, üz açılar, göz gülər. (**doğurdan**: gerçəkdən. həqiqətdən).

doğma dilin daşlayan, yuva qazdı, yad dillərə könlündə.

doğma "ev eşik", qızıl beşik.

doğma yurdun altın beşik.

doğma yurdun dəyəri, yadın yurtda bəllənər, eyi dosdun dəyəri, yaman dosla bəllənər. (**yadın**: yaban. biqanə).

doğmadan qolay boğmaqdır, qurmadan qolay yıxmaqdı,.

doğmadıq oğuldansa, doğan yad yaxşı.

doğmalardan pir olmaz, olursada tez olmaz. (başqalar üçün adlım, öz elində az tanınmışlar üsdə deyilir). (**üsdə**: haqda). (**tez olmaz**: ölləndən son olar).

doğmamış dayça yəhər, doğmamış qoduq palan istəməz.

doğmamış taya taxacaq gəmi, almamış mala, qoyacaq çulu düşünmə. (**taya**: dayça).

doğmamış taya taxacaq gəmi, almamış mala, qoyacaq çulu düşünmə. (**taya**: dayça).

doğra bəydə doğan yox, doğanlıda inam yox. (**doğra:** adil). (**doğan:** qohum). (adil hakimdə qohum tanımaz, qohumlu hakimdə, iman tanımaz). düz hakim, işində qohumluğu sanatmaq (dəxalət verməz), qohumluğu sanatan (dəxalət verən, hesaba salan) hakimdə inman olmaz).

doğru (gerçək) umut ölmədən sönməz.

doğru (gerçək) umut ölmədən sönməz.

doğru amac doğrulamaz hər yolu. (**doğrulamaz**: təsdiq edməz).

doğru amac düz arac.

doğru amac əğri aracla varmaz. (**aracla:** yolla).

doğru amac əğri aracla varmaz. (**aracla:** yolla).

doğru amac əğri yolu bəğənməz, alçağ olan düzçağlara yol verməz.

(**düzçağ**: düzolan. düz işləyən).

doğru amac yalan yolla çatılmaz, heç bir yaxşı, bir söz ilə atılmaz.

doğru aran nə bəkləmir utuşu, nə keçirmiş utuzu. (**doğru aran**: doğru gəzən. arif. ər. ərən).

doğru aşıvı, əğri başıvı yer (yeyər).

doğru canlansa, əğri büzülər!. **(**doğru dirçəlsə, əğri büzülər).

doğru danış, doğma ol. (doğru danışan, doğmalaşır).

doğru danışanın, papağı yırtığ olar.

doğru dil, daş yarar, əğri dil, baş yarar.

doğru dosluq oxşarı var sağlığa, gözə gəlməz biri əldə, biri təndə varikən.

doğru dosluq oxşarı var sağlığa, gözə gəlməz biri əldə, biri təndə varikən.

doğru duvar, ucaq çıxar.

doğru düzgün edişlik, uğra işin buçuğu. (**uğra işin**: xeyr işin).

doğru düzgün edişlik, uğra işin buçuğu. (**uğra işin**: xeyr işin).

doğru düzler talandı, doğruuqlar yalandı.

doğru düzler talandı, doğruuqlar yalandı.

doğru düzlər talandı, doğruluqlar yalandı.

doğru düzlər talandı, doğruluqlar yalandı.

doğru əğilər, əğri sınar.

doğru gəlincə, yalan dörd ayağ qaçar. (doğru qapıda, yalan bacada). (yalan qapıda, doğru bacada).

doğru gəlincə, yalan dünyanı utar.

doğru güdə, yalan uzun olar.

doğru gəzən əğrilərə tuş gəlir. əğri olan doğruları yemləyir.

doğru harda yurd salmış, yalan orda ev qurmuş.

doğru işi doğru yolda yaparsan, itgi yoxun qayğırmağa yer qalmaz.

doğru kişi doğru işlə üzülməz, əğri kişi doğru işlə düzəlməz.

doğru kişi doğru işlə üzülməz, əğri kişi doğru işlə düzəlməz.

doğru kişi versə sözü ötürməz, heç bir kölgə artıq boya götürməz.

doğru kişi versə sözü ötürməz, heç bir kölgə artıq boya götürməz.

doğru köşədə qalar, yalan baş alıb gedər.

doğru köşədə qalmış, yalan dünyanı gəzər.

doğru qapı doğru haçar, bəllidir açar.

doğru qapıya gəlsə, yalan bacadan qaçar.

doğru oğru yalan üçün donumuş, gerçək adlı heç bir nərsə yoxumuş.

doğru olsam ox kimi, yabana atarlar bəni, əğri olsam yay gibi, əldə tutarlar məni. (yalan, əğri gücənmədən gücə minər).

doğru olub çalış doğrular tanısın səni, oğru oldun tanışma, oğrular çalar səni. (**tanışma:** adlanma**)**.

doğru olursa qadın, doğul tanır atasın. (**doğru**: düz). (**doğul:** oğul). (ana təkcə biridir ki uşağın dölün hardan aldığın bilir. uşaq atasını, anası ağzı ilə tanıyır. ana uşağa, atasını necə tanıdır isə, uşaqda ol kimi atasına baxır).

doğru seçim doğru amac bitirir.

doğru seçim doğru amac bitirir.

doğru seçim yaşam yolun güllədər, yanlış olsa güllərini küllədər.

doğru soru, sorağın yarısı. (**sorağın**: yanıtın. cəvabın).

Doğru söyleyeni dokuz köyden kovmuşlar: Her doğrunun her yerde söylenmeyeceğini belirtir. Sultanların, yöneticilerin yanında hokkabazları varmış. Padişaha acıbir haber verecekleri zaman, bir takım maskaralıklar yapar, patişahı güldürür, ortamı hazırlar. Padişaha üzüntülü haber verilirmiş. (Bayram Özdemir).

doğru söz qulağ yakmaz. (doğru söz, qulağ oxşamaz). {toxu (düz. doğru söz. gerçək. həqiqət), qulağ bəğənməz}.

doğru söz qulağı yasmaz (yaraşmaz).

doğru sözdə doğru yerdə deyilməyi doğrudur.

doğru sözdə uyat yok. **(uyat**: utanc. man. ayıb).

doğru sözün dəğəri iş başında biçilər.

doğru tapınaca özün, yalan tapmış yiyəsin.

doğru tapınaca özün, yalan tapmış yiyəsin.

doğru tutum kəmaz işdə yanlış yola sapdırır. (**tutum**: movze'). (**kəmaz**: çox az).

doğru tutuş doğru duruş yanlış sonuc bitirməz. (**tutuş**: qəzavət. təsmim). (**duruş**: movze').

doğru tutuş doğru duruş yanlış sonuc bitirməz. (**tutuş**: qəzavət. təsmim). (**duruş**: movze').

doğru uzar, əğri azar.

doğru yalan açılsa, düşman toru pozular. (doğru yalanı açarsan, düşman torun qırarsan).

"doğru yanlış" bizlə doğulmuş, bizlə boğulmuş. ("doğru yanlış" bizlə oluşur, bizlə uçuşur). ("doğru yanlış" bizsiz (düşüncəsiz) anlamsız).

doğru yoğmasa, əğri incəlməz!. (**yuğmasa:** gəlişməsə). (əğrilik, ot alağ kimi, ölməyir, soldurula bilir!).

doğru yola könüllə inan, usunla yürü. (**usunla**: ağılla).

doğru yolçu amacından yayınmaz. (**yayınmaz**: çaşmaz).

doğru yolda duran çin ərlər, güdməz qarşın baş verər. (**çinərlər**: ariflər). (**qarşın**: mukafat).

doğru yoldan əğri amac alınmaz.

doğru yolun əğrisin bilməyən, düzə çatmaz.

doğru yürü onat gəzin, onğ bolsun, əğri yürən qınaqlara tuş bolar. (**onat**: düz. qəvi). (onğ bolsun: ras gətirsin). (**qınaqlara**: qaxınclara. sərzənişlərə). (doğru yeri, düz, qəvi dolan, qut gətirsin, əğri yürən qaxınclara tuş bolar).

doğru, doğur kişiylə, yalan yaşır dünyaca.

doğruçul yalan, lüt yalandan yaman. (**doğruçul:** doğruya oxşar).

doğruçular qara gecdə ulduzla, oğruçular açıq gündə günəş ilə çalışır.

doğrudan, yalan yad edər. (**yad edər**: azdırar).

doğrudur köçübdü gücüm, keçibdi yaşım, düşəndə yada sən genə keçən gəncəm. (**keçən gəncəm**: gördüyün cavanam).

"doğrudur, doğru", yalançının sözüdür, "oğrudur, oğru", yalançının özüdür.

doğrular kor oldular, oğrular armadılar. (**armadılar**: yorulmadılar. utanmadılar).

doğruları tumarla, yanlışların unutma.

doğruları tumarla, yanlışların unutma.

doğruların çevrəsində yalançıya yer olmaz.

doğruların doğduqca, yanlışların boğular.

doğruların doğduqca, yanlışların boğular.

doğruluğa çalışan, oğruluqdan qaçınmış.

doğruluğa çalışan, oğruluqdan qaçınmış.

doğruluğu tapa bilsən içində.

doğruluğu unutma, oğruluqlar qapıda.

doğruluğu unutma, oğruluqlar qapıda.

doğruluq dos qalasıdır.

doğruluq eşq tanımaz, eşq doğruluq.

doğruluq eşq tanımaz, eşq doğruluq.

doğruluq ən qıyın tapılmağa, ən qolay itirməyə. (**doğruluq**: yalançısızlıq). (**qıyın**: çətin).

doğrunu ötür arada itər, yalanı ötür yiyəsi oğurlar. (doğru qorunmalıdır).

doğrunu vuran çox olar, doğrunu tutan az.

doğrunu yalağ, yalanın dayaq yanında. (doğrunu yaltaq pozar, yalanın ilərişi güc, çomaqladı).

doğrunu, yalan yad edər. (**yad edər**: azdırar).

doğrunun başın vursan, oğru qalar.

doğrunun başın vursan, 'oğru' qalar.

doğrunun beli sınmış, oğru ona inanmamış.

doğrunun əğrisin görmək, əğrinin ipin hörmək. (**nərsənin ipin hörmək**: nərsənin ipin eşmək: nərsəni tələyə salmaq).

doğrusu artıq sana verməli yox məndə, bu mən sevsən, bu yol gedsən.

doğruya dayaq tapılsa, yalan oğru ayaq tutub duranmaz. (**oğru**: əğri).

doğruya yol dar, qıs.

doğruyu danan! oğruyu qapan, yalanı danan! doğruya yaman. (**qapan**: qoruyan). (**yaman**: dönük. pis. iblis. düşman).

doğrünu doğur, yalanı boğur.

doğulan yarın, keçəni boğur!.

doğulan yerin əri ol, doyulan yerin iti yox.

doğulmuşuq qəfəsdə, uçuş bilməz quşlarız.

doğum ölüm bir gün, yaşam minlər.

doğursa bir uşaq ana, boşludur ana, anadil ona.

doğursa güc başdan, sayqı könüldə doğur.

doğursa nisgilim səndə, gedən sənidin , suç kesir, yoxdurur məndə.

doğuzdan dayı, öküzdən əmi olmaz.

doğuzluqdan, doğuz qaçmaz. (domuzluqdan, domuz qaçmaz).

doğuzu bataqda bas. (**bataqda: batlaqda**).

doğuzu maşa, gələni aşa öğrətmə. (**öğrətmə**: dadandırma).

doğuzun acı, darıdan çıxmaz, ayının acı oynamaz.

doxsana yaş aşanda, qalmaz sevda başında.

doxsana yaş aşanda, qalmaz sevda başında.

dokuz qatlı donğdan, bir toxlunun derisi.

doqquz at bir qazığa bağlanmaz.

doqquz at, bir qazığa bağlanmaz.

doqquz don geyən doqquzuda qırmızı, bir donun ağdır sənin, biridə qara.

doqquzun aşan, onada çatar.

doqquzun yıxıb, bir ocaq tikib.

dolandırmadan başıvı evrən, sür evrəni başınla dolan.

dolanmaqlar qocaltmaz, dolanmamaq qocatar!.

dolanmaqlar qocaltmaz, dolanmamaq qocatar!.

dolar könül sevincə, doymaq ona olumsuz.

dolar könül sevincə, doymaq ona olumsuz.

dolası nisgilivə yoxdu mənə ağ günlər.

dolası nisgilivə yoxdu mənə ağ günlər.

dolçası yox, ip sallamaz, su çıxmaz, bilim almaz, söz öğrəşməz us almaz.

(**us**: ağıl).

doldum boşaldım gahdan, hammı köçdü yanımdan, doymaq yaşam dadından, boş sözlərdən sayılmış, çox azlığın bu boşluğa inanmış.

dolqanmadan dadlanmaz. (qora olmadan dadlı üzüm olmaz) **{dolqalanmaq. dalqalanmaq.** qoralanmaq. salmanın (mövün, üzüm ağacının) qoraya dolması}.

dolma yerdə yapı salınmaz. (doldurulmuş. içini doldurmaqla, içinə tökməklə yapılan yer).

dolmalar: -

yarpaqları bənzərdi dəriyə,

birini versəydin qoca qəriyə,

çeyniyərdi, yüz il başa dolmalar.

doldurdu gözümü yaşa dolmalar,

qazan qaynamadı, dolma pişməədi,

dolma qonaqlığı, bizə düşməədi,

hey utqunduq, boğazımdan keçməədi,

doldurdu gözümü yaşa dolmalar,

bənzərdi qayıya daşa dolmalar. nəxcüvan.

dolmaz qaba su qoyma (**qoyma**: tökmə).

dolmaz quyu dolça ilə su töksən, bitməz dəniz dolça ilə su götsən.

(**götsən:** götürsən**)**.

dolmaz quyu dolça ilə su töksən, bitməz dəniz dolça ilə su götsən.

(**götsən: götürsən)**.

dolmuş çiçəyə gözündə sevgi.

dolmuş tüfək (yaraq) birin qorxudar, dolmamış tüfək ikisin. (dolmuş yaraq birin qorxudar, dolmamış yaraq ikisin).

dolmuş tüfək birin qorxudar, dolmamış tüfək ikisin.

dolsa könül nisgilə, sevən kişi öləcək, kin ödünə dönəcək.

dolu başaq dik durmaz.

dolu başaq əğilər, başaq boşsa dik durar.

dolu ələ baxan çox, yoxsul ələ baxan yox.

dolu güdül fısqo ilə çınlamaz, bilən olsa bilməyəni danlamaz. (**güdül**: güyüm. afdafa). (**fısqo**: dırnaqla kiçik zərbə) (**çınlamaz**: cingildəməz. səs çıxarmaz).

dolu güdül fısqo ilə çınlamaz, bilən olsa bilməyəni danlamaz. (**güdül**: güyüm. afdafa). (**fısqo**: dırnaqla kiçik zərbə) (**çınlamaz**: cingildəməz. səs çıxarmaz).

dolu içli bir kişi, qoymaz yarımçıq işi.

dolu içli bir kişi, qoymaz yarımçıq işi.

dolu küpün səsi çıxmaz.

dolu qabda su durqun durar, qabda samballı.

dolu qazan donğuldar, boşun çırpsan danğıldar. (**donğ:** dolu bir nərsiyə toxunduğunda, çırpılanda çıxan səs).

doludan qurtulan yağmıra düşür, yağmurdan qurtulan damcıya düşür.

dolum anıt, qutun bul, dolum unut, bulun bul.

- yaraqlı ol, yarıq tap, yaraqsız ol, qaruq tap.

dolumsuz qızı bəy yoğşamaz.(**yoğşamaz**: bəğənməz, oxşamaz). {**dolumsuz**. sapsız (nərsiyə saplanmış, yədənmiş, qoşulmuş nərsə). cahazsız. cihazsız}. (cahazsız qızı kürəkən bəğənməz, oxşamaz).

dolun ay barmaq ilə imlənməz. (aydın nərsədən danışanda deyilir).

dolun ay, barmaqla imlənməz (görsətilməz).

- ay dolunu barmaqla imlənməz.

dolun ay, barmaqla imlənməz (göstərilməz). (ay dolunu barmaqla imlənməz).

dolunun **"ağzı"** ürəyindədir, dəlinin **"ürəyi"** ağzında.

dolur badələr o boyda ki dolmalıdır, içirsən o boyda ki dolmalısan.

dolur badələr o boyda ki dolmalıdır, içirsən o boyda ki dolmalısan.

doluya qoyam almır, boşuna qoyam, dolmur. (düşünülən yolların heç biri çözüm, çıxış yolu sağlamamaq, düzəltəməmək).

doluya qoydum, almadı, boşa qoydum, doymadı.

doluya qoyursan alamır, boş qoyursan, dolamır. (**almamaq**. götürəməmək. çəkəməmək). (**dolamamaq**: dola bilməmək. doya bilməmək. doyamamaq. qanığamamaq.

domoqrasını (demoqrasini) anlamaq üçün, qozla badamı seçə bilmək gərək.

domuz dərisi post olmaz, əsgi yağı dost olmaz.

Domuzdan bir kıl koparmak kardır: Cimri, nekes insanlar vermeyi pek sevmedikleri için onlardan ne alabilirsen kardır (Bayram Özdemir).

Domuzdan bir kıl koparmak kardır: Cimri, nekes insanlar vermeyi pek sevmedikleri için onlardan ne alabilirsen kardır. (Bayram Özdemir).

domuzluqdan, domuz qaçmaz. (doğuzluqdan, doğuz qaçmaz).

don biçərlər enli boylu, dos tutarlar adlı sanlı.

don cana yakmaz. (**cana**: içə. tözə. özə). (**yakmaz**: yapışmaz. yaxışmaz). (iç boya götürməz).

don islanmış, balıq yox.

dona yox, işə bax.

donatmadan don olmaz, soyuq düşsə don çalar. (nədənləri aransın, çıxar yollar taransın).

donduraçı əli buzsada, ürəyi sıcaq.

donduraçıda əl buz olsada, ürək sıcaq.

donduraçının carlığı -bir qadınla soyuğda olsan, dondurma kimi ol, ürəyinə hop. (**carlığı**: anonsu).

donmasada, titrir.

donmuşa odun yaxdırma, acmışa qazan astırma.

donu daşı suv pozar, ər oğlanı söz pozar.

donuğun gör, durumun sor. (**donuğun**: durumun. zahirin).

donuq sözlər axıb dodağda donar, yanıq sözlər gözyaşilə uçar.

donun geni oprulmaz, gəngəş bilik, ardırmaz. (**oprulmaz**: telləri çəkilib, gücə düşüb tez aşınmaz). (**gəngəş**: danışıq). (**ardırmaz:** dala aparmaz).

donun geni yırtılmaz, gəngəşli el yartılmaz. (ellər ara danışıq, qonuşuq olsa parçalanmaz).

dos acısın balla ut, yağu süycün, daşla tut. (**daşğa tut**: **daşla tut:** daşla).

dos alçatmaz, yağu ucatmaz. (**yağu**: düşman).

dos başa, düşman ayağa baxar. (baş ucalığın dosd istər, ayağ qaymasın düşman).

dos çörəyin umanlar, başda bəslər gümanlar.

dos daşı baş yarmaz.

dos doğru dos, gərəkli gün dos qalar, iç oğru dos, gərəkli gün pox olar. (**pox olar**: yox olar).

dos dosda baxıb yolun aşar, uzaq gedər yolun çaşar. (dossuz yol sürümü güc olur, bırak (ama. vəliki) dosda qapılırsansa istəyindən uzaqlaşırsın). (yola yoldaş iyidir, bu koşullaki ona uyuğub, qapılmıyasan).

dos dosda baxıb yolun aşar, uzaq gedər yolun çaşar. (dossuz yol sürümü güc olur, bırak (ama. vəliki) dosda qapılırsansa istəyindən uzaqlaşırsın). (yola yoldaş iyidir, bu koşullaki ona uyuğub, qapılmıyasan).

dos dosda deyir, oda kəndə.

dos dosda tən gərək, tən gəlmədi, gen gərək. (**dos dosda tən gərək**: dos dosda yana gərək, yolağ, fıda, qurban gərək).

dos dosda tən gərək, tən olmasa gen gərək (**tən**: dəng. bab).

dos dosda ulaşsın, qan qana bulaşmasın.

dos dosdun uğruna sevinər, oğruna (ağrına) döğünər. (**oğruna**: qəza qədərinə. narahatçılığına). (**ağrına**: incikliyinə. ağısına).

dos dosdun, yəhərlənmiş atıdır.

dos dosduna börk qoyar, özgə baxar mat qalar.

dos dosduna börk qoyar, özgə baxar mat qalar.

dos dosduna börk qoyar, özgə baxar mat qalar. (dos dosduna börk taxar, özgə baxıb mat qalar.).

dos dosduna börk taxar, özgə baxıb mat qalar.

dos dosduna börk taxar, özgə baxıb mat qalar.

dos dosdunun yoxlamağın unutsa, böylə bir söz baş tutar. -sən hardasan, bu gün varsan yarın yoxsan.

dos dosla tanınmaz, igid itiylə.

dos əkiz, düşman səkiz.

dos gözə, yağun (düşman) yerə qaray.

dos xarlamaz, yağu yarqamaz. (**yağu**: düşman).

dos ikiz, düşman səkiz.

dos kimliyi qara gündə bəlqürür.

dos korğamaz, yağu yarqamaz. (**yağu**: düşman).

dos küydürü aytaru, yov güldürü aytaru. (**yov**: yağu) (**aytaru**: aytar. deyər). (dost yaxdırar söylər, düşman isə, güldürər söylər).

dos qazan, düşmanı nənəmdə doğar.

dos qazan, düşməni nənəmdə doğar.

dos od kimidir, çox yaxınsa yaxar. (**yaxınsa**: yaxın olsa).

dos özünün ağası, dostunun qulluğunda olur.

dos söyləyirsə acı, uzaq durmaz tapaçı, yov söyləyirsə sücü, uzaq durmaz toraçı. (**tapaçı**: dərman. ilac. tədbir). (toraçı: duzağı. gizli qurulan toru, tələsi).

dos sözün eşitməyən dos qulağa su keçsin.

dos tapbaq qolay deyil, çox qıy olur saxlamağı. (**qıy**: **qıyın**: çətin).

dos tutdun, yarımadı, döğünmədən atqınan. (**döğünmədən:** peşman olmadan) (**yarımadı**: yaxcı çıxmadı).

dos tutular sınabla, yov tutular qılabla. (**sınabla:** təcrübəylə. yoxlayışla). **(yov:** düşman**).** (**qılabla: qılavla**: kələklə).

dos var aşa, dos var başa. (aşados var, başados var). (**başa**: ağla).

dos verən gülüm, tikansız olur!.

dos yaxşısı uzaqda.

dos yamanı pula, ev yamanı bala. (**ev**: qadın).

dos yolunda başıvı ortaya qoy yindək yeri, yorğa (yeğrək) at min, quş kimi qaç yağu ilə var qovuş.

dos. hamı çıxıb getdiyində, çıxıb gələndir. hamı səni atanda, dosdun yalnız qalandır!.

dosd ağladar, öğrədər, düşman güldürər, öldürər.

dosd ağladıb üzə deyər, yağu arxan sökər, üzə gülər.

dosd arama çiləsiz, el söyləyir biləsiz. (**çiləsiz**: dərdsiz).

dosd arama çiləsiz, el söyləyir biləsiz. (**çiləsiz**: dərdsiz).

dosd edinməyə bax, düşmanını anan belə doğurur. (**edinməyə:** qazanmağa). (**bax:** özən göstər).

dosd qazansan tut, düşman qazansan güd.

dosd qazansan tut, düşman qazansan güd.

dosd odunu yaşda olur tüstülü, tanozluda üstülü. (**tanozluda üstülü**: minnətlidə üstəlik). (tanışla alver iyi gedməz).

dosd odunun tüstüsü, korluq verməz gözüvə. (sıxıntı kimdən gəldiyinə salmıq kəsəlir). (**salmıq kəsəlir**: dartılır. önəm verilir).

dosd üçün ölməli, düşman üçün durmalı.

dosd üçün ölməli, düşman üçün durmalı.

dosda alqış, çora qarqış. (**çora**: düşmana).

dosda alqış, çora qarqış. (**çora: düşmana**).

dosda aytdım sözümü, düşman bildi sirrimi, söz aytmadım dosduma, dərdlər yedi içimi. (**aytdım**: dedim).

dosda bağlanma, dossuzda qalma. (dosda bağlan, qapılma, dossuzda qalma).

dosda eşmədən ver bir telin, əğrilirsə qır qutar. (**eşmədən**: qatmadan. ipdən). (ipin ucun özgəyə vermə).

dosda güvən, poxuna bələn.

dosda qıymamağı, yağuya qıymağı öğrəş!. (**qıymamağı**: acımağı). (**yağuya**: düşmana) (**qıymağı**: acımamağı).

dosda uyan çöldə qaldı, oynaşa guman evsiz. (**guman**: gumanı gedən).

dosdu iş başında gör.

dosdu kəndi dışında arayan, dossuz qalar.

dosdu yoxun, düşmanı yoğun.

dosdum dönə çıxdı, itim dona qaldı. (**dönə**: bəfsız) (**dona qalmaq**: şaşmaq. mat qalmaq).

dosdum olan güzgü kimi aytar manım üzümə, yağum olsa gülgü ilə manım örtər gözümdən. (**manım**: aybım).

dosdum sevinsə, düşmanın gözü çıxar.

dosdun axsağına göz yuman, qərib qalıb, göz yummaz. (**axsağ**: çaş. çaşa. səhv. iştibah).

dosdun aran dosda varmış. (yaşamda hamı içindəkindən çəkir).

dosdun bal kimi şirinsə, o saat yalama.

dosdun çini qın gündə.

dosdun dosd olsun, özündən üst olsun.

dosdun dosluğu gün (**qın**: korluq) düşəndə bəllənir. (**gün**: qın. korluq).

dosdun dosluğu gün düşəndə bəllənir. {dosdun dosluğu qın düşəndə bəllənir. (**qın**: korluq)}.

dosdun dosluqu günü (qın) düşsə bəllənir. (dosdun dosluqu gün (qın) düşəndə bəllənir).

dosdun düzü içində qalır, dosdoğrusu səninlə qalır, yoldaş tanış pay gözlər, umut güvən sinində yatır. (**sinində**: içində. ruhunda.).

dosdun düzü içində qalır, dosdoğrusu səninlə qalır, yoldaş tanış pay gözlər, umut güvən sinində yatır. (**sinində**: içində. ruhunda.).

dosdun əsgisi, arvadın tazası.

dosdun görsən kişinin, sonu bəllər işinin. (**görsən**: tanısan).

dosdun gözündə yox, könlündə ol.

dosdun içi düz gərək, qoşluq tayı tuş gərək. (**qoşluq**: cütlük).

dosdun ikiz, düşman sekiz.

dosdun köhnəsi qalar, geyimin təzəsi.

dosdun könlü xoş olsun, düşman gözü kor olsun.

dosdun könlü xoş olsun, düşman gözü kor olsun.

dosdun olursa qarğa, izitdirsə koralqa. {götürdüyü yer daldurum (qozabad ıssız, ucqar yer). (na koca abad)}.

dosdun pisdir, daşın at, qonşun pisdir, daşın, at.

dosdun pullu olsun, yoxsullar yad olsun.

dosdun yaxşısı, başa salır, yamanı, yoldan alır.

dosdun yaman? bəkləmə uğur, yoğur ha yoğur. (**uğur**: xeyir) (**yoğur!**: yasa. yağla).

dosdun yoxsa yaşamda, könül bağın açılmaz, söylə dadlı dadlı duy, dil çiçəkdir suvarmasan gövərməz.

dosdundusa söyməz, düşmanındısa sevməz.

dosdunisə ver gedsin, dos değilsə at gedsin.

dosdunla aşır aşı, daşı daşı. (dosla kölgəli gəzmə).

dosdunla dost olduğuna öğün (sevin), düşmanınla dost olandan çəkin (sağın).

dosdunla üzləş, yağunla güləş. (**yağunla**: düşmanınla).

dosdunu əkmə, işdən qalmasın, yağuna güləmə, sirrin almasın. (**əkmə**: boşuna saxlama, gözətlətmə, mə'təl eləmə). (**yağuna güləmə**: düşmanıva üz vermə).

dosduva at vermə, verdinsə **"yavaş ged"** demə (at verməyin nə, yavaş ged deməyin nə?).

dosduva dos, düşmanıva yaman ol.

dosduvu bəklətmə işdən qalur, düşmənlə uğraşma, sirrün alur.

dosduvu borca, qonşuvu aşa öğrətmə.

dosduvu övürkən, yerəcək yer bıraq. (**yerəcək**: qınacaq).

dosduvu övürkən, yerəcək yer bıraq. (**yerəcək**: qınacaq).

dosduvu vara, qonşuvu paya öğrətmə. (arvadı vara, qonşunu paya öğrətmə).

(çevrəvi vara, qonşuvu paya öğrətmə).

dosduvu vara, qonşuvu paya öğrətmə. (arvadı vara, qonşunu paya öğrətmə).

(çevrəvi vara, qonşuvu paya öğrətmə).

dosduvu yük altda olanda sına.

dosla, dağı, tez aşmaq olar.

doslar dursada yanyana, atma gözdən düşmanı yana.

doslar olar üç qollu, dilək, çörək, can yollu. diləkçini xoş söz ilə danışdır, çörəkçini bir çörəklə barışdır, can yolluya varınca, saxla onu özünlə, qoru canın gözünlə. (**qollu**: çeşitli).

doslarıvı artırma, doslarıvı arıtla.

doslğun dilin bil, düşmanın dilin öğrən.

dosluğ yağ ilə, düşmanlıq qan ilə başlar.

dosluğu aşdırsa qoy, dosluğu başdırsa tut.

dosluğu uca tut. –sözün dosd ağzına dadlısı, düşmanlara ağrısı gəlsin.

dosluğu var bir itin, cana dərman, bir dosduvun itligin, yağu alman. (**alman**: almaz)..

dosluq bilən, ara güdəndə gördüm, dosda qurban ara pozandan oldum. (**ara**: fürsət).(**ara güdəndə** fürsəttələb).

dosluq dağca, sanaq qılca. (**sanaq**: hesab).

dosluq dağca, sanaq qılca. (**sanaq**: hesab).

dosluq, arxalıq güvənlə qalır, gülün yolsan, ot alağ qalır.

dosluqlarda küsmə barış olası, sevgilərdə nə küsməyin yeri var, nə barşığın adı.

dosluqlarda küsmə barış olası, sevgilərdə nə küsməyin yeri var, nə barşığın adı.

dosluqları yaman işlər yavuz duyqu pozarmıış.

dosman başan baxar, düşman ayağan. (dos baş ucalığın güdər, düşman ayağın altın qazmağı).

dosman üzündə aydar, düşman izində. (**dosman:** dosd olan) (**aydar**: söylər) (**izində**: dalında. arxanda).

dossuz başım, duzsuz aşım. (əli , könlü açıq çörəyin tək yeyənməz).

dossuz başım, duzsuz aşım. (əli, könlü açıq çörəyin tək yeyənməz).

dossuz başım, duzsuz aşım. (yaşam belə gətirir ki, bir əl suyun tökür, bir əl duzun!. tək qalmaq, kişiyə uymaz).

Dost bin ise azdır, düşman bir ise çoktur. Dostun ne kadar çoksa o kadar iyidir. düşmanın ne kadar az olursa o kadar iyi olur. (Bayram Özdemir).

dost çoxalsa, düşman ayağ altında (qalır).

dost çoxalsa, düşman ayağ altında (qalır).

dost çoxalsa, düşman ayağ altında.

dost ekiz, düşman sekiz (səkkiz).

dost əkiz, düşman səkiz (səkkiz).

Dost kara günde belli olur. İnsanların iyi ve kötü günleri olur. İyi günde herkes dosttur. Gerçek dostlar başımıza bir iş geldiğinde yanımızda olan insanlardır. (Bayram Özdemir).

dost olsa "balteynən ərə", ağac kəsilib, düşər yerə.

dost sözün deyər, ağladar, düşman gülər, söz deyər.

dost sözünə tut qulaq.

dost, acı söylər. (dos acı gərçəyi üzə deyər).

dosta tapdan, düşmana gülünc olma. (dosta: dosluğa, tapdan: əzil, alçal).

dosta tapdan, düşmana gülünc olma. (**dosta: dosluğa\ tapdan: əzil, alçal**).

dostcanlı olan, dostuna qıymaz. (**dostcanlı**: dossevər).

dostla dostlaş, düşmana yanaş.

dostsuz başım, duzsuz aşım.

dostun əyləmə yoldan qalmasın, yovun saklama sırrın bilməsin. (**yovun**: düşmanın). (**əyləmə: əkləmə:** yubatma. məttəl edmə).

dostun əyləmə yoldan qalmasın, yovun saklama sırrın bilməsin. (**yovun**: düşmanın). (**əyləmə: əkləmə:** yubatma. məttəl edmə).

dostun gözündə yox, könlündə ol.

dostun ilə baltabuz, yağun ilə buzla duz. (**baltabuz**: sınmaz. qırılmaz) (**buzla duz**: barışmaz durum).

dostun yoğun, üstələr yovun. (**yoğun**: güclü). (**yovun: yağun**. düşmanun). (çevrən güclü olursa, düşmanıvın boynun, qıl kimi üzər).

dostunla dost olduğuna sevin (öyün), düşmanınla dost olandan sağın (çəkin).

dovşan dağdan küsmüş, dağın səsi çıxmamış.

dovşan iki, bir oxilə vurulmaz.

dovşan nə qədər arıq olsada, dərisindən çarığ çıxar.

dovşan yolu daşqa qırar. (hər yolun yolçusu var).

dovşan, kölgəsindən qorxar.

dovşanı qamış öldürər, əri namus.

dovşanın boyunu gördə, ətindən vaz geç, qorxanın özün gördə, faydasından keç.

dovşanın iti qaçdığın, çox yatdığından gör.

dovşanın iti qaçdığın, iyi yatdığından gör.

dovşanın tayada balaladığı, tazının liskiliyindəndi (təmbəlliyindəndi).

dovşanın yatmasın gördün, qaçmasındanda de.

dovşanın yatmasından yox, qaçmasından de. (dovşanın yatmasın gördün, qaçmasından de).

doyanmasan aşına, tabaq dəyər başına, eyi kötü gün keçər, dolub gələr yaşına.

doyar qarın göz doymaz, bitər yaşam, söz bitməz.

doyqun dərin bir yaşama gərəyim, uzun ömür dolu çilə neyləgim. (**çilə**: ağrı).

doymaq üçün çörək gərək, duz gərək, barçından ön, türkce gərək, düz gərək. (**barçından**: hamısından ön).

doysa qulaqdan kişi yaş uzun. (kişi qulaqdan doyursa uzun yaşar). (**doyursa**: bəslənirsə). (qulağ duysa baş işlər, çalışsa baş, diş dişlər).

doyub yuxlağan yaşı qanmay ötər. (**yaşı**: ömrü). (**qanmay:** qanmaz düşünmədən).

doyurmadı aşına, tabaq dəğsin başına.

dögə dögə dəmirçi, yaza yaza yazıçı (kişi dögə dögə). (olar).

dögül kişi bu: sözünü yel kimi tutan, özünü çox ucuz satan.

döğdün qapını, gözlə, elçi geddin sözlə. (danış).

döğə döğə dəmirçi, aça aça əğimçi. (**əğimçi**: yun əğidən. hallac).

döğə döğə dəmirçi, aça aça əğimçi. (**əğimçi**: yun əğidən. hallac).

döğə döğə dəmirçi, it oğlu it gəmikçi.

döğə döğə dəmirçi, yapa yapa çörəkçi olar.

döğən daşa , döğməz başa. (işləyən ökünməz. (ökünməz: püşman olmaz).

döğən daşa, döğməz başa. (işləyən ökünməz. (ökünməz: püşman olmaz).

döğmə dəmirsə soyuq. (soyuq dəmiri döğmə).

döğmə! dəmirsə soyuq. (dəmir soyuqsa döğmə!).

döğmədən, açılmır qapı, dadlı sevən, deməsin acı.

döğülən qapı, içərdən açılır.

döğülən varsa, döğən var, yıxılan varsa!, yıxan var!. (nədənsiz heç nə olmaz, su gəlib nola dolmaz).

döğülməzi usda bacarmaz, ölünməzi tanrı yaratmaz. (**döğülməzi**: sınılmazı. sınmayanı. pozulmayanı.). (**bacarmaz**: yasanmaz).

döğüş yolu min olsada, qaçış yolu çox deyil.

döğüşə girən qılışdan, gəpişə girən söyləşdən qorxmaz.

döncək yerivə daş atma. (varcaq yerivə daş atma).

döndü oxu yolundan, geddi qutu batayatar. (**qutu**: baxtı). (işləri tərsindi, indi baxdı tam yatar). (**batayatmaq**: batıb gedmək).

döndüm gül bükətinə, yasdada sunuldum toydada.

dönə dönə qılınmaq, düşüncənin təməli.**(dönə dönə:**qayta qayta. təkər təkər. təkrar təkrar).

dönə dönə qılınmaq, düşüncənin təməli.**(dönə dönə:**qayta qayta. təkər təkər. təkrar təkrar).

dönəm (zaman) geçmişə baxmaz.

dönəm (zaman) qılıcı, doğruldar qıçı.

dönəm dözər əğriyə düzə, sayılır cücə qalırsa güzə. (**dönəm**: zaman).

dönəm düzər əğri düzü, gözdü bəzər görkü üzü (**dönəm**: zaman).

dönəm geçmişə baxmaz. **(dönəm**: zaman).

dönəm qılıcı, doğruldar qıçı. **(dönəm**: zaman).

dönəmiz döndü dönükdən dönüyə, iyilər qaldı geri pis kötülər öndə gedir.

(**dönəmiz** : öğnümüz. zamanamız).

dönəmlə (zamanla) dəğişərmiş hər nə, kimi baxır ilərinə, kimsi gerinə.

dönəmlə dəğişərmiş hər nə, kimi baxır iləri, kimisi gerinə. **(dönəm**: zaman).

dönən dünya dönməsin, əsən yellər əsməsin, sevən könül sevməsin,

öğrət mənə unutmağın dadını, sil könüldən sevgilərin adını.

dönmə dünə, geridə qaldı, irə yarına, gedən aldı.

dönmə geri, ilgəri yeri.

dönmə geri, ilgəri yeri.

dönmək man olur verdiyi sözdən, döndünsə qırağ ol göz önündən.

dönməlisin dön, durmalısın dur, gedməlisin ged, almalısın al, verməlisin

ver. kimsənin dönməsin, verməsin güdmə. umut səndədir, sənədir.

kəndivə güvən.

dönük isə yoldaşın, yağu yatmış qapında, doğruq isə yoldaşın, yağu

gəzməz qatında.. (**qatında**: yanında).

dönük yaratıq. -ellərə satqın, elinə yadqın, qonşuya bayqın, özünkün

danır, yadınkın tanır. (**ellərə**: yadlara).

dönüklər ölümdən qaçarkən dönüklüyü seçərlər.

dönüklər ölümdən qaçarkən dönüklüyü seçərlər.

dönüklük, doluq güvən olan yerdə doğar. (**dönüklük**: xəyanət). (**doluq**: kamil).

dönüklük, doluq güvən olan yerdə doğar. (**dönüklük**: xəyanət). (**doluq**: kamil).

dönür dərman, dartır dəni, keçənlərin izi hanı, silmiş olub keçənləri, yumuş sular tökən qanı. (**dərman: dəgirman**).

dönüşün gözləyirəm gedmiş o yarım gələcək, gözləməkdən nə çıxar sevdalı könlümdü deyir.

dörd duvarda qalarsan, gün görmədən batarsan.

dörd gözə baxan, yırtıq göz. (utsuz. hayasız). {bir sevgili, çağında. (çağında: novbətiylə). (iki gözə dörd gözə gərəkməz)}.

dörd yaşada beş yaşa, barçıya gəlcək başa. (**barçıya**: hamı üçün)}. (yalan dünya qalan dünya). (açıq qıl tut göz qulağ, yüz qonan var yüz köçən, gedən gəlməz, gələn qalmaz).

dörd yollarda bir atdımlıq almaşış, yetər evrən çevrilsin. (**almaşış**: dəğişmə). (**çevrilsin**: dəğişsin. alt üst edilsin).

Dört atanın dördü de hak. Karı koca anne ve babalarına saygı gösterdikleri gibi, kayınbaba ve kaynanasına da saygı göstermeleri gerekir. (Bayram Özdemir).

dörtlü qaçan atları, quş uçmazın, quş qonmazın dağları, tom tom gələn yemişləri, bağları, tutmaz oldu qaçan dünya, ay səni!. (**dörtlü**: dört nala).

döşəgin eninə baxıb yaslan, yorqanın boyğuna baxıb uzğan. **(boyğuna: boyuna)**. **(**döşəgin görən yaslan, yorqanın görən uzğan).

döşəgin görən yaslan, yorqanın görən uzğan. {döşəgin eninə baxıb yaslan, yorqanın boyğuna baxıb uzğan. **(boyğuna: boyuna)}**.

döşək tapar öz tutarın üstündəki yatanla, topraq tapar öz tutarın üstündəki duranla.

döşək tapar öz tutarın üstündəki yatanla, topraq tapar öz tutarın üstündəki duranla.

dövələk gəzdiyi yurdu kəndinki sanar. **(dövələk:** hərcayi).

dövlətlinin xoruzuda yumutlar. (dövlətlinin xoruzu banlarda yumurtarda!).

dövük qab su saxlamaz. (dövük qabda su durmaz).

dövük qabda su durmaz. (dövük qab su saxlamaz).

dövülən uşaq uyatsız, övülən uşaq soyatsız. (**uyatsız**: vicdansız) (**soyatsız**: nəcabətsiz. qurra).

döyülən it olur, öldürülən qurd.

döyülməklə ağıllı olsaydı, birinci ağıllı öküz olardı.

döyülürsə qapılar, işi işləyən tapılar!.

döyüşdə güdülməz "vurum? vurusan?", vuran yıxar, vurulan yıxılar.

dözə ilsən qoradan dadlı bitər.

dözəgən dərviş, diləgə ərmiş.

dözəqən istəqə yetədi.

dözən, batdı, çalan qapdı. (dözmək ölümə soxar, çalıb işləmək düz yola qoyar).

dözən, döl yığar. (**döl**: tuxum. fayda).

dözən, istəgin tapmasa, topraq onu tapar.

dözənə ömür çordaş, ölüm yoldaş. (**çortaş**: **kortaş**: ağşım. zəqqum).

dözmək ilə bal danmamış qoradan, acınmasa acı qora dad tapmaz. (**acınmasa:** təxmir olmazsa).

dözmək uğur gətirməz, çalşmaqla doğar sənə uğurlar.

dözmək uğur gətirməz, çalşmaqla doğar sənə uğurlar.

dözməsər baş yoluğar tez qadağa. (**dözməsər: dözməsər**. dözümsüz). (**qadağa**: bəliya).

dözməsər baş yoluğar tez qadağa. (**dözməsər: dözməsər**. dözümsüz). (**qadağa**: bəliya).

dözməyilə açılmaz, gecə keçib dan atmaz, balta götür çapgilən. , tünün bağrın yargilən.

dözməyini bilməyən, arman qalmış gəbərmiş. (**dözməyini bilməyən**: dözməyini çəkləməyən. dözməyinə hədd qoymayan). (**arman**: nisgil. arzısına çatmamış).

dözüb duran, ölür bir gün, dözərək yürən, yetir bir gün.

dözüm acı ot durur, canı yaxar, canı yoğar. (**yoğar**: dincəldər. derman eder).

dözüm ilə bağlı qapı açılmaz, çəkiş çalış olmasa.

dözüm ilə doğulmuşdur umutlar, yenilmişdir amaclar.

dözüm qılan, arza yetmədi. (**arza**: arman. arzu. aranan nərsə).

dözüm sonu batalqa, itgi qazanc döğümlə. (dözmək iş arasında bir evrə, çıpış çalış olmasa, üstünlüyə umut yok). (**batalqa**: batlağqa). (**evrə**: mərhələ).

dözüm varsa iş bitər, dözüm yoxsa iş itər. (**itər**: batar).

dözüm yolu, umut döşəli ölüm yolu.

dözümçünün sandığçası boş qalar.

dözümdən yalançılı nərsə görmədim. dözənin, gözləyənin gözün ANCAQ, topraq doyura bilər.

dözümlə ölüm əsgi yoldaşlar, dözürsə biri ölüm gələcək.

dözümlüdə san çalışmaz, oy alışmaz, baş yerində soyuq kəssək, dəmir daşşaq bitərmiş.

dözümüm dəmir, min yol öldürüblər yenə ölməyib.

dözümüm dəmirdəndi, min yol öldürüblər yenə ölməyib.

dözümün ağacı yox, gülü var.

dözümün sonu ölümdür.

dözün birlə ərişgil, ortun birlə duruşma. (**ortun**: od). (odla oynamaqdansa, dözmək yeğdir).

dözüş bəkləş yol deyil, ömür keçər yaş bitər. (yaluğ dözümlə çözər, evrən dözümə dözər). (**yaluğ**: insan). (**çözər**: başqa deyişdə **çezər**, açılar). (yaluğ dözümə doydu, evrən dözümə doymaz. (dözümün sonu ölümdür. keç işə!).

dözüş gürəş birləşə, olmasını var edər. (**olmasını**: namümkünü).

dözüş ilə çalşılar, ulu dağlar aşılar, kit qapılar açılar. (**kit**: bağlı).

droğrunun yavuzu (yamanı) söz oğurlayan.

duquların yularla, oyğuların toparla, gecə keçər gün atar, doğan günlə başarlar.

duquların yularla, oyğuların toparla, gecə keçər gün atar, doğan günlə başarlar.

dul arvad yuxuda, ikinci ərin görər.

dul gözilə əş seçmə.

dul gözüylə arvad alma, yaya gözüylə at.

dul varki dəyər min qıza.

duldu keçən, gələn gəlin. (duldu keçən, gəlin gələn). (keçən dul, gələn gəlin).

duman almış dağ başın, soraq alma kaç yaşın, könül sevincə dolsa, banqu yaşam göy yaşın. (**soraq alma**: soruşma). (sevincli könül əbədi yaşamın sırrıdır).

duman bürür, bilməyən çürür, bacaran türür. (**türür**: törür. yaradır).

dumanda, süpürgəlik, sayılmaz (seçilməz).

dumanın dağılmağı, qurdun istəyi değil.

dumanlı dağlar, yağışsız qalmaz.

dur yeni bir gün, hava köklə. (ölüsü ölənə, neçə gün keçmişində deyilən söz).

dura ölmək yeğ, yata ölməkdən. (**yeğ**: yaxcı. burda yaxşıdır)). (çalışıb, büdrürüb, yıxılıb ölmək, işləməyib, qartalıb ölməkdən çox çox onğun durur). (**onğun**: onurlu, şərəflidir).

duran başa iş gələr.

duran durmuş yaşam gözləyirkən, oykuların duyquların qulu olamam.

duran durmuş, gedəni tut.

duran günün saylansın, keçən günlər saylanmaz. (**saylamaq:** seçmək. hesaba qoymaq).

duran öküz, yatan öküzün başına sıçar.

duran yetirir, yatan itirir.

durar durar, gözündən vurar. (düşnülüb qılınan iş çətinki caya).

durar evrən göz doymaz, yatan baxtım oyğanmaz, tülkü gəlib aslan olub bars olmaz.

durar olsan tanertən, bitər işin, tüşə qalmaz. (**tanertən:** səhər tezdən). (**tüşə**: ikindi, gün batana yaxın).

durduqca durasan. **(**kölgən səni izləsin. uzun yaşa).

durğal aylanar belə qalmaz, dünya fırlanar geri qalmaz. (**durğal aylanar**: durum, hal çevrilir).

durğu bulsaq durarız, qılğı düşsə qılarız. (yaşamda uğur güdmə, düşdüyün yap) (**uğur**: ans. uyuğn çağ. fürsət) (**durğu**: durqunaq**.** iqamətqah). (**qılğı**: iş).

durqun göldə, qurd olar.

durqun olan iğlənir, selə çönən hellənir, axar su ol, bulağ gözü axgilən.

durqun olan toxac görməz, yeriməyən yıxılmaq. (**durqun:** durar. dənik. sakin). (**toxac**: 1. tatalış. istikak. 1. bərxud. təsadüm).

durqun olan toxac görməz, yeriməyən yıxılmaq. (**durqun:** durar. dənik. sakin). (**toxac**: 1. tatalış. istikak. 1. bərxud. təsadüm).

durqun sudan çəkin. (yatan sudan çəkin). (uyan sudan çəkin). (**çəkin**: ehtiyatlı ol).

durqun sudan çəkin. (yatan sudan çəkin). (uyan sudan çəkin). (**çəkin**: ehtiyatlı ol).

durqun sular dərin olar, axar sular sərin.

durqunmağı unutan, dayanmağı öğrəşər, yıxılmadan qorxmayan, üstünlügə yol tapar.

durqunmağı unutan, dayanmağı öğrəşər, yıxılmadan qorxmayan, üstünlügə yol tapar.

durmağın kefini yıxılmaq öğrədir.

durmaq istisən, öldürməgə yaraqlan. (istəyirsən durmağı, öldürməyə yaraqlan). **(durmaq.** yaşamaq**).**

durmuş bir sınağ, sınana yazığ, sındırana eşq olsun. durmuş bir sınağ, sınana yazığ, sındırana eşq olsun. (**durmuş**: yaşam).

durmuş bir sınağ, sınanın payı, sındırana eşq olsun. (**payı**: qisməti). (durmuş bir sınağ, sınana yazığ), (**durmuş**: yaşam).

durmuş durana gülər, yatana yox. (**durmuş**: yaşam) (**yatana**: baxtı yatığa).

durmuş durur, axar durar, yol qolların burar durar, yaluğ yılığ yollarından keçib köçər, batar durar!.

durmuş ilərir, yaşam sevmir dündə qalanı. (**durmuş**: yaşam).

durmuş orunun bərk, özgür qalasan ərk. **(orunun:** yerin). (**ərk:** güc. ixtiyar).

durmuş uçan, boşuna yatan tutanmaz. {(**durmuş uçan**: yaşam (yaş) tutulmaz)}. (ömür qısqa, yaş qurar).

durmuş uçan, boşuna yatan tutanmaz. {(**durmuş uçan**: yaşam (yaş) tutulmaz, boşuna keçirən tutanmaz)}. (ömür qısqa, yaş qurar).

durmuşda yox düz buruq, oxunmaz kitabdur, başa gələn yazılar. (**durmuşda**: yaşamda).

durmuşu boş tutmayın, atar tutar saymayın, özünğüzə sayqılar, bəslə qılın yatmayın. (çağ gələndə çağrılırsın, gələməz mən deyəməzsin).

durmuşun azıb keçmişə dalıb, amac itirib düz yolun azıb.

durmuşunda bir atdımın dəğişmək etgiliyər çevrəvi. (**durmuşunda**: yaşamında).

durmuşunda bir atdımın dəğişmək etgiliyər çevrəvi. (**durmuşunda**: yaşamında).

durmuşunda biraz öğrəş, biraz alış, biraz keçin, biraz çəkin başa vur. (**durmuşunda**: yaşamında).

durmuşunda biraz öğrəş, biraz alış, biraz keçin, biraz çəkin başa vur.

(**durmuşunda**: yaşamında).

durmuşunda yaramıyan kimsələr, yaramışın pozulmasın güdərlər.

(**durmuşunda**: yaşamında). (**yaramıyan:** müvəffəq olmayan).

durmuşunda yaramıyan kimsələr, yaramışın pozulmasın güdərlər.

(**durmuşunda** : yaşamında). (**yaramıyan :** müvəffəq olmayan).

durna bacağın küt görür. (leyləyə durnaya qıçları uzun gəlməz).

dursun yanan ocaq yox, ölməz qalan dirik. (**dursun** : həmməşəlik).

dursun yanan ocaq yox, ölməz qalan dirik. (**dursun**: həmməşəlik).

durub qıldın iş bitdi, güdüb durdun iş itdi.

durub qıldın iş bitdi, güdüb durdun iş itdi. (durub qıldın iş bitər, güdüb durdun iş itər).

durub qıldın iş bitər, güdüb durdun iş itər.

durulduq, yorulduq, qırıldıq, sürdük başa devranı.

durulduq, yorulduq, qırıldıq, sürdük başa devranı.

durum çönmüş, sevgi dönmüş, sən gedəli səni sevəndə ölmüş.

durum çönmüş, sevgi dönmüş, sən gedəli səni sevəndə ölmüş.

durum var yenməli, durumda var yenilməli. (durum vardır sürüb çevirməlisin, durumda var boyun əğməlisin). (yəhərin qaşında duran, qazanın aşından olur).

duruma görən, işini görən. (**duruma görən:** vəziyyətə nisbət). (çətinlikdən, qıyınlıqdan qaçınmamaq).

durumunla çağdaşlan!.

durunmadan iş bitməz, su yağmadan ot bitməz. **(durunmaq:** başlamaq. təşəbbüs, iqdam edmək).

durursa baş qınında, çıxmaz qılıc qınından.

durursa baş qınında, götdə bilər neyləsin. (baş dinc dursa, götün bir yerə qoyub düşünsə, işlərə yol tapılar). (götün tikib yerə, bir iş üzrə dərinləşmək).

duruş, ösüş bilimlə, durmuş yaşam biliklə. (dirəniş, muqavimət, tərəqqi ilimlə, həyat dirilik hikmətlə). (bilimli uçar, bilimsiz qaçar).

dusdağın yekə tutan, azadlıq tapar.

dustaq olub qəm öyündə sarqama, uçunda ged, yaşın töküb ağlama.

duvar keçən aşar keçər, açar keçər. (işi görən vurar daşa çıxar başa).

duvar olma, duvarları aşan ol.

duvar tapmır **qatın qoya**. (palan tapıb eşşək arır, ovsar taspıb atın arır. işləri tərsə mallaq aparmaq).

duvar vardı dursayır, duvar da var yuvsayır. (**dursayır**: bərkiyir) (**yuvsayır**: boşalır).

duvarı nəm yıxar, kişini qəm.

duvarın qulağı var, tavanın gözü. (**tavan**: çatı. dam).

duyan qanıq bir sözlə, duymaz qanmaz min söylə.

duyan qulağda suç olmasada, suçlanar.

duyan qulağda suç yox.

duyan qulaq suçlanmaz. (uqqan qulaq yazğınmaz).

duyan qulaq yanılar.

duyan qulaq, aydın söz, umaylı el açıq göz. (**umaylı**: baxtı açıq). (bir elgəni, milləti eşidən qulaq, aydın, açıq, doğru, qarışıqsız, qorxusuz qoxusuz söz, görən göz qurtarar).

duyan qulaq, görən gözdə suç olmaz.

duyan qulaq, görən gözdə suç olmaz.

duyanda adın, könül daralır, gələndə səsin ağım ucalır, səssizcə gülüm könül ağlayır.

duyarsızlıq, saymamazlıq, anlamazlıq dinclik görünsədə, alçaqlıq sayılır.

duyduğuma atçəkişim yapmışsın, üzözümə söyləməkdən qaçmışsın, öziçidə tanrıtaydan qorxmamış, mənim kimi yayav birdən qorxmuşsun. (**artçəkiş > atçəkiş**. qiybət). (**öziçidə**: vicdanıvın yanında).

duyduğun baş ağrıtmaz. (artıq eşitmən, itgi (zərər) verməz).

duyduğun içlə, gördüyün danma. (**duyduğun içlə**: duyduğunu eşitdiyini yoxla).

duyduğuva baş qoşma.

duyduğuvu yanıtmadan düşünqıl. (**duyduğuvu**: eşitdiyin).

duyduğuvu yanıtmadan düşünqıl. (**duyduğuvu**: eşitdiyin).

duyduq, gördük, qurar kişiyə kəndi evrənin, duyular, görülər, çevirər onun beterin. (**duyduq**: duyduqlar). (**gördük**: gördüklər). (**çevirər**: 1. qurar. dolandırar. 1. dəğişər). (**beterin**: kökün). (hər kimin düşüncəsi, gözaçısı (nəzəri), hiss etdikləri, oysandığı, gördükləri təməlində qurulur, dağılır). (tüm kimsələr, duyu, görülərinin ürünləri durur). (tüm kimsələr, duyu, görülərinin ürünləri durur).

duyğu düşlər barışan yerdə gözəl çağ sürülər. (barışan: tutuşan).

duyğu düşlər barışan yerdə gözəl çağ sürülər. (barışan: tutuşan).

duyğu, söz bulağıdır.

duyğuları bırxma, arzuları uzatma, arman qalmış istəyin, çalış yetin durağma. (**arman qalmış**: çatmaz qalmış). (**durağma**: quşqulanma. ikilənmə. şəgg edmə).

duyqu qalmaz ölüyə tay diridə.

duyquçuluq artıq könül ağrıdar, duyqulu baş qalmasını arzular.

(**duyquçuluq**: çox həssaslıq).

duyqusunu bilməyən, qayuqluğu nə bilər. (**duyqusunu**: düşünməyini.

fikirləşməyini. (**qayuqluğu**: (qayğıkeşlik).

duyqusuz kişi, qanatsız quş.

duyquya dalın, bulutdan asın.

duymaz qulaq başa dəgirdir çomaq.

duymaz qulaq can qadası.

duymaz qulaq can qadası.

duymaz qulaq çomaq yedirmiş başı. duyar qulaq ıraq gitərmiş daşı. (**ıraq gidərmiş**: yana tullamış. geri qitərmiş).

duysa soyuq söz qulaq, könlə yetcək buz bağlar.

duysan yalan birindən, itər güvəncin ona, olsa güvənci sənə, satma yalan söz ona.

duysan yalan birindən, itər güvəncin ona, satma yalan birinə, olsa güvənci sana.

duysan yalan birindən, itər güvəncin ona, satma yalan birinə, olsa güvənci sana.

duyulmağa qulaq, duymağa könül gərək.

duyum səsin, tinim çınlasın. (**çınlasın**: titrəyib çağlasın).

duyur, buyur!. (heç yana, öndən bildirmədən, gedmə). (gedilən yerə sayqı duyursansa, yekəxanalıq, özbaşdalıq edmək, qınanır, pis (mənfur) sayılır).

duyuru vermiş, asmamış qulaq, ulağ oğlu ulağ. (**duyuru**: bəşarət. xəbər.

duyuva boysan, dilivə söygün, yarına inan. (**duyuva**: oyuva. düşüncəvə). (**boysan**: öyün. şişin. fəxr ed). (**söygün**: sevin. sevinc bildir).

duz acıda olsa, yeməyin dadıdır.

duz bilməyən alçağa düzlük duzu yalatma. (boşuna and içitmə).

duz bilməzə düzlük duzu yalatma. (boşuna and içitmə).

duz kimi acı, bal kimi dadlı.

duz olmasa dad olmaz, dad olmasa, duz olmaz.

duz şor olsada, dad duzdadı.

duz vurular hər nəsə ki ısqanar, vay o günə duz kəndisi ısqana.

duz yeyən susar (**susar**: yanığar).

duza gedənin, yükü ağır olar.

duzağa quşu dən çəkər.

duzağım dil bəzəyin boşlu sözə, gözəlim gözdü bəzək vermiş üzə.

duzağın duzağına düşmə duzaq: (**duzaq**: duz kanı. çox göyçək). (gözəlin tələsinə düşmə gözəl).

duzağın duzağına düşmə duzaq: gözəlin tələsinə düşmə gözəl.

duz-çörək deyiblər, düz çörək yeyiblər.

duzdan duzlu olma, baldan şirin.

duzdan şor, baldan dadlı olma.

duzla, buz, hava. (duz buzu əridib heç edər).

duzlu suya susuz olan qanıqmaz, duz yeməyən susarsada yanıqmaz.

duzlu verib susuz qoyma.

duzlu verib, suyu gizləmə.

duzluğu sıdır, duzun atma.

- duz qabın qırdın, duzun atma.

duzun çoxu yanqı verir, söz dinləməz gora keçir.

duzun yeyib duzluğun oğma. (: uşatma. sındırma).

duzun yeyib duzluğun oğma. (**duzluq**: duz qabı. (**oğma**: uşatma. sındırma).

düd olan yerdə od aranar.

düd tütən yerdən od aranmıış.

düdün qopsa hislənir. (**düdün: tütün**).

dügüylə ovlanan quş olur, pulla ovlanan öküz. (**dügüylə**: dənlə).

düğmələnməsə büklənməz, büklənməsə güllənməz. (**düğmələnməsə**: cücərinməsə). (**büklənməz**: qonçalanmaz).

düğü döğülməsə, aş olmaz.

düğün düşdü düğünə, deyənmədim ana, sənə olan ana, olsun mana qaynana.

düğün düşdü düğünə, deyənmədim ana, sənə olan ana, olsun mana qaynana.

düğün el ile xərmən yel ilə.

düğün el ilə, xermen yel ilə olur.

düğün qurdun el ilə, xırman qurdun yel ilə.

düğün qurdun el ilə, xırman qurdun yel ilə.

düğün salan düğünləri çözənməz, yaman olan yaxşılığı seçənməz, əz başını yaman görsən hər yerdə, yaman olan yaxşıları görənməz.

düğünə el, xırmana yel yaraş.

düğünə el, xırmana yel yaraş.

düğünə səs, ölümə yas yaxışır.

düğünsüz el, ölümsüz ev olanmaz.

düğürdən uzaq, qırx min ayaq, səndən bizə olsun dayaq, yardımçım ol, tanrı barım, tanrı barım. (**düğürdən**: şərdən). (**tanrı barım**: hər nəyim tanrı).

dülgər öldü atağac tapılmadı. (**atağac**: ükük. tabut).

dülgər öldü atağac tapılmadı. (**atağac**: ükük. tabut).

dülgərin qapısı, sınıq olar, çarıqçının başmağı.

dün boğanaq, bu gün doğanaq, yarın dolanaq. (dün ölmüş, bu gün olunuş, yarın dolanırsa olur, güman).

dün bu gün olamaz, bu gün ertəyə qalamaz. (**ertəyə**: yarına).

dün bu günü gələr gəlməz düşünməmiş, günüm bu gün yarın hələ bəllənəmiş.

dün bu günü gələr gəlməz düşünməmiş, günüm bu gün yarın hələ bəllənəmiş.

dün dünə qaldı, gün günün saldı, irt, gələn aldı. (**irt**: yarın).

dün əkəcin, gün sənin, yarın balavın. (**əkəc**: **(əkə + əçə)**. atana. valideyn).

dün əkmişsin günü gəlmiş dərirsin, bu gün əkdin yarın gəlsə dərirsin.

dün əkmişsin günü gəlmiş dərirsin, bu gün əkdin yarın gəlsə dərirsin.

dün gecəyə bitdi, ertin dana açılar. (**ertin:** yarın).

dün itgi, gün yetgi, dan vergi.

dün keçib gedib, boşa ver gülüm, yoldadır yarın, budur çatacaq.

dün keçibdir gözlənməz, gün bu gündür bəklənməz, yarın gələr bəllənməz.

dün qayqusu keçibdi, bu gün üçün qıtca qayqun bolmasun. (**qıtca**: zərrəcə).

dün qonşuya qucaq açanlar, bu gün əl açır.

dün qonşuya qucaq açanlar, bu gün əl açır. (dün qucaq açanlar, bu gün əl açır).

dün ötünmüş yoxa, gün batırma poxa, ertin gəlir? bəllənməz!. (ertin olur? bəllənməz!). (**ertin**: yarın. sabah).

dün savılmış, gün sevilmiş, dan umulmuş.

dün yapdığın, bu gün yaşısan.

dündəkilər dündə qaldı dalıda, quyu qazan kəndin bular çalıda. (**çalıda**: çuxurda. oyuqda).

dündəkilər dündə qaldı dalıda, quyu qazan kəndin bular çalıda. (**çalıda**: çuxurda. oyuqda).

dündəkilər dündə qalı paslanı, hər günüvün yeni barı, öz dadı.

dündən qalan kölgələr, olan günü qaraldar. (**olan günü** : çıxan günü).

dündən qalan kölgələr, olan günü qaraldar. (**olan günü**: çıxan günü).

dündən öğrəş, günün yaşa, yarına umut saxla.

dünə baxsan dündəkini taparsan, ilgəri bax yeni yollar açarsan (yararsan).

dünə baxsan dündəkini taparsan, ilgəri bax yeni yollar açarsan yararsan.

dünə bu gün, günə yarın durşulur. (**durşulur**: duruş qurulur. durşun açılır. məhkəmə yapılır).

dünə dönmə, yarınlara irəli!.

dünə dönsən dündəkində batarsan, günə baxsan yarınları yararsan.

dünə dönsən dündəkində batarsan, günə baxsan yarınları yararsan.

dünə qalma, günün sovma, irtə dalma. (**irtə**: yarına).

dünə yapılma, indiyə qapılma, yarına satılma. {dündə qalma, indiyə tutulma (indiki durum, olum, biləvi kor etməsin), gəlməmiş, olmamış, olası gələcək ötrə, indivi itirmə. (dünə yapılma: dündə, keçmişdə qurulub, quylanma)}.

dünən bitdi, yarın bu gün başlar.

dünən əkdin, bu gün dər, bu gün əkdin yarın dər.

dünən keçmiş solan güldür, bu gün doğmuş olan güldür.

dünən keçmiş solan güldür, bu gün doğmuş olan güldür.

dünən yumurtadan çıxmış, bu gün bizə cip cip öğrədir.

dünəni boş ver, bu günü xoş ver, ertin günə pay saxla (**ertin**: yarın).

dünəni dündə bıraq, günüvü gör, yarına bax.

dünəni ötür, atdım irəli götür. (**atdımı götür**: yatma).

dünəni ötür, gününlə ötün, yarına köçün.

dünəni ötür, günüvü yaxla, yarını saxla. (**yaxlamaq**: dərək dəğər, qədir qiymət vermək).

dünəni yoxla, günüvü toxla. (**yoxla**: 1. sal çıx. 1. heçə say). (**toxla**: yetiş. becər).

dünənki bu günə qalmaz, bu günki yarına. (**qalmaz**: oxşamaz).

dünənki dündə qaldı, çağdaşlığı tut yaşa.

düngü qapursun yarnı açursun, nəyni yapursun, anğa çatursun. (**düngü**: dünü). (**yarnı**: yarını). (**anğa**: ana). {dünü boş ver, günü yoş ver. (**yoş**: xoş)}.

dünkü səni boşlamaz, dündəkini gündəkilər xoşlamaz. (çağınla ayaqlaş).

dünkünü unut, özünlə barış, türkcə danış.

dünlə bu gün olduğun, yarın odur doğduğun. (əkilən, biçilir).

dünlə bu gün olduğun, yarın odur doğduğun. (əkilən, biçilir).

dünü bəklər keçirdim, günü sənli, yarın sənsiz keçəcək.

dünü bəklər keçirdim, günü sənli, yarın sənsiz keçəcək.

dünü boş ver, günü xoş ver, yarıncığa pay saxla.

dünü boş ver, günü xoş ver, yarıncığa pay saxla. (dünü boş ver, günü xoş ver, yarınlara pay saxla).

dünü boş ver, günü xoş ver, yarınlara pay saxla.

dünü boşla, günü xoşla!.

dünü günə bağlamar!, günü tünə, tün ertinlə yarınar!. (bağlamar!: bağlama!. bağlac qılma!).

dünü günə bağlamar!, günü tünə, tün ertinlə yarınar!. (bağlamar!: bağlama!. bağlac qılma!).

dünü unut, bu günə umut.

dünü unut, günü yönüt. (**yönüt**: yöndər. dolandır).

dünü unut, günü yönüt. (**yönüt**: yöndər. dolandır).

dünü unut, indiyə urut, yarına durut, ertirə umuq, ilgəri utut. (**urut**: çalış. vuruş). (**durut**: dirəniş. muqavimət). **(ilgəri:** ilərıyə. gəlquca). (**utut**: utuş. qələbə).

dünün keçdi geri dönməz bəkləmə, günün axır, yararlanıb gözləmə, yarın yarar, gətirdiyin görərsən.

dünün keçdi geri dönməz bəkləmə, günün axır, yararlanıb gözləmə, yarın yarar, gətirdiyin görərsən.

dünün keçmiş unutqıl, yaşam sürsən indi sür, bəklə gələr yarının.

dünün otuna bu gün qızınmaz, gün otuna yarın. (gün işin gündə qoy, tün işin tündə). (atan kimidir sənə nə, indi atasan, kimsən)). (**kimsən**: neçədən birisən).

dünün ötmüş küllük külü savrulmaz, yarın yolda nə gətirər bəllənməz.

dünün ötmüş, günün gəlmiş əlində, yarın üçün bəklənməz, gələr gəlməz bəllənməz.

dünün yadı, günün dadı, danın adı varmış.

dünya bala dönsədə, ala qarğanın gözü poxdadı.

dünya barı, yaşam dadı.

dünya bir holadır, gələn keçir, qonan köçür.

dünya bir pəncərədir, biri yenər, biri çıxar.

dünya böyük neylim, uzaq düşdü, qolum qaldı, dərin düşdü boyum qaldı böyüklük açamır hər qılpı (qıfılı), qoluva görə yolun, boyuva görə quyun olsun.

dünya dadımlığımış, doyumluq yox.

dünya doğandan, fırlanır belə, səndə dolan, istəyin elə. dəğişər dərmanın daşı, dünya varikən, fırladar genə.

dünya dönür, yaşam çönür, sevənlərin özgələşir, özgələrin özünləşir.

dünya dönür, yaşam çönür, sevənlərin özgələşir, özgələrin özünləşir.

dünya durağu demə. (**durağu**: qalağu. qalan. baqi. əbədi. cavid).

dünya durur kərvansaray, bizlər onun kərvanıyıq.

dünya gedər durandır. (dünya gedməkdən qalmaz).

dünya gözəli kimdir, qarğaya öz balası, qayğıya dözüm varsa, gəl balası (ay balam. ay oğul. oğlum).

dünya göziylə görmə onu, əşik könüllə keçmə bu yolu, yollar başqa, keçən başqa, görən başqa. (**əşik**: aynı). (**könüllə**: həvəslə).

dünya göziylə görmə onu, əşik könüllə keçmə bu yolu, yollar başqa, keçən başqa, görən başqa. (**əşik**: aynı). (**könüllə** : həvəslə).

dünya malı elə girmiş başından, götü belə çıxmış onun yadından.

dünya malı əldə varkən həp düşmanlar dost olur. əldə nərsə qalmayınca dost bilə düşman olur.

dünya malı yoxunsa çalış əldə edəsən, pulsuz dilək boşuna, ağız yeməz qarın qalar boşuna, diləklərin gələr olsa düşünə, para yoxsa qoyulmamış yoluna.

Dünya senin gibi körünen, benim gibi topala kaldı. Emir Timur Bek. Rivayete göre, Angara savaşında, adına uyğun ıldırım gimi savaşan I. Ildırım Bayezit Han gece yarısına gadar savaştı. Timur Han'ın torunu Muhammed Mirza kuvvetleri tarafından kement atılarak yakalanır. Akşam karargaha getirilerek, Emir Timur Beğ'in otağına çıkarılır. Hoş beşten sonra, Emir Timur Bek, ıldırım Bayezit Han' bakıp bakıp gülüyormuş. Ildırım Bayezit Han çıkışmış. Senin gimi bir

hükümdara mağlup olmuş bir hükümdar garşısında gülmek yakışıyormu demiş. Emir Timur Bek, hayır ona gülmüyorum, Dünya senin gibi körünen, benim gibi topala galdığı üçün gülüyorum demiş, Ildırım Bayezit Han biraz şaşı, Emir Timur Bek'te topaldı. (Bayram Özdemir).

dünya sönərsədə, düşman, yalan sönməz (bitməz).

dünya üzü dolu malın var olsa, durağı yox daşlab atıb gedərsən. (**durağı**: qərarı). (**daşlab**: bıraxıb).

dünya üzü yaranandan görməyib yarqı, minin öldurən bir kərəm ölüb. (**yarqı**: ədalət).

dünya yalan dönüklüyü danılmaz, aldışdığın bataqlıq, çıxılmağın sanılmaz, verən alan, sözün yayan yanılmaz. (**bataqlıq**: bu dünya). (**sanılmaz**: güman edilməz).

dünya yaman, dünya yalan dünyadı. -at belinə aşırdı, at belindən daşırdır, qara günə salırdı, yaman gündə asırdı.

dünya yarandığından belə yazmış. - eniş yoxuş dünyanı basmış, birin asmış, birin yasmış. (**asmış**: məhv edmiş). (**yasmış**: mərhəmət edmiş).

dünya yoxumuş, yalan varımış, iyi köngülə dünya darımış.

dünyada dinclik sevən, başa gələni, xoş görər.

dünyada ən çətin olan sözdür, anlamağıda çətin, anlatmağıda (çətin).

dünyada sənə tay bir dənədir. -kəndivə güvən.

dünyanı aparmış çığıran gur.

dünyanı çəkən dərd ilə dərmanıda çəkmiş.

dünyanı gəzdim tatdan dadsız görmədim!.

dünyanı tutanmasan, ölümdən qaçanmasan. çalış olduğun yaşa, günün xoşa vur başa.

dünyanı tutma ağa qarıya, yaşamda dadlı gəlir ağıya, dirsəldib yerə çırpmaqdansa, ötür özü bulsun yaxı yarıya.

dünyanı yığdırar sənə, sonda salar əldən gedər. (yalan dünya).

dünyanı, çevrəni dəğişənmədin, kəndivi dəğiş!.

dünyanın ən gözəlin buldun nəyivə gərək, dünyavı ən gözəl edəni bulmağun gərək.

dünyanın işi, pişməmiş aşı, doludur daşı, daşı ha daşı, qaşı ha qaşı, doymağı yox dolmazda çox, dünyanın işi, pişməmiş aşı. (naşı kürəkən təzə gəlin, eski qaynana dəlik tas).

dünyanın ucun (sonun) görməyən barsız gələr, varlansada, barsız gedər.

dünyanın zoru, anlamaz sözü.

dünyaya gələn, söz, qalan, söz, aparan söz. (ərdəm başı dil).

dünyaya "yalançı" dünya deyənlər, yalançıların ən oğrəşidir.

düş olursan yaman qadına, yaşın düşər tərs qatına.

düşcəğim bilsəydim, döşərdim saman yerimə. (**düşcəğim**: düşən çağım. yıxılançağımı).

düşdü ərənlər balığ (yaralı), indi ürək ağrınır.

düşdün suya üzmə üzüşdən əlin.

düşdüyün sevmişdim, sevənin seçməmişdim, böylə sevgi gedərmi başa, yoxdur sonu dəğəcək daşa. (**düşdüyün**: tuşlandığın).

düşdüyün sevmişdim, sevənin seçməmişdim, böylə sevgi gedərmi başa, yoxdur sonu dəğəcək daşa. (**düşdüyün**: tuşlandığın).

düşdüyündən çəkənlər, seçməyinə uğralmaz. (uğralmaz: yer qalmaz. imkan tapmaz. şans bulmaz).

düşdüyündən çəkənlər, seçməyinə uğralmaz. (uğralmaz: yer qalmaz. imkan tapmaz. şans bulmaz).

düşəcəyin bəkləyən, gələcəyə inanmaz.

düşən ağaca, odunçu tapılar.

düşən ağacı, yonmağa gələn çox olur.

düşən yapraq birdə dala yapışmaz, duysa yalan birdə könül inanmaz.

düşən yapraq birdə dala yapışmaz, duysa yalan birdə könül inanmaz.

düşən yerin bilseydim, döşək döşərdim öndən.

düşənə bax düşün. (düşənə bax üşün).

düşənə dos bulunmaz.

düşənə dos bulunmaz.

düşəni, götürərlər.

düşənin dosdu olmaz, varlının düşmanı.

düşənin dosdu olmaz.

düşənlərə çələb yarıcı, hamı azmış işlərə, onarıcı. (onracı). (**çələp**: tanrı. həqq). (düşənlərə həqdir yarıcı).

düşənlərə çələb yarıcı. (**çələp**: tanrı. həqq).

düşər axşam qaranlıq, güdə gedər kölgələr, qaraldıqca qalanmaz, yoxa çıxar kölgələr.

düşgün arslanı eşəkdə təpər. (çıpdığın, təpdiyinin canına bax). (ölçüsüz durmaz ayaqda bir yapı).

düşlərin ən gözəli ayıqkən görülür.

düşlərin qorxuvu bassın, işlərin sözlərin bassın. (**düşlərin**: oyuların. rö'yaların). (**bassın**: ağır gəlsin. önəmsinsin).

düşlərin qorxuvu bassın, işlərin sözlərin bassın. (**düşlərin**: oyuların. rö'yaların). (**bassın**: ağır gəlsin. önəmsinsin).

düşlərivi, düşüncəvi bıraxma, başqaların düşüncəsi nəyivə.

düşlərivi, düşüncəvi bıraxma, başqaların düşüncəsi nəyivə.

düşman ağzın qapayanmasan (bağlayanmasan), öz əlin uzun olsun.

düşman anlar gizim, dosda desəm sözüm.

düşman ayaqa, dos başa baxar. (kişi ayaqdan yıxılar, başdan qalxar).

(düşman ayaqa baxdıqda, sənin yıxılmağıvı özlər, güdər, dos başa baxmaqda sənin ucalmağıvı ölçər).

düşman çoxdan başlayıbdı tor qura, türkü qoymur öz dilində oxuya.

düşman dağın dalında (dır), qurd meşə yolunda (dır).

düşman dosdan tez tapar, yaman yamanın yapar. (düşman ocaq başında, dosdun qapı dalında).

düşman dosdan tez tapar, yaman yamanın yapar. (düşman ocaq başında, dosdun qapı dalında).

düşman duysa dərdivi, sevincindən çatlayır, dosdun bilsə dərdivi, dədin alar azaldar.

düşman qaçanda usar, düşman görəndə pusar. (**usar**: coşar.).

düşman qaçanda usar, düşman görəndə pusar. (**usar**: coşar.).

düşman ocaq başında, dosdun qapı dalında. (düşman dosdan tez tapar, yaman yamanın yapar).

düşman ocaq başında, dosdun qapı dalında. (düşman dosdan tez tapar, yaman yamanın yapar).

düşman oldu yayını yasmaq gərək, iki dillinün dilin kəsmək gərək.

düşman səni tanıyınca, sən onu tanı.

düşman, düşman halına qalmaz.

düşmana ılqar igidin yaraşığıdı, düz söz, uz ilqar, onun yaraqıdı. (**ılqarmaq**: həmlə etmək). (**uz ilqar**: düz and). (**yarağıdır**: hərbəsidir. silahidir).

düşmana ölüm diləyincə, özüvə yaşam dilə.

düşmana sırr, dosta yalan söyləmə.

düşmana sırr, dosta yalan söyləmə. (düşmana sirrivi, dosta yalanıvı söyləmə).

düşmana uyan, poxluğa cuman.

düşmandan iyilik, başdan gerilik. (öclüsündən, düşmanından uğur bəkləyən, başdan pozuqdur).

düşmandan pay uman dişisiz qalar.

düşmandan pay umanğ dişisiz qalır. (düşmandan pay umanın dişi sınar).

düşmandan pay umanın dişi sınar.

düşmanı bas, itgi varsa as. (itgi varsa: ziyan yetirirsə).

düşmanı dost elə, dosduvu düşman yox.

düşmanı qoğmaqdansa, dosları ara.

düşmanı qovaram, dosdun dalında dururam.

düşmanı özüncədə görməsən, topuğunca gör.

düşmanı vurmağa biləği pişgin igit.

düşmanıdır düşüncə, az qanışla inanmaq.

düşmanıdır düşüncə, az qanışla inanmaq.

düşmanın aslanın olsun, tülkü yox.

düşmanın dalında olunca, içində ol.

düşmanın içində olub çalışmaq, qarşında durub çalışmaqdan yeğ.

(yağunun dışından içi aman).

düşmanın içində olub çalışmaq, qarşında durub çalışmaqdan yeğ.

(yağunun dışından içi aman).

düşmanın ingəlsin.

düşmanın qoğ, dosd özü gələr. (düşmanın qoğ, dosdun gəlsin).

düşmanın qoğ, dosdun gəlsin. (düşmanın qoğ, dosd özü gələr).

(düşmanın qoğ, dosd özü gəlməz, dalıca ged).

düşmanın oxşayan bəlaya düşər, mal yığmağı düşünən dinclikdən olar.

(yağısın qayğıran qaya düşər, barını qayğıran borana). {yağın qayğıran yağa düşər. (**yağın:** yağısın). (yağısın gözləyən qaynar yağda pişər)}.

düşmanın öldürübən qoyma bata qanə əlün, ıraqun tulla gedə çox uzağa görməyəsi birdə gözün. (**ıraqun**: ıraqlara).

düşmanın yolları kəsilmiş olsun, gücləri kamanları yasılmış olsun.

düşmanın, ərkək - dişisi yoxdur.

düşmanın, ərkək dişisi olmaz.

düşmanından sovğat, üzünə baxma at!.

düşmanqa bel aldırma. (düşmana gücün, gizin bəllətmə!. düşman qarşısında kəndini yiğit göstər).

düşmanuva ölüm diləyincə, kəndivə ömür dilə.

düşmədən sonra necə qalxısan, iç gözündə nə, andaq olusan. (**iç gözündə nə, andaq olusan**: içidə nəsən elə o olusan).

düşmədən sonra necə qalxısan, iç gözündə nə, andaq olusan. (**iç gözündə nə, andaq olusan**: içidə nəsən elə o olusan).

düşməkdənsə, düşün. (**düşməkdənsə**: yıxılmaqdansa).

düşməm demə düşərsin, şaşmam demə şaşarsın, ölməm demə ölərsin.

düşməm demə düşərsin, şaşmam demə şaşarsın, ölməm demə ölərsin.

düşməmişsə pusquya, düşməz hələ quşquya. (**pusquya:** kələyə. tovtiəyə).

düşmən görüsən üzdə, düşmən deyiləm içdə, kökdən doğulan türkəm, tat söylüyürəm dildə.

düşmən görüsən üzdə, düşmən deyiləm içdə, kökdən doğulan türkəm, tat söylüyürəm dildə.

düşmən yaxamdan tutur, it ətəyimdən.

düşmən, düşmən halına qalmaz.

düşməsən yolağa, düşərsən colağa.

düşməsin dildən dilin.

düşməsindən qorxulu, uçmaqlara düşünməz.

düşməsindən qorxulu, uçmaqlara düşünməz.

düşməyən daldan, anlamaz haldan. (**daldan**: gözləmədən).

düşməyən daldan, anlamaz haldan. (**daldan**: gözləmədən).

düşməz it, qarnı doyan evdən uzaq. (**düşməz uzaq**: ayrılmaz).

düşmüş birinə çatmır əlin vurma təpik. (**çatmır əlin**: köməklik edəmirsən).

düşməsə uyğun yaşam biləvə, düşdüyün yeri, gördüyün düşü dəğiş.

düşsə qaranlıq gecə, qonmayanı qondurar, qanmayanı qandırar, yanmayanı, yandırar.

düşsə ülək dam bacadan yağ dami, gedsə ülək dam duvardan qan yağı. (**ülək**: **ülük**. qismət. nəsib).

düşsən ucadan düş, yıxılsan güclüdən yıxıl.

düşun daşın! evlənmə başlanqıc, boşanma ömürlük olur.

düşun daşın! evlənmə başlanqıc, boşanma ömürlük olur.

düşüb qalmaq bir olay, qalxıb gedmək bir seçim.

düşüb qalmaq, ölüm, düşüb qalxmaq, yaşam yasası.

düşüb qalmaq, ölüm, düşüb qalxmaq, yaşam yasası.

düşüb öğrəşmə, düşəndən öğrəş.

düşüb yıxılmağı bilmək, durub qalmağı öğrənmək. (**bilmək**: görmək. keçirmək. aşırmaq. təcrübə edmək).

düşüb yıxılmağı bilmək, durub qalmağı öğrənmək. (**bilmək**: görmək. keçirmək.aşırmaq. təcrübə edmək).

düşük qanı bəsləyir, göyə qalxan bayrağı.

düşük ölmez yurt bölünmez.

düşüklər çağırır. –bayrağı alqışarkən, sanğurayın bizləri, görün bayraq üzündə, bizdən qalan izləri. (**alqışarkən**: səlamlarkən). (**sanğurayın**: **sanğurlayın**. xatırlayın).

düşüklərdən axan qan, bayraq edmiş sancağı. (**düşük**: şəhid).

düşün bil, könül qutar, oxu bil başın.

düşün danış qılmaqla, varlığıva dəğər biç.

düşün danış, qılmaqiylə varlığıva dəğər biç..

düşün yaşa, qılın yaşa, yatıb ölmə!.

düşüncə doğsa mutluq, inanc ocağı sönər.

düşüncə niyəylə başlır, niyədə qalmır.

düşüncə niyəylə başlır, niyədə qalmır.

düşüncə özgürlügü, inançılıqdan uzaq, inandınsa düşünmədən ol uzaq.

düşüncə özgürlügü, inançılıqdan uzaq, inandınsa düşünmədən ol uzaq.

düşüncə özgürlügü, inançılıqdan uzaq, inandınsa düşünmədən ol uzaq.

düşüncə özgürlügü, inançılıqdan uzaq, inandınsa düşünmədən ol uzaq.

düşüncə var bilgisi yox ardında, bilgidə var düşüncəsi yanında. (**bilgi**: savad).

düşüncə var bilgisi yox ardında, bilgidə var düşüncəsi yanında. (**bilgi**: savad).

düşüncədir yasayan kişini, kişilik kişinin öz əlindədir. (**yasayan**: yazqaran. öğrədən).

düşüncələr çıxıb gedər, olaylar əzib geçər. (**olaylar:** düşənlər).

düşüncən dərinləşincə, ağrılar, acılar azalar.

düşüncən dərinləşincə, ağrılar, acılar azalar.

düşüncən qonuşmavı, qonuşman qılışmavı, qılışın yazıvı yazsın. (düşüncən sözüvü, sözün özüvü, işin yazıvı yazsın). (düşünü qonuş, qonuşu qılış, yazın doğsun işindən).

düşüncən sözüvü, sözün özüvü, işin yazıvı yazsın. (düşüncən qonuşmavı, qonuşman qılışmavı, qılışın yazıvı yazsın). (düşünü qonuş, qonuşu qılış, yazın doğsun işindən).

düşüncən yerin bulsa, işlərin onarılsa, kim keçmişin yadavur, sönən külün savurur. (**yadavur:** yada salır). (yaşam günündə belə yaşansın). (çalış günülən yaşa, günündə yaşa).

düşüncəni boğanmır, düşüngəni öldüdür. (**öldüdür**: boğdudur).

düşüncənin köləsi olur, yiyəsi yox.

düşüncəsi olmayan, mutluq nədir bilənməz.

düşüncəsi olmayan, mutluq nədir bilənməz.

düşüncəvə sığamıyan, düşlərivə sığınmasın.

düşüncəvi dəğişsən, gördüklərin dəğişir.

düşüncəvi dəğişsən, gördüklərin dəğişir.

düşüncəvi toparla, düşündüyün tək yaşa. (düşüncəvi toparla, düşündüyün tək yapın).

düşündə görənmir, döşündə arır.

düşündə görmədi, döşündə tapdı.

düşündə görür, döşündə arır. (düşündə göürb, döşündə arama).

düşündə göürb, döşündə arama. (düşündə görür, döşündə arır).

düşündəki doğru olmaz, gördüyün yuxu olmaz.

düşündürəndə baş, oynadanda baş.

düşündüyün düşün, bildiyin yapın.

düşündüyün düşün, bildiyin yapın.

düşündüyün qurur içində yaşın, yaşandığın düşüncəvi etgilir. (**yaşın**: həyatın).

düşündüyün sözündə, qonuşduğun işində, işlədiyin alın yazın yansıtır.

düşünə batır, döşünə yatır.

düşünə bildiyin, dünyavı qurur. (hərnə olsa anlağın, olda olar qavramın).. (hər kimin dünyası düşüncəsi qədərdir).

düşünə bildiyin, dünyavı qurur. (hərnə olsa anlağın, olda olar qavramın).. (hər kimin dünyası düşüncəsi qədərdir).

düşünə düşünə gör işi, daldan ökünmə (peşman olma) kişi.

düşünə düşünə yaşama, yaşıya yaşıya düşün.

düşünən bildi, üşünən itdi. (**üşünən**: çəkinən. ürəkli olmayan).

düşünən həp yanır, düşünməz nəyə yarır.

düşünən inansada, inanan düşünmədi.

düşünən kimsə artıq eskisi kimi değildir.

düşünən tapdı, üşünən yandı. (**üşünən**: çəkinən. ürəkli olmayan).

düşünən yanmış, düşünməz danmış.

düşünmədən danışan, xəsdələnmədən ölər.

düşünmədən söz demə, hər qızıla köz demə, hər gələnə xoş demə, hər duyanı düz demə, hər söyəni yov demə, hər dadlıya bal demə,.

düşünmədən- vaz keçsən, qalmaz yaşamda qayğın, özgələri saymasan, qalmaz elində sayğın.

düşünmədən, qonuşma, danışmadan, sonuşma. (**qonuşma**: ağız açma). (**danışmadan**: gəngəşmədən). (**sonuşma**: qərar vermə. hükm vermə).

düşünmək inanmaq değil, inanmaq düşünmək değil.

düşünməki sən yapdığın kiçikdir, aç gözünü görki yapanlar kimdir. (**düşünməki**: sanışmaki. təsəvvür edməki).

düşünməsən dilivi, düşüncəvi azarsan.

düşünməsəndə belə, səni düşünənlər var!.

düşünməyə alışqınlar korarmış, düşünmədən alışqanlar yaşarmış.

düşünməyi düşünmə, çırpın uçun, oynab gülün atıl düş.

düşünməyib bilməyən qanmazdır, bilib qanıb dinməyən qınzıroğlu tinsizdir. (**tinsiz**: vicdansız.. butumsuz. qınzır. kültüksüz. qırıq).

düşünməyib bilməyən qanmazdır, bilib qanıb dinməyən qınzıroğlu tinsizdir. (**tinsiz**: vicdansız.butumsuz. qınzır. kültüksüz. qırıq).

düşünməyin köp olsa, güvənməyin kəm olar.

düşünməyin köp olsa, güvənməyin kəm olar.

düşünməzə qanmamazlıq yük olmaz.

düşünməzə söz ötməz, onğmazın işi bitməz. (**onğmazın**: başarıqsızın).

düşünmək öğrənmənin anasıdır.

düşünü qonuş, qonuşu qılış, yazın doğsun işindən. (düşüncən qonuşmavı, qonuşman qılışmavı, qılışın yazıvı yazsın). (düşüncən sözüvü, sözün özüvü, işin yazıvı yazsın).

düşünüb qılınan, düşüb düşünməz.

düşünüb öğrəşən düşməz.

düşünüb yaşama, yaşarkən düşün.

düşünüb, söz verməli, söz verib, düşünməməli. (fikirləşib qərar ver, qərar verib, düşünmə).

düyün əl ilə, xırman yel ilə olur.

düz bəzənər, dağ bəzənər, çöl bəzənər, bağ bəzənər, el bəzənər, el bəyənər, yaz gəliri yaz gəlir.

düz bəzənər, dağ bəzənər, çöl bəzənər, bağ bəzənər, el bəzənər, el bəyənər, yaz gəliri yaz gəlir.

düz bəzənər, dağ bəzənər, çöl bəzənər, bağ bəzənər, el bəzənər, el bəyənər, yaz gəliri yaz gəlir.

düz bildiyin, düz görünəndir, düz olanı tut.

düz danışan, anlayanı cırdılar, anlamıyan danışmıyan otlasun!.

düz danışanın, atı yaraqlı, bir ayağıda üzəngidə olmalıdır.

düz duvar yıxılmadı, əğri duvar, başa çatmadı.

düz əğrilik yaddı sevgiyə. (sevgilik, aşıqlıq qoyu veri (icazə, ruxsat) bəkləməz. çağlar şarlar sular kimidir, dərədən daşar, qayadan aşar).

düz gedən, daldakına yol göstərir.

düz gözünən gir, əyri gözdən çıx.

düz işgələr, qırılmaz.

düz olan düzdə qalır, duz olan içə alınır.

düz olan yol yoxikən əğri tanınmaz düzdən.

düz oturub düz gəpir.

düz seçilən diləklər, mutlu yaşam sağlatar. (**sağlatar**: tə'min edər).

düz seçilən diləklər, mutlu yaşam sağlatar. (**sağlatar**: tə'min edər).

düz səyasətçi, uğurlu oğru tapılmaz.

düz sində olar. (**sində**: qəbirdə). (qılan, edinən, canlı aldana, yalına bilir).

düz söz daşı deşər, demişlər, düz söz daşı deşsədə, qulağa keçməz!!!.

düz üz üzmür işi, dala üz, keçər işi.

düz yerdə, su durqun (sakit) axar.

düz yol gedən yadaqmaz. (**yadaqmaz**: arqınmaz).

düz yol ilə yaşa qıl, əğri yolla yaşama!.

düz yol ilə yaşa qıl, əğri yolla yaşama!.

düz yolların lap düzü dənizdən keçir.

düz yolun yolçusu, azmaz.

düz yoluyla gedənlər , dusdağda can verirlər.

düz, əğrini kəsər.

düz, əyrini kəsər.

düz, işgələr, qırılmaz.

düzdə duz axdarma.

düzə dedilər nədən düz oldun. dedi: - əğriydim qala bilmədim. əğriyə dedilər: - nədən düz olmadın. dedi: - doğruydum, əğriliklərə dözə bilmədim.

düzə inanan düzdə qaldı, duza inanan onmaz maldı. (düzdə qaldı: əli boş qaldı) (onmaz maldı: düzəlməz eşşəkdir).

düzəldi hər yarağımız, qalmışdı saqqal darağımız.

düzələr işlərimiz az dözsən, ağlamaqdan nə çıxar az gül sən.

düzələr süngü qılış yarası çox, düzəlmir dil yarası çarə yox.

düzəlmişdi hər yarağımız, qalmışdı saqqal darağımız.

düzənə sox düşüncəvi, başına uçur keçmiş evin. (günüvü bilməzə bıraqsan, keçmiş dusdağın sənin).

düzənə soxsan düşüncəvi, başına uçar keçmişin evi. (keçmişin yoxluğu tanınar).

düzgü (təğvim) işə gəlməz, əsgiyincə.

düzgünə dos az olsada uz olar.

düzgünə uyan armamış. (**düzgünə**: dəsdura. proqrama).

düzgünə uyan, quyusun tanar. (**tanar**: tanır). (**düzgün**: dəsdur. proqram).

düzgünə uymaz, amaca ulmaz. (**ulmaz**: ulamaz. çatmaz). (**düzgün**: dəsdur. proqram).

düzgünlügü çox az kişi göstərər, sevgi sözün qalmaz kişi söyləyər. (**düzgünlügü**: sədaqəti).

düzgünlügü çox az kişi göstərər, sevgi sözün qalmaz kişi söyləyər. (**düzgünlügü** : sədaqəti).

düzgünü qur, onunla yür. (**düzgünü**: dəsdurü. proqramı).

düzgünü pozuq, yolları yozuq. (yozuq: yazıq. sapıq. ataqsız. amacsız. kötü). (**düzgün**: dəsdur. proqram).

düzgünün dizginin alsın düzən əllər əlinə. (**düzgün**: dəsdur. proqram. bərnamə). (**dizgin**: yular. cilov. kontrol). (**düzən**: yasan. yaradan).

düzlük borcundur, yalançılıq oğurluq.

düzlük güdülməz, yalançılıq gözlənməz.

düzlük sayqı təməli.

düzlük tutarlı nəsnə, ucuzlarda, hər kimsədə bulunmaz, hər bir yerdə əkilməz. (**tutarlı**: bahalı).

düzlük tutarlı nəsnə, ucuzlarda, hər kimsədə bulunmaz, hər bir yerdə əkilməz. (**tutarlı**: bahalı).

düzlük, borcunan, batırlıq, vuruşnan, dosluq yaman gündə bəllənər.

düzlük, düz kişinin görküdür. (**görküdür:** gözəlliyidir).

düzlük, düz kişiyə yaraşır.

düzlüksanı öğrədər qandırmağı, qanıqmağı. (**düzlüksanı**: doğru, uz düşüncə). (**qandırmağı, qanıqmağı**: razı salıb razı qalmağı).

düzlüyə, - biləkdə, bilikdə gərək.

düzlüyün canı, insafdır. (düzlüyün canı, ruhu, özü insafdır).

düzlüyün dabanı toxluqdu.

'düzü' anlayan elə az olur, sonradan çoxluğa anladır. (araz gündüz).

düzü qoru yalandan, yalan tapar öz yolun.

düzü yazan əğri, -pisi qanmaz, düzə yanmaz, yaxar dünyanı, özü yanmaz, heç uvanmaz, üz utanmaz, (**uvanmaz**: vicdan ezabı çekmez).

düzü yoxuşu enişi, kəndi asqından sayqın asılı. (verilən dəğərin bir yanıda kişi özüdür).

düzük düzər düzən pozar sürən çağ. (**düzük**: kələk) (**düzən**: sistim).

düzümün ornayan (ölçüb, biçmək), dözümsüz qalmaz.

düzün birlə görün, ütük gördün sürün. (düz olanla görü. , yalançı, kələkçi gördun çəkin, üzdənmə).

düzün denə yorulma. uzun geddə qırlma. yaxın durda alınma, tutulma.

düzün duzuna baxma, duzsuz gördün çaşma.

düzün toru, hörülü olar. (axmağın işi torsuz, qadasız olmaz).

düzün toruna düşmək. (axmağın (sadə kişinin) toruna düşmək).

Ecel geldi cihane, baş ağrısı bahane, Ölüm kaçınılmazdır. Bahanesiz ölüm olmaz, Her ölümün bir nedeni olur. Acel geldiği zaman ertelenmez ölüm gerçekleşir. (Bayram Özdemir).

Eceli gelen köpek cami duvarına siyer (işer). İnsanların kutsal degerleri vardır. Bu kutsal değerlerle alay eden, hakaret eden kimseler bunun cezasını çekerler. (Bayram Özdemir).

eçgi (geçi) özü doğa albaymış, qoyqa anaçı giriptir. (geçi kəndisi doğuramamışkən, qoyuna əbəlik edməyə getmiş).

eçmişin yansısı girməsin uykuva, yumma aç qapaq, dan atır gözüm.

edə bilmisən, qala bilmisən. qalısan edə bilmisən. "edməginən" "qalmağın" ortağı istəkdir, istək oğul.

edən qurtuldu, diyən tutuldu.

edərsiz biriysə ucradı yolda, sapıb yoldan uzaq durmaq yeğ gəlir. (**edər**:. dəğər. qiymət).

edgiligin bir yola, yamanlığın min yola!. (edgiligin: **eyiligin**. **iyiligin**. **yaxşılığın)**. (**bir yola**: bir yönə. bir tərəfə). (iyiliq eddin, qarşılıq gözləmə, kötülüq etdinsə, min kərə qaşılıq gözlə). (iyiligin yolu bir tərəfədir, qaşılıq gözlənilməz, getdi gəlməz, ama kötülügün yolu, min təfəflidir. bir kötülük yaparsansa, olsun ki min kərə sənə qarşılıq verilsin).

edgilikdən, yaman yox. (edgilikdən: eyilikdən. iyilikdən. yaxşılıqdan). (yaxşılıqda itgi yox). (yaxşılıqda: yaxşılıq edməkdə). (yaxşılıqdan kimsə itirməmiş).

edim qılım bir günə ki dəğişməz. (**edim qılım**: xulq xəsiyət. xulq xuy).

edim qılım sütlə sümüyə girir, qanla canla çıxır. (**edim qılım**: xulq xəsiyət). (**sümüyə**: gəmiyə).

edim qocaldı yazıq çəlikdə tutmur əli, dedi qocalsada o, yaxar könül, o sözki onda durur.

edin qazan keçir yaş, bu gün yarın axar baş. (**edin**. ərdəm. çıxar. bacarıq).

(ərdəm qazan yaş keçmədən, baş axıb ölmədən).

edindiyin sevənlər, sevdiklərin edinsin.

edindiyin sevənlər, sevdiklərin edinsin.

edindiyin sevməqıl, sevdiklərin edinqıl**(edinmək**: əldə edmək).

edindiyin sevməqıl, sevdiklərin edinqıl**(edinmək**: əldə edmək).

edqülük sanmaq, doğruluq etmək. **(edqülük: iykülük)**.

edmə qul könlü gözə, ökdə başın yığ sözə. **(ökdə: öküt**. us. ağıl).

edmə şaka, çıxar dava.

edmə şaka, çıxar dava.

edmə yarlıq yamana, çalış tay ol yaxşıya.

Eğreti ata binen tez iner. eğreti: geçici. Geçici olarak başkalarının yetkisini ve haklarını kullanan kişiler çabuçak bu yetkilerini esas sahiplerine devreder. (Bayram Özdemir).

eğrinin iki yaxası bir araya gəlməz.

ekleme quyruq, tez qopar. (**ekleme**: yapışdırma).

Ekmeden biçilmez. Emek vermeden bir şey kazanılmaz. Fedakarlık yapmadan karsındaki kişiden fedakarlıkbekleyemezsin. (Bayram Özdemir).

el ağrısı az gəlməz, gengəşli don dar gəlməz. (elin hər gün üçün bir sorusu olr).

el ağzı yığınmaz, çəllək (dolça) ağzı boğulmaz.

el ağzı, bol (açıq) olar.

el ağzı, çuval ağzı, yel ağzı.

el ağzı, yel ağzı.

el ağzına baxan aç qalır.

el ağzına baxan aç qalır.

el ağzına baxan, qadının tez boşar.

el ağzına baxan, qadının tez boşar.

el ağzına "ələk" tutmazlar.

el ağzına "ələk" tutulmaz.

el ağzına qalan, buğdan saqqaldan olar.

el ağzına qalan, buğdan saqqaldan olar.

el ağzında alalıq, sözün başa qadalıq. (el içrə sözbirliyi olmasa, ağzındaki söz başan bəla olar). (sözbir olmayan eldə danışma).

el ağzında **bir** söz əkən **yüzün** dəyər.

el ağzıyla ev qalmaz, ev ağzına el durar.

el alır qız, **"quda"** qazanır, mən aldım qız, **"qada"** qazandım. **(quda**: qohum). (**qada**: bəla).

el alır qız, "quda" qazanır, mən aldım qız, "qada" qazandım.

el aparır yalanla, kötü sayır yalanları yalandan.

el atan daş uzaq düşər.

el atan daşa güc düşməz.

el atı tez yorular.

el atsa daş dağ aşar, baş olmasa el çaşar. (**baş**: başçı).

el başdan gücalar, quş qanatdan. (**başdan**: ağıldan. bilgidən).

el bəğənməzsə, yer bəğənsin. {gözdən düşüncə, ölmək yeğ (iyidir)}.

el birikib, ağız birləşsin, elizə dosluq yerləşsin.

el çalışar, yer sevinər, yer barlanar, el sevinər.

el çarasız (olmaz), mərd yarasız.

el çarasız olmaz, mərd yarasız olmaz. (el çarasız, mərd yarasız olmaz).

el çetinə yağı gəlsə, can ayağan yigitmi?. (ölkə sınırına düşman gəldiğində canına acıyan iğit sayılırmı?).

el dediyin kimindir, dil dediyin elindi.

el dəlisin, kor çəliyin tanıyar.

el dilə bağlı, yurd elə.

el düşmanına, gordan yeğrək, dusdax yoxdu. (**yeğrək: yaxcı**).

el düşmanına, gordan yeğrək, dusdax yoxdu. (**yeğrək**: yaxcıraq).

el el üçün ağlamaz, başına qara bağlamaz. (**el**: yad).

El elə sığar, ev evə sığmaz! (Anlamı bir dövlət o biri dövlətin içində yaşaya bilər, ancaq bir ailə o biri ailə ilə bir evdə yaşaya bilməz, ailənin-ocağın özgürlüyü pozula bilməz, bir evin işinə o birisi qarışsa bu ev dağılar). (Araz Gunduz).

el elə sığar, ev evə sığmaz.

el elə sığar, ev evə sığmaz. (evdən evə ışıq düşməz: hər evin öz ışığı var). (**ışıq**: qiblə).

el elə sığdı, ev evə sığmadı.

el elə söykənər, dağ dağa.

el elin eşşəyin, türkü çağıraraq arar. (**türkü çağıraraq**: oxuya oxuya).

el eybin sənə deyən, sənin eybin elə deyər.

el ərə sığılar, ərdə elə.

el ərə sığınar, ərdə elə. (**sığınar: ümidi var**).

el gəldi gəlin görməyə, gəlin getdi təzək dərməyə.

el gözünü dil açar.

el hakimin əlinə, hakim elin cibinə baxar.

el içi, gəp içi. (el içi sözsüz olmaz).

el içində düşsə ayırlıq, yol salar, qol atar yağırlıq. (**ayırlıq**: düşmançılıq. iftiraq. nifaq).

el içrə düşsə tazıt, bəlinməz birbirindən varlı nə yazıq. (**tazıt**: ürküş. vəhşət).

el içrə gəzmək üçün, axmaqca danış, başlıca düşün. (**başlıca** : ağıllıca).

el içrə gəzmək üçün, axmaqca danış, başlıca düşün. (**başlıca**: ağıllıca).

el ipiylə quyuya inən, quyuda qalır. (**el**: yad).

el istəməz, kimsə verməz.

el köçsə oba qalmaz, dil çöksə el qalmaz.

el qaldı, törü qalmaz: topraq gedər, xuy gedməz.

el qaldırar ağır daş, yel qaldırar yenni daş. (**yenni:** yengi. yüngül). (yenni daşı yel qaldırar, ağır daşı el qaldırar).

el qalxar, duru qalxmaz. **(duru:** adət). (el unudulur, adət yox).

el qapısı gec açılar, güc açılar.

el qapısı həm gec, hem güc açılır. (**el**: yad).

el qazanı ilə, aşın qaynamaz.

el qazanıyla, aş qaynatmaq. (özgələrin yaraqlarından (araclarından) yararlanaraq, işin yeritməyə çalışmaq).

el qonmadan, it susmaz. (el qonmasa, it susmaz).

el qonmadan, it susmaz. (el qonmasa, it susmaz).

el qulağı su tutmaz.

el oğlu, yumurtaya qılp qoyar.

el oğrusu, dağ börüsü qırılsın.

el oğrusuz, dağ börüsüz olmaz.

el oğrusuz, dağ börüsüz olmaz. (**börüsüz:** qurdsuz).

el oğrusuz, ev sözsüz, oğru tutular, söz açılar. (**açılar:** danışılar).

el oxusun oylansın, öz başını qurtarsın.

el öz dəlisin tanıyır, bəllənmir kimə inanır.

el sılayar aş verər, uluğ sılar baş verər. (**sıylasa**: **sılar**: lütf edər). (**uluğ**: tanrı).

el üçün ağlayan, gözdən olur. (başqasın çox düşünən, özün tez unudur).

el üçün bayraq açılsa dil durur.

el yaxşı, biz yaman. el buğda biz saman.

el yolunda. -güc yetirsə, qılmağımız borcumuz, yetməyirsə borcluyuz.

el yolunda. -güc yetirsə, qılmağımız borcumuz, yetməyirsə borcluyuz.

el, dəliyə gülər, dəlidə elə.

el, hakimin əlinə, hakim elin cibinə baxar.

elağzı ala olsa, öz başına bəla açır. (elin gücü ağız birliyindədir).

elçi az oturub çox görər.

elçi başı dil.

elçi çox olar, qisməti bir.

elçi dililən, düğün əlinən, xarman yelinən, topraq belinən (hər nəyin öz gərəci var). (**gərəc**: uyqun arac).

elçi gəlsə gözü var, evin qızlı sözü var.

elçi odur eliçinə gün sala, bulam olsa qaldıra, eygiligin artıra. (**gün**: dinclik) (**bulam**: fitnə). (**eygiligin**: əmniyyətin).

elçi olan qayğı çəkər ötər qıraq salmaz elin içinə, yaşam gücsə verməz gücün heçinə. (**ötər qıraq**: yana qoyar. yan keçər).

elçi olub el obanı gəzərsən, hovan olub boy buxunun bəzərsən. (**elçi**: el hovalı. elsevən). (**hovan**: axmaq).

elçi olub el obanı gəzərsən, hovan olub boy buxunun bəzərsən. (**elçi** : el hovalı. elsevən). (**hovan** : axmaq).

elçidən söz alarlar, düşmandan göz.

Elçiye zeval olmaz. Eli kişiler veya devletler arasın da aracılık yaparlar. Neyle emredildiyse onu söylerler. Söylenmesi emredilen sözlerden emreden sorumludur, Elçi sorumlu değildir. Elçi bu sözlerden dolayı cezalandırılamaz. (Bayram Özdemir).

eldə düzər, el pozar, qulaq duyar göz görməz. (**tapmaca)**. **(söz**).

eldə düzər, el pozar, qulaq duyar göz görməz. (**tapmaca)**. **(söz**).

eldən atılmış, külsıra qalmış. (**külsıra**: külbaşlı. kimliyi alçalmış).

eldən atılmış, külsıra qalmışlar. (**külsıra**: külbaşlı. kimliyi alçalmış).

eldən ayrı düşəni qur yeyər.

eldən bəfa, ağıdan şəfa umma.

eldən gəlsə məlamət, qalanmazsan səlamət.

eldən qalan dil olsun, seldən qalan iz olsun. oddan qalan kül olsun.

eldən uman, gorunda bulur. (**el**: yad. özgə).

eldən yaxşı sözün, gülər üzün, açıq könlün qısqanma. (eldənğ yaxşı sözünğ, gülər üzünğ, açıq könlünğ qısqanma).

elə ağac yoxdur ki, üstündə qarqa oturmasın.

elə bağlılıq, kişioğluna güc verirdə, qut verir.

elə batmışıq çilə, bilmirik nədir çillə. (**çilə**: dərdə).

elə dədə belə gədə, elə eşşək, belə köşşək.

elə fırıldaq gəlib ki, fırlana fırlana qalmışıq.

elə günə düşüb ki burnun ucu titrəyir.

elə işənən ac qalmış. (**işənən**: inanan).

elə iygilik isdə. **{**iyiliyi su dibində kəmiş, başında dilə. (**dibində**: ayağında, altında). **(kəmişmək:** əkişmək. gəmişmək. gömüşmək. quylamaq)}. (əkməyi suyun tübünə (dibinə) at, betində (üzündə) topla). (əkməyi su

tübünqə (dibinə) daşla, su betində (üzündə) gözlə (izlə). - əkmək su dibində qalmaz, suluq odun yanmaz. (**suluq**: şeh. nəmli)**.**

elə iygilik isdə. **{**iyiliyi su dibində kəmiş, başında dilə. (**dibində**: ayağında, altında). **(kəmişmək** :əkişmək. gəmişmək. gömüşmək. quylamaq)}.(əkməyi suyun tübünə (dibinə) at, betində (üzündə) topla). (əkməyi su tübünqə (dibinə) daşla, su betində (üzündə) gözlə (izlə). - əkmək su dibində qalmaz, suluq odun yanmaz. (**suluq** : şeh. nəmli)**.**

elə sınmış qanadım uçamağ artıq tov yox, nə bileydim yadav ölkə qonağun doğçalamaz. (**doğçalamaz**: doğma saymaz).

elə uğramaz 'nəyə' yaramaz. (elinin yarasına yarımayan, kimə yarıdı).

elə uydum evim tozdu, evə uydum elim. (**tozdu**: dağıldı). {el (xalq, özgə) ağzına baxıb ev saxlanılmaz, evdəkilərin açısıyla kəndi kimliyin doğulmaz}. {ikinci anlam. evin (xanımın) sözü ilə eli, dosdu qoruyanmazsan}.

elə ver aşın sıylasın başın.

elə verir dalqımı, kendi yutar salxımı. (**dalqım**: üzüm püsgülü).

elə verir təlqini, kəndi utur salxımı.

elə verir təlqini, kəndi utur salxımı.

Elə yaxşılıq elə, sağ əlinin verdiyini sol əlin bilməsin. (Araz Gunduz).

elə yanan kül, ağlayan kor olmuş. (**elə**: özgəyə. yada).

elədə qalmaz. -at gedibdə qalırsa qatır, dünya sürər sona çatmaz.

eli düzən,eli pozan el başçı. (**el başçı**: yolata. rəhbər).

eli gəzən, el tanır, yolu gəzən, yol tanır.

elik, kişilərin bir tin təməllərinə gərəklərinə dayanaraq bir topluma çevrilməsidir. (**elik**: millət). (**tin təməllərinə**: ruh əsaslarına).

elim günüm gülməsə, ayım günüm doğmasın.

elim günüm olmasa, ayım günüm doğmasın. (birinin elinə yurduna bağlılığın ötgəzir). (**ötgəzir**: yetirir. müntəqil elir) i.

elimizin çıxarı olar saxlar, çıxarı olmaz qoşular giclərlə sürünər, köləlik yaşın sürər.

elin ağzı ağızduraq götürməz.

elin ağzı torba deyil ki büzəsən.

elin ağzı yığılmaz, çəlik ağzı boğulmaz. (**çəlik**: dol. dolça).

elin atan, başı, daşdı, dilin satan, qırdıqaçdı!. (**qırdıqaç**: satqın. saltasız).

elin birlə birgə olub yaşarsan, iyi işlə könüllərə daşarsan.

elin çoxluğuna güvənmə, birliyindən al güvən.

elin danmış, **'yolun azmış'** demişlər.

elin dərdin çırpda daşa, elində! ol ağrıdaşı (dərddaşı).

elin düşsə çoğun eşinə, nərsə qılın, yaran işinə. (**çoğun eşinə**: fələk kələyinə).

elin güdən eldən önə keçənməz, könlün gəzən vurmuş aşmış dağları.

(**könlün gəzən**: dilək gəzən).

elin gümən, puluna qıyar. (**gümmək**: sevmək. sevib gözləmək).

elin kəllə başı olursa, başı yolsuz, yolu başsız sürünməz.

elin kəllə başı olursa, başı yolsuz, yolu başsız sürünməz.

elin oğlu oxur atomu bulur, bizimkilər oxur, elini bölür. (**elin**: yadın. özgələrin).

elin oğlu oxur atomu bulur, bizimkilər oxur, elini bölür. (**elin**: yadın. özgələrin).

elin sevən özün sılar. (**sılar**: hörmət qoyar).

elin söğən atadan min, anadan on olur.

elin söyən çöldə qalar, tüm qaranı üzdə yığar. (**söyən**: nifrət edən).

elin sözu evə sığmaz.. (eşik, toplum soruları, sözü evdə çözülməz, konuşulmaz).

elin varında gözün qalsın. (çox üzgün, yoxsul düşəsin). (qarqış).

elindən ısrıq, özündən üzrük, savından dönrük: eldən qovulmuş, sevikdən (eşqdən) üzülmüş, əhdindən dönmüş.

Eline arxalanan iğidin arxası yere gelmez. (Kordus).

Eline, diline ve beline sahip ol. Hacıbektaşı Veli hazretleri. (Bayram Özdemir).

elinə ağlayan qalmır, elindən yazan qalır.

elinə gümən, malına qıyar. (elinə gümən: elinə güvənən, elindən görən, güdən. elindən gümanı olan). (**qıyar**: imsak edməz).

elinə yaman tapmaz aman. {elin sevməyən güvəş itirir). (**güvəş:** e'timad bi nəfs)}.

elini sayan, dilini danmaz, dilini danan, atasın anmaz! (**anmaz**: xatırlamaz, xətir saxlamaz).

Elini ürküt, axsağında yapış. (Evlənmək istəyənlər üçün deyərlər). (Ara Gündüz).

elinlə ol, eldən olma.

elinlə olsun toyun bayramın, görən desin doğan elin var olsun.

elizə günüzə qutluq!.

ellər ara il bolsun. (**il:** yil. ilik. yilik. (rabitə). barış).

ellər köçər, dağlar qalar.

ellər qısqaşda qalmayınca heç nəyi dəğişməz. (**qısqaşda**: məcburluqda. zərurətdə).

ellərin tini dilində yatır, ellər ölür dilləri qalır. (**tini**: ruhu).

ellərin tini dilində yatır, ellər ölür dilləri qalır. (**tini**: ruhu).

elsiz kişi, gölsüz balığ.

elsiz qalan uca dağlar başından, ağac itər, yollar gedər iz qalmaz. (hər yurdun dəyərin yaşaycıları verir).

Emmim dayım kesem, elimi soksam yesem. Akrabalarının verdiği ile rahat bir hayat olmaz, Karşı karşıya galırsanız başınıza kakarlar. En iyisi kendin kazan minnet etmeden de harca. (Bayram Özdemir).

endirməyin (qazanmağın) bilməyən, qaldırmağın nə bilir.

enəndən 'hoş' minəndən 'hin' eşitdim.

Engin daldan dut yemem, G. te yaxın yerden et yemem. (Anamın sözü). (Kordus).

enginlərin dərinligin sevənlər, dənizlərin dalqınlığın öyərlər. (**engin**: uqyanus).

enik küçük qurd basar. (enik küçük qurd təpər). (tula qurda atılar. tula, qodukluğuna görə (kudəkliyinə görə) qurdu enmək istər. niyə çünkü qoduğdur (kudəkdir), qanmır ki, qurddan əmi çıxmaz).

enik küçük qurda təp (bərk) təpilər.

enik qaldıq, minik geçdi.

Er ek, geç ek, tava ek. İster erken, ister biraz zaman geçince ek, tohumu, toprak nemliyken ek ki tohum çimlenip çıkabilsin. (Bayram Özdemir).

erçək acı isə, yalan ağudur.

ergən (özgə) gözlə qız alma, gecə gözlə bez alma. (**gözlə**: gözilə).

erken kalkan yol alır, erken evlenen döl alır. erken kalkan işlerini çabucak yapar amacına ulaşır. erken evlenen de genç yaşda çoluk çocuğa garışır, mürüvetlerini görür. (özdemir).

erkək dişi hamaşmaz, çaqqal tülkü oxuşmaz! (**oxuşmaz**: tutuşmaz). (**hamaşmaz**: dəngişməz. təngişməz. üst üsdə düşməz). (erkəklə dişi kəndi özəl baxışları var evrənə, çevrəyə).

erkək ev yapır, qadın oda. (yuvanı dişi quş yapar).

erkək əlin saxlasın, qadın dilin qorusun!.

erkək üçün mutlu seviş birinci, qadın üçün mutlu seviş sonuncu.

erkək yaşın gizlətməyə, qadın yaşın bəllətməyə başlırsa, qocalığa söz olmaz.

erkək yaşın gizlətməyə, qadın yaşın bəllətməyə başlırsa, qocalığa söz olmaz.

erkək yoldaşdan bəllər, xanım boydaşdan. (**boydaşdan**: yaşam yoldaşından).

erkəklə kəl əş tutulmaz. (**əş tutulmaz**: aynı tutulmaz).

erkəklər boş tutdular, dişilər bərkitdilər, evdən xoşluq, gündən quşluq uçar oldu. (**bərkitdilər**: bərk tutdular). (**gün quşluğu**: günün doğan çağından öğləyə qalmış sürə. günün ən çalğın, mut, umut dolu çağı).

erkəklər sevəndə sağır, dişilər sevəndə kor olurlar.

erkən qalxan yol almış, bilib əkən tox qalmış.

erkən qalxan, erkən çatar evinə.

erkən qalxan, erkən çatar.

erkən onğmayan, gec onğmaz, gec onğmayan, heç onğmaz. (erkən düzəlmiyən, gec düzəlməz, gec düzəlmiyən, heç düzəlməz).

erməni hər poxundan əl çəksədə, dığalığından əl çəkməz. (**dığalıq:** gədəlik).

ermənіyə bir otralıq yer versən, orda yatar. (**yatar**: yerin salar).

ertə qanmayan gec qanmaz, gec qanmayan, heç qanmaz.

ertə namaz gec namaz, ağılda qoyun qalmaz.

ertələb gecə ağlayu, yırtalab bağır dağlayu, qalmazda yağ ürəkdə, qan damarda çağlayu.

ertələmə gün işin, işi bitirdə şişin. (**ertələmə**: yarına qoyma) (bağlaqılan gün yeşin, ertələmə gün işin). (**yeşin**: **yeşigin**. yükün).

ertəyə qalan arxaya qalar.

ertəyə qalan bəladan qorxma. (**ertəyə**: sabaha. yarına).

ertəyə qalan, arxaya qalar.

ertin çıxsa yoluna, qarşılayar gün onu, gecin girsə yoluna, qarşı tutar tün onu.

ertir durda işdə ol, güdə günün uzansın.

ertir durda işdə ol, güdə günün uzansın.

ertir durub saçın darar yaxşı qız, quşluq durar çörək dilər yaman qız. (**ertir** : tezdən). {**quşluq**: irlə güorta arası. (**irlə:**sübhlə.}.

ertiriin başlasa iyi, gün qalanı yağ üsdə. (**ertiriin**: sabahın).

ertirki quyruqdan, bu günki öpgən yeğ. (**ertirki**: yarınkı. sabahkı). (**öpgən**: ağ ciyər).

esgi küyzə, dövük qulpu man deyil. (çalışqanın yanılması man deyil).

esinə yığan əsgi üsgünü, yorqun qalar düşünməyə, için boş, beyin yüngül ola, iri atdımla yarınları döğünməyə. (**esinə**: xatirinə. yaddaşına) (**yarınları döğünməyə**: sabahları atdımlamağa).

eski aldışı qayuq çoğunun, oğrunu qoysun, doğrunu tuşsun. (**tuşsun: tutsun**). (**qayuq çoğunun**: qəhbə, namət fələyin).

eski aldışı qayuq çoğunun, oğrunu qoysun, doğrunu tuşsun. (**tuşsun: tutsun**). (**qayuq çoğunun**: qəhbə, namət fələyin).

eskidən böylə, dəğirman dönər, təvrəgin öğər. (**təvrəgin**: girdə daşın). (**öğər**: övər. oğar).

Esmere al bağla karşına geç ağla, Esmer, gara, Kara yağız kişilere al elbise yakışmaz. (Bayram Özdemir).

eşdib ata ananın, savlarını qoyurma.

eşdiyin quyuya düşəsi. (öz oyunuva gələsən. kəndi kələyivə gələsən).

Eşeğe altın semer de vursalar eşek, yine eşektir. Değersiz insanlara makam, unvanda versen. en güzel elbiseler de giydirsen. Bayağı ve adilikten kurtulamaz. (Bayram Özdemir).

Eşek eşeği öndücüyle kaşır. Öndüç, karşılık. Çıkarcı insanlar karşılıksız hiçbir şey yapmazlar. (Bayram Özdemir).

Eşek hoşaftan ne anlar, suyunu içer denesini bırakır. Bilgisiz ve görgüsüz kimse, ince güzel işlerin verdiği zevki, tadı anlayamaz. (Bayram Özdemir).

eşə eşə topraq gəlişər, söyləyə söyləyə söz.

eşə eşə topraq ürər (gəlişər), söyləyə söyləyə söz. (eşə eşə topraq gəlişər, söyləyə söyləyə söz).

eşək ata demişki: yoxuşda sən məni güd, enişdə mən səni küdərəm.

eşək bir kərəm yıxılan yerdən, ikinci kərəm keçməmiş.

eşək bulsan palan ol, palan bulsan eşək yox.

eşək gülü iyləməz, yeyər.

eşək gülü iyləməz, yeyər.

eşək işsiz qalmaz.

eşək minənin ayağı, iki arvadlının qulağı dinməz.

eşək olan çulun tapmış. (çoxun işlər qarşına qarşın yapılır).

eşək olsa, palan tapılar, isti təndir, unun olsa, çörək yapılar.

eşək öldü palan qaldı, doğru köçdü yalan qaldı.

eşək öldü palan qaldı, doğru köçdü yalan qaldı.

eşək səmirsə yiyəsin təpər.

eşək səmirsə yiyəsin təpər. (yedir yetimi siksin götüvü).

eşək tanımaz alşaq, at bilməz. (**alşaq**: alçaq. əsgik).

eşək üsdə yüküm yox, aşırsında qayğım yox.

eşəkin quyruğu kimi nə uzar, nə qısar (qısanar).

eşəklə eşək gərək. {**eşək**: (< **eşmək**). eşici. tovlaq. kələkçi. hoqqaçı)}. yaman ilə yaman gərək, eşşəkliyə saman gərək. kopoyoğlu ilə kopoyoğluluq gərək).

eşəklə evlənən yükündə çəkir, ununda daşır. (**eşəklə evlənən**: eşşəkdə oturan).

eşən əkdi, əkən dərdi!.

eşəyə quyruq, öküzə buynuz, ağır olmaz.

eşəyyin quruğu kimi nə uzar, nə qısanar.

eşidən dəh gələmir gözlə görən qarşında.

eşidən görənə xəbər verir.

eşidən görənə sav salır (xəbər verir).

eşidən qulağ, baş ağrıtmaz! (bu kişini, qulağı işə tutmağı, qulaqdan iş çəkməyi öğrədir).

eşidən qulağda suç yox.

eşidən qulaq başın dardan qurtarmış. (eşitdiyin doğruca açıqlamış, qavramış kişi, başın dara verməz).

eşidən qulaq bir asılsa, deyən dil, min asılmış.

eşidənə bir söz keçər, eşitməzə mini neylər. (dinlər qulaq bir söz ilə yol tapar, dinləməzsə min söz belə boş çalar).

eşik açıq olsada, sorab gir. (**eşik**: qapı).

eşik qar, içəri dar.

eşik sözü evə girsə ev yıxar. (demək ev yatağında eşik sözləri, siysət qulan danışlmaz) (**qulan**: filan).

eşikdən çıxar, deşikdən girər. (**eşikdən**: qapıdan).

eşikli ipə tutulma, tutduğun ipi eş. (yaşamda yol çığırlardan, kəndi yoluvu eş, toxu, qur).

eşiksiz qalan baş, işsiz qalmaz. (**eşiksiz**: (< **eşmək**). məşquliyyətsiz).

eşiksiz qalma, bitli mal alma. (**eşiksiz**: (< **eşmək**). məşquliyyətsiz).

eşili dünya tərsə fırlanır. (**eşili**: tovlaq. tovlu. kələkçi).

eşinmədən işənmə. (quşqulanmadan inanma).

eşit qıl dosdu yarı təklik olmaz əşimiz, tikə ağır çətin olsa işimiz, bir bir qırar qoymaz qala dişimiz.

eşitdiyin hər nəyi çiğinə aldın, gördün gedir sola, onqura sandın, tək deyilsin, gənclər səntay, günü gəlsində, qarır, yanlışlığın qanır. (**çiğinə almaq**: ciddiyə tutmaq). (**qanır**: düşünür). (qulağın duyduğunu ciddiyə tutdun, əğri getdiyini gördün, ama dedin olasun (inşallah, bəlkə) doğrudur, bu düşüncədə səndə tək deyilsin, taydaşların, gənclərə taysan, yaşayıb qocalırsın, yanlışığın anlarsan).

eşitmək olmamış görməkdən irdək. (**irdək**: irəli. əfzəl).

eşitmək, öğrətir, görmək, biltirir!. (öğrətmək: tansıtmaq. öğrəti, teori olaraq bildirmək). (görmək: 1. gözlə tanımaq. 2. qılmaq. çalışmaq). (bildirmək: qandırıb iç eləmək).

eşitməsə söz qulaq, başı olar kor ulaq.

eşitməsə söz qulaq, başı olar kor ulaq.

eşitsənsə ölmüşəm, qımıldama yerindən, susub düşünsən bir az , yazılmışı yayarsan, yazılmazı yazarsan.

eşq ağladır, dəd söylədir.

eşq çiçəgə bənzər, ən gözəli günündə ölər.

eşq kiçik böyük tanımaz.

eşq kimin batırır, kiminə yatır, kimin bulatır.

eşq köləlik deyil.

eşq köləlik deyil.

eşq kölgəli yoxluqdur.

eşq küçük büyük tanımaz.

eşq mal deyir satıla, mallara qatıla, bir "maldan" alına, "öküzə" satıla.

eşq oddur əllə tutulmaz, dönər daşa utulmaz.

eşq olan yerdə biliklər qapısı bağlı durur.

eşq olan yerdən uzaq durmaz çilə. (**çilə**: dərd).

eşq olmasa canlar ilə devran sürə bilməz.

eşq olsa quranmaz yuva qorxu.

eşq olsa nələr çəkilmir.

eşq olsun bacardığı kimi yox, istədiyi kimi yaşayana.

eşq olsun bacardığı kimi yox, istədiyi kimi yaşayana.

eşq olsun qananlara, inanmayan yalanlara.

eşq oyunçaqdır alan çox, itirən yox!.

eşq var tapar səni, eşq var yapar səni. (**yapar**: düzəldər. yüksəldər).

eşqdir dəngə verir hər yaşama, eşqsiz dəngə bulanmaz bulğan. (**dəngə bulanmaz**: dinc bulanmaz).

eşqə dolan dirilər, eşqə doyan ölülər.

eşqə dolan dirilər, eşqə doyan ölülər.

eşqə gürəş olmaz, eşqilə gürəşmək olur.

eşqi nisgillə yaşa, nisgili eşqin ilə yok.

eşqi nisgillə yaşa, nisgili yaşatma bırak. (**bırak**: ama).

eşqi ölümsüz bilənlərdən, çevrəmi ömürlük sevənlərdənim.

eşqi, sevgini yaşamaq gərək. (sevgi keçmişdə qalmaz, sevgiyə keçmiş yaramaz).

eşqi, sevgini yaşamaq gərək. (sevgi keçmişdə qalmaz, sevgiyə keçmiş yaramaz).

eşqilə mən yaşaram nisgilivi, əkərəm sevgi otun, tikən boğub çiçək doğar.

eşqin donuğun görüb, eşqin dönüyün görməyib. (**eşqin donuğun görmək**: eşqə tutulmaq). (**dönüyün**: xəyanətin. tərs üzün).

eşqin donuğun görüb, eşqin dönüyün görməyib. (**eşqin donuğun görmək**: eşqə tutulmaq). (**dönüyün**: xəyanətin. tərs üzün).

eşqin gözü kor olur, qulağı kar.

eşqin gözü kor olur, qulağı kar. (eşqin, gözü yox görə, qulağı yox eşidə).

eşqin kiçik böyügü yok.

eşqin tərs uvandı olmaz, qırığ qalmaz, üzük durmaz. gedəni boşver, qalanı xoş ver.

eşqlə sevgi yeri almaşılmasın. (**almaşılmasın**: dəğişik salınmasın).

eşqsiz can, gövdəsi cansız durur.

eşqsiz yaşam könül istəməz, aşiq olan ağıl götüməz.

eşqsiz, can gövdəsi, cansız durur.

eşşəgə min ata çatınca, ata min baxta çatınca, baxtıvı tut sinə yatınca. (**sinə**: gora) (hər nəyin sonu var).

eşşəgivi bağla, sonra allaha ısmarla (: tappışır).

eşşəgivi bağla, sonra tanrıya (allaha) ısmarla.

eşşək adam öz başını düşünər, yaxcı adam yoldaşını.

eşşək atla yarışmış, quyruq, qulax qarışmış.

eşşək ayar başım olsa (başım sağ olsa), dənizdən su içərəm. (**ayar**: **aytar.**deyər). (yekə arzular üçün, uzun yaşam istəyən).

eşşək başı ağırlıq götürməz. (**ağırlıq**: hörmət).

eşşək bilməz tutarı nə arpanın. (**tutarı**: qiyməti).

eşşək demə özgüyə, eşşək odur qanmıya, qulaq duya anğmıya. (anğmıya: anlamıya).

eşşək görməyən, keçinin zırtlamasın toy bilər.

Eşşək hara, döşək hara? (Ara Gündüz).

eşşək qaçdı, ip uzandı.

eşşək qəşov götürməz. (eşşək nə bilir qəşov nədir). (at qəşovlanar eşşək yok).

Eşşək nə bilir zəfəran nədir? (Ara Gündüz).

eşşək nə düşünür, eşşəkçi nəyə.

eşşək nə eşşək, tükü məxmər, incə kəmər, üzü qəmər, yerişi at, üstündə yat, belinə min, evinə çat.

eşşək o eşşəkdi, palanı dəyişsə də. (geyimlə iç dəyişməz).

eşşək oğrusu varki sofuluk satır, haqdan gələn səsi bəyənmir.

eşşək olan öz başını düşünər, yaxcı olan yoldaşını.

eşşək olsan palan tapılar.

eşşək palansız, göt siksiz qalmaz.

eşşək sığalanmaz, sığır silkəniş bilməz.

eşşək üsdə yüküm yox, dağdan uçsa qorxum yox.

eşşək yeddi çeşit üzmək bilsədə, suyu görən kimi, tümün (hamısın) unudar.

eşşək yügürər, at küyər.

eşşək, atla yarışmış, quyruq, qulax qarışmış.

eşşəkçi eşşəyə baxar, qonağçı, qonağa.

eşşəkliyi bəs deyir, dəvəni yədəkliyir.

eşşəyə arxadan, xana qabağdan yaxınlaşma.

Eşşəyə dedilər qanacağını göstər, yıxıldı yerə ağnayıb toz qaldırdı.

eşşəyə dedilər, "oğlun olub, gözün aydın". dedi, "yüküm artıb, yemim azalıb".

eşşəyə görə çulu.

eşşəyə quyruğ, öküzə buynuz, ağır olmaz. (eşşəyə palan yük değil).

eşşəyə min ata çatınca. (eşşəyi minmək gərək, ata yetincə). (eşşəyi minmək gərək, ata yetincə görək).

eşşəyə minən iyinə dözər. (eşşəyə minən osdurağına dözər).

eşşəyə minmədən, ayağların sallayır, suya çatmamış, qıçın çırmayır.

eşşəyə palan, yük deyil.

eşşəyi minmək gərək, ata yetincə.

eşşəyi olmaq, eşşək olmaqdan yeğ!.

eşşəyi palan saxlar, evrəni yalan saxlar.

eşşəyi palan saxlar, evrəni yalan saxlar. (palansız eşşəgi işlətmək olmaz. palansız yağırlanar, yağırçalar. (**yağırlanmaq**: **yağırçalmaq**: kürəyi, beli sürtülərək yaralanmaq).

eşşəyi yükə çək, o gəlməsə, ona yükü çək.

eşşəyin burnuna yarpız tuddular iyləsin, yedi!.

eşşəyin hesabi başqa, eşşəkçinin ki başqa.

eşşəyin işi nədir toyda, ya su gətirməkdə, ya odunda.

eşşəyin qədrin atdan düşəndən sor.

eşşəyin quyruğu kimi nə uzar, nə qısar (qısanar).

eşşəyin yaxcı pisi, işdə bəllənər.

eşşəyin yügrəni, atın axsağı kar verməz.

eşşəyivi bərk bağla, andan tanrıya ısmarla.

eşşəyivi bərk bağla, andan tanrıya ısmarla. (**ısmarla**: tappışır).

Et tırnaktan ayrılmaz, Akrabalar birbini ne kadar sevmeselerde, aralarında antlaşmazlıkta olsa birbirinden ayrılmazlar. (Bayram Özdemir).

etdiyin yaxşılıq, iç çağrıva qarşılıqdır, kimsiyə bağış deyil. (**qarşılıqdır**: yanıtdır. cavabdır). (**bağış**: minnət).

etdiyin yaxşılıq, iç çağrıva qarşılıqdır, kimsiyə bağış deyil. (**qarşılıqdır**: yanıtdır. cavabdır). (**bağış**: minnət).

etdiyini bul, inləyib öl. (öz işlərivin (pisliklərin) qarşılığın alda, güc bir ölümə düş). (qarqış).

etgisiz söz, yağışsız bulut.

Etme bulursun, inleme ölürsün. Kötülük yaparsan kötülüğü iyilik yaparsan iyiyliği bulursun. İnlemeye (içini döğmeye) başlarsan da ölürsün. (Bayram Özdemir).

ev alan damdan evə baxmaz.

ev alan damdan evə baxmaz.

Ev alma konşu al. Ev alacak kimse komşularını seçmeli. Aldığı ev ne kadar da güzel olursa olsun rahat edemez. (Bayram Özdemir).

ev almadan qonşu al.

ev almadan, qonşunu tap **(tanı)**.

ev almadan, qonşuv tap (qonşuvu tanı).

ev düzənin yad sözləri özgətir. (**özgətir**: pozar. dəğişir) (yad sözlər, eşikdən girən sözlər evə uymazda, pozarda).

ev evə girsə, ev evdən olar. (**olar**: dağılar).

ev evi dağıdar.

ev hesabı, çarşıya uymaz. (bazar kökgəsi evdə salınmaz).

ev içində savaş çıxdı, ortama donu yırtışdı. (**ortama donu: ortalıq donu**: yaşama gərəcləri. məişət vəsayili).

ev kimindir ? - oturanın, söz kimindir ? - götürənin.

ev kimindir ? - oturanın, söz kimindir ? - götürənin.

ev kişinin aynasıdır.

ev oğrusu tutulmaz.

ev yapan balta, dışarıda qalır.

ev yengəsiz, yol döngəsiz olmaz. **(yengə**: bir evdə qalan, bir evə düşüb qalan, oturan, anut (hazir) bulunan qız, xanım).

ev yiyəsi tutanmasa oğrunu , kəndi özün qınarmış.

ev yoldaşın yamansa, tütün basar qır qutar.

Evdeki hesap çarşıya (pazara) uymaz. Yapacağımız işleri ne kadar da iyi planlarsak planlayalım, beklemediğimiz, ummadığımız bir engel çıkabilir. (Bayram Özdemir).

evdə ara sırdaşın, yola çıqsan yoldaşın.

evdə odabaşı, çöldə obabaşı. (hər yanda sözü keçən kişiyə söylənir). (hər yanda başına buyruq kimsə).

evdə olan az görünür, qonşu quşu qaz görünər.

evdə olan az görünür, qonşu quşu qaz görünər.

evdə oturub, evi yıxan, altında qalar.

evdə oturub, evi yıxan, altında qalar.

evdəki qızın gözü qapıda, doymamış itin qulağı.

evdəki sanaq çarşıya uymaz. (**sanaq**: hesab).

evdəki sayap, çarşıya çıxmaz, bazar sayabı, evlərə sığmaz. (**sayap: sayab**: hesab). (çarşı: bazar). (ev könül yuvasıdır, bazar, alıv satıv).

evdən evə ışıq düşməz. (hər evin öz ışığı var). (**ışıq**: qiblə). (el elə sığar, ev evə sığmaz).

evdən verməz, qonaq gedməz.

evə sığmayan, elə sığmaz.

evgidir könlə verən ısığı, sevgidir gözdə əkən ışığı.

evgisiz adam, kölgəsiz ağac qurumuş.

evi daraldan qonaq olsun, qonağı daraldan, dilin olmasın.

evi quran balta, dışarda qalar.

evi quran balta, dışarda qalar. (devrim öz balaların yeyər). (çevrən çevrənin yeyər).

evi pozuq onqalır, oyu pozuq onqalmaz. (**oyu**: düşüncəsi).

evi yaxın itin quyruğu uzun. (evi yaxın itin iyi kəsilməz) (tez tez gedib gələr).

evi yapılmış, qabı asılmış. {çölməyi közdə, çörəyi dizdə (əldə)}.

evi yığanda arvaddı yıxanda.

evilib kullanmaqdansa, sevib kulla.

evilmək gözləmir sevgi, verirsin ver, gedirsin ged, bu bir borcdurki qalxmışdır içindən bil, gərəkməz gözləmək bir qarşılıq ondan.

evilmək gözləmir sevgi, verirsin ver, gedirsin ged, bu bir borcdurki qalxmışdır içindən bil, gərəkməz gözləmək bir qarşılıq ondan.

evin aşağısıda olur yuxarısıda.

evin itirən, ev tapınca, yarın itirən yar tapınca.

evin qoşatı yıxılırsa, ev duramaz. (**qoşat**: götrə. qutra... ana dirək, sutun).

evin qoşatı yıxılırsa, ev duramaz. (**qoşat**: götrə. qutra.. ana dirək, sutun).

evin sözü elə çıxsa ev yıxar.

evin sözü yoxdu eşikdə yeri, eşik sözü gəzə bilənməz evi.

evin yağı təkyə üçün yaxılmaz. (ilkin özüm sonra gözüm).

Evin yarasigi usaqdir, sufrenin yarasigi qonaq. (Gunay IR).

evin yıxar kişinin, dosdan gələn dönüklük, düşman verən yönüklük. (**yönüklük**: tədbir).

evində batmanı görməz, qonşuda oqqanı çəkməz. (**oqqa**: kiçi ağramlı çəki birimi) (**batman**: böyük ağramlı çəki birimi) (**çəkməz**: götürməz, dözəməz).

evində olsa umut, qonşuya olmaz umuq.

evindəki yalanı, dansa biri olanı, çıxmaz dana gecəsi, güvlü çıxar keçəsi. (**güvlü**: güvəli. bitli).

evinə görə pişir aşını, ərinə görə bağla başını.

evinə görə pişir aşını, ərinə görə bağla başını.

evir evir evrənir, atar tutar çevrənir, birdənbirə devrənir, aldışıdır sürüb gedər bu evrən. **(evir evir:** mərhələ mərhələ) (**devrənir**: münqəlib olur. qarışır). (**aldışıdır**: alşıqıdır. adətidir).

evir evir evrənir, atar tutar çevrənir, birdənbirə devrənir, aldışıdır sürüb gedər bu evrən. **(evir evir** : mərhələ mərhələ) (**devrənir**: münqəlib olur. qarışır). (**aldışıdır** : alşıqıdır. adətidir).

Evlenene ve ev alana Allah yardım eder. evlenmek ve ev sahibi olmak hayırlı bir iştir. Allah her ikisine de yardım eder. (Bayram Özdemir).

evlənib baş ağrıyınca, subay gəzib dadın çıxar.

evlənincə tutun açıq iki gözün, evləndikdən tutuq yapın bir gözün.

evlənmə "eşqlə sayqı" altında dürsütlənən bir şıltaqlıqdır, "eşqlə sayqı" aradan qalxdıqda, yalnız şıltaqlıq qalır. (**dürsütlənən**: üzə salınan. tovcih olunan).

evlənmədən göz qulağı dörd açın, evləndikdən yarı yarıya qapatın.

evlənmədən göz qulağı dörd açın, evləndikdən yarı yarıya qapatın.

evlənmədən söz çoxdu, evləndinsə söz yoxdu.

evlənmək demişlər, bir ay sevinc, bir yaşam qayğı.

evlənmək, istər istəməzlərdən oluşan olay.

evlənmək, istər istəməzlərdən oluşan olay.

evlənmək, istər istəməzlərdən oluşan olay.

evlənmək: - boşluqları doldurmaq, doluqları daştırmaq.

evlənmək: - boşluqları doldurmaq, doluqları daştırmaq.

evlənməyin, toy gecəsi, bayramın axşamı (xoş olar).

evliliklər içlənməkdən çox, donanımlardır.

evliliklər içlənməkdən çox, donanımlardır.

evliliyin süycüsünü yanlış seçən, subay qalan dadanmaz. (**süycüsünü**: dadlılığın. ləzzətini). (**subay**: əşsiz. bekar).

Evlinin bir evi var, kiracının bin evi var. Evi olan odamın ne kadar evi de olsa sınırlı bir evi olur. Kiracının evi ise o yerde ne kadar kiralık ev varsa okadardır. Anlaştıktan sonra her evde oturabilir. (Bayram Özdemir).

evliyin yeyən oldu, vurdu tanrın, malın yeyən oldu, verdi tanrın.

evrəin çevrinə uymaq, qurğudan çıxıb duzağa düşmək.

evrən ağlı qara sıçovul yalı qırar baradur. (gecə gündüz kimi qırıb gedər).

evrən bitməz bir yuxu, evrən tükənməz yuxu.

evrən boşa, yalana bitir, yoxluqda itir.

evrən budur, bir gün yolda, bir gün gorda, bir gün ayağda, bir gün yastığda.

evrən budur, günü devrilir yola, günü devinir gora.

evrən çevrənə baxır boyanır, evrəndən gözləmə değişə boyanı. (bizim durmuşumuz yaşadığız çevrədən etgilənir).

evrən çəkən üçün yoxluğa çıxır, qalanlara sovğa yetirir.

evrən çönər bir oxluda dayanmaz, günün biri barışır, günü gəlir uruşur. (**oxluda: oxluqda**: əksdə. mehvərdə. istiqamətdə).

evrən çönər, ötün dönər, yeni devran artıq gəlməz keçənlər. (**ötün**: zaman).

evrən çönər, ötün dönər, yeni devran artıq gəlməz keçənlər. (**ötün**: zaman).

evrən çönür hovanla, arda qalmış qovanlar. (**hovanla**: haxmaqla). (**qovanlar**: özlərin ağıllı sananlar).

evrən dönər oda ötər içizdən, ölüm gəlib ağzın açar, incə belin topraq qucar, gülər gələn ağlar qaçar, qıyar axsın göz yaşınız içizdən..

evrən dönər oda ötər içizdən, ölüm gəlib ağzın açar, incə belin topraq qucar, gülər gələn ağlar qaçar, qıyar axsın göz yaşınız içizdən..

evrən dönür devrənir, bir mıncığuq boyunda, oyunçuğuq oyunda.

evrən dönür döndərir.

evrən gözəl dil ilə. **(dil:** söz). (dedilər var dərmanı minbir, olursa dərdi min, minbirinci dərdivə sözdür gəlir dərmanuva).

evrən içrə ən çətin iş, kəndi özün dəğişmək, hər kişidə yoxdu güc, böylə işlə ərişmək.

evrən iki günlük, bir gün sənə qarşı, bir gün sənə yarşı. sənlə oldu boysanma, sənə oldu qoysanma, evrən ikiymiş, sonda bitirmiş. (**qarşı**: əleyh. aykır. zidd). (**yarşı**: ləh. tərəf). (**boysanma**: qurranma). (**qoysanma**: üzülmə. mə'yus olma. naymıt olma).

evrən işi çevrilir, duralanları devrilir, kim yaza, kim oxuya, hər yazılı nə oxuna bəllənməz.

evrən işi oyunçaq, qalan işi əğləncək, çox ağırın uğraşma, dibi durur yelləncək. (**çox ağırın uğraşma**: çox ciddiyədə tutma).

evrən işi oyunçaq, qalan işi əğləncək, çox ağırın uğraşma, dibi durur yelləncək. (**çox ağırın uğraşma**: çox ciddiyədə tutma).

evrən işi ötürmək, işi burda bitirmək. (qılmalın var qılınqıl, yarın gələr gəlməz, bəllənməz).

evrən quruqdu böylə. -biri düşürər, biri pişirər. (**düşürmək**. qazanmaq). (**pişirər**: yasar. hazırlar).

evrən ötər kişi qalmaz söz qalar, adamlığı söz ışığiylə yaxar.

evrən ötür çay yalı, ötüb keçənlər hanı, indi yaşa indi tut, yarın üçün pay qalı.

evrən sənə gülməsə, sən evrənə gülgilən. (evrən sənə çönməsə, sən evrənə çöngilən).

evrən sonsuz baş quyruğu yığılmaz, boş bir güdül tutmaqilə tıxılmaz. {yol yola çatır, yoluğ uzur. (**yoluğ:** səfər)}. (hər kim gəlmiş kəndi ömrün yaşamış). (kəndi başın kəndi yolun tutqılan, ömür bitər səndən qalan iz olur). (yolçular bitər, yolçuluq sürər).

evrən tapmış dəğişmədə duraqlıq. (dünyanın mədarı dəğişmədən durmaz).

evrən tapmış dəğişmədə duraqlıq. (dünyanın mədarı dəğişmədən durmaz).

evrən üzrə gözəllik öz özündə doğqurur, görənmirsə açıq göz, qapıq gözlə uydurur. (uyarı (xiyali) xoşluğa nəvarki).

evrən verər yamanların tovunu, alçaq, tutar yaxşıların toyunu.

evrən verir yamanların tovunu, yaxşı olsan evrən salar toruna.

evrən yağlı bir quyruq, tülkülərə eşq olsun.

evrən yalan bir oyun, bu evrənin ən güclüsü kəndi özün aldadır. (**aldadır**: inandırır).

evrən, oyun evridir, duran yeri çevridir, duran ona əğməyir, evrən onu devridir. (**evridir**: **çevridir**: pozur).

evrənçilər altun tasda ağulu aşı bal görür. (**evrənçilər**: dünyaçılar. dünyapərəslər).

evrənçilər altun tasda ağulu aşı bal görür.(**evrənçilər** : dünyaçılar. dünyapərəslər).

evrəndə hər nə çevrənir. iyisin bərk tut, kötüsün boş tut. (**bərk**: ciddi). (**çevrənir**: dönür. dəğişir).

evrəndə sənə ən gözəl qadın anandırsa, nec olduğun atandan sor!.

evrəndə yaşayan ən təkin yalquz kəslər, uşaqlar, qocalar. (**təkin yalquz**: təkinə tək qalmış tək).

evrəndi bu, çevrik işi, -qaş taparsa, üzük arar, yular tapsa atın arar.

evrəni başından yaşa, dibini bırax. (hay boş deyən evrənin sonu, sonun buraq, başınla yaşa).

evrəni çevrəyəməyən, kəndi devrənir.

evrəni dəğişən dəlilərdilər, dünyanı çevirən axmaqlar!.

evrəni dəlilər sürər. başlı başlayınca, təlvə aşıb keçdi). (**təlvə**: dəli. düşünməyən).

evrəni hovalara sürür, başlılar kəlləbaş yürür. (**hovalar**: axmaqlar).

evrənidə aldat, al, dad. (**evrənidə**: dünyanıda) (**aldat**: tovla). (**al, dad**: dadın çıxart. yiyənib dadın al).

evrənin dar genliyi çıxarıva baxır. (evrənin geniş açıqlığı çıxarıva baxır**).**

evrənin dar genliyi çıxarıva baxır. (evrənin geniş açıqlığı çıxarıva baxır**).**

evrənin ən böyük gayı, öğrəşib alışıb itirmək payı. (**evrənin ən böyük gayı (gayı:** gici. budalası**):** kişioğlu).

evrənin ən dadlısı doğan gercək, ən acısın çəkəndən sor.

evrənin geniş açıqlığı çıxarıva baxır. (evrənin dar genliyi çıxarıva baxır).

ey dünya qovan dön geri irüp yetəməzsin, yüz min il əgər yel kimi yelsən yetəməzsin.

ey gidi dünya!. -biri gülə, biri qıza qızıla, nə bilim nəyə qızdı, biri qıza biri yaşama, ağıya zara küsdü. (qızdı: maraqlandı). (qıza küsmək: evlənməmək).

ey hüseynə ağluyanlar ağlayun öz halüzə, indi şahi kərbəla ağlır sizin əhvaluza. (taib).

ey hüseynə ağluyanlar ağlayun öz halüzə, indi şahi kərbəla ağlır sizin əhvaluza. (taib).

ey könül gəl olmaqıl haqdan ıraq, donda canım var ikən eylə yaraq. (**donda**: təndə).

ey "yaşasın ölülər"deyən ölümsül dos, bu dirilərdən qorxanın sözüdür, ölülərdən xoddanmışın özüdür. (**ölümsül**: **ölümcül**. tağdan tovdan düşmüş). (**xoddanmışın**: ovsunlanmış).

ey zamana atından qalan yayaq, zamana ana tutarmı ayaq ?.

Eybi kim deyer?-Eybecer. (Gunay IR).

eybi yox deyin, eybsizləşin.

eybini bilən, özgəyə eyb eyləməz.

eygiligin gəl, ısızlığın gəlmə - xeyirlə gəl, şərrilə gəlmə.

eygin, el manın açmaz. (**eygin**: eyi olan. yaxcı olan). (yaxcı kişi el aybın (yada) açmaz).

eyi dosdun olduqda, güzgü sana gərəkməz.

eyi pisin sonu var, hər genliyin donu var. (hər genliyin \hər gövdənin). (yanan ışıq sönər bir gün).

eyib tapır özgəyə, bir baxmayır güzgüyə.

eyibsiz dost axdaran dossuz qalar.

eyiklərə umuqlan, yaman qarşı yaraqlan. (**eyiklərə**: iyilərə). (gözəlliklər umudun olsan, kötülərdən qorunmağı unutma).

eyilərdən ol, kəndini arat!. (**eyilərdən**: iyilərdən: yaxcılardan. onatlardan). (**kəndini arat**: özüvü istət).

eyilik dadlı oli, onu yeyən dadanmasa, axmaq oli.

eyirlər dünya içi min dərd, minbir dərmanı var?. -o sözdə minbirinci dərdin dərmanıdır.

eyirlər. -arvadı gözələ dosulq çoxun verilər!.

eyitən açar yolu, yürüyən sənsən özün. (**eyitən** : əkitən. məəllim).

eyitən açar yolu, yürüyən sənsən özün. (**eyitən**: əkitən. məəllim).

eyku danış, eyku qılın, eyku san. (**eyku**: iyi. yaxcı). (**san**: düşün).

eyku danış, eyku yapın, eyku san.

eyku düşün, eyku gəpin, eyku qıl.

eyku düşün, eyku gəpin, eyku qıl.

eyku geyku ayrılsın. (incə yoğun seçilsin). -**eyku geyku**. yaxcı pis. yaxcı yaman. yaxcı yaman. qutuq kötük. incə yoğun. xeyir şərr.

eyku kişi, eyku işi. {**eyku**: > **niku** (fars). iyi}.

eyku könül yerdə qaldı, yavuzları başa saldı. (**eyku könül**: iyi ürək) (**başa saldı**: üstün tutdu).

eyku qılın eyku gəlsin üzüvə, yaman qılın, yaman girsin gözüvə. (**eyku**: yaxcı).

eyku qılın eyku gəlsin üzüvə, yaman qılın, yaman girsin gözüvə. (**eyku** : yaxcı).

eyku qonuş, eyku dönüş, eyku san. (**dönüş**: qılın. davran. rəfdar ed). (**eyku**: iyi. yaxcı).

eyku sanış, eyku danış, eyku yap. (**sanış**: düşün).

eyku sanış, eyku danış, eyku yap. (**sanış**: düşün).

eyku söz can azığı.

eykuluqla eygiliklər bollanar.

eykuluqla eygiliklər bollanar.

eykülük edsən güdünmə qarşuluq, könlün istir can çəkir etdiklərin. (**eykülük**: yaxcılıq).

eykülük edsən güdünmə qarşuluq, könlün istir can çəkir etdiklərin. (**eykülük**: yaxcılıq).

eykülük yap eykülük yap eykülük , at geri qalsın uzaq tam yadquluq.(**yadquluq**: düşmanlıq. biqanəlik.).

eykülük yap eykülük yap eykülük, at geri qalsın uzaq tam yadquluq.. (**yadquluq**: düşmanlıq. biqanəlik.).

eylik edsən birinə sakın ondan kəndini.

eylik edsən birinə sakın ondan kəndini.

eylik qılsan danqaza, baş qaldırıb yan keçər. (**danqaza**: buruşa. tərsəğə. qanmaza).

eylik qılsan danqaza, baş qaldırıb yan keçər. (**danqaza**: buruşa. tərsəğə. qanmaza).

eytgən söz, atğan ox. (söz deyildi, alınmaz, ox atıldı qayıtmaz).

eytgən söz, atqan ox. (söz deyildi, alınmaz. ox atıldı qayıtmaz).

eytinməz at, yügənməsə.

əbbək minmişdir ata, yoxsul qala ac yata. (**əbbək**:çörək).

əbbəyin ayan aşa yetər, donun ayan, toya. (**əbbəyin**: çörəyin). (**ayan**: saxlayan. qoryan. qayğıran).

əcəl gəlirkən cana, baş ağrısı bahana.

əcəl gəlməz, vax çatmasa.

əfəndilərdə çoxdur böylə işlər, kimi açuq boyur kim gizli işlər.

əgər lə "məgər" evləndilər, "**kaşki**" doğdu.

əgər məgər evlənmiş, “keşkə” cocuğu olmuş.

əgər məgər evlənmiş, “keşkə” cocuğu olmuş.

əgər məgər evlənmiş, “keşkə” cocuğu olmuş.

əgər məgər evlənmiş, “keşkə” cocuğu olmuş.

əgri öyle bağırdı ki, doğrunun bagrı cırıldı.

əğib geyim qazanmamış göz nazın. (dəğərsiz geyim göz iltifatın çəkməmiş).

əğib geyim tutar tapar geyəndən. (**əğib**: dərviş).

əğib görüş sayılmaz. (görkəmi yoxsul, geyimi dəğərli olmayan sayılmaz). (**əğib:** alçaq).

əğib olma man deyil, əğib qalma man gəlir. (**əğib**: yoxsul).

əğik başa, daş ilişməz.

əğik olursa ənsən, salmış olur hər yetən.

əğik olursa ənsən, salmış olur hər yetən.

əğiq başı, kəsməz qılıc. (**əğiq başı**: müti' olanı) (qılıc dik duran başlar üçün qalxır).

əğilən baş tac geyər.

əğilən baş tac geyər.

əğilən baş urulmuş, işləyən baş qutulmuş. (**urulmuş: vurulmuş**).

əğilən başı qılıc kəsməsin.

əğilib qoyun oldun!, hər nəyə boyun oldun!. (**qoyun**: tabe'. müti').

əğilib qoyun oldun!, hər nəyə boyun oldun!. (**qoyun**: tabe'. müti').

əğilib qoyun oldun, hər nəyə boyun oldun. (**qoyun**: tabe'. müti').

əğilirsə su içə, qaynar bulaq quruyar. (**kütaçuğ**. şansısız). (əğilmişsə içə su, qaynar bulaq qurudu).

əğilməsin bilməyən, yıxılmadan qaçanmaz. (**bilməyən**: bacarmayam).

əğilmişsə içə su, qaynar bulaq qurudu. (**kütaçuğ**. şansısız). (əğilirsə su içə, **qaynar bulaq quruyar)**.

əğilsəndə, sınma!.

əğrəti ata minən, tez enər.

əğrəti ata minən, tez enər. (**əğrəti**: ələnti. borc).

əğri ağac artıq əğri götürməz.

əğri ağac düz kögəsi olanmaz.

əğri ağac düz kögəsi olanmaz.

əğri ağaca yayım demə, hər görənə yarım demə (dayım demə).

əğri ağacın, düz kölgəsi olmaz.

əğri ağız bəy olsa, yalan sözü düz çıxar.

əğri azar, doğru uzar demişlər.

əğri basılar, doğrusu çıxar.

əğri bazar uz gedməz. (**uz**: uzaq).

əğri bitirsə ağac, çətin düzəlmiş ola.

əğri budağın, əğri kölgəsi var.

əğri doğrulunca, doğru əğrilər. (yaşam pozuqluğa çox əğimlidir).

əğri doğruya dönməsin batsın, doğruluq dilənçilik bilməz. (əğri oğru, kahıl qanmaz, kütbeyin üzərində çalışma).

əğri duvar tez yıxılar.

əğri gördün, yolun çöndər tərsinə.

əğri ilan dəliğinə girənməz.

əğri ilan dəliğinə girənməz.

əğri kişi yanlış işi, doğru kişi düzdü işi.

əğri kişi yanlış işi, doğru kişi düzdü işi.

əğri oğru olmasa, bağ çəpəri, qoyun damqa neyləyir.

əğri oxlar tuş gəlməmiş amacqa, əğri yüklər çatanmamış barınca. (**barınca**: məqsədə).

əğri olsun yol yaxşı, qarrı olsun yar yaxşı. (**yar**: əş).

əğri poxun yeyib tox gəzər, vay doğrunun tavına. (əğri bir pox tapıb tox gəzər, vay doğrunun çağına). (çağına: tavına: halına).

əğri sınınca, doğru üzülər.

əğri tutsan düz keçməz.

əğri tutsan düz keçməz.

əğri tutsan düzəlməz.

əğri tünlük, doğru tüstü çıxarır.

əğri tünlük, doğru tüstü çıxarır.

əğri yol, düz gedilməz. (yol əğrisi, düz gedilməz). (əğrisə yol, düz gedilməz).

(əğri yolu, düz gedmək olmaz).

əğri yoldan doğru amac alınmaz.

əğri yolla ulaşdıq, sapıq yoluğda batdıq.

əğri yollar düz yollara çatanmaz, borc veribdə alanmayan yatanmaz.

əğri yolu bilmədən, düzgünlüklər seçilməz. (**düzgünlüklər**: sədaqətlər)

(yalançılığı tanımayan, sadiqligin nə olduğun bilənməz).

əğri yolu bilmədən, düzgünlüklər seçilməz. (**düzgünlüklər**: sədaqətlər)

(yalançılığı tanımayan, sadiqligin nə olduğun bilənməz).

əğri yolu düz gedmək olmaz.

əğridə tox, doğruda ac görmədim.

əğrilərlə oturmaq, doğruluğa artırmaz.

əğrilərlə, oğrularla eygin doğrun davranma. (**eygin**: içiz çəkən kimi).

əğrilik dayaq kökdü evrənə, güvənən axmaq tansız çevrənə. (**tansız**:

namussuz. arsız). (**çevrənə**: çevirənə).

əğrilik hər zaman zoru gəzər, (**gəzər**: axdarar).

əğrilik hər zaman zoru gəzər.

əğrilməsə düzəlməz, bulanmasa duralmaz.

əğrini düzəltmək nəyimə gərək, düzü düz saxlamaq gərək.

əğrisi düzü, dadlısı duzu.

əğrisinə baxan, tüsdünün düzündən qalar.

əğriyə olmasın nə köməkdi. düzə yalnız sən, sən özünsən yarac.

ək dərim, əkim dərsin.

əkdə bilsən əkdə sən, qurd balası əkdənməz, qurd qatında heç bir qoyun ətlənməz. (**əkdəmək**: tərbiyət edmək). (**qatında**: qulluğunda).

əkdə bilsən əkdə sən, qurd balası əkdənməz, qurd qatında heç bir qoyun ətlənməz. (**əkdəmək**: tərbiyət edmək). (**qatında**: qulluğunda).

əkdi bilik gözəldir. (**əkdi:** ədəb). (**bilik**: ilim).

əkdi dərdim, əkim dərsin.

əkdi görməmiş kişi ösmədi, su görməmiş əkin. (**əkdi**: tə'lim). (**ösmədi: ötmədi**: böyümədi).

əkdidir yalğunu kökdən çevirən, bilim olmuş dəğişən dünyanı. (**əkdidir**: tə'limdir). (**yalğunu**: insanı).

əkdilər aldız, əkin alsınlar.

əkdim əl verməz əkdisizlik edənə, susmaq ən gözəl yanıt, əkdi əldən gedənə. (**əki**: **əkdi**: ədəb. tərbiyət).

əkdisiz uşaq yaşamış, yarımamış. (**əkdisiz**: ədəbsiz. tə'limsiz).

əkdiş göyə sağuruq, topla üzdə yoğuruq. (**əkdiş**: ədəbsiz. tərbiyəsiz)qurra göyə tükürük, topsa üzdə düşürük. (**qurra**: məğrur) (göyə tüpürsən, ondan yoğurun, onun yoğrulmuşun üzündə yığarsan).

əkdiş göyə sağuruq, topla üzdə yoğuruq. (**əkdiş**: ədəbsiz. tərbiyəsiz)qurra göyə tükürük, topsa üzdə düşürük. (**qurra**: məğrur) (göyə tüpürsən, ondan yoğurun, onun yoğrulmuşun üzündə yığarsan).

əkdiyin biçən, ağlamaz.

əkdiyin biçilir yarın, kəsdiyin olacaq payın.

əkdiyin uran verdiyin alar. (**uran**: biçən).

əkdiyindən o çıxar kin əkisən. (**kin**: ki).

əkdiyini biçərsin, seçdiyini yaşarsın.

əkdiyini biçərsin, seçdiyini yaşarsın.

əkdiz dərdik, əkək dərin.

əkən arar, qılan tapar.

əkən biçər, qonan köçər.

əkən biçər, soran yetər.

əkən biçər, soran yetər.

əkən bilməz, biçən bilər.

əkən dərdi. səpilmədən gögərməz.

əkən dəyər, qazan düşər.

əkən əkdiyin yeyər, əkməyən kəlləsin. (əkən əkdiyin yeyər, əkməyən **başın**).

əkən kim dərən kim.

əkən olmaz ki buğdanı saman dərsin. (kimsə saman dərmək üçün buğda əkməmiş).

əkən orar, toxan geyər. (əkən urar, biçər, toxuyan geyər).

əkən orar, tokan geyər. (**orar**: oraqlar. biçər), (**tokan**: toxuyan).

əkən urar, edən görər.

əkən urar, edən görər.

əkən ursun tikən geysin.

əkəndə ölən çox, biçəndə olan.

əkəndə yox, biçəndə yox, yeyəndə ortaq qardaş.

əkənə baxma, ək bitir, biçənə qarma, biç bitir, tutduğun yolu, ged kitir!. (**qarma**: baxma) (**kitir**: gerçəkləşdir. doğrut. uyqula).

əkənə yar, əkməzə dar gəlir. (**yar**: gen. gülər. bol).

əkəşik iş görənindi, kəsilən dil, deyənindi. (əsgik iş görənindi, kəsilən dil, deyənindi).

əkəşik iş görənindi, kəsilən dil, deyənindi. (əsgik iş görənindi, kəsilən dil, deyənindi).

əki, yağında, işi, çağında. (əkişə yağış, nəmiş gərəkir, işi uyuqun çağında qılmaq görəkir. (**görəkir**: uyğun görülür, məsləhət görülür).

əkib bitir, suvar ösüt. (**bitir**: gögərt). (**ösüt**: böyüt).

əkib dərim, əkim dərsin.

əkib dərim, əkim dərsin.

əkib döz, əkməyə yox.

əkib dözən, bitirər işin, dözməyi əkən, itirər işi. (**dözməyi əkən**: çox səbr edən). (qıssa ömür, alqamaz dözüm). (**alqamaz**: xoş qarşılamaz).

əkib ur, əkləb gör. (**ur**: vur. oraqla. dər). (əkib dər, əkləb gör). (**əkləb**: tərbiyət ver).

əkibdir bağına solmayan gülü, açılar bağında, tikənsiz gülü.

əkid, gör, əkir, ur. (**əkid**: öğrət. becərt). (**əkir**: ək). (**ur**: oraqla).

əkilən topraq təpilsin. **(təpilsin**: sürülsün. soxulsun).

əkilən, biçilir. **(**dünlə bu gün olduğun, yarın odur doğduğun).

əkilən, biçilir. **(**dünlə bu gün olduğun, yarın odur doğduğun).

əkili, əkidən susar, əkisiz, susdurdum sanar. (**əkili: əkitli**: ədəbli. tərbiyətli).

əkili, əkidən susar, əkisiz, susdurdum sanar. (**əkili: əkitli**: ədəbli. tərbiyətli. {utlu, utundan susar, utsuz, susdurdum sanar. (**ut**: **uy**. həya)}.

əkilmədən biçilməz.

əkilməmiş biçilməz, oxumamış çözülməz.

əkilməsə urulmaz, edinməsə görünməz. (**urulmaz**: biçilməz). (**edinmək**: əldə edmək).

əkilməsə urulmaz, edinməsə görünməz.(**urulmaz**: biçilməz). (**edinmək**: əldə edmək).

əkilmisən, itmə, bit. (əkilmək: toprağda tuxum kimi gizlənmək).

əkilsə tarla, biçilsə tarla, dərmanda dartsa, unu çıxar.

əkilsə tarla, biçilsə tarla, dərmanda dartsa, unu çıxar.

əkim dərin, əkin dərək.

əkin çağı əkməyən, biçin günü yolda qalır (ağlar qalır).

əkin əkib adın yazar tikan dağına. (çevrədən iyi dəğərlənməmiş iyi işçi).

əkin əksən, yerə bax, elin sevsən, elə bax.

əkin irdəşi, biçin urdaşın qaldırır. (hesaba yetişmə, hesabı aydınlatmaq, bitindəki savaşı (odaşmanı, ixtilafı) qaldırar). (**irdələmək. ardalamaq**. 1. incələmək. 1. hesab kitaba yetişmək).

əkin irdəşi, biçin urdaşın qaldırır. (hesaba yetişmə, hesabı aydınlatmaq, bitindəki savaşı (odaşmanı, ixtilafı) qaldırar). (**irdələmək. ardalamaq**. 1.incələmək. 1. hesab kitaba yetişmək).

əkin olsa, əkmək olar.

əkin tikin şuxumda olmaz izi, biçin, döğüm, yığımda atmaz bizi.

əkin üstə əkilir, xərmən başı tikilir. (söz konusu, əngəlliyi, otanlığı, ərkəlliyi (ərköğüllügü) kötüləməkdir). (bu söz kişini əngəllikdən, otanlıqdan (müfdəxorluqdan), ərkəllikdən (ərköğüllükdən) ırqamağa, çəkinməyə çağırır). {**otan**: (< **otlayan** < **otlamaq**: boşuna keçinmək). müfdəxor}.

əkinçi ol qarda din, yoluğçu ol yağışda, çoban oldun gorunda.

əkinçi yağış ister, kərpişçi quraq.

əkinçi yerdən umar. balığçı göldən.

əkinçi yerdən umar. balıqçı göldən umar.

əkinçi yolu dəğirmana, dəğirmançı yolu əkinçiyə düşər.

əkinçidən əkməyi, biçinçidən biçməyi.

əkinçini, əkinindən tanırlar.

əkində izi qalanın, xırmanda üzü olar.

əkində izi olanın, süfrədə üzü olar.

əkində yox, biçində yox, döğümdə yox, yığında pay güdməyin unutmaz..

əkində yox, biçində yox, döğümdə yox, yığında pay güdməyin unutmaz..

əkində yox, tikində yox, xırmanda durmuş xoca. (**durmuş**: hazir).

əkinə su, kişiyə əkdi gərək. (əkini su yetirər, kişini əkdi). (**əkdi**: tərbiyət).

əkinən əkitən olur. (öğrətilən öğrətən olur). (əkitən əkindən olur) (öğrətən öğrəncidən olur). (əkitən əkitlə olur). (öğrətən öğrətməklə olur).

əkinən əkitən olur. (öğrətilən öğrətən olur). (əkitən əkindən olur) (öğrətən öğrəncidən olur). (əkitən əkitlə olur). (öğrətən öğrətməklə olur).

əkinən əkitən olur. (öğrətilən öğrətən olur). (əkitən əkindən olur) (öğrətən öğrəncidən olur). (əkitən əkitlə olur). (öğrətən öğrətməklə olur).

əkinin biçəyi, əməyin çiçəyi, yaltanın dincəyi süycü. (əkməyin biçməsi, zəhmətin barı, təmbəlin yuxusu şirin). (**yaltanın**: gəvşəyin. təmbəlin). (**dincəyi**. istirahəti). (**süycü**: dadlı).

əkinin biçəyi, əməyin çiçəyi, yaltanın dinəyi süycü. (əkməyin biçməsi, zəhmətin barı, təmbəlin yuxusu şirin). (**yaltanın**: gəvşəyin. təmbəlin) (**dinəyi**: dinəği. dincəlməsi. dincəlmə yeri. yatağı. yatması). (**süycü**: dadlı).

əkirən urar, bəkliyən görər. (**əkirən urar**: əkən biçər).

əkirən urar, bəkliyən görər. (**əkirən urar**: əkən biçər).

əkirsə bitər, suversə ösər. (**suversə: suvarsa**). (**ösər**: gəlişər).

əkirsən buğdanı özü öndürür samanı, iyiliklə sınama yamanı.

əkişdə izi yox, dərişə tələsir.

əkişdə yoxalan, dərişdə toxlanmaz.

əkişdə, yağış nəmiş gərəkir, iş uyar çağda qılış görəkir. (**görəkir**: uyğun görülür, məsləhət görülür).

əkişdə, yağış nəmiş gərəkir, iş uyar çağda qılış görəkir. (**görəkir**: uyğun görülür, məsləhət görülür).

əkit bitsin, suvat össün. (**əkit**: becət). (**bitsin**: dirçəlsin). (**össün**: böyüsün).

əkitən əkitlə olur. (öğrətən öğrətməklə olur). (əkinən əkitən olur). (öğrətilən öğrətən olur). (əkitən əkindən olur) (öğrətən öğrəncidən olur).

əkitən əkitlə olur. (öğrətən öğrətməklə olur). (əkinən əkitən olur). (öğrətilən öğrətən olur). (əkitən əkindən olur) (öğrətən öğrəncidən olur).

əklənən bəklənir, özlənən gözlənir, sərilən dərilir.

əklənən qara, yergə çalar!. (**əklənən**: yapışdırılan). (**yergə**: yerə). (çalışmalıyıq, qara ləkə yaxışlara, paylaşlara tuş düşmüyək. yalan yüklü, qalıcı olmasada, oldağa, doğruya axsaqlıq gətirər). (**yüklü**: payalı. müstənəd). (**oldağa**: vaqeiyyətə). (**doğruya**: həqiqətə).

əklənin dərəkin, əklənir biləsin, sağlığın dərəkin, işlənir biləsin!. (**əklənin**: əklənin: ədəbin) (dərəkin: tutarın. qiymətin).

əkmək əldən, su göldən.

əkmək əldən, su göldən.

əkmək su dibində qalmaz, suluq odun yanmaz. (**suluq** : şeh. nəmli)..**-{**iyiliyi su dibində kəmiş, başında dilə. (**dibində**: ayağında, altında). **(kəmişmək** :əkişmək. gəmişmək. gömüşmək. quylamaq)}.(əkməyi suyun tübünə (dibinə) at, betində (üzündə) topla). (əkməyi su tübünqə (dibinə) daşla, su betində (üzündə) gözlə (izlə). (elə iygilik isdə).

əkmək su dibində qalmaz, suluq odun yanmaz. (**suluq**: şeh. nəmli).. **-{**iyiliyi su dibində kəmiş, başında dilə. (**dibində**: ayağında, altında). **(kəmişmək:** əkişmək. gəmişmək. gömüşmək. quylamaq)}. (əkməyi suyun tübünə (dibinə) at, betində (üzündə) topla). (əkməyi su tübünqə (dibinə) daşla, su betində (üzündə) gözlə (izlə). (elə iygilik isdə).

əkmək yoxu yamandır, qar qurunu gəmdirir. qadın yoxu yamandır, qart qə. bəni köçtürür. **(qəhbə:** oruspu**)**.

əkmək yoxu yamandır, qart qurunu gəmdirir, qadın yoxu yamandır, qart qəhbəni köçtürür. (**yoxu**: olmamazlığı). (**köçtürmək**: oynatmaq).

əkmək yumruqla pişər.

əkmək yumruqla pişər.

əkməkçilər əkər tuxum ərinməz, yalançılar yalan söylər çəkinməz..

əkməmiş bitməz, dəlməmiş keçməz.

əkməsən əkin dərilməz kəsin.

əkməsən tuxum, tökməsən suyun yapmasan işin nə bərə güdün. (**bərə:** asın. fahda). **(nə bərə güdün**: nə hasıl güdürsün).

əkməyən biçməz.

əkməyi su tübünqə (dibinə) daşla, su betində (üzündə) gözlə (izlə). {əkməyi suyun tübünə (dibinə) at, betində (üzündə) topla}. **{**iyiliyi su dibində kəmiş, başında dilə. (**dibində**: ayağında, altında). **(kəmişmək:** əkişmək. gəmişmək. gömüşmək. quylamaq)}. (əkməyi suyun tübünə (dibinə) at, betində (üzündə) topla). (elə iygilik isdə). - **əkmək su dibində qalmaz**, suluq odun yanmaz. (**suluq**: şeh. nəmli)**.**

əkməyi su tübünqə (dibinə) daşla, su betində (üzündə) gözlə (izlə). **{**iyiliyi su dibində kəmiş, başında dilə. (**dibində**: ayağında, altında). **(kəmişmək** :əkişmək. gəmişmək. gömüşmək. quylamaq)}.(əkməyi suyun tübünə (dibinə) at, betində (üzündə) topla). (elə iygilik isdə). - **əkmək su dibində qalmaz**, suluq odun yanmaz. (**suluq** : şeh. nəmli)**.**

əkməyi suyun tübünə (dibinə) at, betində (üzündə) topla. **{**iyiliyi su dibində kəmiş, başında dilə. (**dibində**: ayağında, altında). **(kəmişmək** :əkişmək. gəmişmək. gömüşmək. quylamaq)}. (əkməyi su tübünqə (dibinə) daşla, su betində (üzündə) gözlə (izlə). (elə iygilik isdə). - əkmək su dibində qalmaz, suluq odun yanmaz. (**suluq** : şeh. nəmli)**.**

əkməyin əkdiki, urmağı qalsın. (**urmağı**: biçməyi). (nə əkmiş, nə biçsin).

əksən bitər, sorsan çıxar.

əksən bitər, sorsan çıxar.

əksən urarsan. (**urarsan**: oraqlarsan. biçərsən. dəyərsən).

əksik satdın, artıq aldın, kimin qaldı, kimə qaldı.

əksiklərlə otursan yüksəkligin güdülməz.

əksiklərlə otursan yüksəkliyin artınmaz.

əksilməsin dilədik, əksildilər olanlar, olanı sən dərkilə, qalanlarda əksilər.

(**dərkilə**: düşün. fərq ed). (**dərkiləmək**: ayırıd edmək. fərqinə varmaq).

əksilməsin dilədik, əksildilər olanlar, olanı sən dərkilə, qalanlarda əksilər.

(**dərkilə**: düşün. fərq ed). (**dərkiləmək**: ayırıd edmək. fərqinə varmaq).

əl alanı, göz danar.

əl aşlı, göz yaşlı.

əl az olsa iş qalışar, baş çox olsa iş azışar.

əl bəğənər, göz dirənər. (**dirənər**: bəğənəkdən çəkinər).

əl bilir ağız haradır.

əl bilir ağız haradır.

əl bir olaq qol qola, arzuları çək yola.

əl bir olaq qol qola, arzuları çək yola.

əl bolluğu göz önü, göz darlığı görünməz.

əl çatmayan aş, ya qarın ağrıdar, ya baş.

əl çatmayan buğdadan, əlindəki arpa yeğ. (iyi).

əl çatmayan buğdadan, əlindəki saman yey.

əl çox olsa iş qarışar, baş çox olsa iş azışar.

əl çözəgən çigini, dişə salma. (**çigini**: düğünü).

əl çözəgən çigini, dişə salma. (**çigini**: düğünü).

əl əl ilə, dəgirman yel ilə.

əl əldən ötgündü.

əl ələ su qoyuşar, əllə üz yuvuşar.

əl ələ su qoyuşar, əllə üz yuvuşar. (**qoymaq**: tökmək).

əl əli tutsun, ayağ ayağı yox.

əl əli yuğar. {kişi kişə yoluğar. (**kişə: kişiyə**)}. (**yoluğar**: dərdinə dəgər).

əl əli yuğar. {kişi kişə yoluğar. (**kişə: kişiyə**)}. (**yoluğar**: dərdinə dəgər).

əl əli yumadı, əl üzü yumadı, qolu əlsiz qaldı, əli qolsuz qaldı, suyu üzsüz qaldı, üzü susuz qaldı, yaşı külsüz qaldı, külü odsuz qaldı.

əl əlilə, dərman yel ilə.

əl əlilə, dərman yel ilə.

əl əlin örtüyüdü.

əl gedirsə cibə, kitab gəlir göz açır, yumuq qalırsa ovuc, olar başa toxmağuc.

əl gedirsə cibə, kitab gəlir göz açır, yumuq qalırsa ovuc, olar başa toxmağuc.

əl görsədər, göz görməz. (əl görsətir, göz dözməyir).

əl götürmə götürəllikdən, ağızlar dadıdır, kişiyə bircə qalan, yaxşılığın soy adıdır.

əl hən deyər, göz yox.

əl ilə gözün yarışı: - biri alar, biri salar, biri qalar, biri dalar.

əl iş görər, göz qorxar.

əl işə bas dişə. (gözləyən gözə ağ düşmüş, sərilən tora av). (**ağ düşmüş**: kor olmuş).

əl işlər, ağız dişlər, qarın çevirər, dığır çevrənər. (**dığır**: dəgirman. fələk).

əl işləyər üz gülər.

əl işləyər üz gülər.

əl işləyib, baş çalışar, ülkər, ülək daşıyar. **(ülkər**. şans eniştəsi (mələyi)). **(ülək**. tanrıdan düşən pay. nəsib. qismət. pay. şans).

əl qatıqsa, ürək yumuşar. (**qatıqmaq:** qatmaq.. qurumaq. sərtinmək).

əl qatıqsa, ürək yumuşar. (**qatıqmaq:** qatmaq. qurumaq. sərtinmək).

əl qısarsa, göz qırar (əl yumar, göz tikər). (əlin yumulduğu yerdə, göz sevincindən, yumuğu tikməyə başlar, ta açılmasın, gizli qalsın).

əl qıydı, göz qıymadı.

əl qolilə iş görər.

əl qolilə iş görər.

əl oğurlayır, ürək əsir.

əl oxşasa könül dinər, dil oxşasa tinim dinər. (əl çəkmək könlü toxdadar, söz ruhu dindirər).

əl olut, göz soyut. (**olut**: müsbət). (**soyut**: mənfi).

əl ortada, hər yana yaxın. (gündəlik yaşamda əlin önəmi).

əl öpməklə ağız kirlənməz.

əl öpməklə ağız kirlənməz.

əl özünün, cib qonşunun.

əl salanı, göz talar (**salmaq**: yıxmaq).

əl sınayar, göz qınayar.

əl tapılar, ərdə belə qadında, az tapılan ürək, könül sevgidir.

əl tox olar, göz ac.

əl toxlar, göz yoxlar (güdər).

əl tutacağına, od tut.

əl tutanı, göz tutmaz.

əl tutanın, əli qopar, od tutanın əli yanar.

əl tutunca od tut. (zəmanət, oddan pis yandırar).

əl tutunca od tut: zəmanət, oddan pis yandırar.

əl tutunca, od tut.

əl uzanar, ağız yeyər göz utanar.

əl var qınıfı kirli, əldə var çınıfı. (**çınıf**: iç).

əl var qınıfı kirli, əldə var çınıfı. (**çınıf**: iç).

əl verənə, göz durmaz. (durmaz: razı olmaz).

əl verəni, göz bilməsin.

əl verəni, göz danar. (əl yiğit olur, göz çiğit). {(**yiğit**: əlaçıq. əlibol). (**çiğit**: çinis. əlaçıq, əlibol olmayan. bərk)}. (göz qorxaq olur, qol yılmaz!. (**yılmaz**: qorxmaz). (əl mərd olur, göz naməd). (ürək qısır, əl utanır). (ürək verməz, əl utanar).

əl verər, göz dartar.

əl verməsə, göz dəğməz (əl görsətməsə, göz vurulmaz). {(əl: barmaq) barmaq göstərməsə, göz dəğməz)}.

əl yığanı, göz görər.

əl yozanı, göz pozar.

əl yumar, göz tikər. (əl qısarsa, göz qırar).

əl zeyrək oli, göz ürkək. (**zeyrək**: zirək. çevik) (**ürkək**: qorxaq).

Əl zirəkdir, göz ürkək. (Araz Gunduz).

əlaçıq eşigin açıq qoyar, oğru girməkdən utmaz. (**eşigin**: qapısın) (**utmaz**: utanmaz). (hər götverənə (**götürü verən:** şişirdən. müddəiyə. iddiaçıya) qapı açılmaz). {hər iyilik yerin açmaz (yerində oturmaz)}. (iyilik hərgələ yapılamaz. düşün kimədir, nəyədir). (koramal iyilik, suya su qatmaqdır). (**koramal**: qanmazlıqla).

əlayağın yapuqsa, geniş evrən dar gəlir. (**yapuqsa**: bağlısa).

əldə qalmış əğri yay, barağ alar doğru ox. (**barağ**: mənzil).

əldə malın, qolda gücün, başda usun olursa, düşman dönüb gələr sənə dosd olar, yoxsul olsan qaçar səndən dəh döşün, yaman çıxar yaxcı qılığ işlərin.

əldə varın olsa belə sərçəcik, avlanmamış almaşılmaz qartala. (almaşılmaz göydə uçan qartala). (**almaşılmaz**: çalışılmaz. dəğişilməz).

əldəki siqar, asma çönüb asar bir gün.

əldəki, ağızdakı, gözdəki, qulağdakına verilməz!.

əldəkilər dərəkini bilməsən, gələnlərə dərək vermən quşqulu. (**gələnlərə**: gələcəkdə əldə etdiklərivə). (**quşqulu**: şəggili. olumsuz).

əldəkilər sayılmır, göydəkilər alınmır. (**sayılmır**: dəğərlənmir).

əldəkilər sevilmir, istəkləriz edinmir. (**edinmək**: əldə edmək).

əldəkilər sevilsin, istəkləriz edilsin, keçmişləriz silinsin, yeni günlə doğgilən.

əldəkilər sevilsin, istəkləriz edilsin, keçmişləriz silinsin, yeni günlə doğgilən.

əldəkilər sevilsin, istəkləriz edilsin, keçmişləriz silinsin, yeni günlə doğgilən.

əldəkinə qıvan artsın. (**qıvan**: bəğin. sevin).

əldəkinə ürək onsa, baş bildiyin edər. (**onsa**: razı olsa).

əldən çıxıb ayağa düşmək. (ölçünü qoru, alçalma).

əldən geddi başa gəldi üzülmə, yağu qarşı, meydan içrə süzülmə. (**süzülmə**: əkilmə).

əldən gedmiş ötənin, durma yürün ilərin. (**ilərin**: iləriyə).

əldən gəlirsə yeğ iş, yubatmadan yeriyiş.(**yeriyiş**: əməl ediş).

əldən gəlməz iş olmaz, ayağ gedməz yol olmaz.

əldən iş, baxda güc verər.

əldən qaçan balığ, böyük görünür.

Əldən qalan əlli il qalar. (Araz Gunduz).

əldən qalan əlli il qalar. (əl işi yaşamda birinci yeri tutur).

əldən tutulan qutulur, dildən tutulan dürtülür.

əldən tutulan qutulur, dildən tutulan ütülür.

əldən tutur, ayağdan itir.

əldən tutur, ayağdan itir.

əldən tutur, ayağdan itir.

ələ düşən əkilir, başa gələn çəkilir.

ələ salmaqdansa öz əlivi özün üçün işə sal.

ələ salmaqdansa öz əlivi özün üçün işə tut.

ələkçinin qıl verəni yanında olar.

ələyi ələnib qəlbiri göydən asılıb.

ələyib ələyib kəpəyinə qatmaq. (gördüyü işi poxlamaq, vurub dağıtmaq).

ələyin əliyib gəlbirin asıp. (**ələyin**: ələdiyin. ələməlisin).

əli açığın, əli dar (qıs) olmaz.

əli bağlı olanı yetən döyər, yetməyən söyər.

əli beldə, dili sözdə. (hər çeşit qulluğa hazır).

əli çox işə yaxşı, dişi çox yemə yaxşı.

əli əğrinin, dili düz olmaz.

əli hamını dolu görür, oğru hamını oğru.

əli ilə götürəmmir, gözü il yeyir.

əli işdə, gözü oynaşda. (işləyibdə, başı başqa nərsə ilə uğraşıq olan).

əli işli olunca, baxtı güclü olsun.

əli işli, baxtı güclü.

əli saxla oyundan, qurdu saxla qoyndan (əl ilən şaka, şuxluq olmaz, qurdla qoyunun oyun olmaz).

əli toxla, gözü yoxla. (əlin dolu olsunda, göz ölçəyin unutma).

əli tutanın, əli qopar, od tutanın əli yanar.

əli uzun olan, kefindən göt qıvırar. (əli yuxarlara çatan, kefindən göt burcudar).

əli yamanın gözü ac, eli yamanın götü qaç. (yaman dünyanı yaxar, doymaz, bir yaramaz topluluqdan, pis cəmiyyətdən uzaq dur).

əlifə dayaq, mimə çomaq deyənlər.

əlifin hicəsı var, gündüzün gecəsi var.

əlim aşa dəğdi, başım daşa. (**dəğmək.** çatmaq. yetişmək).

əlin canından üzən iyi kötü sayanmaz. {üzgünlərə iyi kötü sayılmaz. (**üzgünlərə**: umutsuzlara)}. (batan biri saman ilan seçənməz). (dənizə düşən yılana sarılır).

əlin əkəli biçəli olsun. {kimsəyə diləngi olmayasın. (**diləngi**: möhtac)}. (əlin barlı gəlirli, bərəkətli olsun).

əlin ələ güvən güvənə, gözün yummaz itən itənə.

əlin ələ güvən güvənə, gözün yummaz itən itənə.

əlin işdə us başda, bilik qazan yaşlıqda. (**yaşlıqda**: yaşkən. gənckən).

əlin işdə us başda, bilik qazan yaşlıqda. (**yaşlıqda**: yaşkən. gənckən).

əlin verər, ayaqın izlər.

əlində olanı sən verdin, ürəyizdəkin o versin.

əlində tutulmayan nərsənin, olma aşıq dəlisi.

əlində yüvən, kəndivə güvən. (**yüvən**: yürvən. yular. cilov).

əlində yüvən, kəndivə güvən. (**yüvən**: yürvən. yular. cilov).

əlində yüyən, kəndivə güvən.

əlində yüyən, kəndivə güvən.

əlində yüyən, kəndivə güvən. (**yüyən**: cilov. noxda).

əlindəkin biləbilsan, istəkmədən qutlusan.

əlindəkin bilməyən yol üsdəkin tutanmaz.

əlindəkin bilməyən yol üsdəkin tutanmaz.

əlindəkin bıraxıb, alnındakın tutunma. (**alnındakın tutunma**: baxt, yazı deyilən nərsiyə aldanma).

əlindəkin saymıyan, göydəkini alanmaz.

əlindən yapışıb ayağından dartır.

əlindən yapışıb ayağından dartır.

əlindən yapışıb ayağından dartır.

əlindəykən dəğərlət, ertə qalar gec olur.

əlinə,belinə, dilinə, aşına, işinə, əşinə yiyə dur, manları ört, sırları tut, öfgəni yut. (bektaşi).

əlinlə xəmir ovar, gözü ilə dənə qovar.

əlisi dəli, Vəlisi dəli, qırılmışın hamısı dəli.

əlivi işə tut, işləyən yetər, könlüvü xoşa tut, dözəgən ərər.

əlivi qoyma əlin üsdə, oturma dizin üsdə, götün üsdə, tanrıdan gözləmə yardım verər o iş əlivə.

əlivi versən, qoluvu tutar (qapar).

əlivi vuranda dizivə, onda gələrsən özüvə.

əlivin işi, baxtıvın gücü.

əliz işli, ağzız dişli, baxtız güclü.

əlizə barlıq (bərəkət), elizə varlıq.

əlizə bolluq, könlüzə xoşluq.(alqış).

əllə ayaq tez doyar, gözlə damağ, heç doymaz (**doyar**: toxlanar. yorular) (**damağ**: boğaz).

əllə ver, ayaqla izlə.

əllər gəzsin, gözlər yox. gəzəyən (iş görən) əlin olsun, ələ baxan gözün yox.

əlli arxan ola xaqan, sənə yox payı belə qan. (ırqıçlara man olsun). (əlli arxan olsada xan, sənə yox payı belə qan). (keçmişlərin şahısan, indi parça çörək acısan).

əlli ilin eşşəginə, dəyirman yolu göstərir.

əlli sözdən bəlli söz.

əlli yaşdan aşar, canın topraq qoxar. (ölkədən uzadakıların özləmi).

əlli yaşdan aşar, canın topraq qoxar. (ölkədən uzadakıların özləmi).

əlli yaşın tək başın, qəm qayğıdır sırdaşın, yalnızlığın at daşın, axdarda tap yoldaşın.

əlli yaşın tək başın, qəm qayğıdır sırdaşın, yalnızlığın at daşın, axdarda tap yoldaşın.

əlllə könlün gizini mən bilə bilməm, əldən gedənin nisgili könlümdə can almış.

əmçə sözün sürüb dünyada, yaman kişi oğru əllər yalın göz. (**əmçə**: həmməşə. hamıçağ).

əməgə vur, yeməyə dur.

əmək bizdən ola, tarıdan yardım.

əmək bizdən, yaran tarıdan. (əmək bizdən ola tarıdan yardım).

əmək bizdən, yaran tarıdan. (əmək bizdən ola tarıdan yardım).

əmək kişiyə, lələk quşa yaxışır.

əməkdə duz olmasaydı, kimsə dözəmməzdi.

əməklə kişi doğulur, odla qızıl.

əməklə kişi sınanır, od ilə qızıl.

əməksiz gəlir, dərəksiz qalır. (**əməksiz**: zəhmətsiz). (**dərəksiz qalmaq**: qədir verilməmək).

əməksiz iş olmaz, duzsuz aş.

əməyi keçənlərə uçun süycüləri yasbarsın. (**uçun**: cənnət) (**süycüləri**: şərabları) (**yasbarsın**: nəsib olsun).

əməyi yengə çəkər, daduğu güveyə düşər. (**yengə:** muşata). (**daduğu**: ləzzəti). (**güveyə**: kürəkənə).

əməyi yengə çəkər, daduğu güveyə düşər. (**yengə:** muşata). (**daduğu**: ləzzəti). (**güveyə**: kürəkənə).

əmgəksizin durqu yox, munda tamu. (qayğısız yaşam yoxdu, bu dünya cəhənnəmdi).

əmik yenğdə qalmaz. (**yenğdə**: əğində. təndə**). (**ağrı canda qalmaz).

əmiklə qut birgə doğar, biri onar biri boğar. **(əmik**:. əmgək.. əmək. zəhmət. mehnət).

ən acı itgi, qarşılıqsız olan itgi. (**ölüm**).

ən alçaqlıq, ən yoxuqdan bəklənir.

ən böyük dağ işsizlik, dağ yarılmış iş ilə.

ən böyük dağ işsizlik, dağ yarılmış iş ilə.

ən böyük ümid, ümüdsüzlük üstündə qurulur.

ən böyük yalan, ən çox inananları utmuş.

ən böyük yalançı olduki, diri ikən ölümnən danışır.

ən çətin işlərdən: - kəndi gücən inanmaq.

ən çətin işlərdən: - kəndi gücən inanmaq.

ən dəlicə acıdan candan sevənlər olmuş.

ən gobud yanlıq başlamamaq, ən böyük suçluq işsiz qalmaq. (**yanlıq**: yalhalıq. iştibah).

ən gözəl bəzək gözəldə gərək.

ən gözəl dosdu durur hər kəsçün kəndi özü.

ən gözəl güzgü dosdun gözü.

ən gözəli məndə deyil, məndəkilər ən gözəl.

ən gözəli məndə deyil, məndəkilər ən gözəl.

ən iyi, ən pis, dil ilə ürək.

ən kötü ana, anadilin danandır.

ən kötü durum, ən kötü seçim. - ya ölüm, ya öldürüm.

ən kötü, ağır yaşamı gizlisi çoxlar yaşarmış. (gizlətmək, kəndi içində, ikinci məni yaratmaqdır. ekkiz yaşam).

ən kötüsün ağır güvəndiyin yaşatır.

ən qaba alçaqlığı, ən yovuqdan görəqıl.

ən qatı yakıt, "bu son yakıt" deməkdir. (**yakıt**: (yanmışlıq). qələt. xəta. iştibah. səhv).

ən qolay güntaylıq, iç durumun, dışarla uyqunutmaqdır. (**güntaylıq**: xoşbaxlıq).

ən qutluyuq deyəndə, sınar qutluq aynası.

ən mutlu olmaq üçün, evrənin ən yaxcılarına, gözəllərinə yiyələnmək deyil, evrənin ən yaxcıların göyçəklərin yapmaqdır.

ən sevişli kimsələr, ən iyiyə yox yiyə, ən iyisin yapanlar. (**sevişli: sevincli**).

ən sevişli kimsələr, ən iyiyə yox yiyə, ən iyisin yapanlar. (**sevişli: sevincli**).

ən tez qızan ürəkdir, ən tez soğuyanda.

ən ucalar ucası, ən ulular uluğu, ən diblərin dərini sığmaz qalmaz ölçüyə. (hər nərsənin sonu var, hər əğinin donu var).

ən ucalar ucası, ən ulular uluğu, ən diblərin dərini sığmaz qalmaz ölçüyə. (hər nərsənin sonu var, hər əğinin donu var).

ən uzaq yolu adam, addım addım gedib gələr, ən ağır daşı, su damcı damcı damıb, dələr.

ən uzun dözüm ölümə bitmiş.

ən uzun dözüm ölümə bitmiş.

ən yaxından bəkləyin, ən gücüzə gedəni.

ən yaxının satılar, özgələrə qatılar, güman edmə özgəyə, güvən olsun kəndivə.

ən yaxının satılar, özgələrə qatılar, güman edmə özgəyə, güvən olsun kəndivə.

ən yaxşı dos odur ki, qarşı durmaya.

əndi başın tutmayan, öz yağında qavrular!. (**tutmayan:** qormayan). (kişi, özlüyün, özgürlüyün düşünməlidir). (qonşu dadına uman, dadlar içrə, yad qalar).

ənə yaxın səndən ıraq düşürsə, demək ona başqabiri yaklaşıb.

əngəl gülə basılı, əngəl güldən asılı, gül olmasa, əngəl başı qazılı. (**başı qazılı**: məhkum). (pislər yaxcılrın çotuna (hesabına) yaşırlar).

əngəl ilə tikan, biri yardan, biri güldən (olur).

əngəl ilə tikan, biri yardan, biri güldən (olur).

əngəlləri əngəlləmək geri saxlar gedəni, kəndi yolun, kəndi qolun doğru gedsən irəli.

əngəlləri əngəlləmək geri saxlar gedəni, kəndi yolun, kəndi qolun doğru gedsən irəli.

əngəllərlə boğuşma, dik tut başın doğru yola irəli.

əngəllərlə boğuşma, dik tut başın doğru yola irəli.

əngəllərlə uruşa, ilgəri yür utuşa. (mane'lərlə vuruşub, iləri yeri zəfərərə sarı).

əngəllərlə uruşa, ilgəri yür utuşa. (mane'lərlə vuruşub, iləri yeri zəfərərə sarı).

ənginardan soruşdular, yuvan hardadır, demiş: külək bilər.

əprik yasıq, tozlu yayıq. { köhnə sadaqdan, (tozlu olsada) yararlı yay kaman çıxar}. (**yasıq**: yastıq. qorman. yastıq, mitəkgə biçimli tobra, qab. sadaq. ox qabı. oxluq. tirlik. tirdan).

ər ağacı gül ağacı, taqsırım var, vur ağacı.

ər altında at olur, qeyrət altında ər olur.

ər altun ilə ölçülməz, ərdəmli baş, dil gərək. (**dil**: söz. düşüncə).

ər arvad arası ipəkdir, araya girən köpəkdir.

ər arvad savaşı, batı küləyi, axşam düşüncə yatar.

ər arvad savaşı, batığay yeli, gün düşər yatar. (**batığay yeli**: axşam qalxan batsı yeli). (**gün düşər**: gün inər. gün batar).

ər arvad şamı danğa dək yana?!. (istək dolular, bıraxıb getdi, edməzəm dedi, edməzin etdi). (dosd, yar sözünə baxan, yolda qalar. kəndivə güvən).

ər arvadın arası, yaz günlərin havası.

ər arvadın savaşı, yaz gününün yağışı.

ər arvadın savışı, yay gününün yağışı. (heç biri çox sürməz).

ər arvadlıq qarıdar, yaman olsa ərarvad.

ər arvadlıq, dillə qıla (telə) bağlıdır.

ər arvatlıq andağı, uymur bu çağ yaşama. (**andağı**: sözləşməsi. muqaviləsi). (**olsunki**: bə'zən).

ər arvatlıq andağı, uymur bu çağ yaşama. (**andağı**: sözləşməsi. muqaviləsi).(**olsunki** : bə'zən).

ər aytmaz, aytdı qayıtmaz. (**ayıtmaq**: demək).

ər aytmaz, aytdı qaytmaz. (**aytmaq**: demək. söz vermək).

ər bildiyini, dəyirman döndüyün düşünür.

ər bildiyini, dəyirman döndüyün düşünür.

ər bilimdən qut bulur. (insan elimdən xoşbəxlik, dinclik tapar).

ər çöldə olar, çörəyi evdə.

ər çörəyi, ər qursağında qalmaz.

ər doğan yerini küysər (istər), it doyan yerini.

ər dosdunun tanışı, qadın boydaşının. (**boydaşının**: yaşam yoldaşının). (kişi dosduna, qadın yoldaşına çəkər).

ər ev yapır, xanım oda.

ər əkməyi, alan (meydan) əkməyi. (ərin qazancı, arvadı üçün tapılan maldır, qolayca işlənir, yeyilir).

ər ərdəmi dosdunan, boydaşı seçən xanımdan.

ər ərə qonaq, tin tənə.

ər əri yoldaşlıqda, ev evi qonşuluqda tanır.

ər qarır ərkdən, xatun qarır görkdən. (**ərkdən**: gücdən. ixtiyardan). (**xatun**: qadın. zənən). (**görkdən**: gözəllikdən).

ər qocalar, könülki yox.

ər qocalsa ərki gedər, diş qocalsa, görki gedər. (**ərk**: güc. quvvət. (**diş**: dişi. arvad). (**görki**: gözəlliyi).

ər nə görməzmiş, ku nə dinməzmiş, baş nə duymazmış. (**ku**: qulaq).

ər nə görməzmiş, ku nə dinməzmiş, baş nə duymazmış. (**ku**: qulaq).

ər nəyin var nədəni bir ucubu, nəmli yer görməsə hardan atacaq pas dəmirin.

ər od olar, arvad su. (- sən ölmüyəsən).

ər odur yağıyla yağılaya, yarıyla yarılaya. (**yağılaya:** düşmənlik edə). (**yarılaya**: dosluq edə).

ər oğlu bunğazmaz, it oğlu qolazmaz. (bəniadəm, adəm nəvəsi uzun sürə sıxıntıda qalmaz, it balası büdrəməz)..

ər oğlu bunğazmaz, it oğlu qolazmaz. (bəniadəm, adəm nəvəsi uzun sürə sıxıntıda qalmaz, it balası büdrəməz)..

ər olursa karvanında yol alır, aldışı böylə gedərmiş dünyanın. (**aldışı:** adəti**)**.

ər yalağı min, otur yalağı üç. (**yalağı**: qayışı. təsməsi). (**otur**: yəhər). (kişini min yolla dilə tutmaq olar).

ər yaşar, ərki gedər, qadın yaşar görki gedər. (**yaşar**: yaşad olar. yaşlanar. - **yaşarmaq**: qocalmaq).

ər yaşar, ərki gedər, qadın yaşar görki gedər. (yaşar: yaşd olar. yaşlanar. (**ərki**: gücü). (**görki**: gözəlliyi).

ər, axar çaydır. arvadisə ona ovsar.

ər, doğan yerin isdər, it doyan yerin. (ər doğan yerini küysər, it doyan yerini).

ər, doğan yerin isdər, it doyan yerin. (ər doğan yerini küysər, it doyan yerini).

ər, əri yoldaşlıqda tanır, ev, evi qonşuluqda tanır.

ər, əri yoldaşlıqda, ev, evi qonşuluqda tanır.

ərarvad var birbirini qocaldar, ərarvad var birbiriylə qocalar.

ərarvadın gizli sözü, çatınca çağ, çalar üzü. (**çalar üzü**: açılar üzü).

ər-arvadın savaşı, yaz gününün yağışı.

ərdəm aldı, altun dil. (**aldı**: alnı. yüksəyin. ən yüksəyi. başı) (ərdəm başı, til).

ərdəm başı dil, yardam başı il. (**dil:** söz**).** (**il:** el). (dəğərlərin ən yüksəyi sözdür, kömək diləsən eldir).

ərdəm başı, dildir.

ərdəm istir qorumaq toprağını, bu bacarma hər elin buyruğu dəl. (**buyruğu dəl**: qisməti deyil).

ərdəmin qolayı yox. (başarılıq, bir işi iyi bilmək heç çağım qolay ələ gəlməz).

ərdəmin var bir qapını açıq tutut, yoxsa navar qapatmağa min qapı.

ərdəmli ol sözün yoxa çıxmasın, yaxşılıqdan yalqu başa çıxmasın, bərk oturub boş yerə söz danışma, qulaq duydu ağzını yum çıxmasın. (**yalqu**: qanmaz, annamaz) (Araz Təbrizli).

ərdəmli ol sözün yoxa çıxmasın. (**ərdəmli: ər dəmli**: kişi nəfəsli. kişi sözlü). (yoxa: boşa. puça. puka).

ərdəmlik kişi ərdini dəğər, ərdəmsiz kişi ulyaku dəğməz. (**ərdəmlik**: çıxarlıq. fəzilətli). (**ərdini**: dürr). (**ulyaku**: etük, başmaq içliyi).

ərdəmlik kişi ərdini dəğər, ərdəmsiz kişi ulyaku dəğməz. (**ərdəmlik**: çıxarlıq. fəzilətli). (**ərdini**: dürr). (**ulyaku**: etük, başmaq içliyi).

ərdəmsizdən qut çərtilir. (**qut**: şans). (**çərtilir**: cayır. qaçır).

ərdəmsizdən qut çərtilir. (**qut**: şans). (**çərtilir**: cayır. qaçır).

ərdən aş, eldən yok. (**aş**: keç).

ərdəni dil bilgə sözü yaştuq yola yaxtuq səpər. (**ərdəni: ərdənli**: tutarlı. qiymətli). (**yaştuq yola** yaşam, həyat yoluna). (**yaxtuq**: ışıq).

ərdi üzə ərənər, ərdəm bəyi, bilik dağ. (**üzə**: ərsiyə) (**ərdəm bəyi**: ləyaqət kanı). (çıxdı ərsiyə kişilər, ləyaqət kanı, elm dağı).

ərdi verər dərmanını gizlədər, ov bıraxar ovçuya iz izlədər, yaman dünya, yalan dünya.

ərə gedmiş kor qızlar, yeğcə düşüb yaxşı olsa qonşular.

ərə getmək hasatdır, ər donu tikmək çətin.

ərə qadaş gərək düşman dağıda, ki demişlər yavuz qardaş yağıda. (**yavuz**: pis. yaramaz) (**yağıda**: düşman içində. düşmana yaxcıdı).

ərə qılqan yaxşılıq, yerə batmaz. (kişiyə yapılan iyilik, boşuna getməz).

ərə ver atın, elə ver aşın.

ərən ərəklə yaşır, ərən irkəsiz çaşır. (**ərəklə**: amacla). (**irkəsiz**: amacsız. mənzilsiz. məqsədsiz).

ərən olan savaş günü kəndi özün itirməz, min munğ çək, bir işini bitirməz. (**munğ**: qayğı).

ərənləri ayrılmış, ıssız yerində qalmış. (**ərənləri**: adamları) (**ıssız**: ürək sıxıcı. təki tənha) (**yerində**: yurdunda).

ərənlərin nərsəsi yox itirsin, itirmişsə ümidin. (**ərənlərin nərsəsi yox**: ərənlərə nərsə qalmaz). (**ümidin**: umacağın. amacın). {amac hər yolun dalqacıdır) (**dalqacı:** çaxmıqı. mühərriki)}. (kişi üçün durmuş, yaşam seçdiyi diləklə sürür)). (**ərənlərin nərsəsi yox**: ərənlərə nərsə qalmaz).

ərənlərin sağı solu olmaz. (bəylər istəkləri kimi yaparlar).

ərgin olan bir im ilə söz qanar. (**ərgin**: bilgin).

ərgin olan qaşdan anlar (bilər) işini (arif olan işarədən söz qanar).

ərginliyin dəğəri əldə ikən, ağçanın dəğəri cibdə ikən bəllənsin. (**ərginliyin:** azadlığın).

əri qoy olan qadın, günü gündən yaşınar. (**qoy:** qoyun. tabe') (**yaşınar**: gəncləşər. cavanlaşar).

ərigidi ər tanır, qayər yaxşı pisi nə bilsin. (**tanır**: dəğər verir). (**qayər**: çaşqın. kor eşşək. nakəs).

ərik irni yağlı, ərməğu başı qanlı. (**ərik**: çərik. çevik. çalağ). (**irni**: dodağı). (**ərməğu**: gəvşək. təmbəl).

ərik irni yağlı, ərməğu başı qanlı. (**ərik**: çərik. çevik. çalağ). (**irni**: dodağı). (**ərməğu** : gəvşək. təmbəl).

ərik oldu dağlar başı, qaytaq oldu ər yoldaşı, düz doğrunun gözlər yaşı, axıb durar dənğiz olar. (**qaytaq**: dönük).

ərik verər bildirməz, ərik alar dindirməz, öz aldığın sindirməz, əzib tökər verdiyin. **(ərik: ərkə:** güc. nifuz. saltanat. səltənət). {dünyanın bəfasızlığı doğru (haqda)}:.

ərik verər bildirməz, ərik alar dindirməz, öz aldığın sindirməz, əzib tökər verdiyin. **(ərik: ərkə:** güc. nifuz. saltanat. səltənət). {dünyanın bəfasızlığı doğru (haqda)}:.

ərik yuxudan qalxınca, irik yürbay. (təmbəl özünə gəlincə xəsdə ayağa qalxar). {kəsələ dərman tapıldı, armana (təmbələ) yox}. (**ərik:** təmbəl). (**irik:** xəsdə). **{**yürbaymaq**:**yarbaymaq**. (**kəsəl, yatalağ kimsə) qalxıb yerimək. ayağa durmaq}.

ərin ağrısın yeynisin at bilir. (ərin ağırlıq, yüngüllüyün at çəkər).

ərin ağrısın, yeynisin at bilir.

- ərin ağırlığın, yüngüllüyün at çəkər.

ərin axdaranda var ər axdaranda.

ərin dodağı yağlı, ərməkün (təmbəlin) başı qanlı.

ərin dodağı yağlı, ərməkün (təmbəlin) başı qanlıq.

ərin sözü bir, otur çəki üç. (**otur**: yəhər). (**çəki**: qayışı).

ərin üzü dönüncə yəhərin üzü dönsün. (o deməkdir ki, bir qadından əri soyuyub-üzü dönməkdənsə, yəhərdən, atdan düşüb ölsə daha yaxşıdır) (meriban az).

ərincək örətin uyur, yatıp işsər. (**ərinck**: təmbəl). (**örətin: oratın**: dikə duran. ayağ üsdü): təmbəl ayağda yuxlar, yataqda işləmək duyğusunda olur).

ərincək örətin yuxlar, yatıb işlər. (**örətin**: ayaq üsdü).

ərincəyə iş buyur, qulağ öğütlər duyur. (**ərincəyə**: təmbələ).

ərincəyin işi bitməz, yaz gəlsədə qışı bitməz (geçməz). (**ərinck**: təmbəl).

ərincəyin işi bitməz, yaz gəlsədə qışı bitməz.

ərinə görə, bağla başını, qabına görə qaynad aşını.

ərinə görə, bağla başını, qabına görə qaynad aşıvı.

əringən qız ərdən qalar.

əringənə bulut artıq yük gəlir. (**artıq**: 1. böyük1. belə).

əringənə, əlli qarı bezdən yum olmaz: subaya əlli qarış parçadan, don çıxmaz. (subaydan ev olmaz).

ərinmə başla işə, yorulma çatmaz dişə. (**çatmaz dişə**: əldə edməmiş).

ərinməsən, usta olarsan.

ərişi yalan olanın hörüşü düz çıxmaz.

əriyən yox əridən ol.

əriyəndə ol əridəndə ol, hər nəisən ol özüvünkü ol. (**durmuşunda**: yaşamnda. həyatında).

ərk qalası, düşümana qadası.

ərk qapını verim açar, dərd qapısın, dözüm açar, özgəyə bel bağlayan, şamsız qalıb, əlin açar. (Araz Təbrizli).

ərk satılmazımış, sən satdın bir cüt gözə. (**ərk**: ixtiyar).

ərkək quş havanı, dişi quş yuvanı güdər.

ərkək ol yaki dişi, kişilik varsa dəğişməzdir işi.

ərkəkdə söz, aşda duz gərəkdi.

ərkəs bir yaşam seçər, seçdiyi yaşamın töləvin ödər.

ərkəyə ürək gərək, qadına dirək.

ərkin əlində olsa, bağlı qapı tapılmaz. **(ərkin**: gücün. ixtiyarın).

ərkişilər iş üsdə, qaykişilər aş üsdə.

ərköyülü gözün yaş azmaz, qaçan atdan tər azmaz. (ərköyülün gözü yaşı, ağlağan olu, qaçan atdan tər əsgilməz).

ərlə arvad birgələşmiş bir yaşam qurmaq qolay, dəmdaş olmuş qayğudaşlıq, arxadaş qolğay deyil. (**qolğay: qolay**).

ərlə arvad quruşar, biri calar biri yaxar, böyləliklə evi yıxar! (**quruşar**: qurşanar. qızar. təhrik olar).

ərlə qadın çəlişdə, oddu saman qatında. (**çəlişdə**: uyuşmazlıqda). (**qatında**: yanında).

ərməgiyə (təmbəl), bulut yük olur.

ərməgiyə (təmbələ), bulut yük olur. (ərməgügə, eşik art olur. (təmbələ qapı, dağ beli görünür).

ərməkügə, eşik art olur. (təmbələ qapı, dağ beli görünür).

ərnəgənə iş buyur, işin bitməzin sürür. (**ərnəgənə**: əringənə. ərincənə. təmbələ).

ərnova bulut yük. **(ərnov:** gəv. təmbəl).

əroğlu ol elə yaya saçağın, doğru yola əkidiləqıl çevrəvi. (**saçağın**: süfrəvi) (**əkidiləqıl**: hidayət ed. tərbiyət ver).

əroğlunu qurtaran gözəllik yox, söz olacaq. (söz, savsal. fəlsəfə analamındadır. örnək-**sözlü sözlər**. birdə söz: dil anlamındadır. divandan. - **erdem başı dil**. söz hər nəyin eşidilməz, duyulan, qavranan içidir).

əroğlunu söz pozar. donla daşı suv pozar. (kişi sözündə durduqca dəğərlənər, "parça, daş" su altında yeyilib, əriyər, pozular).

ərsək kişi diləyi, dini, dili, topraği. (ərsək: arsaq. kişi sarat. azadə).

ərsək, ərə dəğməz, ivsək evə dəğməz. (oynaş, ərdə qalmaz, tələsən evə çatmaz).

ərsək, ərə dəğməz, ivsək evə dəğməz: oynaş, ərdə qalmaz, tələsən evə çatmaz.

ərsiz arvad, güvənsiz at.

ərsiz qız, sükansız gəmi, oğulsuz arvad, yüyənsiz at.

ərşid olan bir im ilə söz qanar, ərişməyən anlayınca söz yanar. (**ərşid**: ərşin. ərmiş. ərgit. anlı. arcı. arif. buluc). (**ərişməyən**: çatışmayan).

əsən yeldən, hürən itdən küsməzlər.

əsən yeldi, titrəyən yapraq. ər ər olsa, saxlayar arvad.

əsən yeli, ösən göyü dananlar, anadilin, doğma isin qananmaz. (**ösən**: bitən) (**doğma isin**: təbii hiss, həyəcan).

əsəndə ivik yox. (sağlıq, tələsmə götürməz).

əsəndə ivik yox: sağlıq, tələslik götürməz.

əsər qılmaz söz, ol yerdəki dərd yox, pişməz təndir oluncaq soyuq.

əsər yellər hürər itlər karvan keçər yolunu. (hər işin öz gedişi var).

əsgi ağıza, yeni qaşıq. (alışılmış olanlara sunulan yeni nərsə).

əsgi aldış almaşlığı güc olur. (**aldış**: adət). (**almaşlığı**: dəğişməsi).

əsgi bataqlıqda, içməli su aranmaz.

əsgi çamlar, bardaq oldu. (o dövrə keçdi. hər nə dəğişmiş).

əsgi dəğərə minsəydi, bit bazarına ışın yağardı.

əsgi dos, düşman olmaz, calanan su, qaba dolmaz, qırılan cam bütün olmaz, çolax əldə çəlik durmaz. (əsgi düşman dost olmaz, əsgi pambıx bez olmaz. (əsgi düşman, el olmaz). (əsgi düşman, eli pozar, el olmaz).

əsgi dosdu düşman, əsgi yağuvu dos yapınma.

əsgi düşman dost olmaz, əsgi pambıx bez olmaz.

əsgi düşman, el olmaz.

əsgi ilin hesabi, yeni ilin sabağı (dərsi).

əsgi ilin sorağı, yeni ilin sabağı. (**sorağı**: öğrətisi). (**sabağı**: dərsi. ibrəti).

əsgi yenini saxlar.

əsgi yoldan əsgi dosdan ayrılma.

əsgi yoldan əsgi dosdan ayrılma.

əsgi yollar yeni qapı açmamış.

əsgi yollar yeni qapı açmamış.

əsgi, yamağ götürməz.

əsgi, yenini saxlar.

əsginməyən torba yox, tükənməyən dağar yox. (**dağar**: mal). (torba yoxdur əsgiməz, dağar yoxdur tükənməz).

əsginməyən torba yox, tükənməyən dağar yox. (**dağar**: mal). (torba yoxdur əsgiməz, dağar yoxdur tükənməz).

əsginməyən torba, tükənməyən mal olmaz.

əsgisi olmayanın, yenisi olmaz.

əsgisin arıd, əsgisin saxla.

əsil aynamaz, aynasada çürüməz.

əsil ilə daşı daş, bədəsillə yemə aş.

əsil itməz, yağ iylənməz.

əsirgənmə keçən günlərivin nə olduğuna, güvənginən bu gün əlində olduğuna.

əsirsə yel oxşasun saçun, yağsa yağış sulasun bağun, çevrə bərin dos tanış dolu, daş əzsin başun hardasa yağun. (**yağun**: düşmanın).

əsirsə yel oxşasun saçun, yağsa yağış sulasun bağun, çevrə bərin dos tanış dolu, daş əzsin başun hardasa yağun. (**yağun**: düşmanın).

əsiyə baxıb, yelə qapınıb, (**əsiyə baxıb**: əsməyə baxıb).

əskiləri boğulmadan yeniləri doğulmaz, yaşam yaşıl, saralmışsa onulmaz. (**onulmaz**: dirsəlməz. yolda durmaz).

əskinməyən torba, tükənməyən mal olmaz.

əslək olan, bəslək olur. {yuşaq (yumşaq) olan yardım görür, onu bəsləyən çox olur}.

əslək olda, dişlək olma. {yuşaq (yumşaq) ol, qapağan olma}.

əsləyən, dişləməz. (yumşaq olan, başqaların incitməz).

əsməyə baxıb, yelə qapınıb. (əsiyə baxıb, yelə qapınıb).

əsməyincə yel, urlamaz orman.

əsridən içməmişin, qanda durur yar, degən. (içməmiş keflədən yar hardadır, deginən).

əsridən içməmişin, qanda durur yar, degən. (içməmiş keflədən yar hardadır, deginən).

əsrik uşaq içindəki dilində. (**əsrik**: kefli).

əsrik üsrük tanrıya, başla işi yadına. (tanrı eşqinə, işivi başla onu adına).

əsrük keçi, qurd evin arar!. (əsrük keçi, qurd evin **sorar**!). (əsrük: kefli. sərxoş) (kefli keçi, qurda boy deyər).

əsrük suyun içərsin, toz dumana dönərsin, bilgə sözün duymasan, uzun sürməz çaşarsın.

əsrük vurulmadan yıxılar. (**əsrük**: kefli).

əsrükün dilində olan, ağıllının başındadır. (**əsrük**: kefli).

əsrüyə sayıqlamaq, ayqıra çul yırtmaq man deyil. (**ayqır**: güclü ərkək at).

əş aldıq, iş çıxdı.

əş dediyin dərdə sevincə ortaq, yaman günündə yartaq.

əşib eşmiş, gəzib görmüş, sınıb qırmış.

əşin olsun yolda yoldaşın, evdə sırdaşın.

əşin olur düşərə. (**düşərə**: raslaşa). (heç kim düşünüb sevgisin seçmir).

əşin olur düşərə. (**düşərə**: raslaşa). (heç kim düşünüb sevgisin seçmir).

əşivi başdan, çağavı yaşdan (əkit. öğrət). (**yaşdan**: uşaqkən). (**çağa**: bala).

əşköküz axsa qanı bir barmağın, başqa sınlarda belə durmaz durar.

(**sınlarda**: **sınğlarda**. üzvlərdə) (**əşköküz**: həməslik). (**durmaz durar**: qərar qalmaz).

əşlər ara dil dursa, könülləri dinc alır. (**dil**: söz) (sevgilər (ər arvad, qız oğlan) arsında söğüş dalaş yerinə ökdəlik (mə'qulluq) dil, söz üstəlik sürsə, iş sonu gəlirsədə könülləri dinclikdən qalmaz).

ət dırnaqdan üzülmür, dırnaq ətdən üzülür. **(üzürmək:**üzləmək. təmiyizləmək. nərsənin yaxcısın, iyi pisin ayırmaq).

ət ətə dəğər, sümük sümükdən qaçar. (ağız ağıza verilmiş, diş dişə verilməz). (olamaz, görünməmiş iş).

ət qanlı, iğid canlı gərək. (ət çox pişmədən yeyilməli, gənc isə çabalı olmalı).

ət qanlı, iyid canlı olmalı.

ət qanlı, iyid canlı olmalı.

ət mət varıdı, duz istiyot çatmırdı.

ət olan yerdən, it getməz.

ət sümüyə çəkər, kişilik suyuna (xuyuna) çəkər.

ət yeməgən quş, olmaz. (yırtıcı quşun yemi ətdir). (oldağ (vaqeiyyət) danılamaz).

ət yeyən quş dimdiyindən tanınar.

ət yeyən quşun dimdiyi əğri olar, pox yeyən qaşığı belində.

ət yiyən quşun dimdiyi əğri olar, pox yiyənin qaşığı belində. {hər gərəyin gərəci var. hər işi özləşmiş aracı olur. (**gərəci**: özəl ayqıtı, aləti)}.

ətacı axdarmazlar, ras gələr.

ətacıdan ıraq ol, kötü birlə yaşama!. çevrəndə dəh düşün oynar, qapında qazanın qaynar, için yanar, gözün oynar. (**dəh tuşun: dənğ tuşun:** qohum əqrəban). (pis yoldaş, boydaşla heç türə barışıq, dinclik olamaz).

ətacısın alınca, subay otur, ölüncə.

ətəkiğ götüvə yetməsin!. (iyilik üzü görməsin!).

ətəkli, ötəkli. (1. qadın sözü keçərli olur. 1. **ətəkli, örtəkli**. ətəklinin, donlunun (qadının) həmməşə gizlisi olur).

əti acı adamı axdarmazlar, ras gələr.

əti acı daş yesə, gedməz üzdən üzü çox, uzaq durqıl olardan, asdarı yox üzü yox.

əti büzütün şorbası düzün çıxmaz. (**büzütün:** həramın). (**düzün**: duzun. dadlı. həlal).

əti ətdən kəsərlər, uman yerdən küsərlər.

əti nə budu nə?. -yoluğda nə var yaluğa versin.

ətin gücü, çəlik dələr. (ətin gücün, çəlik bilməz).

ətin gücü, çəlik dələr. (ətin gücün, çəlik bilməz)..

ətin gücün, çəlik bilməz. (ətin gücü, çəlik dələr).

ətin gücün, çəlik bilməz. (ətin gücü, çəlik dələr)..

ətin olsun, çölmək tapılar. (bu söz kişini, ilkin, hər nəyin içi, özəyi, amacı üzrə düşünməyə çağrır).

ətin pişsə tiltəsi, günün keçsə ertəsi (var). (**tiltəsi**: çörək doğramalı syuy).

ətin yemiş, sümüyünə dayanmış.

ətin yeyir, sümügünə göz tikir.

ətlə dırnaq ayrılmaz, iyi yavlaq ayrılsın.

ətlə dırnaq ayrılmaz, iyi yavlaq ayrılsın. (iyi yavlaq: yaxcı pis).

ətlə sözün çiği, yeyilməz.

ətləs əsgilsə belə patava çıxmaz. (**patava**: cında). (sür duramı, dəvamı olmayan nərsə).

ətliyə sütlüyə qarışmamaq. (soru çıxacaq işlərdən uzaq durmaq. öz keçimində, halında olmaq).

ətsiz boş, gəlinsiz toy olmaz. (**boş**: aş türü).

ətsiz olsun, atsız yox, adsız olsun, dadsız yox.

əvrən (dünya) qızıl güldür, qoxla ver yoldaşuva.

əy! qanuna ər isən, əyəmməsən, ərirsən.

əylənməz ötür evrilir. (durmadan zaman dəğişir).

əyri ağaca yayım demə, hər görənə yarım demə (dayım demə).

əyri ağaca yayım, hər görənə dayım demə.

əyri ağız bəy olsa, yalan sözü düz çıxar.

əyri azar doğru uzar demişlər, tam tərsinə, üzüldü doğru, uzaldı oğru.

əyri basılar, doğrusu çıxar.

əyri duvar tez yıxılar.

əyri olsan yay təki, əldə dutulursan, doğru olsan oxq təkin fırladıp atılırsan. (Kordus).

əyridə tox, doğruda ac görmədim.

əyrisinə baxan, tüsdünün düzündən qalar.

əzançı, əfəndiyə qazançı. (müəzzin imama ortaq).

əzəli düşman, el olmaz, ətəgi kəssən dar olmaz.

əziləbildiyin dərək əzərlər, dəğər verdiyin dərək dəğərlərlər.

əziziyəm dil açar, bərk toprağı bel açar, toprak sənin dil başqa, körpə dilin kim açar.

əziziyəm dilim dilim, kəs qarpızı dilim dilim, əlçəkmərəm dilimdən, kəssən dilim, dilim dilim.

əziziyəm qardaşıdı, oğlumunan qardaşıdı, mənləndə qardaşıdı, bəs bu necə qardaşıdı. ("qar daşımaq").

əzraillə çəlik ağac oynayır.

əzrayil vurar pəncə, baxmaz qocaya, gəncə.

əzrayil, axşaq heyvan kimidir, hər qapıda dayanır.

fala inanan, suya dayanan, nəyimə (skimə) dönər.

fala inanma, suya dayanma.

fala inanma, suya dayanma. (fala inanma, falsızda qalma).

fala uyan, fala düşər.

faydalı yerə qaça - qaça get, zərərli yerdən qopa - qopa qaç.

faydalı yerə qaça qaça get, zərərli yerdən qopa qopa qaç.

Fazlalık (artık) mal göz çıkarmaz. Fazlalık diy elimizden çıkarmaya çalıştığımız mal gün gelir işimize yarar. Gereksiz olmadığı anlaşılmış olar. İstihza ile elinde aynı maldan olduğu halde bedavadan geldiği için istemem mal bendede var demiyenler için de kullanılır. (Bayram Özdemir).

Felek kimine kavun yedirir, kimine (acı) kelek. Kelek, kavunun olgunlaşmamış hali. Bu dünyada bazı insanların işleri düzgün gider

rahat yaşar. Bazı insanlarda ne yaparsa yapsın işleri düzgün getmez başarılı olamaz. (Bayram Özdemir).

fələkin belə işləri çox, qaplanı ac gəzdirir, tülkünü tox.

fələkin işinə bax, birinə qismət, birinə nisbət verir.

fəlsəfə inancdan asılı olmayaraq, soyut bir bilgilər verməkdədir, inanclar somut.

fəlsəfə oxuyan filosof olmur, düğünü yozan, yaşamı yoran faylasof olur. filosof.

fəlsəfə sorquyla başlır, sorağla sürür. (**sorquyla**: sualla) (**sorağla**: yanıtla. cəvabla).

fəlsəfə sorquyla başlır, sorağla sürür. (**sorquyla**: sualla) (**sorağla**: yanıtla. cəvabla).

FƏLSƏFƏ yolu kitabdan öğrəşilir, TƏMƏL FƏLSƏFƏ yaşamdan bilgilənir!.

fəlsəfə, öğrəşmə, bilmə konusu deyil, yaşam yoludur.

fəlsəfə, yaşamı kəndi qafasına uyqulamadır.

fikir dili basar, dildə gücü.

fil azacıq doğur, doğanda balası fil olur.

fil kimi ağır ol, bars kimi sıçraq.

filçini, fil basar, ovsunçunu, ilan çalar.

Fincancı katırını ürküten dayak yer. Fincancı, kervanla ticaret yapılan zamanlarda, kırılabilen değerli malları alıp satan, tüccar, tacir. Bir ülkede kurulu düzene karşı baş kaldıran, kurulu düzene çomak sokan cezsını ağır öder. (Bayram Özdemir).

fırlanar cıvar, kiminə yemək bitidi kiminə əmək. (**cıvar**: dünya).

fırlanır tərsəsinə bax devranımız, su götürmək yerinə suv tökülür güv quyuya. (**güv**: yağış suyu yığışan çuxur).

fırlanır tərsəsinə bax devranımız, su götürmək yerinə suv tökülür güv quyuya. (**güv**: yağış suyu yığışan çuxur).

Fukaranın ahı, tahtdan indirir şahı. Fakir, muhtaç kişilere yapılan kötülüğün karşılıksız kalmayacağı muhakkak bir gün cezasının çekileceğini belirtir. (Bayram Özdemir).

Fukaranın tavuğu tek tek yumurtlar. Zengin ve fakire eşit imkanlar sunulsa bile zengin çok kazanır. Fakir az kazanır. Şans, kısmet yoksula pek gülmez. (Bayram Özdemir).

fürsət yelə bənzər, onu keçərkən tutmalı.

Gafile kelam, nafile kelam, Gaflet içinde olan kişi söz dinlemez. Ona boş yere bir şeyler anlatıp kendinizi yormayın. (Bayram Özdemir).

gah sözündə seviş, gözündə söyüş, gah sözündə söyüş, gözündə seviş. biləməm gözə biləməm sözə inanım. (**söyüş**: nifrət).

gah sözündə seviş, gözündə söyüş, gah sözündə söyüş, gözündə seviş.biləməm gözə biləməm sözə inanım. (**söyüş**: nifrət).

gahdan olur yol səni bulur, gahda olur sən yolu.

gahdan olur yol səni bulur, gahda olur sən yolu.

gahdan tovaçlıq seçdiklərin deyil, boşverdiklərindir. (**tovaçlıq: tovçalıq: tovğaclıq**: cürət. cəsarətlilik. baturluq. bağraqulluq). (**boşverdiklərindir**: vaz geçdiklərindir).

gahdan tovaçlıq seçdiklərin deyil, boşverdiklərindir. (**tovaçlıq: tovçalıq: tovğaclıq**: cürət. cəsarətlilik. baturluq. bağraqulluq). (**boşverdiklərindir**: vaz geçdiklərindir).

Gahrolsun Köroğlu, Köroğlu bir yerde gezerken bir gadın gahrolsun Köroğlu diye gadın Köroğluna garış veriyormuş. Köroğlu şaşırmış, gadına ana Köroğlu sana yaptıda garış veriyorsun diye sormuş. Aman oğlum herkes diyor bende diyorum demiş. Toplumun dedikodulardan nasıl etkilendiğini anlatmak için söylenir. (Bayram Özdemir).

Garip kuşun yuvasını Allah yapar. Kimsesiz kişilerin yardımcısı Allahtır. (Bayram Özdemir).

Gavurun ekmeğini yiyen, gavurun kılıcını (gılıcını) çalar. Gavur (kafir), Allah'ın varlığını inkar eden, ateist, Hrıstıyan (İsevi), Musavi (çıfıt) gibi farklı anlamlarda kullanılır. Kişi farklı inançda da olsa ekmeğini yediği kişininin çıkarları doğrultusun da hareket eder. Ondan yana olur, ona hizmet eder. (Bayram Özdemir).

Gaylesiz baş yerin altına=Ağrısız baş mezarda olur. Hayattayken rahat, sorunsuz günümüz geçmez. Sorunlardan ancak ölürsek kurtuluruz. (Bayram Özdemir).

gec atılan ox, yersiz aytılan söz. (ox atılmasın gecinə, söz düşsün yerinə).

gec böyüyüb, güclü qalan palıtdır.

gec desəndə, heçgəzin demə.

gec desəndə, heçqaçan demə.

gec duran işdə geyin, ir duran işdə yeyin.

gec ertiyə sığmayır, öğrəşməklə yaxcılıq. (öğrənməklə yaxşılıq, ertini yox, gecini yox. (öğrənişlə yaxşılıq, ertə gecin sayılmaz).

gec qalan unutsun artıq "keçəni", dönüşə yol qapalı. (yaşam yolu **biyoladur**, gəlib köçəri yoldur. (**biyola**: biryönə. bir tərəfə).

gec qalanı yaşam heçin ötünməz. (**ötünməz**: bağışlamaz. əff edməz).

gec qalanı yaşam heçin ötünməz. (**ötünməz**: bağışlamaz. əff edməz).

gec olar güc olar.

gec olsun hec olmasın. (gec desəndə, heçgəzin demə). **(**gec desəndə, **heçqaçan** demə).

gec olsun, güc olmasın. (gec olsunda, güc olmasın).

gec yaxşı, gələn yaxşı.

gec yakşı, gələn yakşı. (gec olduda, yeğ olsun!). (umarım iyi olacaq). (bu söz, ürək qırmayıb, sağlamaq (təşviq edmək) üçün, gecikən iş konuda söylənir). (kişi olub itənə yox, olur bitənə baxmalıdır). (**olub itənə**: keçmişə. keçib gedənə). (**olur bitənə**: baş tutb, üz verənə).

gec yatıbən irtin dur, altpişəki artıq ur. (**altpişəki**: altı qıçlı tuluq çalxama aracı).

gecə basılan, günüz doğar. (gecə çağlanan, günüz çağalar). (gecə yüklənən, günüz balalar) (gecə **çağılı**, günüz çağalı). (**çağılı:** taxılı**.** yüklü. hamilə**).** (**çağalı**: balalı).

gecə boylu dan atırsa doğular.

gecə boylu dan doğar, gecin qalxan zor bular.

gecə boylu dan doğar, öndə gedən ön soxar.

gecə boylu düşən, irtə doğur. (dalıda alar, burunda doğar). (hər gizin, gəzi var açlımağa).

gecə boylu, dan doğar.

gecə çağılı, günüz çağalı. (**çağılı:** taxılı**.** yüklü. hamilə). (**çağalı**: balalı). (gecə çağlanan, günüz çağalar). (gecə yüklənən, günüz balalar) (gecə basılan, günüz doğar).

gecə çağlanan, günüz çağalar. (gecə yüklənən, günüz balalar) (gecə basılan, günüz doğar). (gecə **çağılı**, günüz çağalı). (**çağılı:** taxılı**.** yüklü. hamilə). (**çağalı**: balalı).

gecə çəkilir, nisgil çəkilməz. (**çəkilir**: dözməklə bitər). (**çəkilməz**: dözməklə bitməz).

gecə çəkilir, nisgil çəkilməz.(**çəkilir**: dözməklə bitər). (**çəkilməz**: dözməklə bitməz).

gecə çəkilir, nisgil çəkilməz.(**çəkilir**: dözməklə bitər). (**çəkilməz**: dözməklə bitməz).

gecə dam suvarılmaz.

gecə gedən dan yetmiş, altda qalan çeğnənmiş.

gecə gəbədir, gün doğmadan, nələr doğar.

gecə gözü qara sicim ağ sicimdən seçilməz.

gecə gözü seçər qıldan qılı, günüz gözü, seçənmədi düzü oğrudan.

gecə gündüz çavçalır, günü gündən alçalır. (tapmaca) (yaş. ömür). (**çavçalır:** çalğaşır. əlləşir).

gecə gündüz qaytalar, keçən günə gün çatmaz. (**qaytalar**: təkərlənər. təkrarlanar) (kişi oğlunun gözü geridə, ölünün gözü qarıda qalar).

gecə günüz qoyulsa, eyku kişi övgüsünü açmağa, mində biri aytılmaz. (**eyku**: eyi. iyi).

gecə ışıq gündüz tüstü gizlənməz.

gecə itəni gündüz axdarın.

gecə keçmiş yarıya, çapıl (əcəl) gəlmiş qapıya, güman qalmış qaçıya, indi ev davarın saçqılan. **(saçmaq:** atmaq. əl çəkmək. əldən qoymaq. tərk edmək. bıraxmaq).

gecə keçmiş yarıya, çapıl (əcəl) gəlmiş qapıya, güman qalmış qaçıya, indi ev davarın saçqılan. **(saçmaq:** atmaq. əl çəkmək. əldən qoymaq. tərk edmək. bıraxmaq).

gecə kimi qara, tamı kimi issi, sevgi kimi şirin. (tamı: cəhənnəm).

gecə kimi qara, tamu (cəhənnəm) kimi isti, sevgi kimi dadlı (şirin).

gecə qalxar, günüz salxar. (**salxmaq**: salxanmaq. salqmaq. salqanmaq. salqınmaq. sallanmaq. salığmaq. salnığmaq**)**. (tapmaca). (gül çeşiti).

gecə qalxar, günüz salxar..(**salxmaq**: salxanmaq. salqmaq. salqanmaq. salqınmaq. sallanmaq. salığmaq. salnığmaq**)**. (tapmaca). (gül çeşiti).

gecə qalqanar, günüz salqanar.. (**salxmaq**: salxanmaq. salqmaq. salqanmaq. salqınmaq. sallanmaq. salığmaq. salnığmaq). (tapmaca). (gül çeşiti).

gecə qalqanar, günüz salqanar..(**salxmaq**: salxanmaq. salqmaq. salqanmaq. salqınmaq. sallanmaq. salığmaq. salnığmaq). (tapmaca). (gül çeşiti).

gecə qara cücə qara, ara ha ara.

Gecə qara, cücə qara. (Ara Gündüz).

gecə nə qədər qaranlıq olsada, gündüz o qədər ışıqlı olar.

gecə oda gedmə, gündüz tüstüyə.

gecə odu, gündüz düdü (tüstünü) gizlətmə.

gecə odu, gündüz düdü gizlədir.

gecə odu, gündüz düdü gizlətməyi öğrən. (**düd**: tüstü).

gecə oğrusu gündüz tutular.

gecə oğrusu, günüz tutular.

gecə olmasaydı ayla ulduz itgin qalardılar.

gecə olmaz ki düşə daş düğünə, çıxmaz ola dan səhərə.

gecə yaraqlı, gündüz papaqlı. (görünməsinə qarşı, qara işlər çevirən, qılan kimsə).

gecə yatan, gündüz oyanar.

gecə yatan, gündüz oyanar. (gecələr yatar, danla oyanar).

gecə yeriyən, günüz əğlənər, kiçik evlənən, uluğ əğlənər. **(uluğ:** böyüyər).

gecə yüklənən, günüz balalar. (**yüklənən**. çağlanan. çağılan. taxılan. basılan. soxulan). (gecə **çağlanan**, günüz çağalar). (gecə basılan, günüz doğar). (gecə **çağılı**, günüz çağalı). (**çağılı:** taxılı**.** yüklü. hamilə). (**çağalı**: balalı).

gecələr ay gecələr, ay cığan gözləri tək dar gecələr. (**cığan**: paxıl).

gecələr yatar, danda oyanar.

gecəni danan, dan atan yatar.

gecəni danan, dan atan yatar.

gecəni güdər, bayquş kimi, günüzü güdər, qartal kimi.

gecəni güdmək bayquşkimi, günüzü güdmək, qartal kimi.

gecəni tanıyaq, günüzə toy tutaq.

gecənin ən qaranlığı, dandışıdır dərlər. (**dandışıdır**: dandeşərdir. dan deşən çağıdır). (gecə son gücünü danla (səhərlə) döğüşdə ortaya qoyar).

gecənin qara olduğun danan, yalan dosdu yalanoğlu yalan.

gecik işdə seçim olmaz. (**gecik**: yubanmış. çağında olunmayan, qılınmayan nərsə). (uyqun cağda yetmiyən qonağın yeri bəllənməz).

Gecikən qonaq öz torbasından yeyər. (Araz Gunduz).

gecin basılar örtün, ertin gələr çıxar üzə. **(örtün**: gizlin).

Geç olsunda güç olmasın. Elde etmek istediğimiz bir şeyi geç elde etmenin bir sakıncası yok. Önemli olan isteğimiz bir şeyi elde etmemimizi engelleyecek bir engelin olmaması. (Bayram Özdemir).

geçginçi gözəlliyə uyduq, içginçidən olduq. (**geçginçi**. keçəri. müvəqqəti). (**içginçidən**: həqiqi).

geçginçi gözəlliyə uyduq, içginçidən olduq. (**geçginçi**. keçəri. müvəqqəti). (**içginçidən** : həqiqi).

geçi can hayında ətçi piy axdarır.

geçi süzməklə, ceyran olmaz.

geçidədə saqqal var, amma dədə deyil.

geçigənlə qalma, gələcəyi güdmə.

geçiyə can qayğısı, qəssaba yağ qayğısı.

geçiyə can qayğısı, qəssaba yağ qayğısı.

ged day gözəlim, yarə vuran, yar ola bilməz, qəmsiz yaşayan bizlərə qəmxar ola bilməz, qırda əriyir qar sayağı gün qabağında, amma gözəlim, insafın olsun, dahı qır, qar ola bilməz.

ged işlə demə iş nədir, günün ağlığı, canın sağlığı işdədir.

ged oğul ta qalasan sən görəsən çox qalırı, tez düşər əldən ayaqdan birinin dinlə dininə dolaşan. (toxuşan).

ged oğul ta qalasan sən görəsən çox qalırı, tez düşər əldən ayaqdan birinin dinlə dininə.

ged oğul ta qalasan sən görəsən çox qalırı, tez düşər əldən ayaqdan birinin dinlə dininə dolaşan.

ged oğul ta qalasan sən görəsən çox qalırı, tez düşər əldən ayaqdan birinin dinlə dininə toxuşan.

ged tabağım gəl tabağım, gəlməsən dövül tabağım.

gedə gedir astaşır, gələn tinim darqaşır, candı qonaq bir gün uçar tənimdən. (**astaşır**: yavaşır).

gedə gedir astaşır, gələn tinim darqaşır, candı qonaq bir gün uçar tənimdən. (**astaşır**: yavaşır).

gedəli sən yiyəsiz qaldı gülün, öd qoxudu.

gedən batır, dönməyir geri!. dönməyə yolu yok, dönürsə yeri yok.

gedən gedir dönmür geri, ötün ötər qalmaz yeri. (**ötün**: zaman).

gedən getdi verilsin boşa, qoşalıqla yaşa vur başa.

gedən gətirər, oturan tutar sorar. (**tutar sorar**: qiymət elər. məzəndə sorar).

gedən güdülmür.

gedən inəyin sütü sağılmaz.

gedən kişiyə yol həmişə qısalır.

gedən qoğulmasaydı, gələn yügürməzdi.

gedən yolun qayıtması olunmaz, qırıq gülün yapışması onulmaz..

(**onulmaz**: mümkün olmaz).

gedən yolun qayıtması olunmaz, qırıq gülün yapışması onulmaz..

(**onulmaz**: mümkün olmaz).

gedən yolun qayıtmasın bəkləmə, keçənləri öz içivə əkləmə.

gedən yolun qayıtmasın bəkləmə, keçənləri öz içivə əkləmə.

gedəndə çörək götür, gələndə ayağ götür.

gedəndə, çörək götür, gələndə, ayaq götür. (yola çıxdın, yol gərəclərin unutma, gəlirsənsə, gəlişivi yubatma (gəl qutar). (işlərivi uslu, qeyim yap). (yola çıxdın, yaraqlı, iş başladın, ayaqlı). (**ayaqlı**: yeyin. iti. əzmli).

gedənə qal demə, durana ged demə.

gedəni at, sayqıva sayqı. unut itsin.

gedəni at, sayqıva sayqı. unut itsin.

gedəni bırax, qalanı yoxla, gələni güd. (**güd**: qarşıla).

gedəni boş ver, qalanı xoş ver.

gedəni boşla, qalanı haxla, gələni tuşla.

gedəni saxlama, gələni qoğlama (qoğma).

gedənin ardıca baxmaq olu man, olanı saxlamağa vergilə olduqca gücün.

gedənin ardın bırax, qalanın yanın tutaq.

gedənin yeri boş, olduğu yeri xoş olsun.

gedənlər əkdi biz dərdik, gedməmişdən əkək biz, gələnlərin dərimin.

gedənlərlə köçməgir, diriklərlə oturqıl!. (**köçməgir**: köç edmə!). (ölülərə qovuşma, dirilərlə bir qonuş). {ölülərlə, ölmə, dirilərlə, dirik bul (diril!)}.

gedər bağlar qorası, qalar üzün qarası.

gedər evrən durmaq bilməz axarı. (**aşır acun** durmaq bilməz axarı).

gedər yelə çox sürməz, qarınpalar qarından, çon danışan sözündən.

gedəsi yerim yoxdur, öləsi dərdim. (hər nə yerindədi, özgəsiylədə işim yoxdur).

gedi evrən. - keçib gedər heç torula tutulmaz, yoğundu bu darboğazla utulmaz, sevgiyə verməlin var əsirgəmə vergilən, verməyinlə sevgi kanı qutulmaz. (**gedi**: keçəri).

gedibdə gəlməmək, gəlibdə bulmamaq (var).

gedibdə gəlməmək, gəlibdə bulmamaq (var).

gediciyə yol yaxci, qalıcıya ev yaxci.

gediciyə yol yaxcı, qalıucıya ev yaxcı.

gedilər üçün ürək yorma, anlamaz üçün dilin. (**gedilər**: bəfasızlar).

gedinən yeri boş, olduğu yeri xoş olsun.

Gedir naxıra, gəlir axura. (Ara Gündüz).

gedirəm, ürəyim bomboş, deməyə yoxdur sözüm, keçmişə yoxdur gözüm.

gedirəm, ürəyim bomboş, deməyə yoxdur sözüm, keçmişə yoxdur gözüm.

gediri sıx tutsan, gəlir sıxılmaz.

gedirsə sevdiyin suçlama onu, səniydin sevən , qırılandan sən.

gedirsə sevdiyin suçlama onu, səniydin sevən, qırılandan sən.

gedirsən ged qalırsan qal, bitirsən bit, itirsən it. -vermərəm can sən gedən yolda, onarmaq çox qolaydur sən qıran könlü!.

gedirsən ged, önün belə tutamam, özlüyümü heçinkəzin atamam, nə bir şəkil, nə bir kölgə geri qoy, ölmüş sevgi, keçinmişi anamam.

gedirsən ged, önün belə tutamam, özlüyümü heçinkəzin atamam, nə bir şəkil, nə bir kölgə geri qoy , ölmüş sevgi, keçinmişi anamam.

gedirsin ged, könlün qırıq qalmasın, budaq sınıq bir quş yuva qurmasın..

gedirsin ged, könlün qırıq qalmasın, budaq sınıq bir quş yuva qurmasın..

gedmək seçim, seçim yaşam.

gedmək üçün çabalır, ötür gedsin boşuna, oda düşsün tuşuna.

gedmək üçün çabalır, ötür gedsin boşuna, oda düşsün tuşuna.

gedməmişdən, bacar artıq düşünqıl, getdin isə artıq geri düşünmə.

gedməyini gözləqıl, gedəndən son boşlaqıl.

gedməyini gözləqıl, gedəndən son boşlaqıl.

gedsə gün batmağa gedsin atacaq dan yarın.

Gel topal zorbaşı, Sultan Iv. Sultan Murat Han. Sultan Murat Han küçük yaşta osmanlı dvletinin başına geçmişti. Karışıklar savaşlar devleti güç durumda bırakmıştı. Anası Kösem Sultan'ın naibliğinde devleti yönetmeye başladı. Yeniçeriler bir gün ayaklandılar elebaşıları padişahtan Eniştesi veziriazamın başını istediler. Murat Han çocuk olmasına rağmen isyancılara dedi ki, kullarım veziriazam Hafız Ahmed paşa'nın bigünahı yok. Niçin başını istersiniz. İsyancılar ayak divanı istediller. ileri gelenlerini Padişahın yanına gönderdiler. Bunlardan biride topal Recep adında biriydi, Padişahın yanından geçerken, gözünü korkutmak için vezirin başını verin yoksa sizin de başınız gider. Padişah büyüyüp devleti demir yumrukları ile yönetmeye başlayınca, sarayda bir ziyafet tertip etti. Askerleri sarayın muhtelf yerlerine pusuya yatırdı. Asileri saraya çağırtıp hepsini yakalattı. Topal Recep Paşa'yı yanına getirtti. Gel topal zorba başı, bana tahta çıktığımda ne demiştin. Haşa padişahım öyle demedim dediyse de bizzat IV. Murat Han tarafından cezalandırıldı. (Bayram Özdemir).

Gelen gidene rahmet okutur=Gelen gideni aratır. Beğenmediğimiz, keşke gitse diye beklediğimiz yönetici gider. Yerine gelen daha kötü olabilir. O zamanda nerde bizim eski yönetici diye hayıflanır dururuz. (Bayram Özdemir).

Gelene git denilmez. Eve gelen konuğa git denilmez. Tanrı misafiridir. Geleneklerimize göre en iyi şekilde ağırlanır. Kendiliğinden gelen bir şey de rededilmez. (Bayram Özdemir).

Gelin gelmedik evolur, ölüm gelmedik ev olmaz. Gelni olmayan, gelin gelmemiş ev olabilir. Evinde aile fertlerinden hiçbiri ölmemiş ev olmaz. (Bayram Özdemir).

gen açırsa gilimin kişi, təkinə yığmaq deyil işi.

gen biçilsə don çartamaz, gengəşli bilik, qartamaz. (gen biçilsə don çartamaz, işlənən bilik, qartamaz). (bol kəsilən don cırılmaq. paylaşmaqla, işlənməklə bilgi qocalmaz, kortalmaz, gobudlaşmaz).

gen çıxac, geniş girdəc istər.

gen don opramaz, gəngəşli (məşvərətli) bilik artamaz (arxaya qalmaz).

gen göllü, dar könüllü xanlar.

gen götdə pox dayanmaz, boş baş boşdan ayrılmaz. (**boş**: sup. yemək çeşitlərinin ən ucuzu, qolayı).

gen qab yırtılmaz, kipsöz yaprılmaz. (gen çuval yırtılmaz, atalarsözü köhnəlməz).. (**kip**: biçim. form. kilişə).

gen qab yırtılmaz, kipsöz yaprılmaz. (gen çuval yırtılmaz, atalarsözü köhnəlməz).. (**kip**: biçim. form. kilişə).

gen paltar yırtılmaz.

geng görənin aldınan qaçar, güng görənin, alnına çıxar. (**geng**: uzaq). (**güng**: güh. dar) (**aldınan qaçar**: aldından qaçar: başına gəlməz). (**alnına çıxar**: üzbəüz olar).

gengəşli iş küt gəlməz. (**gengəş**: muşavirə). (**küt gəlməz**: arada sınmaz. pozulmaz).

genğlik olsun ayaq yolda, aşılır dağlar, açılır yollar. (**genlik: genğlik**. dinclik. huzur).

gerçəgi açıq ötür, yiyəsi tutar.

gerçək acısı keçinər, yalan yarası eşinər. (**keçinər**: yoxalıb (ölüb) keçər). (**eşinər**: işlər durar. deşilməz).

gerçək baylıq bir gömüc, heç parayla alınmaz. (**baylıq**: varlılıq. devlət). (**gömüc**: xəzinə).

gerçək bir, doğru min.

gerçək din, bağırdığın inanc değil, sürdürdüyün yaşamdır. (Sezai Karakoç).

gerçək sayıldı hər nə, doğduğu çağ yalanlar.

gerçək sayıldı hər nə, doğduğu çağ yalanlar.

gerçək tünlüyü sevməz, günlüyü sevər. (**günlüyü**: aydınlığı).

gerçəkdə alır dad, sözdən. (**sözdən**: dildən).

gerçəklə barış, yalandan küsmə!!.

gerçəklə inancın tanışlığı yok. biri başda doğur, biri könüldə.

gerçəkligi başda ara, dışda deyil, düzgünlügü içdə ara, gözdə deyil.

gerçəyə gərək ayıtmaqdır, yalanın alavı içində durur. (**ayıtmaqdır**: söz dür. açıqlamaqdır. düşündürməkdir). (gerçəyin, doğrunun düzün hər yerdə köməyə qoldava (dəsdəyə) gərəyi (ehtiyacı) var).

gerçəyə taxılan donun asdarı yalandan olur.

gerçəyi acı sandıran, yalanı doğru qandıran çevrə.

gerçəyi yandırmaq gərək, yalanın alavı içində.

gerçəyin keşibi yok, ulaşıcaq yolu yok, içindədir yatıb sənin, sən öldünə iyəsi yok. (**keşibi**: örtüyü) (**sən öldünə**: sən öldünsə).

geri qalan umut deyil, iləri gedən unut deyir.

geri qalan umut deyil, iləri gedən unut deyir.

geri qalar yükünüz, baş qoşdunsa özgüyə,. (**yükünüz**: məsuliyyətiz).

geri qaradır qara, dönmə geri, keçmişin, sözdə yoxdu yeri.

geridə qalan yoxluğa köçüb, gözə görünən vardır hələ.

gerini unut, içində umut, önündə umuq.

geriti bırax, eritə yürün. (geriti bırax, **irəli** yürü). (geridəkin bırax, yarına yürün).

geriyə baxan, ön qabağın görənməz.

geriyə baxan, ön qabağın görənməz.

getdi gözüm yarığı, qaldı ağın qarığı.(**yarıq**: ışıq). (**qarığ**: kölgə) (ağ günlərdən bir kölgə qaldı).

getdi sevgi onun ornun quru ağac almasın, söğüş qınaq ona almaş olmasın, boşsa könül kollar bitər yerində, küllük yerdə gül açmağa yer qalmaz. (**ornun**: yerin). (**almaş**: bədəl).

getdi sevgi onun ornun quru ağac almasın, söğüş qınaq ona almaş olmasın, boşsa könül kollar bitər yerində, küllük yerdə gül açmağa yer qalmaz. (**ornun**: yerin). (**almaş**: bədəl).

getdin dedin xoşca qal, bırax xoşluq səninlə getdi. (**bırax** : ammaki).

getdin dedin xoşca qal, bırax xoşluq səninlə getdi. (**bırax**: ammaki).

getdiyin yeri düşün durduğun yeri burax.

getdiyin yeri düşün durduğun yeri burax.

getdiyin yeri güd, olduğun yeri yox.

geyik qındıqı, yıbar qoxar: ceyran göbəyi ətir qoxar.

geyim içi etgiməz, görən gözü təpgilər.

geyim kişi ölçütməz. **(**yapınc atda ər yatar).(**yapınc**: örtük).

geyimlə kişi ölçülməz. **(**yapınc atda ər yatar).(**yapınc**: örtük).

geyimlər var kişi gəzməz içində, kişilər var geyim yoxdur əğnində.

geyməyə ipək geyim, qalmağa doğma yerin.

geysi donatırmış görünən tən, iş olmasa vurmaz açığa tin. (**görünən tən**: kişinin dışı). (**tin**: nəfs. iç).

Gezen kurt aç kalmaz. Çalışıp, çabalayan, mücadele eden insan karnını doyurur. (Bayram Özdemir).

gədə güdə edən işin bitirməz, dərək bilməz qulluq yerə yetirməz, bir sırrını aytsan içdə yatırmaz, şırdaş olma, ıraq eylə özünü. **(içdə yatırmaz**: gizli tutmaz).

gəl bir zərrəcik seyr et, gözə olmaz yasaq.

gəl canım ayrılığı dünyada birgə qutaraq, mənə qəm qəmdaş olub gündə dalımcan dolanır.

gəl diləkdaşlıq edək dildaşlıqın bir alcası. (**diləkdaşlıq**: könüldaşlıq). (**alcası**: **olcası**. faydası).

gəlcək gözü, keçmişivi görməmiş, olcağa yeni gözlə bax, keçmişi burax. (**olcağa**: gələcəyə).

gəlcəyi oylan yatma dur indi, gəl birləşib aydın yoldan yür indi, yoxsa qaranquya batarsan, varlıq daşın atarsan.

gəlcəyivi keçmişində arama.

gəldəyivin işin bil, gedcəklərin yox izi. (**gəldəyivin**: gəlcəyivin. yarınıvın).

gələcək deyə əlindəkin tükətmə.

gələcəksən bilirəm sən görüşə güllər ilə, sağlığımda barı gəl məndə görüm.

gələli ağlarıdun, hammı gülər, ele gedki, gedeli ağlayalar.

gələn bilmir, gedən sormur, sevilən sevmir, sevməyən sevilir. (yalan dünya).

gələn bilmir, gedən sormur, sevilən sevmir, sevməyən sevilir. (yalan dünya).

gələn çönmüş, gedən köçmüş, dünü itmiş, günü yetmiş, umuq qalar yarına.

gələn çönmüş, gedən köçmüş, dünü itmiş, günü yetmiş, umuq qalar yarına.

gələn çönmüş, gedən köçmüş, dünü itmiş, günü yetmiş, umuq qalar yarına.

gələn elçi gözsüz, evin qızlı sözsüz olmaz.

gələn gətirirsədə gedən götürənmədi.

gələn gətirmədi, gedən apardı.

gələn günə yarqı yox, ötən günə qayğı.

gələn keçər kimsə burda qalanmaz, yaşınlıqda verənin yaşlılıqda alanmaz. (**yaşınlıqda**: gənc, igid çağında).

gələn olsa könülləb, çətin düşməz gedən yol. (**könülləb**: könül verərək. rəğbətlə).

gələn tolut, gedən talut. (**tolut**: dolut. varlıq. bolluq. dövlət) (**talut**: dalut. yağma. çalma) (gələn gətirir, gedən aparır).

gələnə bel bağlama gedənə yas saxlama, kəndivə inan.

gələnə xoşluk, gedənə uğur dilə.

gələnə inanma, gedəni danma. (gələnə inanır, gedəni danır).

gələnə qapı, gedənə yol açıx.

gələni tut, getdi unut.

gələni tut, getdi unut.

gələni tut, getdi unut.

gələni, düşəni düşün tut. -əşdəğər biri tapılmaz, tapılsada aldanar.

gələnlərin ayağları var olsun, köçənlərin uğruları kar olsun. (gəlin köçənlərin bəxləri uğurlu (kar) olsun).

gələr alaram, gedər salaram. (**salaram**: ötürrəm).

gəlib küsən qonağ, gəlməmiş küssün.

gəlimlidir gedimli, son ucudur ölümlü, qalan dünya, yalan dünya.

gəlin anası aş başı, ərin anası daş başı.

gəlin ayağı, çoban dayağı yer eləsin, gör bir sənə nə eləsin.

gəlin dedin qız olmaz, güveyindən oğulluq, küldən təpə olunmaz.

(**güveyindən**: kürəkənindən).

gəlin dedin qız olmaz, güveyindən oğulluq, küldən təpə olunmaz.

(**güveyindən**: kürəkənindən).

gəlin doğsa ana çıxır, tam gecələr dana çıxır.

gəlin eşikdə, bəbə beşikdə. (gəlini evə gəlmədən, uşağı beşikdəykən yoxlayıb, bəsləməli).

gəlin qızla, yerdə qalan iş olmaz, ər kişiylə, yerdə qalan yük olmaz.

Gəlin ocağa gələr. (Gəlin köçdüyü evdə gördüklərindən öyrənər anlamındadır).

gəlin var gələr gətirir, gəlin var gedər, itirir.

gəlin var gələr, gətirər, gəlində var gedər, itirər.

gəlin var gələr, gətirər, gəlində var gedər, itirər.

gəlin var qızdan, toyuq var qazdan başdır.

gəlin var, külü aş yapar, gəlin var, unu daş yapar.

gəlinə -ər güldürsə, anası tikən.

gəlini evdə sına, dağa oduna yolla. (gəlini evdə sınıyıb, dağa oduna yollamışlar).

gəlini gələndə gör, qalanğı açanda (**qalanğı**: cehizi).

gəlinin betin kim açsa, o şol ısıq. {gəlinin üzün kim açarsa, o xoş görünür (cana yaxın olur)}.

gəlinin yaxşı, oğlundan, oğlun yaxşı, gəlinindən gör.

gəlinisə qız olmaz, güveyisə oğul yok.

gəlinisə qızım yok, güveyisə oğlum yok.

gəlir bir gün olmasın sən, onarırsın, bu gün əksən. (**onarırsın**: doğulusun).

gəlir gəlməzə inanma, əlindəkin qaçırma.

gəliri qoru, tükəzi önlə, yığılan artsın, qızıla dartsın. (**tükəzi**: məsrəfi. xərci) (**önlə**: qabağın al). (yığılan: tutunan. yədilən). (gəliri saxla, xərcivi azalt, yədəyin artsın, qızıl kimi dartılsın).

gəlirin azsa, gedərin sıx. (girdəc azsa çıxacın qıs). (girən baca dar isə, çıxan baca gendurmaz).

gəlirin biləmən**,** gedirin biləməz. (**biləmən**: sayaman. hesablayamayan). (**gedirin**: xərcin). (gəlirin sayanoq**,** gedirin bilənoq). **(sayanoq:** saymayan). (**bilənoq:** bilməyən).

gəlirin sayanoq**,** gedirin bilənoq. **(sayanoq:** saymayan). (**bilənoq:** bilməyən).

{gəlirin biləmən**,** gedirin biləməz. (**biləmən**: sayaman. hesablayamayan). (**gedirin**: xərcin)}.

gəliş, gediş, baxış, duruş, gəpiş, gülüş, hər nə varı gözəl gəli sevgidə.

gəlişi sevindirər, gedişi acındırar sevgi.

gəlişigözəl yar olmaz, biçilsə don, dar olmaz. (**gəlişigözəl** : rasgələ. hərgələ).

gəlməmişə güvənmə, keçmişinə ilənmə. (**ilənmə**: öykünmə. qussələnmə). (gəlməmişə öğünmə, keçinmişə döğünmə).

gəlməmişin dadı yox, köçənlərin yadı yox, qaçanları tut saxla.

gəlməseydin sən, açılardımı dançağım mənim. (**dançağım:** səhərim).

gəlməyini tosunma, gətirməyin düşünqıl. (**tosunmaq**: xiyallanmaq. mütəxəyyil olmaq). (gəlməyini sanğama, gətirməyin düşünqıl). (**sanğama**: xiyallanma).

gəlməyini tosunma, gətirməyin düşünqıl. (**tosunmaq**: xiyallanmaq. mütəxəyyil olmaq). (gəlməyini sanğama, gətirməyin düşünqıl). (**sanğama**: xiyallanma).

gəlməz əlindən kimin dəğişqıla keçmişin , çalış çaba çapın dəğiş indivi. (**dəğişqıla** : dəğişmiş ola)..

gəlməz əlindən kimin dəğişqıla keçmişin, çalış çaba çapın dəğiş indivi. (**dəğişqıla**: dəğişmiş ola)..

gəlmir ələ istəgin, çalış istəş əldəkin.

gəlmir uzun uz gecə, bildim açır tezliklə, qısa ömür keçəcək, yaxcı yaman ötəcək. sonun gördüm başında, ölüm doğdu olumda, oxunmamış üzündən, ayrı düşməz izindən.

gəlmişdik gəlin alaq, qaynanaya ilişdik.

gəlmişdik gəlin alaq, qaynanaya ilişdik.

gəlsə qalı qatıqlıq, artar deyu sərin qıl.

- gəlsə belə çətinlik, keçər deynə, dözüm qıl.

gəlsə qalı qatıqlıq, artar deyu sərin qıl. (gəlsə belə çətinlik, keçər deynə, dözüm qıl.

gəlsə uma (qonaq) düşürqıl (qarşıla. istiqbal ed), dinsin ondan arıqlıq (arqınlıq. yorqunluq), arpa saman yağıtqıl, bulsun atı yarıqlıq (rahatlıq. iltaf. asayiş).

gəlsə uma düşürqıl, dinsin onun aruqluğ. (qonaq gəlsə, yerləşdir onu, yorqunluğu gidərsin).

gəmi düşmüş boğuca, yox kiməsi sovuca (**boğuc**: girdab). (**sovuca**: sova. qurtara).

gəmi quru yerdə yeriməz.

gəmi quruda yeriməz.

gəmidir çaydur axır, bizdə qonağ bir gəmiyə.

gəmik gəmiyi, dəmir dəmiri, çivi çiviyi sökər.

gəmikli it, qapağan olur. (ağzında sümüklü it, heç nəyi biləsinə yanaşmağa qoymaz).

gəmisin batıran, başmaq axtarmaz.

gənc dulun göz yaşı tez qurur.

gənc erkək dişi birbirin anlamış sanar, geyin sandığın anlar. (**geyin**: sonra. sondan).

gənc qızdan ocağ çıxmaz. (**ocağ:** ovsunçu).

gənc qızdan ocağ çıxmaz. (**ocağ:** ovsunçu).

gənc qulaq, sevməm deyu inanmaz, ayrıq nədir söğüş nədir qananmaz. (**gənc**: yoldan yetmiş. yeni yetmə. pişməmiş). (**ayrıq**: hicran). (**söğüş**: nifrət).

gənc qulaq, sevməm deyu inanmaz, ayrıq nədir söğüş nədir qananmaz. (**gənc**: yoldan yetmiş.yeni yetmə. pişməmiş). (**ayrıq**: hicran). (**söğüş** : nifrət).

gənc olanın könlü əlində gəzər. (gənclər ürək verməyə, sevməyə tələsər, sevilməyi gözləməyən tələyə düşər).

gənc ölənlər acı az görür.

gənc ömrün bağışlar, qarı ömrün qarışlar.

gəncdir qırıb yoğuz qılavı, indi adın özgədən sorar!.

gənckən işlət bilək, yığna bilik, gənclik keşni tapılmaz başda huş, əl qolda güc. (**keşni: keçni)** (**keçni**: keçmiş. keçəndən sonra. sonrası. keçəndən gerin). **(yığna:** topla).

gənclər ürək verməyə, sevməyə tələsər, sevilməyi gözləməyən tələyə düşər. (gənc olanın könlü əlində gəzər).

gənclərin tapatın doyurmaqla yatırmaq gərək, susuz qalıb, susamışı, su ilə qanırmaq gərək. **(tapatın**: dəliliyin).

gənclərin tapatın doyurmaqla yatırmaq gərək, susuz qalıb, susamışı, su ilə qanırmaq gərək.**(tapatın**: dəliliyin).

gənclik olamazları, qocalıqda oluşur.

gənclik ötür, aşırılmaz aşırım kimi, qocalıq gəlir, qazılmamış qəbir kimi.

gənclik yaşda deyil, mənim yaşım könüldə deyir.

gənclik yaşda deyil, mənim yaşım könüldə deyir.

gənclik, genğlik. (gənclik yaşamın bolluğu deməkdir).

gənclikdə dişlər ağ olur, qocalıqda, saçlar.

gənclikdə ölüm, qocalıqda yoxsulluq yamandır.

gənclikdən qarır yaman olsa ər qadın.

gənclikdən uğurlan, yavuzluqdan oğurlan. (**uğurlanmaq**. faydalanmaq). (**oğurlan**: qaçaq dur).

gənclikdən yarğanan, qəmi atar kam alar. (**yarğanan:** faydalanan). (**qəmi atar kam alar**: kiriməni, qısılmanı bıraxar, bolluğu, açıqlığı tutar).

gəncliyə doyulmaz, doğru gedən yorulmaz.

gəncliyi selə vermə, mal davarı yelə vermə. (gəncliyi tutma bərk, dünya malın tutsan). (gənclik, qanad çapıp, ayaq çapma çağı. sıxışdırmada!, qudurmada!. ələ gələn, əldə olan parada əkilib, tikilməsə qalargı deyil).

gəncliyi tutma bərk, dünya malın tutsan ək. (gəncliyi selə vermə, mal davarı yelə vermə). (gənclik, qanad çapıp, ayaq çapma çağı. sıxışdırmada!, qudurmada!. ələ gələn, əldə olan parada əkilib, tikilməsə qalargı deyil).

gəncliyin ötmədən, sevgi odu sönmədən, amacların göz önündən itmədən, ayıq dur.

gənəş girsə, çanğış qaçar. (**gənəş: gəngəş**). **(çalğış**: salğış. saldış. çeğniş. savaş).

gənəş olsa, çanğış olmaz. (**gənəş: gəngəş**). **(çalğış**: salğış. saldış. çeğniş. savaş).

gəngəş bilik yoğratır, birlik bilik toplatır. (**yoğratır**: sıyalır, seyqəl verir).

gəngəşli (məşvərətli) bilik artamaz (dalı qalmaz).

gəngəşli bilik utraşur, gəngəşsiz bilik opraşur (öprəşür. əprişür).

gəngəşli bilik, uzlaşır, gəngəşsizin öprəşür.

gəp qılınma, oylanmaz. (**oylanmaz**: düşüncəsiz. düşünməzdən).

gəp süyci, samanca yok güyci. (**süyci**: dadlı).

gəp süyci, samanca yok güyci. (**süyci**: dadlı).

gəpin az söylə işin çox gözlə. (söz söyləsən az söylə, iş görürsən çox gözlə).

gəpirmədən düşün, yalaçıdan üşün. (**üşün**: yığın. çəkin).

gəpirməzdən uslu hovan bəllənməz. (**uslu hovan**: ağıllı səfeh).

gəpləmədən oturğan, ağıldan kəm gətirməz.

gəpləmək qolay yapmadan.

gəpləməklik gümüşsə, gəpləməzlik süm altun. (**süm**: şümş).

gəpləməklik gümüşsə, gəpləməzlik süm altun. (**süm**: şümş). (söyləmək gümüşsə, susmaq süm altun).

gəpləməzlik süm altun. (**süm**: tüm. teyxa. şüms).

gəpmə, dinmə, sormasan, uyğan yarın tapılmaz.

gəpni kəm söylə, işni çox gözlə. (**gəpni**: sözü).

gəprişin bilməsə oğlan, nə bilər susmağını.

gər inanırsan onun birliyinə, yaxcılıq ed iblisin korlüğünə.

gərçək əzilər (büzülər), üzülməz.

gərçək əzilər, üzülməz.

gərçəyi deyən ya güclüdür, ya ki axmaq.

gərçi sözünə qulax tutdum, nə yazığ kim, eşiddimdə unutdum. (gərçi sözünə qulax tuddum, nə fayda ki, eşiddimdə unutdum).

gərək dediyimiz, aldanmağın bir başqa biçimidi (formasıdı).

gərək yoxdur inanmağa düşünmək, kəllə varsa düşünəcəsi könüllü.

gərək yok sözə, bir baxış yetər, öylə gəlmiş böylədə keçər.

gərəkləri yapırsın, adam kimi yaşırsan.

gərəklərin tümü istəyə bağlı deyil, onları sağlamaq əldə deyil. (**sağlamaq:** tə'min edmək).

gərəkli daş ağır salmaz. (lizumlu daş ağır sayılmaz).

gərəkli daş ağırlığı götürməz.

gərəkli daş, ağır olmaz.

gərəkli daşın, yox ağramı.

gərəkli işi yarına qoyma qala. -yoxdu göz görməyə gəlmişdi ölüm dal qapıdan, gəziri balta girə, birdə görən can alacaq. (**balta**: fürsət).

gərəkli nəyi, gərəksiz günü al.

gərəkli yük ağırqıtmaz. (**ağırqıtmaz**: ağırlıq edməz).

gərəkli yük ağrıtmaz.

gərəklik yasa yapar, kəndi ona yasanmaz.

gərəkliyə, gərəc (vəsayil) gərək, işləməyə çörək gərək. (aca yemək, xəstiyə yataq sorulmaz). (görünən kəndə bələdəçi nə gərək).

gərəkməzi alan kişi, gərəklini satan olur.

gərəkməzi alan kişi, gərəklini satan olur.

gərəkməzsə danışma.

gərəyə görə yol açar, boyuna görə don biçər.

gərəyin varsa ayır çağ ona ki, itirincə dözəməzsin gəzisən ardıncan.

gətirəndə el gətirir, yel gətirir, sel gətirir. aparanda el aparır, sel aparır, yel aparır.

gətirəndə el gətirir, yel gətirir, sel gətirir. aparanda el aparır, sel aparır, yel aparır.

gətirmədi yaşam işimdə mənim, basdığımda sağa, solum büyrədi.

gəvəzədə söz əylənməz (dayanmaz), günbəz də qoz.

gəvəzənin işi qalar, astanın işi qalmaz.

gəvşək yerində dönənə dərək, ay dönüşün bitirər. (**gəvşək**: təmbəl). (**dərək**: qədər).

gəvşəklərdən ad qalmaz, igidliklər edənlər, dəliqanlı adlanar.

gəvşəyin işi bitməz, yaz gəlsədə qışı bitməz.

gəzə çağ qoy, yemək çox yox. (**gəzə**: dolanmağa:. gəşdə). (çox oturan kişiyə deyilir).

gəzəgən dura bilməz, gəzməsə, dözə bilməz. (aşıt danılır, sonucu qalır). (aşıt: adət). (aşıtların, adətlərin, qaçınılmaz, iyili-kötülü sonucları bəklənməlidi). (aşıtların tanımaq, yaşamın tanımaq deməkdir).

gəzəgən it gəmik tapar.

gəzək düşər tutanmaz, bəllə yekə utanmaz. (**uğursuzluq**: baxsısızlıq. şanssızlıq). (uğursuzluqda deyilir).

gəzək keçib karvan köçüb.

Gəzən ayağa daş dəyər. (Araz Gunduz).

gəzən kimdi, tapan o.

gəzən tülkü aparır, yatan aslan batırır.

gəzən tülkü, yatan barsdan yeğ basır.

gəzəni tutan, gəzəni tutar. (**gəzən**: kəsən. yarıcı arac). (qoraq yaraq tuşlayan, öz novbətində oz yarağına tuşlanır, tuş gəlir). (yaraq qoraq çəkib öldürən, gəzəyində (günündə. öz novbətində) yaraqla vurulma olasığı çoxdur). (**yaraq qoraq**: silah. əsləhə).

gəzəsən ardıca kim dan atacaq, güllənən göylü çimən gün çatacaq. (kişi arğanın bulur). (arğanın: aradığın).

gəzəyən ayaq təzəyə batar.

gəzəyən qızdan gəlin olmaz.

gəzəyən, köçə bilməz, gəzməsə dözə bilməz.

gəzib dolan öz uyqarun tapgilən. (**uyqarun**: tayın. babın. munasibin).

gəziki (nobə) gəlmədən verilməz, gəziki olmadan alınmaz (olum, ölüm).

gəziki gəlmədən verilməz, gəziki olmadan alınmaz. (**gəziki**: novbə). (olum, ölüm).

gəzirsə göydə başın, üzmə yerdən ayağın.

gəzmək ömürdəndi, yatmaq ölümdən.

gəzməsə börü, ac qalır qarın. (qurd yemi ayağdan).

gəzməyə qərib ölkə, olmağa vətən yaxşı. (**olmağa**: yaşamağa. durmağa).

gəzməyə qərib ölkə, ölməyə, vətən yaxşı. {-**ölmək**- yerinə ola ki bunlar doğrudur. gəzməyə qərib ölkə, (olmağa, vətən yaxşı). (+ durmağa, vətən yaxşı) (+ qalmağa, vətən yaxşı: duralı, dəvamlı qalmağa, yurd salmağa kəndi yurdun yeğdir}.

gəzmişəm onca olan ölkələri görməmişəm, nazlı təbriz kimi olsun, duza kan urma təkin.

gic ana olmasaydı, öz dilini (anadilin) atmazdı.

gic qoduq atanasına cocuq yapmaq öğrədər.

gic olursa el günün, dəğərlənməz igitlər.

gic, nə doydum bilər, nə yoruldum.

giclər min kərə yanılar, bir kərə seçməz. **(yol yolağ:** arac tədbir).

gicoğlu gic, gic olar.

gid yaşır qay qadanın içində, ağrıqmaz baş sində yatar dincinə. (**qay**: bəla).

gidəcək qapını, sevdiyin adını, canevində gizlənən yerivi bil.

gidəcək qapını, sevdiyin adını, canevində gizlənən yerivi bil.

gidən yetmiş, əkən dərmiş.

gidi acun, var donatar, yox soyatar. (**acun**: dünya). (yoxsul ələ baxan yox, dolu əli süzən çox). (varlı bəzək, yoxsul təzək).

giləm giləm gedər qalmaz, axar sular gedər qalmaz, bilginlər coşar dəniz, ondada od uçar qalmaz.

gir meydana, qarqın şeytana. (**qarqın**: lə'nət oxu).

girdəc azsa çıxacın qıs. (gəlirin azsa, gedərin sıx). (girən baca dar isə, çıxan baca gendurmaz).

girdəcə görə çıxdacın olsun. (gəlirivə görə gedərin olsun). (**gedərin**: xərcin).

girdəçilik bol olsun, çıxdaçılıq şol olsa, ortalığın boş qalar. (**girdəçilik**: qazandığın). (**çıxdaçılıq**: tükətdigin. xərclədigin).

girdəçilik bol olsun, çıxdaçılıq şol olsa, ortalığın boş qalar. (**girdəçilik**: qazandığın). (**çıxdaçılıq**: tükətdigin. xərclədigin).

girdəçin çıqdaçıva uymur, çıqdaçın girdəçivə uysun. (**girdəçi**: gəlir). (**çıqdaçı**: gedir. xərc).

girəli qalma, irəli!. (girəli: girifdar).

girəsi yox, çıxarı çox. (**girə**: qazanc).

girişdə sandırış olsa, çıxışda qandırış olmaz. **(sandırış:** hesab kitab).(**qandırış**: qan tökmə).

girişmə ənlik kirşana, kişi ol kəndivi sana. (bəzəyində çəki çükü (həddi əndazəsi) var, içəği (içivi), keçəğə (geycəğə. örtüyə) vermə).

girmədən çıxış, başlamadan bitişin düşün.

girməzdən ön, çıxmanı sağlan. (**sağlan**: tə'min ed). (girməzdən ön, çıxmanı oylan).

girmiş isə nisgil dadı varlığa, yoxluq dadı qalan dadlar üstələr.

gizim çox, açan yox, ölüm sondur qaçan yox. (**gizim**: sırrım). (qarrılar deyimi).

gizin vermə dosduva, dostun ötə dosdu var. (gizin vermə dosduva, dosduvunda dosdu var). (**gizin**: sirrin).

gizin yoksa mutlusun!. (**gizin**: gizlinin. sırrın).

gizin yoksa mutlusun, ölümlə göz gözə durusun. (ölümlə göz gözə durusun: qorxun yok. gözü kölgəli yaşamazsın).

gizlədir öz kəndini kəndindən, bu nasıl yılıq, yaluğ adlanmış. (**yılıq**: heyvan). (**yaluğ**: insan).

gizli yüklənən aşgara doğar.

gizli yüklənən, aşgara doğar. (gizləyu basılar, açqıra doğar).

gizlicə sevən dinməz ağrırar.

Gizlide gebe kalan, aşıkare doğurur. Hiç bir olay, hiç bir durum gizli, saklı kalmaz. Gün gelir açığa çıkar. (Bayram Özdemir).

gizlidən yazma gözə dizgi qoşu, buz kimi düşsə günəş tez əriri.

gizlik olsa, ər yorqamaz, içlik olsa at yağrımaz (atın beli sürtülüb yaralanmaz). (**yağrımaz:** yaralanmaz). **{gizlik**: geyizlik. çarıq. yarıq. bir tikə yarılmış (kəsilmiş) göndən yapılan ayaqqabı}. **(yorqamaz: yolqırmaz:** yolda qalmaz). (işdə uzaq görənlik gərək).

gopbaçılar dosçulmuş, doğru yolda dosçulluğuz gərəkməz.

gor toprağı yaşam üçün bağırmaz.

gor toprağı yaşam üçün bağırmaz.

gor vurdu govduş sındı. (ölüm, yoxluq, ıraqlıq üzü soyuq olur).

gora inancsız getmə, bazara parasız.

gögərsə könüldə seviş butağı, sevgi quşu qonar uzansa dalı.

gögləmdə çıxan göy, çox olar. (gögləm: yaz. bahar).

göğə sağursa, üzünə düşür. (göyə tüpürən, üzündə yığır).

göğə sağursa, üzünə düşür: göyə tüpürən, üzündə yığır.

göğüş daralar, ürək sıxılar.

göl balığı yekəlməz.

göl qurusa uçar qaz, könül çəkən olursa, bir gül ilə olar yaz.

göləm deyə köpürürsən, içində bir balıx yox.

Gölgesinde oturulacak ağacın dalı keslmez. Bindiğin (üstünde olduğun) dal kesilmez. Faydalandığın kişiyi ve nesneyi korumak gerekir. (Bayram Özdemir).

gön çarığı qurutma, ayaz günü unutma.

gön çarığın qurutmuş, ayaz günün unutmuş. (olduğun yeri durumu unutma).

göndəçisi, elçişi alçalan el batar, yüksələməz!. (**göndəçi**: xəbərçi. qazetəçi. jurnalist).

gönən edirsə çoban, sütün alar təkədən. (**gönən edirsə**: könüldən istəyirsə). (gönən edmişsə çoban, sütün almlş təkədən).

gönü yağınan yaşla, günü yenidən başla. (hər günün öz işi var, keçəl başın yağı var).

Gönül ferman dinlemez. Birbirini seven insanlar, yüksek bir yerden emir gelse de, şiddetli baskıda görse sevdiğinden vazgeçmez. (Bayram Özdemir).

Gönül kimi severse güzel odur. Güzellik ve güzellik anlayışı kişiden kişiye değişir. Birinin güzel gördüğünü diğeri çirkin görür. Bir kişi için güzel gönlünün sevdiğidir. Önemli olan da odur. (Bayram Özdemir).

gönülsüz köpek sürüye gitmez. (bir kişiye gönlü olmadan iş yaptırılmaz. yaparsa da öyle yapar). (Bayram Özdemir).

gör eşit iylə, dişlə dad toxun, on kərə tuşla, birdin at oxun.

gördügün işlər verər öz pöhrəsin, gül əkirsin gül bitimiş, arpa əksən arpa vermiş toprağın.

gördügün işlər verər öz pöhrəsin, gül əkirsin gül bitimiş, arpa əksən arpa vermiş toprağın.

gördügündən aşın, olduğundan daşın. {çəkli (məhdud) görüşlərindən ötə aş, aldışdığın (adət etdiyin) sınırları qır}.

gördügündən aşın, olduğundan daşın. {çəkli (məhdud) görüşlərindən ötə aş, aldışdığın (adət etdiyin) sınırları qır}.

gördügünə göz güvənər. (qulaq gözü dəğişməz).

gördüki yoxdu cibişdanda pulun, belivə atda çulun tutda yolun.

gördüki yoxdu cibişdanda pulun, belivə atda çulun tutda yolun.

gördüklərindən danış, bilməyən bilsin, önə çıxan ey kötü baş uyar düşsün. (**ey kötü**: iyi kötünü). (**baş uyar düşsün**: kişi aqah olsun) göz görəni dil desə, baş açar.

gördüm dedin çox söz, görmədim dedin bir söz.

gördüm dedin tutuldun, görmədim dedin qurtuldun.

"gördüm" dedin tutuldun, "görmədim" dedin qurtuldun.

gördüm demək çox söz, görmədim demək bir söz. ("gördüm" demək çox sözdür, "görmədim" demək isə bir sözdür (görəni çox soruştururlar. görmədim deyən, soruşturmalardan qurtulmuş olur).

Gördün deli savul geri: Aklı dengesi bozuk kişilerden uzak durmak gerekir. (Bayram Özdemir).

gördün dəğər anutma, verdin dəğər unutqıl. (**anutma**: yada salma).

gördün dəli, çəkil geri.

gördün öt, qörmədin keç, kəndivə güvən.

gördün sev, atdın sav. (**sav**: ötür. unut). (yaşamı çətin tutma).

gördün yarın yar deyil, boşlamağı ar deyil. (gördün yarın yar deyir, tərkin qılmaq ar deyil).

gördün yarın yar deyil, tərkin qılmağın ar deyil.

gördünki –dəri ət, qaş göz, burun dodaq, baş saç, daha nələrin sallanır, düşür, əğrilir. bilki, qocalıq gəlib, irəlir. inanmıyan aynıya baxsın.

gördüyü iş ər kişinin tanacı. (**tanacı**: göstərgəsi. karaktirizə edəni).

gördüyüm kimi qalseydin, dediyin kimi olseydin, nəyimi səndən əsirgərdim. (nəyimi gələrdim əsir səndən).

gördüyüm qoşulub içimdə yatır!. (**qoşulub**: şeirə dönüb).

gördüyün danan, kimliyin satan, yadları anmış, nə günə qalmış. (**yadları anmış**: bij).

gördüyün kimi inanma, inandığın kimi gör.

gördüyün qoyub, sandığın tutma.

gördüyün öğrəş, duyduğun sına, bildiyin yerində danış.

gördüyün yatsır, görmədiyin yaxır. (**yatsır**: unudur). (**yaxır**: suçlur. ittiham edir).

gördüyüvü demə, gözdən düşərsin.

görə görə göz pişər, qıla qıla qol pişər. (**qol**: əl).

görən gördüyündən deyər, görgüsüz ağzına gələni.

görən görər, könül yorar, baş qurar. (**görən**: göz).

görən göz haqlıdır. (görən gözün haqqı var). (görən gözə söz yoxdur).

görən gözə yasaq olmaz.

görən gözlər, duyan qulaq qınanmaz.

görən gözlər, duyan qulaq qınanmaz.

görən gözündən asılı, görməyən ağzından asılı.

görən gözündən asılı, görməyən ağzından. (görən gördüyündən deyər, görgüsüz ağzına gələni).

görən olsa, bir başa bir göz yetir (**yetir**: bəs edir). (bilən başa bir göz yetər).

görən söz satmalar haçan bitəcək, kişi kimi dediklərin edəcək. (**dedik**: qovl).

görən, sayıt dəğişir, görülən qayıt, dəğişməz. (**sayıt**: sayalı. qolay). (**qayıt**: qatıq. çətin). (gördüyün, qıldığın işi düzəltməkdənsə, kəndivi düzəlt).

görən, yeyən yalı (qədər) dadanmaz.

görəndə uçdu əldən hər nə var barım, us başımda, qan damarda, təndə can durmaz. (**uçdu**: məhv oldu).

görəndəki iki can dəğir cana, coşar qanım, qopar umayım. (**umayım**: baxtım. iqbalım).

görəni eşidən salıqlır (**salıqlır:** xəbər verər).

görəv bitər çalışsan, iş yeğlərşər yarışsan. (**çalışsan**: qayrət görsətsən). (**yeğlərşər**: yaxşılaşar). (**yarışsan:** rəqabət edsən).

görəv bitər çalışsan, iş yeğlərşər yarışsan. (**çalışsan**: qayrət görsətsən).

(**yeğlərşər**: yaxşılaşar). (**yarışsan:** rəqabət edsən).

görəvli, görməli. (görəvlidir, görməlidir. mə'mur, mə'zur).

görgəndən görməgənin çox, bilgəndən bilməgənin çox. (gördüyündən

görmədigin çox, bildigindən bilmədigin çox).

görgəndən görməgənin çox, bilgəndən bilməgənin çox. (gördüyündən

görmədigin çox, bildigindən bilmədigin çox).

görkülüyə (gözələ) söz gəlir, ağac başın yel əğir.

görkün üzə qonağdur, qocaldıqca köçər o.

görmemişin oğlu olup, basıp boynunu, boğup.

görmemişin oğlu olup, basıp boynunu, boğup.

görmədiyin yükün, altına girmə.

görməmiş, gözün qurusun.

görməmişə kösəv dan. (**kösəv**: ucu yanıb közərmiş od qarışdıran çubuq).

görməmişə kösəv dan. (**kösəv**: ucu yanıb közərmiş od qarışdıran çubuq).

görməmişik isdisin, çox çəkmişik tüstüsün.

görməmişin yetməyi yaman.

görməsə dalqa üzən, ol olamaz dalquc əri.

görməsə dalqa üzən, ol olamaz dalquc əri.

görməz olur, başı gora titrəyən, sönməz ışıq, dönməz ilqar istəyən. (bu söz, əroğlunu, kəndi durumun oranlamağa çağrır. (**oranlamağa:** ölçüb biçməyə).

görməz yarın, baş işləməz ac qarın. (başı işləməz ac qarının, yarını açmaz).

görməz, dəvəni belə görməz.

görmüşüdüm gül kimi, tikən kimi batındı, sanmışıdım dos kimi, yılan kimi soxuldu, kor mənidim baxa baxa görmədim, yaşım keçdi gəncliyim savuldu.

görmüşüdüm gül kimi, tikən kimi batındı, sanmışıdım dos kimi, yılan kimi soxuldu, kor mənidim baxa baxa görmədim, yaşım keçdi gəncliyim savuldu.

görüldüysə danılmaz, görülməsə inanmaz.

görüldüysə danılmaz, görülməsə inanmaz.

görülmədik yerdə, duyulmadıq gəp olur.

görüm birsə, yetinməz min eşitmə. (**görüm**: görmə. görüş). (**yetinməz** : dəğişməz. əvəzləməz). (bir görmək min eşitməyə dəğər).

görün çoğunun oyunun, üzər çoxunun boyunun, nə ərənlər yer qoyunun, qucdu deyib ağlarım. (**çoğunun**: fələkin) (**yer qoyunun qucdu**: yer qucağın qucaqladı. öldü) (sözlər-məxtum qulu).

görüncüyə inanma, gördüyüvə güvənmə. kəndivə güvən.

göründüğün kimi qılınma, olduğun gibi görünmə, kəndivə güvən, özünü qoru.

Görünən kəndə yol göstərməzlər. (Araz Gunduz).

görünən yola bələtçi nəyə!. (**bələtçi**: bildəçi).

görünməmiş bir kimsənin gözünə, içdə doğan içi yoğan mutluluq. (**yoğan:** oxşayan).

görünsədə düz, bulğan gedər içində, görünsədə dos kimi, əsgi düşman dosd olmaz.

görünür kəndə, bələtçi gərəkməz, görünməz kəndə, biligit gərək.

görüşüncə anlarsan, başarınca alarsan.

görüyün görgünçü, beririm berginçi. (görəvin görməli, verəcin verməli).

görüyün görmədən gora girilməz. (**görüyün**: göreceğini). (yaşamda olanlara alnı açıq sinə gər).

göt ağrısı, başdan çıxar.

göt atandan, küt tutandan uzaq. (uca gedib başarıq bəsləyəmən).

göt itirən çətin baş qorar. (**qorar**: qoruya bilir).

göt qısmaqla ağız daralmaz.

göt verib pul qazanan, pul üçün göt verər.

götdən yeyər, ağızdan sıçar. (ağzıgözəl, deyingən, alaşa qadına deyiliir).

götdən yeyər, ağızdan sıçar. (ağzıgözəl, deyingən, alaşa qadına deyiliir).

götə bax şalvar içində elə bil bal kərədi,, o götün məssəbi yansın məni bədbəxd elədi.

götrülüş düşüş evrən oyunu, onları yarım kişi yorumu. (**yarım**: yarma. açma. izah. təfsir).

götü ağrır, başına saqqız salır.

götü ballı quyruğu yağlı.

götün açıb baş bağlamaq, götün verib baş saxlamaq. (deyim).

götün görən baş gözünü qurtlamaz.

götün tutur, salır saqqız başına, başsız elin başı dəğmiş daşına.

götündən kəsib başına qoymaq. (işi korlamaq).

götünə baxıb, üzündən iç.

götürə, dağlar dayanmaz. (hazir olan nərsədən, dağ belə olsa, ölçüsüz götürsən, heç nə qalmaz).

götürə, dağlar dayanmaz. (hazir olan nərsədən, dağ belə olsa, ölçüsüz götürsən, heç nə qalmaz).

götürə, dağlar dayanmaz. (hazir olan nərsədən, dağ belə olsa, ölçüsüz götürsən, heç nə qalmaz).

götürə, dağlar dayanmaz. (hazir olan nərsədən, dağ belə olsa, ölçüsüz götürsən, heç nə qalmaz).

götürəmmədiyin çomaq, başada dəyər, qıçada.

götürənmədiyin çomaq, başada dəyər, qıçada.

Götür-qoylu igidin anası ağlamaz. (Araz Gunduz).

götürsən uzun hər nəyin ipin, dolaşıb yıxar, üzüb qırılar.

götürsən uzun hər nəyin ipin, ya dolaşıb yıxar, ya üzülüb qırılar. (yaşam boyu arzıda, diləkdə, aramada olmaq gəlirli (yeğ. yümünlü) degil. hər nəyin sonu var, bu sonu özün qoysan yeğ gəlir).

götürün üçün yükün olsun. (**götrün**: zərfiyyətin).

götüvün qabın, ağzıvın sözün tanı. -ağzın sözün, başın börkün, ayağqabın bulmalı. (**bulmalı**: **bilməli**. tanımalı).

götvərəndə alğın olmasın, qurumsağa vergin. (**alğın**: alacağın) (**vergin:** verməlin).

gövdədə qılaç, uyat işlə, beyində qılaç, oyat işlə. (**qılaç**: cərrahlıq. əməliyyat).

gövdədə qılaç, uyat işlə, beyində qılaç, oyat işlə. (**qılaç**: cərrahlıq. əməliyyat).

gövrə başla görür, qarrı yaşla. (gövdə başı güdür, yaşlı gəncdən gözlür). (başın dəğəri, yaşlının sılağı, sayqısı, hörməti danılmaz).

gövündə yatan istəklər könlüdə doğan arzular deyil.

göy ağlamayınca yer gülməz.

göy ağlarsa yer gülər.

göy astında yer üstündə tapılmaz. (bu evrəndə tapılmaz nərsə).

göy bulutsuz qalmaz!.

göy dəmir, geri durmaz: düzlük sözün deyər, işin görər.

göy göyə inanan özünə qıymaz, kəndinə güvənən yarına. (**göy göyə inanmaq**: yaşamın gözəlliyin sezmək). (**özünə qıymaz**: özün öldürməz).

göy göz güclü olur, qara göz yaraşığlı.

göy tutulur ürək dolur, göz çağlır.

göy üzündən böyük qəfəs bir quş üçün qurulmaz.

göy üzündən böyük qəfəs bir quş üçün qurulmaz.

göy üzünə atan daşın, qaytıb gələr, yarar başın.

göy verirsə, yer alır, göy (tanrı) istəsə yer çalır.

göy verirsə, yer alır, göy istəsə yer çalır.

göycə mıncıq kimdədir, mənim gözüm ondadır.

göycə mıncıq kimdədir, mənim gözüm ondadır.

göyçək göz üz ilə, gözəl göyçək göz ilə, kişi göyçək söz ilə.

göyçək üzü göz çəkər.

göyçəklər içində seçəli lap gözəli iş çətin olmuş.

göyçəkliyə göz çəkər.

göydə pişib ağzıma düşən yoxuymuş, cocuqluqda ertəkilər yuxuymuş.

(**ertəkilər**: nağıllar).

göydə pişib ağzıma düşən yoxuymuş, cocuqluqda ertəkilər yuxuymuş.

(**ertəkilər** : nağıllar).

göydə ulduz sayılmaz, yoxdu yerdən sağılmaz.

göydəki durna üçün, əlindəki sərçəni uçurma.

göydəki durnadan, əlimdəki sərçə yeğ (çox).

göydəki durnadan, əlimdəki sərçə yeğ.

göydən keçən yol səni, götürməmiş arzuların yerinə, əl çalışır ayaq yürür

çatdırarmış armanların evinə. (**göydən keçən yol**: bulutlar salan yol).

göydən keçən yol səni, götürməmiş arzuların yerinə, əl çalışır ayaq yürür

çatdırarmış armanların evinə. (**göydən keçən yol** : bulutlar salan yol).

göydən pay uman, yersiz qalır.

göydən yağar, yer alar, yer almasa, sel alar.

göydən yağar, yer alar, yer almasa, yel alar.

göydür uca qartal durağı. (uçaqçılar sözü).

göyə sağuran üzündə yığar. (**sağuran**: tüpürən).

göyə sağuran üzündə yığar. (**sağuran**: tüpürən).

göyə suysa üzünə düşür.

göyə suysan (tüpürsən) üzüvə düşür.

göyə süğsə üzə düşər. (**süğsə: suğursa**. tükürsə).

göyə tükürən üzündə yığar.

göyə umub atma oxi.

göyə umub atma oxu.

göylərin yağışı sizlərə olsun, göylərin yartısı ömrüzə dolsun. (**alqış**). (**yartısı**: ışığı).

göylük, yaz gögəti. (**gögəti**: görgətisi. görkü. baharı. gözəlliyi. gözəllik simgəsi).

göylük, yaz görkü, qarlıq qış kürkü. (**kürkü**: bürüncəyi).

göyül (gönül) istəyər, əl edər.

göz açarmış evləniş, sevgi gözü kor eylər.

göz axdarsa görənməz, əl uzansa tutanmaz, dünya varı alanmaz, içdən uzaq tapılmaz. (tapmaca). (mutluluq).

göz alıcı gözəllik, gözəllərdə özəllik. (**göz alıcı**: göz çəkici. yaxımlı. alımlı) (hər gözəlin kəndi özəlliyi var).

göz alqıya, ışıq tapar, kişi qanıya yolun tapar. (**alqıyamaq**: zərfiyyəti çatmaq). (**qanıya**: qana. razılıq verə).

göz asdarı qapaqdır.

göz atabilməz içdə yatanı, göz atmalıdır könül atanı.

göz bir pəncərədir, könlə baxar.

göz çoxun sevər, ürək birin bəğənər.

göz dışın, bilim için çırağı.

göz doyar qarın yox, ürək durar könül yok. (**könül**: arzu. həvəs).

göz doymadan, dincəlməz.

göz doymasa dünya sənin az gələr, könül qansa bir parçacıq çox gələr.

göz doymayır gözəllikdən, könül qanmır sevidən. (**qanımır: qanımır**: **qanıqmır**. doymur). (**sevidən**: məhəbbətdən).

göz doymaz sevi qanmaz. (**sevi**: məhəbbət). (**sevi**: məhəbbət).

göz doysa, ürək dinər.

göz gəzdirən, qulağ açan, ağız yuman itirməz.

göz gördü könül sevdi səni ay üzlü ayım, qurbanın olam varmı mənim bunda günahım. (nəfii).

Göz gördüğünü (ağız yeiğini) ister. Kişiler alışık olduğu şeyleri sürekli ister. (Bayram Özdemir).

göz gördükcə öğrəşər, görmədikcə döngəşər.

göz gördüyü qədər dad alır, duyqular kefinə dərək oynayır!. (gözü yummaq olmaz, duyqunu tustaq).

göz gördüyün anar.

göz gördüyün danmasa!, könül qolay inanar!.

göz gördüyün dansa, qulaq duysa inanmaz.

göz gördüyün seçir, könül sevdiyin.

göz gördüyün, qulaq duyduğun düşünər.

göz gördüyündən qorxar, kişi dilindən.

göz gördüyündən qorxar.

göz görə görə, əl görə görə pişər.

göz görəndən, ayağ çəkilər.

göz görənə vergi yox, əl görəndən qaçan yox.

göz görənə vergi yox, əl görəndən qaçan yox.

göz görənə, ürək tanıq verər.

göz görəni baş yorar.

göz görəni dil desə, baş açar. (gördüklərindən danış, bilməyən bilsin, önə çıxan ey kötü baş uyar düşsün) (**ey kötü**: iyi kötünü). (**baş uyar düşsün**: kişi aqah olsun).

göz görəni əl görməz.

göz görəni əl görməz.

göz görəni könül çağırar. (gözdən itən könüldən gedər). (gözdən gedən könüldə durmaz).

göz görəni, baş sezsə, könül çırpar, ayağ çapar, qol çalar!.

göz görəni, baş sezsin!.

göz görəni, baş sezsin!. (**sezsin**: anlasın).

göz görənin qılğanar!. (**qılğanar**: qılmağın öğrənər). (göz ördüyün götürər).

göz görər ürək çəkər.

göz görər, könül anar!.

göz görər, könül istər, baş duyar. (bu bir seçimdir).

göz görər, ürək əsər, baş tələsər!.

göz görər, ürək istər.

göz görərdüyü, ürək yağı. {göz gördüyü, ürəkdə yanar (yansıyar, səslənər, əks edər)}.

göz görməkdən, kişi bilməkdən doymaz.

göz görməmiş için çəksə, öğrəşməyin güc olur.

göz görməmiş için çəksə, öğrəşməyin güc olur.

göz görməsə göyül inanmaz.

göz görməsə könül qatlanır. (göz görməyincə, könül qatlanır).

göz görməsə ürək yanmaz. (**yanğmaz: yanğmaz: yankımaz**: təpgi verməz).

göz görməsə ürək yanmaz. (**yanğmaz: yanğmaz: yankımaz**: təpgi verməz).

göz görməsə üz dönər.

göz görməsə, üz utanmaz.

göz görsə şamanı, uzaq düşər yamanı.

göz görsə, özik gəlir.

göz görüb, könül sevib, baş neyləsin.

göz görür duyur qulaq, çox güc olur danulmağı.

göz görür ürək əsinir. **(**əsinmək: sevinmək).

göz görürdə, qol qorxar. (**qol**: əl).

göz görürsə duyan sözə inanma.

göz görürsə öğrəşir, iç çəkirsə özləşir. (**özləşir**: mənimsənir).

göz görürsə öğrəşir, iç çəkirsə özləşir. (**özləşir**: mənimsənir).

göz görürsə, tin dinər. (**tin dinər**: iç, ruh inanar).

göz gözə baxıb yalan deyir, qazan qazana qara deyir.

göz gözə düşüb utanmasın, üz üzə düşüb qızarmasın.

göz gözə ışığ verməz. (göz gözə ışığın qıymaz). (kimi kimsəsədən gözləməsin).

(hər kim başardığıın edər).

göz gözə ışığın qıymaz. (göz gözə ışığ verməz). (kimi kimsəsədən gözləməsin). (hər kim başardığın edər).

göz gözə yağı oldu.

göz gözə, diş dişə.

göz gözəl görür könül sevəni.

göz gözəli bəğənər.

göz gözəli bəğənər.

göz gözəli xoşlayar, könül birin oxşayar. (**oxşayar**: bəğənər).

göz gözəllikdən sevinər.

göz gözəllikdən sevinər.

göz gözgə düşər, üz üzgə.

göz güdər üz ağarar. (**tapmaca**). (çoban).

göz hər nəyi görər, özündən sıvay.

göz ilə gör, qulaqdan al, ağızla ver.

göz ışığı ürək sirin yansıtar.

göz ışığı ürək sirin yansıtar.

göz kəndinə, qulaq özgələrə inanar.

göz kəndinə, qulaq özgüyə inanar.

göz ki var qaranlığı seçmək üçündür.

göz kimi iti gör, qurd kimi "iti", görmə.

göz qarından böyükdür.

göz qarından böyükdür.

göz qarından böyükdür.

göz qarından yekə!. (**qarından**: qursaqdan).

göz qayırsa para edər daşları, bir neçiyə ağu eylər aşları. oğul doğub qıyta salar başları, yaman acun yaman çevrən bu evrən (**qıyta**: çətinliyə. korluğa).

göz qəlbin güzgüsüdür deyiblər.

göz qızışsa ağıl çaşar, ağız cayar sözünü.

göz qorxaq, qol batır. (göz qorxaq, əl cəsur).

göz qulağdan irəlidir.

göz qulaq səmrər kişini. (kişi görüb oxumaq, dinləməklə becərilər, yeməklə yox).

göz qumdan dolar dünyadan doymaz.

göz nə qədər böysədə, qaşdan yuxarı qalxmaz.

göz nə qədər böyüsədə, qaşdan yuxarı qalxmaz.

göz oxuyar, qulaq duyar, için dolar.

göz olursa görməyə, seçmir yaşı yaşlını sevi dünyada. (**seçmir yaşı yaşlını sevi dünyada**: məhəbbət dünyada farq qoymaz gənc qocaya).

göz öğrəşir könül çəkir.

göz öğrəşir könül çəkir.

göz ölçüsü könül oxumaz!. (göz donda qalır).

göz önündə ölüm-olum, daşa döndü sağım, solum. (təprəm vırqının (bəlasın) andırır).

göz özünə qulaq ağıza inanar.

göz özünə qulaq başqalarına inanmış.

göz özünə qulaq başqalarına inanmış.

göz sevdiyin görər, görənməsə yaradar.

göz sözündən bəllənər.

göz sözündən bəllənər.

göz tərazı, ağıl miyzan.

göz tərazı, ağıl ölçək (miyzan).

göz tikmə sən ötmüşə, ötmüş baxır keçmişə, yüz min çilə baş qaldırar qarşında, açmaz yarın, yarçıq qalar tüm işlərin həmişə. (**yarçıq**: naqis)**.**

göz tikmə sən ötmüşə, ötmüş baxır keçmişə, yüz min çilə baş qaldırar qarşında, açmaz yarın, yarçıq qalar tüm işlərin həmişə. (**yarçıq** : naqis)**.**

göz var dəvəni, iğnədən seçməz.

göz var görmək üçün, beyin bilmək üçün.

göz verirsə yaş verir, aş verirsən daşın verər bu evrən.

göz vurular göyçəyə.

göz vurular göyçəyə.

göz vurular göyçəyə.

göz yanılar, iç inanar, baş itər.

göz yarçığı üz ilə, iç yarçığı öz ilə. (**yarçığı**: qərarı).

göz yaşı diritməmiş ölünü, qaytarmamış köçəni.

göz yaşı parasız!.

göz yaşı parasız!.

göz yaşı parasız!.

göz yaşı saxlayıb gizləyib utmaq üçün deyil, göz yaşından öğrəşməyən, ürək deyil.

göz yaşı, yanğı yatmaz (yanda durmaz, görünər).

göz yaşınan paslı ürək açılmaz.

göz yaşiylə dirilməz ölən, qayıtmaz köçən.

göz yaşiylə gül onmaz. (göz yaşiylə gül suvarılmaz).

göz yaşması iç yanmasın yansısı.

göz yetməzə söz yetər.

göz yetməzə söz yetər.

göz yiyəsin görməydi.

göz yolu uzaq görər ayaq yaxın.

göz yolu uzaq görər ayaq yaxın.

göz yumduğun açmaz gözü. (saymazdığın soru çözülməmiş).

göz yumduğundan, uğur gözləmə. {(**yoğur vermədən**, uğur gözləmə). (**yoğur vermədən**: səyasət edmədən)}.

göz yumulunca, qiyməti bilinməz.

göz yumulunca, qiyməti bilinməz. (ölməyincə olmağın nə olduğu bəllənməz).

göz, dil qulağ koru. (görməz dinləməz, danışmaz kimsə).

göz, diləkcə görür. (**diləkcə**: niyyətə görə).

göz, durmadan baxsan, koralar, yum birdə aç. kəndivə gəl, kəndivə güvən.

gözdə göyçək olunca, çaba könül oyala. (**oyala**: ələ al).

gözdə göyçək olunca, çaba könül oyala. (**oyala**: ələ al).

gözdə gözəl, sözdə üzəl. (**üzəl**: üzücü).

gözdə olan bəzəkdir, içə keçdin təzəkdir.

gözdə olan könüldəysə heçin uzaq düşməz.

gözdə olur gözəlliklər, dalma gözə gözəlim, birisinə sevilsən oxşar əlin, dalar sana gözəlin.

gözdə olur gözəlliklər, dalma gözə gözəlim, birisinə sevilsən oxşar əlin, dalar sana gözəlin.

gözdə ölsə, içdə durmaz, içdə ölsə, gözdə durmaz.

gözdən axan bir damla yaş, gül tək açan dodaqda qaç, minlərcə sir gizlədiri, min gömükə izlədiri. (**gömükə**: içdə qalan nərsəyə). (**izlədiri**: nişan verir. yol açırı).

gözdən alıs göz gəzməz. (**alıs**: uzaq).

gözdən atsan yamanı, taxca gəzər yalanı. (**gözdən atsan:** gözdən edsən. saymasan. yığmasan. bıraxsan).

gözdən atsan yamanı, taxca gəzər yalanı. (**gözdən atsan:** gözdən edsən. saymasan. yığmasan. bıraxsan).

gözdən düşüb, ürəkdə yer axdarır.

gözdən gedən könüldə durmaz. (göz görəni könül çağırar). (gözdən itən könüldən gedər).

gözdən gedən könüldə durmaz. (göz görəni könül çağırar). (gözdən itən könüldən gedər).

gözdən gedən könüldə durmaz. (gözdən itən könüldən gedər**)**. (göz görəni könül çağırar).

gözdən gedən könüldə durmaz. (gözdən itən könüldən gedər**)**. (göz görəni könül çağırar).

gözdən gedən, dildən düşsə, könül anmaz.

gözdən ırax, gönüldən ıraq. (gözdən ırax, könüldən uzaq).

gözdən ıraq, gönüldən uzaq.

gözdən ıraq, gönüldən uzaq. (gözdən ıraq gönüldə ıraq). (gözdən uzaq, yaddan uçaq).

gözdən iti, yaşamdan dadlı ola biməz.

gözdən qaçıq, içdən açıq. (**açıq**: ayrı. uzaq).

gözdən uzağ, içdən azağ**.**

Gözdən uzaq düşən, könüldən də iraq olar. (Ara Gündüz).

gözdən uzaq könlə yaxın, kimiysin sən səni.

gözdən uzaq, içdən ıraq.

gözdən uzaq, ürəkdən qıraq.

gözdən uzaq, yaddan uçaq.

gözdən yaş yuyunsun, ürəkdən pas.

gözdəsiz könül olmasın, başsız ölkə.

gözdü seçən gözəli, könül sevər sevəni. (könül gözəli yox, sevdiyin seçər). (könül sevən göyçək olur!).

gözellik on, gerisi don.

gözə baxan gözdən, göz çəkinər. (gözə baxan gözü, göz bəğənməz).

gözə baxan gözdən, göz qaçar. (**göz qaçar**: göz çəkinər). (dirtik gözə baxan kimsəni, kimisi sevməz) (**dirtik**: didici. dürtücü).

gözə gələn gözəllik uzun sürməz dayanmaz, sözün deyib tutmayan dönük çıxar uyanmaz.

gözə girib, sözdən qaçmaq. (söz atıb tutmamaq. ilişib keçmək).

gözə göz, dişə diş. (**alaqan**: qisas).

gözə yasaq yoxdu.

gözəl duyqulardan, sevgi yarandı.

gözəl düşün, gözəl gör. (çevrəvi).

gözəl düşüncədən alınan dad, qaramsara qalar yad. (**qaramsar**: pesimist). (iyi düşünən gözəlin yaşar).

gözəl görkün, göydə gündən ayınmaz. (**ayınmaz**: seçilməz).

gözəl kişi daş kimi bərk, pamıq kimi yumuş olur. (**yumuş: yumşaq)**.

gözəl könül çirkinliyi daşırmaz.

gözəl könül çirkinliyi daşırmaz.

gözəl seçmə gözəllədən seç.

gözəl sözlər, göyçəklərə bərk yaraşır, gözəl sözlər, göyçəklərdən bərk yapışır.

gözəl var gözilən öldürər, gözəl var sözilən.

gözəl var gözünən öldürər, gözəl var sözünən öldürər.

gözəldə hamının gözü var, çirkinə kimin sözü var.

gözəldən yar, çirkinden çor əksilməz.

gözələ kətən yaraşır, çirkinə ətləs neynəsin.

gözələ kətəndə yaraşır, çirkinə ətləs neynəsin.

gözəlim, çalışıb bul içivi dincə qoyan varsa nədir.

gözəllər hər öğün gözəllik yaratmır. **(öğün:** zaman**)**.

gözəllərin talehi, çirkin olur.

gözəlligə aldanan, gözəlliklə aldatanın bularmış.

gözəlligə aldanan, gözəlliklə aldatanın bularmış.

gözəlligi qadında tustaqlama.

gözəllik aldatan olmur, gözəlligə aldanan çox olur.

gözəllik aldatan olmur, gözəlligə aldanan çox olur.

gözəllik gözdə olur, üzdə yox. (**gözdə**: (görən gözdə).

gözəllik gözdə olur, üzdə yox. (**gözdə**: (görən gözdə).

gözəllik gözəllərlə yaranmır.

gözəllik gözünəndi, əxlaq sözünəndi.

gözəllik iyi, ömürlük deyil, yaşanır birçağ, seçdiyin iyiysə, gözəl qalır qamuçağ.

gözəllik köçər ölməz. (dünya günündə sənin).

gözəllik köçür, qocalq çökür.

gözəllik ondur, birisi özdür, doqquzu üzdür.

gözəllik ölçüsü yaşamla başlır, gözəlligi, gözəl!, heçnə almaşmır, odurki itirmə boşa yaşamın, gözəllik elə yaşamla yaşanır. (**almaşmır**: çalmaşmır. dəğişmir. bədəl edmir).

gözəllik üzdə, yaxşılıq içdə yatır.

gözəllik var göz payı, gözəllik var can ali.

gözəllik varikən, yaşama dəğər.

gözəlliyə göz inanar.

gözəlliyi qana bilsə, göz gördüyün dana bilməz.

gözəlliyin yurdu yoxdur.

gözəmsiz sıçan, pişiyə yem olar. (**gözəmsiz**: çevrəyə göz salmazın).

gözlə arar tapanmaz, könül yoxsa yaranmaz. (sevi. tanrı).

gözlə beyin oxuşla, qulaq beyin duyuşla.

gözlə giləm, gülə tikən batmasın. (**giləm**: gözümün bəbəyi).

gözlə görən çoxlarını bəğənmiş, könülisə yalnız birin sevərmiş.

gözlə qulaq qorsa baş, baş qoruyar hər kisin. (**kisin**: **ikisin)**.

gözlədigimizdən çox tez qocalırıq, sandığımızdan tezdə ölürük.

gözləmə dik dura boş olsa çuval.

gözləmə dik dura boş olsa çuval.

gözləmə gələ nəisə sənə, dur yapın qılın oliki varın.

gözləmə gözlənməzi, gəlsə səndən qoyu bəkləməz. (**qoyu**: icazə). (bəkləmə bəklənməzi, gəlsə səndən qoyu bəkləməz).

gözləmə yarın gətirsin nəisə sənə, dur yapın qılın nəisə varın.

gözləmə yarın gətirsin nəisə sənə, dur yapın qılın nəisə varın.

gözləmədən gələn daş, yarar baş.

gözləmək kəndi gərəğin bacarıqsızca görəvməkdir. (**görəvmək**: nərsəni yerinə gətirmək).

gözləmək yox yarına, kəndi özüdə gələcək, sən çalış dur ayağa gündü geriyə kəçəri.

gözləmək yox yarına, kəndi özüdə gələcək, sən çalış dur ayağa gündü geriyə kəçəri.

gözləmək, yaşamaq deyil.

-gözləmək, yaşamaq deyil.

gözləmızin kimsədən, gözlənməzələr görürsün.

gözləmızin kimsədən, gözlənməzələr görürsün.

gözlənilməzi gözləmə, gözləndiyin özləmə, sevgilə yox, sevginə tapın.

gözləntisi olmayan, qırılması güc olur. (**gözləntisi**: intizarı).

gözləntisi olmayan, qırılması güc olur. (**gözləntisi**:intizarı).

gözlər gözümü saxladı yollar.

gözlər könül aynasıdur. (gözlük olmasa).

gözlər könül güzgüsü.

gözlər könül güzgüsü.

gözlər özlərinə inanır, qulaqlar özgəyə.

gözlər özlərinə inanır, qulaqlar özgəyə.

gözlərə tikən, meyvəli ağac.

gözlərim ulduzu ana, and ola damarda qana.

gözlərivi yaxcı açıb yaxcı bax, sən sevənə sevdiyin heç oxşamır.

gözlərivi yaxcı açıb yaxcı bax, sən sevənə sevdiyin heç oxşamır.

gözlərivin gördüyünü unutma, yaşamağa inaqlan. (**inaqlan**: iman gətir. təkcə varlığın olduğuna inan. dirirkən hər nə yapılır).

gözləyən gözə ağ düşmüş, sərilən tora av. (**ağ düşmüş**: kor olmuş). (əl işə bas dişə).

gözləyiş yakar yaşamı.

Gözlüye gizli yoktur. Gören, gördüğünden anlam çıkaran, yorum yapan insanlar için bilinmeyen bir şey yoktur. (Bayram Özdemir).

gözlüyə gizli yoxdur.

gözsüz oğul qalan, başlı başına gedər.

gözsüz oldun güzgüsüz. (gözsüz oldun güzgü nəyivə).

gözü ac, qarnısa tox, xan belə yoxsulluq edər.

gözü aclıq kor edərmiş yiyəsin.

gözü açıq ağzı yumulu, sirlər saxlamaxda uğumlu (dözümlü) ol.

gözü bağlı, düşdən (xiyal) ayrılmaz.

gözü dənədə olan quşun, duzağa ayağ tez olar tuşun. (**tuşun**: avın. düşmüş).

gözü dışda, özü içdə (balıq). balıq özü suda, gözü dışda. ayağı əzir, qulağı gəzir.

gözü əllərdə qalan, könül toxluğu görməz.

gözü gözdən doyanın, sözdən könlü doyar.

gözü gözündə, qulağı sözündə. (vurqun).

gözü kora gözlük neyləsin.

gözü korla yoldaşlaş, könlü kordan uzaqlaş.

gözü qalan birəvin malında, öz evində ac yatar. (**birəvin: birəvnin:** birinin. bir kimsənin. özgə birinin).

gözü qalmış dününə, nisgil qalar gününə. (**gözü qalmış**: gözü dalmış).

gözü qalmış dününə, nisgil qalar gününə. (**gözü qalmış**: gözü dalmış).

gözü oxşayan geyimdir.

gözü poxda olacaq qarqa ilə dosd olanın.

gözü toxa, ağzındakı yetər, ac gözə dünya yetməz.

gözü yumuq suçlanmaz.

gözüm səğrər, qulax çınlar, könül inlər, ki candan sevgili dilbər, gəlir dərlər gəlir dərlər.

gözün açan hər kim, parapul deyir, gözün görür, hər nə parapul deyil.

gözün açdın ‘’doğdu’’ dedilər, gözün yumdun ‘’öldü’’ dedilər, göz qırpışa ‘’ömür’’ dedilər. (mevlana).

gözün açuk ikən yaraxlan özün, ki sində qarınca yeyəcək gözün.

gözün biri könlə, biri başa baxar, onda iki ürəkli qalar, beləliklə göz qorxaq olar.

gözün gözdə, qulaq sözdə.

gözün küt olunca, oxun iti olsun.

gözün payı görküdən, könlün payı sevgidən. (**görküdən**: gözəllikdən).

gözün payı görküdən, könlün payı sevgidən.(**görküdən**: gözəllikdən).

gözün yumub açma ağız, aç qulağ!. (**qulağ aç**: qulağ as).

gözün yumub ağız açma, qulağ aç!. (**qulağ aç**: qulağ as).

gözün yumub danmaqilə oldağ yolun dəğişməz, çürük ipi tovlamaqla eşilməz. (**oldağ**: vaqeiyyət).

gözün yumub danmaqilə oldağ yolun dəğişməz, çürük ipi tovlamaqla eşilməz. (**oldağ**: vaqeiyyət).

gözünə çöp düşdü, dünya gözündən düşdü.

gözünün biri alma dərər, o biri səbədə salər.

gözünün biri alma dəyər, o biri səbədə salar.

gözüvə tiksən yoluva çıxar.

gözüvü gəldigin yerdən çək, getdiyin yerə tik. (gözüvü gəldigin yerə yox, getdiyin yerə tik).

gözüvü gəldigin yerdən çək, getdiyin yerə tik. (gözüvü gəldigin yerə yox, getdiyin yerə tik).

gözüz heçdə yaman görməsin, heç bir yaxşı, heç bir yaman sevməsin.

gözüz heçdə yaman görməsin, heç bir yaxşı, heç bir yaman sevməsin.

gözyaşı, içdə yanan odun törəsi. (**törəsi**: hasılı). (iç yanmasa, göz yaşarmaz) (iç küyməsə yaş axmaz).

gözyaşilə dirilərmiş ölü heç!.

gözyaşilə ölmüş ölük dirilməz, daşürəklər gözyaşına yenilməz. (**yenilməz**: təslim olmaz).

gözyaşın sevda üçündürsə salıt, leyla üçünsə dal alıt. (**salıt**: axıt).

gözyaşından alın təri yaxşıdır.

gurlayan göy, yağış gözlətir. (gurlayan göydən, yağış gözlənir).

gurlayaraq gələn düşmandan, kötüdür gülə - gülə gələn düşman.

gurulda, amma yağma.

güc aldan girsə, doğru tünlükdən çıxar.

güc coşanda, çay daşanda.

güc damarı amacda. (amacsız yol çəkilməz, amacsız yol yürülməz) (**amac**: dilək. niyət).

güc eldən girsə, törü tünlükdən çıxar. {zor asdanadan girsə, düz bacadan (pəncərədən) qaçar}. (güc üzdən girsə, düz daldan çıxar).

güc əyərdə, düzəldərdə.

güc gələn ələ, gec çıxar əldən.

güc hardasa taxt orda.

güc inamı yenər, öldürəməz. (**yenər**: üsdələr). (güc inamı yıxar, öldürəməz).

(güc inamı yıxmış, öldürəməmiş).

güc kişinin qadası, dil dişinin. (**qadası**: bəlası).

güc olan yerdə inam yaranar, gücə minmiş inam kəndisin danar.

güc səni gücləyincə, sən güclügü gücətqıl. (**gücətqıl**: gücə sal. zora sal).

güc topluluqdadır. (**ittihad**: topluluq). (**topluluqdadır**. müttəhidlikdədir).

güc topluluqdadır.(**ittihad**: topluluq). (**topluluqdadır**. müttəhidlikdədir).

güc üzdən girsə, düz daldan çıxar.

güc yaratmaq, kişinin, butuq ərdəmidir. (**butuq**: ən böyük. ən uca).

gücdən uzaq, vardan qıraq, kimdə var söz danışsın.

gücə sığınan**,** kölüyə dönür.

gücənmək xoş deyil, gücənib çıxmaq pis deyil. (**gücənmək** : zora düşmək).

gücənmək xoş deyil, gücənib çıxmaq pis deyil. (**gücənmək**: zora düşmək).

gücənməsin biləgin, tükənməsin gücün.

gücənsiz uğur tanımam, nə olduğun qanamam. (**gücənsiz** : sıxıntısız.

işgilsiz).

gücənsiz uğur tanımam, nə olduğun qanamam. (**gücənsiz**: sıxıntısız.

işgilsiz).

güclə it sürüyə gedməz.

güclənməgin minbir yolu, doğruluğun tək bir yolu.

güclü ağız, aşa gedər, güclü əl, işə.

güclü belin olsunda, gur bilimi unutma. (güclü belin olunca, güclü bilimin olsun).

güclü belin olunca, güclü bilimin olsun. (güclü belin olsunda, gur bilimi unutma).

güclü bilək birin basmış, güclü bilik minin.

güclü bilək birin, güclü bilik minin yıxar.

güclü bilək, dilək başda bir olsa, tək əllidən səs çıxar.

güclü düşün, güclü ol.

güclü gül iyisi qoxar. (güclü nərsə örtülü qalmaz, görünməz keçrilməz).

güclü ilən gürəşmə, yüyrük ilə yarışma. (**yüyrük: yüvrük**: iti) {işivi yoluvu, sana bil yürü. (**sana bil**: hesabla düşün)}.

güclü kişi neylir qıla yaxarış, gücü onun qolay yaşam, bollu durmuş yaratmış. (**yaxarış**: dua).

güclü olan dincəlməz, dinc oturan yorğunmaz.

güclü olan günlüyün tapar, bilimi olan illiyin. (gücü olan günlüyün tapar, bilgisi olan illigin).

güclü olan haqlı çıxar. {güclü, yazıq (günahkar) çıxmaz (olmaz)}.

güclü seçim, yoğun sicim.

güclü seçim, yoğun sicim.

güclü sevgi, açmaz qapı bıraxmaz.

güclü söz alana qalıb, söz gücü gəmik qırır.

güclü toxmaq, yün qazığı yerə basar. (**qazığı**: mismarı).

güclü yalun, ölük odun gec yaxar. (**yalun**: od). (güclü od şeh (ölük. nəmli) odunu (otu), gec yandırar).

güclük bərklikdədir.

güclük bərklikdədir.

güclük bərklikdədir.

güclüklərin açarı, kəndi gücən inanmaq.

güclüklərin açarı, kəndi gücən inanmaq.

güclülər başa çatmağı, bilginlər başda durmağı bacarar.

güclülər başa çatmağı, bilginlər başda durmağı bacarar.

güclülük kişidə, görkülük dişidə.

güclülük kişidə, görkülük dişidə.

güclünün çatında olanda var, qatında olanda. (**çat**: qarşı. qabağ. üzbəüz. muqabil). (**qat**: yan).

güclüyə düşməmiş kişi, güclülük nədir bilməmiş.

güclüyə yanaş, varlıya hamaş.

gücsüz avlamaq, qutsuz yaşamaq olmaz.

gücsüz toxlu yoxa çıxar. (**toxlu** : haqlı).

gücsüz toxlu yoxa çıxar. (**toxlu**: haqlı).

gücsüz, sevinc yaranmamış. sevinc güc verib, güclə yaşır.

gücsüzün sevən, yarıdan dönər, arada ölər.

gücsüzün sevən, yarıdan dönər, arada ölər.

gücsüzün sevmə, yarıdan dönmə, bitməmiş ölmə.

gücsüzün sevmə, yarıdan dönmə, bitməmiş ölmə.

gücü olan günlüyün tapar, bilgisi olan illigin.

gücüksüz yaşam yox, çalışmadan aşam yox. (**gücüksüzün** : çətinliksizin. qınıqsızın). (**aşam**: müvəffəqiyyət).

gücüksüz yaşam yox, çalışmadan aşam yox. (**gücüksüzün**: çətinliksizin. qınıqsızın). (**aşam**: müvəffəqiyyət).

gücün çatandan yapış!.

gücün çatdı yapış, qolun ağrımaz, sözü bildin danış, başın ağrımaz!.

gücün çatır qoğ qutar, gücün çatmır qaç qutar.

gücün varsa bağışla, gücün yoxsa seçim yox.

gücün yetməyən daşı öpüb öt.

gücün yoxsa evliliyin gərəkməz.

güdə damda otursanda, uca başlı kişi qal!.

güdə gəlsə yorqanun, uzat ayağ onunca, uzun gəlsə ayağun, böyük götür yorqanun. {duruma görə biçilsin). (**biçilsin**: tədbir görülsün)}.

güdə yolu iti çapar yalan söz.

güdənin əli çatmır, ucada əyilmir.

güdənin əli çatmır, ucada əyilmir.

güdənlər gədiyə düşər. (**gədiyə**: doğanaq. boğnaq).

güdülən yalana kimsə inanmamış, güdülməz yalana kim inanmamış.

güdülməmiş qarşılıq verilən aşqa, verdə qarşılıq aldığın aşqa.

güdülməmiş qarşılıq verilən aşqa, verdə qarşılıq aldığın aşqa.

güdülü beyin qurdluğa düşər, gün bəgün şişər. **(güdülü**: nigəran. şəggili. məşkuk).

güdülü beyin, boklu pehin. **(güdülü**: nigəran. şəggili. məşkuk). (**boklu**: poxlu).

güdülü beyin, kəndini yeyir. **(güdülü**: nigəran. şəggili. məşkuk).

güdülü beyin, qorqasız qalar. (**qorqasız**: yaraqsız. silahsız. difasız) **(güdülü**: nigəran. şəggili. məşkuk).

gül açar qalmaz, gün keçər durmaz.

gül açar, bülbül sayrır.

gül açmasa, bar gəlməz, biçilsə don, dar gəlməz.

gül bəzək yapraq qoraq. (**qoraq**: savağ. qorucu).

gül burunda qoxar, səs qulaqda qoyar. (**qoyar**: dinlənər. yer tutar.).

gül burunda qoxar, səs qulaqda qoyar. (**qoyar**: dinlənər. yer tutar.).

gül burunla qoxular, səs qulaqla duyular.

gül burunla qoxular, səs qulaqla duyular.

gül çağından tez açar, gün çağından tez çıxar, gözəlimsin gözləmə, gözlək gözdə ot çıxar. (**ot çıxar**: kor olar).

gül dalından odun olmaz, bəsləmədən qadın olmaz.

gül deyən kim, kül oxan kim. (**oxan**: oxuyan. uyqulayan).

gül dərirsin gündəlik, pul qazansan ömürlük.

gül gülə oxşar, gözəl gözələ.

gül kimi biz keçinib gedirdik, nə oldu yandı ara, sındı körpülər, umub bəkləməzdin, düşə bizədə qayğı ilə qussələr, öksüz qala körpələr.

gül kimi görünüb, tikən batıran, dos kimi görünüb, yılanca soxan.

gül qədrini kor bilməz.

gül oldum, gül satanlara.

gül olursan tutanın olsun, dadlısansa yeyib bilənin.

gül olursan tutanın olsun, dadlısansa yeyib bilənin.

gül poxa düşsə poxalar (pox alar), pox gülə düşsə, çoxalar.

gül sallanar qunça qoruyar, qeyim düğün buxca qoruyar. (**qeyim**: bərk).

gül sevən ayrı salanmaz takanı, deməyinki tanımır güllə tikanın dərkin, bu tikanın gülü var. (**dərkin**: fərqin).

gül sevərsən, tikəni var, söz dilərsən acısı.

gül solar yapraq tökər qalmaz yaşıllıqdan bir iz, ayrı ölkə başqa topraq türklüğüzdə dil biriz.

gül solar yapraq tökər qalmaz yaşıllıqdan bir iz, ayrı ölkə başqa topraq türklüğüzdə dil biriz.

gül tikansız, çöl ilansız olmaz.

gül tikansız, sevgi sayqısız olmaz. (sevgi ilə sayqı dəngəsi).

gül tikənsiz, dil diləksiz, göz yaşsız qalanmaz.

gül versənə gülənə, gül dərəkin bilənə. (**dərəkin**: qədrin).

güldanda bitən bitgi solar kərdiyə qalmaz. (**gülgük**.. güldan).

güldən tikən ayrılmaz, sevməz könül yarılmaz.

güldən tikən ayrılmaz, sevməz könül yarılmaz.

gülə gülməsən könül qalır.

gülə gülməsən, kövnü qalır.

gülə gülmüşlər tikən yanında, sevilmiş sevgilər, ayrılıq ardında.

gülən gülün toplar, quru hölün hoplar, içində giz nə varsa, yovuğa özün qoxlar. (**hölün**: şehin). (**giz**: saklı). (**yovuğa**: yaxınlaşana). (**qoxlar**: iylənər. iy saçar).

gülən yerdə gül bitər.

gülən yerdə gül bitir, gülməzində kit kitir. (**kit kitir**: qəm qussə).

gülənə gül ver, sevənə sevgi, sevigə tay yox, tutarın bil ver.

gülər ağlar bir dildə, yer üzündə tüm dillər.

gülər qonşu ürək açar, qonşu ağlar könül tutar. (**tutar**: bükdər. qussələdər).

gülər üz qadın, yaşamaq dadın. (yaşamın dadı dadlı dilli candaşla).

gülər üzə inanma, ağlar gözə alınma.

gülər üzlüm gülüş gülü dodaqda, yazbayramı çiçək olar budaqda.

güləşdə biri yıxılmalıdır.

gülgün qonşuva gəlsün başuva.

güllə yatan gül qoxar, qarın yediyin qusar.

güllərə qulluq olar, tikən gəli gül arxalı. (**arxalı**: vasitəsi ilə).

güllü yerdə tikan var, tikanlıqda gül harda.

güllük ilə küllügünü seçənməz, sağ solunu tanımaz. (**sağ solunu**: dos düşmanın).

güllük nə tez çönər **küllüyə**, çətin **küllük** dönmüş **güllüyə**.

güllüyün gülü, beş gün.

gülmə qonşuya, gələr başıva.

gülməgə tələsmə. –ilki baş oynab güləsi, sonku tutar çiləsin. (çiləsin: əzasın).

gülmək görəv deyil ödəv yox, gülmək yaşam yönün çevirmək, acıqları süycvüklərə evirmək.

gülməliyə ağlayana dəli, ağlamalıya gülənə səfeh demişlər.

gülməyin bilməyən, ağlamağın nə bilər.

gülməyin çoxu, varıdı çoğu. (**çoğu**: ziyanı).

gülməz üzə sürən devran həmişə, çalış seçin doğru yolu düz işə.

gülsə kişi, atma ona otlu kelə (kül), bax qıl ona, iykiliknən, ağzı gülə.

gülü bir gün, səni hər gün, gülü solunca, səni olunca.

gülü bir gün, səni hər gün, gülü solunca, səni ölüncə. (gülü bir gün, səni hər gün, gülü solunca, səni olunca).

gülü güldən ucuz tutma qıl. (ululları birbiri llə ölçməzlər). (ölçməzlər: muqayisə edməzlər) !.

gülü gülənə ver, könül sevənə ver, sevmək gözəl nəndir, dəğər verənə ver. (**nəndir**: şeydir).

gülü gülənə, könlü sevənə ver, sevmək gözəldirsə, dərkin bilənə ver.

(**dərkin: dərəkin:** tutarın: dəğərin).

gülü sev, tikənin qorun, sözü dinlə, uslusun savun.

gülü solmadan tutun, dolçanı dolmadan.

gülü susuz, yaşı duzsuz, başı ussuz bıraxma.

gülü ünlə sən, tikən özü yönlənir. (sən ağzıvı uğra aç, oğur (şər) özü gəlir).

gülüb keçdi, sevdiyin bilmədən, sevildiyin duymadan. küsük evrən, qıyın çevirən. (**qıyın**: zalim).

gülün yaşı suya bağlı, kişi sevgidən dağlı, sevgisiz kişi lap heçə bağlı.

gülün yoxdur, dilivə nə gəlib.

gülünə bax qunçəsin dər.

gülünə baxıb qunçəsin al.

gülüş kiçik bölükdə olur, dünyalar yarır. (**yarır**: açır).

gülüşsüz gürəş sürəməz. (**gürəş**: mubarizə).

gülüşün ağlayışı, sevişin aldanışı, sarlışın ayrılışı varımış, əsən yelin boranın, şaxda günü çoğun olmuş qarımış.

güman getdi, güvən itdi. (**güman**: ümid).

güman imandan edər, gümansız inam, yaşamdan. (kişi sorquyla yaranır, yanıtla bəslənir).

güman inamdan edər. (şəgg imandan ayırar).

güman qalmaz umuda, oda bir gün unuda, çaba əlindəkin qıla ver. (**çaba**: çalış) (**əlindəkin**: bacardığın).

güman olmasın başqasına, kimsə yığmaz yükü daşqasına.

güman, imandan ayırar (elər).

gümançılıq gur gəlsə, inamçılıq dal basar, güvənçilik sarsılar. (yaşamda oranı saxla). (**oranı:** çəki. həddi. ölçünü).

gün atarsa açılar gecə, çalışarsan tapılar yemək, gül çiçəkdən toplamış balı, dad verməmiş bala bal demək.

gün başarıqlarınla yaşa, keçmişinlə yok.

gün batışı, dan atışı.

gün batışı, dan atışı.

gün batışında gecəni yok, doğuşun düşün.

gün buyruğu yox quyruğu. (əldə edindiyindən yaran, yararlan, gözün artığında, ardında, dalında olmasın).

gün çıxarkən damda ol, gün batarkən duvaxda. (**qoyda**: evdə).

gün çönər, kişi çönməz.

gün doğmadan kəmligi söylənməz.

gün doğmadan nələr doğar.

gün doğmadan nələr doğar.

gün doğmadan, nələr doğar. (gözlənmədik bir sürədə, umulmadıq nələr ola bilir).

gün doğmasa, gün batmaz, qoşun yatar, yov yatmaz. (**yov**: düşman).

gün düşən yerdə toxum ək, kölgəlikdə yox, bilki, toxum əkdiyin yerə, kölgə düşəcək.

gün düşməklə gözün yaşı quruqmaz.

gün əkərsən dan biçərsən. (**gün**: bu gün. indi).

gün əkilmiş, dan biçilmiş. (**gün**: bu gün. indi).

gün gediri batmağa, doğa durur yatmağa, bir susqunluq içimdə, can qaldırır dartmağa. **(susqunluq**: sikut).

gün görməsin kölgən sənin.

gün görməyən gün görsə, gündüz çıraq yandırar.

gün ilə ay bir deyil. - ay qışda çıxar dondurmaz, yayda çıxar yandırmaz.

gün işin gündə qoy, tün işin tündə. (dünün otuna bu gün qızınmaz, gün otuna yarın). (atan kimidir sənə nə, indi atasan, kimsən). (**kimsən**: neçədən birisən).

gün işin yarına qoyma.

gün keçdi, kölgələndik kölgəmizdə, gün batdı, ayda yatdı, ölülər ölkəmizdə.

gün keçər, kin keçməz. (çağın sürməsi, öc közün söndürəməz).

gün keçir, ay dönür, güz yeli əsir, illər irəlir, sonuma tələsir.

gün keçməmiş umutlar var.

gün kimi ışıyan, tün kimi yaşuran, su kimi duru, topraq kimi yasağun, ölü kimi dincək. nə olursun ol, oldunğn kimi görkən (görsən), görkəzin (görsətin) kimi ol. (**ışıyan**: ışıq saçan) (**yaşuran**: payan. örtən) (**yasağun**: Mütəvaze') (**dincək**: aram) (**görkən**: görsən) (**görkəzin**: görsətdiyin) (**görsətin**: görsətdiyin).

gün kölgəsi, ay görkəsi. (**görkəsi**: gözəlliyi).

gün kürk dəğişsədə gecə düşər. (olacaqdan qaçaq yox).

gün qısa, yol uzaq görünsə belə. (**gün**: yaş. ömür). (**gün**: yaş. ömür).

gün nə boyda (nə qədər) uzun olsada, genə gecə düşəcək.

gün olmasa dan atmaz, sevgi yoxsa can yaxmaz.

gün poxa düşər, iy tutmur.

gün sayabın ay alar, asqır yerin tay alar. (**sayabın**: hesabın). {**asqır: ayqır**: bədov (at)}. (**tay: day**. at balası).

Gün varken davarını eve götür. Davar, canlı mal, koyun, keçi. İşlerini zamanında yap. (Bayram Özdemir).

günah mənəm mən günaham bilmirəm, ayaqlara büktün bir baş olmuşam. nisgillərin acı ipi boynumda, çəkha çəkə özüm qoldaş olmuşam. (**büktün**: məhkum).

günah mənəm mən günaham bilmirəm, ayaqlara büktün bir baş olmuşam. nisgillərin acı ipi boynumda, çəkha çəkə özüm qoldaş olmuşam. (**büktün**: məhkum).

günbəz üsdə girdəkən göt saxlamaz.

gündə gəlir, geçir günü sevişmək, sevəngillər keçir savaş günlərə. böylə gəlmiş gedməsidə böylədir, bu gün sevən danıq olur dünkünə.

gündə irük yox, bəydə qıyıq yox.

- gündə yarıq yox, bəydə xəta yox.

gündə varıb savaq alsan ustaddan, bağlı qapı yarıq olar üsqatdan. (**savaq: sabaq**: dərs).

gündə varıb savaq alsan ustaddan, bağlı qapı yarıq olar üsqatdan. (**savaq: sabaq**: dərs).

gündə yarıq yox, bəydə qayıq yox. (**qayıq** : dönmə). (**yarıq:**yırıq. cırıq.). (bəylər sözlərindən dönməzlər).

gündə yüz yol gəlir isə yanıma, ölüb öldürmək üçün.

gündəlik işlər dəğişməz qalır, onu bacaran dadını alır.

gündən qara gedər, göndən yox.

gündoğmadan, kimliyi söylənməz.

gündük işi görüb qoy, yarın açsa öz işi. (yarına var öz işi).

gündüz ayı sayan yox, aylı gecə ulduzu.

gündüz çıra yaxan, gecə tünə çıxar. (gündüz ışıq yaxan, geni qaralıqda qalır).

Gündüz gəzər obanı, gecə sızlar dabanı. (Anam atama derdi). (Kordus).

gündüz gəzər yuvada, gecə gəzər ovada. (oxucu. şarkıçı. köçəki. rəqqas).

gündüz tünə dəğişməz, özgərmədən iş keçməz. (gündüz tünə dönməli, ışıq qara geyməli).

gündüz tünə dəğişməz, özgərmədən iş keçməz. (gündüz tünə dönməli, ışıq qara geyməli).

gündüzün gözü var, gecənin qulağı.

gündüzün günəşə, gecənin aya, uşağın anaya, quşun yuvaya, ağacın torpağa, torpağın suya, yalğının yaluğa gərəksini var. (govgan). (**yalğının yaluğa gərəksini var**: insanın insana ehtiyacı var).

Gündüzün uçamayan sinek, gece ayrana düşermiş. Bir işte tecrube kazanamayan insan iş yapmaya kalkışırsa büyük hatalar yapar. İşi ağzına yüzüne bulaştırır. (Bayram Özdemir).

gündüzüz düz sözlə, duzlu üzlə açılsın. (uğurlu günlük arzılamaq).

günə baxan gül olsan, günün sənin bulutlar, könül düşsə ayrığa, dodaq deyər göz ağlar. (**ayrığa**: ayrılığa).

günə baxan gül olsan, günün sənin bulutlar, könül düşsə ayrığa, dodaq deyər göz ağlar. (**ayrığa**: ayrılığa).

günə dik baxan, kor olur gözdən. (böyügün üzünə duran, alçaq durur).

günəş bir olsada, hamıya düşər.

günəş çıxsa ulduz gözə görünməz.

günəş düşər topraq qızar, tuxum cücər, bitgi olar. (**cücər: cücərər**).

günəş hərkəsin üzərinə əşit doğar, bırak biri gül qoxar, biri pox qoxar.

günəş palçıqla sıvanmaz.

günəş umutla doğmaz, gürəşlə umut doğulur. (**gürəş**: mubarizə).

günəş, eyləməz göydə yendək (həmişəlik) duraq.

günəşdə doğan umut, qar kimi ərir, güləşlə doğan, dağ kimi qalır. (**günəşdə**: bolluqda. dinclikdə. ucuzliqda). (**güləşlə**: döğüşlə, mubarizə ilə).

günəşə ən yaxın uclar, qarlı qalar buz bağlar. (**uclar**: zirvələr).

günəşə qarşı işəmək. (sayqısızlıq işləmək).

günəşi danıb çırağa and içir.

günəşi tanımaq üçün çırağ gərəkməz.

günki keçdi oda oldu bir ölü, sən doğan günlə doğul, olma ölü.

günlə doğan, günlə batar.

günlər keçər ayrıq çanı çalınar, köşlər köçə qalxınar. (**ayrıq**: ayrılma. vida). (**çanı**: zəngi).

günləri ötür sən yaşa, yarın gələr bir düşün.. (**günləri** : keçmişi).

günləri yoş ötəver, söz vermisən tutaver, yolun əğri qaydaver, sevdin qulluq edəver, çağun bitər, günün keçər, iş yapmağın yetinməz.. (**yoş:** çağ. xoş. şad). (**iş yapmağın yetinməz**: yükün baçağa, mənzilə çatmaz)..

günlü günlüyü qısqanmaz. (**günlü**. xoşbəx). (günlülər ürəyi böyük olar).

günlük çıxırsan yola, neçə günlük bul azuq.

günlük işə baxma. daiymi qalacağ işə bax!: günümlügə qarama, dibinligin qara: günümdügün qaraba, tübölügün qara:.

günlük işə baxma. daiymi qalacağ işə bax!: günümlügə qarama, dibinligin qara: günümdügün qaraba, tübölügün qara :.

günlülük sözə sığmaz, yaşama sığır. (**günlülük** : mutluluq).

günlünün günü olmaz, günləməzsə günü olmaz.

günsüz, gün açılmaz.

güntaylığın haçarı gizli qalır ürəkdə. (**güntaylığın**: xoşbəxliyin).

günü bilgəlik, yolu yörgəlik alar. (yaşamı hikmət bilməlik qurar, yolu yeriyən ayaq bitirər).

günü bilgəlik, yolu yörgəlik alar. (yaşamı hikmət bilməlik qurar, yolu yeriyən ayaq bitirər).

günü bıraxıb, aya yalvarma.

günü çatar, hirsin yatar, sıran gələr oğun tavına. (**oğun: oğunma.** büşmançılığa. peşmançılığa). (**tavına**: sırava. novbətivə).

günü çatar, hirsin yatar, sıran gələr oğun tavına. (**oğun: oğunma.** büşmançılığa. peşmançılığa). (**tavına**: sırava. novbətivə).

günü gəlir yarın dönər, dadlı yemək ağuya çönər.

günü günləməsin, neynəsin.

günü günüləməsə, günü keçməz.

günü günüləməsin, neynəsin.

günü günüyə gün verməz, gönü gönüyə nə verməz. (**könükmək**. **könmək**: sevmək). (**gönü**: məhbub).

günü hələ batmamış, tərə malın satmamış, son ərikə çatmamış, ölüm qapar gözləməz. (**ərikə**: mənzilə).

günü hələ batmamış, tərə malın satmamış, son ərikə çatmamış, ölüm qapar gözləməz. (**ərikə**:mənzilə).

günü ilə, gün yoxdur.

günü kürk dəğişsədə günüdür.

günü sərçə açar, qarqa qapar.

günü var, günü yoxdu.

günü, günüləmədən, günü keçməz.

günüm yoxdur, günüm var.

günümdügün qaraba, tübölügün qara : günümlügə qarama, dibinligin qara.

günlük işə baxma. daiymi qalacağ işə bax!.

günümdügün qaraba, tübölügün qara: günümlügə qarama, dibinligin qara.

günlük işə baxma. daiymi qalacağ işə bax!.

günün batmağın görən kimsə, çıxdığına inanar.

günün belə doğmadan, sən qünlüyün yazışqıl. (**yazışqıl**: pıroqlamla).

günün çıxmağına gecəni tanıq (şahid) çək.

günün çıxmasın görmək, batmasına göz yummaq kahıllıqdır. (**kahıllıqdır**: cahıllıqdır).

günün göylər keçirsin, ağramın yer götürsün. {birinə tanığsız yaşam arzusu. **(tanığsız**: minnətsiz)}.

günün xoş keçirmiyən, ilin xoş keçirdənmməz.

günün keçir xoş, dünya düybü boş.

günün keçir xoş, dünya düybü boş.

günün ölsün əlində qalsın, özün ölsən elində qalsın.

günün sənə "günü" olsa, sən "günüvə", "günü" olma.

gününən kürk dəğişir.

gününsə çətin, basırsa geyin, çalış irəli, yar səninlədi. (**yar**: kömək).

günüsü ilə, günü yoxdur. (günü ilə, gün yoxdur).

günüvə gürəş, yarına quraş. (**quraş**: məlzumat gör. hazırlaş).

günüvə inan, kəndivə güvən. (yetişər gülün, tapun olsa dərirsin, sağ olsun

başın, gəlsə başa çəkirsin. (**tapun**: baxtın). (yaşamı tələsdirmə. sən başardığın gör, çalış işi günündə bitir. olsun ki yarın buralı deyilsin. hamı yarın qonaq çağrıla bilir).

günüvü işlə, yarını keşlə. **(keşlə**. keşiklə. gözlə). (**keşləmək**: keşikdə durmaq).

(keçən günün aldışların doğrultmağa urunma, duran günün, qalan günün doğruluğun unutma). (**aldışların**: xətaların). (**urunma**: çalışma).

günüvü yaşa!. dünüvü daşla, yenidən başla, ertinin başqa. (**ertinin**: yarının).

günüz gedmir gözümdən, gecə çıxmır düşümdən.

günüz gedmir gözümdən, gecə çıxmır düşümdən.

günəşi doğduğu kimi, sevgini olduğu kimi tanıqla. (**tanıqla**: alıqıla. qəbul el).

gürəş apar günün üçün, yarış qılın gücün üçün.

gürəşçin atan olursada, yıx. (**gürəşçin**: meydanda olan rəqibin).

gürəşdə güclü, yarışda yüvrək. (**yüvrək**: **yevrək.** qıvraq).

gürəşdi verən dadı yaşama, gürəş yoxsa boşun yaşama.

gürəşdi verir yaşama dadı, gürəşdi verir yaşam anlamı. (**gürəş**: damar göstərmə. qeyrət edmə. çabama).

gürəşlə doğan umut, əkilsə onar, tikilsə bitər, günəşədə yatar. (**gürəş**: mubarizə).

gürəşlə doğur umut, qalanı unut!.

gürəşsiz doğmamış umut. (**gürəş**: mubarizə).

gütdüyüm domuzu mənə öğrətmə. (mənim işimi, mənə öğrətmə).

gütrəmədiyin daşı öpdə yerində dursun.

güvdən oğul, küldən təpə olunmaz. (güvdən: güveydən. kürəkəndən).

Güvenme (inanma) dostuna, saman doldurur postuna. Saman, biçilmiş ekin saplarının işlenmiş hali. Post, Kılllı ve yünlü işlenmiş deri. Senin dostunum diyen öyle insanlar vardır ki, senin fırsatını bulursa, sana en büyük kötülüğü de yapabilir. (Bayram Özdemir).

güveydən oğul, gəlindən qız olmaz. (qızım demə gəlinsə, oğlum demə güveysə).

güvən güvəndən su içər, qamış boğundan.

güvən işdə görülər, gül baxcada.

güvən qılsan özgəyə, əlin qalar xınada. (güvən qılsan başqıya, əlin qoyar xınada).

güvən yalana inanmamaq, umut yalanı danmaqdır!.

güvən yoxsa dos tanışlıq nəyivə.

güvənc bir varlıq, içində əkib içində becət.

güvənc bir varlıq, içində əkib içində becət.

güvənc çoxaldıqca qıvanc çoxalar. (**qıvanc** : sevinc).

güvənc çoxaldıqca qıvanc çoxalar. (**qıvanc**: sevinc).

güvənc içə baxır, dışa yox. (dilənçilikdə güvənc olmaz).

güvənc umud daddırar, umud umuq doğdurar. (**umuq**: intizar).

güvənc, sevinc, inananc. bu üçü güc (zor) tanımaz.

güvəncdə bolluq, sevincdə çoxluq arama.

güvəncdə bolluq, sevincdə çoxluq arama.

güvəncdən sevgi yaranır, sevgidən inam aylanır. (**aylanır**: doğur. ışığ üzü görür).

güvəncəsiz yaşamda, sevgi doğmaz gün çıxmaz.

güvəncəsiz yaşamda, sevgi doğmaz gün çıxmaz.

güvəncəyin kəndi özən çoxalatsan, bəkləntilər özgələrdən qalxınar..

güvəncəyin kəndi özən çoxalatsan, bəkləntilər özgələrdən qalxınar..

güvənci iki əllə, bir göyə qalan, çörəyin dalıdan, qalanın aradan tapar.

(**güvənci** inancı. sığıncı).

güvənci qorumaq üçün, yalan demə, yalana batmamaq üçün, güvən.

güvənçilik, gümançılıq inamçılıqdan doğar.

güvəndinsə gümanıvı bıraxma. (**gümanıvı**: ehtimalı).

güvəndiyi birinə, degilməqıl heç yalan, yalançının birinə, günvənməqıl heç çağan.

güvəndiyi birinə, degilməqıl heç yalan, yalançının birinə, günvənməqıl heç çağan.

güvəndiyin kişi, ölür, dayandığın ağac, çürür.

güvənə itirsə inanc, dəlirər dəli, o insan.

güvənən özgüyə çox tez sınacaq, güvənin olsun özənki ölənə dək duracaq. (**özənki : özüvəki**).

güvənib yatma, güvənib oyan.

güvənilməz sözünə sarsaq əgər versədə söz, boş küzə tez büdürər dursa qırağında damın.

güvənilməz sözünə sarsaq əgər versədə söz, boş küzə tez büdürər dursa qırağında damın.

güvənim yox daha birdə qayıda çıxmış olan can tənimə.

güvənli bilən, bildiyin işlər.

güvənli ol kəndivə, olan gücün bitməsin, sən yiyə ol kəndivə, yağun baxıb gülməsin. (**yağun**: düşmanın).

güvənmə dur bardan ötər bu evrən. (e'tibar edməkdən çəkin, bu dünya hər nəyə son qoyar).

güvənmə elə, dayanma duvara, biri gəvşər, biri çökər, sımsıkı sarıl kəndivə, güclü güvən kəndivə.

güvənmə varlığa, düşərsin darlığa.

güvənməyin gəncə qana, inana, örsəv dənək, aştal gərək görgəvük. (**örsəv**. **dənək**. **aştal):** təcrübə) (**görgəvük**: təcrübə edmə. əməli iş). (gənc qulaq salmaqla öğrəşməz).

güvənmiyən inanmaz, inanmıyan alsınmaz. (**alsınmaz**: yahalmaz. aldanmaz). (inanan alsına bilir). (inanan qayrıla bilir). {e'timad edən, dönüklüyə yem ola bilir. (**dönüklüyə:** xəyanətə)}. {inanan kimsə dönüklükdən qornalmaz). (**qornalmaz**: məhfuz qalmaz)}.

güvənmiyən kimsəyə, almaz güvən kimsədən.

güvənsən varlığa düşərsən darlığa.

güvənsiz, sevinmək güc.

güvənsizcə yaşamdan, güvənli bir son dilə.

güvənsizcə yaşamdan, güvənli bir son dilə.

güz (payız) cücəsindən, xoruz çıxmaz.

güz çağınu allı gedər bağları, qarqa oxur, yel töküdər dalları. (**allı**: bəzəkli. alvan). (**allı gedər bağları**: bağlar al alvan bəzənər). (yel töküdər dalları: dalları, budaqları lütlədər). -**allı duvaqlı**: bəzəkli örtgülü.

güz gəlirkən yapraq küyüb közəyər, yel əsdikcə xəzil xəzil sürünər, gün qısalar gecə uzun görünər. (**küyüb**: yanıb).

güz gəlişi yazın bəlgürü. (güz gəlişi yaydan bəllidir).

güz gəliyi yazın bəlgürü: güz gəlişi yaydan bəllidir.

güz günəşi kəndi üzün göstərir, isti üzün gizlədir. (güz gününə inanma, utanmazdan utanma).

güz gününə inanma, utanmazdan utanma. (güz günəşi kəndi üzün göstərir, isti üzün gizlədir).

güz yağmuru təkcə çiçək açdırmaz, yaz yağmuru minlər çiçək açdırmış.

güzdə kəmişən (quylayan), yazda dərişər.

güzdə kəmişən (quylayan), yazda dərişər.

güzdə kökəlməyən, il boyu arıq qalar.

Güzel bürünür, çirkin görünür. bürünmek, bir şeyle örtünmek sarınmak. Güzeller naz yaparlar, kendine güvendikleri için de herkese

görünmek istemezler. Çirkinde kendine güvenmediği için de herkese görünmek, birini ağına düşürmek ister. (Bayram Özdemir).

güzgü əsiri, güzgüdə qalmış, orda yaşarmış. (inancı gözündə olan).

güzgü ilə danışmaq, anılarla sevinmək, indisindən əl üzüb, yarınları unutmaq.

güzgü önün göstərir.

güzgü şəkil tanıtmış hər kimsəni özünə.

güzgü üzün, yutuğ özün göstərir. (**yutuğ**: vicdan).

güzgüdə yaşam gülür üzüvə, yumsana gözün qayıt özüvə.

güzgüdə, hər nəyin tərsi görünür.

güzgüm olmuşdu mənə düzgü yarım, ağlasam ağlayacaq, mən gülüsəm olda mənilə güləcək. (**düzgü**: sadiq).

güzgüsü işdir kişinin. **(işdir:** əsərdir. izdir).

güzgüyə baxan özgəsin görməz.

güzgüyə baxan özünü görər.

güzgüyə çox baxanın kordu gözü özgələrə.

güzgüyə, düz bax!.

içlənməsə işlənməz. (açılınmadan, məfhum olunmadan işlənilməsi güc olur).

içlik olsa at yağurmaz. **(içlik**: yəhər altı. yağur keçə). (**yağurmaz**: sürtülüb, əzilb inciməz, yaralanmaz).

içməklini vur, yalınqac qorxsun. (**içməklini**: qalın içili geyim).

içməz su gözüm birdə gedən yar görnə.

içsitərmiş içgi, içəni, itsitərmiş bilöv, biçəni. **(içsitmək. içdirtmək.** içməyə əğimi, meyli artırtmaq). (içgi içildikcən yanqı gətirir, bilöv daşı kəsəri (orağı. piçağı) itildər).

içuç deyilen vicdanızı qoruyun. kəndizə güvənin.

idiş çatlağından süzər. (qab sınan yerdən süzər).

igid başı çanağ qan, damar dolu tamır qan. (**tamır**: qayrat. qeyrət). (gəncləri, dəliqanlıları başa düşməli, anlamalıyıq. təki onlarda coşan ürək, çırpan damar olur, böyüklərə doğru yol göstərmək düşür).

igid çün bula aşqilə qərar, onu tutmaq necə yarar (: mümkün olar).

igid dəli ya dolu gərək.

igid ərən, doğma dilin yeğginər. **(yeğginər:** yeğ tutar. tərcih edər).

igid igidin aynası, igidi tanıdan yoldaşı.

igid işdə, dos darda, uka qızqanda bəlgirür. (**uka**: ağıllı).

igid qoyun qoç adlanar.

İgid odur atdan düşə atlana, İgid odur acılara qatlana. (Araz Gunduz).

igid odur hər toxuya (əzaba) qatlana, kişi odur atdan düşə, adlana.

İgid odur yıxılanda çəm öyrənə. (Araz Gunduz).

igid olsan, ol igid, yaki ona, qulluq ed.

igid özü üçün doğulur, özgələr üçün ölür.

igid sözündən dönməz, aslan, izindən.

igid yavanı (yamanı) bağışladı, yava igidi yox.

igiddə ağıt (ziyan) olmaz, çalğaqda inam.

igidin, soyu sorulmaz.

igidlik ondur, doqquzu qaçmaq, biri aradan çıxmaq.

igidlik ondur, doqquzu qaçmaq, biri aradan çıxmaq. (igitlik ondur, biri güc, doqquzu fənd).

igirmisində gözəl, otuzunda güclü, qırxında uslu ağıllı, əllisində varlı olmayandan heç nə çıxmaz.

igit altında, at bəllənir. (igidin ad almağı, öz əlində, atın ki, igid əlində). (igit əlində, at ad qazanır, igid öz əlilə).

igit gürəşdə, dos darlıqda, aşqın acrıqda. (**igit**: gənc. güclü). (**darlıqda: darıtlıqda**: giriftarlıqda). (aşqın: pişmiş. təcrübəli). (**acrıqda**: acrqlananda. qəzəbdə).

igit igitdən umar. (kişi kişidən gözlər. kişi kişidən söz edər. kişi kişiyə əl uzar, yağunun belin qırar).

igit olsun, erkək dişi dərk edməz. (**dərk edməz**: fərq edməz).

igit savaşda, qarrı gəngəşdə. (**qarrı**: yaşlı). (**gəngəşdə**: danışıb məsləhət almaqda).

igit üçün, biləkdə gərək, ürəkdə gərək, bilikdə gərək.

igitdə yatsa baxdı, tüys doğanı dış bolar, igitdə gülsə baxdı, yox doğanı beş bolar. (**tüys**: düz. çin. həqiqi). (**doğanı**: tanışı. qardaşı) (**dış bolar**: yoxa çıxar).

igitlə gəzgin, bafalı olur, yavıya yoldaş olan xar olur.

igitlərdə dalqa keçməz baş olmaz. (**dalqa**: xiyal. xəyal. xiyalat).

igitligin yolu bir, yavuzluğa min yol var!. **(Igitligin**: doğruluğun).

igitlikdən qocalığa güc saxla, bayıqlığdan yoxsulluğa pul saxla, savaşdınsa barışmağa üz saxla. (**bayıqlığdan**: zəginlikdən).

igitlikdən simgələr, -yozbaşlığa girişməz, özgələrə qarışmaz, yavlaqlarla yarışmaz, yaşab durub, barın solmaz. **(yozbaşlıq**: darqaşayıtlıq). (**yavlaq**: pozuq. namussuz) (barın: heç çağ). (yaramazlarla al verə girməz, böylə huşlu başlı dolanıb, genə yaşamağın qorur).

iğən (çox) dadlı udular, iğən acı atılar.

iğən aclıq ola, artar savaş, el xarab ola dəli oynada baş. (**iğən**: çox).

iğən dadlı udular, iğən acı atılar. (**iğən**: çox).

iğən ox kimi yüksək uçma qəfil, ki toprağdır sənə sonuncu tutraq. (**iğən**: çox).

iğid dedi candan, zəngin dedi maldan etdi.

iğid dedi candan, zəngin dedi maldan etdi.

iğlabağan balağa əmcək yox. (ağlamayan cocuğa məmə yox).

İğneyi kendine batır, sonra çuvaldızı ele, Kişiler incitici davranışların etkisini, ilk önce kendi üzerindeki etkisini düşünmeli, daha sonra

bunun daha ağırını başkalarına yapıp ve yapmamaya karar vermelidir. (Bayram Özdemir).

iğnə atsan yerə düşməz, tünlüyündən gözü seçməz.

iğnə çuvalda, dəvə palazda gizlənməz.

iğnə hara, sap ora.

iğnə harda sapda orda.

iğnə həsrəti dəvə itrətir (: itirdir).

iğnə həsrəti, dəvə batıdar (itirdər). {iğnə dək həsrət dəvə itrətir (itirdir)}.

iğnə ilə quyu qazılmaz, köklənmədən saz çalınmaz.

iğnə iplik sap üsgük. (hər gərək olan yerdə deyilir). (hərnə yasındır, hazırdır).

iğnə oğurlayan, öküzdə oğurlar.

iğnə sapladın, düymələ ucun, sonra peşman olmamaq uçun (üçün).

iğnə satan (salan), tikəndən çox olur.

iğnə sofalsız, bilik biləksiz olmasın. (**sofalsız:** ötüksüz. gözsüz. deşiksiz).

(biləksiz: gücsüz).

iğnə tikər, tikən sökər.

iğnə torbada qalmaz.

iğnə torbada qalmaz.

iğnə torbada qalmaz. (dan atarkən sökülər qarnı bu boylu gecənin).

iğnə yataxda gizlənməz.

iğnə yataxda gizlənməz: iynəylə çuval kimidilər.

iğnəçilər məhləsində, iğnə satmazlar.

iğnəni axdaran, dəvə itirər. (iynə həsrəti dəvə itirdər).

iğnəylə çuval kimi (birbirinə qarşıt, icəşik, zidd).

iğnəylə quyu qazır, sözdə deyəndə çaşır.

İhtiyarın düşkünü (eşkıyanın düşkünü) beyaz giyer kış günü, Yaşlı insanlar ve eşkıyanın yaşlısı zayıfı hayatın mihnetlerine dayanamaz, ölüme hazırlıklı olur. (Bayram Özdemir).

iki ağız bir olcaq, bir ağız küt gəlir. (**küt gəlir:** bacaracaqsız olur. qısa gəlir).

iki ağız birgəlsə, göy üzdəkin endirər, altı ağız algəlsə, əlindəkin aldırır. (**birgəlsə**: səsbir olsa). (**algəlsə**: ixtilaflı olsa).

iki arslan bir dəriyə sığmaz.

İki arslan bir posta sığmaz. Bir ülkede, bir toplumda iki baş (iki lider) olmaz, birisi ötekini yok eder. (Bayram Özdemir).

iki ayağ bir başmağa girməz.

iki ayağ bir qonucqa tıxanmaz. (iki ayağ bir qabuca soxulmaz). (olmasın işdə dirənmə).

iki ayağ bir quyuya sallanmaz, yumurtalar bir səbətə yığılmaz.

iki ayaq bir başmağa girməz, amma girdirəllər.

iki ayaq sığmaz, bir başmağa təpincə. (bir başmağa, iki ayaq sığmaz).

(sığmaz ayaq iki olsa, bir başmağın tayına).

iki baş, bir başdan üstündür.

iki başdan içmiş suyun sevən ürək.

iki çeşit yaşarız. -qaranlıqda oyanıq, aydınlıqda uykulu. (**uykulu**: uyanıq).

(qaranlıqda oyanıq, aydınlıqda uyanıq).

iki çetik, bir arslana tapdurur. (**çetik**. **çetük**. **çitik**. **ketek**. **ketik**. **kedi**: pişik. mişik). (**tapdurur: tapdur**: əşdir. bərabərdir). (iki çetik bir olsa, bir arslana tapdurur).

iki dillik canın bəlası, dilin qadası. dünya belə tanımaz kimki doğula bilsin iki anadan.

iki dillilik dibsiz quyu, yoxdur suyu.

iki dovşan bir oxula vurulmaz.

iki dovşan qovanın yoxdu karı, birisin tutsada qaçrar obirin.

iki ev bir evə sığmaz.

iki evi bir elədik, düyünü batman yarım.

iki evrən çulqamış bizi, biri varlıq, biri içlik, varlığa günlə göz yolağuc, içliyə yalnız könül durur qılavuz.

iki evrən çulqamış bizi, biri varlıq, biri içlik, varlığa günlə göz yolağuc, içliyə yalnız könül durur qılavuz.

iki əl birikib, üzü yuğar.

iki əl, bir baş üçündür.

iki əşlinin qulağı, eşək minən ayağı dinc almaz.

iki fındıq bir qozu qırar.

iki fındıq bir olsa bir qozun başın qırar.

iki fındıq bir olsa bir qozun başın qırar.

iki göz dünyanı görür, bir birin yox.

iki göz hamını görər, birbirinə nisgilli ölər.

iki göz, birbiriylə yola getməzdi, aralarında burun olmasaydı.

iki günlük ömrü olan üç gün yaşamaz.

iki xan bir ölkəyə, iki qılınc, bir qına sığmaz.

iki xoca bir kişi, bir xoca yarım kişi.

iki iğnə bir ipdə, iş görənməz bir yerdə.

iki iğnə bir sapilə saplanmaz.

iki it başına boğuşar, qurd görcək barışar. (**başına:** təbii halətdə).

İki karpuz bir kultuğa sığmaz, Bir kimse aynı anda iki önemli işin üstesinden gelemez. (Bayram Özdemir).

iki könül bir olsa, kimin ona sözü var. {könüldəşlər elçi aramaz). (aramaz: gəzməz)}. (könüldəşə elçi gərəkməz) (**elçi**: arxan. vasitə).

iki könül bir olsa, tez tapar, dalda yeri.

iki könül bir olsa, yollar qıyın görünməz. (**qıyın**: zor).

iki könül bir olunca, samanlıq seyrangah olur.

iki könül birisə, yollar qıyındır demə. (**qıyındır**: zordu).

iki qılıc, bir qına sığmaz.

iki qoç başı, bir aşıcda pişməz.

İki qoç toslaşlaşar, **qurdun qarnı acığar**. (**toslaşlaşmaq**: tutuşmaq. çarpışmaq. savaşmaq. burnuzlaşmaq). (iç savaşda, qayın ölkələr toy tutar). (**qayın ölkələr**: rəqib ölkələr. yad ölkələr).

iki qoç uruşur, keçinin qıçı qırılır.

iki qoçınqar başı, bir aşıcda pişməz.

iki qulağdan çox eşidən, bir dilinən az danışar.

iki qulaq bircə dil, iki dinlə bir söylə. (**söylə**: dillə).

iki nərsə sürür sürünü, çomaqla para. (**sürü**: **köpçülük**: cəmiyyət. camiə).

iki nərsəni unutma yaşa, öz qafanda düşündüyün, tanışlarlar danışdığın. iki nərsəni unutma yaşa, təkliyində düşündüyün, çoxluğunda danışdığın.

iki nərsəni unutma yaşa, təkliyində düşündüyün, çoxluğunda danışdığın. (iki nərsəni unutma yaşa, öz qafanda düşündüyün, tanışlarlar danışdığın).

iki nəyi unutma. – yolda raslar kavşaqlar, ardan yürən yavşaqlar. (**kavşaqlar: qavşaqlar**: boş danışanlar. gəvəzələr. çənəboşlar). (**yavşaqlar**: yava konuşanlar. yavağızlar. pisağızlar. yamanağızlar. ağzı pislər, yavalar).

iki nərsə heç kiməsə yad olmaz, birincisi qaranlıq, ikiincisi yalnızlıq.

iki olub birə dəğməz, gözlü olub kora dəğməz.

iki olursa gözün, duşünməzsən heç birin, itirmişsənsə birin, qayğı tutar o birin.

iki olursun birlikdə danış, tək olursun börkünlə danış.

iki onbeş, bir otuz.

iki oylu, iki evli.

iki pox arasında qalmaq. (heç yaxcı seçim bulamamaq).

iki sanı düğü verdiyi pay, əkin vermiş dağlara tay. (**sanı**: dənə). (ağırsama diləki: şükr edmə zikri).

iki sevgi qovuşursa, açar güllər, iki sevgi qopuşursa, solar qalmaz.

iki sırtlan bir sırtlanın sırtın sökər!.

iki söyək iki sevək. –biri sığınaq, atana qoucağı, ikincisi sevgi, birinci sığınmalı, ikincisi sevməli.

iki şey var əsgilməyir, biri yaxcılıq, biri pislik.

iki üzdən savaşma, bir üzü savaşa qoy, o birin barışa.

iki üzlü savaşma – bir üzü savaşa qoy - o bir üzü barışa.

iki üzlü yaşamaq, beş üzlü ölüm.

iki yaxın uruşdular, özgələrə yem oldular.

iki yaxın vuruşmuş, ötgələrə yem olmuş. (**ötgələrə: özgələrə**).

iki yanı su, susuzluqdan ölür.

iki yayın başın tutan alava qalır. (**alava: avara**).

iki yoldaş dos qalmış, biri ata çatınca.

ikisin yel aldı, üçün yolda saldı. (**salmaq:.** itirmək).

ikisin yel aldı, üçün yolda saldı. (**salmaq:**. itirmək).

ikit**,** buyur. **(ikit**: təfrəqə sal). {ayır buyur. (ayrat buyrat). (**ayrat: ayır**: təfrəqə sal). (**buyrat**: buyur. buyruq sür. hikumət ed)}. {bulat, durut. (bulandır, istədiyini qalxıt). (aranı qarışdır sözüvü yerit)}. {bölüt burut). **(burut:** hükm ed)}.

ikitlərə yol vermə, alağuza söz vermə. (**ikitlərə**: kitozlara. iki üzlülərə). (**alağuza**: ağzı açıq).

ikiyüzlü hara altıyüzlü ora. (yaman işlər yamanlıqla ölçülər) (yaman işdə yaxşılığa yer qalmaz).

ikki qaşa ikki dos, yanma yan duruşadı, ağlasa, birgə ağlarş, birgəlikdə gülüşədi. (**tapmaca)**. **(göz**).

ikki qoyannı qovan, heçdə birin tutmamış. (qoyannı: dovşanı).

iküç il sonra yeni evliliklər. -ayrışıq yollar, dəğişik qollar, ağzı ayrı, sözü qayrı, könlü parçalı, təni ayralı, bu nasıl yaşam, mən buna çaşam.

iqit qokusundan qoçar.

iqlamaq: qorxunu götürmək işi.

il gün ötür anılar yaşır.

ilan adamın topuğunu, adam ilanın başın çalar.

ilan başı ağrısa, yol ortasında yatar. (ilan başı ağrımış, yol ortasında yatmış).

İlan çalan yatar, ac yatmaz. (Ara Gündüz).

ilan çalsa dərman görsə sağalar, dil çalısa ağrısı can ağrıdır.

ilan dışı yumuş, içi acı.

ilan doğrulmaz, içözü çalmaqdır, bırak yağı itən deyil, qırmaqla bitən deyil, yağı ilə yollaşmalıyıq, vurduğu itgilərdən qaçınmalıyıq. (**içözü:** fitrəti)}. {ilanı başdan vur, yağını qol qanatdan). (yağunu arsıllat, zərərsizlət)}.

ilan don dəğişər, qılığ yox.

ilan girsə qamış içrə doğrular.

ilan gözəlliyi dərisində, kişinin ki ürəyindədir.

ilan hər yana əğri gedsədə, öz yuvasına düz gedər.

ilan hər yana qıvrıq gedsədə, öz yuvasına düz gedər. (qıyşıq güvdən, tüstü düz çıxar). (**güvdən: gühdən**). (oldağın gərəyindən qaçmaq olmaz). (**oldağın**: vaqeiyyətin. fəktin).

ilan içi ağur, üzü yağur.

ilan izin, ilan yaxcı bilər.

ilan kəndi əğrisin bilməz, dəvə boynun əğri deyər.

ilan kəndi əğrisin bilməz, dəvə, boynun əğridir dər (diyər).

ilan kəndi əğrisin bilməz, dəvəyə, boynun əğri dər. (deyər).

ilan kəndi əğrisin bilməz, dəviyə boynun əğri deyər..

ilan köynək dəğişər, dişi yerində qalar.

ilan qabığ dəğişər, iç yox.

ilan qoğsa yola qaç, dəvə qoğsa dağa.

ilan qoğsa yola qaç, dəvə qoğsa dağa.

ilan quyruqundan tutulmaz.

ilan öləndə düzələr.

ilan öz ağısından ölməz, ilan öz əğrisin görməz.

ilan öz əğrisin görməz.

ilan sürünsün, balasıda dalıncan. (qoy rədd olsun).

ilan yalpız adlamaz, qartal sinək avlamaz. (**adlamaz**: adın dilə çəkməz).

ilan yarpızdan qaçar, qança barsa, yarpız ütrü gələr. (**ütrü**: tərəfə). (**qança barsa** : hara gedsə).

ilan yarpızdan qaçar, qança barsa, yarpız ütrü gələr. (**ütrü**: tərəfə). (**qança barsa**: hara gedsə).

ilan yarpuzdan qaçar, hara gedsə, yarpuz ütrü (qabağına) çıxar.

ilan yarpuzdan qaçar, qança barsa yarpuz ötrü qaçar. (ilanın yarpızdan acığı gələr, hara gedsə onla üzgələr).

ilan yeriməz, sıçrar.

ilana sütdə içirsən ağısı (zəhri) azalmaz.

ilana yumşaq deyib əl vurma.

ilanda ayaq, xocada çörək arama.

ilandan qaçıb yuvasına düşmək. (ilan yuvasına).

ilandırsa əz başın, yavadırsa at daşın.

ilandursa sorma adun, əzədur başın, yamandursa sorma dilin, atadur daşın.

ilanı başdan vur, yağını qol qanatdan. (yağunu arsıllat, zərərsizlət). {ilan doğrulmaz, içözü çalmaqdır, bırak yağı itən deyil, qırmaqla bitən deyil, yağı ilə yollaşmalıyıq, vurduğu itgilərdən qaçınmalıyıq. (**içözü:** fitrəti)}.

ilanı başından tutarlar.

ilanı qarğa üçün öldürmə.

İlanı yaralayıb buraxmazlar.

ilanın ayağın görsən, xocanın ağalığın görərsən. (**ağalıq**: kəramət).

ilanın çölü (dışı) yumşaq, içi ağılı.

ilanın quyruğun bassan, başı qancığar. (**qancığmaq**: qabarmaq. qabazaqlamaq. qalxmaq.).

ilanın quyruğun bassan, başı qancığar. (**qancığmaq**: qabarmaq. qabazaqlamaq. qalxmaq.).

ıldırım bir kərə çalar.

ıldırım bir vursada, min şaxar.

ıldız yerdə, ulduz göydə qalsa yol caymaz. (**ıldız**: kök).

ilə bilmədin, ilənmə!. (bacaranmadın, qarğanma, küfr demə).

ilərdə görməyə sana gəlməz görəcəklər olurkən, geridə bıraxdıqlarımıza baxmağa nə gərək.

iləri gedən axır ki, bir yerə çatacaq.

ilgisiz sanmışıdınsa baxışım, düzülür dalba dala anba anı.

ılı sözlə ilan inindən çıxar, iri sözlə kişi dinindən çıxar. (- **ılı: ılıq**. - **iri**: gobud. - **dinindən**: yolundan).

ılı sözlə ılan inindən çıxar, ulu sözlə kişi dinindən (yolundan). (**ılı**: ılıq. yumşaq). (**ulu**: iri. yekə. gobud).

ilik qoxar, sümük oğar. (ilik (sümüyün içəyi, cirgəsi) qoxuyar, iylənər, sümük qalsa oğunar, pukalar).

ilik qoxar, sümük oğar. (ilik (sümüyün içəyi, cirgəsi) qoxuyar, iylənər, sümük qalsa oğunar, pukalar).

ilik oyla, geyin söylə. (**ilik**: ilkin).

ilik yürüşər, bilik olan yerdə. (başarcağ güllənər, bilik var olan yerdə).

ilik, bilik yartısı, dilək, ilik yartısı. (**ilik**: başarıq). (**bilik**: ilim. tanışlıq). (**yartısı**: yarısı). (**dilək**: istəş). (başarıqsız, başarma, iqdam gücü olmadan, bilik yartıcan olur, dilək gücü olmayınca, başarmaq, qılmaq uğru (şansı), yarı kəsir). (bilik dolmayına, ilik olmayınca, dilək gəlməyincə, nə yapayız, yapabiləriz).

ılıq aş odlu qazan. (içinə görə, kəndini artıq qızqın göstərən). (kəndini kəndliyindən (olduğundan) artın sıcaq, qızqın göstərən).

ılıq ılıq söyləsən, ilan ninindən çıxar, kəttə kəttə gəpirsən, ilan əlindən qaçar. (ılıq ılıq dil ilə, ilan ninindən çıxar).

ılıq sözlə ılan inindən çıxar, ulu sözlə kişi dinindən çıxır. (**ılı: ılıq**).

ilıq sümük sındırmaz, soyuq canı dirdirməz.

ilim bilim, dil tanımaz, el bilməz.

ilim doğar bilimdən. (**ilim**: ərdəm. tovan. güc. başarcaq).

ilim qazan, satsan pulun, saxlasan qulun.

ilin olmaz dadşım bil yenisi, tinin olsun yenilərdən yenisi. (**tin**: ruh. nəfs).

ilin sevən yurdun sevir, yurdun sevən, atanasın.

ilin yaxcısı, yazdan bəllidir.

ilişməyi xoşlamır, ilişmişsə boşlamır. (**ilişmək:** nəqd edmək. tənqid edmək. bənd eləmək).

ilk gərək rahatulhulqum yeyəsən, ta sonunda "alhamdu lullah" deyəsən.

ilk qarın sonğ yarın.

ilk ozal böylə deyildik biz. -haçansa sevirdik birbirimizi, bölməmişdi ikiyə ayrılıq bizi, ısınıb qızırdıq soluq soluğa, oxşayan sözümüz, oxşayırdı qulağmızı. (**ilk ozal**: ilk əzəl).

ilk unutan ən mutlu.

ilk unutan ən mutlu.

İlk vuran okçudur, İşin ehli olan, hızlı hareket eden amacına önceden ulaşır. (Bayram Özdemir).

ilkə sevgim yaramadı yaşama, evrənim döndü başqa aşama. (**ilkə**: birinci) (**aşama**: mərhələyə).

ilkə sevgim yaramadı yaşama, evrənim döndü başqa aşama. (**ilkə**: birinci) (**aşama**: mərhələyə).

ilkələrə dönüklük, tanıdığın danmaqdır. (**ilkələrə**: pirənsiblərə). (**tanıdığın**: qəbul etdigin. inandığın).

ilki sonu gürəşdi olum, inanılmaz acıdır ölüm.

ilki yaşanmadan sonğu yaşanmır. (hər nəyin başlanqıcı var). (**ilki**: başlanqıcı). (**sonğu**: sorası).

ilkin atdım bilməyə, bilməzliqizni bilməyizdən başlayar.

ilkin dilək, yardım olmuş özgüyə, qılanmadın, savul qaıraq qırma onun könlünü!.

ilkin düşün sonğın danış. (**sonğın**: sonra).

ilkin düşün sonğın danış. (**sonğın**: sonra).

ilkin eşək sürən at minsə, özün bilməz, hovalanıb, göt atar.

ilkin görüş, sonra, soruş.

ilkin gündənki olmuş, duraqsızlıqdı durmuş. (**duraqsızlıqdı**: qərarsızlıqdı). (**durmuş**: yaşam).

ilkin iş, sondan diş.

ilkin qulaq sonra sıra ağızda.

ilkin oylan geyin söylən. (**oylan**: düşün). (**geyin**: sonra).

ilkin oylan, sonra toylan. (əvvəl düşün, sonra toya, yığvaya qarış).

ilkin ozalı böylə yazılmamışdı, yol yola qovuşdu, yoluğ uzaşdı. (**yoluğ**: səfər) (ilk başdan, əzəl başdan böylə yazılmamışdı, yol yla qarışdı, səfər uzuna sürdü.

ilkin özgələri dingələ, sonğ öz sözün aytgələ. (**dingələ**: dinlə) (**aytgələ**: söylə).

ilkin özüm sonra gözüm. (evin yağı təkyə üçün yaxılmaz).

ilkin özünə bax, sonan nökərə qaq. (**qaq**: hirslən. qız). (**sonan**. sondan. geyin).

ilkin özünə geyin özgüyə əl yetir. (**geyin**: sonra).

ilkin sağol, geyin varol.

ilkin seviş dadlı, ilkin qaşıq yağlı gələr.

ilkin seviş dadlı, ilkin qaşıq yağlı gələr.

ilkin yaşam, geyin arzular. (**geyin**: sonra). (yaşamla istəklərin uyqula).

ilkin yol, geyin yoldaş.

ilkin yoldaş, geyin yol.

ilkin, evi doyur, qalsa eşikdə sovur.

ilqar gedsə, edər qalmaz, gözdən düşər , kaça desələr, heçə saymaz.

(**edər qalmaz**: dəğər. qalmaz. dəğərdən, qiymətdən düşər).

ilqar gedsə, edər qalmaz, gözdən düşər , kaça desələr, heçə saymaz.

(**edər qalmaz**: dəğər. qalmaz. dəğərdən, qiymətdən düşər).

ilqarı gözəl olmayanın vurqunu aşiq, veylan gəzibən sürər ömür qarşıma qarşıq.

ilqarlılar utanmış, ilqarsızlar utanmaz.

ilqarsıza vermə sən öz ilqarın.

ilqarsıza vermə sən öz ilqarın.

ilqarsızı yüz sınamış, yüzdə sınmışlar. (**ilqarsızı**: bəfasızı) (yüz kərədə olmamışlar, şikəs yemişlər).

illər aylar günlərilə yaşanır.

illər çəkər qazanaq, bir gün içrə itirək.

illər dönər, ay aylanar, gün keçər.

illər keçər dov dolar. (**dov**: sıra. kəz. devir. novbət). (hamıya sıra gəlir). (hər qapının dəvəsi günündə yatar). (tələsmə, dalın gör). (yaşa ha yaşa, gün gəli başa).

illər ötər, aylar keçər, gün savar, eykuluqdan, yamanlıqda ad qalar.

illər ötmüş, olan köçmüş.

illər son əşlər birbirindən ayrılırsalar, yoldaşlarının ilişgilərinin çoxu yoxlanılmalıdır. çünkü doslara bilər keçmişki deyilik!!.

illər vardır günlərə tay tez keçər, günlər vardır illərə tay gej keçər.

illəri qış qoğalar yaz qarşılar, sevgi doğar.

illik işlə, aylıq xəşlə.

ilmək ilmək toxunur, bir çıpıda sökülür.

ilmək sallam pul allam, ustam qızını allam, ustam qızın verməsə, ilməyi tərsə sallam.

ilmək sallam pul allam, ustam qızını allam, ustam qızın verməsə, ilməyi tərsə sallam.

im bilsə, ər ölməz**. (im:** iki, neçə kişi arsında qoyulan rəmz. geçit, gecə sözü**).**

imam uzaqdısa, imamzadanı unutma.

imanlı adam, odada suyada inanar.

imansız gedir, tumansız gəlir.

inac artqısı ev yıxar. (artıq inac **ev yıxar**). (artıq, aşırı güvənmək eyi değil).

inac ilə özümü, utanc ilə üzümü, əkic ilə sözümü, sözüm ilə işimi uğurladım. (**uğurladım**: düz yola qoydum). (**əkic**: ədəb).

inaq igid könlündə, yəhərlənmiş at yatar. (**inaq**: andaq. inanmış).

inam bilən ursa atdım hər kişi, heç bir çağun qayrada qalmaz işi. (**ursa**: vursa). (**qayrada qalmaq**: gec, yarımçıq, gəlcəyə, qurbətə qalmaq).

inam gedsə, tuman qalmaz.

inam güc yaradır, gücdə inam.

inam gücə dayanır, güc inandırmağa. (gücsüz, inam duramaz, uyqulanamaz).

inam sevməz gerçəyi.

inam yoxsa umud uçar.

inam, sığınsa gücə, könlə sığamaz (könüldən qaçar).

inamı qoru, vermə ələ, inam qalır, köçən bizlər.

inamın gücə sığınmasın, inamın güclü olsun.

inamlara güvən yoxdur, güvənlərə inam.

inamlı el yazıq deyil, kəndivi düşün.

inamlı ol iş tutsan, yeni yollar bulursan.

inamlı ol iş tutsan, yeni yollar bulursan.

inamsız yaşam, tikandan daşam.

inamsız yaşam, tikandan daşam.

inan bu sözlərə, gümandırdı demə. (**gümandırdı:** quşquludur).

inanan beynindən, güvənən könlündən qorx.

inanan beynindən, güvənən könlündən qorx.

inanan ilana dönər. (ilanın ağı bozu olmaz, onu bilən dosd olmaz).

inanan yansada, yanılmasın (aldanmasın)..

inanancsız, dözüm otu bitməmiş.

inananı aldatma, aldatana inanma.

inananı aldatma, aldatana inanma.

inanc başqa yaşam başqa. -çox nəyə inandım yaşayamadım, çoxuna inanmadım yaşadım ama.

inanc başlayında, usluq susar, oyu gidər. (**usluq**: məqulluq).

inanc doğuşu, beyin boğuşu.

inanc girmiş, sanğu bitmiş. (**sanğu**: **sanağ**. oyum. anğaşa. əndişə. fikir).

inanc insanı özündən alıb özgə bir şeyə çevirər.

inanc qalar toxluqda, iman qaçar yoxluğda.

inanc olar könül başın dusdağı.

inanc olsun sevincə, aldanmayaq sevməyə.

inanc olsun sevincə, aldanmayaq sevməyə.

inanc ölümə yaklaşdırır, quşqu yaşama.

inanc umud verir.

inanc umut verir, güvənc mutluluq.

inanc üçün ölmə, inancla yaşa.

inanc, yasanı qurar, yasa, inanc quramaz... **(yasanı:** qanunu).

inanca qapılan sorqu sorağdan geri qalır!.

inancın özə, aldanma üzə, özlər özgərir, üzlər oxşayır. (**özgərir**: dəğişir. oxşamazlar).

inancın özə, aldanma üzə, özlər özgərir, üzlər oxşayır. (**özgərir**: dəğişir. oxşamazlar).

inancınan bağlı biri, yüyənsiz atdı.

inancını alçadan, kəndi əşin küçüldən, alçaqların alçağı.

inancıva güvənsən, düşüncədən qalısan, düşüncədən qalanda, inancıva dalısan.

inancıva güvənsən, düşüncədən qalısan, düşüncədən qalanda, inancıva dalısan.

inancıva güvənsən, düşüncədən qalısan.

inancıva güvənsən, düşüncədən qalısan.

inancıvı səndən başqa alan yox. kəndivə güvən.

inancla qılışların uymasa, çıxar boşa çox şişinmə savlara. (**savlara**: iddialara).

inancla qılışların uymasa, çıxar boşa çox şişinmə savlara. (**savlara**: iddialara).

inancla yalan birgə doğmuş.

inancla yaşayan, onun günü gülər gedir, başla yerir!.

inanclar düşüncənin düşmanı, onu ara araşdırıb sən tanı.

inanclar düşüncənin düşmanı, onu ara araşdırıb sən tanı.

inanclar yapmaz iyi kişini, yapdıqları vurar dışa işini (içini).

inandığım kimi yaranmadım, inandığım kimi yaşıyam.

inandığın daş olsa belə, atılmazsa mənə, keçinməliyəm!.

inandığın görməginə çalışma, gördüyüvü inanmağa çalışqıl.

inandığın kölgələr, səni səndən özgələr.

inandığın sevgi səni kor eylər.

inandığın sevgi səni qul eylər, yaratdığın sevgi səni bay eylər. (**bay**: hakim).

inandınsa güvən, güvəndinsə inan, yer yox ortada oynamağa.

inandırmaq balıq verməkdi,qandırmaq balıq tutmağı oğrətmək!.

inandırmaq balıq verməkdi,qandırmaq balıq tutmağı oğrətmək!.

inandızsa, sorqu sorağdan geri qalmayın!.

inanıb qalma, inanıb dur. (inanıb uyma, inanıb dur).

inanıb qanmaq, qanıb inanmaq.

inanılan yalandan heç nə dadlı tapılmaz.

inanılmıyan düz sözü belə, söyləmə.

inanma, aldanma, tovlanma.

inanmamış kor doğulan ışığa, yalançıda yoxdu işənc doğruqa. (**işənc**: inam).

inanmasaq yalan ayaq tutanmaz.

inanmasan yalana, and bazarı pozular. **(**inanmasan yalana, din bazarı pozular).

inanmasan yalana, and bazarı pozular. **(**inanmasan yalana, din bazarı pozular).

inanmasan yalana, inanc evin yıxılar.

inanmışdıq ölümsüzdür sevgimiz, unutmazdıq iki təniz bir tiniz, şaxda vursa solar gülüz, donar su, qırıq yelkən, sınıq gəmi bir dəniz.

inansan itər səni. inanmasan, nedər səni. (**nedər**: nə edər. nə edidər).

inaş olsa, yenəş olar (inanc olsa, yenənc olar) (**inaş**: inanc) (**yenəş**: yenənc: imkan).

incə cığır yol durur, həp ayrılıq dik durur, könül ilə baş ara, könül hara, baş ora!. (**dik durur**: diçəlir, canlanır).

incə çıxıp yoğuna girmək rahat (qolay), yoğundan incəyə girmək çətin.

incə əğirib sıx toxumaq. (işgə əğirib sıx toxumaq).

incə ələnib sıx toxunub, ağ geydirən ölüm oxunub. (bu evrəni ölçüb biçməyə gəlmədin, köçən yoldur, köndə biz, qaçmaq olmaz köçər yoldan).

incə əliyib, sıx toxuyan.

incə səslə qonuşmaqla, qadındısa qız olmaz.

incə sözlər güvənlik, düşüncənin incəsi dərinlik, incə duyqu mutluluğun qaynağı.

incə tutsan ipivi, dartılalı tez qırılı. (işivi qurğun, bərk, möhkəm tutmalısın. işin yoğunluqlarında qaçırmamalısan).

incə var yarar, incə var yaxar.

incə var yarar, incə var yaxar. (yarar incə, sözdə, yaxar incə, beldə).

incə var yarar, incə var yaxar. (yarar incə, sözdə, yaxar incə, beldə).

incə yeyib yoğun sıçmaq.

incə yoğun seçilsin. **(eyku geyku** ayrılsın). -**eyku geyku**. yaxcı pis. yaxcı yaman. qutuq kötük. incə yoğun. xeyir şərr.

incidirsə sevən sevəni, inanmayın seviş qalıb arada, söğüş səpir kəndi duzun yarada. (**söğüş**: nifrət).

incik kişi acıq qoxar. (həssas olan çevrəsin sancar).

incitdyin ürək, edirsə dilağu, qutarmadı ondan başın sağu. (**dilağu**: qarqış. bəddua).

inciyib sınmağı, sevən bilər, sınıb dağılar, sevməyən ürək.

indi artıq o günlər artda, quru nisgil anısı yadda !!!.

indi artıq o günlər artda, quru nisgil anısı yadda !!!.

indi qo heyvanı ged insanə gəl, ol xayaldan keç bu gerçək canə gəl.

indidən çaşsa dilin, yarın necə saxlar elin.

indidən çaşsa dilin, yarın necə saxlar elin.

indiki evlənməklər toy tutmaq yok, tor qurmaqdırlar.

indini tutaq, dünəni buraq.

indini tutaq, dünəni buraq.

indisin quranmıyan, yarının itirir.

indisin quranmıyan, yarının itirir.

indisini qurmayan, yarınların itirmiş.

indisini qurmayan, yarınların itirmiş.

indivi bil etdiyin, sonra gəlsə bilərsən.

indivi bil etdiyin, sonra gəlsə bilərsən.

indivi danma keçmişə dalma.

indiyə güvən yarına inan.

inək duza aldanır, kişi sözə.

inək gözün süzər, buğa ipin qırar.

inək quyruğu özün döğər.

ins cin gəldi çalışdı sürə yerdə kürəyin, qorxu qalmış bunaki qalmışı şeytan apara.

ins cin gəldi çalışdı sürə yerdə kürəyin, qorxu qalmış bunaki qalmışı şeytan apara.

İnsan insanın (adam adamın) şeytanıdır. Kötü arkadaş insanı insanı doğru yoldan çıkarır, kötülüğe sürükler. (Bayram Özdemir).

insan necə başarır öylədə yaşayır.

insan pülənmiş tuluğ kimidir, ağzı açılsa içi dışa axar, çıxar. (yalqu (insan) **orulmuş** qab, yazılsa ağzı alqınar. (kişi ağzıyla tanınar). **(orulmuş: horulmuş**. **(urulmuş).** üfürülmüş. pülənmiş).

insan pülənmiş tuluğ kimidir, ağzı açılsa içi dışa axar, çıxar.(yalqu (insan) **orulmuş** qab, yazılsa ağzı alqınar. (kişi ağzıyla tanınar). **(orulmuş: horulmuş**. **(urulmuş).** üfürülmüş. pülənmiş).

insan unutmaqla umut tapır.

insan yanıla yanıla, pehlivan yenile yenile. İnsanlar tecrubeleri ile doğruyu bulurlar. (Bayram Özdemir).

insanı dili bələr, sürünü qotur.

insanı meymun eləmək qolaydı, ta meymunu insan edmək.

inşallahda odun olsa, maşallahda ipin tapılar!.

ip dartılır, ötəlmir, qurd yadqırır, yönəlmir!. (**ötəlmir**: **ötələnməz**: itələnməz).

(**yadqırır: yadqırar**. yadından çıxarır. öğrənəməz. öğrətildiyin unudur, yönəlmir, yönətilənməz, yola qoyulamaz).

ip gəlib doğanaqdan, dən gəlib təvərəkdən keçər. (**təvərəkdən**: dəğirman daşından).

ip sırılıb tuynaqdan, arınçılıq yuynaqdan. (**arınçılıq**: təmizçilik). (**yuynaqdan**: hamamdan. yuğunmaqdan).

ip sırılıb tuynaqdan, bitgi ösər suynaqdan. (**ösər:** gögərər). (**suynaqdan**: suyluqdan).

ip sırılıb tuynaqdan, uluq oyuq qurnaqdan. (**uluq oyuq qurnaqdan**: böyük fikir xiyallardan).

ip sozulan yerindən üzülər. (**sozulan**: süzülən. işgələn).

ip var çəkilsə qurtarar, ip var kəsilsə. (asacaq, dar ipi çəkilsə, dartılsa qutarar (canı alar. bitirər), dar ipi kəsilsə qutarar (kişi ölümdən nəcat tapar).

ipçi uzun gedər. (sözçü işi, gəpirmə, ipçi işi, uzatma).

ipək donun içində yaxşı yaman bəllənməz.

ipək donun, saplıq utun olmasın. (**saplıq**: 1. əsginib, yırtınıb sapı çıxmış, aşınmış geyim. 1. mitqal). (**utun**: namus).

ipək olsa palanı, törrə başında yeri var. (**törrə**: törgə. ali, böyük məylis).

ipək üzlü, can üzücu ilanlar. sanma qıraq kəndivi. çoğunlayar iyilərin çevrəsin, torun qurar baş alıcı dən səpər. (**çoğunlayar**: çörəklənər. çəmbərləyər).

ipək yamaq götürməz.

ipin güdə dərin quyu neyləsin.

ipin uzunu, sözün qısası.

ipin uzunu, sözün qısası.

ipin uzunu, sözün qıssası, dilin qıssası.

ir duran işdən dinər, gec duran işdən bezər.

ir duran işdən dinər, gec duran, işdən bezər. (**dinər**: qurtular).

ir gülmədik, gec gülməz, gec gülmədik, heç gülməz. (**ir**: tez).

ir gülməsə gec gülməz, gec gülməsə heç gülməz. (**ir** : erkən. tez).

ir gülməsə gec gülməz, gec gülməsə heç gülməz. (**ir**: erkən. tez).

ir yola çıx gün qarşıla, tir yola çıx tün qarşıla. (**ir**:tez. erkən) (**tir**: gec).

ir yola çıxan gün qarşılar. (**ir**:tez. erkən).

ırax keçmişlərin barını, seçimlərdir qurar yarını. (**barını**: hamısını).

ıraq dur, yoxunlaşsan ut qalmaz. (**ut**: həya).

ıraq duran ortanı seçər. {hər nəyə qapılırsan kor elər. (**kor elər**: korlar)}.

ıraq dursan kor dəgəngi ilişməz, yaman olan bir gor bulub sıçacaq.

(**dəgəngi**: dəğənyi. kötəyi).

irdə varsa dağlar ona dayanmaz, birlik olsa yağu yurda basanmaz. (**irdə**: iradə. əzm).

irdəm olsa qolunda, çörək bolar yolunda. (**irdəm**: törək: sənət. hünər).

irəli!, sevmir yaşam geri qalanı.

iri olar süpürgənin kölgəsi.

iri olar süpürgənin kölgəsi.

iri olar süpürgənin kölgəsi.

iri yağış, tez kəsər.

irikdiğən gücün sayılır, birikməğən gücün dağılır.

irk varsa, yol tapar. (**irk**: iradə).

irkil olan erkən çatar barçağa. (**irkil**: iradəli). (**barçağa**: mənzilə).

ırmaq boyu yürüsən, dənizədə çıxasan.

irtənin yağıdan, bu günün şoru yeğ. (**irtənin**: yarısının).

irtin ola uğr ola!. (**irtin**: sabah).

irtiv qalxan günlügünü yarıtdı. (**günlügünü**: gün işini). (**ertiv**: **irtiv**: tez. tezraq).

irtovçular gertovçunu gur basar. (erkən qalxanlar, gerkənçiləri (gec qalxanları) ağır basar, çox çox geridə qoyar).

isdi aş, yağlı yaş.

isdi aş, yağlı yaş.

isdirsən bal çörək,al əlinə bel kürək.

isdirsən bal çörək,al əlinə bel kürək.

isdirsın bal çörək, al əlinə bel kürək. (Kordus).

ısığına küydük (yandıq), soyuğunna donduq. (istisində yandım, soyuğunda dondum. sevincinə sevindik, kədərinə tasalandıq).

ısıracaq it, dişin göstərməz. (yamanlıq edən, öncəsindən bəlirtməz).

Isıramadığın (bükemediğin) eli öp başına koy. Düşmanınla başa çıkamıyorsan, ona iyi görünerek kendini koru. (Bayram Özdemir).

ısırgan ile taharet olmaz. ısırgan yakıcı bir bitki, taharet ut yerlerini silme yıkama. İyi iş yaparken, zararlı araç kullanılmaz. Kötü kişilerden iyilik beklenilmez. (Bayram Özdemir).

ısqın əli tutarlar, gərək gündə yar ola. (**ısqın:** düşük. aciz).

ıslaq topraq, tez sulanar.

ıslaq yerdə tuxum çırtar, beşcə barmaq ağız yırtar.

islandım qurudum, yel məni neylər. ələndim bəlləndim, el məni neynər.

islanmışa qorxu yoxdur yağışdan.

isləşib çalığan ulaşır. (isdəyib çalışan yetişir).

isli hava, pis yoldaş, sağlığıva yer qoymaz. (dincliyivə yol qoymaz).

ısmarış (vəsiyyət), ölüm gətirməz.

isni ağırlayan itinə gəmik atar. (**is**: iyə. ağabaş).

isni ağırlayan itinə gəmik atar. (**is**: iyə. ağabaş).

isrılmasa, öpginən.

ısrım kişi gülə bilməz, gülənlərə dözə bilməz. **(ısrım:** tutuq. qaşqabaqlı. salıq üz. turşa üz). (gereftə).

ısrım kişi gülə bilməz, gülənlərə dözə bilməz. **(ısrım:** tutuq. qaşqabaqlı. salıq üz. turşa üz). (gereftə).

isteyen değil arayan bulur.

istədiklər yaşanmır, hər seçdiyin aşanmır, çalış uydur istəyin, əlindəki yaşama.

istədiklər yaşanmır, hər seçdiyin aşanmır, çalış uydur istəyin, əlindəki yaşama.

istədiklər yaşanmır, hər seçdiyin aşanmır, çalış uydur istəyin, əlindəki yaşama.

istədiyin devləti qura bilsəndə, saxlamağa kəllə gərək.

istədiyin kimi ol, özünçün yaşa, sevənivin ardıcan qoşma, sevdiyivin dalında ol, kəndi işivi qoyub, başqası işinə qoşma, yadında olana ya sayqı ver, ya unut, kəndivə güvən.

Istədiyin söyləyən, istənməzi eşidər!, papağ altda baş yoxsa, eşitdiyin keşidər (uzadar).

istədiyin yapanlar, özgürlügü dadanlar.

istədiyin yapanlar, özgürlügü dadanlar.

istək birligi, bir elin göstərcisidi.

istək bitən yerdə başyazısı orda dayanır.

istək çatır, dilək qalır.

istək dolular, bıraxıb getdi, edməzəm dedi, edməzin etdi. (dosd, yar sözünə baxan, yolda qalar. kəndivə güvən). (ər arvad şamı dana dək yana?!).

istək dolular, bıraxıb getdi, edməzəm dedin, edməzin etdi. (hola qoşulma. lovğalanma). (başqalaşsan başqalardan, dibdə birsən, başdabir).

istək dururkən, yaşam sürür.

istək gücü, aradar, istəkli güc, yaradar.

istək gücün yaratsan, uca dağlar alçalar, istək gücün qalmasa, təpə dərə dağçalar.

istək gücün yaratsan, uca dağlar alçalar, istək gücün qalmasa, təpə dərə dağçalar.

istək qolay, qurmaq çətin, qurmaq qolay, yaşata bilsən.

istək olsa, uzaq olmaz.

istək yaratışdır.

istək yerində doğur, tutuq çalışla olur. (**tutuq**: təsmim).

istəkdə güc olursa, aşmazları aşarmış, açmazları açarmış.

istəkdə güc olursa, aşmazları aşarmış, açmazları açarmış.

istəkdə güc olursa, aşmazları aşarmış, açmazları açarmış.

istəkələrin nəyisə dəğiş kəndin uğruna. (istəklərivə görə özüvü uyqula).

istəkələrin nəyisə dəğiş kəndin uğruna. (istəklərivə görə özüvü uyqula).

istəkənin ağ olsun, iç damağın çağ olsun.

istəklə işləyən tanrısın bulur.

istəklə sevincin ayı doğmaz, əl çalmaq ilə, torbava dolmaz.

istəklərə uyuşsan, olan gücün bitirər, onlar ilə duruşsan, sanmaz gücü gətirər. (**duruşmaq**: qarşı durmaq).

istəklərin edinməyi bacarmayan, edinmişlər sevməyini bacarmalıdır. (**edinmək**: əldə edmək).

istəklərin olur olsun, olmur olmasın, olanı düşün, olmazı üşün.

istəklərin olur olsun, olmur olmasın, olanı düşün, olmazı üşün.

istəklərin sökünü, bacardığın yapmamış. (**sökünü**: xəsdəsi).

istəklərin sökünü, bacardığın yapmamış. (**sökünü**: xəsdəsi).

istəklərin vur daşa, olduğunu sən yaşa.

istəkli dosdun uzaq yoluda, yaxın görünər.

istəklilər olumçul, istəksizlər ölümçül. (istəklilər mümkünçül, istəksizlər çürümçül olur, mümkünsüzlüyə inanır).

istəklilərin edinmir, edinmişlər istəlsin. (**edinmir**: ələ gəlmir). (**edinmişlər**: ələ gəlmişlər).

istəklilərin edinmir, edinmişlər istəlsin. (**edinmir**: ələ gəlmir). (**edinmişlər**: ələ gəlmişlər).

istəklilərin əlində yoxkən, əldə olanın sevməyə öğrən.

istəksizin yarandıq, istiyərək yaratdıq.

istəlinmək arasan, istənən kimi ol. istəklivi arasan, istəyin kimi ol.

istəmək olsa ürəkdə, gələməz qın heç bir iş.

istəməklə çıxılır çoxda qıyın çıxmazlar.

istəməklə qılınar çoxca qolay hər bir iş.

istəməyin çarası verməkdir.

istəməzdən çatış yok, doğmazından batış yox, durmamışdan yıxış yox.

istəməzdən kimsə qutlu olanmır.

istəməzdən kimsə qutlu olanmır.

istəməzsən, dəvənidə görməzsən.

istənmədən heç nəsiyə çatılmaz.

istənməyən tapmadı, tikənməyən qalmadı.

istər doğru istər yalan, böylə dönür dönən dünya, -alan unutmuş, verən unutmamış.

istər əlli yaşa, istərsə yüz , bir ölüm quşunun qıynağındasın.

istər əlli yaşa, istərsə yüz, bir ölüm quşunun qıynağındasın.

istərsən tavrını, sana yaraşıx, gününə görə gey, kürkünü aşıq.

istəş çağı dünündü, qılış çağı günündü.

istəş çağı dünündü, qılış çağı günündü.

istəyə qoşmaq, istəyi qarşılamaqdan irəli. **(qoşmaq**: qaçmaq). (**irəli**: yeğ gəlir).

istəyən çatır, dilənən qalır.

istəyən çatmaz, axdaran batmaz. (istəyən tapmaz, axdaran tapar). (**axdaran:** arayan).

istəyən çolaq, ayağsız qalmaz. (istəyən çolaq, ayağ tapar).

istəyən gəlsin, sən səninlə ol.

istəyən irişmir, çalışan, gətirən irişmiş. (**irişmək**: ərişmək. yetişmək. müvəffəq olur). (gətirən: tapışan. sansı duran).

istəyən izlər. (qoz könül edsə, bitər günbəzdə. (**qoz**: girdəkan. cəviz). (**bitər**: durar).

istəyən tapmaz, axdaran tapar. (istəyən çatmaz, axdaran batmaz). (**axdaran:** arayan).

istəyən varsa asılsın, tapacaq kəndirini. (**kəndirini**: ipini). (başı ağrıyan, qadasın bulur, qavqa arıyan, qavqasın bulur). (**qadasın bulur**: bəlasın tapır).

istəyən varsa asılsın, tapacaq kəndirini. (**kəndirini**: ipini). (başı ağrıyan, qadasın bulur, qavqa arıyan, qavqasın bulur). (**qadasın bulur**: bəlasın tapır).

istəyənə uzaq yol yoxdur.

istəyənə yox, axdarana ver. (**axdarana: arayana**).

istəyənin bir üzü qara, verməyənin iki üzü.

İstəyənin bir üzü qaradır, verməyənin iki üzü. (Ara Gündüz).

istəyənin birzü (bir üzü) qara, verməyənin ikzü (iki yüzü). (**istəyənin**: diləyənin).

istəyib güdən umub öldü, istəyib işləyən çatıb yaşdı. (**umub ölmək:** gözü yolda ölmək). (**yaşdı**: yaşadı).

istəyib sevmək, sevib istəmək.

istəyib sevmək, sevib istəmək.

istəyib yox olduğdansa, qalıb istəmək yeğdir (yaxcıdır).

istəyin gizlət, olduğun görsət, kəndivə güvən, özünü qoru.

istəyin güclü olmasa oğul, gücün istəkli olsun.

istəyin güclü olmasa, gücün istəkli olsun.

istəyin güdən, tutuqdan qalar. (**istəyin**: könüldən kəçənin). (**tutuq**: təsmim).

istəyin kimi ol. sən gül olda, dərən tapılar, eşşək olda palan tapılar.

istəyin yap qorxular bir qırağa, güvənin olsa özündə bunu bilki aparar.

(kəndivə güvən).

istəyin yeni bir yol tapasan, gərək yollar azıb sapasan.

istəyincə çevrilməmiş keçmişin, çalış çevir yarınlara istəyin.

istəyincə çevrilməmiş keçmişin, çalış çevir yarınlara istəyin.

istəyincə çönməyirsə evrənin, çevrən ilə çevir çönsün istəyin.

istəyincə çönməyirsə evrənin, çevrən ilə çevir çönsün istəyin.

istəyində durmayan, diləyinə çatanmaz!.

istəyini bilənlər, yaşaında tələsməz.

istəyini bilənlər, yaşamında tələsməz.

istəyip yapan apardı, yapmaq istəyən alardı. (**alardı**: mat qaldı).

istəyirsən bal çörək, al əlinə bel, kürək.

istəyişlər yol açar, olsa içindən bəri, heç bir istək olunmur, yoxsa istək içindən.

istəyişlər yol açar, olsa içindən bəri, heç bir istək olunmur, yoxsa istək içindən.

istəyişlər yol açar, olsa içindən bəri, heç bir istək olunmur, yoxsa istək içindən.

istəyişlər yol açar, olsa içindən bəri, heç bir istək olunmur, yoxsa istək içindən.

istəyizdən ötrü, sevdiyizi əzməyin.

isti aş, soyuq daş. (içi sıcaq olub, davranışı quru, soyuğ olan). { yürt qılığında çəkici olmayan. (**yürt qılığında:** əməl rəfdarında, adab maaşirətində).

isti aşım soğudu, iyid canım oğudu. (**oğudu**: pukaldı. kovaldı).

isti aşım soğudu, iyid canım oğudu. (**oğudu**: pukaldı. kovaldı).

isti kül közsüz, ev ocaq sözsüz olmaz.

isti suyun sağlığı, candan ağrı azlığı.

isti suyun sağlığı, candan ağrı azlığı.

isti suyun sağlığı, candan alar ağrını.

isti suyun sağlığı, candan alar ağrını.

isti sütdən küymüş ağz, yoğurdu üfləb yər.

istisən özgələr sənlə necə olsunlar, öylə ol. -sevimlimi?, -sevimli ol!. -sayqılımı? -sayqılı ol!. --düzgünmü?, -düzgün ol!.

istiyən olmadı aşiq, bilisən, sevgini aşsa biri aşiq olar.

istiyirsən bal-çörək, al əlivə bel kürək.

istiyot acıdır, ağ olsun, qara olsun.

iş "yuxu" görəndə deyir, onu yozandadır.

iş basamaz qayğı yox. (iş basdırır qayğını). (varmı qayğı başılmaya iş ilə).

iş başdan, ağrıq aşdan. (kəlləvi sal işə, başla işə. baş olmasa iş olmaz, aşın, yediyin güdsən, ağrıq kəsəllik, xəstəlik üz verməz).

iş başında gülsəndə, bitişində gülməməyədə yer saxla.

iş bilən, günortaya dək ac qalsa, iş bilməyən axşama dək ac qalır.

iş bilənə bir təngə, gəp bilənə min təngə. (**təngə**: para). (**gəp**: söz) (ulu şəhriyar, bəxtiyar kimi söz bilənə).

iş biləni yol uzunu üzənməz.

iş bilənin kəlləsi, severlərin əlləşi. (**severlərin**: ziyrəklərin). (**əlləşi**: çabası).

iş bilənin yoxsa əli ayağı, gəlməz umat gülməz gün. (**umat**: şans) (ələyağlı olmaq: bildiyin yerin yerinə yetirə bilmək. avara gor qalmamaq).

iş bilənin, qılıc tutanın.

iş bilənlər xar olmur, qayçağlara zar olmur. (**qayçağlara** : nakəslərə. alçaqlara).

iş bilənlər xar olmur, qayçağlara zar olmur. (**qayçağlara**: nakəslərə. alçaqlara).

iş bilgənə bir təngə, söz bilgənə min təngə. (**təngə: danqa**. para).

iş bilməyən xınanı götnə sürər. (hər ayağın qabı var).

iş bıraksan, tənin köçər tinin qalar, olunca yaşar.

iş bitər çağ ötər.

iş bitincə yol göstərən çox olar.

iş buyurma kiminə, oda artıq -iş- olar!.

iş çabanı saymasan, yaluğ üzü gülərmiş, yer arıtıb sürməsən, barı üzə çıxarmış. (**yaluğ**: **yalğu**: kişi).

iş çağında yapdığınız, nə olmazı, boş çağında yapdığınız kim olmazı bəllətir!.

iş çağında yapdığınız, nə olmazı, boş çağında yapdığınız kim olmazı bəllətir!.

iş çağında, dəmir tavında. (**tavında**: > dağında. tavlı tavlı).

iş çağında, söz yerində olsun.

iş çıxanda çıxmaza, balta, kəndin baltalar!!.

iş çıxanda çıxmaza, balta, kəsər baltanı!!.

iş diləyim, yol yolağım, yar yarağım uğurlu.

iş diləyim, yol yolağım, yar yarağım uğurlu.

iş doğuyur, ışıqlar olur.

iş döğüş dəğil, tələsmək nəyə gərəkdir.

iş düşürsə çətinliyə, kim kimimiz çıxar üzə.

İş gördün sıvış, Aş gördün güğüle düş. (**güğülemek**: gövdeyi küreleyip qabağa atmaq). (Kordus).

iş görənlər qayrılar. (**qayrılar**: pişər. doğrular. gəlişər).

iş görməyə, diləkdə gərək, biləkdə, ilikdə gərək, bilikdə. (işi qılmağa, istək, güc, başarıq, bilim olmalıdır).

iş görməyən yanılmaz, başa gəlməz sanılmaz. (**sanılmaz**: güman olunmaz).

iş görməzlər yan vurur, iş görənə iş buyur. (**yan vurur**: göt vurur. göt çalır. götlənir. goplanır. şişirdir).

iş görməzlər yanrılmaz. (**yanrılmaz: yanılmaz**. səhv edməz. iştibah edmək).

iş ilə kişini sına, od ilə qızılı.

İş insanın aynasıdır. Yaptığı iş kişinin huyunu, karekterini yeteneğini ortaya kor. (Bayram Özdemir).

iş işindən dönürsə, göz dosdunu yov görür. (**iş işindən dönürsə**: iş tutmasa). (**yov:** düşman).

iş işlər açar, yanşaq işdən qaçar.

iş kişi yarıdar, qəm kişi qarıdar.

iş kişini onqarar. (**onqarar**: qayırar. doğruldar. gəlişdirər).

iş kişini yoğadar, od qızılı.

iş kişinin aynasıdır.

iş kişinin yonqarı (məhək), od qızılın.

iş kişinin yonqarıdır.

iş kökdən pozulmasın, bulaq gözdən.

iş olacağına varır, su axanda, öz yolun yarır.

iş olunsa oğlanla, oğlan işi iş olmaz, buynuz olsa oğlaqda, o buynuzdan sap olmaz.. (**oğlan**: uşaq). (**oğlaqda**: keçi balasıında). (uşağın gördüyü iş olmaz, gəvşək buynuz sap verməz).

iş sözdən ağır qonuşar.

iş tərsəsə deyin ha deyin, yağış qoxusu dincədər beyin.

iş tutarsa, qum qızıl olar, iş qayıtsa..

iş ustası, ver üstəsi. (işi usdaya ver, birində üsdə ver).

iş üç nala, bir ata qalmış. {bir gözənək (kiçik imkan) əlinə düşmüş, böyük işlərin düşünə, xiyalına qapılan kimsə}. (keçəlin hər nəyi düzəlmişdi, qalmışdı baş darağı).

iş var dağ ardında olsun, yer altında olmasın, işdə var yer altında olsun, dağ ardında olmasın.

iş var geddikcə döğünlənər iş var geddikcə dügünlənər. (**döğünlənər**: gəvşər).

iş var özün görməli, iş var yolaverməli. işdə var boşaverməli.

iş var ürək sezər, göz görməz.

iş var, dil açar, dil var, iş açar.

iş yadlısız (qolaysız) olmaz, yaxşı yamansız olmaz. (**yadlısız**: qolaysız. müşgülsüz).

iş yadlısız (qolaysız. müşgülsüz) olmaz, yaxşı yamansız.

iş yaxmaza iş desən, sənin baça us qoyar.

iş yaparsan birlikdə, artar qazaş dirlkdə.

iş yaparsan birlikdə, artar qazaş dirlkdə.

iş yeməklə, yığva deməklə. (**yığva**: oturum). (işləməyə, yeyilməsə güc qalmaz, yığılmağa, danışıqsız yer qalmaz).

iş yetişsə gücə, güc düşər sapa.

iş, ağır basar sözdən, acıyın yaş damar gözdən. (**acıyın**: acıyanın. məzlumun).

iş, aş!: işlə, ye!.

iş, bilənin, qılınc taxanın. (bacarıqlı olanlar qazanır, aparır).

işarədir bir ahılı canladan, çomaq çubux hər qanmazı anlatır.

işarədir bir ahılı canladan, çomaq çubux hər qanmazı anlatır. (işarədir bir ahılı canlatan, çomaq, çubuk hər nadanı anlatan).

işçi gəlir iş yarıtır, işsiz gəlir, baş ağrıdır.

ışda çıxıb yaz gəli, tikib bitincə torba, dizdən olunca yonca.

işdə aşuqqan çox cayılır, çox cayılqan çox yıxılır. (çox tələsən, çox cayır, çox cayan, çox yıxılır).

işdə güvən, baxcada gül bitirqıl.

işdə kişini sına, odda altunu.

işdə qarışqa, uçuşda bürküt, tutuşda arslan, yeyişdə ayı, qaçışda qoyan. (**qoyan**: doğşan). (**bürküt**: qartal) (**tutuşda**: döğüşdə).

işdən artmaz, dişdən artar. (çalışmaq yetməz, savuruş, israfdan qaçınmaq gərək).

işdən artmır, dişdən artır. (gəlir çoxalmır, yeyən çoxalır).

işdən doğur ışıqlar.

işdən enər tümlə elin dişliyi. (**dişliyi**: dincliyi).

işdən törür həp yarlıq. (**yarlıq**: açıqlıq. bolluq. fərah. bərəkət).

işdən yapımayan, yerə yamışır. **(yamışmaq:** yapışmaq. yamanmaq).

işdir dosdur yoldaşdır, tuşlayıban seçilər.

işdir dosdur yoldaşdır, tuşlayıban seçilər.

işə baxan əlin olsun, ələ baxan gözün yox.

işə başlama!, başladın boşlama.

işə çağırsan barmaz, aşa çağırsan qalmaz.

işə gələndə var, aşa gələndə.

işə girən min olar, minin başı bir olar.

işə tez qalxan, gec qayıdan, aparar.

işəngən durmuş, üşəngən ölmüş. (**üşəngən**: gəvik. təmbəl).

işgil salama işgilə, dərdlər düşsün nisgilə. (yaşam düğün, bu dügünü bərkitmə).

işi aparan, meydansız qalmaz, meydandan qaçan, iş aparmaz.

işi başa düşüncə, at suyu gəməli içmiş, iğit suyu çizməli keçmiş. (**işi başa düşüncə**: iş gərəkdiyində).

işi başlamaq birdir, durusu min.

işi bilən yapar, qıraqdakı ya baş soxar, ya çöp uzadar, yada daş atar.

işi bitincə hərnə değişdi, yufqa qılışlar çöndü tepişdi, hərnə çönsədə çönməm demişdi, üz çöndü sonu, oda değişdi.

işi çək özüvə, çəkənmədin özün ged işə.

işi düşsə arar məni, işim düşsə qovar məni.

işi işə bənd elə, görən desin habelə.

işi iyinin iyi olur işi, yatlı edər yoldaşı yatlı kişi. (**yatlı**: yaman. biqanə).

işi qoymasan yoluna, yol tutar səni!.

işi olmaz sevişin sən yaşıl yaki qoca.

ışığa tutar, göz verir, kişiyə tutar, söz verir. (**tutar**: dəğər).

ışıq doğurkən, kölgə yarandı. ışıq doğru, kölgə yalandı.

ışıq ensə (gəlsə) qaranlıq köçər.

ışıq harda kölgə onun qarşında, yaxşı harda kötü onun ardında.

ışıq harda kölgə onun qarşında, yaxşı harda kötü onun ardında.

ışıq kölgəsiz olmaz.

ışıq kölgəsiz olmaz.

ışıq kölgəsiz olmaz.

ışıq oddan od ışıqdan bolluq işdən, iş bolluqdan ayrılmaz.

ışıq sayqarmamış kölgəsin. (ışıq hesaba salmamış kögəsin).

ışıq verər göz verməz. (**göz**: fürsət). (gösdərər verməz).

ışıq yoksa kölgə yok, kar olmasa kimsə yok.

işin ağırın gəvşəyə buyur, onu qılmağa, qolayın bulur. (**gəvşəyə**: təmbələ).

işin arman olmasın. (diləyivə çatmaz olmuyasın).

işin bilən ac qalmaz, yolun bilən gec qalmaz.

işin bilməyən danqaz, sözün qanmayan qanmaz.

işin bilməyirsə çavuşlar, oturmuşda nəmnəməsin avuclar. (**çavuşlar**: el carçıları, öndə gedənlər).

işin canını, iş alar.

işin dadın kürəkən alır, sağduşa gözləmək qalır. (işin dadın gəlin kürəkən alır, sağduşa solduşa gözləmək qalır!).

işin dəğəri altun, kişi dəğəri yartun. (**yartun**: aydınlıq).

işin düşdü sarıq başa, başın dəyər daşdan daşa, yapış ginən əyri xışa, ged o başa gəl bu başa.

işin düşsə çiviyə, qızıl gümüş gəlməz işə, əl at dəmirə, dəmir yoxsa gəmiyə.

işin düşsə utanmaza, üzün çevir bas duvara.

işin düzü, aşın duzu.

işin eşin bilgilən! (**bilgilən**: öğrən).

ışın ışınar, yamır yağar, göy açılar. **(ışın:** ıldırım). (**ışınar:** şaxar). (**yamır:** yağmır).

işin qeyim tutan, izçisinin gözün oyar. (atı yorğana kimsə çatmamış). (**yorğana**: yorğa olana). (atına baxan, ardına baxmaz).

işin nə olduğun biləsən, öz işin özün görəsən.

işin olsa yolunda, itməyinə gərək yox, yolun yoxsa işində, qılmağına gərək yox!.

işin sonun düşünən, pis günə üzgün qalar. (**üzgün**: həsrət).

işin uğurun tapan, aparır: kim işini uğurladı, apardı: (işini çağında (uyuqunda, menasib çağında) gördü qurtuldu).

işin yarağın tap, istəyin (istəyivin) marağın (movzusun).

işin yarağın tap, istəyin marağın.

işin yoğta, yolun yaxta olsun. (işin uvat, yolun ışıq olsun).

işin, oyun, duyun tutuşsa, güntaylığın, qutaylığın deyilmi?. (**güntaylığın: qutaylığın:** xoşbəxligin).

işində çin, sonra din (işivi doğru gör, sonra dinlən, istən, müddəi ol).

işinə bax, ağacın tik. (**işinə: işivə**. karıva. faydava. dərdivə**)**.

işinə bax, ağacın tik.(**işinə : işivə**. karıva.faydava. dərdivə**)**.

işini ötqəyə verməz olusa uslu kişi. (**ötqəyə:** özgəyə. başqasına).

işivi yoluvu, sana bil yürü. (**sana bil**: hesabla düşün). { güclü ilən gürəşmə, yüyrük ilə yarışma. (**yüyrük: yüvrük**: iti)}.

işləb ye. {yatıb yeyənə dağ çıdamaz. (**çıdamaz: cıdamaz**: dözməz)}.

işlədənlər istədiyin acıdır, işləyənlər tapdığın acı.

işlədənlər istədiyin dişləyir, işləyənlər tapdığını dişləyir.

işləgənin işi bitər, işsiznin günü bitər.

işlək beyin, dəğər vermiş başada.

işlək kəllə varınsa, dildən qada gəlməmiş, dildən qala qurulmuş. (**qada**: bəla).

işlək küzə su yolda sınar.

işləmək biləkdən, onğarış bilikdən (iş, biləkdən, yükəsəliş bilikdən).

işləmək biləkdən, oyqarmaq bilikdən (iş, biləkdən, ökü, bilikdən).

işləməyə əl gərək, yığışmağa, el gərək, danışmağa dil gərək.

işləməyən qılınc paslanır, işlənməyən güc yaslanır (azalır. yapıxır).

işləməyən yanılmaz.

işləməyib gözləyən: -qaşlı qaşıq **yadqını,** daşlı aşın yergini. (**yadqını:** tamarzı, həsrətdə olan). (yergini: ağına bozuna baxmıyan düşgünü olan).

işləməz beyin dönər peyinə, işləməz qafa oxşar pəyiyə. (**pəyiyə**: tövləyə) (**peyinə**: təzəyə).

işləməz, boşuna yatmış, işləyən işin tapmış.

işləməzsə beyin, kor qalası gözlərim, dörd olası gözlərim!.

işləmiyən çaşmamış, eşinmiyən, aşmamış.

işləndikcə ışıldar.

işlənən dəmir ışıldar, çalınan qılıc pas almaz.

işlənsiz başa, qay yağar: (məşquliyyətsizin başı bəladan əsgik olmaz). **(qay**: bəla).

işlənsiz başa, qay yağar: (məşquliyyətsizin başı bəladan əsgik olmaz). **(qay**: bəla).

işlər başda keçir, gözə dürtülür, qol qorxsun. (**qol**: əl). (göz dağı (göz qorxusu) verməklə başda, beyində, könüldə gedən gediş gecikər, düzəlməz).

işlər bilməm nədən, olur hərdən, kecişir dibdən, olumlu ol, dözümlü dur, buda keçər. (**olumlu** : pozitiv).

kor tutduğun bıraxmaz, gələr gəlməz, görər görməz yerə dürtələr.

kor tutduğun bırxmaz, kağ utduğun qaytarmaz. (**kağ:** kal. qax).

kor tutduğun buraxmaz, kar duyduğun unutmaz.

kor tutduğun buraxmaz, kar duyduğun.

kor yol bəllədər, bilgi öğrədər. (**kor**: qanmaz. axmaq). (ipin ucun keçiyə (götvərənə) versən, çəkər uçuruma).

kor, çolağın əlindən tutsa, hər ikisi irəlilər.

kor, dəğəngi bəllər kimi, kor tutduğun buraxmaz. {(korun gücü, tək umarı (ümüdü) dəğəgidir (dəğənəyindədir). kor beyinli kişinin yalnız gücü, bəllədiyi (öğrəşdiyi) öğrətilər, inanclarıdır. bildiyin kimə verməz, verilən bilgini almaz)}.

kor, əlinə düşəni sikər.

kora iğnə, gərək nəyinə.

kora vəsmə gərəkməz.

kora, yer üzü qaranlıq gəlir.

korağun kəndi, günəş görməz!. (**korağun kəndi**: korların kəndi).

kordan çoban çıxmaz.

kordan sağçı bolmaz, laldan carşı. (**sağçı**: qorucu).

kordan sağçı, laldan carçı olmaz. (**sağçı**: baxıcı).

kordan sağçı, laldan carçı olmaz. (**sağçı**: qaravul. bəkçi. keşik).

kordan sakçı, laldan carçı. (**sakçı**: qaravul).

kordan tanıq (şahid) olmaz.

kor-gözlünün nəyi var, iki əldə gözü var.

korxmuş kişiye koyun başı qoş görünür.

Kork Allah'tan korkmayandan, Allah korkusu olmayandan her türlü kötülük gelebilir. (Bayram Özdemir).

Korkulu düş (rüya) görmektense, uyanık (sak) yatmak daha hayırlıdır. Karlı ama riski de yüksek bir işe girişmektense, ondan vazgeçip rahat işiyle meşgül olmak daha iyidir. (Bayram Özdemir).

korqa maldan olsun, başdan yok. (**korqa**: zərər).

korquyu suya çatsa, sulağ yeri sudan eylər. (**korquyu:** hər gələ vurulan quyu).

korquyu suya çatsa, sulağ yeri sudan eylər. (**korquyu:**hər gələ vurulan quyu).

korla görən bir göz ilə seçilər.

korla yatan şaşı qalxar, itlə yatan bitlə. (**şaşı**: şeş. çeri).

korla yatan, çeri qalxar. (**çeri**: **çaşa**. **şaşa)** (yaşanan çevrə kişini etgilər).

korla yatan, çeri qalxar.(**çeri** : **çaşa**. **şaşa)** (yaşanan çevrə kişini etgilər).

korlar hara kor ora, kor deyərmiş kor, kora.

korlar içində bir gözlü başçı sayılar.

korlar içində bir gözlü başçı sayılar.

korlar içrə bir gözlü kor xan olar.

korlar ölkəsində şaşılar xanlıq edir, kəllər saçdərən olur.

korlar şəhrində, gözlülərin nəyi var.

korların bəyi təpə göz.

korluq görməz yer olmaz. (hər nəyin bir çətinliyi var).

korluq görməz yer olmaz. (hər nəyin bir çətinliyi var).

korun gözü görməz, könlü duyar.

korun gözü yoxsada, sözü çoxdu.

korun gözündən qıl çəkməzlər.

korun istədiği bir göz, iki olursa nə söz.

korun istəyi bir göz, tarı verdi iki göz. (istədiyindən çox artığına varanlara söylənir) (əkdi olmaz qurd çağasIn becərsən. (**əkdi:əkit**: evçil. əhli).

koruna atan bir vursa, izləyən vursa min vurar.

kosa geddi saqqal gətirməyə, buğunda qoydu gəldi.

kosanın qocaldığı bilinməz.

kosanın qocaldığı bilinməz. (kosada, qocalıq gənclik bilinməz).

kotan ata mindi atasın dandı, atdan düşdü atın.

kotbeyinlə birgə ayaq götürmə, çoraq yerdə əkin əkib itirmə.

kova daşa toxunsa, vay kovanın halına, daş kovaya toxnsada vay kovanın halına.

kovanları inandırmaq güc olur. (**kovanları**: axmaqları).

kovdasın buraq, oğdasın tutaq. (govdasın. kovdasın. tənin). (# **oğdasın**: için).

kovxanı gör eli çap, çobanı gör sürünü. (**kovxanı** : köy ağasın. kədxudanı).

kovxanı gör eli çap, çobanı gör sürünü. (**kovxanı**: köy ağasın. kədxudanı).

kovuş qovuşdan doğur, boşanma evlilikdən. (**kovuş**: ayrılıq. hicran) (**qovuş**: vəslət).

kovuş qovuşdan doğur, boşanma evlilikdən. (**kovuş**: ayrılıq. hicran) (**qovuş**: vəslət).

kovuşla qovuş birgə doğmuş. (**kovuşla qovuş**: hicranla vəslət).

kovuşla qovuş birgə doğmuş. (**kovuşla qovuş**: hicranla vəslət).

Koyun can derdinde kasap yağ derdinde=Keçiye can kaygısı, kasaba ya kaygusu, Birisi can kaygusu ile kıvranırken, bir başkası da bundan nasıl yararlanırım diye düşünür ve bunun hesabını yapar. (Bayram Özdemir).

köç keçər it yürürər, ikisi də mənzilə birgə çatar.

köç qayıdanda, sürünün axsağı irəli düşər.

köçcək deyib, odun uçurmaq. (**uçurmaq**: məhv edmək). (köçmədən hər nəyi yerli dibli tükətmək).

köçdən qalan, azmışlar!.

köçdüyün yeri dosda satma, yaman atı yoldaşa.

köçdüyün yeri dosda satma, yaman atı yoldaşa.

köçə qoşul ellə ged, köşdən qaldın gora ged.

Köçən yurdun yeri düşən yurdda bilinər. (Araz Gunduz).

köçəndə əli sallaq, qonanda minib oturar. (**əli sallaq**: əli boş. yüksüz. ağrıqsız).

köçəndə əli sallaq, qonanda minib oturar. (**əli sallaq**: əli boş. yüksüz. ağrıqsız).

köçər oba keçər kərvan, atlu olda azu yayvan, mal davardan nə vardan, sözdən başqa heç bir neden iz qalmaz. (**azu** : yaxud). (**yayvan**: yaya. piyada).

köçlə gedən, yol azmaz. (çağına uyqun olan).

köçmədən öncə qonşuvu öyrən.

köçmək yaxınlaşır doslar, dəngi bağlayın, pozulmadan yollar. {(**dəngi**: yükü. bağlamanı). (**pozulmadan**: çökmədən. qırılmadan. xərab olmadan). {bu kələki (ibarət, cümlə), dosları, yarımçıq qalmış işlərin bitirməyə çağırır. (bu söz orta yaşı aşmış, əllini savmış kişilər arasında deyilir)}.

köçməyə dəh bağlamalı. (**dəh**: dəng. yük). (**dəh bağlamalı**: yasrınmalı. hazırlanmalı).

köçövün (kösövün) uzun olsa, əlin yanmaz. (**köçöv**: maşa).

köçün günün bilmisən, köçdügüvü barı çalış bilgilən.

köhnə baramanın qurduda, arıq olur.

köhnə dadlar dündə qali paslani, hər yeni gün özəl barı, öz dadı.

köhnə eşşək, təzə palan. (köhnə eşşək, yeni çul).

köhnə eşşək, təzə palan. (köhnə eşşək, yeni çul).

köhnə küzə qulpu qırıq, sökmə sözlər düybü yırıq. (**sökmə**: yaman. töhmət) (**yırıq**: **cırıq**. boş).

köhnə qafa, qalın sana. (**sana**: düşüncə).

köhnə paxda bez olmaz, eski düşman dosd olmaz. (**paxda**: pamıq. pambıq).

köhnə tap tazasında, yaman tap yaxşısında.

köhnəyə indin olsaydı, bit bazarına, nur yağardı. (**indin:** e'tibar. sıyım. sayğaq).

kök axmadan, ağac axmaz.

kök arıqlayına, incə üzülür.

kök arıqlayınca, arıq üzülər.

kök olda, kötük olma.

kökənində böyümüş nazik tənilə, yaz qışından nə bilir qunçə daha bu çəmənilə.

köksümdə yatan qınanc, üzümdə görnən qıvanc. (**qınanc:** qəm**) (qıvanc**. sevinc).

köksüz ağac dayanmaz. (köksüz ağac dikəlməz).

köksüz ağac dayanmaz. (köksüz ağac dikəlməz).

köksüz ot yelə gedər.

kökü qara ağarmaz.

kökü pozuq düzəlməz.

kökün danan bizim ilə yolaşmaz. (**yolaşmaz**: yoldaşlıq edəməz).

kökün itirsə ağac yerə sürünər.

kökün itirsə ağac yerə sürünür.

kökünə kibrit suyu tökmək. (yandırıb yaxmaq. yarasına duz səpmək).

kölə olma qula.

kölənin qulu olmur, öz işin özü görür. (**qulu**: köməyi).

kölgə alsa güvəncin, qalmaz gücün inanca. (**kölgə**: uydu. yalan).

kölgə boya götürməz.

kölgə durur qapıq üzü nərsənin.

kölgə ışığa, eşq olsun (arın olub, qaranlığı olmayan nərsə).

kölgə ışığı, danamaz, ışıq, kölgəsin tanımaz.

kölgə kimlik gücünün güzgüsüdür. {kimliyin gücü kölgəsində. (**kölgəsində**: etgisində)}.

kölgə kimlik gücünün güzgüsüdür. {kimliyin gücü kölgəsində. (**kölgəsində**: etgisində)}.

kölgə qoğan çatanmamış özünə.

kölgə qoğan çatanmamış özünə.

kölgə olub yerdə yox, ışıq olub göydə gəz.

kölgə salar ağaclar, yapraqilə dal ilə. (kötük gücü yaldızı, gövdə gücü qolları. (**yaldızı: yıldızı: ildizi**: kök sapları).

kölgə salsa kölgələr göz önünə, ölçülər kölgələnər kölgə çönər ölçülərə. (**kölgə**: uydu. şəbəh. oldağıl, vaqei olmayan. xiyaldın).

kölgə salsın ağac kəndi dibinə, qaykişini odun yığma ipinə. (**qay**: pis).

kölgə səndən qaraşlı, sən kölgədən qaraşsız. (**qaraşlı**: bağlı). (**qaraşsız**: bağımsız).

kölgə sənin köləndir, sən kölgəvə yox kölə. (**kölgə**: iz. ad. nişan).

kölgə varsa, danılmaz ışıq.

kölgə, boya götürməz. (kölgə, boya tanımaz).

kölgə, düşdüyü yeri bəllədər.

kölgədə yatanın, kölgəsi olmaz.

kölgədə yemiş iyi yetişməz.

kölgələnsə gördüyüz, kölgə tutsa göz önün, kölgələnər ölçülər, kölgə çönər ölçüyə. (**kölgə**: uydu. şəbəh. oldağıl, vaqei olmayan. xiyaldın).

kölgələrdən qaranlıqlar yaranmış.

kölgələrdən qaranlıqlar yaranmış.

kölgəli durursa arxan, önə kölgəsi düşər, önüdə büzüşər. (keçmişin etgisindən çıxmalı, yoxsa gəlcəyi poza bilər).

kölgəli gözdən uzaq, yalançıdan dur qıraq. (**kölgəli gözdən**: quşqulu olandan. dalısı qaçaq olandan).

kölgəli yayın, qarlı qışı var.

kölgəlik nə olduğun, gündən gələndən soruş.

kölgəm kəsilmiş kinit mənə. (**kinit:** qınac. qənim). (kişi kəndinə özünə, kəndi düşüncəsinə güvəsizliyin yetirir).

kölgəm qocalsada mən qocalmaram, tənim ölsədə, mən ölmərəm.

kölgəm qocalsada mən qocalmaram, tənim ölsədə, mən ölmərəm.

kölgən səni əzməsin. (ada minib, özündə çıxmayasın).

kölgən səni izləsin. (durduqca durasan. uzun yaşa).

kölgəni bıraq ışığı tut, gözdəkin ötür, əldəkin.

kölgəni boşla özündən danış, qaşını vazla gözündən danış.

kölgəni görməyə ışıq gərəkir, ışıqı görməyə kölgə gərəkməz.

kölgəni görməyə ışıq gərəkir, ışıqı görməyə kölgə gərəkməz.

kölgəni xoş görən ambarı boş görür.

kölgəni xoş görən ambarı boş görür.

kölgəsi var özü yox (yaxşılıq). (**kölgəsi** : edgisi).

kölgəsi var özü yox (yaxşılıq). (**kölgəsi**: edgisi).

kölgəsin tanımaz kişi, özün tanımaz.

kölgəsin tanımaz kişi, özün tanımaz.

kölgəsiz ağac, kəsilir. (kölgəsiz, ağac olmaz).

kölgəsiz tomalan (göbələk) necə bitər.

kölgəvi gördünsə ışığa inan. (kölügüvü gördünsə, günəşə and iç).

kölgəyə sığınan, günəş görməz.

kölnü açıq yolnu açıq. (arxayınlı, güvənc işlərin oluşuna, ilərşinə yol açar).

kölügə, ışığ tanığsız, kölgə, asıq ışıqdan. (tanığsız: minətsiz. qədir verməz)

(ışığın kölgəyə minnəti yox, kölgə asılıdır ışıqdan). (asıq: asılı. bağlı)

(kölügə: kölgüyə).

kölügüvü gördünsə, günəşə and iç. (kölgəvi gördünsə ışığa inan).

köməkləşən yov qaytar. (köməyi olan yağu qaytarar, dəf elər).

kömür bitər, ömürdə, təkcə qalan, beyin varsa, söz olar.

kömür qara yansa qızarar.

kömür qara yansa qızarar.

kömür qaradır qara qaradan qara tapılmaz qara.

kömürçü qara, yaxılmaz qara. (kömürçüyə qara yakmac güc).

kömürçünün üzü qara öyü qara. (**öyü**: evi) (hər işin çevrəsinə etgisi danılmazdır).

kömürün üzü qara içi qara.

könənməyin bilməyən, sevinc üzün görənməz. (**könənməyin**: razılığın. məmnuniyyətin. xoşnudluğun).

könənməyin bilməyən, sevincə arman qalır. (**könənməyin**: razılığın. məmnuniyyətin. xoşnudluğun). (**arman**: nisgil. həsrət).

könənməyin bilməyən, var davardan doyanmaz. (**könənməyin**: razılığın. məmnuniyyətin. xoşnudluğun).

könəz olsa könətməyi güc qalır. (**könətməyi**: razı salması). (**könəz**. razı olmaz).

könl açır hər gülüşün qonsa dodağ üzrə sənin, damlasıda qoparır axdığı göz yaş sənin. (**qoparır**: qiyamət edir).

könlə qul edmə gözü, ökdəvə yığqıl sözü. **(ökdəvə: öktüvə**. usuva. ağlıva). (**sözü**: mə'nanı).

könlə sığan kövnə sığmaz. (k**övnə**: dünyaya) (**kövn**: boş, qaranlı, quru yer, dünya).

könlə sığsa, gövrə sığar. (**gövrə**: cana. tənə).

könlə yatan göz oxşar. (**göz oxşar**: gözə xoş görünər).

könlə yatan, başa çatar (ürək tapanı, baş köklər) (ürək xoşlasa, ağıl köklər (dəlil tapar, müstədəll edər) (könül sevən göyçək oli).

könlü alıb əlində gəzir, tuşlanır oxa, oda dəlir, qan deyil ki, qızıldı axır, qara topraq üstə calanır.

könlü ayaz, başı daz.

könlü daş, ondan qaş.

könlü kimin olsa qali yox cığay, qılsan gücün olmaz belə dolqa bəy. (**qali**: əgər) (**qılsan gücün:** zorlasan belə) (**dolqa bəy**: ürəyi zəngin). {(**yox cığay:** içi boş) (**cığay. çığay**:. yoxsul. kasıb)}. {içi çürük, beyni çomağı neyləsəndə içi ağabay (dolu kişi) edəməzsin}.

könlü kor, gözü kor.

könlü qalan, olduğu yerdə yad qalır. (istəyi könüldə qalan, olan yerdə yad qalır).

könlüm için ortardı, yatmış başığ qartadı, keçmiş ötük irtədi, tün gün keçib ardılur. (**ortardı**: yandırdı). (**başığ :**yara**). (qartadı :**{dinmiş acım (yaram)} bətərləşdi, baş açdı)**. (ötük:** keçmiş zamanları). (**irtədi:** istədi. arzuladı). (**keçib ardılur**: **keçib ardılur**: keçir durmadan dəvam edir). (**ardılur**: durmadan dəvam edir).

könlüm için ortardı, yatmış başığ qartadı, keçmiş ötük irtədi, tün gün keçib ardılur. (**ortardı**: yandırdı). (**başığ:** yara**). (qartadı:** {dinmiş acım (yaram)}

bətərləşdi, baş açdı)**. (ötük:** keçmiş zamanları). (**irtədi:** istədi. arzuladı). (**keçib ardılur**: **keçib ardılur**: keçir durmadan dəvam edir). (**ardılur**: durmadan dəvam edir).

könlüm tutuq dili kimi. (oddan alışıb yanan).

könlün olsa tut, könül yoxsa, unut.

könlün yazıda var, qışıda var, varlığın oluda var, ölüdə var.

könlüncə olsun diyə, özün işi al ələ.

könlüncə yapın, sevgivə tapın. (**tapın**: pərəstiş ed).

könlündə söz saxlama, yaş, su deyil, heç boşuna ağlama, sağlıq ilə keçən günün toydandır, sağ sana düşüngilən yaşınqıl. (**sana**: düşüncə). (**yaşınqıl**: yaşın sür).

könlünə bax, için al!.

könlünü basan diləyin alar. (könül: həvəs). (könül başa yox deyər, ürək başilə vurar).

könlünü göy uçursun, ağramın yer götürsun. (**götürsun**: dözsün. çəksin). (yarqış, dilək, dua sözü). (baxtı, istəyi göylərdə gəzib, umat bulsun, varlığı yerə artıq gəlməsin, uzun yaşasın).

könlüvü çalsada biri, satma heçin könlündəkin.

könlüzcə olsa yetər, -kişi könüllə yaşır, yaşama alışır. (**alışır**: qızıqlıq, maraq göstərir).

könmədən bəbə, yeyməz məmə. (**könmədən** : istəmədən. diləmədən).

könmədən bəbə, yeyməz məmə. (**könmədən**: istəmədən. diləmədən).

könuş hara, qonuş ora. (izək hara, izgə ora). (niyyət hara mənzil ora).

könül açan, qayğı qavan qəm savan.

könül ağrır kit qalır, göz ağrısı kit qalmaz. (**kit**: gizli).

könül anladıqca alışar.

könül atı yularsız, çatmaz olur barınqa. **(barınqa:** mənzil). {könül sağır soğur, boynunda ip olmasa. (**sağır soğur**: kar kor)} (könlüvü cilovla). (könlündən keçəni güd, toparlan, əlayağıvı yığ).

könül bağında bitən gül tikansız olur.

könül bağlı, əl dağlı.

könül başa yox deyər, ürək başilə vurar. {könlünü basan diləyin alar) (könül: həvəs)}.

könül başdan, baş könüldən su içsin. (sinik sanıq birbirinə yoluxsun. sinik say sana bir birində tam qopmasın, ayrılmasın. (**sinik**: atifə) (**say sana**: hesab kitab) (bir başa maddəçi olmamaq).

könül batır, atar durmaz. (**könül batır**: həvəs dəli qanlı olur). (həvəsə, bəsdi yoxdur) (başsız könül, durmadan yürür).

könül bəyi olsanda, mal bəyligin unutma. (yoxsulluq bir yana çıxmaz, bir yönə varmaz).

könül bəyi, mal bəyi.

könül bir olsun, dil başqada olar.

könül bir süyşədir, sındırmaq olmaz. (ama yer üzündə, içində ən çox sınan, sındırılanda elə odur!).

könül buyruq dinləməz. (sevgi qarşısında kəllə işləməz, söz keçməz).

könül buyruq götürməz. duyma dedim duymadi, sevmə dedim saymadi. {duyma dedim duymadı, sevmə dedim duymadı. (eşitmə dedim eşitmədi, sevmə dedim dinləmədi, saymadı (eşitmədi)}.

könül çaxar dilim yayar. (söz könüldə doğur, dilimlə çıxır).

könül çəkər inama, unutsa baş usunu. usun başda yığılsa, könlü yular düz yola. (**usunu**: ağlın). (həvəsə qapılma). (könül istər istəməz güvən arar, inanmağa çəkilər, istərki inansın, dinc bulsun. ağlıvı yığ başıva, könül cilovun, noxdasın yığ, düz yola yönət). (ağılsız könül düz yolun bulanmaz).

könül çəkər, baş ölçər. (könül istər, baş hesab verər).

könül çəkir, yeyir, ürək istir deyir.

könül çəksə, baş durmaz!, könül çəksin, baş duysun! (**durmaz**: dayanamaz. muqavimət edəməz).

könül çöl deyil qıyısız ola, qıyaqsız dura. (**qıyaqsız:** barındasız. limansız. portsuz).

könül daşı ısıtar, daşdan könül, ısınmaz!. (könül sevgi, daşı yumşatır, daşdan olan könül, ısınmaz, yumşanmaz).

könül dedi ged, baş dedi düşün.

könül dediyin yıxılar, tikəndən ucu batılar, əkdidə çəki qırılar. (**əkdidə**: ədəbdə. təbibiyətdə). (**çəki**: çizgi. hədd). (kişi yaşar biri öğrəşib yapar, biri bildiyin yapar). (kötüyə yamana raslanacaqsın, çalış tutulmuyasan).

könül deyir iləri, ürək deyir dayan hələ. (könül çoxun istəyə bağlıdır, ürək çoxun başa, ağla).

könül dəniz sevgi anın bulğani, yularlı baş çəkib yığandır anı. (**yularlı**: cilovlu).

könül dilək, başla ayaq bir yoldasa, qutaylığa yol açar. (**qutaylığa**: xoşbəxlik).

könül dilər baş dələr. (**könül**: həvəs). (könül başa iş açar).

könül dilin daşlayan, yuva qazdı, yad dillərə könlündə.

könül dinsə us qalxar, könül coşsa us susar. (**könül**: həvəs).

könül dolmaz, qarın doymaz. : qısmasan boğazı, dəvəni utar. (həvəsdi, bəsdi).

könül dostun tapar, istəyin yapar.

könül duysa, ürək sevsə, əl toxunsa, qulaq çınlar.

könül duysun başın tutsun. (**tutsun**: yönəlsin. təsmimləşsin). (ürəkdən sev, başınla seç).

könül endirən başalır (**baş alır**: ucalır), baş endirən basalır (basılır).

könül gəl gəl (hən hən) deyər, ürək ged ged (yox yox). (**könül**: istək (həvəs). (**ürək**: ağıl). (könül ürək barışsa, hənlə yoxu alışsa, yaşam bular dəngini, ləngi tapar ləngini).

könül gördüyündən su içər.

könül görər, göz görməz. -iki evrən çevrənər, könül bəzər birisi, göz oyalar o birisi.

könül gövərtəsi göy çalsın.

könül gözəli yox, sevdiyin seçər. (könül sevən göyçək olur!). (gözdü seçən gözəli, könül sevər sevəni).

könül gözü kor olsa başdaki göz neyləsin.

könül gülün, sevgi suyu suvarmış.

könül hara baş ora. baş hara, ayaq ora. göz hara, qulaq ora.

könül hara, baş ora, könül qara, baş qara. baş haradır, ayaqda!, göz haradır, qulaqda!.

könül incik çəkip can arıdam (təmiz, xalisləyəm), yaradan yarı edib üz yarıtam (ağardam, parlatam).

könül ısıqli gərək.

könül istər göz arar.

könül istər göz arar.

könül istər, baş ölçər. {xoşgörülük aldanmağın başlanqıcı, yıxılmağın özüdür (**xoşgörülük**: ağımsarlıq. yaramsarlıq. optimislik)}.

könül istəyincə, baş dönməməli, duyub, düşünməlidir.

könül iyi, dilək gözəl, əsim gözəl, külək gözəl, iyi toxum, bitgi gözəl.

könül kəndi kəndi doyurmasa, ikinci varlıq çox əksik gətirir. könul verdik daşır aldıqca yok.

könül korsa, göz gördüyün anlamaz.

könül korsa, göz gördüyün anlamaz.

könül könüldən aralı, yollar ulatır könlü könülə.

könül könüldən su içər.

könül qalası, kişi isdər alası.

könül qalmasa qapalı, bağlı yollar açıq durar.

könül qanıt bilməz. könül ya dinər, ya sevər, ya söyər. (könül dəlil, məntiq bilməz, könül ya susar, ya istər, ya nifrət edər).

könül olsa verər olur haçadan, buyruq olsa düşər olur bacadan. (**buyruq**: qismət).

könül olsa yoxsunluğun yük olmaz. (**yoxsunluğun**: məhrumiyyətin).

könül sağır soğur, boynunda ip olmasa. (**sağır soğur**: kar kor). (könlüvü cilovla). {könül atı yularsız, çatmaz olur barınqa. **(barınqa:** mənzil)}. (könlündən keçəni güd, toparlan, əlayağıvı yığ).

könül saysana (hesab kitab) bilməz, başda tutduğun verməz.

könül seçir sevgini, baş onayırsa oni, uçmuq olur çevrəniz. (**uçmuq**: cənnət).

könül sevdiyin, baş çəkdiyin haylar.

Könül sevən göyçək olar. (Araz Gunduz).

könül sevən göyçək olur!. (gözdü seçən gözəli, könül sevər sevəni). (könül gözəli yox, sevdiyin seçər).

könül sevən gözəlin, nə ağı nə qarası.

könül sevən xoş olar, günü keçsə boş olar. (**boş olar**: heç olar).

könül sevən mut olar. (**mut**: xoş).

könül sevən, bol olursa, gen gəlməz, sıx olursa, dar gəlməz. (könül sevən, yoş (xoş) olar).

könül sevər duymaz sənin yolağun. (**yolağun**: yol göstəməni. nəsihətin). {könül sevər duymaz sənin əngəlin. (əngəlin: önləyin. cilovun. ovsarın. yuların)}.

könül sevər, ayaq təpər baş tələsər.

könül sevsə, ayaq gedməz baş dansa.

könül sevsə, ayaq gedməz baş dansa.

könül sırça qırldısa yapışmaz, güvən gedsə birdə geri qayıtmaz.(**sırça** şişə. şüşə).

könül sızlar səsi çıxmaz, könül ağlar, yaşı çıxmaz.

könül toxluğu, baş dənliyi. (**dənliyi**: dəngliyi. dincliyi).

könül tosun, odlu, həvəsli, istəkli olursada, baş duymalı, düşünməlidir. {**tosun: tovsun** (odlu). (< **tov**). sərkeş}.

könül tosun, odlu, həvəsli, istəkli olursada, baş duymalı, düşünməlidir. {**tosun: tovsun** (odlu). (< **tov**). sərkeş}.

könül tovğac, baş duyğac (olmalı). (**tovğac**. batur. cəsarətli). **(duyğac**. ehtiyatlı. düşüncəli). bu söz kişini könül sevər xoş olurluğa çağırıb, ardındanda, başı untmamağa yönəldir. könül saysana (hesab kitab) bilməz, başda tutduğun verməz.

könül tutursa qanad, uçudar başı ayağ salı. (**könül**: həvəs).

könül uçsun, başda beyin gərək. (könül tosun, odlu, həvəsli, istəkli olursada, baş duymalı, düşünməlidir). {**tosun: tovsun** (odlu). (< **tov**). sərkeş}.

könül umuqdan su içər. (**umuqdan**: gözlədikdən. bəklədikdən).

könül üçünə güvən. -baş, əl, ayaq.

könül var bala, könül var mala qonar.

könül var bala, könül var mala qonar.

könül verdə sevənə, dəğər verdə bilənə.

könül versən sevənə, dəğər versən bilənə, gögər güllər bağında, kol kos tikən yanında.

könül yağı, içyağı deyil, göz yaşı, don yaşı deyil. (**don**: üz).

könül yaxmaz, göz axmaz.

könül yamaq götürməz. (**qırma könül**, könül yamaq götürməz).

könül yarıq göz yaşar, əlin yarın qan axar.

könül yarıq göz yaşar, əlin yarın qan axar.

könül yarınsa gedən yolda, gül çiçək açar tikən kolda.

könül yaş tanımaz, ürək yaşı danmaz. (könül, istək armaz, yorulmaz, qocalmaz, ürək ətdir, yıpranır, əprir). (könlün, eşqin, həvəsin yaşı yox, bu bir söz, onun qaşı (iradı) yox).

könül yaylasın yaylar.

könül yetsə, qol yetər. (**qol**: əl).

könül yoxdur haçarsız ola.

könül yoksa, ürək sevgi tanımaz. (**ürək**: ağıl).

könül yolun dartışar, baş işləsə yerində. (baş yerində olsa kişi könlündən keçəni edməz).

könül, sevgi vergilən, ağ qaravı seçənə!.

könüldə olmasa yanar ocağun, sevirəm sevərəm tutmaz dodağun.

könüldə olursa güvənc, itirmədən qorxman.

könüldə sevginiz var olmalıdır, seçimlə bacarıq qovuşmalıdır, böylə bir durmuşun yaşanmalıdır. (**durmuşun**: yaşamın).

könüldəkin gözləmə sən ağızdan, bəsib toxla dosd olamaz yavuzdan. (**yavuzdan**: əğri. yağu).

könüldəkin gözləmə sən ağızdan, bəsib toxla dosd olamaz yavuzdan. (**yavuzdan**: əğri. yağu).

könüldən çıxan ut bilməz. (könüldən qavulandan hər nə gözlənir, ut, utanmadan sıvay).

könüldən qopan, könüldə yatır.

könüldəşə elçi gərəkməz. {könüldəşlər elçi aramaz). (aramaz: gəzməz)}. (**elçi**: arxan. vasitə). (iki könül bir olsa, kimin ona sözü var**)**.

könüldəşlər elçi aramaz. (aramaz: gəzməz). (könüldəşə elçi gərəkməz). (**elçi**: arxan. vasitə). (iki könül bir olsa, kimin ona sözü var**)**.

könülə sığan söz de, qarnıva sığan yüz ye.

könülə sığsa, hər nəyə sığar.

könüllə kirtin (inan), dilinlə qurtul.

könüllə kirtin, dilinlə qurtul. (**kirtin**: inan).

könüllə ölç, əllə biç. (kişi yaşamın dadın almaq istərsə, könlünün sözü, dili ilə yaşamı sürməlidir).

könüllü çoban süt alar təkədən, çıxarlı bala bac alar yekədən.

könülsüz baş sevgi adın tanımaz.

könülsüz iş küt axarı.

könülsüz kişi, yazısın bulur, ürəksiz kişi daş altda gərək. (**könülsüz**: həvəssiz. armansız). (**ürəksiz**: qıyın. zalim. acımayan. düşünməyən. qanmıyan).

könülsüz uşaq gülə bilməz, könüllü uşaq dura bilməz. (**könülsüz**: qussəli). (**könüllü**: sevincli. şad).

könülsüz yaşam, kültəyəm boşam. (**yaşam**: gəncəm). (**kültəyəm**: bir yığınam).

könülsüz yaşam, sevgidən boşam. (**yaşam**: gəncəm).

könülsüz yükün, göyə ağmaz. (**ağmaz**: çıxmaz). (**yükün**: namaz).

könünldə ki, qarında kı bilinməz.

köp bilən ged, öz başnla yürə. (**köp**: çox). (**yürə**: davran. rəfdar ed).

köp bilən get, özbaşınla yür.(**yür**: qıl). (**köp** : çox).(çoxuyla danış, öz bilənin ed).

köp gəpiriş pozurqan, köp yügürən azırqan. (söz uzansa pozar, iti qopan, yügürən, çox qızan hirslənən azar).

köp oyla, az söylə. (**oyla**: düşün).

köp sözün azı yaxşı, az sözün özü yaxşı. (**özü**: cirgəsi. xülasəsi).

köp şişrilən, şişirdənə yer qoymaz.

köp yoylaqanqu tülkü, qolqa tüşpöy, qoyucu eməs (qırqız). {çox yelən (gəzən) tülkü bir gün yaxayı ələ verir}. (çox gəzən tülkü, yaxalanmadan dincəlməz). (su təstisi su yolunda qırılır).

köpçülügə gəngəşib, kəndi başın unutma. (**başın**: fikrin).

köpdəndə köp minlər könül qıranlar, çalışda qur bir ufacıq könül sən. (**köpdəndə köp:** çoxdan çoxdur).

köpdəndə köp minlər könül qıranlar, çalışda qur bir ufacıq könül sən. (**köpdəndə köp:** çoxdan çoxdur).

köpə yaranmaq qıyın. **(**yaranmağın köpçülügə çox qıyın). (**qıyın**: zor).

köpə yürən azdan qalar. (**köpə yürən**: **köpəçi**. tamahkar).

köpəçi küpəçiyə aldanar. (**köpəçi**: köpə yürən. tamahkar). (**küpəçiyə**: torbaçıya. kələkçiyə).

köpəçini küpçü küpə basar, torbaçı torbalar. (**köpəçi**. köpə yürən. tamahkar). (**küpçü: küpəçi**. torbaçı. kələkçi).

köpək boranda qudurar.

köpək ölümü, qurda bayramdır.

köpəklə yatan birə ilə qalxar.

köpəklə yatan birə ilə qalxar.

köplənc, sözü keçən başa gələn olur. (**köplənc**: koplanç. çoxraq. əğləb). (qurd ağzasan quyruğu görünət). (adın çək qulağın bur).

köpmüş köpək, qapmaz, yatan ilan çalmaz.

köpöoğluya bax, hey, papaxda qoyur başına.

köprü güdüb dosdundan, köpü güdüb azından, dadlı güdüb qalma paya düşən duzundan. (**köpü**: çoxu).

köprü üstə yol üstə, yap yapılmaz. (**yap**: tikinti).

köprü üstə yol üstə, yapı yapılmaz.

köprü üzrə yurd salma.

köprü üzrə yurd salma.

köprüdən keçməmiş sayın, ayıdır dayın.

köprüki var yaxşı ötər yamanda.

köprünü görür, deşiyi görənoq. (**görənoq**: görmür).

Körle (görmez) yatan şaşı kalkar. -itle yatan bitle kalkar, Kötü kişilerle yatan, kalkan kişilere az çok kötü huylar bulaşır. (Bayram Özdemir).

körpə sütsüz böyüməz, pambıq susuz. (körpə sütsüz, pambıq susuuz dirçəlməz).

körpə sütsüz, pambıq susuz dirçəlməz.

körpə uşaq, körpə sevinc.

körpəsən pişməyivə çox qalırı, çatmağa körpüyə, ver var yoxuvu.

körpəsən, pişməyivə çox qalırı, çatmağa körpüyə ver, var yoxuvu.

körpü üsdə yol üsdə dosla yoldaş tutulmaz.

körpü üsdə yol üsdə söz verənə inanma.

körpü, çaydan oyanadır.

kös kilimincə ayağın, soyuqda ta donmuya yağın. (**kös**: çöz. uzat). kös kilimincə ayağın, söyuqda donmuya yağın.

kös kilimincə ayağın, soyuqda ta donmuya yağın. (kös: çöz. uzat). (kös kilimincə ayağın, söyuqda donmuya yağın).

köşdən qalan batıbdı, arda baxan yatıbdır.

köşşək kimi məməsi yox sağmağa, yəhəri yox minməyə. (**köşşək**: dəvə balası).

köşşəyi yiyəsi diyən yerə bağla birdə döy qabırğasına.

kötək ötdən ötər, söz sümükdən. (**sümük**: süyək).

kötü adama böyük çanağını göstərmə. (yamana çonğ ayağınğı görsötmə):.

kötü başlı yarıqarın yekəldir, iyi başlı aydınlıqlar yaraltır.

kötü bir çağda, uğursuza uğramaq (düşmək).

kötü çavar, yellə çapar. (**çavar**: xəbər). (yaman salıq carçı gəzməz).

kötü dilək düzgün yola götürməz, düz yol tutan hər gələnə əğilməz.

kötü dilli qocadan yalnız dul yeğdir.

kötü duyqu, durmuş yaşam yıpratır, iyi duyqu gözəlliklər yaratır, kötü biri öz qapısın qapatır, iyi olan kəndi özün aratır.

kötü duyqular yıpraq ömürdən doğur, könü duyqular, sevimli ürəkdən olur. (**yıpraq**: çürük. atil). (**könü duyqular**: iyi duyqular).

kötü gördün üz vermə, yaman gördün yol vermə, iyi tapsan qolun dola boynuna, yala yolun ipək döşə yoluna.

kötü günlər güdülmədən çatarmış, igid oğlan qorxmaz ondan aşarmış. yarınların armanların kəndi başda bəsləyən, işə keçib doğru oxun atarmış. (**güdülmədən** : gözlənmədən).

kötü günlər güdülmədən çatarmış, igid oğlan qorxmaz ondan aşarmış. yarınların armanların kəndi başda bəsləyən, işə keçib doğru oxun atarmış. (**güdülmədən**: gözlənmədən).

kötü xəbər tez qaçar. (yaman salıq qır çapar).

kötü işlər yamanları yamanladar, eyiləri yaralar.

Kötü söyleme eşine ağu katar aşına, İnsanlara, hele eşine kötü söz söyleme, hiç beklediğin bir kötülükle karşılaşabilirsin. (Bayram Özdemir).

kötü yoldaşın qadası, ocax qazanın qarası. (kötüyə yanaş qarası, yoldaşın, qazana yanaş qadası).

kötü yoldaşın qadası, ocax qazanın qarası. (kötüyə yanaş qarası, yoldaşın, qazana yanaş qadası).

kötüdən uman, götündə bulur. (yamanda yeğ aran, baş verib börk almış). (**yeğ aran**: iyilik gəzən).

kötüdən ya qaçın ya qaçıt.

kötük çətin yanar, gec sönər. (kötük yanmaq bilməz, yansa sönmək bilməz).

kötük gücü yaldızı, gövdə gücü qolları. (**yaldızı: yıldızı: ildizi**: kök sapları). (kölgə salar ağaclar, yapraqilə dal ilə).

kötülərdən yaxcılığı umarsan, toxmaq başda çomağıvı yığarsan.

kötülərə acımaq, eygilərə qıyındır, çapqanlari oxşamaq, çıpqınlara qıyındır. (**çapqanlari**: zalimləri) (**çıpqınlara**: məzlumlara). (**qıyındır**: zulumdur).

kötülük çürüyən bir tuxum deyil, əkənin qaşına yəşərib çıxar.

kötülük dışarda değil, kişinin içindədir. (**kişinin**: adamın).

kötülük iyilik eskilərdəndi, dəğişən yalnız ölçülər olmuş.

kötülük iyilik eskilərdəndi, dəğişən yalnız ölçülər olmuş.

kötülük kökü qırar, qırılmaz, iyilik kökü əkilər, durmaz.

kötülük yapdın iyilik bəkləmə, iyilik yapdın kötülük bəklə!..

kötüsün görcək, iyisin atma. (duyan bilsin. -danalıq, öküzlük, qanmamazlıq edməyə gərək yoxdur, hamının pisidə var, iyisidə. kəndivə gəl!).

kötüyə görə tənəsi yox, təniyə görə budağı.

kötüyə yanaş qarası, qazana yanaş qadası. (kötü yoldaşın qadası, ocax qazanın qarası).

kötüyə yanaş qarası, qazana yanaş qadası. (kötü yoldaşın qadası, ocax qazanın qarası).

kötüysə ya qaçıt ya qaçın, iyiysə ya yoluğ ya yaxın. (yoluğ: gözdən qoyma. qayğısın çək).

kötüyü qoyub, köpüyü tutub.

kötüyün quyla, yemişin dər.

kövrə qarır, könül qarımaz. (**kövrə** (gövdə, tən, bədən) qocalır, könül yox).

köyə gedmə kim, köy əri kor edər. (**köyə**: bala yer). (**kor** : qanmaz).

köz altda kül olmaqdansa, köz üsdəki kül ol.

köz yarası iz qoyar, söz yarası köz qoyar.

köz yarası iz qoyar, söz yarası köz qoyar.

közə yanmış altundan qaçar. (**közə yanmış**: közdın yanmış).

közə yanmış altundan qaçar. (**közə yanmış**: közdın yanmış).

közəku uzun bolsa, əlik göyməz. (maşan uzun olsa, əl yanmaz).

közəku uzun bolsa, əlik küyməz: maşan uzun olsa, əl yanmaz.

Kul azmayınca hak yazmaz, Kulun başına felaketler, kulun yoldan çıkmasıyla gelir. (Bayram Özdemir).

Kul hatasız olmaz, mükemmel insan olmadığı gibi her yaptığı iş iyi olan insan da olmaz. (Bayram Özdemir).

Kurban Bayramı Türk kardeşlerimize mübarek ve kutlu olsun. Yeni hayırlara sebep olsun, Kardeşliğimizi birliğimizi güçlendirsin. Allah hepimizi korusun. (Bayram Özdemir).

Kusursuz güzel olmaz, Her şeyin hoşa gitmeyen bir yanı olduğu gibi, her güzelin hoşa gitmeyen bir yanı vardır. (Bayram Özdemir).

küçə iti, qapı bəkləməz (güdməz). (küçə iti: çarşı iti- sokaq iti).

küçük hürə-hürə it olar.

küçük qafa büyük savaş savlayar. (**savlayar**: iddiasında bulunar).

küçük qafa büyük savaş savlayar. (**savlayar**: iddiasında bulunar).

küçük təpə kölgəsi, böyüksünər toranda. (boy atırsa axmaqların kölgəsi, qoyar günəş üzün yürür batmağa). (böyür axmaq kölgəsi, günəş gedirsə batası). (yamanlar, pislər qaranlığı gücləndirər. bilgisizlərə, kahıllara ‘‘yaman’’ böyük görünər).

küçük, hürməyi anasından öğrənir.

küçüklər bulunsa uluq qatda, ulular alçalar küçükdən alta belə. (**uluq qatda**: uca məqamda).

küddək əgər padişəhi şəhr ola, sih götünü dərvazadan sal yola. (**küddək**: dağdaş kişisi. uyqarlıqdan uzaq olan).

küfdəli iş, tapar diş.

küfdəsi olsa işin, güdmə buraxsın izin.

kükərsə göy, küyməz topraq. (kükrəsə göy, yanamz susuzluğa topraq).

kül at küllük, gül ək güllük.

kül külə oxşar. (alçaqlar birbirindən seçilməz) -hər bağlığın öz barı var, hər güllüyün kəndi gülü, hər gülün öz iysi var.

kül odsuz, gül tikansız olmaz.

kül odsuz, gül tikansız olmaz.

kül olmadan qorxmadım, qul olmadan çəkindim.

kül olmasan sonunda, qul olmağın nəyidir.

kül olsun odu, alçağın yandıran odu. (**alçaq**: şərəfsizin).

kül urküncə, köz ürk (**ürkmək**: püfləmək). (kül püfləmə. köz püflə). (kül püflərsən gözün dolar. köz püflərsən işin onar).

kül ürküncə, köz ür. **(ürküncə**: kürküncə**.** ürfüncə). (kül piləyincə köz pilə). (**piləyincə**: püfləyincə).

küldən ot qalxar, oddan kül.

küldən təpə olmaz, güveydən oğul. (**güveydən**: kürəkəndən).

küldən təpə, qardan oyuq olmaz.

külək əsdiyi yöndəndə kəsilir.

külək əsir saman titrəyir, ağzın açıb, sözün girdəlir.

külək odu qızışdırar, araq hirsi.

külək olsan borana ras gələrsən.

külək otu qurudar, qayğı kişini.

küləkli gün yort, yağışlı gün, yat. (**yort**: yeri).

külənin yarısı yerdə. (keçmişdə külə kişilər kələkçiliyə adlanmışlardı).

külənin yarısı yerdə. (keçmişdə külə kişilər kələkçiliyə adlanmışlardı).

küləyin önünə düşməyən yorular.

küllügü güllük edər, bir iyi öndər çalışan bir el ilə.

küllügü güllük edər, bir iyi öndər çalışan bir el ilə.

küllük odsuz sanğırma. (**sanğırma**: fikrivədə gətirmə).

küllük olar gurbalıq, verən olsa güllüyə. (**gurbalıq**: kübrəlik).

küllükdən kül seçilməz.

külsüz evdə od qalmaz. (od kül altda qoruna). (od küldə qorunur).

külü çox, odu yox ellər.

külü göyə səpən, gözündə, başında yığar.

külü kimə, gülü kimə düşdü.

külü savırma, girər gözüvə, tüpürmə göyə, düşər üzüvə.

külüdə sənin gülüdə.

kündə yansa tüstələr, ölüm olum üstələr.

küp küpüyə, küp deyər.

küpçü bilir küpdəkin, torbadakın dilənçi.

küpə gopdan, gözüacdan, hisbağırdan ıraq. (**küpə**: qurralı. məğrur. kibirli. mütəkəbbir) (**gopdan**: lovğadan). (**hisbağırdan**: öfgəli kimsədən).

küpə, küpə küp diyər.

küpün zoru deşikdən çıxar.

kür ol, küpür yox.. **(**kür**:** iyid). (**küpür:** məğrur).

kür ol, küpür yox.. **(**kür**:** iyid). (**küpür:** məğrur).

kür olsa kişi, küplükdür işi.. **(**kür**:** iyid). (**küplükdür :** mütəkəbbirlik).

kür olsa kişi, küplükdür işi.. **(**kür**:** iyid). (**küplükdür**: mütəkəbbirlik).

kürd ha belə dəğişsədə, kütlügündən əl çəkməz. (**kütlügündən**: yamanlıından. kötülügündən. anlamazlığından).

kürə görmədən, dəmir döymədən, dəmirçi nədən ?.

kürə görməsə dəmir, yumşanmaz.

kürədən çıxdın, korluğa düşdün.

kürəyə yapılmışdı palan, deyirdik, ayaqsızdır yalan.

kürkü gündə küpə, tülkü, tülkünü gündə küpə, gülgü. (quzu kürkünü hər gün çırpsan tülkü kürkünə (yumşağa) dönər, tülkü kürkünü hər gün çırpsan, gülünc olur.

kürsü isdi, göt yastı, xanımın könlü nə istir.

kürzünün bir barmağın kəssən dönər ondan keçər, gəlki bu qurpuz aluğun soy dərisin ağlamaz. (**kürzünün: kürüzün**: zahidin). (**ondan**: onğdan. doğrudan. haqdan). (**qurpuz**: **qurpsuz**. misgin. yoxsul. kasıb).

kürzünün bir barmağın kəssən dönər ondan keçər, gəlki bu qurpuz aluğun soy dərisin ağlamaz. (**kürzünün: kürüzün**: zahidin). (**ondan**: onğdan. doğrudan. haqdan). (**qurpuz**: **qurpsuz**. misgin. yoxsul. kasıb).

küsənin ardıca qaçma. (o gedən yolları ot basıb indi, nə gözəlki gedəni ol gedən oldu).

küsənin payı yeyilər, yayı qırılar. (**yayı**: kamanı).

küsmə!. küsən, paysız qalar, şamsız yatar.

küsmək istəyir küsə bilməyir, barşıqda dözə bilməyir.

küssə çoban itindən, qurda düşər toy halay. (**halay**: şənlik).

küssə çoban itindən, qurda düşər toy halay.. (**halay**: şənlik).

küsülmüşük yerində, köməkləş yükü çataq.

küşən dəniz, qalın qalıq: coşan dərya, bulqan hava.

küt göz, nə görər, küt ox, nə deşər.

küt gözə, iti ox nə gərək.

küt küt yeyər yoncanı, yada salmaz daycanı. **(küt küt**: kürt kürt. xırt xırt. xıt xıt. xırp xırp. xıp xıp. qırç qırç.).

küt küt yeyər yoncanı, yada salmaz daycanı. **(küt küt**:kürt kürt. xırt xırt. xıt xıt. xırp xırp. xıp xıp. qırç qırç.).

küt qarı dilə, küt pıçaq ələ küt verir. (**küt qarı:** deyingən qarı). (**küt verir**: kötü gəlir. zərər verir).

küt qayçı, dərziyə korac. (**korac**: işini pozan, sınıxlayan ararrac!.

küt piçaq ələ küt verir. (**küt**: kot. kor. kesgin olmayan) (**küt verir:** əziyət verir).

küt piçaq, ələ yavuz, kötü avrad dilə yavuz. (kor pıçaq ələ yavuz, kötü qadın yavuz).

kütləni elgə edən bil eğitimdir, eğitimdir,eğitim. (**elgə**: millət) (**eğitim**: tərbiyət).

kütləni elgə edən bil eğitimdir, eğitimdir,eğitim. (**elgə**: millət) (**eğitim**: tərbiyət).

kütlüyə bir boya çatmış o 'qara', qutluğun düz boyası gündə çalarlı boyadur.

kütük dedin dal qabağı bəllənməz, başdan oxu dibdən oxu dəğişməz. (kütük sözün başdan oxu dibdənsə anlamı heç dəğişməz). (**kütük: kötük**. kündə). (boşqanın dal qabağı bəllənməz) (**boşqanın**: boşqafanın).

küydürən çox, övkəyən yox. (**övkəyən**: təsəlli verən).

küysün o pitik yandıran əllər. (**küysün**: yansın).

küzə gündə sınmaz, günündə sınar.

küzə gündə sınmaz.

küzə qıranda bir, suyu gətirəndə bir.

küzə qırılsada qılpı əldə qalır.

küzədən axan içindəndir.

küzənin geri verdiyi içindəndir.

küzəyə bulaşan, içindən değil.

kəmsitiklə baxma ulu babava. (**kəmsitiklə**: həqarətlə. təhqirlə).

qaba səmirən, özü qapılar. (gobudluk öğrədən, günündə qabıya yem olur, gobudluqdan paysız qalmaz).

qabaq sırlı, qabaq sırlı qadəhdir, döyərsən yarasa qırlanqıç olmaz.

qabaqda, inamın olsun, arxada, dayağın.

qabaqdaki ötürmüş, dalındaki eşitmiş.

qabal ağça yiyəsinə düşər. (**qabal**: qondarma). (yalan, uydurma nərsə çətin bəğənilər).

qabalıqlar yoğunun, verər sənə yoxunun. (**yoxunun**: yaxın olanın. yoxun olanın: içdən sananın).

qabanın ardınca qaçan, evdəki doğuzunda itirdi.

qabay başda, sonku us. (qabay öndə qaçar, us izindən) (**qabay**: qəhr. abay. qəzəb). (qızma, hirslənmə ağlı, məntiqi basar).

qabay öndə qaçar, us izindən. (qabay başda sonku us) (**qabay**: qəhr. abay. qəzəb). (qızma, hirslənmə ağlı, məntiqi basar).

qabayın utan köpərməz. (**qabayın:** hirsin. -tanrı **qabayar,** bolluq aparar). (**köpərməz**: köpməz).

qabığına çəkilmiş. (qınına girmiş. dış evrəndən, çevrəndən, dünyadan ilişgilərin kəsmiş. ətliyə sütlüyə qarışmazlıq).

qaçan at tutulur, söz çıxırsa tutulmaz.

qaçan fili, quyruğundan saxlaya bilməzsən.

qaçan qurtuldu, duran tutuldu.

qaçanda tanrını çağırır, qovanda.

qaçanda tarı çağrır, qavanda.

qaçanı qovma, düşəni vurma.

qaçanı qovma, geçəni təpmə, yıxığı vurma.

qaçanı qovma, yıxığı vurma. (qaçanı qovma, yıxılanı vurma!).

qaçanı tutur, duranı vurur. (qaçanı tutur, qalanı qoğur).

qaçanı tutur, qalanı qoğur. (qaçanı tutur, duranı vurur).

qaçarsa ardından yel yetməz, qovarsa önündən geyik qurtulmaz.

qaçıq dodaq gülüşsüz, ağlar gözlü hölüksüz (qalmaz). (**hölüksüz**: nəmsiz. yaşsız).

qaçınmamış başlamaqçün istəmək, istənmədən heç nəsiyə çatılmaz.

qaçış olsa qıyaş olmaz. **(qıyaş:** qıyşı. (< **qıymaq**). birbirinə qıyma işi. güvəniş. e'timadlaşış)..

qaçmağilə çatılmaz, dözülməsə yapılmaz, istənməsə alınmaz, aranmasa bulunmaz.

qaçmaq məndən, qovmaq səndən.

qaçmaqdan qoğalamağı unutmaq. (bir işlə çox dərin uğraşmış olmaq).

qaçmaqdan qovalamaya vakıt tapmamaq.

qaçmaqla çox yaşanmaz, savaşa girmək əcəl yarımaz.

qaçsan tutular, sorsan tapılar**.** (atsan tutular, sorsan tapılar).

qada bala handadır, yürsən ayaq astında. (**handadır**: hardadır). (yaşam odla su arasında qurulub, dinc yaşamaq bir bacarı, bir seçimdir).

qada düşəndə, başı qoyub, daşa düşməz.

qadam alsın gözəllərin alayı (qəmzə, naz, hilə), gözəllərdən sıdqım sıyrıldı könül.

qadam gəlsin keçmiş yoldan dönənə.

qadam olsun gedənin, dərdi mənim gələnin.

qadana (zəncir), su saxlamaz, yırtıq ağız söz saxlamaz.

qadanın içinə qaçan itirdi, dışına basan apardı.

qadaş qardaşın yoxluğun istər, ölümün yox.

qadın alsan balta al, ayaqların çalda al.

qadın başlıdan erkək olmaz.

qadın erkək, birbirinin can yoldaşı, iç dayağı, kit sevincin tam ortağı. (**kit**: kədər).

qadın ərdən nə istəyir. –qızı kimi qorunma, -qadın kimi sevilmə, -ana kimi sayğılma.

qadın ilqarı, deyir kişidən asılı, kişi ilqarı deyir, vardan basılı.

qadın kəndi evin xanımı, kişi kəndi evin ağası, it öz nininin arslanı.

qadın malı, hamam toxmağı.

qadın orqağuc olar, ama qancıq yox. (**orqağuc**: doğan. doğuran).

qadın seçim, hər kiminə özünkü.

qadın tayfasının yaramazı yaramazdı, iyisi iyidi.

qadın yerdən çıxmamış, erkək aydan düşməmiş.

qadın, erkəyin əşi, evin günəşi.

qadına bəzəkdir paltar, ağacındır bəzəyi yapraq.

qadına göz yaşı sudu.

qadına inanan kəndin, inanmayan qadının aldadır.

qadını çimrinin qazanı qaynamaz.

qadını evindən, kişini pirindən sorarlar.

qadının bəzəyi yalan, yalın, çılpaqlıqdı.

qadının fəndi, ərkəyi yendi.

qadının gözünü yox, sözünü düşün.

qadının saqqalına gül, ağlın oğurla (al).

qadınların dili, erkəklərin əli yumşanmalıdır. (yumşaq dil təpməz, yumşaq əl itməz, oxşar).

qadınların dili, erkəklərin əli yumşanmalıdır. (yumşaq dil təpməz, yumşaq əl itməz, oxşar).

qadınsız ev olmaz, acıtsız çörək. (**acıtsız**: mayasız).

qadınsız, ev donanmaz, yəhərsiz at.

qafava taxılandan qorx, işivə gələildən yox. (**gələildən**: gələbiləndən).

qağan aslan kimi anğar ərənlər, oxa qalxan kimi göğsü (sinə) gərənlər.

qağan aslan kimi anğar ərənlər, oxa qalxan kimi sinə gərənlər.

qaqılmasa, açılmaz (döğülməsə açılmaz). (qapı).

qaqırın utmaq, batır yaraşı. (**qaqır**: qağış. qəzəb. qəhr. qəhir. acığ).

qaqran yola çıxmış, başın itirmiş. (**qaqran**: acığlı. hirsli. qəzəbli). {(acığla yola çıxan, başın colağa soxar. (**colağa**: gora. qadıya)}.

qal savı qalmaz, kağıl bağı yazmaz: ağsaqqal sözü işlər, söğüt dalından qurulan bağ, düğün açılmaq.

qalan geriyə batır, yaşam yarına baxır.

qalan günün başlanırı bu gündən, doğan günü qarışdırma tüniylə. (**günün**: ömrün).

qalana ged deməm, gedənə qal, qalan yerin bilir, gedən yolun bulur.

qalar olmaz sanma, gələr dönməz inanma, ölməz demə itməz yox.

qaldı yerdə ol yükün, palan yoxsa çatılmaz, yov yavalar başçıdır, doğru yola varılmaz. (**yov yavalar**: yağu yamanlar. düşman bədxahlar).

qaldıq yaman günə biz, bilməm nədən qınamız. -qanmır deyir qanıram, kordur deyir görürəm, laldır deyir ötürəm, kardır deyir duyuram. bilməm nədən qınamız. (**qınamız**: 1. əzabımız. 1. günahımız).

qaldın bükün, aldıın yükün. (beli bükük qalsan yeklənirsin). (devrən olduğun, göründüyün kimi sənlə davranır). (**devrən** çevrən).

qaldır qaşıvı, yesin aşıvı.

qalx ayaq üsdə dayan, ölsəndə, igidə çox yaraşır dursa ayaq üsdə gərək.

qalx qarananqu gecənin bağrını yar. (**qalx:** çıx).

qalxanı qapız olanın, süngüsü xiyar gərək. (**süngüsü**: neyzəsi).

qalxıb durar kişi yıxılsa özü, yıxıldı duranmadı, dosda yıxılan.

qalxış keçir düşməkdən. (qalxış yolu düşməkdən). (yıxılmadan durğalmır). (bulanmadan duralmır).

qalxış qaldır əngəli, at yiyəsin meydan səni gözləyir. (**qalxış**: cürət ed. cəsarət ed. təşəbbüs ed). (**əngəli**: manei).

qalxsın ortadan qarşılıq, tutsun yerin yarşılıq. **(qarşılıq:.** ixtilaf). (**yarşılıq**: barış. saziş).

qalıb kimisi boşana! kimisi dolana!.

qalıq quşlar adası, balıq suda qalası, yalıq qara barası. (**qalıq**: hava). (**barası**: yaratığı). (quş havada, balıq suda, insan topraqda olsı).

qalımın sözü yoxdur, ölümün sonu yoxdur.

qalın qaz, qılavuzsuz olmaz. (qaz sürüsü). **(qalın**: > **gəllə**. sürü).

qalın qolan çuvqasız (yalavacsız, qılavuzsuz) olmaz.

qalın qolan yoğqasız olmaz. (**yoğqasız:** yolqasız). (yekə kərvan qılavuzsuz olmaz). **{qolan. (**qol kimi uzanan) kərvan. arğaş}..

qalın versə qız alır, gərək olsa qız alır: (**qalın**: cehiz). (**qız**: baha).

qalınğ yoxdur, qız dura, öğlə qoymaz, gün dura. (**qalınğ**: cehiz). (qızın cehizi olsa, alan tapılır, gün öğlə qalxdıqda, gün batıya, sönməyə yaxlaşır).

qalının tozu, kötünün sözü bitmez.

qalırsa sağlasın, ölübsə yarqasın.

qalısa nisgili eşqin ürəyim parçalayar, buna dərman aradım söylədilər yengə ara. (**yengə**: yengisin. yenisin. tayın).

qalma geri, işin keçər, gəzək ötər, karvan köçər. (**gəzək**: sıra. fürsət).

qalmağıva yer verdim, içməyivə çay verdim, sevməyivə can verdim, gedməyivə yol verdim, nə umurdun bilmədim!.

qalmaram böylə sınaqdan, çıxaram mən.

qalmaz güvən özüvə, qılsan güvən özgüyə.

qalsa tək başın, at yaman daşın. (yamanla dosluqdansa, yalnız qal).

qamçı atı, butum igidi çapıtar. (**butum**: yutuğ. sınas. vicdan).

qamınisdən türk üçün elçin güc olmaz. (**elçin**: milli).

qamış sudan doymaz, qadın toydan.

qamışı boş tutsan, əlivi kəsər.

qamışın ayağı (dibi) suda olsada, başı qurudur.

qamu ağruquna canan dəvayi dərd edər yovğaş, neçün qılmaz bana dərman, bəni ağruq sanmazmı. (**ağruquna**: sökəlinə. naxoşuna. bimarına) (**yovğaş**: bolqat. ehsan).

qamu ilə tanış qıl, dosluğuva ərdəm bul.

qamuğ kişi düz ərməs. (adamların hamısı bir deyil, bir qıl deyir).

qan ağlasan qarındaş, özgəsilə yağ yalamaq baş tutar. (**qarındaş**: özünkü).

qan axırsa dünyalar görər, kim bilər ağrısa ürək.

qan gəzsə damarda huş başında gücü qolda tavan əldə, verməklə dənər əldə edinmiş dəğərin mal. (**qan damarda gəzmək**: qayratlı (qeyrətli) olmaq). (varın işlətməyi bilən sağ başlı olur).

qan içində bok tapılsa öldürər, bok içində qan tapılsa ölümcül elər. (**bok**: pox).

qan ilən girən can ilən çıxar. (qanla girən canla çıxar).

qan qardaş olsada, mal qardaş deyil.

qan qoxusu, gəlir iyi, çəkir gözü, salır əzir, izdən izə.

qan qurumuş unutulmamış. (qan quruyar unutulmaz).

qan quruyar unutulmaz. (qan qurumuş unutulmamış).

qan ocağına çevrilən taxlar.

qan örtülsə qan ilə, qan qoxusu kəsilməz, qan yuğulsa su ilə, qandan bir iz tapılmaz.

qan sudan ağır basar. (qanla su ölçüştürüləməz).

qan sudan ağır.

qan suyu bular, su qanı yuğar. (yuğarsa qanı su, qan suyu bular).

qan ürəkdən atar, su bulaqdan!.

qan yerinə danşıq, qanlı içə barşıq (gətrir).

qana qan, cana can, duza duz, düzə düz demişlər.

qanacağı çox olan acıları qolayca aşınar. (**aşınar**: sindirər. həzm edər).

qanacağın az olsa, inandığın çox olar.

qanacı yox, inancı çoxdan qaçın.

qanan gözdə. -ölümə inanan ucalmır, ama ölümü danan alçalır, gülünc olur.

qanan ilə daşı daş, qanmaz ilə yemə aş. (qanan ilə ölsəndə, qanmaz ilə yaşama).

qanan ilə ölsəndə, qanmaz ilə yaşama. (qanan ilə daşı daş, qanmaz ilə yemə aş).

qanan yanar, qanmayan yandırar.

qanan, qanmazı qanar.

qanana bir göz, qanmaza mini yetməz.

qanana bir söz, yanana bir köz.

qanana da can qurban, qanmayana da, dad yarımçıq əlindən. (araz gündüz).

Qanana da can qurban, qanmaza da, dad yarımçıq əlindən.

qananı qandırmaq çox güc, qanmazı qandırmaq nə qolay. (**qandırmaq**: aldatmaq).

qananınan qanmazın qarşıtlı sözü (bir birinin qabağında sözü) birdir: yox. qanan qanmazı qanmır, qanmaz qananı qanmır.

qananlardan yapınca, yapanlardan qanınca.

qananlarız yürürüz, inandıqda dururuz.

qanansa de düzünü, özü qoyar duzunu, qanamaza de sözünü, yozar sözü el içində xar edər.

qanat aç, kəndivi yığ, öz oyansın. (**kəndivi**: nəfsivi). (**öz**: iç özün).

qanatların döşərmiş, bilgə kişi bilgəsə. (**bilgəsə**: bilmək istəyən kimsəyə).

qanatlı pişik quş qoymaz, qanatlı qurd qoyun.

qancıq çox amcıq yox.

qandığınca yapınsan, yapdığıvı qanarsan.

qandığıvı yapınca, yapdıqların düşün qıl.

qandıranmırsa, qındırar, aldıranmırsa, sındırar. {bu söyləv sırvazın (sadismə tutqunun) gördüyü işi, tutduğu yolu göstərir}. (**qandıranmırsa**: inandıranmırsa). (**qındırar**: öldürər). (**aldıranmırsa:** bacaranmırsa. nail olanmırsa. müvəffəq olanmırsa). **(sındırar**: qırar).

qanı, qan ilə yunmaz.

qanığ düşncənin yuvası. (**qanığ**: qavram gücü. şuur).

qanığan aldı yolun, vurdu daşa, çıxdı başa, qanımaz boynu yoğun, başı qoyun, çatdı aşa. (**qanığan**: düşünən, dərk edən). (**qanımaz**: düşünməyən. dərk edməyən).

qanığay yox yaşama. (yaşamdan doydum deyən tapılmaz).

qanilə qan yuğulmaz, barış yağış qurulmaz. (**barış yağış**: sülh rəhmət).

qanılmazı ələ salmaq, el içində dəb olub, sıra gəlmiş, dönə dönmüş, özü çönmüş lağ olub.

qanla girən canla çıxar. (qan ilən girən can ilən çıxar).

qanla qanlı bulaşsa, barış köçər qay gələr. (**qay**: bəla).

qanlı düşmanı, kəndi devləti, dirçəlməyər can devləti.

qanmaq işi iş istir, qanmamağa navarki. (**iş**: zor. çalışma).

qanmayıb dinləmək, kişinin ən böyük vırqınıdı. (**vırqınıdır**: bəlasıdır).

qanmaz anlamaz, kütbeyin yaşlandıqca yaşıllanmaz, ağıllanmaz.

qanmaz arvad ev pozar, yarım xoca din pozar.

qanmaz başa söz taxma, şoraq yerə dən səpmə.

qanmaz başlar yaman bitə tuş gəlir. (**bitə**: sona. aqibətə).

qanmaz elin başı gora batası.

qanmaz ilə sırdaşma, kar biriylə qonuşma, kor biriylə yollaşma. (**yollaşma**: yola çıxma).

qanmaz ilə sırdaşma, kar biriylə qonuşma, kor biriylə yollaşma. (**yollaşma**: yola çıxma).

qanmaz kiminə sözün yaxşısı, günü bıraxıb çırağ yaxtısı. (anlamazla sözləşmək günü bıraxıb çirağ gəzməkdir). (**yaxtısı**: ışığı).

qanmaz qonaq ev sahibini ağırlar.

qanmaz nə bilir özgə dili, qanə zəhərdir, atmaq dilini, sil kəsəlindəndə betərdi. söksən ürəyin, gördüyü düşdə ana dildə, amma ki sanar öz dili, otlağu bitərdi. (sil kəsəlindəndə: tüberküloz). (**otlağu bitərdi**: çöl otudur).

qanmaz yoldaş, sıy bilməz (nadan yoldaş, qədir bilməz!).

qanmaz, dirilərin ölüsüdü.

qanmaz, qanana, qanmazlığın nə olduğun görsətir.

qanmaza söz qandırma, quru ağaca su (səpmək kimidi).

qanmaza ver çörəyi, başında yığ kürəyi.

qanmaza, qın yox.

qanmazı dinlə, qanandan söz eşit.

qanmazı yaş onarmaz. (anlamaz kişi yaşlandıqca ilərləməz).

qanmazın sözündə düşün, qananın sözündən üşün.

qanmazları, qanandaki, tov bassın! (**tov**: güc).

qanmısan, bacarmısan, qayğılısan oyanmısan?.

qanmıyanın bir başına min daş gəlsə kəm olmaz, qanana min can belə az olar.

qansanki dilin vardı, böyük yer yiyəsi dillər içində, yadlar dili baldursa gülüm, ağzuvu sancar, öz doğma dilindirki şirindir sənə baldan.

qanuna əyən el olur, qanunu əyən nə olur.

qanuna əyən eldi, qanunu əyən başçı.

qapa gözün bir anlıq, gördüyün nə? qaranlıq, olsan uzaq yanımdan, çevrəm olur koranlıq.

qapaqsız qazan qaynamaz, qaynarsada, gec qaynar.

qapaqsız qazan qaynamaz.

qapalı bazar, dosluğu pozar.

qapalı dodaq man görməz, işləməz əl bar görməz. (**man görməz**: ayıbsız görnər).

qapanın biləni yox, bilənin qapanı yox.

qapanmamış yaralar nisgilə çönür.

qapatsansa keçmişin, açıq durar yarınlara yolların, açıq keçmiş ıraq qoğar yarının. (keçmişindən qırmadan, yarına yol tapılma).

qapı açıq olsada, sorabmamış girilməz.

qapı açıq, sən o tayda mən bu tayda, təki "uğra gecən" deyənmədik. (**uğra gecən**: gecən xeyrə).

qapı halqasız, dəniz dalğasız olmaz.

qapı məçidin, it yatmaz, xoca çörəgin el dadmaz.

qapı yapmadan evə girmək. (çox tələsik iş aparmaq).

qapı yox açmıya altundan haçar.

qapıda qulağ, yolda gözün qalsa, çıpın gəlir alar səni. (**çıpın**: cin).

qapıdan axan su dərək bulmaz. (gündəliyə aldışa dönən tutardan düşər).

qapıq beyin, açıq ağız bollu sorun yaradar.

qapıq qapıdan umuqdansa, açıq qapıya umutqıl.

qapıq qapını unutqıl, açıq qapını gözdə tut.

qapıq yolu tanımaq, açıq yola yarımaq. (**qapıq**: keçmiş. ötmüş).

qapılan qapanındı, tapılan tapanındi.

qapıldınsa aldışa, qaçırdacaq ardıca.

qapıldınsa aldışa, yaramırsa at dışa. (bir alışqanlığın asığı düşüğü yoxsa, dışarı tuulamalısan) (**asığı düşüğü**: karı uyqunluğu, faydası).

qapılma ona. -ölümün, qorxunun gücü qat qat dözümlə olumun gücündən yekədir!. (**olumun**: varlığın).

qapım qandan uzaqdır, qan qapıma düşməsə.

qapından keçən arxı çöp basar. (əldə olan danğa (ne'mətə) gərəyi dəğər verilməz).

qapını açan öğrətçi, qapıdan yürən öğrənçi.

qapını elə bağla dönsən açabiləsən.

qapını girmədən döğ, girdin bağla.

qapısı yaman evi neylisən, anası yaman qızı neylisən.

qapıtsa qapını kötü kişilər, iyilər anca kəndilərin aratmış olur. (**anca**: ol dərək). (kötülər uzaq olduqda, iyi gündən günə kəndlərin arıtlarlar). (bilki, kötüdən kötülük yoğar). (**yoğar**: bulaşar. sirayət edər).

qapıvı döğən ya özlüdür, ya üzlüdür, ya sözlü. (**özlüdür**: öz, iç adamdır),.

qapıyan düşən, amacın tapsın, bilgələrin, bildiyin yapsın. (**qapıyan**: qapına).

qaplan tilki izin basmamış. (**qaplan**: igitlik simgəsi) (**tilki (tülkü) izin:** yalançılıq, kələk yolun).

qaplanın hirsinə baxma, oda öz balasın yemir.

qaplanınki dişi var, buynuz nəyinə gərəkdir.

qapmaz it, təpməz at demə.

qar dağın, su çuxurun tapar.

qar dənəsinə döndük arada, toxunmadan birbirinə əridik düşən yerdə.

qar qarın başın yeyər.

qar yağarda buz olar, gün düşərdə əriyər, yağış olub yağda sən, sənsin qalan geriyə.

qar yağırsa sevinmə, ayazı var izindən, çox gəpirməyin yeğ deyil, barası var gerindən. (**izindən**: **gerindən**. dalından).

qar yağırsa sevinmə, ayazı var izindən, çox gəpirməyin yeğ deyil, barası var gerindən. (**izindən**: **gerindən**. dalından).

qar yağış olar, dağda daşda, atalar sözü, ağıllı başda.

qara (kor) gözden yaş, yoxsul evden aş bekleme!.

qara baxan göz, qamaşar.

qara baxdın əli yetişdi aşa, başı dəydi daşa. (qara bəxdin: əli aşdasa, başı daşda olar).

qara baxt elin, qara baxt dili var, dil yoxdusa, elin kimi var ?.

qara baxtın əli yetişdi aşa, başı dəydi daşa. (qara bəxdin: əli aşdasa, başı daşda olar).

qara başın yarağın eyləqıl sən.

qara bibər qaradır, dirhəmlə satılır, qar, ağ appağdır, kürəklə atılır.

qara bulutu yel açar, urun belə il açar: rüşvət düğün açar.

qara daşdan, soğur gözdən yaş çıxmaz. (**soğur**: göz giləsinin yerləşən sulu torbası sökülmüş, tökülmüş kor).

qara dəmir qara kömür oda düşsə qızarar.

qara doğmuşa, qarqa oğluna, sabın neyləsin, çoğan neyləsin.

qara duyqular yaşın çürütür. (pis fikirlər, hayatıvı zəhər edər).

qara el ağlı baş pozar. (**qara el**: bayağı, sıradan olan).

qara gecə ağ olmaz, eski düşman dosd olmaz. (Arif Herawi).

qara gecə ağ olmaz, yalançıdan dosd olmaz. (yaqub bayat).

qara gilənar suda cihlənər, sevəgən könül tez ürəklənər. (**cəhlənmək**: cihlənmək. ciklənmək. paxırlanamaq).

qara gilənar suda cihlənər, sevgili ürək tez ürəklənər.

qara gördük bırak olmaz bu qara ol qaradan. (bırak: ama). (bu qara o qaralardan deyil).

qara görsə it hürər. (**qara**: kölgə).

qara günü gözləyən qara günə qalar.

qara it qapar, ağ it yapılar (tutular).

qara keçə ağ olmaz, qarı (əsgi) düşman dosd.

qara keçə, ağ bolmaz, qarı düşman dos bolmaz.

qara keçə, ağ bolmaz, yalançıdan dos bolmaz.

qara qara qarqalar, qalın qalın qar qalaqlarının qabağında, qar qar qarıldaşırlar.

qara qarıların otsuz ocağı, qara günlərin qutsuz bucağı.

qara qazan, könül versən ağarar.

qara quş ləş başında, soyqunçu mal qaşında.

qara quşa ox, öz yələyindən dəğər.

qara sevda başa iş alasevda başdan iş.

qara toprağa batda, alçaqlara alçalma. (**alçaqlara**: iğrənclərə. namətlərə).

qara topraq həp varlığı utacaq, üzqaralıq qaykişiyə qalacaq.

qara topraq söz yiyəsin qucaqlar, ondan sonra giz yaratuq tanuqlar.

qara üstünə qara yoxdur.

qara üstünə, yox boya, aca verdin, ver doya.

qara üzlü pul, ağartmış qara gecəni.

qara var göz qarası, qara var üz qarası. qoşusu qara, o qara hara, bu qara hara. (qara var gözdə, qara var üzdə. qoşusu qara, o qara hara, bu qara hara). (**qoşusu**: ikisi).

qara var gözdə, qara var üzdə. qoşusu qara, o qara hara, bu qara hara. (qara var göz qarası, qara var üz qarası. qoşusu qara, o qara hara, bu qara hara). (**qoşusu**: ikisi).

qara yerdən yaşıl göylük gögərir.

qara yerin qədrin əkinçi bilər, qara yolun qədrin, yolağçı (yolçu).

qara yerin qədrin əkinçi bilər, qara yolun qədrin, yolağçı.

qara, rənglərin üstünüdür, ağı görməyincə.

qara, tamuq, ağ uçmaqlıq demişlər.

qarabatdaq yolu gedən qarqa, batar.

qaraçı çalıb, kürd oynamaq. (qarışmış olub, kimin nə yapdığı bəlli olmayan).

qaradan yoxdu qara, ölüm üsdə yoxdu yara.

qaradan yuxarı rəh, ölümdən yuxarı dərd yox.

qaraqçıdan oğru qaçar. (yol kəsən oğruya güc basar).

qaraquş milçək, avlamaz.

qaralıqda oyanıq, aydınlıqda uyanıq. (**uyanıq**: uykulu). (iki çeşit yaşarız. - qaralıqda oyanıq, aydınlıqda uykulu).

qaralıqda oyanıq, aydınlıqda uyanıq. (**uyanıq**: uykulu). (iki çeşit yaşarız. - qaralıqda oyanıq, aydınlıqda uykulu).

qaraltı verər, ışıq verməz. (özün qabağa atar, yaraq (istifdə) verməz).

qaraltısı görünsə uzaq olmaz çatması. (bildir izi, bu il özü).

qaran gecə bitməz işi, uzun ərişi, bitməz sevgi başı burar dolar gorda itər. (**qaran:** qaranlıq). **(bitməz sevgi başı:** toxdamaz sevgi yara**sı)**.

qaranğunu yıxıb durub, dan gəliri, dan gəlir, allı dürlü boyan boyub, yaz gəliri, yaz gəlir.

qaranquda qardaş səsi tanınar. (hər nə alır bir boya, yalnız səsdir boyanmaz).

qaranquda qulaq duyar göz görməz.

qaranquda qulaq səsi qayrıqmaz. (**qayrıqmaz**: **qarıqmaz**. kırıx salmaz. tərs, iştibah tutmaz).

qaranquluqda yeriş yaramaz. (**qaranquluqda**: zil qaranlıq).

qaranquşla yaz gəlmər, yaz gətirər qaranquş! (**gəlmər**: gəlməz).

qaranlığa ışıq gərək, yaşamağa, bilik.

qaranlığın qədrin bilməyən, ışıqda kor qalar.

qaranlıq aydınlıqdan, yalan doğrudan qaçar, günəş yalnız da olsa, ış çevrənə saçar, qarqalar sürüylə, qartal yalnız uçar. (**ış:** ışıq**)**.

qaranlıq yerə girdin, gözüvü yum çəliyi tut.

qaranlıqda atınan eşşək seçilməz.

qaranlıqda çığırsan, qarındaşdan bəklə səs. (**qarındaş**: özünkü).

qaranlıqda ışığa sarı yerimə, ışığı tut önən yeri.

qaranlıqda iz qalmaz. (qaranlıqda kölgə yox). (istənilən iş, kimsə bilmədən, qaranlıqda yapılır).

qaranlıqda kölgə yox.

qaranlıqda od, aydınlıqda tüstü saklanmaz.

qaranlıqda, hər nə qara görünür.

qaranlıqı görübdə aydınlığa inandım.

qaranlıqlar yaranmışdır kölgədən.

qaranuq tün gecəni yarmağa yarmışdı bilim. (**qaranuq tün gecəni**: qap qaranu gecəni) (**yarmağa yarmışdı**: açmağa yaramlşdı).

qarasevda qara köynək dəğişməz, qara köynək, alasevda yad qalar.

qarasevdalı duraq bilməz, alasevdalı sorağ bulmaz. (**duraq**: dinclik) (**sorağ**: cavab. adres).

qaraüzdən (qə. bədən: oruspudan) arvad olmaz, oynaşdan ər olmaz.

qaravaşa don geydirsən xanım olmaz, ləpə ləpə qar yağsa yaza qalmaz.

qaravaşdan xanım olmaz, çiçəkgildən, odun olmaz. (**çiçəkgildən**: gül ağacından).

qaravaşın bəlalı başı, külü qoy, toprağı daşı.

qaravqul ol ağzına, dil durur canın qadası, qıs dişingi qatıraq, dişdir dilin qalası. (**qalası**: qapısı). (misgin).

qaraysa könül silinməz qara. (pis gümanlı olan çətin düzələ).

qarçıxdı dağa dadlandı.

qardaş evdə, yaxın demə, qonşu çöldə, uzaq demə.

qardaş qardaşın yoxluğun istər, ölümün yox.

qardaş səsi qaranlıqda bəlgirür. (qaranlıqda qulaq çətin ki yanıla).

qardaş yaman uzaq ol, yaxşı eldən qaçınma.

qardaş, qan qardaş olur, mal qardaş yox.

qardaşdan qarın yaxın. (kişi hammıdan irəli özün düşünür).

qardaşından ər olmaz, könlün açan gəp olmaz. (təkligi seçən qıza söylənir).

qardaşlığın tanıqlat, sonra istə sovğavı. (**tanıqlat**: təsdiq edit). (**sovğavı**: irsivi).

qardaşlığın tanıqlat, sonra istə sovğavı. (**tanıqlat**: təsdiq edit). (**sovğavı**: irsivi).

qarəndaşın kölgəsi gündə bəlli.

qarğa qarısın kim bilər, kişi alasın kim tapar.

qarğa qartal olmaq istədi vurdi qanadı sındı.

qarı biəni gəlin bilməz.

qarı dəvə köşək (bala) verməz.

qarı dəvə köşək verməz.

qarı dəvə qızıl-qızıl olsada, köşək gözləmə.

qarı öküz baltadan qorxmaz. (öğrənişmiş nərsədən qorxu tökülər).

qarıcıqlar gəlinciklər yaşlarını gizləməz.

qarıdıqca bir öküz qatlaşırı buynuzu. (öküz qarıdıqca buynuzları qatlaşar).

(öküz qarı buynuz qatı). (qarı öküz qatı buynuz).

qarın doyuran aşın, yağu yıxan daşın olsun.

qarın tox, qayğı yox. (bir para yaratıqlar belədir).

qarın yediyin qusar. (güllə yatan gül qoxar).

qarın yükü qata düşər, ayaq gedər, qab üzülər. (**qata**: dama).

qarındaşlıq alınmaz, doğan qarın bir gərək, yol yoldaşlığı alınmaz, yayaq atlı dəh gərək.

qarındaşlıq qarımaz, düz ilqarlı arınmaz.

qarınğ bar, bərkətin bar. (güzün çisi, qışın qarı, yaz yamğırı, il bolluğu).

qarının birçəyi ağ, ürəyi qara, gəncin ürəyi ağ, birçəyi qara.

qarının hörübü yaman, suyun örübü yaman. (**hörüb**: kələk. çatı. cadı. ovsun)

(**örüb: öğüb**: çöğüb. burğov. girdab).

qarınqulu qarnına gedər.

qarınqulu öz qarnın güdər, özgə əlin (götün) axdarar.

qarınpa qazanın altına yox, üstünə baxar.

qarınpanın özü doysada, gözü doymaz.

qarışıq dilli, duru kimlik qazanmaz.

qarışqa daşımaqdan, qarınpa aşımaqdan yorulmaz. (**aşımaqdan**: **aşamaqdan**).

qarışqa olsanda ol, kəndi gücün bilgilən.

qarışqanı ayağa qoy, özü başa çıxar.

qarıvmasa bağ olmaz, sağılmasa yağ olmaz. (**qarıvmas**: baxılmasa).

qarqa aytmış appağım, kirpi aytmış yumşağım. (hamıya dadlı öznünkü, kəndi manın görməzkin) (**görməzkin**. görməz heçkəzin).

qarqa bala ağcalaq, kirpi bala yafcalaq. (**ağcalaq**: ağapbağ). (**yafcalaq**: yumşaq).

qarqa balasın lappağım (ağ appağım), kirpi balasın yumşağım deyər.

qarqa döşün çəkməklə qaz olmaz.

qarqa gözü poxda.

qarqa qarıldar, qış gətirər, qaz qaqqası, yaz gətirər.

qarqa qarqa gözün çoqurmaz. **(çoqurmaq: çuqurmaq**. oymaq).

qarqa qarqanın gözün çoxubaytmaz. (qarqa qarqanın gözünü çıxarmaz).

qarqa qarqanın gözün oymaz.

qarqa on iki hava qarıldar, biri birindən zəhlə getməli.

qarqa tavçası çöplüyə salar. (**tavçası**: tovsiyəsi) (**çöplüyə**: poxluğa).

qarqa yuğunar, qarası çıxmaz.

qarqa, qarqa gözün çoğurmaz. (**çoğurmaz**: oymaz. kor edməz).

qarqa, qarqa gözün çügürməz. **(çügürmək: çükürmək**. dimdikləmək. oymaq).

qarqada quş sayılır, sərçədə.

qarqadan göyçək quş istədilər, öz balasın göstərdi.

qarqanın bir gözü oxda, bir gözü poxda.

qarqanın ötməsi, özünə xoş gələr.

qarqanın ötməsi, özünə xoşdur (xoş gələr).

qarqanın səsindən xoş səs yoxdu, bülbülü duymuyan yerdə.

qarqanın üzü qara, içi ala (pozuq).

qarqanın, mininə də, bir daş yetər.

qarqanmaz ata, yarqansa bala. (**qarqanmaz**: qınanmaz. cəzaya düşməz).

(**yarqansa**: tərbiyət olsa. hidayət olsa).

qarqaşa qılayatğan bala aldağan yaxşı. (qarqaşa, dincsizlik qılıb duran cocuğu oyalamaq yeğdir). (**qarqaşa**: şuluğluq. dincsizlik).

qarqış ilə doğunmuş qara qışlar bilmədim.

qarqışlar qocaldır, alqışlar ucaldır.

qarqıya dedilər poxun dərman, getdi dəniz ortasın seçdi.

qarqnın bir gözü oxda, bir gözü poxda.

qarlı dağ kimi yalnız, kəndi qayğıma dalğız, aşq yolun tutalı, nisgil özləm qalağız. (**dalğız**: batmış). (**nisgil özləm qalağız**: həsrət həsrətə qalanır. həsrət həsrət üstünə qalanır).

qarna qulluq, kəsəllərin başıdır. (qarınqululuq xəsdəliklərin başıdır).

qarnı ac gözü acdan tez doyar.

qarnı acığan, qazana baxar.

qarnı acmış, gücü qaçmış.

qarnı tox, beyni yox.

qarnı tox, sözü yox.

qarnım kürəyimə qovuşub, mənimki məndən sovuşub.

Qarnım üçün yaşamıram, arım üçün yaşayıram. (Ara Gündüz).

qarnımdan çıxan qada, kimə gedim səndən dada.

qarnıva görə aş iç, boyuva görə don biç.

qarnıva görə aş iç, boyuva görə don biç.

qarpuz başdan, ağac yaşdan böyüyər.

qarpuz kəsmeklə, yürək soğumaz.

qarpuz qabuğu ilə böyüyən eşeğin, ölümü sudan olur.

qarrı arslan sıçana, qarrı börü itlərə yem olarmış.

qarrı qoca başda usun, təndə gücün itirsə, cibi boşsa ən yaxını yad olar.

qarrı qoca başda usun, təndə gücün itirsə, cibi boşsa ən yaxını yad olar.

qarrı qurd hünkürtüdən, dəğirman sıçanı gurultudan ürkməz. (**ürkməz**: qorxmaz).

qarrığa aylandı biz görən yaşlar, ayağa dolandı biz görən başlar. (**qarrığa**: qarıya). (**aylandı**: çöndü). (**yaşlar**: gənclər). (**ayağa dolandı**: yerə düşdü. öldü).

qarrığa aylandı biz görən yaşlar, ayağa dolandı biz görən başlar. (**qarrığa**: qarıya). (**aylandı**: çöndü). (**yaşlar**: gənclər). (**ayağa dolandı**: yerə düşdü. öldü).

qarşılığın güdməmiş, seviş alanda nökər.

qarşılığın içində, sevgi yolun tutanlar.

qarşılıqsız iş görən, seviş eşqə kölədir.

qarşılıqsız nə yapılmış, degilən. (hər nəyin qarşılığı var). (hər qılıqda bir qarşılıq bəklənir, bəklənən nərsə **"heçnə"** olabilir).

qarşından atar, başından yox. (**qarşından:** göz qabağındn).

qarşından gedib, başından çıxar, çıxmayırsa bil, ayağdan yıxar.

qarşısa başın xoşluğa könül gec qalır ölüm.

qarşıva çıxanı boşla, qarşına gedəni tuşla.

qarşıva sən doğru çıxan gözləmə, doğru yapın özünlə sən bil yetər.

qartal qocalsa, sıçan avlar.

qartal yuva qurmaz tanqa qalırsa belə. (**tanqa** > tənha. tək. yalnız).

qartal yuvasın gəzər, at sürüsün.

qartalla gəzən daşa, tüküylə gəzən ləşə qonar.

qartallar çırpışır, göyərçin tükü ürpəşir (tozlanır).

qartalsız ölkədə, yapalaq qartal sayılır.

qasırqaya dayanan, əsən yellə yıxılar. (bulağayla, qarışılıqla araya girən, qarışılıqla aradan çıxılar).

Qaş qayıran yerdə vurub gözünü tökdü. (Araz Gunduz).

qaş üsdə göz yaparlar, əlindəkin alarlar. (qaş üsdə göz yaparlar, əlindəkin çalarlar) (**qaş üsdə göz yaparlar**: başıvı şer başına oxşadarlar).

qaş üsdə gözü var dedilər, varın yoxun yedilər. (kişini şişirtdilər).

qaş yapayım dərkən, göz çıxarmaq. (iş düzəltmək diləyi ilə iş pozmaq).

qaşa baxma, gözə bax, ağızdan çıxan sözə bax.

qaşa qaşa, qazan olur, yasa yasa, daban. (**qaşa qaşa**: qaşıya qaşıya). (**yasa yasa**: yastılata yastılata). (**daban**: ayağın altı, ayası).

qaşıq bilər isti soyuqdursa aş. (ağız yandıran aşı qaşıq tanar).

qaşıq ilə aş verib, sapı ilə göz oyur.

qaşıq qaşıq yığarsa aşı, iğnə ilə qazdırar daşı, bel külüklə dağıdar başı, oddur yandırar qurunu yaşı, ağarmaz qaşı bilinməz yaşı, yalan dünya, yalan dünya.

qaşıq yapan çox olar, qılpın verən az olar.

qaşıq yapdın, qılpın qoy, iş gördün dibin qoy (bitir).

qaşıqla verən mənidim, gözüvü deşən sapıydı.

qaşıqla verir, sapıynan göz çıxarır.

qaşıqla yedirib, sapıyla gözün oymaq, çıxarmaq. (yapdığı bir iyiliyə qarşıt, qat qat artığna kötülük edmək).

qaşıqla yığılar, çanaqla yıxılar (tökülər). (qaşıqla yığılar, çanaqla yıxılar**)**.

qaşınmadan yaraşmaz. (yonulmadan yaraşmaz).

qat qata yolda verər boşda verər. (dövlət dövlətlə ötüşər). (**qat**: hakimiyyət. dövlət).

qata umut qata umuq yaratır. (**qata**: **kətə**. yekə. böyük).

qatarda dəvən olsa yükün yerdə qalmaz, əkində əlin olsa, xırmanda çuval boş qalmaz.

qatarda ər olsa, yük yerdə qalmaz. (**qatarda**: qurupda).

qatarından ayrılan qaz, bir topa qarğaya yem olar.

qatdan baxan dərin görür. (**qatdan**: damdan. ucadan). (**qat**: dam).

qatı dal, iti baltasar. (**baltasar**: balta istər).

qatı yay çəkən uz atar.

qatı yüngül, altı yoğun çox durar. (**qat**: dam).

qatığ yumşansa diş kəsər, yumşaq qatqulansa iş kəsər.

qatıq, köhnə beyinlər. –qız bala ərdə yaxşı, ər yoxsa gorda yaxşı!.

qatılığa qatlandıqca qatılar. (qabalığa, kötülüyə qarşı dözdükcə kötüləşir).

qatılığa qatlandıqca qatılar. (qabalığa, kötülüyə qarşı dözdükcə kötüləşir).

qatın qatınğa, söğüt sulunqa. (**qayınğ**: qatın. ğan ağacı). (ğan ağacı qat yeri sevər, söğüt ağacı sulu yeri).

qatır, əli ilə ayağdan, insan, dililə başdan bəlaya düşər.

qatırı anası ilə, atı atası ilə.

qatqısız sevi tökdüm ayağına, sənin gözün çuval götündəymiş. (**qatqısız**. çılxa).

qatnaşanlar yol qırağında qalmış, çalışqanlar yol uzağını almış, çatar bir gün yorulmadan gedilsə, verər ürün, açıq topraq bolluca su öğün çağda əkilsə. (**qatnaşanlar**: dözəgənlər). (**ürün**: hasıl). (**açıq topraq**: sürülmüş yer). (**öğün: oğun**: tuxum).

qatranı qaynatsan, olurmu şəkər, cinsi batası, cinsinə çəkər.

qatta ağac sərt yelləri sevərmiş, incə güllər bir əsiylə gülərmiş.

qavın pişsə, sapında durmaz.

qavını ye, qarnıva bax, qarpuzu ye, bənzivə bax, üzümü ye, qolsuva bax.

(**qolsuv:** budar. bazu. qolşaq. qoltaq).

qavışan şaşdı, qapıda qaldı. (haq qapısı).

qavqaçı qurd səmirməz, savlaşlı iş səkirməz. (**savlaşlı**: məşvərətli).

(**səkirməz**: büdrəməz. çaşmaz).

qavun qavundan alalır, kişi kişidən utanır. (**alalır**: **al alır:** rəng alır).

(qaykişidən ut güdmə. (**qaykişidən**: namərddən). (**ut**: utanmaq).

qavurqa ver dişliyə, ağız əngi işliyə.

qaya başında gəzən, günündə qayar. (**günündə**: bir gün).

qaya kimi yerin olsa, ərən kimi ərin olsun.

qaya üstünə, ağac üstünə yuva qurulur, acı üzünə balta vurulur.

qayar özdən ər bolmaz, sevməz canda dərd olmaz. (**qayar özdən**: zatı

pozuqdan. kökü xərabdan).

qayası daşı dağ yaraşıqı, igid oğullar el yarşığı.

qayğı əğər, qəm bükrər. (bükrər: bükürər).

qayğı əri, od yağı əridər. (**qayğı**: fikir xiyal).

qayğı insanı qocaldar, güvənc anı ucaldar.

qayğı kişini qurudar, qurd ağacı.

qayğı qalxsa kişi batırar, su qalxsa qayığ.

qayğı yemə bitər ömür, yaşlıq çağın tezin gömür. (**gömür**: quylanır. batır).

qayğunub dalğunma. demə "Olmasaydı Nə Olurdu", denən "Yoxdur Nə Olur".

qayğurların yarınların qoruğmur, əlindəki sevincivi oğurlur. (**qayğurların**: iztirabların).

qayıq su üsdə, qaymaq süt üsdə.

qayından qardaş, gəlindən bacı olmaz. (**olmaz**: çıxmaz).

qayıranmasan, qaydırma. (**qayırmaq:** bərkitmək. bərqərar edmək).

qayıtmış keçən günlər, yad qalıb gülən üzlər. (keçən günə gün çatmaz).

qaykəsin işi pula yarsada, pulu işə yarmadı (**qaykəsin**: nakəsin).

qaykəsin pulu yarmaz işə (**qaykəsin**: nakəsin).

qaykimlərin əlindəsə dərmanın dayan dərdə, o dərmana əğilmə. (**qaykimlərin**: namətlərin).

qaykişidən borclanma, boclansanda, harcanma. (**qaykişidən**: nakişidən).

qaykişidən çəkməyən, doğrusunu tanımaz. (**tanımaz**: dəğərləndirəməz. qiymətləyəməz).

qaykişidən dilərsən dilək, diləyin çatmaz, kişini kəmsidən kişilik qanmaz, bulanıq əsgi oda at yanmaz. (**qaykişidən**: nakişidən). (**bulanıq**: mundar).

qaykişidən sırdaş yox, yamanlardan yoldaş yox. (**qaykişidən**: namətdən).

qaykişinin yoldaşu üzdən suyun itirmiş, çağında durmuş işə, qalmaz işi bitirmiş. (**qaykişinin**: alçaq. namət). (**durmuş:** mütşəbbis olmuş).

qayqanağı pişirmək üçün yumurtanı sındırmaq gərək.

qayqısızam nə qavqam var, mən məndə tapdım imanı.

qaymaz işləyən, qaytsız iş yoxdur. (qaymaz: səhv edməz. kırıxmaz). (**qaytsız**: qayrımsız. səhv olunmaz. kırıxılmaz).

qaynana ana, qaynata ata olmaz.

qaynana bir çiçək, hər sözü bir gerçək.

qaynana ilən baldız, əş (bir) doğublar.

qaynanadan dadlı söz, ağız yaxar göz oyar. (gəlin üçün).

qaynanadan dadlı söz, könül açan olasılıq gözləmə.

qaynanalar gəlinimiş çağında, küyüb yanmış qaynananın yağında.

qaynanaynan baldız əş (bir) doğublar.

qaynar çaylar, keçiksiz olmaz.

qaynar dərə keçitsiz olmaz.

qaynar qazan içi dışı bir olmaz, görüb duyan, eşit görüş dəng olmaz.

qaynar üzür keçiksiz olmaz. (**üzür**: çay**).**

qaynatadan ata olmaz, qaynanadan ana çıxmaz.

qayra uyan, qaya qalar.

qaytalan söz aldağan olur. (tikrar olunan söz, yalansılaşır). (bir söz çox deyilirsə, təkərlənirsə, tikrar olunursa yalan olmaq olasılığı çoxalır).

qaytaş bilim anası. (**qaytaş**: təkərləmə. tikrar. təmrin).

qaytı qalsa qaytalanar. (tikrar olar). (əğri düzəlməlidir). (**qaytı**: suç).

qaytıb yerini bulmuş, azaşqandan man uçmuş. (**man uçmuş**: ayb gedmiş. bağışlanmış). (azan kimsənin kəsir suçuna göz yumulmuş, **kəndini yenidən toparlamışsa**).

qaytılarız doğrulsun, açmazlarız yoğrulsun. (**qaytı**: suç).

qaytısız kişi olmaz, keçitsiz çay. (**qaytı**: suç).

qayudan gəlib, qayuya yolum. (haradan gəlib, haraya yolum). (nərədən gəlib, nərəyə yolum).

qaz düş, yax piş.

qaz qopsa, ördək gölə yiğələnür **(yiğələnür:** iyələnir. əkələnir. malik olur). (**qopsa:** ölsə. köçsə. uçsa). (yiyəsiz göldə, qubağa xanlıq edər)..

qaz qopsa, ördək gölə yiğələnür **(yiğələnür:** iyələnir. əkələnir. malik olur). (**qopsa:** ölsə. köçsə. uçsa). (yiyəsiz göldə, qubağa xanlıq edər)..

qazan başda əlin, topluluğda dilin saxla. (**topluluğda**: köpçülükdə. cəmiyyət içində).

qazan başında yağu, çalış qazan dosdu sən.

qazan boşsa qaynamaz. (yoxsulda yox qayğı varın itirsin).

qazan boşu qaynamaz.

qazan dedi qızıldı dibim, çömçə dedi, burğanıbda görmüşəm. (**burğamaq**. **buramaq**. bulamaq. bulğamaq).

qazan düşdü, yaxan pişdi.

qazan düşmüş, yaxan pişmiş.

qazan qaynar dursa, ağıl durmadan gələr.

qazan qaynar, ağıl oynar.

qazan vardır çömçə yox, çömçə vardır qazan yox.

qazan yuvarlanıb, qapağın bulmuş. (govduş yuvarlanıb, duvağın tapıb: iki arxadaş, iki qarı birbirinə uyğun).

qazan, od üsdə qoyarlar. (nədənsiz iş olarmı?).

qazana baxıb aşın dəğirləmə. (**dəğirləmə**: qiymət biçmə).

qazana bardın qarası, yamana bardın qadası var. (**qadası**: bəlası).

qazana dəğərsin, qarası dəğər, yamana dəğərsin, bəlası.

qazana görə aşı yarqınmaz. (**yarqınmaz**: dəğər biçilməz).

qazana yaxın qarası yoğar. (**yoğar**: bulaşar).

qazana yanaşma qarası yoğar, yamana yanaşma qadası.

qazanc elə itgi yarından qayıt.

qazancının ərki var, qaydan qulağ çıxarsa. (qazançı qazanın qulağını (qulpunu) iştədiği yerə taxar). (**qaydan:** hardan).

qazançının ərki (ixtiyarı) var, qayda qulaq taxırsa. (qazançı qazanın qulpunu, istədiği yerə taxar).

qazanda olmasa, kömçədən küsmə.

qazanda olsa, çomuçda çıxar. (**çomuçda**: kömçədə. susaqda). {içində olsa işində gözəkir (**gözəkir**: təcəssüm tapır)}.

qazanda olsa, çomuçqa çıxar. (**çomuçqa: çömçəgə**. **çəmçəgə**). (hər nə salsan aşıva, oda çıxar qaşığan).

qazanda pişirib, qapağında yemək. (yoxsulca yaşayıb, qanıqmaq).

qazandığı qazanında. (qazandığın yeyən).

qazandığın sevməyən, sevdiklərin qazanmaz.

qazandığından yarat, ələ çatmaz sevişlər.

qazanı başqa qayğusu başqa.

qazanı başqanın, qayğısı başqadır.

qazanı görən, boşqaba qanmaz. (çoxa öğrəşən, aza dayanmaz).

qazanmanın bir kefi, çıxartmağın iyi yolla min kefi. (tükətməyin mini var). (**çıxartmaq**: xərcləmək).

qazaş itiş bir oyun, hamı ona bir qoyun, çalış ona yol qoyun, yol seçənin düzlügü, yol sonunda bəlgürür.

qazaş üçün bilim gücü, yaşam üçün, sözün gücü.

qazi balası, bilirəm deyər, bəy balası, alaram deyər.

qazı balası, bilirəm deyər, bəy balası, alıram deyər.

qazığa düşən yazığın (bitisin) aramaz.

qazıqlar istər istəməz, səndən ötürdür.

qazma alıb kəndi yolun qazgilən, yoxdu yazı, qələm alıb kəndi yazın yazgilən.

qazma düşərsən, yaxma pişərsən.

qazmanı başlasan qızıldanda, gedib gəvən dibi eşər. (**başlamaq:** (qazma, kərki) saplamaq). (qızıl saplı olsada, qazma işi eşmədi).

qeyrətlinin ürəgi qaynar, qeyrətsizin ürəgi oynar.

qeyrətlinin ürəgi qaynar, qeyrətsizin ürrəgi oynar.

qeyrətsizdə iman arama.

qeyrətsizin dilin al, dilin verdi gözün al.

qeyrətsizin dilin al, dilin verdi gözün al.

qəbri qazan bir olur basdıra min.

qədər olmasa, qadir olmaz.

qədrimi, ölüm biləsən, gedim biləsən!.

qəfəsdə qalan quşun kefin, uçan quşdan sor.

qəhbə olan hardan bilir qıncı (kin. nifrət) nədir, sevgi nədir, hər gələni sevib gedər, hər gedəni söğüb gedər.

qəhbə olub minbir tanış, gen evrənin dar gəlir, kişi olub iki dosla, dar evrənin gen gəlir.

qəhbə varmış vermiş olur dadımlıq, sevən odur vermiş ola doyumluq.

qəhbə yalnız tən satar, könlü qəhbə dos satır.

qəhbəlik dəğər bulsa, xanımlıq düşər (itər) gözdən.

qəhbənin sonu baxıcı olur.

qəhbəyə öğüş yaramaz, yamana söğüş (**öğüş**: nəsihət. (**söğüş**: yaman).

qəhrivin zəhrilə ölsəm, ağulu otlar bitər, qəbrim üstünə gəldin qorx göylərdən sağın.

qəlbir can evi olanın, gözləri qədər dərdi var.

qəlbir ələgə gözük demiş. (**gözük**: gözlü. deşik)). {kor kora cıt gözən kimi. (kor kora cıt gözən deyər)}. (qazan qazana götün qaradır deyir!).

qəlbir ələğə gözər demiş.

qəlbirlə su daşınmaz, başlı ağız, hər gələni danışmaz.

qələm çəkər qaşuva, ağu qatar aşuva, daşın salar başuva, yalançıdır bu evrən..

qələm olsa yazılar, iğnə olsa tikilər, tikan olsa didilər.

qələm süngü kimi sökməyə yaramaz, süngü qələm kimi yazmağa.

qələmə gəmirən eşşəyin qabıq yeyən balası olar.

qələmə gəmirən eşşəyin qabıq yeyən balası olar.

qələmin dili iki olsada, yazısı birdir.

qəm bağlayan yolları, gülüşlər açar.

qəm kitiriz çaxır içrə boğulmaz, hər ikisi yaxcı bilir üzməyi. (**qəm kitiriz**: qəm qussələr).

qəm səni yeyər, sən qəmi yeyincə.

qəm yerində doğur, dəm yaratsan olur. (dilənmədən yaşam dadı dadınmaz). (**dilənmədən**: istəmədən. çabanmadan).

qərə yel, quru yel.

qərəçidən igid törəsə, öz çadırın çapar.

qərib it, quyruğun qısıb gəzər.

qərib kor olur.

qərib ölkədə kefə dolan, doğma yurdunda qussədən ölər.

qərib, kor olur.

qəribin boynu uzun, dili qıssa olar.

qəribin əzanın, kimsə dinləməz.

qəribin yalımı (üzü) alçaq olur.

qəsir kəsir. ziyan. -qorunmayan **kəsir** görər.

qıçı qırıq yolda, beyni qırıq gorda qaldı. {yaraqın qorun, yoraqın yorun. (**yoraqın yorun**: tədbirin qıl)}. {işə anıq çıx). (**anıq**: hazır)}. (gün gecəni gözləməz). {günün üçün yaraq qıl, yarın açan gül olsun. (**gül olsun**: uğur olsun. ası bərə dərəsin)}.

qıfın gen başından girən, dar başından çıxar.

qığılcım, tüstüləməz.

qıx çörək, borc olmaz.

qıızdırmağa öğrəşən, ölümə yürür.

qıl tay olsa düşmanın, qılıc yalı gör anı.

qıl yaruğun gəlmədən ölümdə yox savucluq, gəlsə bir gün dinmədən, çapmış gedər tinivi. (**savucluq**: elçilik. sözçülük. raporçuluq. quzariş vermə). (çağrılırsan gedməli, dinməkliyə qalmaz gərək, yoxku bayraq bildirə, yoxdur ölümdə savçılar. **(dinməkliyə**: e'tiraza).

qılalar qulluğnu gecə gündüz, tapıdan kiməsnə döndərməyə üz.

qılavuzsuz, quş uçmaz. (**qılavuzsuz**: öndərsiz).

qılıc kimdə olursa, qələmi alır, qələm qarşı çıxsa, qılıncı salır.

qılıc qının kəsməsədə, yiyəsin qırar.

qılıc qınına qıymadı, yiyəsisini doğradı. {qoraq yiyəsinə yağu durar. (əsləhə sahabına düşmandur)}.

qılıc qınına qıymaz, isinə qıyar. (**isinə**: yiyəsinə).

qılıc qınına qıymaz, yiyəsin doğrar. {qoraq yiyəsinə yağu durar. (əsləhə sahabına düşmandur)}.

qılıc qınında dursa puslar. (**puslar**: paslanar).

qılıc pulla gücü sevər..

qılıc yiyəsin qoyub, qının kəsməz. (**ont**: doğur).

qılıcı sınmış yayı yasılmış.

qılıcın kimi sevgi yarar, acısı keçər, izgisi qalar.

qılıcla oyun, qurdla qoyun olmaz.

qılığ gözəl, üz gözəl. (**qılığ**: xuy).

qılın tapsan, qar küyər. (**qılın**: qılığın). (işin qılığın, yolun bulursan, qar da belə od tutar, yanar).

qılınc birini, dil bir ordunu kəsər.

qılınc sapı kimdədi!.

qılınc vurmaq bilməyən özünə ilişdirir.

Qılınc yarası sağalar, söz yarası sağalmaz. (Araz Gunduz).

qılıncı düşmana vurmasan "ağzı" kəsər özüvi, "ucu" deşər gözüvi.

qılıncı düşmana vurmasan **"ağzı"** kəsər özüvü, **"ucu"** deşər gözüvi.

qılıncın güdəysə, bir atdım öngrək ol.

qılındınsa düşünmə, düşünmədən qılınma.

qılını bilən qızıl geyər. yapını bilən yaşıl geyər. (xoşa gəlmək istəyən qırmızı geyər. iş yapmaq istəyən, yaşıl geyər).

- qılnu bilsən qızıl gey, yaranu bilsən yaşıl gey. (qırcanmağa qırmızı, can almağa, göy qurşan).

qılış qında pas atar.

qılış tutuqsa, iş batar, ər tatıqsa, el batar. (**tutuqsa**: paslansa). (**dadıqmaq**:. pasıqmaq. paslanmaq).

qılışlı kişi, görər işi, yaxcını pisi. (**qılış**: iradə).

qılışlı qorxağı, çomaxlı batır salar.

qılmalın var qılınqıl, yarın gələr gəlməz, bəllənməz. (evrən işi ötürmək, işi burda bitirmək).

qılmalısan qılınqıl, çağun durmaz, acun əylənməz.

qılncla alınmayan, dadlı dillə alınar.

qılnu bilsən qızıl gey, yaranu bilsən yaşıl gey. (: qırcanmağa qırmızı, can almağa, göy qurşan).

qılov durmaz güc ilə puldan qıraq. (**qılov**: siyasət).

qılov düzlük götürməz. (**qılov:** siyasət).

qılpın tutub, için buraxıb.

qılpsız qaşıq, qırıq çömçə. (işlərinin təməli tutarlı, doğru, düzgün olmayıb, əksikliyi, tərsliyi çox olan. yarım yamalaq nərsə, kimsə. qırıq, güvənilməz, aldavac kimsə).

qıltay manın olunca, dayaq enər başına. (**manın**: aybın).

qımdımaqla qarın doymaz, hər yetəni ürək qoymaz. (**ürək qoymaq**: könlün bəğənməsi) (**qımdımaqla**: qısmırlıqla. qıtmırlıqla).

qımıldab qır aşdı, qaynalab qın daşdı. (**qımıldab**: təprəşən). (**qaynalab**: **qaynayan**). (**qın**: qab). (yürüyən yolun bitirər, işləyən işin).

qımıldağan qır aşdı. (**qımıldağan**: **qımıldayan:** təprəşən. dəbəşən, işləyə işin bitirdi) (**qır**: çöl. uzun yerlər. ucu bucağı görünməyən yerlər). (təprəşən qır aşdı, dırmaşan dağ aşdı).

qımıldayan qır aşar.

qımıldayan qır aşmış, yatan öküz ac qalmış.

qın qurtara bir gəmi sınmış olsa yelkəni (**qın**: çətin).

qın sınamaz, bal olmaz. (çətinlik görmədən dadlı ələ gəlməz). (**qın sınamaq**: zəhmət çəkmək).

qınamam səni, sevmədin məni, yol gəzər səni.

qınanc, onu çəkənə gəlir, qıvanc, onu gəzənə. (**qınanc**: dərd) (**gəzənə**: qovana: axdarana). (**qıvanc**: şadlıq. -sevinc).

qınçalar qıyından dolub daşmayan doymaz. (**qınçalar qıyından:** əzablar məşəqqətindən).

qınçıların əlləri, yerə döğər belləri. qara topraq gül açar, uğur bular elləri. (**qınçıların**: zəhmətkeşlərin).

qını çox, dadı yox. (**qını çox**: zəhmət çox).

qınıc, yıxmış ev dirək, çalış, yapna bir ürək. (**qınıc**: nifrət). (**çalış**: çalça. başar. qeyrət ed). (yapna: yapın. yapunc. yoğar. ələ al. düzəlt. onar).

qının dosda aytma koni göynədi, qının yada aytma koni söynədi. (**qının**: ağrın. qayğın. çətinliyin.).. (**koni: ki oni**). (**söynədi**: sevindirər).

qının sonu olsun, yırtıq donun olsun. (**qının**: əzabıbıvın. ağrıvın). (kəsəl yoluxmasında). (**yoluxmasında**: əyadətində).

qınsız yerin adı yox. (**qınsız: qıyınsız**. əzabsız. zəhmətsiz).

qıra yağsa yağış, çəkməz suyu, axındırar sel axış. **(qır: qırın**. qup quru çöl. susuz, çoraq yer, çöl. səhra). qır, çoraq, bərk toprağ yağan yağış suyun

çəkməyib, geri verib sel axın yola salar. (o deməkki: hər topraq suvarılmaz, hər kişiyə yaxlıq yavlıq (yaxcılıq pislik) qılınmaz).

qırağda yeyir, ortada sıçır, ortada yeyir, qırağda sıçır.

qırağdan baxanın səggiz gözü olar.

qırağın demə, bezini de, anasın demə, qızını de.

qırasın görüb bezin tanı, anasın görüb qızın.

qırasın görüb əkisin tanı, anasın görüb qızın. (**əkisin**: bosdanın).

qırdı kəndi, ucdan uca, nə igit qoydu nə qoca.

qırx dərədən su gətirən. qırx evin pişiyiən, qırx qapının ipin çəkən, qırx daraxda, bezi olan.

qırx gün qırxıda qılpı qırıq gün.

qırx gündə doyular cəmaldan, qırk ildə doyulmaz kamaldan.

qırx il qıran olmuş, əcəli gələn ölmüş.

qırx ilə təkin, bəy cığay (yoxsul) düzlənür.

qırx quldur, bir lütü soya bilməz.

qırxda qılığ dəğişməz. (**qılığ**: xəsiyət).

qırxda olmadı başın, daşı ha daşın.

qırxında, çalmaq öğrənən, gorunda çalar. genclikdə, qız seçənmiyən, dulunu alar! (qrx yaşında, çalmaq öğrənən, gorunda çalar. genclikdə, qız

seçənmiyən, dulunu alar!) (qrx yaşında, çalmaq öğrənən, gorunda çalar. genclikdə, qız seçənmiyən, duluna qalar!).

qırxlıdır pişməyinə çox var hələ. (**pişməyinə:** pişməsinə).

qırxlısan pişməyivə çox var hələ, qırxıva çatmaq üçün dözməlisə. (**qırxlısan**: körpəsən) (**qırxıva:** qırx yaşıva).

qırıx çömçə su saxlamaz, pay güdməklə, qarın doymaz.

qırıx zəncir dəngir işi ləngidir. (**dəngir**: mütəadil. normal).

qırıq tökük yaşantım, bırax kəndimə qalayım, sən kəndivə yamaqçıysın, ötür yarımı kəndi özüm bulayım..

qırıqların düğünü umut, sınıqların tutumu umut.

qırılırsa dönəklər, türk erinə yağu qalmaz. (xainlər qırılırsa, türk erinin düşmanı olmaz).

qırılmadan qorxanın, bitməz sevgi bağında.

qırılmağı düşünən güvənmədən üşünər.

qırılmalar sınaqdan, qurulmalar yaşamdan. (**sınaqdan**: təcrübədən).

qırılmış yay, ox atmaz.

qırılsa dal, yoxdu quşun qorxusu, güvəndiyi dal deyil güvən alar qanatdan.

qırılsa könül, yapışan deyil, ölüksə odun alışan deyil. (**ölük:** yaş).

qırın sapları baltadan yoğunları, avluqarları (**avluqarları**: rüşvəxorları).

qırqın gələ min qıran, çıpını çatman ölməmiş. **(qırqın**: bəla. qəza). **(çıpın:** əcəl. çağal çağla yaşam sürəsinin sonu). (**çıpını çatman**: əcəli yetməmiş).

qırqınlıq ummaqdan doğur. heç nə heç kimdən, kəndindən belə umma. bırax yüyəni, güdmə gözləri, kəndivə güvən.

qırma köprünü, umut yuvasın körpüdə qurur.

qırma qırılma, üzmə üzülmə.

qırmadan sındırır, yaxmadan yandırır, acı öclü azlı kəmli söz atan. (**atan**: **aytan**. deyən).

qırmağını bilməyən, qurmağında uğursuz. (**uğursuz**. namüvəffəq. nailiyyətsiz).

qırmızı köynək, tez - kej görünər. (**tez kej: tez kec**).

qırna qarır, qaraçı olur. (**qırna**: qaravaş. külfət. keçmişdə ev işləri üçün tutulan on-on iki yaşlı qız işçisi) (**qaraçı**: falçı).

qırtlaq qırx boğumdur, hər boğumda düşünmək gərək.

qıs kişi savı (adı. şöhrəti), yörüklü olmaz: qıs kişi say yoruqlu olmaz **(**pəxil, qıtmır, adlı keçəli (nifuzlu, e'tibarlı) olmaz. bunu pəxil kişiyə əlaçıqlığı öğüt vermə üçün söylənir).

qısa yaşam, uzun tünə, qısa günə tüş oldu.

qısa yaşam, uzun tünlərə, qısa günlərə tüş oldu.

qısanın əli çatmadı, ucada əğilmədi.

qısıq girdəc geniş töləş götürməz. (**girdəc**: gəlir) (**töləş**: xərcləmə).

qısılmayın qış çıxıb, yıldanmayın yay gəlir. (**yıldanmayın**: tələsməyin).

qısır bulut, boş boşqatay, gurlayar!. (belədirki, gənc olaraq, bilgisinə güvənərək bağımaq yaraşıqlı deyil). (**qısır bulut:** barsız bulut. yağmaz bulut).

qısqanc erkəgin oxu ovsuz, əli qansız qalmaz. (**qısqanan**: cicikli. özgələri çəkəməz). (axdaran baş ağrısın bulur, dərdin tapır).

qısmasan boğazı, dəvəni utar. (könül dolmaz, qarın doymaz). (həvəsdi, bəsdi).

qismət adlı nərsə yox, ya seçildin ya seçdin.

qıssa arzular ömür uzatır, uzun arzular onu qıssatır.

qıssa ömür, alqamaz dözüm. (**alqamaz**: xoş qarşılamaz). {əkib dözən, bitirər işin, dözməyi əkən, itirər işi). (**dözməyi əkən**: çox səbr edən)}.

qıssa ömür, uzun ümüd, yaş boyunu qıstırar.

qıssa sürdü umutlar, qırıq qaldı umuqlar.

qıssa sürən umutlar, verməz uzğan umuqlar. (**uzğan**: uzun).

qış çağunu soyuq hava yaşlılıq, təprəndikcə dərdi artar bu tənin.

qış gəlir deb sevinmə, izinin ayazı var. **(teb:** deyib). (**izinin ayazı**: dılısının şaxdası).

qış gəlirsə yorqanı sal qıçıva, yay gəlirsə ayranı qat aşıva.

qış küləyi, qar gətirər.

qış qəmin yaz ye, yay ye, olmasa, güz ye.

qış qışlığın edməsə, yaz yazlığından qalar.

qış qonağı od.

qış qonağın od olsun.

qış olmasa yaz olmaz, qar olmasa bar olmaz.

qış soyuqundan ölməkdənsə, yay issisi yeğdir.

qışa edin, gəlsə qalı, qutlu yay, tün gün keçə ilgənür ötlük belə ay. **(edin**: yaraqlan). (**qalı**: əgər). (**qutlu**: bərəkətli). (**keçə:** keçir). (**ilgənür**: ilərlir. aylanur: dolanır). **(ötlük:** zaman).

qışda ağlayar, yazın gülən.

qışda ayran, yayda yorqan gəzilməz.

qışda ayran, yayda yorqan verilməz.

qışda balığ istəyənin, quyruğu (götü) buzda gərək..

qışda darı darınmaz, qışda darı əkilməz.

qışda sevmən soğuq uradı, yayda sevmən quruq qaladı, güzdə sevmən sarab soladı, yazda sevki banqu qaladı. **(sevmən:** sevmərəm). **(uradı:** vurar). (**sarab**: saralıb). (**banqu**: dura. həmməşəlik).

qışda sevsəm soyuq çalar, yayda sevsəm isti vurar, güzdə sevsəm xəzəl alar, yazda sevsəm manqu qalar.

qışdan qorxma, artdan yaz gəlir, güzdən qorxma, artdan qış gəlir.

qışı keçin, yazı keçit, yayda durur sırada. (hər nəyin çağı var, hər qaranın ağı var).

qışı qarlı, yazı barlı.

qışı qışsıramasa, yazı yazsıramaz. (**qışsıramasa**: qışlamasa. qış edməsə. qış kimi keçməsə).

qışın ayranı, yayın yorqanı görülməz.

qışın dərdini yazda çək, yaş (həyat) dadını olanda.

qışın gün qısa, tün uzun.

qışın günü qırx tüyslü, qırxısıda qılıqsız. (qış günündə birbirinə oxşamaz, her çeşit koşulu güdməli). (qış günü ipə sapa gəlməz).

qışın işi, yazın yemişi bol olur.

qışın ki yağlı əbbək, isti kürsü, yayın ki kərdi yanı, odlu tüstü.

qışın qarlı, yazın barlı.

qışın ocaq başı, yazın dağ başı.

qışın uzat yorqana, yayın çəkdir ayrana. (**çəkdir**: əğil. könül ver. meyil sal).

qışın yazı, yazın qışı unutma. (**qışın**: qışda). (**yazın**: yazda).

qışın yorqanı, yayın ayranı.

qıt gəlirsəm sırtılar, üz verirsəm dürtülər.

qıtlıqda çox qıtma, sıxlıqda çox sıxma, bolluqda boş tutma (**boş**: şol).

qıya edən, qırılar. (özgəsinə güvənən sınar, ulamaz (onamaz.). (**qıya: qıyşı**. (< **qıymaq**) qıyma işi. güvən. e'timad)..

qıyaş olsa, işlər onar. (güvənişmədən, işlər batar). (**qıyaş:** qıyşı. (< **qıymaq**). birbirinə qıyma işi. güvəniş. e'timadlaşış)..

qıyaş ondurar, qağaş öldürər. **(qıyaş:** qıyşı. (< **qıymaq**). birbirinə qıyma işi. güvəniş. e'timadlaşış). (**ondurar**: yartırar, düzəldər). (**qağaş**: cicik).

qıyı gözdən itmədən, özdən üzün gedmədən, engin sənə bəllənməz. (**engin**: uqyanus).

qıyı olmasaydı, dəniz olmazıdi.

qıyıb qıymasanda ötən ötüb, qıyma boş ötə qalan günlər.

qıyın gəlir doydurasan acgözü, ac qarını doydurmağa navarki.

qıyınçılıq yaşamaqla doğulmuş, ölməkilə boğulmuş. (**qıyınçılıq**: çətinliklər).

qıyısız tarlaya davarda girər, tapdığın yiyər. (**qıyı**: bir yerin, nərsənin qıyısına, qırağına taxılan çevrəlik)..

qıyışmadan tikilsə, ya dar gələr yada gən. (**qıyşamaq:.** kökləmək. dənək, pırob üçün tikmək)..

qıymaza qıyma, qanmaza yanma..

qıymazdan qaçın, qıyana yaxın.

qiyməti var (bar) kəsməz, "varlı" kəsər.

qıymıl su dursa durular. (**qıymıl**: **qımıl:** bulanıq)..

qıyşıq buruq, uzun olsun yol olsun, yaman oğul, kitoz dosdun olmasın. (**kitoz: kitos**. iki üzlü, kinli).

qıyşıq güvdən, tüstü düz çıxar. (**güvdən: gühdən**). (ilan hər yana qıvrıq gedsədə, öz yuvasına düz gedər). (oldağın gərəyindən qaçmaq olmaz). (**oldağın**: vaqeiyyətin. fəktin).

qıyşıq oturda, doğru gəpir (əğri otur, düz danış).

Qız ağacı-qoz ağacı, hər yetən bir daş atar! (Araz Gunduz).

qız al, qızıtıq yox. (qız mal al, qızılıq mal alma). (bikr, yeni mal al, bahalısın alma) (**qız**: bikr. yeni). (**qızıtıq: qızılıq**: bahalı).

qız al, qızıtıq yox. (qız mal al, qızlıq mal alma). (bikr, yeni mal al, bahalısın alma). (**qızlıq. qızıtıq:** bahalı).

qız alan qızara qızara gələr.

qız alanda gərəklik, göz qapalı, qulaq açıq olmalı.

qız alırsan evdən al, eldən yox. (**ev qızı**).

qız alsan, deyəcək, özün bilərsən, dul alsan, deyəcək, özüm bilərəm.

qız anlatar, qadın yaşadar. (**anlatar**: nağıl deyər). (**yaşadar**: uyqular. işə keçirər).

qız anlatar, qadın yaşadar. (**anlatar**: nağıl deyər). (**yaşadar**: uyqular. işə keçirər).

qız evi bir dəgirmandır, arıda gəlir, darıda gəlir.

qız evi, naz evi, oğlan evi, qoz evi. {qız evi qır verər (qızın istiyəni çox var), oğlan evi şişirər (ay oğlanın nələri var)}.

qız əringən ər çatmaz, ər əringən qız çatmaz. (**əringən**: gəvşək. təmbəl).

qız gəzən oğlan ayağı uzun, əl açıq gərək, yar gəzən qız qapaçıq gərək (**qapaçıq**: qapısı açıq) (nərdə gəzdim yoxudun, çox qaldında qoxudun). (demək istirki. mıncıq (incik) deşik gərək, yolda gərək).

qız girdəgə girər, əslidə onda bəllənər.

qız girər girdəgə, kirtigi çıxar üzə. (**kirtigi**: həqiqəti. iç üzü).

qız görməmiş qız görsə yaltaq yaltaq alçalar. (qızın nə olduğun bilməyən).

qız iyi, gül iyi.

qız kişi savı yorıq bulmaz: paxılın adı sanı keçməz.

qız kişi savı, yorıq bulmaz. (**qız**: qıs: qıt: paxıl). (paxılın adı sanı keçməz).

qız qarrısa qazi, it qarrısa tazı olar.

qız maraq gözlər, qadın sayqı. **(maraq:** təvəccüh**)**.

qız oğlanın halva qapan günləri. -oğlan pula qul oldu, qızlar pula satıldı, yarın yurtda atmaz gün, evlik işlik atıldı.

qız olmadan gəlin yox, toxunmadan bezin yox.

qız olmadan gəlin yox, toxunmadan bezin yox. (hər nəyə ortam (mihit), iş gərəkir).

qız osdurur, ana basdırar.

qız söğünsə, gəlin gücənir. (**gücənir**: sıxılır. başa düşür). (qızı söğüb, gəlini gücət. (**gücət**: tənbeh elə. başa sal). {qızın söğür, gəlini gücətir. (**gücətir**: tənbeh edir. başa salır)}. {qızı söğət, gəlin gücət. **(söğət:** söğ)}. (qızına deyir gəlin anlasın). {oğluva de, güv utansın. (**güv**: güvey. kürəkən)}.

qız yükü, duz yükü.

Qız yükü-duz yükü! (Araz Gunduz).

qıza aytdım, gəlin düşsün. (**düşsün**: düşünsün). (**aytdım:** dedim).

qıza deyilir, gəlin dinlir.

qıza, qız, gəlin anlasın.

qızan, yanılar. (hirslənən səhv edər).

qızarıb ölmək, sararıb yaşamaqdan yeğ.

qızda ağıl olsa, yeddi arın (eybin) gizlədir (örtər).

qızdınsa əlin tutub dilin tut.

qızdırmayla bacaran, ölümə yaxılmaz. (**yaxılmaz**: aldırımaz. qapılmaz. üstələr).

qızı evdə tanı, iyidi çöldə.

qızı hamamda bəğənərlər. (qızı hamamdan gələndə bəğən).

qızı olan ballanır, oğlu olan barlanır. (**barlanır**: varlanır).

qızı olan qazlanır, oğlu olan varlanır..

qızı otaqlıya yox, papaqlıya ver.

qızı söğət, gəlin gücət. **(söğət:** söğ)}. (qızı söğüb, gəlini gücət. (**gücət**: tənbeh elə. başa sal). {qızın söğür, gəlini gücətir. (**gücətir**: tənbeh edir. başa salır)}. {qız söğünsə, gəlin gücənir. (**gücənir**: sıxılır. başa düşür)}. (qızına deyir gəlin anlasın). {oğluva de, güv utansın. (**güv**: güvey. kürəkən)}.

qızığı düşmüş ağrısı yok, şişi gedmiş, acısı yok. (**acısı**: acışması). (sorun savılıb, işlər yolunda).

qızıq daşı, soyuq aşı. (davranışı sıcaq olubda, içi quru, soyuğ olan).

qızıq qazıq (mıx) yol açar.

qızıqlı seviş, keçəri yağış, biri yaşlılıq, biri yazlılıq. (**qızıqlı:** 1. ged gəlli. yüyrək. istiqanlı. 1. maraqlı. əlaqəli). (**yaşlılıq:** gənclik).

qızıqlıq güdmürəm səndən, soyuqluq nədən edisən. (**qızıqlıq**: istilik. istiqanlıq. səmimilik).

qızıqlını uşütmə basar, soyuq tər axar. (**qızığ**: sıtma). (sıtma kəsəlli üşüyüb, soyuq tərlər).

qızıl dil danışar, göy başın axmasına, yarılmasına yol açar.

qızıl döyəcəyi (çəkişi. toxmağı) gümüşdən olur.

qızıl döyəcəyi gümüşdən olur.

qızıl gedsin, od qalsın, kişi gedsin, iş qalsın.

qızıl gül ad değişməklə, isin dəğişməz. (**isin**: iyin).

qızıl gül solur, tikanı qalır.

qızıl gül yer yaraşığı, doğru yoldaş, ər yaraşığı.

qızıl gülüm yadlara, tikanları mənə qaldı.

qızıl haçar, qapılar açar.

qızıl inək qaraqabaq gəlinə süt verməz.

qızıl körükdə, ər korluqda bəllənər.

qızıl külçək, qadın göyçək gərək. (**külçək**: teyxa qızıl. şümş). (ağır, çətin çitik seçimli kimsə) (**çitik**: düğün) (**çitik**: düğün).

qızıl qab pas götürməz.

qızıl qarışdı palçığa. palçıq mindi dəğərə. kişi atından düşdü. eşşək mindi yəhərə.

qızıl olan pas qapmaz, igit olan söz satmaz. (**söz satmaz**: sır verməz). {qızıl olan pas qapmaz, igit olan söz atmaz. (**söz atmaz**: sözünə yiyə çıxar)}.

qızıl otda, kişi qında (zəhmətdə) bəllənür.

qızıl palçıqdada parıldar.

qızıl saplı olsada, qazma işi eşmədi.

qızıl taxtın, qara baxtın olmasın.

qızıl vardı, bir sözdü, qazıb tapma, min sözdü.

qızıl yatağ üsdə ot bitməz. {buda bir toxşu, bir söz. -ağıllıda saç durmaz. ağıllılıq keçəllik. (**toxşu**:. bursan. məntiq. fikri sistim)}.

qızıl, gümüş əsgiməz (köhnəlməz).

qızıl, iş can aparır, yaşıl, iş aparır.

qızıl, körükdə, ər, korluqda bəllənür.

qızıl, qızlığında, qızıldır.

qızıl, odla bəllənir, kişi işlə.

qızıl, palçıqdada parıldar.

qızıl, pas atmaz.

qızılbaş, qanına gedər.

qızılın əli olmasada, çox iş görər.

qızılın qiyməti, qıslığındadı (qıtlığındadı).

qızım demə gəlinsə, oğlum demə güveysə. (güveydən oğul, gəlindən qız olmaz).

qızım demə gəlinsə, oğlum demə güveysə. (güveydən oğul, gəlindən qız olmaz).

qızım sən qulaq ver, gəlin eşitsin. (qızım sənə deyirəm, gəlin eşitsin).

qızın gözü qızılda.

qızın keçəli, daraq bəyənməz.

qızın söğür, gəlini gücətir. (**gücətir**: tənbeh edir. başa salır)}. (qızı söğüb, gəlini gücət. (**gücət**: tənbeh elə. başa sal). {qızı söğət, gəlin gücət. **(söğət:** söğ)}. {qız söğünsə, gəlin gücənir. (**gücənir**: sıxılır. başa düşür)}. (qızına deyir gəlin anlasın). {oğluva de, güv utansın. (**güv**: güvey. kürəkən)}.

qızın tapdır, gəlin anlasın.

qızın yeği ər evində, qanana yeği öz evində. (**yeği**: yaxcısı).

qızına deyir gəlin anlasın. (qızı söğüb, gəlini gücət. (**gücət**: tənbeh elə. başa sal). {qızın söğür, gəlini gücətir. (**gücətir**: tənbeh edir. başa salır)}. {qızı söğət, gəlin gücət. **(söğət:** söğ)}. {qız söğünsə, gəlin gücənir. (**gücənir**: sıxılır. başa düşür)}. {oğluva de, güv utansın. (**güv**: güvey. kürəkən)}.

qızınla yurt qurasın, oğlunla ordu olasın (qızı ilə yurd qurmaq: iç güvey (kürəkən) gətirmək. -örnəyin, qızı erməni dığasına verirsənsə, öz balavı, dinivə, dilivə, yurduva qənim çıxarırsın).

qızıtılıq, qıtlıq. (bahalıq, naçarlıq, qəhətlik). (**qızıtlıq: qızıllıq**: bahalıq).

qızıvı vermə erməni sikə, yurduva, dilivə qənimin tökə.

qızqın olub dingin durasan, varlı olub yoxsul qılnasan, acından ölüb onur güdəsən, ərkli olub əkdi qalasan, tovaçlıq deyil, hovanlıqdır. (**qızqın**: hırslı). (**dingin**: aram). (**ərkli**: qurətli). (**əkdi**: müəddəb). (**tovaçlıq**: **tovğaçlıq:** güclülük. baturluq). (**hovanlıq**: axmaqlıq).

qızqınlıqda yum ağzın.

qızlatgilən ürəkdəki sevgivi.

qızlı ev qudasız olmaz. (**qudasız**: qohumsuz).

qızlı evə qırx at bağlanar.

qızlıq (qıtlıq) olsa buğda al. arvad ölsə qızın al.

qızma ilə dil, əlin ötgür olur, dinmə ilə us huşun özgür olur. (qızıb qızışma sözü çaşdırır, əli, qavqanı önə sürür, dinclik, huzur uslanıb düşünməyə yol açır).

qızma ilə dil, əlin ötgür olur, dinmə ilə us huşun özgür olur. (qızıb qızışma sözü çaşdırır, əli, qavqanı önə sürür, dinclik, huzur uslanıb düşünməyə yol açır).

qızma, qınama, dözü ver!.

qızmış öğüş götürməz, yaman söğüş götürməz. (**qızmış**: qəhbə). (**öğüş**: nəsihət). (**söğüş**: yaman).

qıztı malın alıcısı, dörd göz olmalı. (bahalı nərsə alan, çox özən göstərməlidir). (**qıztı: qızıt**: bahalı).

qoağ umduğundan yox, olduğundan yeyər.

qoca ağac əyilməz.

qoca ardına düşən, düdükdən paysız qalmaz. (yaşlı götdə yel durmaz).

qoca aslana, çaqqalda gülər.

qoca at yolun çaşmaz.

qoca bağbanın bağın, tikən çöp alır.

qoca gözüylə arvad al, gənc gözüylə, at.

qoca havax inanar gücünə, çünki onun ömrü yetmiş ucuna.

qoca it tarıcan bilər, qoca qız qazıcan.

qoca qartal, sıçan avlar.

qoca qırqı sıçançı, qoca oğru yalançı.

qoca qurd yolun şaşmaz.

qoca öküzü öldürmək, öğrətməkdən qolaydır.

qoca sıçan deşiksiz qalmaz.

qocada güc olmasada, ağıl gərək.

qocadan demək gələr, iyiddən görmək.

qocal bağbanın bağın tikən çöp alır.

qocalar evi, axmaq pullların son duraqları, yoxsulların yuxuda görmədikləri yerdir.

qocalar ölməyə qurça gəzər, gənclər ölməyə urça. **(qurça**: doğal mahana). **(urça**: təsadüf. təsadüfi nədən).

qocalığın adı ağır özü yüngül. (tez qonar qapıya).

qocalığın adı uzaq özü yaxın. (ölməyə nə qaldı ki). (başı topla işin bitirə).

qocalıq nisgili qalmasın könlündə sənin. (pir olasan. çox yaşıyasan).

qocalıq yaşda olsun, başda olmasın.

qocalıqdır ömrün güzü mən düşdüm, dilək qalmış, gücüm yoxdur uçmağa.

qocalır ürək, könül deyir yaşa hələ, çoxun keçmiş azın qalmış, inam olsa durar hələ.

qocalmışsan yatun qalmaz, ölüm gəlsə çatun qalmaz, köç durulsa, dəh yapılsa, gələn yetər ötün qalmaz. (**yatun**: **yadun. bəlləyin**. hafizən). (**çatun**: fürsətin) durulsa: yasransa. hazırlansa). (**dəh yapılsa**: **dəng yapılsa**: ağrıq, yük bağlansa). (**ötün**: çağ. zaman).

qocanın ən acı ötü. –oturduq, boşa ötürdük. (qocanın ən acı sözü. –oturduq, boşa ötürdük).

qocanın qıçına, cocuğun sözünə güvənc olmaz. (qocanın gücü yox, cocuğun güvəni yox).

qocanın sözü var, gəncin gücü.

qocasın basan, qıyrılar, xocasın basan siyrilər (**siyrilmək**: silinmək. yoxlanmaq. yox olmaq).

qocaya eşşək gərək, cavana arvad.

qocayaşlı ol qoca başlı yox. (**qocayaşlı**: **qoca yaşlı**. çox yaşlı. ötəşi)..

qocayla xoca birbirin götürməz.

qoç igidin qocur gücü, savaş günün qalasıdır. (**qocur:** ərkin).

qoç iyid, dayısına çəkər. (bulağ öz gözündən su içər. (ot kökü üsdə bitər.).

(olduğun, doğulduğun, bulunduğun yerin, qoşutun, quşağın, şərayitin etgisi altında qalma.).

qoça buynuz, yük olmaz.

qoçaq iyid el düzər, yılmanağı el tozar. (**yılmanağı**: qorxağı).

qoduq hamını eşşək görür.

qoduq ulu babasından pox yeməyi öğrəşər.

qoğduğun itin dalıca gedmə.

qoğqalaq qaçar, yel yalı uçar, duraq duraq qoyub götrər. (**tapmaca)**. **(tiren**).

qoğma qorxağı, qorxusu gedər yaman olar.

qoğşatmasan qatığı, atsan dişi sındırır. (**qatıq**: qat, bərk olan). (yumşatmadan bərk nəyi, salsan dişə, diş qırır).

qoğu quyuya girsə yel alır. (**qoğu:** bəxdi dönmüş. bədbəxt. korbaxt..).

qoxan nərsə çevrəni pozar.

qoxmayasan diyəndən, qorxun olsun yiyəndən.

qoxsa başından balığ, qalmaz aman ölkədə. (**qoxsa: qoxursa**). (**balığ**: şəhər). (**aman**: əmniyyət).

qoxu irişir, burun qanır.

qoxunu alamadan, boynunu saramadan, üzünə toxunmadan, əllərini tutunmadan, uzaqlardan sevdim səni, sevirəm səni.

qoxursada üstün yalınğuzluq, qovuşluq iyi içindən kəsilməsin. (təklik qoxursansa belə, qoşalıq, cütlük hissi səndən üzülməsin).

qoxusu gəldi, umusu gəldi.

qoxusun alıb güvənin, nə çox yanan başlar var. (güvən aşırılmalıdır (başdan aşırılmalıdır), dənənməlidir, təcrübə olunmalıdır).

qoxusun alıb güvənin, nə çox yanan başlar var. (güvən aşırılmalıdır (başdan aşırılmalıdır), dənənməlidir, təcrübə olunmalıdır).

qol açmazı, baş açır qolay. (**baş**: ağıl) (**qol**: əl).

qol sınsa yenq içində: baş sınsa börk içində.

qolan quyuya düşsə, qurbağa ayqır olar.

qolay demək, gücün edmək.

qolay tutun yaşamı, ağır yüngül aşamı.. istədimsə soradım, sevdimisə söylədim, bəğənmədim bəlirtdim, özlədimsə aradım, görüşsəkdim

çağırdım. (**aşamı**: dövrü. təcrübəni. mərhələni). (**görüşsəkdim**: görüşmək istədimsə).

qolçomaq bir əlin çomağı, bir əlin qolçağı olur. (**qolçomaq**: quldur. lotu) (**çomağı**: basqı aracı) (**qolçağı**: oyunçağı). (qolçomaq bir əlin çomağı (basqı aracı), bir əlində qolçağı (oyunçağı) olurlar. basqı aracı).

qolda edin malı sən, edmədən qul mal səni. (qolda edin malı sən, tutanmadan qulluğuna mal səni).

qolların qovuşdurub, əllərin oğuşdurub.

qolun yuğar kişioğlun qanına, qan içib qanmaz durar bu evrən, mal yığnasan kəsit yoxsa işində, malın bilən yergə utar bu evrən. (**kəsit**: zəkat). (işlənmiş. maxtumqulu).

qonağ gəldi, kütəl qaç. (yersiz gəldi, yerli qaç).

qonağ nəfəs kimidir, girib çıxmasa xəfələr.

qonağ oldun üç gün, üç gündən son köçgün.

qonağ umduğun yox, tapdığın yeyər.

qonağa aş qoy, iki əlin boş qoy. (qonağa iş buyurma).

qonağa gəl deyiblər, qal ki yox.

qonağa ümüd olan, öz evində qonaq qədərdi.

qonağa verdiyin ver, haçar vermə.

qonağı erməni olanın. !!!!.

qonaxlıq süfrəsi çün götürüldü, qonaxla hamısı evdən sürüldü.

qonaq az oturur, çox görür.

qonaq başı sezrəgi yeğ.

qonaq birinci gün güldü, ikinci gün küldü, üçüncü gün küllük (küllüyə atılmalıdır).

qonaq çarşavı kimi, hər gələnin altına döşənir.

qonaq gələr eşikdən, rızqı düşməz deşikdən.

qonaq gəlsə qarşına çıx qonaqla, kəndin özün bu evrəndə qonaqsan.

min qayğı yığışar kələgəy, bir iş min qayğını siləgəy. (**kələgəy**: kiləgəy. kələki, çələ, duzaq qurar. pırtlaşıq salar) (**siləgəy**: silər). (qayğı yığışsa, toplaşsa hər işdən qoyar, bir işlə uğraşmaq min qayğını boğar).

min qollunun işi bir qolluya düşər.

min qoyunu bir çoban, min işçini bir başçı, minbir arxı bir dərə dərər. (**dərər**: yığar. yönətər).

min nəsihətdən, bir müsibət kəsərlidir. (çox öğrədir).

min ölç bir kəs, min qulaq bir səs. (**səs**: söz).

min öyçüdən bir oyçu baş gəlir. (min nəzər verəndən, bir baş verən (fikir verən) yeğ əlir).

min sınıq körpü daşısan belə, soncu körpü sınıb ölüsən. (**soncu**: sonuncu). (**sınıq körpü**: keçrilməmiş sınav. qazanılmamış sınav). (əroğlu uşaq gəlib uşaqda gedir). (əroğlu çiğ doğulub, kalda oğulur). (yaşamda tüm sınıq qırıqlar təvcrübə allanır).

min sürüşən bir yıxılar.

min ulduz var, bir ay.

min yaddan yüz özgədənsə, bir gözəldən danış.

min yaxşılıq aşar başdan, bir yamanlıq yadınca. (**yadınca**: yaddan çıxınca).

min yaxşılıq çıxar yaddan, bir yamanlıq çıxmamış.

min yeyənin olsun, bir deyənin olmasın. (**deyənin**: buyranın).

min yoğuşlar, oxşamır günüm dünkü günə. (**yoğuşlar**: şükürlər).

min yol sezim, bir yol seçim. (**sezim**: yoxlaş. yoxlama).

minarənin başı göyə çatsada, dibi yerdədir.

minbir kölgə dəğişənməz bir varı.

mıncıq deşik gərək, yolda gərək. (**mıncıq**: incik). (nərdə gəzdim yoxudun, çox qaldında qoxudun). (qız gəzən oğlan ayağı uzun, əl açıq gərək, yar gəzən qız qapaçıq gərək) (**qapaçıq**: qapısı açıq).

mindin atın sağrısına, qatlaş yanın ağrısına.

minə dözmüşük, min birə nə qalır ki.

minik enik birgə çatar bayrama, birgə çatmaz barçağa. (**barçağa**: mənzilə).

minilən yəhər, minər bir gün. (yağır atın yəhəri kürəkdə daşınır).

miniyin atmı eşək, aydınlanar bəllənər. (**minik**: mərkəb) (**aydınlanar**: ışıqlanar).

minlər seçim, tək bir sevim.

minlərin çatlar götürər, sınmaz ərənlər.

minlərini utub yatan qara yer, genəz, ağzın açıb baradur. (**genəz:** hənuz. hələdə).

Misafir (konuk) on kısmetle gelir, birini yer, dokuzunu bırakır. Türk geleneğine göre konuk, ev sahibine fazla yük yüklemez, konuğun yiyeceğini tanrı kat kat fazlasıyla ev sahibine verir. (Bayram Özdemir).

miyoldayan pişik sıçan tutmaz.

molla olmasa imam çoxalar.

molla ölüdən qorxmaz.

muğan muğan olar, bir qoyun bir quzu, muğan muğan olar, nə qoyun nə quzu.

mum olub yananda mən, od olub yaxanda mən, ürəkdə mən, körükdə mən, yalnızlıq dışar durar, içimdəki ürək vurar.

Mum yanmayınca pervane (kelebek) dönmez (yanmaz). Güzel için herşeyi göze alacak aşıkların ortaya çıkması için güzelin görünmesi gerekir. (Bayram Özdemir).

munlu olar istəyinə yetməyən, munlu olar doğru yolu tutmayan, öz varından bir qanıqlıq görməyən, gözün tikən uz malına zar olar. (**munlu: munğlu:** qayğılı. qussəli. nakam) (**uz**: özgə. qıraq).

munsuz yerin adı yox, əməksiz yeməyin dadı. (**munsuz**: qınsız. əzabsız).

munsuz yerin adı yox, əməksiz yeməyin dadı. (**munsuz**: qınsız. əzabsız).

mut qapısı çalınmadan açılmır, küt qapısı çalınmadan açıqdır. (uğrun götü açılmadan görünməz, kütün gözü gün çıxmadan evdədir) (**mut**: iyi). (**küt**: kötü).

mutlu olmaq olar, mutlu qalmaq.... !!!!.

mutlu yaşamaq, qutluluq duymaq, mutlu olmaq dəng deyillər. (**dəng deyillər**: aynı şeylər degillər).

mutluq başda yox, könüldə doğur. (**başda:** ağılda).

mutluq bilməz keçmişi, onla yarınlar yoldaş, tutdun indi tutubsan, yoxsa yarın tutarsan.

mutluq bir quş öz ayaqilə gəlməz, yem səpəsən, tor qurasan tutarsan.

mutluq doğsun düşücən, mutluqda var tutsaqıdır inacın.

mutluq edinməz əldə, dilənçilik edinsə, ilik bilək varınkən armanların edinsən. (**ilik**: bacarıq). (**bilək**: tovan. güc). (**armanların**: çatınmamış, edinməmiş arzuların).

mutluq gülü içində, əkib qurmaq seçimdə. (mutluq içdə doğur).

mutluq gülü içində, əkib qurmaq seçimdə. (mutluq içdə doğur).

mutluq içdə doğur. (mutluq gülü içində, əkib qurmaq seçimdə).

mutluq içdə doğur. (mutluq gülü içində, əkib qurmaq seçimdə).

mutluq qaykişinin əsiri. (**qaykişinin**: pis adamın).

mutluq yeri könüldə, para ona yardımçı.

mutluluğ, şüşədir, tez sınar.

mutluluğa çağ ayır, çağsız mutluq olanmaz, pul qazanıb tükətməz, ev eşiyin onağmaz. (**onağmaz**: üz tutmaz. oluşmaz).

mutluluğa nədir gərək, açıq könül geniş ürək.

mutluluğa tövüşmə. (**tövüşmə**: tələsmə).

mutluluğda gedən yollar mutluluğun özüdür,mutluluğa gedən yollar mutluluğun sözüdür.

mutluluğu tapmaq, onu qorumaqdan qolaydır.

mutluluğun qapısı yox, mutsuzluğun qapısı çox.

mutluluq bacardığı mutluluğu yaşamaqdır.

mutluluq diləncisi, bir yaşama min kərənin iləncisi. (özgədən mutluluq güdən, bir yaşıl yaşamdan belə bıkıbda, minlər kərəm qarqanar, lə'nətlənər).

mutluluq duşünməklə başlanır, sezməklə yaşanır. (yadan sal beş altı yaş uşağı).

mutluluq əllə tutulmur, içdə duyulur.

mutluluq hər kəsin ayaq altda, yetərki onu tutasan.

mutluluq hər kəsin ayaq altda, yetərki onu tutasan.

mutluluq istəklə başarığın üstü üsdə düşməsidir.

mutluluq keçmişdə aranamaz, yarına saxlanamaz, indisiz yaşanamaz.

mutluluq olağanüstü varlıq deyil, bayağı yaşamdan yaratılmış olay.

(**bayağı:** sadə).

mutluluq tutulmayan alınmayan könül pususunda yatır.

mutluluq, söz, iş, sevgi birləşəndədir.

mutluluq, şüşədir, tez sınar. (mutluluq şüşə deyir tez sına. mutluluq dondan dona tez geyər, çalış yeni donunda tanı).

müfdə eşşək, atdan yürük (yerik) olur, müfdə sirkə, baldan dadauq. (dadlı).

müxənnəslər körən atda, igidlər yalın, yayaya, altda.

mükafat (ödünc), mücazat (döyünc), dövlətin iki gözüdür.

mükafat, mücazat, dövlətin iki gözüdür.

nacaqsız, yaqıc qurulmaz.

naxırdan çıxıb axıra girmək. (olduğu kimi durmaq).

naxırdan çıxıb axıra girmək. (olduğu kimi durmaq).

nalını mıxını sökecek ölmüş eşek aramak. bazı insanların bir malı bedevadan veya ucuz qapatmaq için mal alması anlamında kullanılır. (özdemir).

namərdin çörəyi dizi üstə olur.

namərdin çörəyi, dizi üstə olar.

namus deyil namosa aykır, nədən görən, namuslu namossuz olur. (**namus**: islamda erkəyə görə qadın). (**namos** (sanskirit): > namaz. tapınış) **(aykır**: qarşı. zidd).

namus gedər dönməz geri, yoxdur onun bəlli yeri.

nankor ata mindi atasın, atdan düşdü atın dandı.

nankor kişi doğru yolda duranmaz, əğri olan doğru birlə olanmaz, min söz desən bir sözüvü tutanmaz, min bal yedir, bir acını utanmaz, ilan çalsa, ağu damar dad verməz.

nar danası, türk balası!.

nar hayvalar taxcada, güllər gülər baxcada, keçmişləri sən bıraq, yaman keçər yaxcıda.

nasıl olsa sağalar, bir gün yaralar.

naşı kürəkən təzə gəlin, eski qaynana dəlik tas. (dünyanın işi, pişməmiş aşı, doludur daşı, daşı ha daşı, qaşı ha qaşı, doymağı yox dolmazda çox, dünyanın işi, pişməmiş aşı,).

nazın çoxu, aşiq usandırır.

Ne doğrarsan aşına o çıkar kaşığına, Kişinin başına gelenler yaptığı işine bağlıdır. İyi iş yaparsa iyi iş, kötü iş yaparsa kötü şeyler gelir başına. (Bayram Özdemir).

Ne doğrarsan aşına o çıkar kaşığına, Kişinin başına gelenler yaptığı işine bağlıdır. İyi iş yaparsa iyi iş, kötü iş yaparsa kötü şeyler gelir başına. (Bayram Özdemir).

Ne yavuz (aşkın, azgın) ol, asıl ne yavaş (şaşkın, miskin) ol basıl, Aşırı ve azgın davranışlarda bulunma cezalandılırsın, tepki alırsın. Fazlada miskin ve yumuşak olma bu kez de seni ezerler ve kullanırlar. (Bayram Özdemir).

nece iti pıçağ olsa, öz sapın yonmaz (yontamaz).

necə güldüyün əkitin, nəyə güldüyün usun bəlgilər. (**əkitin**: **əkin**: tərbiyən). (usun: ağlun). (**bəlgilər**: görsədər).

necə gülərsin əkin, nəyə gülərsin usun anlanır. (**əkitin**: **əkin**: tərbiyən). (usun: ağlun).

necə gülmək əkdivi, nəyə gülmək görgüvü bəlgitür. (**əkdivi**: ədəbivi). (**görgüvü**: baxışıvı).

necə manduz (qanmaz) ərsə, əş yaxcı, necə əğri olsa, yol yaxcı.

necə olursun özün öylə görürdə gözün.

necə uca olsa baş, günü gələr yerə düşər. **{**uca başlar enmiş olar ayağa, ağ günündə qara günün qarağa. (**qarağa**: 1. bax. önləm, tədbir qıl. 1. **qara ağa**: bax ağa)}.

necəlik varki nəçəlik basar, gözü işlətsən, beynivi açar. (keyfyyət kəmmiyyəti, bilik, biləyi basar).

neçə dil bilən olsan, neçə adam deyərlər, öz dilini bilməsən, necə adam deyərlər!?.

Nerde birlik, orda dirlik. Düşünce ve gönül birliğinin olduğu yerde düzen vardır. (Bayram Özdemir).

Nerde birlik, orda dirlik. Düşünce ve gönül birliğinin olduğu yerde düzen vardır. (Bayram Özdemir).

Nerede hareket orada bereket, sürekli çalışılan, uğraşılan yerde bolluk vardır. (Bayram Özdemir).

neyləm tikanı qır belini qoy gülü qalsın.

neyləyin uçmuq yeri, andaqki canan bolmasa, yar çox bolsun nəyimə! ol tamayım bolmasa!. (**uçmuq**: cənnət).

neylirəm boyu gözəli, istərəm xuyu gözəli.

neylirəm boyu gözəli, istərəm xuyu gözəli.

nə acı ol ki atılasan, nə şirin ol ki utulasan.

nə ağır batmışıdı el yuxuya, talan oldu dili toprağı varı kor yağıya, görəməm birdə açılsın yolu bu baxdı qara, qara günlər...

nə ağız yandıran aşdır, nə baş sındıran daşdı.

nə başı var nə varı, burnun tutub yuxarı.

nə bilsin yavuz qonşu yavuz olur, yavuzlara şeytan qılavuz olur.

nə borcum var yaşama, nə borcludu yaşata, ölüm izdə hər nəyin, heç nə olmaz çaşata.

nə borcum var yaşama, nə borcludu yaşata, ölüm izdə hər nəyin, heç nə olmaz çaşata.

nə çox böyük ürək gizli çırpır cındır geyim altında.

nə çox böyük ürək gizli çırpır cındır geyim altında.

nə çox kəzin yaşam yolun kiçik tutular kökdən dəğişmiş. (**tutular**: təsmimlər). (kiçik tutular yaşamda nə yoğun izlər bıraxmış).

nə çox qandın, onca belə az inan, için tutun arınqıl, böyləliklə az qınan.

nə çox qandın, onca belə az inan, için tutun arınqıl, böyləliklə az qınan.

nə çox olub sevən könül ayrılıb, bilməmişdən toxunmusan yarılıb. (**yarılıb**: inciyib).

nə çox olub sevən könül ayrılıb, bilməmişdən toxunmusan yarılıb. (**yarılıb**: inciyib).

nə çox sevən bacarmamış sevməsin, düşən torda kəndi görmüş ölməsin.

nə çox sevən bacarmamış sevməsin, düşən torda kəndi görmüş ölməsin.

nə çox varmış körpə doğan sevgişlər, böyüməzdən ölmüşlər. sevgilərin doğulduğu yaşı varmış, yaşandığı çağı varmış, ilkbaşı sonu varmış...

nə çoxları sevir deyə yalanı, sevmir duya yalanı.

nə çoxların etdi inamdan para. (**etdi**: ayırdı. uzaqlatdı).

nə çoxlu ürək tələsir, əsir sevməyə, bırak tapanmır kimsəyi onu verməyə. (**bırak**: ama. fəqət).

nə daxi çox qarlar, genə yaya qalmaz.

nə dəğiş, nə dəğiştir, nə alış, nə alışdır, öyləsinə mal ged, nə olur!.

nə dodaqda gülüşün var nə yaşam sundu sənə dadla duzun, nə quraqlarki qurarmış bu çoğun çevrənənə. (**çoğun**: fələk). (**çevrənənə**: durana. yaşayana).

nə dosda, nə gözüvə, özüvə inan!.

nə dörddə alım var, nə beşdə verim, nə özgənin dərdin, ürəyim yeyim.

nə duymuşsa ürəyinə toxundu, gözlərində yenə giley oxundu.

nə edinmək, çatacaq sonu, nə sınmaq, yoxluğun qolu, dirənmək dirikmək yolu. (**edinmək**: ələ gətirmək. piruz olmaq). (**çatacaq**: **çatcaq**. uc amac. nəhayi hədəf.) (**dirənmək**: çalışmaq). (**dirikmək** : yaşamaq).

nə edinmək, çatacaq sonu, nə sınmaq, yoxluğun qolu, dirənmək dirikmək yolu. (**edinmək**: ələ gətirmək. piruz olmaq). (**çatacaq**: **çatcaq**. uc amac. nəhayi hədəf.) (**dirənmək**: çalışmaq). (**dirikmək**: yaşamaq).

nə gələcək mənim nə keçəcək mənim, yalnız umarım indiyə qalıb. dünü boş ver günü xoş.

nə görkəmi var, nə içgəmi. (üsdən boş, içdən pox).

nə görmüsən çalış yarış gücün sən, hər barışa min çabamız gərəkli. (**barışa**. çatağa. ərişə. nailiyyətə).

nə görmüsən devranı, devirmədən dönməmiş, yazıq olar o kəski, evrəninən çönməmiş. (çağına uymaq gərək).

nə gözəldə gerçək ara, nə gerçəkdə gözəl.

nə gözlüsən dayından, dayın ölür acından.

nə xəmirdir, nə fətir, nə toya yarar, nə yasa.

nə iğən yavuz ol, asıl, nə igən yavaş ol, basıl. (**iğən**: çox). (nə iğən yumuşaq ol basılasın, nə iğən yavuz ki asılasın).

nə iğən yumuşaq ol basılasın, nə çox yavuz ki asılasın.

nə ilə ölçüsən, o ilə ölçülərsən.

nə iman var şeytan apara, nə mal var divan apara.

nə inci, nə gileylən, kəndivə güvən!.

nə incit nə incin, nə sinsit nə sinsin, nə kincit nə kincin. (**kincit**: kin oyat). (**kincin**: kin saxla).

nə incit nə incin, nə sinsit nə sinsin, nə kincit nə kincin. (**kincit**: kin oyat). (**kincin**: kin saxla).

nə irəli qaçmalı, nədə geri qalmalı.

nə istirsən bacından, bacın ölür acından.

nə istisən bilgilən, nə seçmisən sevgilən, qutluq budur bilgilən.

nə işlər var gəlməzki başa, dönər çoğun yoxsulda paşa. (**dönər çoğun**: fırlanar fələk. devir çönər).

nə it hürür, karavan yürür, gələn yoxdu hər nə çürür, yoxluq olur sonumuz, ağ çuxadur donumuz.

nə itin yiyəsiyəm, nə gön yiyəsi.

nə keçmiş ara, nə keçmişə dal, indivi yaşa. (çağıvı yaşa).

nə keçmişə saplanıb qalacaqsın, ne gələcəğin düşlərin quracaqsın. ömür dediğin şu andır onu da başaran kimi yaşayacaqsın!.

nə keflinin "ağıldan" danışmağına güvən, nədə ağıllının "səfehlikdən" danışmağına inan.

nə kimin mənə gərəyi, nə mənim kimə gərəyim, özgürlük tam anlamında.

nə kimin mənə gərəyi, nə mənim kimə gərəyim, özgürlük tam anlamında.

nə qoyarsan ənginə, oda çıxır öngünə. (**öng**: rəng. boya. nərsənin önün, üzün, gözə çarpan qabığı, boyası). (üz boyan yediyindəndir).

nə qoymusan 'qar'a başın, qara başın. (oyan quylama 'qar'a başıvı, daşlı başıvı).

nə mutluyum türk doğulduğuma, sımsıkı sarılmışam mutluğuma.

nə olarki hançı dildə can sözün canan yazır, bul yetər kim can sözün candan cana canan yazıb.

nə olduğun bilməyən, siçanlara yem olmuş.

nə olduğun əsən yeldən, hürən itdən sormazlar.

nə olduğun tanıyan toplum, el olur, nə bilədiyin tanıyan toplum, devlət. (**bilədiyin**: başardığın. nəyə gücü çatdığın).

nə olursun ol, özgələrə gördükləri kimi olursan.

nə oyanın unudu, nə buyanın dəni.

nə ölüyə hay verən, nə diriyə pay verəndi.

nə pox geridə qoyduq, yoxumuş kimi yox olduq.

nə sanmısan aldışı, ayırmış ərkək dişi. (**aldışı**: adəti**)**. (adətlər çox evlər yıxmış).

nə sevdiyin seçərsin, nə sevənin.

nə sevdiyin seçərsin, nə sevənin.

nə sevdiyivə güvənmə, nə sevənivə. kəndivə güvən.

nə soxub çıxardanmır, nə verib alanmır.

nə şaşqın, nə daşqın. (şaşqın olan basılmış, daşqın olan asılmış).

nə şaşqın, nə daşqın. (şaşqın olan basılmış, daşqın olan asılmış).

nə toyun gördün, nə yasın, dosluğun nə babətdə.

Nə tökərsən aşına, o da çıxar qaşığına. (Araz Gunduz).

nə umud gedənə, nə umuq gələnə, həp güvən içinə , çevrən olmasın vecinə.

nə umud gedənə, nə umuq gələnə, həp güvən içinə, çevrən olmasın vecinə.

nə un olduq atda, nə kəpək üsdə.

nə yağın istədik, nə dağın.

nə yavuz ol asıl, nə yavaş ol basıl.

nə yolun yolçusudu, nə kimin qolçusudur.

nə yoruldum, nə uğurdum, hazırca kökə tapdım.

nə, irəli qaçmalı, nədə geri qalmalı.

nə, şaşqın ol basıl, nə daşqın ol asıl.

nədə çox dos tanışın olsa sənin, dar günündə tapmağı qın arasan bircə kömək. (**qın**: zor).

nədən durmaz durur bu çoğun, öğrəşiklik bu devrimə güc olur. -dosluqlar yaranır, dosluqlar ölür, sevgilər yanır, odları sönür. (**durmaz durur**: qərarsız durur). (**çoğun**: fələk).

nədən durmaz durur bu çoğun, öğrəşiklik bu devrimə güc olur. -dosluqlar yaranır, dosluqlar ölür, sevgilər yanır, odları sönür. (**durmaz durur**: qərarsız durur). (**çoğun**: fələk).

nədən qalmır ilkin aşqlar, yanır kül olur eski andlar.

nədən qalmır ilkin aşqlar, yanır kül olur eski andlar.

nədən sanırsın sevdiyin sevəcək səni, bəlki qurmuş yuva başqaca könüldə o.

nədən sanırsın sevdiyin sevəcək səni, bəlki qurmuş yuva başqaca könüldə o.

nədən sanırsın sevdiyin sevməli səni!.

nədən sanırsın sevdiyin sevməli səni!.

nədən sordun, -heç, elə belə soranın qayğısın anla. şakaydı deyənin, acısın anla, varam deyənin, boşluğun anla.

nədəndir dönüşü belə dünyanın, kor hammını kor görər.

nədənləri aransın, çıxar yollar taransın. (donatmadan don olmaz, soyuq düşsə don çalar).

nədənsə açır nədənsə solur, bulut olur göylərə dolur, necə çəksən öylədə olur. (göz gözlədiyin, ürək istədiyin, könül çəkdiyi görür). (bu qısa yaşacımızda fırlanan, dönən bizik).

nədir bu təpzəş, nədir bu dartış: həyəcan.

nəfs solundadır, ağıl sağında, hər birisi öz yasağında.

nəfs solundadır, ağıl sağında, hər birisi öz yasağındadı.

nəqədər uca olsada dağ, bizə bir yol tapılacağ.

nələr dərdik əkməmişdən, nələr əkdik dərənmədik. **(**yaşamda gözdəməz nələr bəklər bizi). **(gözdəməz**: sürpiriz).

nələr umar, nələr bular, bu bürküsü açılmaz. (**bürküsü:** müəmması).

nəm harada altun var, barsan bakır belə tapılmaz. (ıraqdan çox söz deyilər).

nəmə əksən şunu orarsan. (hər əksən hayla onu biçərsən).

nərdə gəzdim yoxudun, çox qaldında qoxudun. (demək istirki. mıncıq (incik) deşik gərək, yolda gərək). (qız gəzən oğlan ayağı uzun, əl açıq gərək, yar gəzən qız qapaçıq gərək) (**qapaçıq**: qapısı açıq).

nərdəsin nəsin dəğişmək olar, iç çalışmavı dəğişmək olay. (**olay**: bir olay, hadisə. qolay deyil).

nərə yetməyin, necə getmədən önəmli.

nərə yetməyin, necə getmədən önəmli.

nərsə üçün dəlirsən, kimsə üçün dəlirmə.

nərsələr var könül görər, göz seçməz.

nərsənin varlığı acı, nərsənin yoxluğu.

nərsənin varlığında karlığın bilməyən, yoxluğunda korluğun nə bilir.

(**karlığın**: yararın. dərdə dəğməsin).

nərsənin yengisi yeğ, nərsənin əsgisi.

nəyin nə oduğu işdə bəllənər.

nəyin uğrunda düşdün sorağa, götdü getdi səni belə uzağa.

nəyinlə ölçərsən, onlada ölçülərsən.

nəyinoğlu, dilin yoxsa ağzında, suyun yoxsa üzündə, kişi deyək, səndə kəndin sanırsan.

nəyivəki yaşır yaşamır özgələr, sən yaşadın kimsə səni sormadı, ölən günün el obadan yığşur, yasın tutur yola salır undur. (**kəndivə güvən**).

niçə istiyəndə hər nəyə inanırmış.

nin qurmaq, ev yıxmaqdan qolay.

nin qurmaq, ev yıxmaqdan qolay.

nisgil doğalı bağlı buluğa, göycündü bu his mən alalı ol ulu göydən.

(**buluğa**: ürfana). (**göycündü**: göycündür. qutuqdur. mələkutidir).

nisgil dolur sənsiz ötən günlərə, könlüm gəlmir bağçalara bağlara, yas saxlayır qaragünlər ağlara, sənsiz usum başdan uçar gecələr. (təkin).

nisgilə söylədilər dərdlər ara ən kötüsü hançı olur, ol ayıtmış darıxışdur, darıxışdur, darıxış.

nisgili boğ, sevgini doğ.

nisgili boğdum, kəndim doğuldum!.

nisgili boğmayan ürək, nisgillə ölür.

nisgili sevən bilir, su nədir yanqır.

nisgilin salsam içə eşq odunu ol boğacaq, nisgilinlə yaşamam, eşqim alov çəkmədədir.

nisgilin var ürəyimdə yatırı, nə edərdi gileyin sən kimi daşlaşmış ürək.

nisgilli sevgi ölməsə, öldürür!. (**nisgilli sevgi**: qurbətə düşmüş, əl çatmaz sevgi).

nisgilli tin daşa dönər. (**tin**: ruh).

nisyə verən baqqal, bir ilə olar çaqqal.

Niyet hayır, akıbet hayır, İyi niyetle başlanılan işin sonu hayırlı olur. (Bayram Özdemir).

Niyet hayır, akıbet hayır, İyi niyetle başlanılan işin sonu hayırlı olur. (Bayram Özdemir).

niyə bəs tez gedisən sənki gəlirdin oturaq, bu deyil qayda sayaq gej gəlibən tez gedəsən.

niyə bəs tez köçüsən sənki gəlirdin yaşıyaq, bu deyil qayda sayaq gej gəlibən tez gedəsən.

niyə -"niyə" bilmək baş açar, "nəyi" bilmək yol açar. (**baş açar**: ağlı işlədər).

niyə yapdın boşla qıl, nəyi yapdın al sana.

nlamazlıq ağır pox, kahıllığa dərman yox. (**kahıllığa**: cahilliyə).

noxud nə qədər atılıb düşsədə, tavanı patladanmaz.

nökər kimi işlə, ağa kimi dişlə.

o başdan qoyundada var. (sənin başın qoyun baş).

o başdan qoyundada var. (sənin başın qoyun baş).

o dosluq ki, bir sözlə qırıla, yoxluğu yeğ ki, ta qurula.

o istəyir dözəm mən, qursaqki məndə yoxdur. çatışmağın dilər mən, dilək ki onda yoxdur. (**qursaqki**: hövsələki).

o kəsdi o pişirdi, o yedi, sənə qalmadı.

o ki deyir: qorxmuram, yalançıdı. o ki deyir qorxuram: inanmazdı. o ki deyir inanmıram: qorxaxdı.

o ki pox yedim demir, pox yedirdərlər. (demir: deyə bilmir). (kişi öz yanlışların bilib tanısa (e'tiraf edsə), yaşayıb yaşadar).

o ki tutduğun bıraxanmır, kordur! (**kordur**: çevrəni, günü yaşamı qananmır).

o qapını ki, genə açacaqsan, bərk çırpma.

o quş ki sən tutmusan, qanadın mən yolmuşam.

o nədi özü şirin ətacı, o arvaddı əti şirin özü acı.

o nədir çox nə istər birindən, o nədir bir nə istər çoxundan. -o qadındır çox nə istər birindən, o erkəkdir bir nə istər çoxundan.

o nədir oxşayır dəmir yükünə, ağırlıq edər alsan çiğinə, atar pasın qoysan yerinə. -o dosdur oxşur dəmir yükünə, ağırlıq edər alsan çiğinə, atar pasın qoysan yerinə.

o nədir olmasa, kimsə kimi tanımaz. (tapmaca) (ad).

o sənə yar deyil, yardı sənə. (**yar**: dos. kömək. {**yar**: uçurum). **yardı**: uçurumdur. batlaqdır)}).

oba durdu düzməyə, gəlin qaçdı gəzməyə.

oba yiyəsiz qalsa, doğuz təpəyə çıxar.

obabaşın oğrusa, oban içrə daş qalmaz, üz bəzəkçin yovaşsa, göz üstündə qaş qalmaz. (**obabaşın**: yurdbaşın) (**yovaşsa**: **yavaşsa**. iş bilməzsə. yayaqsa. piyadasa. naşısa).

oburluğu ölümdən, qanıqlığı olumdan (öğrəş).

oburun qarnı beş, biri haşağ boş. (**oburun**: qarıbqulunun). (**hamşağ**: hamıçağ. həmişə).

ocağ, başın sağ olsun, dövrə bərin ot olsun.

ocağı isti çörəyin yapar, açıq ağız tikəsin qapar.

ocağı söndürən çox olar, yandıran az!.

ocağı yıxmış, körpünü qırmış.

ocağız odlu olsun, ürəyiz isdi.

ocak başın sağ olsun, dövrə bərin ot olsun.

ocaq başı boş qalmaz, boş ocaqda kəs durmaz. (**ocaq başı** :ocaq yansa).

ocaq içindən tutuşar.

ocaq keçər, külü qalar.

ocaq odlu, gəlin utlu. (**utlu**: utanclı. hayalı).

ocaq yansa aş pişər.

ocaq, içindən alışar.

ocaq, içindən tutuşar.

ocaqda odu qalmadı, savrulub külü közü yanmadı. (belədə gedməz. evrən çevrilmədən çevrilməz. (**çevrilmədən çevrilməz**: dolanmadan dolanmaz).

ocaqda odu qalmasın, külü savrulsun közü qalmasın. (qarqış).

ocaqdan kül əsgik olmaz.

ocaqsız odaq olmaz, törəsiz yığca. **(ocaq:** mehhvər. mərkəz). (**yığca**: məclis).

od açar, qızılı, iş bəllədər, kişini.

od alovla öçrülməz. (**öçrülməz: uçrulməz**. sönülməz).

od aşq kimidir, çevrəsinə ışıq salar, içinə düşəni yandırar.

od bürüsə, yaş qurur, yalan qalxsa, düz durur. (od yaşı, otu enir, üstəlir). (**qalxsa**: ayaq tutsa). (**durur**: qalxır. gedir). {(yalan gircək qapıdan, doğru qaçmış, yapıdan. (**yapıdan**: gizlicə. dal qapıdan)}.

od daşı yarar, daş başı.

od deməklə ağız küyməz (yanmaz), baxmağınan qarın doymaz.

od deməklə ağız küyməz, qoy deməklə ağı (ağrı) qoymaz.. (**küyməz**: yanmaz).

od deməklə dil yanmaz.

od dumansız olmaz, yiğit günahsız.

od dumansız, yiğit çiğitsiz (qıyınsız. zəhmətsiz) olmaz. (od dumansız, yiğit günahsız olmaz).

od düşən yerdə ot bitməz.

od düşəndə, yaşda yanar, quruda.

od düşəndə, yaşda yanar, quruda. {od düşəndə, yaşla quru birgə yanar. (od düşəndə, yaşda yanar, quruda yanar)}.

od düşəndə, yaşla quru birgə yanar.

od düştüğü yeri yaxar. başına bir felaket gelmiş insanların acı duyacağını diğer insanların bu insan kadar acı duyamayacağını belirtir. (özdemir).

od düşürsə sənli mənli küydürər.

Od ilə oynamaq olmaz. (Mehriban Az).

Od ilə pambığın nə dostluğu?. (Mehriban Az).

od ilə od sönülməz. (çözülməz).

od ilə su sığışmaz (tutuşmaz).

od ilə su sığışmaz. (**sığışmaz**: tutmaz).

od ilə su, əldə ikən yaradır, əldən aşdı, biri yaxar, biri boğar. (**yaradır**: faydadı).

Od imandadır. (Mehriban Az).

Od insanı həm qızdırır, həm də yandırar. (Mehriban Az).

Od külə gizlənər. (Mehriban Az).

od külə gizlənir. (od kül altda qorunar). (od küldə qorunur).

od qavurur, yel savurur.

od qızıla dosd olsun, iş kişiyə.

od qızıla, iş kişiyə dosd olsun.

od qızılı, qızıl əri sınayar.

od odğucla uçulmaz (**uçulmaz:** sönməz). (**odğuc.** yalav. yalım. od dilimi).

Od olan yerdən tüstü çıxar. (Mehriban Az).

od olmamış tüsdü yoxdur, hər odunda tüstüsü yox.

od olmasa aş pişməz, arpasız at dağ aşmaz.

od olmasa, qızıl olmaz.

od olmasa, tüstü çıxmaz.

od olmazsa, qızıl yox, iş olmazsa, kişi yox.

Od olsa özünü yandırar. (Mehriban Az).

od olub yandırıb ayırmaqdansa, palçıq olub yapışdırmaq yey.

od söndürər, su yandırar.

od sulandı, iş yatışdı.

od tutan odu atmış, əl tutan əli qopmuş. (əl tutma, od tut).

od tutanda, yaşda yanar, quruda.

od uçğundan qopar.

od uçğundan qopar. (**uçğun**: qoğ. qığocılğım).

od yandırıb tüstüsünə tutulmaq. (kəndi yapdığı işin toruna düşmək).

Od yanmasa tüstü çıxmaz. (Mehriban Az).

od, alovla söndürülməz.

od, odla söndürülməz.

oda qapılan kül olar.

oda qılınc ilə yügürmə.

oda qızan kim, küyən kim. (**küyən**: yanan).

oda qızanda var, küyəndə. (**küyəndə**: yananda).

oda qorsun olunca, köz üstünə, kül ol. (**qorsun:** qocaq. qoğcaq. qorcaq: qor, od, atəş qoyulan yer, qab. manqal).

oda qoysan, qızıl, işə qoysan, kişi olan bəllənir.

oda yaxın hiss küyər, yengiyə yaxın qız küyər. {oda yaxın his tutar, gəlinə yaxın qız (ürəyi) yanar}.

odda pişər aşımız, həp dik gəzər başımız, düşməyəcək dillərdən, türk dilimiz dadımız.

odda sönər sovuyar, güldə solar quruyar.

odda yanan, közlü küldən qorxmamış.

oddan çıxdıq, alova düşdük.

oddan çıxırdsa tüstü, çıxan tüstü od verməz.

oddan isti kürə olmaz.

oddan isti kürəsi. (olduğundan artıq şişinmək, qızınmaq. artıq qabartma, mubaliğə).

oddan keçdik suya düşdük, sudan keçdik, oda düşdük.

oddan kül törər, közdən od.

oddan qoran (yanan), tüstüdən qorxar.

oddan qorxan suya düşər.

oddur duzağ, oddan uzaq.

odla altın, işlə kişi sınanır.

odla altun, işlə kişi sınansın.

odla qızıl tellənir, yoğla könül dillənir, işsiz kişi yellənir. (**yoğ**: yumşaqlıq. mərhəmət. ehsan) (**yellənir**: havaya gedir).

odla qızıl yalanır, əməklə kişi. (**yalanır**: arıtlanır).

Odla oynayan odsuz qalar. (Mehriban Az).

odla pambıq tutuşar, pambıq oddan alışar. (**tutuşar**: yaxalaşar).

odla saman qonşuluğu çox sürməz.

odla su barışmışlar, dünyanı yaxmışlar.

odla su pambığa gedər, kişi oğlu aşa.

odlu aş odlu qazan. (içi dışı əş olan. içi dışı uyuşan).

odlu aşım isti qab, qala odun qaynasın. (mən yasın (hazıram. mən yöndən hər olası yerində), səndə çalış, payın qoy, doğrulsun). (bu sən but at bu alan, gözlür yuların alan). (məndən bu dərək, qalan sizdən).

odlu aşın isti qab, qala odun qaynasın. (hər olasın (imkanın) yerində, çalış doğrut istəyin). (bu at bu alan).

odlu dəmirin, iki başıda isti olur.

odsuz ev, qutsuz ev.

Odsuz ocaq olmaz. (Mehriban Az).

odsuz, qazan qaynamaz.

odsuz, qızıl olmaz, əməksiz kişi.

odu bassan otun dibinə, yarndırar qalmaz, otu bassan odun içinə, yalvanar durmaz. (**yalvanmaq**: yalım, alov tökmək).

odu düşsə yaxışın, yaşlı quruğanı yaxar. (**yaxışın**: tamah. təmə').

odu görünməz, tüstüsü göz çıxarır.

odu ilkin özüngə bas, küydürməsə başqasına.

odu inandıran sudu. (odun imanı sudadır).

odu inandıran, sudu.

odu pülüyən, oda düşər. (tutun qopuran iylənir. tüstü salan tüstüyə tutular. aşıran, aşar. aşıran, aşacaq).

odu pülüyən, oda düşər. (tutun qopuran iylənir. tüstü salan tüstüyə tutular. aşıran, aşar. aşıran, aşacaq).

odu yağla söndürmə, dəli gördün dindirmə.

odu yaldıranda var, yatıranda. **(yaltırmaq:** yeldirmək. yelləmək. itimək). -.

odu yox, tüsdüsü çox.

odun aldın, tüsdüsündə al.

odun azı dosdur, çoxu düşman.

odun gətirənmiyən daşqanın özü, odunluq olar.

odun imanı, sudadır.

odun izəyi küydürüş, donun izəyi qızdırış, donun izəyi donduruş. (**izəyi**: xasiyyəti).

odun közü, atanın sözü.

odun közü, atanın sözü.

odun qırmayana, od yaxtırma.

odun oldun od yaxar, altun oldun oda döz!.

odun suda qurumaz.

odun tək yanmaz, yataq tək qızmaz.

odun yığdın, kim yaxa, mal qazandın, kim sapa (**sapmaq**: xərcləmək).

oduna görə tüstüsü çox.

oduna görə tüstüsü yox.

oduna qızmadıq, tüstüsünə kor olduq.

oduncu gözü, omacda.

Oduncunun gözü omçada=Dilençinin gözü çömçede, omça, kalça kemiği, değersiz şeyler. Herkes ne işine yarıyorsa, gözü ondadır, onu elde etmeyeçalışır. (Bayram Özdemir).

odunçu gözü omçada. (**omça**: tomça: kütük. ağac kündəsi).

odunçu ölsə otu-suyu qalır, ovçü ölsə çaxmağı-qovu qalır.

odunçuyla kömürçü tutmaz. (odunçuyla kömürçününkü tutmaz). (odunçuyla kömürçü, xocayla qoca birbirin götürməz).

odunsuz qazan qaynamaz, qadınsız ev, yayramaz.

odunu yığan bilər, inəyi sağan. (**bilər**: tanır).

odunu yığan yaksın, başını yığan assın. (**assın: asısın**. faydalansın).

odunun kəndi yaran iki kərə ısınmış.

odunun kəndi yaran iki kərə ısınmış.

odur qoç igid ki, qolayın qılır, nə ol kim qolayına cürət qılır.

odünçu gözü omçada. (**omça**: kündə. yarılmamış ağac kötüyü).

oğla varsa ata malı, oğul ata diləməz. (oğlun əli ata malına çatırsa, artıq atanı aramaz).

oğlan ağlar gün keçər, quzu mələr il keçər.

oğlan atadan bəllər saçağ açmağı, qız anadan bəllər biçgi biçməyi.

(**bəlləmək:** öğrəşmək. əzbərləmək). **(saçağ**: süfrə).

oğlan atadan bəllər saçağ açmağı, qız anadan bəllər biçgi biçməyi.

(**bəlləmək:** öğrəşmək. əzbərləmək). **(saçağ**: süfrə).

Oğlan atadan öğrenir sofra açmayı, kız anadan öğrenir, biçki biçmeyi, Oğlan babasından, kız anasından öğrendiklerini yapar. Ana baba bir şeyler öğretmemişse çocuklarına, çocukların bir şeyler yapması beklenemez. (Bayram Özdemir). (Bayram Özdemir).

Oğlan dayıya, kız halaya (bibiye) çeker, Oğlan çocuklarının yüzü, huyu dayısına, kız çocuklarınki de bibiye benzer. (Bayram Özdemir).

Oğlan dayıya, kız halaya (bibiye) çeker, Oğlan çocuklarının yüzü, huyu dayısına, kız çocuklarınki de bibiye benzer. (Bayram Özdemir).

Oğlan dayıya, kız halaya (bibiye) çeker, Oğlan çocuklarının yüzü, huyu dayısına, kız çocuklarınki de bibiye benzer. (Bayram Özdemir).

oğlan doğan öğünmə, qız doğuran döğünmə, oğlan doğdum oydu məni, qız doğdum soydu məni.

oğlan doğan öğünmə, qız doğuran döğünmə, oğlan doğdum oydu məni, qız doğdum soydu məni.

oğlan doğdum oydu məni, qız doğdum soydu məni.

oğlan doğdum oydu məni, qız doğdum soydu məni.

oğlan əlinə daş vermə. (uşaq nədir tüfək nədir). (uşaq nədir piçaq nədir). (nə yapdığın bilməz). **(oğlan:** cocuq. uşaq).

oğlan havlığar, dan çağında atar. (**oğlan**: evlənməmiş, sevgisi olan).

oğlan qul oldu pula, qızla satıldı pula, şimdi görün böylə çönmüş bu evrən..

oğlan qul oldu pula, qızla satıldı pula, şimdi görün böylə çönmüş bu evrən..

oğlanı yumuşa (işə) sal, ardınca sən var.

oğlanların süpəh daşı: - vay dizim vay dizim. qızların yumşaq əti: - vay dişim vay dişim.

oğlu lələsi, atı əkdısi tanır. (**əkdısi**: mürəbbisi).

oğlu olan güclü varlı, atlı olan hər nə varlı. (keçmişdə).

oğlu olmayan, yeddisin oğulluğa götürər.

Oğlum deli, malı neylesin, Oğlum akıllı, malı neylesin, Akıllı insanlar atadan bir bırakıt kalsa da kalmasa da, aklı ve çalışkanlığı ile malı kazanır. Deli insanlar da atadan ne kadar bırakıt kalsa da, üstüne

ilave etmediği gibi, har vurup, harman savurarak kısa sürede tüketir. (Bayram Özdemir).

oğlun olsa qoy nəzərəli, xeyri yoxsa nə zərəli.

oğlun yaman olsa - vurub tanrı. yaxcı olsa – verib tanrı.

oğluva de, güv utansın. (**güv**: güvey. kürəkən)}. {qızı söğüb, gəlini gücət. (**gücət**: tənbeh elə. başa sal)}. {qızın söğür, gəlini gücətir. (**gücətir**: tənbeh edir. başa salır)}. {qızı söğət, gəlin gücət. **(söğət:** söğ)}. {qız söğünsə, gəlin gücənir. (**gücənir**: sıxılır. başa düşür)}. (qızına deyir gəlin anlasın).

oğma qara yumaq ilə ağarmaz.

oğmasan yad deyilən dildə deyil türkcə dilin, doğulan türk doğduğun türk türkcə yaz ay butuqun qurbanı. (**butuqun**: qələmin).

oğru adam oğurluğu tez bilər.

oğru boğsa doğrunu, uçub gedər görməz üzüz bolluluq.

oğru dam deşər, qaraqçı yol kesər.

oğru deməz gecədi, toyuqdusa cücədi, alar çapar, vurub qırar.

oğru doğrunu desə inanma.

oğru elə bağırdı, doğru bağrı yarıldı.

oğru elə bağırır, doğrunun bağrı çatlır.

oğru eli pozanmaz, dağı börü. el oğrusu tututlar, dağ börüsü boğular.

oğru evden olursa öküzü bacadan aşırır.

oğru əlin, qaraqçı kəsər. (**qaraqçı:** yol kəsən).

oğru gəlib bulduğun alar, dosdun gəlib bildiyin yapar. (oğru tanınmaz, dosduvu tanı).

oğru güclü, doğru suçlu.

oğru kəndinə inanmasın, kimə inanansın.

oğru qalana yanar, mal yiyəsi gedənə.

oğru qalana yanmış, yiyəsi gedənə.

oğru qorxaq öz kölgəsindən qorxar.

oğru qorxaq, qaraqçı ürəkli olur. (**qaraqçı:** yol kəsən).

oğru oğrudur, dosd olsun.

oğru oğrudur, dosd olursa belə.

oğru oğrudur. ağı qarası yoxdur. ölsün o tanınmaz yazxcı ki, tanınmiş pisin yerinə gəlir.

oğru oğrunu tanıyar.

oğru oğruya deyir tutun oğrunu.

oğru oğruya yoldaşdır.

oğru oğurlab, yola düşər, axırı bir gün tora düşər.

oğru olan başın yemiş doğrunun. (**"doğru"** sözünün baş biçiyi olan (**d**) eni götürsək **'oğru"** sözü kəndin göstərir).

oğru olan toxalmaz, doğru olan ac qalmaz.

oğru olsan, çalan ol, od olsan, yaxan ol, yalan olsan, qandıran.

oğru öz qapısın bağlayar.

oğru özgənin malın yeyər, özünün arın (namusun).

oğru tün aşınca, börü (qurd) don (aşınca).

oğru yoxsa bağ neyləyir çəpəri.

oğru yoldaş dalınca gəzər.

oğru, evə girdikdən sonra, qapıya açar salar.

oğru, oğrudan gizlənər.

oğru, tanıq aramaz. (**tanıq**: şahid).

oğrudan doğru doğmamış hələ.

oğrudan qorxan var birikməz.

oğrudan qorxan, mal yığmaz.

oğrudan oğruya pay düşər.

oğrudan uzaqlıq, doğrulara yol açar.

oğrudursa, yalan demir?, inanma.

oğrularda doğruluğu danmamış. (oğruda kəndin doğru göstərir).

oğruların evi çox, doğruların evi yox!.

oğruların istəyi, qaranquluq gecədi!.

oğrun boğaya gələn, aygün quzular. (**aygün**: açqar). (**quzular:** balalar. doğar).

oğrunu oğrunu desən alqışı gələr, doğruya oğru desən, gülgüsü.

oğrunu, doğurmuş yalan.

oğrunun cibi dolsada, gözü doymaz.

oğrunun evi çox, doğrunun evi yox.

oğrunun işi doğrudan danışmaqdı.

oğrunun özü bir, gözü yüz olar.

oğrunun yavuzu (yamanı) söz oğurlayandı.

oğrunun, ayı görməyə gözü olmaz.

oğruya qıyan, karvanın qırar.

oğruya qıyan, kərvanın qırar. (**qıyan**: yazığı gələn).

oğruya qoysan əğrini seçər, doğrunu qayrar!. (oğruya qoysan yaxud oğruyu qoysan) (**qoymaq**: icazə vermək). (**qayrar**: düzəldər).

oğruya tay ubanma (gizlənmə), görcək işdə yubanma. (**görcək**: lazim).

oğruya ut gərəkməz, sallaca əsrik. (**ut**: həya). (**sallaca**: cəllada). (**əsrik**: əsirgəlik. rəhmgöyüllük).

oğruya uyan çalınmış, yağuya uyan talınmış.

oğul ağısı, sində dinər.

oğul beldən, dosd ürəkdən, arvad eldən.

oğul beldən, söz didən, iş əldən.

oğul dursa evin daşı, qızda durur könül aşı. (**könül aşı**: 1. könül oxşadan, yumşadan, yasıq, naziklədən 1. könül oğşatan: könlü yüksəldib, tansuq yapan. tanrıya qovuşduran).

oğul gözsüz qalan, başlı başına gedər.

oğul qıza düzü dağı, ər kişiyə düz yağı. (gənc olanlara düzlük olsun, təpə olsun, ərkişi üçün düz olan, dosd olan bəllənməlidir).

oğul ölümü göz tökər, qardaş ölümü bel bükər.

oğul ölümü, bükdü belimi.

oğul sana söylədim, dosdum sözdən anlaqıl.

oğul sənə deyirəm, oğlum sən eşit.

oğul sənə deyirəm, oğlum sən eşit.

oğul var eli öğünər, giyev var elə öğünər. **(giyev:** kürəkən. damad).

oğul yaşlıqdan, xanım başlıqdan.

oğul yetişincə, qız pişincə.

oğul yolu, qarın suvu toxdan yeri bəllənməz. (**toxdan**: toxdağan).

oğuldan daha dadlıdır, yar əgər doğru ola.

oğulsuzün toyu olmaz.

oğurlayan qaçır, görən düşür həçələ. (oğurlayan qurtuldu, görəndi ki tutuldu).

oğurlayın yükülən (hamilə olan) açığda buzalar (bizovlar. balalar).

oğurlayın yükülən (hamilə olan), açıqda buzalar (bizovlar. balalar). {oğurlayın yükülən açğara doğar. (**açğara**: aşqara). }.

oğurlayın yükürən, açgara doğar.

oğurluq edən utanmaz, üstünə gələn utanmış.

oğurluqdan əl çəksəndə (əl üzərsəndə), oğurluq adı qalar səndə.

oğurluqdan əl üzərsəndə, oğruluq adı qalar səndə.

oğurluqla yalançılıq, ekiz doğulmuşlar.

ox atılmış, yay asılmış, saz qırılmış, tel düşülmüş.

ox düz olar, yay əğri.

ox iti, göz iti, köz iti.

ox olma atılasan, oxçu ol atasan.

ox olmasa, yay dəğməz. (**dəğməz**: dəğər tapmaz).

ox ovçunun, iş bilənin, diş yeyənin, geyim geyənindi.

ox ötməyən daşdan, ötər dilim.

ox yalı doğru söz.

ox yonanın, gözü çıxar.

oxan gözdür salır ışığı, qaylı elin başın götürür.. (**oxan**: oxuyan). (**qaylı**: bəlalı) (**başın götürür**: qutarır. nəcat verir).

oxlu tüfəkdən bir kişi, oxsuzundan min kişi qorxar. (**ox**: güllə). (oxlu tüfəkdən bir kişi qorxar, oxsuzundan min kişi).

oxşaçı əli təpləyən, təpən ayağa düşər. (**təpləyən**: itən. rədd edən. təpikləyən).

oxşatmasan tapılmaz.

oxşayan sakalıvı, bir gün çənən qırarıdı. (saqqal qırxır, çənən qırır. saqqalıda qırx, çəninidə qır. oxşayar saqqal, çənən qırmaq üçün. səqqəl oxşandı, çənə qırıldı. çənə oxşandı, səqqəl qırıldı).

oxşayanda dil, oxlayanda.

oxu atıb yayın gizlədib!. (iki üzlü. kitos).

oxu atıq, yayı çözük. (işin görmüş oturmuş). **(çözük:** açıq. şol. boş).

oxu atıp yayı gizlədən, balıq tutan, suyu kirlədən.

Oxu ha oxu, Hayatı gözel toxu. (Kordus).

oxu yazı bilməsən, olanları qanmasan, daşla qaçır böylə gözlü korluğu. (**daşla qaçır**: tullu atgilən). (böylə görməz gözü tullu atgilən).

oxumadıq səni yazılma igən, böylə güstax olurmu kəndi gələn.

oxumaz gözü qınama. (**oxumaz**: bilgisiz. savadsız).

oxun atılış gücü, geri çəkişindədir.

oxun atmış yayın asmış. (dilək almış, dinc oturmuş).

oxun atmış yayın yasmış.

oxun atmış, yayın asmış. (unun ələmiş, asmış ələyin).

oxun gedər əlindən bir gün, yasılar yayın sənində.

oxusuz duyusuz.

oxusuz gələn, döşəksiz qalır. (**oxusuz**: çağrısız. də'vətsiz. kartsız).

oxuşuna yox, toxuşuna bax.

oxuyan duyusuz qalmaz.

oxuyan duyusuz qalmaz. (oxuyanla olan, oturan duran duyusuz qalmaz).

oxuyan el uzar, oxumaz el tozar. (bilikli, savadlı millət yüksələr, biliksiz el yoxsalar) (bilikdir ellərə dayaq, biliksiz el qalar yayaq).

oxuyan el, uzar, oxumaz el tozar. (**uzar**: yaşar. durar). (**tozar**: ölər. heç olar. yox olar). (heç el, biliksiz iliksiz yaşamı uyqulayamaz) (**iliksiz**: başarcaqsız).

oxuyan gözdən ışıq düşməz. (oxuyan gözdən ışıq gedməz).

oxuyan gözlərə sağlıq.

oxuyan tutan qaldı, toxuyan kişi aldı.

oxuyan yaxşı, oxuyandan toxuyan yaxşı.

oxuyan, oxuyanla olan, oxuyanla oturan duran duyusuz qalmaz.

oxuyub düşünəndə var düşünüb oxuyanda.

ol ayladı, mən aylandım, mən aylatsam ol aylanmaz. (**aylatmaq:** fırlatmaq**)**.

(**ol ayladı**: ol aylatdı) (o çevirdi, mən çevrildim, mən çevirsəm, o çevrilməz).

ol bir kişi kövrək açıq könüllü, uçmağlara yönüllü. (alqış sözü).

ol dəm qacar (hara) qaçılır, baş götürəsi, ər gərək.

ol gerəklik şamını göz görmədi, kimsənə anın nişanın vermədi.

ol gözəllikki yaranmış söz ilə, görünə bilməz olurmuş hər açıq bir göz ilə.

ol ki güvənc arır, kəsin yasaçıdır. (**yasaçı**: səyasətçi. hüllükçü. kələkçi).

ol ki yaşamla ötüşər, yaşamda quş kimi ötər. (qutluq qapısın açmaq gərək).

ol nəsəyi kim kiməsnə bulmadı, ol kim anı buldi, canı ölmədi.

ol o kimləki bilir sən varikən ‘‘nə’’ varıdır, sən yoxikən ‘‘nə’’ azi.

ol unutdu, o atdı, anma onu o yaddı.

ol unutdu, o atdı, anma onu o yaddı.

ol yeməyin iysin ısğadı, sən tınqa səsin duymadın?.

"ola bilərdini" boş ver, "ola bilərsini" tuş ver. (**tuş ver: tut ver**).

olacağa nə çara, işlər qalıb haçara.

olacağa sanağ yox. (təqdirə tədbir yox).

olamaz bir könüldə, iki canan, yaraşmaz ölkəyə iki sultan.

olamaz nərsə olamaz. (hərnə olasıdır, mümkündür).

olamaz nərsə olamaz. (hərnə olasıdır, mümkündür).

olamaz sevən ürək yüksüz ola.

olan dögül mənlik sənlik bu evrən, açan solmuş, çıxan gömmüş, duran çönmüş evrəndə.

olan dögül mənlik sənlik bu evrən, açan solmuş, çıxan gömmüş, duran çönmüş evrəndə.

olan günü dün eşqiylə yaşama, yarın üçün günlügün bulama.

olan günü dün eşqiylə yaşama, yarın üçün günlügün bulama.

olan günün bıraxma, keçən günə darıxma.

olan günün biri yeğ, yarın gələn iyidən. (**olan günün**: bu günkünün. indiki, hazırki günün). (**yeğ**: iyirək. yaxşıraq. betır. behtər). (olan günü gələnə satma).

olan keçəndən, gələn olandan yeğ.

olan keçəndən, gələn olandan yeğ.

olan olacaq, köçən köçəcək. (iş olacağına varır. bir soruna, gərəyə aldırmadan, etgilənmədən, olan olur. sən eddiyivi ed, sonuc dəğişməyəcək. sən yapdığın yap, fələk öz işin işləyəcək).

olan olayu bir kərəm olar, yansıtar yalın tay olayları, könül içim min kərəm sevər, hər sevinin başqa yolları. (**olayu**: **olay**. üz verən nərsə). (**yansıtar yalın tay olayları**: yalnız oxşar olaylar kimi görünər).

olan olayu bir kərəm olar, yansıtar yalın tay olayları, könül içim min kərəm sevər, hər sevinin başqa yolları. (**olayu**: **olay**. üz verən nərsə). (**yansıtar yalın tay olayları**: yalnız oxşar olaylar kimi görünər).

Olan oldu, torba doldu. (Ara Gündüz).

olan savı arğaşdan, daman çisi yağışdan sor. (**arğaşdan**: qaraçı. kahinnn). (**çisi**: çiği. şehi).

olan versə, acıq ac qalmaz. (**acıq**: möhtac. ac olan). (ağnasa dağ, dərələr boş qalmaz). (dağ yıxılmasa dərə dolmaz).

olan yarma qaynadar, olmayan, əlin oynadar.

olan yerdən başlaqıl. -olduğunu vur dişə, bacarığın sal işə. (**vur dişə**: sına).

olan yerdən başlaqıl. -olduğunu vur dişə, bacarığın sal işə. (**vur dişə**: sına).

olana yox demək olmazdı gülüm, nə bileydim çiçək açmaz solacaqdırdı gülüm.

olanı boşla, yarını başla.

olanı boşla, yarını başla.

olanı düşün, ölmədən üşün. (**ölmədən**: ölməkdən). (**üşünmək**: çəkinərək, qapılmayaraq düşünmək). (ölümü kəmsimə, əksik görmə, çalış uzaq durasan).

olanı xoş görən, umduğun yeyər.

olanından paylaşmaq, bu varanların işidir, ariflərin peşidir (**peşidir**: tutduğu yoludur).

olanla keçin, kəndivə güvən.

olanlara ölmək işi danılmaz {nədən herkes cennete gitmek ister, ama kimse ölmek istemez, çünki}. {olanlara ölmək işi danılmaz, edik ürə uçmaq ümidi qalmaz. (**edik ürə**: ə'malın nəticəsi. edik ediyi. iş sonucu). (**uçmaq**: cənnət) }. {kişioğlu köçməyinə bilkinər, nərə düşə bəllənməz. (**bilkinər**: yəqin edər)}.

olanları gələnləri dünya udar, haçan doyar bəllənməz.

olar kim acundan yola getdilər, yerində sözü qoydular getdilər.

olar olmaz, gələr dönməz, yanar sönməz, qalar itməz'' demə, sanma, inanma!.

olar olsun qaranqu, qulaq genə düz duyar. (**düz**: doğru).

olar yazaram, olmaz pozaram.

olasıya inanmaq umut qanatı. (**olasıya**: ehtimala). -dərə suyu keçitsiz olmaz. (dərə suyu: dəryə. dərya. çay).

olcalara bıraxma, yaşam uçar dayanmaz, bacardığın yapmasan, durmuşunda ucalmaz. (**olcalara**: şanslara. ehtimallara). (**bacardığın**: iradə etdiyin. qılındığın).

olda sözdaş qanana, olma yoldaş yamana.

oldağ buki, əğri yerdə doğru ağac bitərmiş, sapıq yolla doğru yollar itərmiş. (**oldağ** : vaqeiyyət).

oldağ buki, əğri yerdə doğru ağac bitərmiş, sapıq yolla doğru yollar itərmiş. (**oldağ**: vaqeiyyət).

oldağ, gerçəgin güclü üzüdür. **(oldağ:** vaqeiyyət**)**. **(gerçəgin:** həqiqətin**)**.

oldağı görməyən kordur, oldağa qapılan qorxaq, oldağı görüb kəndinə don biçən yaşamalıdır. (**oldağ**: realitə. vaqeiyyət).

oldağla barışanmıyan kəndinə qıyar. (**oldağla**: vaqiiyytlə) (kəndiylə barışanmıyan kəndinə qıyar).

oldu gülər üz kişin, toya qalınmaz işin, oldu qarabet qadın, yas yerindən sil adın. (**qarabet**: qara qabaq).

oldu olacaq, qırıldı nacaq.

oldu olacaq, qırıldı nacaq.

oldu öldü qaçılmaz, sən əldəkin tutqına.

olduğu kimi görünən, çılxadı. (**çılxadı**: xalisdi).

olduğu tək nə dil nə din seçilmir. (**olduğu tək**: normalda).

olduğumuz yalan deyil, evrəm kimə qalan deyil. -bir gün atar, bir varlığı danar dan.

olduğun kimi sevil, olduğu kimi sev.

olduğun kimi sevil, olduğu kimi sev.

olduğun kimi sevil, olduğu kimi sev.

olduğun tək yaşansan, nisgil olmaz arzular.

olduğun tut, keçdiyi unut.

olduğun tut, öldüyün ut. (unut).

olduğun tutmaq, bax yoşluğu, keçmişin tutmaq, bax qayuşluğu. (yoşluğu: xoşluğu). (**qayuşluğu**: qayyoşluğu. naxoşluğu). (olduğun tutmaq, bax xoşluğu, keçmişin tutmaq, bax naxoşluğu).

olduğun yeri tanısan, çatcaq yeri birlərsin.

olduğun yeri tanısan, çatcaq yeri birlərsin.

olduğun, istəyin kimi yaşa. (**olduğun**: olduğunu. varlığıvı).

olduğuna doyunan, bulduna qul olur. (**doyunan:** tapınan). (**bulduna**: **bulduğuna**. yeni tapılana). (**bulduna qul olur:** yeni gələnlə təpiklənir yeni tapılanla tapdanar). (**tapılanla**: yenliklə, yeni gələnlə). (**tapdanar**: təpiklənər, əzilər). (yeni görmüş özündən çıxar).

olduğunda ver dəğər, olmayınca yox dəğər. (**dəğər**: 1. tutar. qiymət. 1. ilişgi).

olduğunu alqılar, diləklərin yalqılar, həp varlığın sayqılar, durmuşunu qayğılar.

olduğunu az bilən, artığına əğimli. (**az bilən**: az görən). (**əğimli**: meyilli).

olduğuz yeri unutun, tutduğuz imə yumulun. (**imə** : amaca).. (**yumulun**: odalanın. mütəmərkiz olun. fokuslanın).

olduğuz yeri unutun, tutduğuz imə yumulun. (**imə**: amaca).. (**yumulun**: odalanın. mütəmərkiz olun. fokuslanın).

oldun kölə aşqa, olmaz günün başqa. (**başqa**: yaxşı. ə'la).

oldun kölə aşqa, olmaz günün başqa. (**başqa**: yaxşı. ə'la).

olki durmadan qaçmağı düşünür, durmuşun ititrir. (**durmuşun**: yaşamın. həyatın).

olki gileylidir, gileyli qalır, gileyli qalacaqda yaşamından, yazıqlar olsun ona.

olki söykün danırı kal qalırı, yüksələ bilməzki oğul. (**söykün**: dayancağın. təmənin. soyun).

olma qul araca, çəkər səni ağaca. (**ağaca**: dara).

olma qula qul!.

olma odun özgə ocaq oduna.

olma odun özgə ocaq oduna.

olma səlin, gəlməz yelə əsəsən. (**səlin**: qeyim olmayan. kəvrək. axıçıl).

olma yaran yamana, çalış tay ol yaxşıya. (**yaran**: yar. yardım edən).

olmadan ölmək olmaz, ötlük qarıtmaz olmaz. (**ötlük**: zaman) (hər nə zamanla qarır).

olmadan ölmək olmaz, ötlük qarıtmaz olmaz. (**ötlük**: zaman) (hər nə zamanla qarır).

olmadıq yox, doyulmadıq çox deyilər.

olmağın nədənin bilmədin bilmə, ölməgin nədənin barı biləsən, yaşamda, istəyən varlığa dönəsən.. (kişi doğulduğun sezməz, ama nədən necə ölməyin bilməlidir, yaşamda istəyi varlığa dönməlidir, istədiyi kimi yaşamalıdır).

olmağın nədənin bilmədin bilmə, ölməgin nədənin barı biləsən, yaşamda, istəyən varlığa dönəsən.. (kişi doğulduğun sezməz, ama nədən necə ölməyin bilməlidir, yaşamda istəyi varlığa dönməlidir, istədiyi kimi yaşamalıdır).

olmaq qab, olumluq təməl.

olmaq qab, olumluq təməl.

olmalıdır iştə. -bel incəliyi dildə, üz gözəlliyi ürəkdə, bəy kökətliyi özdə, doğruluq yolda, sözdə, işdə. (**kökətliyi** : əsilligi).

olmalıdır iştə. -bel incəliyi dildə, üz gözəlliyi ürəkdə, bəy kökətliyi özdə, doğruluq yolda, sözdə, işdə. (**kökətliyi**: əsilligi).

olmasa baş elimdə. -olar ağı aşımız, bələr işlər başımız.

olmasa baş elimdə. -olar ağı aşımız, bələr işlər başımız.

olmasa yel yapraq dalda qımlamaz. (**qımlamaz**: təprənməz).

olmasaydı gecə, tanınmaziydı ay ulduz, itginiydi ddnda, görməziydi heç gün üz.

olmasaydı sarsaqlar, ac qalardı, yaltaqlar!.

olmaseydi yalan, ocaqsızıydı yaman.

Olmaya devlet, bu cihanda bir nefes sıhhat gibi. Kanuni Sultan Süleyman. Devlet, talih, kısmet, baht. Bu dünyada bir nefeslik sağlıktan büyük baht ve kısmet yoktur. (Bayram Özdemir).

olmayınca olmayır, tüm gücünlə inansan belə gerçəyə dönməyir. (**tümün**: bütünün).

olmaz değən yoxdu, olar değən oldu. (**değən:** deyilən. adlı. adlanan).

olmaz demə, olarmış!.

olmaz demə, olarmış!.

olmaz kişi dosd olmaz. (**olmaz kişi**: uyqarsız, əktisiz, kültürsüz olan).

olmaz olmaz demə, olmaz, olmaz.

olmaz olmaz demə, olmaz, olmaz.

olmaz yarıq qılıb yapıb bitirmə, arda qalan yarımçıq eyi eyku işlərə. (**yarıq**: fürsət).

olmazıqlar bir bataq, ıraq uzaqlar ataq. (**olmazıqlar**: olumsuzluqlar. mümkünsüzlüklər. neqətiv güclər).

olmazlığı düşünmək, qırıqlıqlar yaşadar.

olmazlığı düşünmək, qırıqlıqlar yaşadar.

olmazsa keçinmək gözəlim, yaşda yaşanmaq ola bilməz, qaynar çayı keçməkdə gərəkdir keçidin arqacın olsun.(**yaşda**: yaşamda).(**arqacın**: yarağın. dayağn. ipin).

olmazsa keçinmək gözəlim, yaşda yaşanmaq ola bilməz, qaynar çayı keçməkdə gərəkdir keçidin arqacın olsun. (**yaşda**: yaşamda). (**arqacın**: yarağın. dayağn. ipin).

olmudan ölümə, bir ərək, çalışıb işləmək gərək. (**bir ərək**: bir mənzil). (yaşamın dadı çalışıb sevmə, sevib çalışmaqdadır). (bu söz, yaşamın qısa güdə olduğun kişiyə anlatır, dadın çəkməyin yolun göstərir).

olmuş olsa yer qatı, öküz öküzdən görür, gücdə olursa işi, gücə düşürsə kişi, manı yarından görür. (**manı**: aybı. suçu).

olmuşların ən pisi keçmiş çağa ötübdür, gəlməmişdən yarını, kötü gözlə yarqıma.

olmuşların ən pisi keçmiş çağa ötübdür, gəlməmişdən yarını, kötü gözlə yarqıma.

olsa açıq göz igid, gözü qalmaz diləkdə, yaşın aşsa altmışı, tovaş qalmaz biləkdə. (**tovaş**: tovan. güc).

olsa iti sirkəsi, qaba çıxar ditgəsi. (**ditgəsi**: didməsi. yırtması. yirtgəsi. itgisi). (aşırı itilik itgi verir).

olsa könül çobanda, erkək belə doğurur!.

olsa könül çobanda, sütlü təkə, gəbə erkək bəklənər.

olsa könül çobanda, sütlü təkə, gəbə erkək bəklənər.

olsa könül çobanda, təkə belə sütlənir.

olsa malın çox qalı, min dəniklə, bir biçəqıl parçanı. (**qalı**: əgər). (**dəniklə:** ölç).

olsa uzaq oğrular, yaxlaşırlar doğrular.

olsa yolun düzgünü, olma yolun üzgünü. (**düzgün**: dəsdur. proqram. bərnamə).

olsada gücü sevginin, kişi sevgidən dadır, güc təməli ayrılıqdadır.

olsağa dalıb oldağı unutma. (**olsağa**: xiyal. rüya). (**oldağı**: vaqeiyyəti. yaşamı. həyatı).

olsan ortaq otruma, gəpməyə olsun sözün, duymağa saxla qulaq. (**otruma**: yığvaya. məclisə).

olsun bir güzgü yetər, bir acıyan görməyə!!. (duyduğun çox nərsələri dışarda, özgədə gəzmək gərəkməz).

olsun ki bizim baş yazımız düzdü, haqlıdı, amma ki başımız dəyişik düşüb.

olsunki gerişmə, gəlişməyə yararlı ola. (**gerişmə:.** dalı oturma).

olsunki səni saymıyasan gəldi gedər dünyanı, ama gəlsə mənə xoşdur, demərəm yox, çevirəm devranı. (**gəlsə mənə**: nəsib olsa mənə).

olub bitən gözdən itər, işdən qalan, gözə girər.

olub yaraqlı at belində, doğrusunu, doğru de.

olum ağ boya, ölüm qarası, bir evrəndir ekiz arası.

olum bir sürə ölüm tüm sürə sürür. (**sürə**: zaman).

olum bir sürə ölüm tüm sürə sürür. (**sürə**: zaman).

olum keçər durmaz, ölüm qapar sormaz.

olum keçir, ölüm durur.

olum keçir, ölüm durur.

olum qorunmadı ölümdən, çaşıb qaldı yolundan.

olum ölümü danmaz. (hər olan ölməlidir, hər ölən olub bir gün).

olum savsalsız , ölümdür. (**savsalsız**: fəlsəfəsiz).

olum savsalsız, ölümdür. (**savsalsız**: fəlsəfəsiz).

olum yoxdursa, ölüm nə gəzir.

olum yoxdursa, ölüm nə gəzir.

olum, olandan doğur, ölüm, olandan boğur.

olumda kor, ölümdə kor, yaşamda, yaratmadan çıxış yox, yol yapmadan giriş yox.

olumda kor, ölümdə kor, yaşamda, yaratmadan çıxış yox, yol yapmadan giriş yox.

olumda qanıq gərək, yanqı ölümə kürək.

olumla ölüm olmasaydı, yaşama yer açılmazdı.

olumluğa yol açın, ölümlüklər qapıda. (**olumluğa**: müsbətlərə. imkanlara). (**ölümlüklər**: mənfiliklər. imkansızlıqlar).

olumsuzlar gedirsə, olumluqlar baş açar. (**olumsuz**: mənfi). (**olumluq**: müsbətlik).

olumun əşi yok, ölümün səsi. (**olumun**: yaşamın). (**əşi**: tayı). (**ölümün**: yokluğun).

olur biri düşüncəsi bilgisindən aşa , olur biri bilgəligi düşüncəsindən aşa. (**aşa:** çox).

olur biri düşüncəsi bilgisindən aşa, olur biri bilgəligi düşüncəsindən aşa. (**aşa:** çox).

olur olmaza inanma, əlindəkin çıxarma.

olur yadlu, duran yadlu yanında, ki yaş dahi yanar quru yanında.

olursa diləkbir biləkbir elin, kökündən qopardar dağı bəllidir.

olursa diləkbir biləkbir elin, kökündən qopardar dağı bəllidir.

olursa güc dənişməyin yeni otruğa, durmadan dön geri əsgi yurduva.

(**dənişməyin**: uyuşmağın) (**otruğa**: oturan yerivə. iqamətqahıva).

olursa güc sevgidə, bağlı qapı duranmaz.

olursa iş bir kərə, demə artıq heç kərə.

olursa seçim yazı dəğişir.

olursa tuş qırıqlarla dosluğun, qaçır çağın, qısatmadan ömrüvü. (**qırıqlarla**: yanlışlarla: pozuqlarla).

olursa uca ağacın dalı, yetişdikdə yerdədir barı.

olursa yemi qarqa yemi, kitab oxur olamaz gözi. (kitab oxuyan gözü olanmaz).

olursa yüvrəgin tazı, qutarmaz tülkünün canı.

omuz əzən yükün olsun, canlar qıran sözün yox.

omuz omuza, qoluz qoluza, birgə qalın.

omuza yaslama baş, gün acısı keçər gedər, min söz denə birin tutsa yetər gedər. (**omuza yaslama baş**: boynuvu ciğnivə qoyma).

on dil bir gözə dəğməz, on göz bir ələ.

on dildə yazan bir yola çatmaz, əkdiş dananın sonucu olmaz. (**sonucu**: nəhayəti). (**əkdiş**: tə'lim. tərbiyət).

on eşitməkdənsə, bir görmək yeğdir.

on görmüsən, önündə (sonunda) gör.

on gün qov, bir gün ov.

on kişi bir ara gəli, arada var biri dəli. (dəlisiz el olmaz, bəlisiz toy).

on qat saray, beş qatı yalan, beş qatı palan, alt qatı gerçək.

ona qərəb, mına qərəb, sana kim qərəb. kəndivə qərəb, kəndivə güvən. (**qərəbmək**: qarabmaq. baxmaq). (hər nəyin dərdinə ulaşırsan, özüvə bir baxmayırsa).

onağ işlər bitmiş ki, yasaqlarla uğraşaq. (**onağ yasağ:** halal haram). halal işlər qutulmuşdur ki, həramlarla məşqul olaq. (anlaqlı kişi əlində seçim var).

onat oğul çöp çöplər, onmat oğul gəp göplər. (**onat**: yarar). (**onmat: onmaz**: yaramaz). (**çöp çöplər**: çöp, çıpıq, yanacaq yığar). (**gəp göplər**: söz goplar. söz şişirər).

onbeşi qara, onbeşi ağ olur ay.

onbeşində qız, ya ərdə gərək, ya yerdə.

onda doğru deyir ki, yalan daha tükənmiş olur. (çox yalançı haqda söylənir).

ondaki açmır qonça, gözüm gülə nisgillə baxır, kül basır sönür közüm, odun oda nisgilli qalır.

ondaki adam söz danışmaqdan yorulur, yaşamaq vaxtıdı.

ondaki kəndivə güvənci itirdin, hər kimə inana bilirsin.

onğ, onay, onat. (**onğ**: doğru ol. düz ol). (**onay**: razı ol). (**onat**: razı sal). (doğru ol, razı ol, razı sal).

onğarmaz (düzəldənməz) kimsə tanrı yazdığın, yazmaz kimsə o pozduğun.

onğulur süngü qılış yarası çox, onğulmağa dil yarası çarə yox.

onğun kişi ölmüş, onun yolu yaşamış. (**onğun**: şərafətli).

onğuşmadan çıxma döğüşə, yalın ayaq basma yürüşə. **(onuğmadan: onğuşmadan.** hazırlaşmadan).

Oniki imama yalvarıncan bir Tanrıya yalvar. (Araz Gunduz).

onqat at, kövnə çul. (onqat atsa, kövnə çulda bəlgürür). (**onqat**: bacarıqlı. güclü). (**kövnə: >** köhnə).

onqun yaranırsa danılmaz, danılsada inanılmaz!. (onqun, könül ilə baş arası bir onaydan, razılaşmadan doğur). (**onqun**: totem).

Onmadık (talihsiz) hacıyı deve üstünde (Arafat'ta) deve üstünde yılan sokar, Yüce dileğini gerçekleştirmesi nasip olmayacak kişilerin başına akla ve hayale ğelmedik engeller çıkar. (Bayram Özdemir).

onmaza qıyan, pis günə qala. (**onmaza**: olduğun danana. islah olunmaza). (**qıyan**: acıyan).

onmazın oxu qıya gedər. (**onmazın:**şanssızın).

onsəggizin aşdı yaş, ət sümüyü oldu daş. (**yaş**: gənc). (yaş əğilər, daş sınar).

onsuzda bilirdim bitəcək, son gələcək.

ont kişi ölərmiş, onun işi yaşarmış. (**ont**: doğur).

onun alçaqlığı qoysaydı, ulçaqlıqda bir pox olardı. (**alçaqlığı**: əsgigliyi) (**ulçaqlıqda**: kişilikdə).

onun bir kimsə yayını yasamaz, onu meydanda kimsə basamaz.

onun dişi, qarnın içindədir.

onun uğrunda baş, can oynadır.

onurlu döğüş, onursuz barış bir ara gəlməz, bir sona ərməz. (**bir ara gəlməz**: tutuşa bilməz. qiyas olnamaz).

onurlunu yola ver, onursuza yol ver. (şərəfli ilə keçin, yola ver, onursuza yol ver çəkib gedsin).

onursuz barış, utsuz yanış. (**onursuz**: şərəfsiz). **(utsuz:** namussuz**)**. (**yanış**: büküş. şikəs).

onursuzca davranma dilinlə belə, dilindir bəllədir kimligin sənin, söylənən sözün anlamı dilindədir, sözün anlamı tanıdır kimligin sənin. (**onursuzca**: şərəfsizcə).

oracan güclüyəmki kəndimi asmıram.

oraqçı min vurar, baltaçı bir.

orana bax, çivivi (mıxıvı) tax. (**orana**: nisbətə).

orançıdan güvənçilik əsgilməz. (**orançı: ortançı**: e'tidalçı).

orançıl görunda dinc yatar. (**orançıl: ortançılq**: e'tidalçı. ölçümçü). (çox çətin ki ölçümçü qada balıya düşə).

orançılar baş işlədib yaşlanar. (**orançı: ortançı**: e'tidalçı. ölçümçü) (**baş işlətmək**: uçurluğa, ifrat təfritə yol verməmək).

orançılıq barışmağa yol qoyar. (**orançılıq: ortançılq**: e'tidalçı. ölçümçü).

orançılıq hər bir işdə yeğ basar. (**orançılıq: ortançılıq**: e'tidal).

ordaki qurralıq, boysaxlıq, boydemə yer salar, sevi sevgiyə yer qalmaz.

ordun varsa, yurdun var.

ordunu talan saxlar, dövləti yalan saxlar **(talan:** qənimət).

orman qulaq, qır göz.

ormana odun götürməzlər.

ornun verən oyun itirər. (yerin verən oyun itirərş).

orsanmış dəmir, dəmiri yeyir. (**orsanmış**: **oğsanmış**. yoğrunmuş. döğülmüş. ovğanmış).

orta gedən yorulmaz, yanda duran döğülməz.

orta gedən yorulmaz.

orta oranda gedsin, umaclara yetirsin. (**oranda:** çəkdə. həddə**)**. (**umac**: arzı).

orta yoxsa alçaq uca bəllənməz.

orta yoxsa dəngəşməz. (arxac (davər) yoxsa, işlər düzəlməz). (birlə üçü, iki barışdırar, yanaşdırar, danışdırar).

orta yolda atı ölmüş, orta yaşda qadını.

orta yolda atını qoru, orta yaşda, xatını.

orta yolda ölməsün atün, orta yaşda itməsün xatun.

orta yolu astasına ustasına tutqınan!.

ortada yeyir, arıtda gəzir. (**arıtda**: dalıda. yanda).

ortada yeyir, qırağda sıçır, qırağda yeyir, ortada sıçır.

ortadaki tutular, arıtdaki utular. (**arıtdaki**: daldaki) (**utular:** unudular).

ortağ, ərdən (adamdan) artıq almaz. (ortaq, ortağın gözləməlidi).

ortağ, ərdən artıq almaz: ortaq, ortağın gözləməlidi.

Ortak (kuma) gemisi yürümüş, elti gemisi yürümemiş, Kuma, aynı anda bir erkekle evli kadınlar. elti, erkek kardeşlerin hanımları. Bir erkeğin hanımları döğüş kavga geçinirlerde, iki kardeşin hanımları bir türlü geçinemezler. (Bayram Özdemir).

ortaq aşı, it içməz.

ortaq ol, artıq yox. (dəngək, münsif ol).

ortaq öküzdən tək bizov yeğdi.

ortaq, ərdən artuq olmaz. (yartıq (şərik), ərdən artıq olmaz). ("həd çəkivi saxla" kimi insaflı olmağa çağırma sözü).

ortaqlığım ay günümə düşürsə, ortaqlığım mal davara düşməsin.

ortalamdan düşəri pay yaşımız, qolla, başla, içimizlə yaşırız. (**ortalamdan**: aralıqdan. yazılmamış yerdən) (yaşamımız, aralıqdan düşmüşmüş paydır. işləyib, düşünüb, iç duyğularımızla yaşırıq).

ortalıq qazanı, qaynamaz.

Ortalıqda yeyər, qıraqda gəzər. (Bunu iş yaxşı gedəndə qazancına görə çalışan, iş bərkə düşəndə aradan çıxan kimsələr üçün deyərlər). (Araz Gunduz).

ortançılıq dəngə qarağı. (qarağı: keşikçisi. iltizamı. zamini). (ölçümçülük dəngə qorar). (e'tidal, ədalətin zaminidi).

ortançıllıq əm bolur. (**ortançıllıq**: ortaçıllıq. ölçümçülük. e'tidal). (**əm**: dərman).

ortanı tutan bökünməz. (**ortanı tutan**: **oranı tutan:** orançılıqla, e'tidalla davranan). (**bökünməz**: püşmanlamaz peşmanlama).

ortanluqun ən iyi. nə asda dur yasa düş, nə üsdə dur qazana. (**ortanluq**: **ortunluq**. nə iti nə asda. miyanərovluq).

oruc tut, uçmağı ut.

oruc tutmayan adam, balası adın "ramazan" qoyar.

oruc tutmayan adam, balası adın "ramazan" qoyar. (oruc tutmayan, oğluna 'rəməzan' deyər).

oruna oran döşəyin, döşəyin görə yorqanın. (**oruna oran**: yerivə görə. yerivə baxıb).

orunla (ölçüynən) gəzən oynuyar gedər. oranasız gəzən oyunda gedər.

orunun gör, oyunun gör.

osdurağdan qulunca nə? (iki ayrıq işi birbirinə nədən kimi soxuşdurmaq).

osdurağın kəndi qabı, hər nəyin öz donu var.

osdurdub qabağa düşdük, sıçıb dala düşdük. (**osdurdub**: şişirdib).

osdurq qabın, göt tayın arar. (**göt**: kötü).

osdurq qabın, tay tayın arar.

osdurub ayılandan baş axdarma.

osdurub düz oturur, əğri qoyub düz götürür. (boynuna almır).

osman ekiz, ocman sekiz. (**osman**: dosd). (**ocman:** düşman). (dosd iki olsa, düşman səkizdir).

osmanlıq qarır, ocmanlıq qarımaz. (**osmanlıq**: dosluq). (**ocmanlıq:** düşmanlıq). (bir kişi yaşamında dosluqlar azıb uza bilir, qırılıb yaxşılaşa bilir, ama düşmanlıq unudulmaz).

ot alağı boşlasan, baxcada bar gül qalmaz, yamanalar göz ötsən, yaxşılara yol qalmaz.

ot çoxsa (çox isə), mal qara, ölü çoxsa, xoca kökəlir.

ot içindən tutuşar.

ot kök üstə bitər.

ot kökü üsdə bitər. (bulağ öz gözündən su içər). (qoç iyid, dayısına çəkər.) (olduğun, doğulduğun, bulunduğun yerin, qoşutun, quşağın, şərayitin etgisi altında qalma.).

ot qalxar, su alçaqdan aşar.

ot olsa, haranı yandırar, su olsa belə, haranı söndürər. (çox göydən gedənə söylənir).

ot tütünsüz bolmas, yigit yazuğsuz (suçsuz). (ot tütünsüz olmas, yigit yazıqsız olmas).

ot, kök üstə bitər.

otaçı (həkim) öz sağlığın güdsə, kəsəllənər.

otaçı olmayan yerdə, otaran otaçlıq edər. (**otaçı**: doktur). (**otaran**: çoban). (**otaçlıq**: dokturluq). bilgə olmayan yerdə, qaraçı bilgəlik edər. (**bilgə**: bilici). (qaraçı: baxıcı. falçı). aslan olmayan yerdə, tülkü bəylik edər. yarqış olmayan yerdə, oğru başçılıq edər. (**yarqış**: ədalət).

otaçıdan sorma, (ağrını) çəkəndən sor. (**otaçıdan**: həkimdən).

otalağı çor vurmaz, acı badamı don vurmaz.

otduğun yeri süpürdə otur.

otsuz çöldə qoy gəzməz.

otu çək, külünə bax.

otuq ötüşlə uçmaz. (od püfləməklə sönməz).

otumağın başarmır, danışmasın nə bilir.

otur durmaq el ağziylə uyuşmaz, ini böyük şakaları tutuşmaz!!. (**ini**: kiçik).

oturan orun alar, yürən izin salar. (**orun**: yerin).

oturan orun alar, yürən yolun. (**orun**: yerin).

oturan orun aldı, yürən izin saldı. (**orun**: yerin).

oturan tapır axdaran tapmaz!?.

oturan verdi, duran aldı.

oturma gecə gündüz, yol al yol, yalan yoldaşə küyməmiş yürən ol.

oturma gecə gündüz, yol al yolk, yalan yoldaşa uyma, yolda ol.

oturma! yol eri yolda yaraşur.

oturmadan alta bax, atılmadan öngüvə. (**öngüvə**: qabağıva).

oturmağın bilməyir, qaçmaq üçün tələsir, saxlamına çabama, tulla gedsin batana.

oturmağın yerinməgi öğrətməz.

oturmaqla varlanmaq olsaydı, sıçan hamıdan varlı olardı.

otursan boşa ötər.

otursan təmbəllik basar, oxusan gözün açılar.

oturub boş verərsən, almağa durmalısan.

oturub ölməkdənsə, dur, yıxıl, öl!.

oturub sizin birlə, nə xoşdur bizə.

oturur gözədir dağdan yuvadan, ovada gördüyün yaddan yavadan.

oturuşmadan dosduvu tanı.

otuz iki qalalı dil var olsun. iki qulaq arasında oturan yalançı baş yox olsun. (dilin suçu yox, dildə yalan yox). (**otuz iki qalalı**: otuz iki qapılı. hər diş bir qapı).

otuz iki qapı dil. (**:** dişlər).

otuz iki qapısı var, bir balası, min bəlası. (dilivə yiyə dur).

otuzunda qaysa ayağ, toparlayıb yığılar, altmışında qaysa ayağ, toparlamaq güc olar.

ov balasın ürək göziylə süzür, ovçu ovu baş göziylə görür.

ov həsrəti, alıncan, can həsrəti, verincan.

ov ovçusun tanımır, ovçu ovun!.

ov tapanmayan atından, vuranmayan oxundan küsər.

ov, gözün qurdudu.

ova, ulaya ulaya gedməzlər.

ovadaki quşdan ötür. , evdəki ki quşuva tüpürmə. (küçədəki gözəlin sözün evdə edmə. kəndi xanımıvı, qəhbə qühbeylə ölçüşdürmə). (dışarının, bazarın öıçüsün evə gətirmək).

ovadlığı könüldən, doğruluğu ağızdan gör. (**ovadlığı**: gözəlliyi).

ovcuna osdurub daşşağına məs çəkir.

ovcuna osdurub daşşağına məs çəkmə.

ovcuna osdurub daşşağına məs çəkmə. (ovcuna osdurub, daşşağına məs çəkir).

ovcuna osdurub, daşşağına məs çəkir.

ovçu axınçı, arsız gərək.

ovçu bilməz acınma, ovçu ölsə acınma. (**acınma**: tərəhhüm). (**acınma**: sinsimə. dərd edmə).

ovçu neçə al bilsə. azıq onca yol bilir.

ovçu ovun izindədir.

ovçu ovunda, yolçu yolunda gərək.

ovçu ovunda, yolçu yolunda. (ovçu ovunda, yolçu yolunda gərək).

ovçu pişik gündə yatar, tündə gəzər.

ovçu, axınçı, - arsız gərək.

ovçu, ovun izindədir.

ovçuya bir gözdə yetər.

ovçuya ovlaq imlənmiş, avı özü izləmiş. (**ovlaq**: ov yeri. şikarqah) (**imlənmiş**: nişan verilmiş).

Ovçuya ovu yox, dağı göstərərlər. (İş bacarana işin düzələn yönünü göstərmək yetərlidir, anlamına gəlir) (Araz Gunduz).

ovçuya, bir gözdə yetər.

ovlanmadan ov dərisi satılmaz.

ovsunçunu ilan ağı öldurür.

ovu ıçqındın, quşu ıçqınma. (ovu qaçırdın (əldən verdin), quşu qaçırma. əldən vermə).

oy gücün saldırırsa işə, əbbək tapıb salarda dişə. (oy girməsə başa, əl işlər, ağız dişlər, qarın doymaz).

oy özündə, göz əlində olsun. (fikir başında, gözün əlində dursun).

oyaq biri, yuxuda biri, aparar iti. (yetərsizlik başlarda yetərlilik başımda, qovuşursa bir yerə, çatar işim göylərə). (bir kəsin işinin uvatlığı, umatlığı başqalarının yavatlığındanda etgilənir).

oyan açda gözün, korluqda yatma, mala qurralanıb qayruğa batma, ötər evrən üçün mənlikni satma, bu yosqunluq sonun çevrəndə görqıl.

oyanış özgürlüyün qapısı. (**oyanış:** bilgilik).

oyansan, dayansan, utansan.

oyçandaki əlində ki görünməz, başındaki yanında ki bulunmaz. (**oyçandaki**: xiyalındaki). {kişioğlu heçin qanıqmaz. **(heçin**: heçkəz. heç çağ). (**qanıqmaz**: razı qalmaz)}.

oyda nəsən, dildə ol!. (**oyda**: fikrində). (oyunda nəsən dildə ol!).

oyğunluq, tuğanlıq kişi içində doğulub durur, yalnız yaşatmamlıyıq. (oyğunluq, tuğanlıq: depresyon).

oylağan, oyundan, yuxlağan, düşündən söz edər.

oylamazdan aytama. (düşünmədən qonuşma).

oylan ayt, bəlgit at. (düşün gəpir, nişanla at).

oylanıb qılan çor görməz. (düşünüb edən, etdiyin bilən korluq görməz).

oynağan yorulmaz, yorulmasa oturmaz.

oynaq atın çulu yırtıq.

oynamaq bilməyən qız: yerim dar demiş, yerin genətmişlər, yenim dar demiş (**yenim**: ətək. don).

Oynamasını bilmeyen kız: yerim dar. Yerini bollatmışlar, gerim (yerim) dar. demiş. Yeteneği olmayan, söylenilen şeyleri yapmak istemeyenler çeşitli gerekçeler ileri sürerler. (Bayram Özdemir).

oynaşa güvənən, ərsiz qalar.

oynaşa söykən ərsiz qal, qonşuya söykən şamsız qal.

oynaşdan ucuzu yoxdu, oda bəxtinədi.

oynatmasan oyanmaz. (**oynatmaq:** təhrik edmək).

oynun sonu uruşa bar. (**oyun**: şaka. şuxluq).

oynur utur, gürşür yıxır. (**gürşür**: gürəşür).

oysan, dillə tapar can!. (**oysan**: fikir xiyal).

oytaq olsa su alar, qoytaq olsa, su dalar. **(dalar:** dal itər. yırtar). (bu söz kişini oldağa, ortama uyğun davranmağa çağırır).

oyun dedin oyna, oynamadın ornama (həddidən çıxma).

oyunçu çalığa oynar. (**çalığa**: çalqıya görə).

oyunçu hər nəyi oyunçaq tutar, onu itirər başqasın tutar. qayındı ki, oyunuda doğruya tutar. (**qayındı ki**: ciddi kişidi ki).

oyundan keçən başında açılar. (iç sezinin qaynağı, başın çalar çalvasın). (**qaynağı**: qaynaması). (**çalvasın:** halvasın**)**.

oyundan savaş çıxar. (**oyundan:** şuxluğdan).

oyunla saz, qız ilə naz ayrılmaz.

öc almağı bacarsan, bağışlamaq güc gəlir. (**bacarsan**: əlindən gəlsə).

öc almanın güclü yolu başarı, səndə başarı, öclüvü qırar. (**qırar**: üzər).

öc artdıqca, öd artar. (**öc**: kin). (**öd**: cəsarət).

öc bəsləmək aydın günü kitirər. (**kitirər**: kitrətir. kirləndirir). yaşam sürəcində hər nəyin çağı var. (pox qurusu qoxurmaz). (quru pox qoxumaz).

öcə tutulan, öclə utulur. (öcə utulan, öclə utulur).

öcə uc qoyulmadan yayılar. (**uc qoyulmadan**: son qoyulmazsa**)**. (kin güdmək yaş bitirər, yaş itirər) (**yaş**: yaşamaq fürsət).

öcə utulan, öclə utulur. (öcə tutulan, öclə utulur).

öcür dikə gərək daşlanasan. (**dikə**: məğrur). (öylə əksik qurranın başına gərəkdir addanasan).

ödü varsa düşmanın, alan açıq yasığız, bu topraqda doğulduq, biz yaşarız, biz varız. (**ödü**: cür'əti. cəsarəti). (**yasığız**: yasanmışıq. hazırız).

ödünc (mükafat), döyünc (mücazat), dövlətin iki gözüdür.

ödünc (mükafat), döyünc (mücazat), dövlətin iki gözüdür.

öfgə qopar tufan qopar, qopqun keçər qırıq dallar köp olar. (**qopqun**: bulğan. qiyamət).

öğlə düşsə gün durmaz. {gün yağuru günortaya dəkdir. (**yağuru**: bərəkəti)}.

öğrəncinin düşmanı, içiş çəkiş, erkək dişi (oğlan qızın) arxasından düşməsi.

öğrənən aldı, öğrədən qaldı.

öğrəniş yədəkdi, öğrənmək yetmək.

öğrənmək baxmağınan olsaydı, it qəssab olardı.

öğrənməklə bir iş bitir, biri başlır.

öğrənməyi bıraxmış, ölməyini unutmaz. (öğrənməyi unutmuş, ölməyini unutmaz).

öğrəşilən işlənilir, görünən yansıtılır.

öğrəşirsə biri qapalı qalsın, qandalı qırıq tusdağı yarıq, acılar çəkdirər ona ayrılıq. (kişi öğrəşiyin əsiri. (**öğrəşiyin**: öğrəşdiyin. aldışının. atələrinin).

öğrəşmək öğrətməkdən çox qınr. (**qın**: **qıyın**. çətin. zor).

öğrəşməklə başlayır yaşam, öğrəşəndən son, düşür axşam.

öğrəşməli bilməli, unutmamaq gülməyi.

öğrəşməli bilməli, unutmamaq gülməyi.

öğrəşməyə, dün keçdi, yarın gecdir, bu gün yarıdır. (**yarıdır**: düz uyqun çağudur).

öğrəşməyi bacarsan, sanmadığın yaparsan.

öğrəşməyi bıraxmaq, öncüllüğü unutmaq.

öğrəşməyi bıraxmaq, öncüllüğü unutmaq.

öğrəşməyin bacaran, unutmağın öğrəşməlidir.

öğrəşsə qulaq qarqa səsinə, sandavuş ötsə yoş görməz qulaq. (**sandavuş: sandavuc**: bülbül). (**yoş xoş)**.

öğrətmək, öğrəşməkdən qatı qın. (**qatı qın**: çox çətin, güc).

öğrətmənə ikisi gərək, bir bilik, biri ürək.

öğurluqla yamanlıq yalan ilə başlamış.

öğüd bilməz qanlıbaş, dünya sınav götürməz. (bu evrən sınav, təcrübə, öğrənmə yeri deyil. elə yaşamın özü, varlığın gözü).

öğüdün qısası, ipin uzunu (sözün qısası, ipin uzunu).

öğülən oğlan ətəyə sıçar. (öğülən oğlan ətəyi bələr).

öğün yetməz, gül açmaz, çalışmadan alınmaz. (**öğün**: çağ. novbə).

öğünc olsun, oğunc yox(**öğünc**: şadlıq). (**oğunc**: peşmanlıq). (şadlıq olsun, peşmanlıq yox).

öğünc olsun, oğunc yox(**öğünc**: şadlıq). (**oğunc**: peşmanlıq). (şadlıq olsun, peşmanlıq yox).

öğünclə yaşayan ökünməz. (**öğünclə**: umutla. sevinclə). (**ökünməz**: bükünməz. püşman olmaz).

öğünəyin türkcəmizdə oxub pozub yazmağa, qayınturun türkcəmizi önə alıb barmağa. (**qayınturun**: qayındurun. bərk durun. tutunun. əzm edin).

öğüş öğmə başqıya, öğüş yalnız tanrıya.

öğüş seviş, qatığ öküş sağladar**. (**çox sevinmənin ardı peşmanlığa bitər. artıq gedişdən çəkinmə üçün söylənir). **(öküş :** peşmanlıq).

öğüş seviş, qatığ öküş sağladar**. (**çox sevinmənin ardı peşmanlığa bitər. artıq gedişdən çəkinmə üçün söylənir). **(öküş:** peşmanlıq).

öğütən ödəyən deyil. (**öğütən**: nəsihət verən). (**ödəyən**: cavabdeh). (özgələrdən öğrəşdə, öz bildiyin itirmə).

öğütən ödəyən deyil. (**öğütən**: nəsihət verən). (**ödəyən**: cavabdeh). (özgələrdən öğrəşdə, öz bildiyin itirmə).

ökdəli ol öğüt yığ, ökdəsiz ol öğüt ver. **(ökdəli: ökütlü**. uslu. ağıllı).

ökdəyə günündə, dələ gündə bayram. (**ökdəyə**: ağıllı) (**dələ**: dəliyə).

öklənməmiş (düşünmədən) evlənən ev yıxar, öklənibsə evlənir, ev yığar.

öklənməmiş (düşünmədən) evlənən ev yıxar, öklənibsə evlənir, ev yığar.

Öksüz kuzu toklu (öveç) olmaz. Öksüz: anası yok. toklu: bir yaşındaki kuzu. Öveç: üç yaşındaki koç. Koruyucusu olmayan kimse gelişemez güçlenemez. (Bayram Özdemir).

Öksüz oğlan (bala) göbeğini kendisi keser. Koruyanı, gözeteni olmayan kişi, kendi işini kendi yapar. (Bayram Özdemir).

öksüz oğlan göbəyini özü kəsər, birər birər əngəlləri aşıp keçər.

ökünc bilən öğünməz. (peşmanlığı anan, çoxda şişinməz).

ökünc bilən öğünməz. (peşmanlığı anan, çoxda şişinməz).

ökünmədən unudurum, öpünmədən höpüdürüm, məndə nəvar bilməzsin, ortalıqda ged gəzsin.

ökünmədən unudurum, öpünmədən höpüdürüm, məndə nəvar bilməzsin, ortalıqda ged gəzsin.

ökü̇t başdan çıxar, qızıl daşdan. **(ökü̇t: ökdə**. us. ağıl).

öküz ayağı olunca, bizov başı olmaq yeğ. (xan ayağı olunca, öz başıvın başı ol).

öküz boynun şişirmə.

öküz böyüyüb dəvə olsa, dəvə böyüyüb dağ olar.

öküz olsam yer qatır, dəvə olsam yük ağır. (**qatır**: bərk). (bəxti çönmüş).

öküz öldü ortağ ayrıldı.

öküz öldü, ortaqlıq savuldu. (**ortaqlıq**: şərakət).

öküz öldü, ortavçılıq savıldı. (**ortavçılıq:** ortaçılıqda iş görmə).

öküz özünə yonca əksə başı ağrıyar. (öz dilində yazıb-oxusalar başları ağrır bizimkilərin) (öküz qanmamazlıq simgəsi sayılır. qanmaz kişi öz uğruna işləməyin biləməz. yaxcı pisi seçəməz).

öküzdən süt çıxmaz, axmaxdan öğüt.

öküzə ovhə diyəndə, götürlənür.

öküzü yox qoşmağa, saban gəzir almağa. (**saban**: xış).

öküzün baş buynuzu, qızın üzünün suyu. (**üzünün suyu**: 1. utundan, həyasından. 1. üz gözəlliyindən).

öküzün yemin yeyib dananın yerində yatır. (dana yatağında yatır).

öl ağacı qurumazdan burlandır. (**höl**: şeh).

ölcəyin bilən, ölçəyin bilər. (hər nəyin sonu durur (**durur**: gəlir).

ölç aşıvın duzunu, bil ağzıvın sözünü.

ölçuləri biraz boş, birazcıqda gen tut, kimsə sən üçün yaşamır, inan!, kəndivi yaşat. yaşa!.

ölçü bilməz: ürək. dəniz. çay.

ölçü bilsən yaşamda, diləyincə yaşarsan.

ölçü dəğişər, ölçüt yox. (**ölçüt**& ilkə. misdaq. me'yar. qıstas. kıriter).

ölçü dəğişər, ölçüt yox. (**ölçüt**& ilkə. misdaq. me'yar. qıstas. kıriter).

ölçü ilə iş baş başlayıb dartan ip, yolun tutmuş itirməmiş başını.

ölçü öz özünə ölçülməz. uşaq, öz özünə böyüməz, parça öz özünə biçiləz, yol yolağsız, yerilməz.

ölçü yoxsa bir işdə, bərə verməz bitişdə.

ölçü yoxsa bir işdə, bərə verməz bitişdə.

ölçümçü kişi tək qalmaz. (**ölçümçü**: e'tidalı qoruyan).

ölçümçülük dəngə qorar. (e'tidal, ədalətin zaminidi). (ortançılıq dəngə qarağı). (qarağı: keşikçisi. iltizamı. zamini).

ölçümçülük dəngə qorar. (**ölçümçülük**: ortançılıq. e'tidal). (e'tidal, ədalətin zaminidi). (ortançılıq dəngə qarağı). (qarağı: keşikçisi. iltizamı. zamini).

ölçüsüz bazar dosluğu pozar.

ölçüsüz bazar dosluğu pozar.

ölçüsüz durmaz ayaqda bir yapı.

ölçüyə qoymaq üçün başqaların, dənə bil kəndividə ölçü ilə.

öldürənin anası unudar, ölənin yox.

ölecek (eceli gelen) sıçan pişiyin daşağın qaşır. (ölecəyi (əcəli) gelen sıçan, pişiyin daşağın qaşır).

ölecəyi (əcəli) gelen sıçan, pişiyin daşağın qaşır.

öləcək qarqa, qırılmış dala qonar.

öləcəklə olacağa, çarə yox.

öləcəklə olacağa, qara yox. (**qara**: çarə).

öləkdə (ölməkdə) incimək yoxdu, yaşada (yaşamaqda) incimək çoxdu.

ölən getdi baxma geri, sayqıla olanda diri.

ölən qoyun börüdən qorxmaz.

ölən məndən, bel-külük səndən.

ölən sevgi ayrılıq doğur, ayrılıq dərdi kişilər boğur, ayrılıq yoxsa aralıq olur.

(**aralıq**: uzaqlıq).

ölən sevgi basrılmasa kölgə basar çevrəni. (**basrılmasa**: quylanmasa).

ölən sevgi basrılmasa kölgə basar çevrəni. (**basrılmasa**: quylanmasa).

ölən sevgi quylanmasa öd qoxar. (**quylanmasa**: unudulmasa). (**öd**: ağu.

zəhər).

ölən sevgi quylanmasa öd qoxar. (**quylanmasa**: unudulmasa). (**öd**: ağu.

zəhər).

ölən sığır sütlü, ölən qadın qutlu olur. (**qutlu**: uğurlu).

ölən sığır süytlü.

ölən var ardıca ağlayan çox olar, öləndə var olmamış kimi yox olar.

ölən var ardıca ağlayan çox olar, öləndə var olmamış kimi yox olar.

öləndə. hammı yalnızdı.

öləni boşla, gələni xoşla.

öləni boşla, qalanı yoxla, duranı tuşla. (**duranı tuşla**: yaşıyana yiyələn).

ölənin ardından ölünməz.(ölənlə ölməzlər.).

ölənin gerisi, güvənin ölüsü olmaz.

ölənlə birgə yıxılıb ölmək olmaz. (doğması ölənlərə dözümlü olmağı öyrədir).

ölənlə ölməzlər. (ölənin ardından ölünməz).

öləsi kişi ölümdən, verəsi kişi malından, evlənən kişi ayrışdan qorxamaz. (**ox**: əslən).

ölkə başı yetgili, işgillərin deşgili. (**yetgili**: iş bilən. layiq). (**işgillərin deşgili**: işgillərin dişgili. müşgüllərin açarı).

ölkə boşuna qalmır, durmağına alır qan, ölkə qorur qorçuya olsun igidlər qurban. (bax uyqura öğüclən**,** boyun qoydu yazıya, doğma olan yurdunda, itlə doyan çinliyə, əğdi boyun, doğma yurtda yad qaldı. (**öğüclən:** ibrət vermək).

ölkə dediyin düşmansız olmaz.

ölkə qıvamı, qılıncla qələmdəndir.

ölkə nədir.. -əl çatılmaz arzuların, gözkəmdəki özləmlərin yatan yeri.. (**gözgəm**: üfüq).

ölkə yağışdan çıxıp yağmıra düşüb. (heç nə dəğişməmiş).

ölkədə yalan yatdı, kişi batdı. (**yalan yatdı**: yalan var oldu).

ölkələr var, -yasalar pitikdə bitər taxcanı bəzər. (**bitər**: yazılar).

ölkələrin yavası, ölüm qoxar havası.

ölkələrin yavası, ölüm qoxar havası.

ölkəni alalıq pozar, aranı kölgəlik. (**alalıq:** ixtilaf. nifaq). (**kölgəlik**: quşquluq. örtbazarlıq. açıq olmayıb qaranqu qalan işlər. şəggi şübhə).

ölkəni alalıq pozat, aranı qaralıq pozat. (eli ixtilaf pozar, münasibətləri namussuzluq pozar).

ölkəyə tay tapılmaz. (hər nəyin tayı var, ölkəyə tay tapılmaz).

ölkəyi yalan, ambarı siçan, tarlayı qarqadur talar.

ölmə eşşək, yonca çıxınca, sararma yoncam torba tikincə.

ölmək varda, danmaq yok!.

ölməlikdən qaçaq yok, ölməyə yol seçim çok.

ölməm deyən çox, sonu bir gün yox, biri əkir güllənir, bir yaxır küllənir.

ölməmişdən can verir urmu gölüm, ağlayasu ağlaram dolsun gölüm. (**ağlayasu ağlaram**: doymadan, durmadan ağlaram).

ölməsin güdən ölüm, yaşamaq olur.

ölməyə gücü yox, gülməyə canı yox.

ölməyə qanat çalmam min nədəndən, bu yaz, bu el, bu dil məni gözləyir. {ölməyə könlüm dəl min nədəndən, bu yaz, bu el, bu dil məni gözləyir. (**könlüm dəl**: könlüm yox)}.

ölməyinə inanmayan, yaşamın qazanmadı.

ölməyinə inanmayan, yaşamın qazanmadı.

ölməzi tanrı yaratmaz, qırılmazı, çanağçı.

ölmü ölmədən tanı, yaşamı vermədən canı.

ölmü ölmədən tanı, yaşamı vermədən canı.

ölmüş atın, nalı sökülər, dilsiz elin başı.

ölmüş dirilər, unutulmuş ölülər.

Ölmüş eşek kurttan korkmaz. Her şeyini yitirmiş kişinin, başkasına kaptıacağı bir şeyi kalmadığı için hiçbir şeyden korkmaz. (Bayram Özdemir).

ölmüşüydi keçən il könlüdə qalmışdı izi, ışığı kölgələnirdir gözümə hər gecə yar.

ölsəndə qurd kimi öl, qoyun kimi yox.

ölsün o pis ki deyir yaxcı tapılmır.

ölü aslan, çaqqal toparı.

ölü aytdan doymaz, diri daddan. (ölü addan doymaz, diri daddan). (**ölü addan doymaz**: ölüyə hər ad taxmaq olar). (aytdan: söz sav. danışıq). (ölüdən danışıdıqca söz uzar, diri grünməmiş daddan, yaşam dadından doya).

ölü gedmiş, quraqlıqdan ölənlər. (**ölü: hölü**: şehi. nəmi. suyu).

ölü götü ballı , ölü keçəl yallı olur.

ölü götü ballı olur, kor ölüsü, badam gözlü.

ölü götü ballı olur, kor ölüsü, badam gözlü.

ölü götü ballı olur. (kəl ölür sırma saç olur).

ölü götü ballı olur. (kəl ölür sırma saç olur).

ölü götü ballı, ölü keçəl yallı olur.

ölü gözündən yaş, molla evindən aş çıxmaz.

ölü gözündən yaş, molla evindən aş çıxmaz.

ölü keçi sudan qorxmaz, od yanmasa tüstü qopmaz.

ölü kişidən ət yox, ad sorulur.

ölü kişidən ət yox, ad sorulur.

ölü qalsa ərkinə, sıçar yerinə. (**ərkinə:** başına). (bələr sıçar yerinə).

ölü nədən qorxar, diri nədən qorxmaz.

ölü ölünü, kor koru, kahıl kahılı tanımaz. (**kahıl**: cahıl. qanmaz).

ölü tanımaz danı, yaşayan atdırar danı, yaşamın gücünü tanı.

ölü tanımaz danı, yaşayan atdırar danı, yaşamın gücünü tanı.

ölü tov götürməz. (**tov**: istilik. yaxınlıq. sinğlik. səmimiyət).

ölü tov götürməz. (**tov**: istilik. yaxınlıq. sinğlik. səmimiyət).

ölü ulu ilənməz, diri ulu dilənməz.

ölü üstünə otaçı, ola bilməz can açı. (**otaçı**: təbib). (**can açı**: nəcat verən).

(ölüyə həkim gedsin, can çıxmışa netsin (nə edsin).

ölü üstünə otaçı, ola bilməz can açı. (**otaçı**: təbinb). (**can açı**: nəcat verən).

(ölüyə həkim gedsin, can çıxmışa netsin (nə edsin).

ölü üzü donluğ. (ölü üzü soyuğ olu).

ölü üzü donluğ. (ölü üzü soyuğ olu).

ölü üzü tomluğ: ölü üzü don (soyuq) olur.

ölü var söz ölüsü, ölü var göz ölüsü.

ölü yuvan hammını yuğar.

ölü yuvan hammını yuğar.

ölüb öldürmək man deyil, benqu dirilik yaşam deyil. (**benqu: benqu**: əbədi).

{doğuşda qoyuş böylə. (təbiətdə qərar böylə)}.

ölüğ sorağın sormaq. (sorğu suvalı (sual cəvabı) çox uzatmaq).

ölüğ sorağın sormaq. (sorğu suvalı (sual cəvabı) çox uzatmaq).

ölük odun alışmaz, qırıq könül yapışmaz. (**ölük:** yaş).

ölük odun, güclü odu gec tutar. (**ölük:** şeh. yaş).

ölük odun, qığılcımı gec qapar!. (**ölük:** şeh. yaş).

ölük odun, odun gücün, qaytarmaz. (şeh odun, yaşın odun, güclü oda,

dayanamaz!).

ölük təzək quru təzək, hamıya düşər gəzək. (**ölük**: yaş). (**gəzək**: novbət).

ölük təzək quru təzək, hamıya düşər gəzək. (**ölük**: yaş). (**gəzək**: novbət).

ölüler yükün diriler çəkər. (**yükün**: borcun).

ölülər düşünəməz, anlayamaz, anlatamaz.

ölülər düşünməz.

ölülər sevməyi bilməz seveməz, təki sevsək duranı bizcə yetər. (konu **ölüçülüyü** yerməkdir).

ölülər yalnız yanılmaz.

ölüm acqır olur, aldığın vermir geri. (**acqır**: acımaz. rəhmsiz).

ölüm adlı gül bitməz!. (ölüm hər hançı bir üzdə olursa olsun, ürək açan deyil, gülü oxşar deyil!).

ölüm ağlasanda gəlir, gülsəndə.

ölüm belə paylaşmayıb dəngilə. (**dəngilə**: insaf ilə).

ölüm bilməz çağını, dəniz bilməz yağını, yaşam əldə xoş yaşa, yeyib yayıt barını. (**yeyib yayıt** : yaralanıb yararlat).

ölüm bilməz çağını, dəniz bilməz yağını, yaşam əldə xoş yaşa, yeyib yayıt barını. (**yeyib yayıt**: yaralanıb yararlat).

ölüm bir düşmür yoxsula, baya, birin yatağda tutur, birin dirir darağa.

ölüm bitmir oluma, olum bitmiş ölümə. (**bitmiş** : təslim olmuş).

ölüm boğur, qırır oğur, tüm yollara yasaq qoyur, hər gedişə pasqal (mane') törür, uşaq bilməz qoçaq bilməz, sıcaq bilməz, soyuq bilməz, yaşıl görsə pozur qoyur, axar sular donur qoyur.

ölüm bolqut sayılmaz. (**bolqut**: dərman).

ölüm carçısın yaşam sevməz.

ölüm çapar kölgəlik qoymaz, ayrılıq düşsə kölgəsiz qoymaz.

ölüm çox ağırdır, dirilikdə ölsənsə.

ölüm dovu gəlincə igit qarı bəllənməz, dan tez atar axşam düşər gün batar, qaranlıqda itən batan bəllənməz. **(dovu:** kəzi. sırası. novbəti).

ölüm döhülü duyulmaz. -**ölüm tutdu boğazın**, bıraxmadı bir soluq azın. (**ölüm**: əcəl) (**bir soluq azın**: lap azı bir nəfəs).

ölüm düşünməyə dəyməz, yaşam düşüncəsiz dəyməz.

ölüm düşünməyə dəyməz, yaşam düşüncəsiz dəyməz.

ölüm əkilib ucunda başın. (hər yaşın sonu aşmaqdır). (**yaşın**: dirinin).

qabaqdaki ötürmüş, dalındaki eşitmiş.

qabal ağça yiyəsinə düşər. (**qabal**: qondarma). (yalan, uydurma nərsə çətin bəğənilər).

qaçan qurtuldu, duran tutuldu.

qaçan yapraq ağacdan, yel əsiyə oyunçaq.(.

qaçanı tutur, duranı vurur. (qaçanı tutur, qalanı qoğur).

qaçanı tutur, qalanı qoğur. (qaçanı tutur, duranı vurur).

qaçış olsa qıyaş olmaz. **(qıyaş:** qıyşı. (< **qıymaq**). birbirinə qıyma işi. güvəniş. e'timadlaşış)..

qaçsan tutular, sorsan tapılar**.** (atsan tutular, sorsan tapılar).

qadam olsun gedənin, dərdi mənim gələnin.

qadın seçim, hər kiminə özünkü.

qadın vardı adamı dəli edər, qadında var dəlini adam edər, qadın vardı çərdən çöpdən aş edər, qadında var pişmiş aşı daş edər.

qız alanda gərəklik, göz qapalı, qulaq açıq olmalı.

qız alırsan evdən al, eldən yox. (**ev qızı**).

qız maraq gözlər, qadın sayqı. **(maraq:** təvəccüh**)**.

qız oğlanın halva qapan günləri. -oğlan pula qul oldu, qızlar pula satıldı, yarın yurtda atmaz gün, evlik işlik atıldı.

qızdınsa əlin tutub dilin tut.

qızı olan ballanır , oğlu olan barlanır. (**barlanır**:varlanır).

qızı olan qazlanır, oğlu olan varlanır..

qızmar ayın istisi, ovad yerin tüstüsünə söz olmaz. (**qızmar ayın**: yayın). (**ovad > abad**).

qızmış öğüş götürməz, yaman söğüş götürməz. (**qızmış**: qəhbə). (**söğüş**: yaman.). (**öğüş** : nəsihət.. -söğüş : söymə. yaman).

qızqın sözün sonu savaşa, ölçük sözün sonu barışa. (**ölçük:** tədbirli).

qızqın sözün sonu savaşa, ölçük sözün sonu barışa. (**ölçük:** tədbirli).

qızqın sözün sonu savaşa, ölçük sözün sonu barışa. ölçük:.

qızqın sözün sonu savaşa, ölçük sözün sonu barışa. ölçük:.

qoç igitdə qan tutsa başı, suv edər daşı.

qoç iyid, dayısına çəkər. (bulağ öz gözündən su içər. (ot kökü üsdə bitər.).. (olduğun, doğulduğun, bulunduğun yerin, qoşutun, quşağın, şərayitin etgisi altında qalma.).

qocalıqdı kölgə salmış üstümə, odum sönüb kimsə durmaz tüstümə.

qocayaşlı ol qoca başlı yox. (**qocayaşlı**: **qoca yaşlı**. çox yaşlı. ötəşi)..

qoğşatmasan qatığı, atsan dişi sındırır. (**qatıq**: qat, bərk olan).(yumşatmadan bərk nəyi, salsan dişə, diş qırır).

qoğu quyuya girsə yel alır. (**qoğu:** bəxdi dönmüş. bədbəxt. korbaxt..).

qol açmazı, baş açır qolay. (**baş**: ağıl) (**qol**: əl).

qol işlər, ağız yeyər. (**qol**: əl).

qoldaçıya min yoğaq, barça belə ver dayaq. (**qoldaçıya** :dilənçiyə). (**yoğaq**: girdəkan). (dilənçiyə min girdəkan boşluyam, üstəlikdə bir dəğənəklə vurmalıyam ki birdə geri dönməsin).

qonağ önünə aş qoy, iki əlin boş qoy. (əlinə iş vermə).

qonağ önünə aş qoy, iki əlin boş qoy. (əlinə iş vermə).

qonağın gəlişi özündən, gedişi qonaqçıdan asılı.

qonaq birinci gün qızıldır, ikinci gün gümüşdür, üçüncü gün sürüşdür.

qonaq gələr eşikdən, payı gələr deşikdən.

qonaq gələr eşikden, zumar çıxar deşikdən. (qonaqçıllığa çağrılar söz).

qonaq gəlsə qarşı qıl, qala oldu sayqı qıl, gedən çağı ardı çıx, birdə dönsün arzı qıl.

qonaq köçər durmaz, yaxcı (yaman) keçər qalmaz.

qonaq oldun üç gün, üç gün sonra köçgün.

qonşu iti qonşuya hürməz, qonşu var it kimi hürər.

qonşu qonşunun külünə atrıq. (**atrıq**: möhtac).

qonşu vardır min qohumdan yaxşıdır, yas gününə kitir qussə oxşama, toyğa verən bəzək düzək baxşıdır.

qonşuda pilov pişər, bizədə iyi düşər.

qonşunun gülüdə var, külüdə.

qonşuva baxıb dayanma, qonşuva baxıb oturma.

qonşuya baxıb özün yaxan, qara gündən pisə qalar.

qopalar baxdım alanmaz necə olmuş önünü, yaşadınsa yaşadın, durcaq ölümdür sırada.

qopuzsuz baxşı, yavuzsuz yaxşı. (**baxşı**: aşıq). (**yavuzsuz**: yamansız).

qorxmayanları, ölüm gülüşlərlə qarşılar.

qorxu çoxu əlayağı bağlayar, qorxu yoxsa sağca duyu yanılar.

qoşa qalıb yalnızlığın utdursa, yalnız qalıb çək qoşalıq nisgilin.

qoşa qarıyıb, elə yarıyasız. (yeni evlənənlərə alqışlıq deyilir). (**alqışlıq**: xeyir dua).

qoşa qarıyıb, elə yarıyasız. (yeni evlənənlərə alqışlıq deyilir). (**alqışlıq**: xeyir dua).

qoşalıq xoşa getdi, sonluğu boşa getdi, bitməyən sanıq nələr, iz qoymadan yoxa getdi.

qotur keçi gəvərdən (içər). (**gəvərdən**: arxbaşından. sərçeşmədən.). (nədən kötü gözələ düşür!).

qovduq qışı, ayazı, kəsdik çillə qarpızı, allah yetirsin ruzi, el qalmasın tamarzı.

qovun sərəsin it yiyər, alma sərəsin qurd yiyər. (**sərəsin**: seçilmişin).

qoxsa başından balığ, qalmaz aman ölkədə. (**qoxsa: qoxursa**). (**balığ**: şəhər). (**aman**: əmniyyət).

qoy başları satına, hammı genə öz başını seçəcək.

qoy sandığın sandığa, aşq ölçülər yandığa.

qoyar buyumuş olandan bəri, ağız çatdıqda aşa, baş toxlacaqmış daşa.

(**qoyar**: təqdir.qərar**)**.

qoyma bitsin hələ varkən bu samanlıqda saman, hər zaman **döndü dünür** sanma gülər, bolluq edər. (qoyma bitsin hələ varkən bu samanlıqda saman, hər zaman döngü dünür sanma gülər, bolluq edər) (**döndü dünür: döngü dünür**: fələk. dünya).

qoyma boğa doğan günün ışığın , dündə qalan qaragünün kölgəsi.

qoyun başın qurd görür, qorxmuş kişi, ürkmüş at.

qoyuna çoban, tarlaya saban.

qoyuna çoban, tarlaya saban.

qoyunları götür yasamala, iş görəndə çəmçə mala. {**yasamal**: yasmal. yasdar. (yassar): dağ döşü}.

qözləməyi at, unutmağı öğrəş.

qüc olmadan, doğru yeriməz, doğru olmasın, güc yeridər. (**qüc** : 1.quvvə. 2. quldurluq).

qucaq açar ər igidlər, görsə qonaq qıraq yerdən uzaqdan, bir qapını qırx qapar, qaykişilər uzaq olsun qonaqdan. **(qaykişilər**: (qay: pis). namədlər).

qudurqanın kəndi başı kəndisinə yük olar.

qul kimi işlə, bəy kimi dişlə.

qulağlara salınsın, iyku sözlər, incisun**.** (**iyku**: yaxcı). (**incisun:** dəğərliləri)**.**

qulaq duysa, göz görsə, könlə qalar inanmaq.

qulaq duysa, göz görürsə qınanmaz.

qulaq karsa, açıq gözü kor elər.

qulaq vermək kötüyə, min yaxcını ağılar, min yaxcının öğdü, min kötüyə vız gələr. (**ağılar**: zəhərlər. korlar. azdırar).

qulaq vermək kötüyə, min yaxcını azdırar, min yaxcının öğüdü, min kötüyə vız gələr.

qurban olum düşmənə, məni qoymur düşməyə.

qurd gözündə od yanar, it qudurar qurd olmaz.

qurd qurdu qorur.

qurd yavrusu evcilənməz.

qurd yavrusu evcilənməz.

qurdun dişi qamaşar, ağza yemi çatmasa.

qurra göyə tükürük, topsa üzdə düşürük. (**qurra**: məğrur) (əkdiş göyə sağuruq, topla üzdə yoğuruq. (**əkdiş**: ədəbsiz. tərbiyəsiz) (göyə tüpürsən, ondan yoğurun, onun yoğrulmuşun üzündə yığarsan).

qurru ağac əkərsən, qozlarımı dərərsən. (**qozlarımı** : daşşaqlarım).

qurtarıcı bəkləyən, gözlər qalmış bitinmiş, özün yapan qurtaran, bəkləmədən qutunmuş.

qurtla gəzən ulumağı unutmaz.

qurtlar olur çobanların qoyunu, itdən öğrənirsə kəndi soyunu. (b. vahabzadə).

quru oduna höl yanmış, yaman oduna yeğ yanmış. (**höl** : yaş). (**yeğ** : yaxcı. bəğənilən).

quru topraq su özləyir, qız qonşuda, subay oğlan nə gözləyir.

qurunun yelinə höldə yanar, yamanın oduna yaxşı. **(höldə :** yaşda**)**.

quruq qaşıq ağız yırtar.

qurza sapın açması, lalın dilin qanması. (**qurza**: dolaşıq. buruşuq. qıvrıq. burçuq. buğçuq. buçuq. pırtlaşıq).

quş balası qusuncuq, it balası oxşuncuq (**oxşuncuq**: qolçaq. gözəl). (bular böyüdükdə tərsləşirlər).

quş biliri dala güvənc olanmaz, odur qılar qanadına güvəncin. (kəndivə güvən).

quş dənilə, mən sənilə yaşar.

quş duzağa alınmış, dəni görüb aldanmış.

quş kimi yaşadım, quş kimi öldüm.

quş olubən alda güvənc qanatdan, kişi olub alma güvənc yoldaşdan.

quş qonağın bəyənər. (**qonağın** : kəndi yuvasın).

quş qonduğu dalın qırılmasından qorxmaz, güvəndiyi dal deyil kəndi qanalarıdır.

quş yüksəlir qanatla, kişi qalxar bilik, bilək, diləklə.

quş yuvada gördüyün yapar.

quşqulanıb yolun seç, bulandan son ondan keç.

qussə kitsiz, olmaz kefin birdadı. (**kitsiz**: kitirsiz. kədərsiz.).

qutluğ aran, aranmadan tapılmaz.

qutluğu yansıtanlar sevdikləriylə yaşar, qutluğu yaşayanlar sevənləriylə yaşar!. (**yansıtanlar** : əks edənlər. təsvir edənlər).

qutluğuvu kəndi çəkinlə ölç biç. (**çəkinlə** : ölçünlə. dünyanla).

qutluq nədir, sevdiyinə sevilmək.

qutluq, içində yatır, çölün arama. (**qutluq**: xoşluq. xoşbəxlik). (**çölün**: çöldə. bayır. bayırda).

qutsuz quyuya girsə qum yağar.

qutulmuş iş gül qoxar.

qadını başdan, çağanı yaşdan (əkit. öğrət). (**yaşdan**: uşaqkən). (**çağa**: bala).

qadınsız ev olmaz, acıtsız çörək. (**acıtsız** : mayasız).

qafa böyük içi boş, tut qulağın işə qoş.

qafa böyük içi boş, tut qulağın işə qoş.

qafası kava, ağızdan hava. (**kava**: boş. çürük).

qaldıq yaman günə biz, bilməm nədən qınamız. -qanmır deyir qanıram, kordur deyir görürəm, laldır deyir ötürəm, kardır deyir duyuram, bilməm nədən qınamız. (**qınamız**: 1. əzabımız. 1. günahımız).

qalxsın ortadan qarşılıq, tutsun yerin yarşılıq. **(qarşılıq:**. ixtilaf). (**yarşılıq**: barış. saziş).

qalın qaz, qılavuzsuz olmaz. (qaz sürüsü). **(qalın**: > **gəllə**. sürü).

qalın qolan yoğqasız olmaz. (**yoğqasız:** yolqasız). (yekə kərvan qılavuzsuz olmaz). **{qolan. (**qol kimi uzanan) kərvan. arğaş}..

qalın yorqan, iy ötürməz.

qalının tozu tükənir, dəlinin sözü tükənməz.

qalısa nisgili eşqin ürəyim parçalayar, buna dərman aradım söylədilər yengə ara. (**yengə**: yengisin. yenisin. tayın).

qalmağıva yer verdim, içməyivə çay verdim, sevməyivə can verdim, gedməyivə yol verdim, nə umurdun bilmədim!.

qalmaz güvən özüvə, qılsan güvən özgüyə.

qalsan yerin dar olsun, ölsən gorun gen olsun. (**qarqış**).

qanacağı çox olan acıları qolayca aşınar. (**aşınar**: sindirər. həzm edər).

qanacağın az olsa, inandığın çox olar.

qanacı yox, inancı çoxdan qaçın.

qanana dağ, qanmaza yağ.

qananlardan yapınca, yapanlardan qanınca.

qananlarız yürürüz, inandıqda dururuz.

qanansa de düzünü, özü qoyar duzunu, qanamaza de sözünü, yozar sözü el içində xar edər.

qanatasız quş uçanmaz.

qanatasız quş uçanmaz.

qandığınca yapınsan, yapdığıvı qanarsan.

qandığıvı yapınca, yapdıqların düşün qıl.

qanmaq işi iş istir, qanmamağa navarki. (**iş** : zor. çalışma).

qanmamazlıq qaldı bir ‘çıxmaz quyu’ hər çağ ıraq, qanmamazlardan uzaq dur çaşmasın durmuş yolun.

qanmaz başa söz taxma, şoraq yerə dən səpmə.

qanmaza ver çörəyi, başında yığ kürəyi.

qanmazı qandırmaq, gücünü yandırmaq.

qanmazla sırdaş, yamanla yoldaş (olma).

qanmısan, bacarmısan, qayğılısan oyanmısan?.

qapalı qazan tez qaynar.

qapalı ürək, qapalı qapı.

qapanmamış yaralar nisgilə çönür.

qapatsansa keçmişin, açıq durar yarınlara yolların, açıq keçmiş ıraq qoğar yarının. (keçmişindən qırmadan, yarına yol tapılma).

qara ömür batsın, ağ ölüm qaxsın.

qaragünlü varlılar, mal üstünə mal qalar, altmış yetmiş yaşasa, qoduq gəlib mal qalar.

qaranqum aydın oldu, gün doğdu aydın oldu, günüm keçdi gün batdı, yaşlı çağım qın oldu. (**qın** : dar).

qaranlıqda aramaqdansa, yağtıda gözləmək, yer. (**yağtı**: ışıq).

qaranlıqlar yaranmışdır kölgədən.

qarxağın gözü yekər. (**yekər**: yekələr)**.(qarxağın:** ülkərin).

qarxağın gözü yekər. (**yekər**: yekələr)**.(qarxağın:** ülkərin).

qarı biləni gəlin, qoca biləni bəy bilməz.

qarı öküz baltadan qorxmaz. (öğrənişmiş nərsədən qorxu tökülər).

qarığan it yatıb hürür.

qarımış arslan, siçğan ötün gözəgür. (**ötün**: dəlik). (**gözəgür**:güdür).

qarınqulu qarnına gedər.

qarışıq dilli , duru kimlik qazanmaz.

qarışqa şıllaq atdı, dəvənin budu batdı.

qarqa qazı ötgünsə, budu sınar. **(öyqünmək**:**öygünmək**. **ötgünmək**. **özgünmək**.yansılamaq. təqlid edmək).

qarqış ilə doğunmuş qara qışlar bilmədim.

qarlı dağ kimi yalnız, kəndi qayğıma dalğız, aşq yolun tutalı, nisgil özləm qalağız. (**dalğız**: batmış). (**nisgil özləm qalağız**: həsrət həsrətə qalanır. həsrət həsrət üstünə qalanır).

qarşıva çıxanı boşla, qarşına gedəni tuşla.

qarşıva gələni boşla, qarşına gedəni tuşla.

qarşıva sən doğru çıxan gözləmə, doğru yapın özünlə sən bil yetər.

qartalın gözü qayada, balanın gözü yuvada.

qartalın gözü qayada, balanın gözü yuvada.

qaş üsdə göz yaparlar, atdan salıb ad yaxarlar.

qaşları qara gözləri göy, acığın gəlir dur mənı döy!.

qata umut qata umuq yaratır. (**qata** : **kətə**. yekə. böyük).

qatı aytsan qardaşına yakmaysın, axırın aytsan axıb gedədi. (**aytsan**: desən). (**yakmaysın**: xoşuna gəlməzsin). (**axırın**: yavaş). (axıb gedədi: boşa gedər).

qatı əsən, tez yatar, asda gələn, zor batar.

qatığ yumşansa diş kəsər, yumşaq qatqulansa iş kəsər.

qatlanırsan kəndinə, güvən verərmiş sənə.

qatnaşmaqla bağlı qapı açılmaz, pitik yoksa, yazan yoksa heçbir haçar yapılmaz, gizli dərdə didəm dərman tapılmaz.

qatnaşmaqla bağlı qapı açılmaz, pitik yoksa, yazan yoksa heçbir haçar yapılmaz, gizli dərdə didəm dərman tapılmaz.

qatta ağac sərt yelləri sevərmiş, incə güllər bir əsiylə gülərmiş.

qavun qarpuz yata yata böyür.

qay qadası uzaq olsun, gülüş diriş durağ olsun. (**diriş**: yaşam. oluş. həyat). (**durağ**: duraqlı. dəvamlı. həmməşəlik). (qız oğlan köçürəndə, birisin yola salanda iyi diləkdə bulunma sözü).

qayğı yemə bitər ömür, yaşlıq çağın tezin gömür. (**gömür**: quylanır. batır).

qayğılı qal elivə , sayqılı ol dilivə.

qayığ hər yelə qalxmaz, qayğı hər beli bükməz, ağrı hər kimi utmaz.

(**utmaz**: öldürməz).

qayıq bolan axrışur. (**qayıq**: züvgən).

qaykişidən sırdaş yox, yamanlardan yoldaş yox. (**qaykişidən** : namətdən).

qaykişilərlər gizlər özün görsə qonaq uzaqdan.**(qaykişilər**: (qay: pis).

namədlər).

qaynar qazan içi dışı bir olmaz, görüb duyan, eşit görüş dəng olmaz.

qaytış yolu qapalı, irdə gələn birdə geri dönəməz, olum budur başqa yolda

olamaz. (**irdə gələn**: qabaqda olan. qarışıya çıxan).

qazan qazana deyir.- üzün qara.

qazan quyu, quran körpü bir kişi, suyun içən, keçən yolun min kişi.

qazan oddan küyər, kişi dildən. (**küyər** : yanar).(**kişi**: adam).

qazan oddan küyər, kişi dildən. (**küyər**: qızar).

qazana yaxlaş qarası yoğar, yamana yaxlaş qadası.

qazana yaraşıq qapağı.

qazanda olsa çəmçiyə çıxar.

qazanda olsa, susaqda çıxar. (**susaqda**: çömçədə.).

qazandığın sevməyən, sevdiklərin qazanmaz.

qazandığından yarat, ələ çatmaz sevişlər.

qazanı, qazanan asmış, odunu toplayan yaxmış.

qazaş edən qazan assın, odun yığan ocaq yaxsın.

qazaş itiş bir oyun, hamı ona bir qoyun, çalış ona yol qoyun, yol seçənin düzlügü, yol sonunda bəlgürür.

qələm çəkər qaşuva, ağu qatar aşuva, daşın salar başuva, yalançıdır bu evrən..

qələm olsa yazılar, iğnə olsa tikilər, tikan olsa didilər.

qələm süngü kimi sökməyə yaramaz, süngü qələm kimi yazmağa.

qıbıran ac qalmaz. (**qıbıran: qımıran**. **qıdıran**. arayan. **)**.

qıldığıvı qayta qayta qıldınsa, bir gün usda usdabaşı olarsan.

qıldığıvı qayta qayta qıldınsa, bir gün usda usdabaşı olarsan.

qılıc pulla gücü sevər.

qımdımaqla qarın doymaz, hər yetəni ürək qoymaz. (**ürək qoymaq**: könlün bəğənməsi) (**qımdımaqla**: qısmırlıqla. qıtmırlıqla).

qımıldayan qır aşır. (**qır**: çöl).

qıncar qapı, əzər ayağ, uzun olan quyruğu.

qının dosda aytma koni göynədi, qının yada aytma koni söynədi. (**qının** : ağrın. qayğın. çətinliyin.).. (**koni: ki oni**). (**söynədi**: sevindirər).

qının sonu olsun, yırtıq donun olsun. (**qının** : əzabıbıvın. ağrıvın). (kəsəl yoluxmasında). (**yoluxmasında**: əyadətində).

qıra yağsa yağış, çəkməz suyu, axındırar sel axış. **(qır: qırın**. qup quru çöl. susuz, çoraq yer, çöl. səhra). qır, çoraq, bərk toprağ yağan yağış suyun çəkməyib, geri verib sel axın yola salar. (o deməkki: hər topraq suvarılmaz, hər kişiyə yaxlıq yavlıq (yaxcılıq pislik) qılınmaz).

qırx ağızlıq el pozar, ara sözü ev pozar.

qırx el qıran gəlsə, ölümü çatan köçmüş.

qırıq könül yiyəsi, dərdi çoxdur deyəsi, çalış alıb yoğasan, iç keçmişin yuğasan. (**yoğasan**: toxdadasan. oxşayasan. dərman edəsən).

qırıqların düğünü umut, sınıqların tutumu umut.

qırılmadan qorxanın, bitməz sevgi bağında.

qırılmağı düşünən güvənmədən üşünər.

qırılmalar sınaqdan, qurulmalar yaşamdan. (**sınaqdan**: təcrübədən).

qırmağını bilməyən, qurmağında uğursuz. (**uğursuz**. namüvəffəq. nailiyyətsiz).

qısa yol sapmaz, düz gəpən yormaz. (**gəpən**: qonuşan).

qıssa ələ, uzun dillik gərəkməz.

qıssa sürdü umutlar, qırıq qaldı umuqlar.

qıssa sürən umutlar, verməz uzğan umuqlar. (**uzğan**: uzun).

qışda balığ istəyənin, quyruğu (götü) buzda gərək..

qışı keçin, yazı keçit, yayda durur sırada. (hər nəyin çağı var, hər qaranın ağı var).

qışın keçər çox güdə, verməlin olsa yaza.

qışın qar yazın yağ, olsa ilin bol keçər.

qışın qar yazın yağ, olsa ilin bol keçər.

qıvrıq ilan dəliğinə girənməz.

qıvrıq ilan dəliğinə girənməz.

qıya edən, qırılar. (özgəsinə güvənən sınar, ulamaz (onamaz.). (**qıya: qıyşı**. (< **qıymaq**) qıyma işi. güvən. e'timad)..

qıyaş olsa, işlər onar. (güvənişmədən, işlər batar).**(qıyaş:** qıyşı. (< **qıymaq**). birbirinə qıyma işi. güvəniş. e'timadlaşış)..

qıyaş ondurar , qağaş öldürər. **(qıyaş:** qıyşı. (< **qıymaq**). birbirinə qıyma işi. güvəniş. e'timadlaşış). (**ondurar**: yartırar, düzəldər). (**qağaş**: cicik).

qıyısız tarlaya davarda girər, tapdığın yiyər.(**qıyı**: bir yerin, nərsənin qıyısına, qırağına taxılan çevrəlik)..

qıyışmadan tikilsə, ya dar gələr yada gən. (**qıyşamaq:.** kökləmək. dənək, pırob üçün tikmək)..

qıymıl su dursa durular. (**qıymıl**:**qımıl:** bulanıq)..

ox yonanın, gözü çıxar.

oqmamış danışan, tez yanılar. (**oqmamış**: **oxumamış**. düşünməmiş).

opraq yasıdan, tozlu yay çıxar. (**opraq**:köhnə) (**yasıdan:** sadaqdan. ox qabından). (**yay**: kaman). {donuna baxma, tininə (içinə) bax}).

orsanmış dəmir, dəmiri yeyir. (**orsanmış**: **oğsanmış**. yoğrunmuş. döğülmüş. ovğanmış).

orta oranda gedsin, umaclara yetirsin. (**oranda:** çəkdə. həddə**)**. (**umac**: arzı).

ortaq ol, artıq yox. (dəngək, münsif ol).

ortaqlı yük dəh düşməz. (**dəh** : dəngəli. miyzanlı).

osdurdub qabağa düşdük, sıçıb dala düşdük. (**osdurdub** : şişirdib).

ot kökü üsdə bitər. (bulağ öz gözündən su içər). (qoç iyid, dayısına çəkər.) (olduğun, doğulduğun, bulunduğun yerin, qoşutun, quşağın, şərayitin etgisi altında qalma.).

otaçıdan sorma, (ağrını) çəkəndən sor.(**otaçıdan**: həkimdən).

otduğun yeri süpürdə otur.

otsuz çöldə qoy gəzməz.

otsuz çöldə qoy gəzməz.

oturmağın bilməyir, qaçmaq üçün tələsir, saxlamına çabama, tulla gedsin batana.

ovcu neçə tov bilsə, ovul anca yol bilər. (**tav tov:** yap yup**.** kələk külək. nəxşə. hilə. məkr).

ovçu bilməz acınma, ovçu ölsə acınma. (**acınma**: tərəhhüm). (**acınma**: sinsimə. dərd edmə).

ovçu ovda, yolçu yolda gərək.

oyanış özgürlüyün qapısı. (**oyanış :** bilgilik).

oyundan keçən başında açılar. (iç sezinin qaynağı, başın çalar çalvasın). (**qaynağı**: qaynaması). (**çalvasın:** halvasın**)**.

ölüm gələndə "gəlirəm" deməz, can çıxanda "çıxıram" deməz.

ölüm gələnə qal deməz gedənə dur deməz.

ölüm gələr alar gedər, ayrılıqlar yıxar didər.

ölüm gəlsə buyur deməz, burar gedər. (**burar:** ayırar. qırar).

ölüm gəlsə yox edər, ayrılıqlar çürüdər.

ölüm gəlsə, qanca qaçsan ol tutar.

ölüm gəzər kölgəsiz, keçtik yerdə iz qoyar. (**ölüm**: əcəl).

ölüm görməz, yaşam dadmaz. {qorxu bilməz **yaşam dadmaz**. (**qorxu**: risk)}.

ölüm kəndiriylə oynama.

ölüm kölgədir düşür, yaşam yolunda yürür.

ölüm qınamaz yaşama yas quranları. (**yas qurmaq:** əzizləmək**)**. (ölümə toy tutanlar) (qaramsar kişi ölümə uyar, ölümü övər). (**qaramsar**: pesimist).

ölüm qorxu bilməz.

ölüm qoymuş ağu oxun kirişə, bilmək olmaz haçan cana irişə.

ölüm qudurğan olur, aldığın ələ verməz, ala deməz ələ girməz!.

ölüm min kərə gəlir, bir kərəm alır!.

ölüm oxu saçılsa, kimin alıb götürər.

ölüm olar bir olay, gözlənmədən enirsə, doğal durar doğuş ösüş qocalmaq, ölüm sıran gəlirsə. (**olay**: hadisə). (**sıran**: sırayla).

ölüm olsun ölüm deyənə.

ölüm otun içmədən, yaşlıq çağun keçmədən, könlün istər edinqıl. (**otun**: ağısın). (ürək istəklərivi yejinə yetir).

ölüm önündə, yaşam qoşuya dönür. (**qoşuya:** şe'rə).

ölüm önündə, yaşam qoşuya dönür. (**qoşuya:** şe'rə).

ölüm səssiz gəlir sözsüz keçir.

ölüm siliş, itiş batış yazılı, varlığında olduğuvu yaşarsın!.

ölüm siliş, itiş batış yazılı, varlığında olduğuvu yaşarsın!.

ölüm sorğasız, sorağsız keçər.

ölüm soruşmamış gələr. (**soruşmamış**: xəbəsiz).

ölüm tanışılır, alışılmır.

ölüm tox, öldürmə yox. (**tox:** hak. haq**)**. (ölüm toxlu, öldürmə yoxlu). (**toxlu**: haklı). (**yoxlu**: haksız).

ölüm tutar ansızın, bu gün gəlsə qoymaz qala yarına. hər kim çəkə kəndi özün tarıma, bəkləməsin fırlaq evrən çönər onun yarına.

ölüm yağlı yavan tanımaz, sən ölümü saymasanda, ölüm səni unutmaz.

sallancağı sallanar, çoxlar görürür allanar. (tapmaca). (evrən). (sallancağı: beşigi). {bu evrən dəğirman durur, suyu gəlsə, dənin üğür (**üğür**: üğüdür. oğudur)}.

salma bağın bağışlasan Oğluva, qıymaz verə sanğa təkin salxımın. (salma bağın: üzüm bağın). (sanğa: sənə). (təkin: bircə) (allaşmaq oynaşmaq. sınas (ciddi) olmamaq. məsxərəbazlıq eləmək. -bəsdi **allaşdın**. -bu **allaşmağından** əl çək. -bu iş görmək deyil **allaşıqdır**.

salmıqı yengil, tutarı ağır.

salsum qadınla qalmağ olar, dosla yox. (**salsum**: samsum. səlsüm. qaradinməz. lal kar. səssiz küysüz).

saltuq olmaqdan, qıstul ol.

saman altdan od vermək. (çox cıvıldızlıqla, bildirmədən olmasın işlər görmək).

saman düdü canlı qırar.

saman olsa özgədən, samanlığa iyə, sən!. (gözün qapıb ağzın açıb, ayaq basıb, əl uzadıb, düşünmədən qılınma, yadlı başa yılınma).

saman sənin olmasada samanlıq ki sənindir.

saman sənindir samanlıq ki yox!.

saman titrədən yeldə var, dağ oynadan küləkdə.

samanı yeyən, torbasın tikər.

samanı yeyib, torbanı deşib.

samanı yiyən, torbasın tikər.

samanın qurusu, sınar, odun qurusu qırılar.

samanın varsa, oddan qorx.

samanla sapanın qohumluğuna inanan, həm günün qazanar həm gecəsin.

sana bilməz, sanalı almaz, sanalı verməz, qaran dünya. (**qaran**: könlü kor).

sana nə duyqular yaraşdı, nə arzular ulaşdı, keçən ömür boşuna, daha gəlmirsana xoşuma. (**gəlmirsana**: gəlmirsən ha).

Sana vereyim bir öğüt: kendi ununu kendin öğüt. Kişi işini başkasına bırakmamalı kendi yapmalı. (Bayram Özdemir).

sana yetişmək üçün yarq odunda yandıqca, bu sınıq könlə dağdırki basıb dağlamışam. (**yarq**: yarıq. ayrıq. ayrılıq. hicr).

sanadı yaşın sana gəlmədi, uçuran başı sapa gəlmədi, qanadı oddan, köməyi yeldən, tutmaq istədim qapa gəlmədi. (**qapa gəlmədi**: tutulamadı) (**sanadı**: saydı). (yalan dünya).

sanaqılma gördüyün işlərivi, sanaqıl sanqılınan işlərivi. (**sanaqılmaq**: hesablamaq). (**sanqılınan**: **sayqılınan** hesaba salınan. önəmsənən).

sanaqılma gördüyün işlərivi, sanaqıl sanqılınan işlərivi. (**sanaqılmaq**: hesablamaq). (**sanqılınan**: **sayqılınan** hesaba salınan. önəmsənən).

sanatını hor gören boğazına torba takar: Sanatına değer vermeyen onu güzellikle, hakkıyla yapmayan, sanatından karnını doyuramaz. Başka bir işe bakmak zorunda kalır. (Bayram Özdemir).

sancaqları bayraq edən, düşüklərin qanıdır. (**düşüklərin**: şəhidlərin).

sancı hər ürəkdə olur, biri qanar, biri qanmaz.

sancıya düşürsə qarın, bir qaşıq bal ye, çəlik düşürsə işin, bir ağsaqqala de. (**çəlik**: pırtlaşıq).

saçaq başda əl saxla, koranlıqda ayaq, yad qatında dil saxla. (**saçaq**: süfrə). **(koranlıqda**: qaranlıqda). (**qatında**: yayında).

saçğa günü tanıdar. (**saçğa:** dan atandan son günəşin ışınlar, şuaları).(günün saçğası, ışığı günün dəlilidir). (günün varlığına dəlilildir).

saçılan sütə ağlama. (yıxıqla yıxılma, yanığla yanma. keçəndən keç, ötəndən öt).

sağat baş, ertən bas. (**sağat**:sağlam. sağan. sağlıqlı). (ey başı yerində olan, işə erkən başla).

sağlığın qədrini bilgil, xəsdə bolmasdan burun, xəstəlik yoğşunu qılğıl, ta ki ölməsdən burun, düz yerin qədrini bilgil, dərya dolmasdan burun, gəmidə hüşyar oturqıl, burğanə gəlməsdən burun, yaşlığın qədrini bilğıl ta ulalmasdan burun. (**məxtumqlu**). (**bolmasdan: olmasdan**). (burun: qabaq. ön). (**yoğşunu**: şükrünü). (**dərya**: çay. ırmaq). (**burğanə**: girdabə. girdova). **(yaşlığın**: gəncligin). (**ulalmasdan**: qocalmazdan).

sağlığın qədrini bilgil, xəsdə bolmasdan burun. (**bolmasdan: olmasdan**). (**burun**: qabaq. ön).

sağlıqlıya gündə bayram gündə toy.

sağur, soğur, savul. (kar ol, kor ol, rədd ol).

saklı dərdə yox dərman.

saldınsa bul, qoydunsa götür. qaçırdınsa tut.

saldırma sən bağlı görsən birini.

sallağın tanışı olmaz.

salsum qadınla qalmağ olar, dosla yox. (**salsum**:samsum. səlsüm. qaradinməz. lal kar. səssiz küysüz).

sana bir öğüt, buğdavı özün öğüt. **(öğüt: oğut)**.

sana bir öğüt, buğdavı özün öğüt. **(öğüt: oğut)**.

sana nə duyqular yaraşdı, nə arzular ulaşdı, keçən ömür boşuna, daha gəlmirsana xoşuma. (**gəlmirsana**: gəlmirsən ha).

sanı var, salmığı yox. (üzü var, içi yox).

sansız yaman tuşlayacaq yaşamın, hünər odur dolayıbən keçəsən, bəs bəllidir yaman basar eyini, sinə gərib döğüşünə girəsən.(**sansız :saysız**). (**dolayıbən**: dönük verərək. dövr vuraraq).

satamazdın məni sən heç yabana, küymüş olsaydi ana, alca dilin. {(anadilin danan danalara (analara)}. (**alca:** qırmız). (**yanar olseydi ana alca dilin**: ay anam yanmış olseydi ağzındaki qırmız dilin).

satın alsan qulağdan,satın satsan ağızdan. (alanda qulağıva inanma, gözüvə inan, satanda gördüyün önəmli deyir, danışdın iş alır).

satuvçı səggizə satmır, aluvçı altıya almır. (satıcıya səggiz az, alıcıya altı çox).

savaş döğüş tavrıq burqu götürməz, uyqarlığa öğrətilər verilməz. (**tavrıq**: isuli əxlaq. ədəb ərkan. əxlaq dərsi). (**burqu**: əxlaq) (**öğrətilər**: yoluq yoraq).

savaş döğüş tavrıq burqu götürməz, uyqarlığa öğrətilər verilməz. (**tavrıq**: isuli əxlaq. ədəb ərkan. əxlaq dərsi). (**burqu**: əxlaq) (**öğrətilər**: yoluq yoraq).

sayqı bəslə dəğər verənə, yox onaki sayqı dilənə!.

sayqı bulaq, sevgi onun ırmaqı.

sayqı dəgəyən istəyin olsun, sayqır gərəyən ərdəmin olsun. (**sayqır** : sayqı edməli).

sayqı dəgəyən istəyin olsun, sayqır gərəyən ərdəmin olsun. (**sayqır** : sayqı edməli).

sayqı əkən, sayqı dəyər. tikan əkən, tikan dəyər.

sayqı görsə şişinər, sayqı bilməz qanmazlar.

sayqı nədir bilməzlər, sayqı görsə çaşırar.

sayqı qalxsa ortadan, sevgi qalmaz orunda. (**orunda: orunda**. yerində).

sayqı saxlar sevgini, sevgi qorar sayqını. (**qorar: qorurar**).

sayqı sevgi doğurur,sevgi sayqı.

sayqı sınırsız olmaz, sevgi sınırğa sığmaz.

sayqı yoxsa sevgi ölər duranmaz. (**duranmaz**: yaşayanmaz).

sayqılıq bilik, əkdiyə ilik. (**sayqılıq bilik**: sayqıdan, hörmətdən olan bilgi). (**əkdiyə ilik**: tərbiyətə cirgə).

sayqısız sevgi duranmamış.

sayrac olsan öz bağında sayra sən. (öz elin, öz dilin) (**sayrac: sayırğac**. bülbül).

sayrac olsan öz bağında, it olursan öz süründə. (**sayrac**: bülbül).

seç seçimin, tut yolun, yoxsa seçim yar yolun, seçimlə olsa yolun, yaşam dadı min artar. (**yar** : aç. yarat).

seçdiklərin içindən yaşam verər pay sənə.

seçənlərin dəğərin seçimləri bəlqürür.

seçənməyib əkməyən, istədiyin biçənməz.

seçilmədən bir soluqla bir yaşamdı başlayır, çalış seçin son soluğun gələndə. (**son soluğun gələndə**: işlərivi bitin ölmədən).

seçim gücü olmadan, dəğişməyə umut yox.

seçim,əkim, biçim.

seçimlərdə gec qalma, karvan sürər dayanmaz, uzun arzu qıt ömür, barğacına çatanmaz. **(barğacına** : mənzilinə).

seçin,əkin, biçin.

seçitlə yaşa, saçıtla yox. (**saçıtla** : şansla. düşətlə. uğraşıtla).

səfehlik böyük kiçik tanımaz, alçaqlıq gələn başa yarımaz (səfehlik, sapıqlıq başlı başsız, usqan usqıt, ağıllı ağılsız bilməz, amma əksiklik hər kişinin işi değil).

səlivər mala göz tikən, alıvar maldan qalar. (**alıvar**: almalı) (**səlivər**: salıvar... səlləminə. yiyəsiz. ıssız).

sən ağa mən ağa, kim verə ot ata.

sən ağa mən ağa, kim verə ot ata.

sən atllıydın mən yürük, bir amaca yürüdük. (**yürük**: piyada).

sən bas yola ayağın, yol gərəkin baş çəkər. (**baş çəkər**: baş bilər).

sən bir eyi, min kötü, qaç önündən, qor kökü, bir sarmaşıq güllükdə, qurutmuşdur min kökü. (**qor: qoru)**. (**sarmaşıq**: asalaq. əngəl).

sən ən gözəl duyqular, ən ağır sevgilər ölütü, yazıqlar sənə gedinən çağa. (**ölütü**: qatili). (**gedivən:** harcanan. xərclənən).

sən gördüyün sevmisən, nə olduğun görmədən, olduğuyla yaşarsan, nə çəkdiyin görərsən.

sən kim olsan ol açar tov iç üzün. (**tov**: güc).

sən məndə sən mən sənin lə yaşaram. -sən yoxikən, mən yaşardım olduğun, sənsiz olmaq alınmaz, nədir demək qanılmaz, sən yoxikən başqa səni taparam, sən olmasan başqasıda tapılmaz, ürək pası açılmaz.

sən mənə nə üzül, nə süzül (qırcan). (**üzül**!: mütəəssif ol!).

sən sardığın sar, o sağdığın sağacağ. (**sağmaq**: açmaq. boşaltmaq. çözmək). (**sarmaq**: 1. dolamaq. 1. doldurmaq).

sən tutqan tavuqnu, yeləgni yolqan men.

sən yazdığıvı yaz, əğirən bükür. (sən açdığıvı aç (yapdığıvı yap), toxuyan toxuyubda, bükərdə).

sən yiyə çıx öz dilən, gələn quşaq yanmasın, gəlib ötən danmasın. (**quşaq** : nəsl).

səndən böyüklə qonuş, yanımda yatma.

səndən böyüklə qonuş, yanımda yatma.

səndən öndə yox yazı, öz əlindi yol yazı. (**yazı:** 1. tale'. **1**.**yazır**. açır).

səndən qalan geridə ölmüş, lap yenisi yerini tutmuş.

sənətinə kim xor baxar, boynuna torba taxar.

sənətinə kim xor baxar, boynuna torba taxar.

səni sevməyəni itirmək, dəğməz kitir qayğuya,əldə saxla sevənin, qolaylıqla sevilənlər tapılmaz.

sənin ardınca danışırlarsa deməkki sən qabaqdasan.

sənin təkcə gülün yaz gətirir ömrümə, səndən gələn bir gülüm qış günümü yaz edər.

sənsiz evrən tanışım , sənli günə alışmağa çalışdım.

sənsizliyi unutdum, indi keçən xoş günlərin eşqinə.

səpəndə dartış, biçində yartış. (əkəndə gəngəş olsa, dartış biçinə qalmaz)..(**gəngəş**: danışıq. açıqlayış). (**yartış**: iməcilik. əməkdaşlıq. barış).

səs olmasa, yanığ çıxmaz.. **(yanğu: yanğı. yanığ**. əksi səda).

sevdigim atsa məni ax demərəm, gözləməm ilqarını yoxsa əğimi mən üçün. (**əğimi** : meyli. eşqi).

sevdigin olmayacaqdır bilisən yar sənə, boşla gedsin tutu ver qoyma gedə sən sevənin.

sevdiyin kimidi , sevənin kim oldu sənin.

sevdiyin özü ay, evi saray görünür.

sevdiyin sevsə səni , sevgi uçar göylərə.

sevdiyin tutanmadın!, sevənindən qalma.(**sevdiyin: sevdiyivi**). (**tutanmadın**: saxlayanmadın).

sevdiyin yoxsa!, sevənin ara.(**sevdiyin: sevdiyivi**).

sevdiyinə sevinən, sevilməsə sevinməz.

sevdiyivə çağ ayır, ayırmadan sevdiyindən çağ səni.

sevdiyivə uydunsa, sevənivi yadırqa.. (**yadırqa**: unut).

sevdiyivi qaçırdın, sevənivi qaçırma.

sevdiyivi sınama, sınadınsa qınama.

sevə bilsən sev gözəlcəsinə, yorub acıdan, qırıb tökən sevgidən düşdüm.

sevəcəklərim qorxutmaz məni, açarları içimdə durur, qırırsa bağın sevgili məndən, bir qapı bağlanır, başqasın açır. (**bağın**: **bağa**. bəfa).

sevəcən ana, qorağan ata. (ana sevir, ata qorur).

sevən könül baxan gözdə gül tapar.

sevən könül sayqı gözlər sevəndən.

sevən könül sevdiyiçün dəğişər, sevilmişlər sevənlərçün dəğişməz.

sevən könül unutmaz, sevən sevincin atmaz, sevən quşa sevgi dal, sınıq dala quş qonmaz.

sevən könül yalnızlığa yad olar, sevməz könlə yer üzüdə dar olar..

sevən öğünər, sevməyən döğünər, yaşam durar bir açmaz, çoxda çalış açılmaz. (**açmaz**: tapmaca. yapmaca).

sevən ölər, sevgi yaşar.

sevən olsa açıq göz, sonrasına olmaz söz.

sevən olsa açıq göz, sonrasına qalmaz söz.

sevən sayar sayqı qoyar dilinə, verməz yada kəndi yurdun, kəndi varın kiminə.

sevən səni ağıysada ut, sevməyən səni balisə unut.

sevən sevənə aytamış. (**alqış**. xeyir dua). -son günüm sənsiz olmasın.

sevəndə ölür, seviləndə, yetərki aşqla yaşa aşqla öl!.

sevənğlər ölürmüş, sevinclər yaşırmış.

sevənini unudan, sevdiyində yarmadı. (**yarmadı**: müvəffəq olmadı).

sevənlərə qul olma, sevməyəyənə düş yuxu.

sevərəm mən səni candan içəri, hər nə çəkir məni səndən ötəri.

sevgi alar könlü içi gizlicə, çıxmağında çox dirənər üzlücə. (sevgilər könüldəykən çox sıcaq (ısıca) yaşanır, ama yaşama uyqulanması çox güc olur).

sevgi başındaki dad, yadda qalı, olmaz yad.. **(sevgi başındaki** : ilk sevgidə).

sevgi batağ, yoxluğu qalağ. (**qalağ**: veyran. xaraba).

sevgi biriylə başlar, başqasıyla sürər.

sevgi biriylə başlar, birində qalmaz.

sevgi canlılığın bəzəyi, sevimli könüllülər gəzəyi. (**gəzəyi** : ovlağı. covlağası. seyrəngəhi).

sevgi deb bolma dilənçi ey könül, öylə bolqıl kim hamı sevsin səni.

sevgi degən qıpı yox, dişi degən bığı yox.

sevgi dilə çönəndə, sınar qolu qanadı, sevgi qalar könüldə isti yeri qucağı.

sevgi doğan könüldə, yalnızlığa yer qalmaz, sevgi ölən könüldə, yalnızlığı qonaqlar.

sevgi dolça deyil gen qıslığı ölçülə.

sevgi dolsa könlüvə, yer göy itər sonsuz qapar evrənin.

sevgi duyu yox dili, onu sevənlər bili. (**sevgi duyu**: sevgi bir hissidir).

sevgi edər kor sevəni.

sevgi gələr can alar, biz keçərik yol qalar.

sevgi gələr can verər, ölüm gələr can alar, biz köçəriz yol qalar.

sevgi gücü ölüm sıvay heç bir gücə əğilməz.

sevgi inanc tanımaz, inanc sevgi doğurar.

sevgi keçmişdə qalmaz, sevgiyə keçmiş yaramaz. (eşqi, sevgini yaşamaq gərək).

sevgi kolu könüldə bitər, düşsə ələ dibindən itər.

sevgi od kimi yaxar, od kimi sönməz.

sevgi olar ölümsüz, doğmuş olsa içində.

sevgi oyun götürməz, közə düşsə ötürməz.

sevgi oyun, başlanması bəllənməz, bitib batıb, sönər sönməz bilinməz.

sevgi oyun, sindir içə ilk günün xoşluğunun, düşünmə heç son gününün qorxusun. **(sindir içə :** nuş elə).

sevgi oyun-vurulmuş kim, vuran kim, alınmış kim, alan kimdir bəllənməz.

sevgi qanıtılır. (qanıtlamaq: saltatmaq. salıtmaq. saldıtmaq. sabitləmək).

sevgi savay hər nəyə var qarşılıq. (**savay** : alahı. istisna').

sevgi sayqı qovuşsa, ölməz evrən yaradar..

sevgi sayqı tuş doğmuş.

sevgi sevənlə doğur, sevməzlə ölür.

sevgi seviş sevənləri dəğişər, onu tutan ululuğa ərişər.

sevgi sözə sığınmaz, iş olmasa alınmaz.

sevgi tanımaz yaş.

sevgi tanış görünməz darıxdığın anında, könül gəzər sevdiyin, görməz, olan yanında.

sevgi varkən könüllərə ölüm yox.

sevgi varlıqların başıdır.

sevgi yolu sayqı sılaq döşəli.

sevgi yolu sayqı yolundan keçmiş.

sevgi yoxdu tanımaz, iyi kötü qanımaz. (**qanımaz: qanmaz**. qana bilməz).

sevgidir tanrım, nərdə bulsam tapınım.

sevgilə eşq yaşamdır, ilki sonu aranmaz, aransada bulunmaz.

sevgilər batar, yoxluğu qalar.

sevgilər batar, yoxluğu qalar.

sevgilər könlüdə yaranır, başda ona yular aranır. (**yular**: cilov).

sevgilər ucuz tapılır, inanclar gücünə.

sevgilərin varlığının yükü yox, yoxluğunun yükü çox.

sevgili ölür, sevgilər yaşır. (**sevgili** : mə'şuq. məhbub).

sevgililər köngül içrə quylanırı**,** silinməz.

sevgilinin qadasını alası, sevgi ocaq gözəlliklər balası.

sevgin gedsə qayğırma, səninkiymiş gedməzmiş.

sevgini övməyə yaranmamış bir söz, ən böyük söz yansıtır ən kiçik parçacıq dağdan.

sevgini söyləyişdənsə, göstərişlik yeğ.

sevgisin paylaşa bilən mutlular.

sevgisinə nə çatır bilirəm, sevgisində nə çatışmır bilmirəm.

sevgisini sevdiyinə deyənməz, günü gəlir söğüş söyər kəndinə.

sevgisiz sayqı yaranmamış, sayqısız sevgi duranmamış..

sevgivə düşdüyün seç.

sevgivi ver alana, yaman qalsın danana.

sevgiyə yad olanlar, tez atılar könüldən.

sevgizis yaşam, parçacıq daşam.

sevilən gözəl baxtı açıq.

sevilmək uman, umusuq qalar, nisgilə batar, sevgini atar.

sevilməmə sevinməm, sevməyimə sevinnəm.

sevilməyi gözləmə, sevmisənsə bəkləmə.

sevilməyi, sevdirməyi, sevməyini bacarmaq, hər kişidə tapılmaz.

sevinc güvən yaradar, kin öc qalxar aradan.

sevinc paylaşılır, mutluluq paylaşılamaz, yaratılır.

sevinc üzdə, mutluq içdə olur.

sevinməyə tezikmə , ağır işdən qaçınmağa çevikmə. (**çevikmə**: ivəmə. tələsmə).

sevinməyə tezikmə , eyku işə gecikmə.

sevinməyin bilməyən, savdiyini, sevilməyin , üzülməyin nə bilir.

seviş ağış, tün gün üzə yürkünər**. (**yaxcı pis, gecə gündüz birbirin qoğalar).

seviş quşu yuva qurmuş könüldə, ötür genə umut mahnısın, ötürdə yaş sönmək üzrə irəlir, ötüb keçən keçip gedən keçmişlərdə itgi yox. (mutluluq carçısı).

seviş söğüş yasalki yox, yasadır. **(yasnı: yasal**).

sevişlər keçmişdə qalır, indivə yalnız kölgə salır.

sevişmədə əlli əlli oxumaz.

sevişmənin izi yox, çox qurcasan içi pox.

sevmək bəlki ola bir sözdü, sevildiyin bilənlərə çox sözdü.

sevmək əldə, durmaq bilməz tələsər, unutmağa çox tələsmə çağ istər.

sevmək ən dəğərli vergi, ən çətin öğrənməyə, ən ağır olan itirməyə.

sevmək könül işi, qırmaq evrən peşi.(**peşi**: peşəsi. işi).

sevmək nədir bilməyir sevilməyi gözləyir.

sevmək öğrəşilir. (başı başına olan yox, nədən yoxsa ölən yox).

sevmək, bacarığın doruğu.

sevməkdən sevimlisi bulunmaz.

sevməyənlər əksik qalır, sevəgənlər butun alır. (**butun alır**: diləyinə çatır).

sevməyənlərnə dusdaq, sevənlərin bulamazlar.

sevməyi sevmək kiminə düşdü, sevgidə ilqar boşuna düşdür. (**düşdür**: yuxudu. gümandır).

sevməyini bacaran, yaxşılığa uğramış, sevməyini bacarman, yamanlığa uğrarmış. **(bacarman: bacarmaz).**

sevməyini bacarma, sevilməyin tanıma, mutluluğun haçarı.

sevməyini bacarmaz, süycü yaşam quranmaz. (**süycü** : dadlı. şirin).

sevmir səni unut gedsin yadilə, sevir səni qalsın qatda dadilə. (**qatda** : yanda).

sevmisin sevənin yok, vermisin alanın yok, doğru sözün yalanın yok, fırladıban çıpar yerə bu evrən.

sevməyini bilməyən, qırmağını bacarmaz, darlıq günü görməyən, dinclikdə duranmaz.

şeytan bizi azdırıb, yaman gündə, yaman yerdə olmaz quyu qazdırıb.

siçan sığmaz nininə, qəlbir bağlar dibinə.

siçan tələsər , suçağu qapar. (**suçağu**: tələ).

sığac işi irməz, ortun təpmək. (**işi irməz**: işi değil). (**ortun :**xərmən). (**təpmək**: döğmək). (sərçə işi değil xərmən döğmək). **(sığac**: **sındılac. sığdılac**. sərçə. ötücü quş çeşiti).

sığır sılağ, xoca çörək götürməz. (**sılağ**: sayqı).

sığır sütü ağzında.

sıkıntıda dosd arama, doslarıvı qınama.

sıkıntıda dosd arama, doslarıvı qınama.

sıkışan bəkişər.

sıkışan bəkişər.

sınamasa alsığar, sağınmasa utsuğar**. (**kişi dənəməsə aldanar, düşünməsə utuzar:. **(utsuğmaq: utsunğmaq**. **utuzmaq**. itirmək).

sınanmamış güvənc, yürgünməmiş at kimidir.

sınanmış kiminə edmə yoldaş özüvə, qıssa uzun yolunsa, oxu batar gözüvə.

sınanmış yol barılsın, sınanmamış qalınsın.

sınanmışı sınama, yorqun atın qınanma.

sınanmışı sınama.

sınar evin oxları, ev başdağı (başqanı) ölürsə. (**ox:** dirək. situn).

sınıq könül umut qılma boşuna, gözəl gözdə, gözəl üzdə yox ilqar.

sınsa sınır, qalmaz sayıq. (**sayınğ**: sayıq. sıyıq. sayqı).

sirnəşibsin dolmaya, olsun bir gün olmaya. **(sirnəşibsin:** dadanıbsın).

sis çən yelpik ilə dağılmaz.

sis çən yelpik ilə dağılmaz.

şişdə küdü, kababda. (küdü: küydü yandı).

şişən kimsə sayqı sıylağ götürməz.

sıtana papaq tikir, cıddana başmaq. **(sırtın: sıtan**. şeytan).

siyasət yoldu yolağ, bilməz onu kordu çolaq. (**yolağ**: tədbir).

siz aytan dallar, dirəklik olub, siz görən dağlar düzəlik olub. (**siz aytan**: söylədiyiz).

sızlanma könül səndə çoğundan, ki yapan nərsə əlində,yox onunda, yorqun kimilər dincə otursun, düşmüş kimilər qalxa durunsun.. (**sızlanma** şikayətlənmə). (**çoğundan**: fələkdən). (**kimilər** : kişilər. adamlar).

söğüd dayaq verməz, yaman aman verməz.

soğur sağur savul. (kor kar rədd ol).

soğur sağur, savul. (kor ol, kar ol, rədd ol).

söğüt sulunğa, qatınğ qasınğa**.** (söğüt sulunğa, qazanğ qatınğa) (söğüt suluğa, qatığ qatıya çəkilir). {1.söğüt ağacı yumşaq işlərə, qazan ağacı qatı işlərə uyğundur. 1. söğüt sulu yeri sevər, qaba sərt tikən quraqlığı, sərtliyi.}**.**

söğütdən dayaq olmaz, yamandan ayaq. (**ayaq**: yoldaş).

solumaq diri qalmaqdır, yaşamaq başqa bir nərsə!.

son ökünüş yaramaz. (**ökünüş**: püşmançılıq. peşmançılıq). (**yaramaz**: bərə verməz). (keçmişə qınaq yaramaz).

sonda gülən iyisin gülər.

sonuza umut bəsilməz, daşlığa tuxum əkilməz.

sorquları sorayla, öncəliklər sırayla. (**sorquları sorayla**: sorquları, sualları yanıtla, cavabla). (**öncəlik**:bəğəni. tərcih).

soruluq silindisə, soru yerində, kişi ölüşdüsə, işi yerində. (**işi**: yaradışı). (**soruluq**: surəti məsələ).

sosqan mala, tanrı buynuz verməz. (**sosqan:** buynuzlayan).

-sosqan mala, tanrı buynuz verməz. (**sosqan:** buynuzlayan).

soxulursa çöp gözə, od vurulmaz çöplügə. (təpilirsə saman gözə, od vurma samanlığa). (bitinə qızan, donun yaxmaz).

soxulursa çöp gözə, od vurulmaz çöplügə. (təpilirsə saman gözə, od vurma samanlığa). (bitinə qızan, donun yaxmaz).

söylə başdan, qələm qaşdan.

söylədiyin doğrusa, at üsdə durda danış.

söylemeden düşünsən, düşünmeden söyleme.

söyləmədən kimliyimiz bəllənməz.

söyləməz ön, sonun oyla. (**oyla**: düşün).

söyləməzdən ön dibin oyla. (**oyla**: düşün).

söylər ağız durmasın, görən əllər armasın.

söylər aşıq: -od olursan, samanın, gül olursan, tikənin, su olursan, çayın ollam, hər nə desən oyun ollam.

söyləsən el bəyənsin, yüryüşün yol bəyənsin.

söyləyən dəlisə, eşidən başlı gərək. (**başlı**: uslu. ağıllı).

söyləyəndə az söylə, dinləyəndə yey dinlə. (**yey: yeğ**. iyi. yaxcı).

soylu soyuna dəli dölünə çəkər. (**soyuna:** atasına**)**. **(dölünə:** anasına**)**.

soyuq suyu yanar odlar qaynadar, qaynab daşırsa sular , yanar odu uçdurar. (**uçdurar**: söndürər).

söz atı yügrək olar.

söz çıxdısa ağızdan, geri girməz bayırdan.

söz var el içində, söz var ev içində,.

söz var əş içində, söz var ər içində. (**əş**: ərarvad).

söz verib tutmayasan çox mandır, nə gözəlki veribən kəndi sözündə durasan.

söz yetirər, iş bitirər.

söz, yol açar, iş açmaz. (**açmaz**: çözməz).

sözçü köçər söz qalar, sönmüş oddan köz qala, uçan közdən kül qalar.

sözçü köçər söz qalar, sönmüş oddan kül qalar.

sözdə yalan çox olur, işdə yalan pox olur.

sözdü gücü sözçünün, eldi gücü elçinin.

sözə bax kişini tanı, kişiyə baxıb sözü yox.

sözə sucunsa, bulun barır. { sözə şirnəşən, (sözə tutqun olub), işindən yesir qalır}. **(sucunsa**: **suçunsa**. dadansa. dadalsa. şirnəşsə).

sözlə işin bir olsa, başın uca qolun zor.

sözlənəndən söz dinlə, sözləyəndə az sözlə.

sözlü başın dili bayraq irkədə, sözsüz başın düşmüş ayağa dili. (**irkədə**: taxda. qudrətdə).

sözü dil deyər, işi əl görər.

sözü sözə oxşamaz, ağzı sözdən boşamaz.

sözü sözə oxşamaz, ağzı sözdən boşamaz. (**boşamaz: boşalmaz**).

sözü verib tutana, canlar yolağ qanana. (**yolağ**: qurban).

sözün bilib söyləsən, üzün suyu tökülməz, yerin bilib tükətsən, cibin pulu tükənməz. (**tükətsən**: xəşləsən. sərf edsən).

sözün canı işdədir.

sözün çeynəməz deyən, sözə çeynənər.) (sözün pişirib deməyən, öz sözü ilə, öz sözü üsdə əzilər, öz sözünün yolağı, qurbanı olar).

sözün çoxu yalansız, pulun çoxu talansız (olmaz).

sözün dinlə, işin gör, gördüyünlə dəğər biç.

sözün düzün duzlu desən, acıtmaz!.

sözünü duyda gəlini al, qırığın gördə daşını.

stəyin sonu yok.

su axar yolun tapar.

su axar yolun tapar.

su axışdan, sevgi baxışdan bilinədi.

su ayağında atılan, su başında yığılar.

su başdan aşmasın, durum kökdən pozulmasın.

su basırsa qarışqalar balıqlara yem olur, çəkilmişsə qarışqalar balıqları yərmiş.

su buldunsa ver suya, daş buldunsa vur daşa, acıq adlı nərsəni, ata sözü böylədir, -acıq gələr göz qızar, acıq gedər üz qızar. (**qızar: qızarar**).

su gedər daş qalar, sürmə gedər qaş qalar.

su gətirəndə bir, küzə qıranda bir. (işləyən yanılır).

su qurur dəyər tapır.

su tökülməz quyuya, çəkilər su quyudan.

su yonulmaz, buz yonular. (su oyulmaz**,** buz oyular**).** {su ilə buz bir öznədən (maddədən yapılsada, durumuna (moqeiyyətinə) görə dəğişik olasılar (imkanlar) əldə olunur. dəğişik biçimin, formun başqa özəlliklərində var}.

subay gözlü qız alma, yaya gözlü at alma. (**gözlü**: gözüylə) (**yaya: yayaq**. piyada).

sucuğ aşı sındırzar. **(**içgi yeməyin sındırılmasına kömək eylər). (**sucuğ:** içgi).

sucuğ aşı sındırzar. **(**içgi yeməyin sındırılmasına kömək eylər). (**sucuğ:** içgi).

sucuğ başı əsrüdər (məsrüdər), yalançıqlıq dili kəsdirər. (**sucuğ:** içgi).

sucuğ başı əsrüdər (məsrüdər), yalançıqlıq dili kəsdirər. (**sucuğ:** içgi).

suda olmuş, suda boğulmuş.

şumda kəsən qoşumu, sonda çəkməz qoşunu. (**qoşumu**: şərti). (çəkməz qoşunu: savaşa qalxmaz).

süpür kişi dos qılmaz. **(süpür:** bədəxlaq. əxlaqsız).

sürdü mənim qutumnu. (mənim bəxdimi dəğişdi, batırdı).

sürən ağrı, çorar canı. (**sürən**: müzmin. davamlı). (**çorar**: **çoradar**. çürüdər).

sürən atın yürüdü, əsn külək kürüdü, oturmuşlar çürüdü.(**yürüdü**: ilərlədi).

sürən çağdan bütün varlıq pay alar. (zaman heç nəyi etgisiz bıraxmaz).

sürü itsiz, el yetisiz dinc almaz. (**yetisiz**: bilgəsiz).

sürülən yerə qoş salma, sınanmış işə qıp salma. (**qoş**: cüt).

sürülər gibi gediyoruz, hər nə dediz yapiyoruz, düşünməyiz, soramayız, qanmayız, bu yol sonun tamu içrə görüyoruz. (**tamu**: cəhənnəm).

sürülərək yaşamdansa, yaşa sür.

süslü dilli, boş ürəkdən ıraq ol.

susmaq yanıt deyil, dözüş toxdaq.

susmaqın anlamı dili var, bilgə sözlü baş olan yerdə.

susqunluq dolu söz, danışmağa dillə göz, qulaq gəlir köməyə, beyin varsa kəllədə.

susuz göldə balıq yox, ovsuz çöldə ovçu yox.

süt çalır, süt calır. (əli bal, əli bol, bolaq. kovalı. ürəyi çox açıq, əli boluna bağışlayan kimsə).

sütdən ağız pişərsə, üfləb üfləb su içər.

suya girən bata bilər, dağa qalxan düşə bilər.

süycü süycü yeyənlər, acı acı gəgirmiş, ağzın açıb deyənlər, sonu bir gəbirmiş. (**süycü**: dadlı).(**gəbirmək: gəbərmək**. piscənə, acınaqlı ölmək).

suyu səp sinər yergə, sözü qoy, sığar elgə.

suyun lam axanı, kişinin yerə baxanı.

sandığımızdan çox ir qocalırıq, ir ölürük. (**ir**: tez).

sandığın kimi görməzlər, sanıldığın kimi görməzsən.

sandığın yok, saldığıdır. (sandığıva yok, saldığınadır). (həsibə yox, nəsibədir).

sandıqlarım dəğdi daşa, sanmadıqlar gəldi başa.

sandım ki gecişdim, gecə qaldım, ondan qaçalı qatmara düşdüm. (**qatmar**:. qəliz).

sandınki yalnız o sevir səni, sevgiyə tutar o verir, nə bileydin sanır oyunçaq səni.

sandınki yalnız o sevir səni, sevgiyə tutar o verir, nə bileydin sanır oyunçaq səni.

sanı var, salmığı yox. (üzü var, içi yox).

sanına baxma, qanına bax kaçına baxma, içinə bax.

sanki qızıl görməmiş heç kim paxırın.

sanlayıban söyləsən, ağrımaz başın yarılmaz. (**sanlayıban söyləsən**: düşünüb danışsan. danışdığın düşünsən).

sanma keçəcəkdir güc ilə günlərin ardı, qın olsada keçdi keçəcək heç izi qalmaz.

sanma sevgi sənlə başlar səndə bitər.

sanma tapır yalnız sənin başını, evrən çalar yetməz yetər daşını.

sanmazdı keçər qoymaz izin bir ara qalsın, yadlarda qalınsın, dad alınsın, sinə sinsin, vurdu kələyin eşdi ipin bir quya saldı, çıxmazda qalıb çağı keçib dönməzi yollar!.

sansız sürü, dibsiz quyu olmaz.

sapaç qonaq, ev yiyəsin qonaqlar. (**qonaqlar**: buyur deyər). (**sapaç:** səfeh).

sapan vaxtında üz gələn, oraq vaxtında uz gəlir.

sapıq susuq yılqın olur amacı, tapın susuq bulaq olur tapacı. (**susuq**: susamış. istəkli. talib). (**yılqın: ılqın**. sərab). (**tapın**: mö'mün). (**tapacı**: mə'budu).

sapıq yol, doğru amaca varmaz. (sapıq yol, doğru amac qazanmaz). çaşqın çay, dənizdən qay. (**çay:** su). (**qay: qayar**. cayar. çaşar. uzaq düşər).

sapına baxıb bezi al, könlünə baxıb qızı al.

sapınan, ağızdan saqqız oğurlayan.

sapında durmaz pişərsə qavun.

saplanıb keçmişdə qalma, gördüyün düşə aldanma, günlüyün yarına salma, düşər axşam gecə qalırsın.

saplı balta yerdə qalmaz.

saplı iğnə gücün tapılır, çörək yapmadan yoğur yapılır.

sapsız balta suya batar, saplı balta buzu qırar.

sapsız balta, dərəkməz (**dərəkməz**: dərdə dəğməz).

sapsız balta, nə edər, balta baltalıq, sapınla edər.

sarğışlara düşən, özü toxlu, qalan yoxlu çıxar. (**sarğışlara**: məğlətələrə)

(məğlətə ilə hamı özun haklı, özgəni haksız bilar).

sarğışlara düşən, özü toxlu, qalan yoxlu çıxar. (**sarğışlara**: məğlətələrə)

(məğlətə ilə hamı özun haklı, özgəni haksız, nahaq bilar).

sarı edik geymiş kocçu dizində, arzumanım qaldı ala gözündə.

sarılı söz, arıya köz. (**sarılı**: örtülü).

Sarımsaği gelin etmişler, kırk gün kokusu çıkmamış, Bir topluluğun arasına yeni katılmış kötü bir kişinin foyası (kişiliği), iç yüzü belirli bir zaman geçtikten sonra anlaşılır. (Bayram Özdemir).

Sarımsak içli dışlı, soğan yalnız başlı: Birbiri le iyi anlaşan kimselerin saklısı, gizlisi olmaz. Bir ailedenmiş gibi olurlar. Başkaları ile böyle yakınlık kuramayanlar da tek başına kalırlar. (Bayram Özdemir).

sarpdığın yoldan, doğru yola dönü ver, ötənləri ötmüş, gələnləri görü ver. (**sarpdıq**: münhərif).

sarsıdarmış, yoğrasız söz, can evin.

sasağanla, sığırçın bir yuvada yaşamaz.

satalağnın, dili oynar, təpirçinin, götü oynar.

satamazdın məni sən heç yabana, küymüş olsaydi ana, alca dilin.

{(anadilin danan danalara (analara)}. (**alca:** qırmız). (**yanar olseydi ana alca dilin**: ay anam yanmış olseydi ağzındaki qırmız dilin).

satanda kor alanda kor kim apardı!?.

satıcı aldağan olmasın, alıcı aldanan. (satıcı sırıq aldatan olmasın, alıcı sayağ olub aldanmasa işlər iyiyə gedir). (**sırıq**: **sırıyan**. aldadan).

satıcı kor, alıcı kor.

satıcı kor, satmasın, alıcı kor almasın. (olmayınca olmuyor).

satıcı kormuş satmadı, alıcı kormuş almadı, bir bilici, aldı malı, çıxdı getdi aradan.

satılan sığırın sütü bol, keçinən birinin götü bal. (**keçinən birinin**: ölənin).

satılı mal, atılı ox. (satılmış mal, atılmış ox).

satın alsan qulağdan,satın satsan ağızdan. (alanda qulağıva inanma, gözüvə inan, satanda gördüyün önəmli deyir, danışdın iş alır).

satma ucuz yaşamı, sürən evrən düşmüş ələ bir kərə.

satmadan verən, sandığın almaz.

savaş bilməyən, atasın yerə vurar.

savaş bitən son boylaşan çoxolar. (**boylaşan**: boy oxuyan, boy deyən).

savaş döğüş tavrıq burqu götürməz, uyqarlığa öğrətilər verilməz. (**tavrıq**: isuli əxlaq. ədəb ərkan. əxlaq dərsi). (**burqu**: əxlaq) (**öğrətilər**: yoluq yoraq).

savaş döğüş tavrıq burqu götürməz, uyqarlığa öğrətilər verilməz. (**tavrıq**: isuli əxlaq. ədəb ərkan. əxlaq dərsi). (**burqu**: əxlaq) (**öğrətilər**: yoluq yoraq).

savaş vuruş, barışa yer qoy.

savaş, düzəltməz, endirir. (pozar).

savaşan barışar, pox yemək, sözbaza qalar.

savaşanda barışığa üz saxla, varlanıbsan yoxsulluğa var saxla, gənclikdən qocalığa, güc saxla.

savaşda, iki yanda suçlu çıxır.

savaşın iyisi olmaz.

savaşla bitməyən işi, döğüşdü açacaq yolu. (**savaşla**: savmaqla. qoğmaqla. difa' edməklə). (**döğüşdü**: birbirin döğmədi).

savaşla bitməyən işi, döğüşdü açacaq yolu. (**savaşla**: savmaqla. qoğmaqla. difa' edməklə). (**döğüşdü**: birbirin döğmədi).

savaşlı yer, bolluqdan (bərəkətdən) yad qalır.

savaşmağa üz tap, barışmağa dil tap.

savır külün küllüyün, olsun gücü güllüyün.

savsal yalan doğru tanımaz. savsal saplıyanla toxuyanındır. (**savsal**: fəlsəfə).

say sana bilən yerində durar, isə qapılan uslu kişi, ağzını yumar, əlini tutar. (**isə qapılan**: həyəcanlanan. hirslənən) (**uslu**: ağıllı).

say sanaq, kişini yapar, kişiyə yarar. (say sana bilmək, hesab kitablı davranma, kişiliyi doğruldar, kişiyə yarqar, yarar yetirər, yaxışar).

say sanasın, götür qoyun qanmıyan, qolay yaşam sürənməz. (bilik sana bilməyən, qolay yaşam sürənməz).

sayğarmasa qaranğunu yaxtıdan, gündən günə batar baxtın qaybaxtın. (**yaxtıdan**: işıqdan) **(batar baxtın qaybaxtın**: korbaxlığın artar).

sayğı, birlik təməli, birlik dirlik təməli.

sayıq olsan doğru yoldan azarsan, bülbül kimi sayran dilin lal olar. (**sayıq**: sadə).

sayıqtama gələn arxa keçən sular birdə dönər arxa geri. (**sayıqtama**: boşuna düşnmə. xiyallanma). (keçən sular geri dönməz, sızan sular geri qalxmaz).

sayılı gün, sayılı pul, ötər tez, bitər tez.

Sayılı günler (gün) tez (çabuk) geçer: Bir iş için ayrılmış belirli bir süre çabucak geçer. (Bayram Özdemir).

sayın sayın gəliri, xarıltıyla gediri (para). (**sayın sayın**: azar azar).

sayın sıra hər kəs köçüb baracaq. (**sayın sıra**: novbət novbət) (hamı köçməlidir).

sayqalı dos ağrışmaz, sayqasız dos barışmaz. (**ağrışmaz**: inciməz). (**sayqalı**: hesablı). (**sayqasız**: hesabsız).

sayqı bəslə dəğər verənə, yox onaki sayqı dilənə!.

sayqı bulaq, sevgi onun ırmaqı.

sayqı damız sayqı yığ.

sayqı dəgəyən istəyin olsun, sayqır gərəyən ərdəmin olsun. (**sayqır**: sayqı edməli).

sayqı dəgəyən istəyin olsun, sayqır gərəyən ərdəmin olsun. (**sayqır**: sayqı edməli).

sayqı dəğər köçmüş, güc girən yerdən.

sayqı köçər durmaz, güc var olan yerdə.

sayqı qalxsa ortadan, sevgi qalmaz orunda. (**orunda: orunda**. yerində).

sayqı saxlar sevgini, sevgi qorar sayqını. (**qorar: qorurar**).

sayqı sayana görədir, düzgü alana görə.

sayqı sevgi doğurur,sevgi sayqı.

sayqı sınırsız olmaz, sevgi sınırğa sığmaz.

sayqı üçün əğilmə, ayaq gələr sırtın üstə əzərlər.

sayqı yoxsa sevgi ölər duranmaz. (**duranmaz**: yaşayanmaz).

sayqıdəğməz sayqılını tez tozar, yaman yoğsa yeğlərimiz tez pozar, gəzinsəndə sayqıdəğərlə gəzin, iyilikdən iyilərə yad qalsın. (**yoğsa**: qarışsa. yaxlaşsa).

sayqılıq bilik, əkdiyə ilik. (**sayqılıq bilik**: sayqıdan, hörmətdən olan bilgi). (**əkdiyə ilik**: tərbiyətə cirgə).

sayqısız sevgi duranmamış.

saylaqan qız, daza gedər.

saylaqan qız, daza gedər. (saylaqan: incədən incəyə arıyan. seçən. qurdalayan).

saylama keçən ötəni, indin yarın duran yerdə. (**saylama**: sayıb irdələmə) (günlə yarını düşün).

sayma cücə qozağda. (**qozağda**: yumurtada. çıxmamış cücə).

sayma gülüm yaşam durmuş sənin çün, başqaları sanğa görə düşünüyün düşünsün.

sayma, bağışla, unutda mutlu ol.

saynaq doslar ağrışmaz, saynaqsızlar barışmaz. (**saynaq**: hesab kitab bilən). (**ağrışmaz**: çətinlik çəkməz). (**barışmaz**: dincəlməz). (doslar ara hesab kitab olmasa dinclik olamaz). (örtülü bazar dosluğu pozar).

sayraşar quşlar, gülüşər güllər, təki gəl saluğun düşərsə sənin. (**gəl saluğun**: gəlmə xəbərin).

sazın ötdü, səmrədi qulağ, ötsün dilim, səmrəsin qulağ. (sən dinləddin biz xoş olduq, indisə dinlə bizdən, sən xoş ol).

sazsız söz olmaz, elsiz dil olmaz.

seç amaca doğru yol, əğri amac oğru yol.

seç seçimin, tut yolun, yoxsa seçim yar yolun, seçimlə olsa yolun, yaşam dadı min artar. (**yar**: aç. yarat).

seçdiklərin içindən yaşam verər pay sənə.

seçdiyin bilməz sıçdığın bilməz. (seçdiyin bilməyən yapdığın bilməz, yediyin bilməyən sıçdığın bilməz). (yaşamda bilgi (oyanıqlıq. xəbərdarlıq) təməl seçilməlidir).

seçdiyin seçim, səni seçdirir. (**seçdirir**: mütəmayiz edir).

seçdiyin yoldur çatdırar səni çatacaq yerə.

seçdiyin yolun barağı bəlli. (daşa gedən daşa çıxar, başa gedən başa).

seçdiyin yolun selinə düşməyəsin. (sel iyi kötü, daban tavan nə varsa yıxıb gedər).

seçdiyindən çəkərsən.

seçdiyivi bacarsan, üstə gəlir artığı.

seçəndə sən boydaşı, olsun iyik iç daşı. (**boydaşı**: yaşam yoldaşı). (**daşı**: **dışı**).

seçənlərin dəğərin seçimləri bəlqürür.

seçənməyib əkməyən, istədiyin biçənməz.

seçib yürüb duran barqına çatmış, özgələrin tutan avara qalmış. (**barqa**: baraq: mənzil. amac. amal) (**özgələrin tutan:** özgəsinə uyan: özgəsin güdən başqaların sözünə, yoluna baxan, uyan kişi).

seçilən yol amac bəklətər. {yol üzü dərə dağ başına çatanmaz. (**yol üzü dərə**: axarı dərəyə olan yol)}.

seçilmədən bir soluqla bir yaşamdı başlayır, çalış seçin son soluğun gələndə. (**son soluğun gələndə**: işlərivi bitin ölmədən).

seçim gücü olmadan, dəğişməyə umut yox.

seçim olsa, düşünməyə nə qaldı! (**seçim**: ərk. azadlıq).

seçim səndə. -sevgi var yakışar, -sevgi var yapışar.

seçim yoksa, seviş qalmaz.

seçim,əkim, biçim.

seçimdə sənin, keçimdə sənin. üzülsəndə budur, bəğənsəndə. yaşam beş gün durur.

seçimdir yaradan bizi, yaşadan eyni pisi. (**eyni: eyini)**.

seçimlə gələn könüllə gedmir, təpiklə gedir. (iran adlı ölkədə evliliklərin çoğunu belə bitir, sevgilər itir, könüllə kitir).

seçimlə girən seçimlə çıxmır, təpiklə gidir.

seçimlərin alın yazın yazırı, seçim yoxsa kişi yolun azırı.

seçimlərin boylu qalır yarına. (yarınıvın nə olduğun bu gün əkirsin).

seçin,əkin, biçin.

seçitlə yaşa, saçıtla yox. (**saçıtla**: şansla. düşətlə. uğraşıtla).

seçmə olan yerdə, bəğənc olur, bəğənc olan yerdə, bəylik.

sel gedər qum qalar.

sel gücü, damcıdandır.

Sel ile gelen yel ile gider: Emek karşılığı kazanılmayan para, gereksiz yerlere harcanır, çarçur olur gider. (Bayram Özdemir).

Sen ağa ben ağa, bu ineği kim sağa: Herkes kendini tepede yönetici olarak görürse, iş yapacak insanlar işlerini yapmazsa. Ortadaki işleri kim yapacak? (Bayram Özdemir).

Sen dost kazan, düşman ocağın başından çıkar: Sen insanlarla iyi ilişki kur, dost kazan. Düşman kendi ailenden, akrabandan çıkar. (Bayram Özdemir).

Sene verer talqını, (öğüt/övüt), Özü yudar salxımı. (Kordus).

Serkeş öküz (son) soluğu kasap dükkanında alır, serkeş, taşkın, davranışlarına dikkat etmeyen. Dik başlı olanlar bunun cezsını görürler. Davranışları yaşamlarına bile mal olubilir. (Bayram Özdemir).

sev qonağı hay oluban rus olmasın, tat oluban kürd olmasın. (bunları evində qonaqlayan, yürtdan olar).

sev sevəni, sevmə sevməyəni, sevməyəni sevirsənsə sürükləyib öldürər.

sevda qarşılıqsız verilir.

sevdaların çoxu güllə başlar, tikana bitər.

sevdə sevil, yaşın başa çatmadan.

sevdi könül, bilmir dönül. (**dönül**: dönmə).

sevdigim atsa məni ax demərəm, gözləməm ilqarını yoxsa əğimi mən üçün. (**əğimi**: meyli. eşqi).

sevdigin olmayacaqdır bilisən yar sənə, boşla gedsin tutu ver qoyma gedə sən sevənin.

sevdiginlə yok, sevəninlə ol, sevdigin həp istəyin verməz, sevənin bir istəyin koymaz.

sevdiğim çiçek, adı gerçek. (gerçek: gerçək. doğtur. həqiqət). (çoxlarına, tikanlıqda bitən, qoxusuz boyasız gülün adıdır).

sevdiğim çiçek, adı gerçək.

sevdiklərə yarqı, kəndizə sayqı. (**yarqi**: yumşaqlıq. mərhəmət).

sevdiklərin ərşiməsə əlivə, əlindəkin sevgilən. **(mutluluq gizi).**

sevdiklərin, istəklərin sınağın sənin.

sevdiklərin, sevinclər dəğişər, sanmadığın sandığıva ərişər (inanmadığın nələr oluşur).

sevdiklərin, sevinclər dəğişər, sanmadığın sandığıva ərişər (inanmadığın nələr oluşur).

sevdiklərinlə yaşa, sevənlərinlə yok.

sevdiqinə əğməyən, sevəninə əğənməz.

sevdim sevilmədim, aldandım. -cansızsa, sevdimsə sevəcəğim, canlıysa sevilsəm seveceğim.

sevdinsə dinən dilsöz ilə bir kərə olsun, getdikdə ası yox deyəsən min kərə olsun. (**ası yox:** bərə verməz).

sevdirəndə dil, bezdirəndə dil.

sevdiyin alsan kar olur, alanmasan kor olur. (**kar**: yaxcı). (**kor**: pis).

sevdiyin iş ucaldar, sevilməz iş qocaldar.

sevdiyin iş ucaldar, sevmədiyin iş qocaldar səni.

sevdiyin it olsa belə, sevərsən genə.

sevdiyin kimidi, sevənin kim oldu sənin.

sevdiyin nisgil olmasın, sevgilin nisgilsiz.

sevdiyin sevənin, sevənin sevdiyin olsun.

sevdiyin sevsə səni, sevgi uçar göylərə.

sevdiyin tək sevilməyi bəkləmə.

sevdiyin tutanmadın!, sevənindən qalma. (**sevdiyin: sevdiyivi**).

(**tutanmadın**: saxlayanmadın).

sevdiyin var, gedməz demə!, gedənin var, dönər demə!. (dünü boşla, günü xoşla!).

sevdiyin yoxsa!, sevənin ara. (**sevdiyin: sevdiyivi**).

sevdiyin yük ağır gəlməz.

sevdiyinə sevinən, sevilməsə sevinməz.

sevdiyinlə sevdiyin kimi ol.

sevdiyinlə yox, sevəninlə ol.

sevdiyivə çağ ayır, ayırmadan sevdiyindən çağ səni.

sevdiyivə uydunsa, sevənivi yadırqa.. (**yadırqa**: unut).

sevdiyivə ver dəğər, əlində yarça varsa, çağun qoymaz ayırmış, sevən sevənlə qalsın. (**yarça**: fürsət. macal). (**çağun**: dövrə).

sevdiyivi gizləmə, gedənləri izləmə.

sevdiyivi qaçırdın, sevənivi qaçırma.

sevdiyivi söyləməkdənsə, göstər.

sevdiyivi unutma, sevməzivi umutma. (**umutma**: umut vermə).

sevdiyivin, gördügüvün dusdağlısı olma. (**gördügüvün**: 1. gözlə gördügüvün. 1. gördügün işin).

sevəcən ana, qorağan ata. (ana sevir, ata qorur).

sevəgən könül, umutsuz olmaz. (**sevəgən:** rəuf).

sevən adam kordu, sevilən korsaq (özün korluğa vuran).

sevən aparmış, güvənən aldanmış!.

sevən dəli, sevin dəli, devran dəli, yer dəli. (sevən dəli, sevgi dəli, çağım dəli, yer dəli).

sevən diləyin bulmamış, diləyən sevgisin bulmuş.

sevən görünən aldadıb sevəni. (sevən görünən aldadar sevəni).

sevən gözlər arama, sevən könül aranqıl.

sevən ilə sevilən bir sevgini paylaşmaz.

sevən issin, atar itinə, süngük.

sevən könül acınmadan duranmır, sinsidirsə, sinsinmədən oyanmır, sevgi gülü tikən içrə ösümsür, ayrıq oxu toxunmadan usanmır. (**ösümsür**: becərilir).

sevən könül baxan gözdə gül tapar.

sevən könül baş bilməz, soğur gözdən yaş çıxmaz. (**baş**: ağıl). (**soğur**: patlamış göz).

sevən könül darıxar, tapanmasa sevdiyini, döğünər itirirsə tapdığını.

sevən könül qulağ sağırı, göz soğuru.

sevən könül sayqı gözlər sevəndən.

sevən könül sevdiyiçün dəğişər, sevilmişlər sevənlərçün dəğişməz.

sevən könül unutmaz, sevən sevincin atmaz, sevən quşa sevgi dal, sınıq dala quş qonmaz.

sevən könül üz açar, gülər üzlü könül.

sevən könül yalnızlığa yad olar, sevməz könlə yer üzüdə dar olar..

sevən könül yaş bilmir.

sevən könül, bilməz dönül.

sevən könül, kəndi özü savçılar. (**savçılar**: elçilər. elçilik edər). (bu söz, amaclı kişini, kəndi özünü çalıçığa, carçılığa, sözçülügə çağırır, özgələrdən

yalvarıclığı pəsgitir, mən' edir). (yaşamda, istək, armanların üçün, kimsədən dilənmə. kəndivə güvən).

sevən qorxu bilməz.

sevən olsa açıq göz, sonrasına qalmaz söz.

sevən olsa açıq göz, sonrasına olmaz söz.

sevən öğünər, sevməyən döğünər, yaşam durar bir açmaz, çoxda çalış açılmaz. (**açmaz**: tapmaca. yapmaca).

sevən ölər, sevgi yaşar.

sevən sayar sayqı qoyar dilinə, verməz yada kəndi yurdun, kəndi varın kiminə.

sevən sevdiyin, göz seçdiyin görür.

sevən sevənə aytamış. (**alqış**. xeyir dua). -son günüm sənsiz olmasın.

sevən sevəni acıtmaz, eski başı açıtmaz. (**başı**: yaranı).

sevən sevənin xorultusun duymaz.

sevən sevənin sözündə durar, quluğunda yürər.

sevən sevgilə yox deməz, qalxan edər canını.

sevən sevgilin itirsə dəlirir, sevgili sevənin.

sevən səni ağıysada ut, sevməyən səni balisə unut.

sevən ürək keçmişləri unutsa, sevməyinə güc tapar! (**güc tapar**: güc qalar).

sevən ürək, sağışları, qorxuları üstələr. (**sağışları**: sağıncları. iztrabları).

sevəndə, cibin, gözlərin qapat, qulaqların aç!.

sevənə vermə sevgivi, sevgiyə ver sevənin.

sevənğlər ölürmüş, sevinclər yaşırmış.

sevəni sev, sevənə sən ol yoldaş, sevmədikdən, ıraq eylə özünü.

sevəni sevən itirsə, qalmaz ışıq, tin gedər. (**tin gedər**: ruh uçar).

sevəni, söğmə, söğəni sevmə.

sevənin quluyam, sevməyənin sultanı.

sevənini unudan, sevdiyində yarmadı. (**yarmadı**: müvəffəq olmadı).

sevənivə ver könül, sevdiyindən al könül.

sevənivi unutsanda sevdiyivi unutma qıl.

sevənlər mutsuz olamaz, sevməyən mutluq duyamaz.

sevənlər sevgilərin ulca tutar. (**ulca**: uluca).

sevənlərə qul olma, sevməyəyənə düş yuxu.

sevənlərin dəngəsi yok. (**dəngəsi**: e'tidalı).

sevərəm mən səni candan içəri, hər nə çəkir məni səndən ötəri.

sevərim demək qolay, yaşamaq isə gücə güc. (**gücə güc**: çox güc).

sevərsin sev atarsın at, tutarsın tut, sevilmək gözləsən itmişdə qoy baxdın.

(**itmişdə qoy**: azmışda qoy).

sevgəməkdən, özləməkdən başqa olmaz eşqlər anlamı bil.

sevgəməkdir, özləməkdir eşqlər anlamı bil.

sevgi acı ilə ölən deyil. (sevgini acı öldürmür, yalan öldürür).

''sevgi'' adlanan yara vursa sənə, ''sevgi'' dəyil, istəkdir. sevgi yara vurmaz. (**istək**: həvəs).

sevgi ağına bozuna baxmaz, ac olan, dadına duzuna.

sevgi alar könlü içi gizlicə, çıxmağında çox dirənər üzlücə. (sevgilər könüldəykən çox sıcaq (ısıca) yaşanır, ama yaşama uyqulanması çox güc olur).

sevgi azsa, axmaz bulaq, duymaz qulaq, gözlər soğur kor qalur. (yaşma şevqi, qaynağı sevgi). (**yaşma: yaşama**).

sevgi bassa dəngini, sayqı onun dəngidir. (sevgi çəkidə əin tapmaq istəsə, sevgi dartılırsa, sayqı ilə dəhdəş (dəngdaş. həmərziş) gəlir). (demək sayqı ilə sevgi yarışda).

sevgi başındaki dad, yadda qalı, olmaz yad.. **(sevgi başındaki:** ilk sevgidə).

sevgi bazarında çal ha çaldı, eşşək dəviyə topanca altdı.

sevgi birdir, iki ürəyi qapsar.

sevgi biriylə başlar, başqasıyla sürər.

sevgi biriylə başlar, birində qalmaz.

sevgi budur, qızığı bir an, nisgili duran. (**qızığı**: ləzzəti). (**duran**: qalan. baqi).

sevgi canlılığın bəzəyi, sevimli könüllər gəzəyi. (**gəzəyi**: ovlağı. covlağası. seyrəngəhi).

sevgi cilov götürməz, kor tutduğun ötürməz.

sevgi daşı, təkin başda daşınmaz, iki könül çırpınmasa alınmaz. (**təkin başda**: **təkin başla:** bircə başla) (dənək, iki daşlı, sevgi, iki başlı). (hər nəyi dənəməyə dənək daşı, ölçüt, me'yar gərəkir. çin sevgidə iki yanlı, qarşıtlı, iki başlı olmalıdır. ().

sevgi deb bolma dilənçi ey könül, öylə bolqıl kim hamı sevsin səni.

sevgi dedik başı dibi bilinmiş, ucalığı dərinligi bəllənməz.

sevgi dedik könül dışı tapılmaz, heç bazarda satılmaz.

sevgi dediyin qanla utulmaz, qanla tutulmaz.

sevgi degən qıpı yox, dişi degən bığı yox.

sevgi dəğərin sevən bilməz, qanan bilər.

sevgi dərdi dadlıdur çəkmək olar, ayrılıq dərdi yaman çəkdin qırar.

sevgi dilə çönəndə, sınar qolu qanadı, sevgi qalar könüldə isti yeri qucağı.

sevgi doğan könüldə, yalnızlığa yer qalmaz, sevgi ölən könüldə, yalnızlığı qonaqlar.

sevgi dolça deyil gen qıslığı ölçülə.

sevgi dolsa könlüvə, yer göy itər sonsuz qapar evrənin.

sevgi donda qalmaz.

sevgi dosdu dilənişlə arama, bu iki dür sorağuşla tapılar. (**sorağuşla**: öğrənməklə).

sevgi duyqu götürməz.

sevgi duyu yox dili, onu sevənlər bili. (**sevgi duyu**: sevgi bir hissidir).

sevgi duyular, düşünülməz.

sevgi erkək dişi tanımaz.

sevgi evi könüldə.

sevgi əkdin, söygü dərdin qadası, düz tuxum yer seç biçirərsin lalası.

sevgi əldə deyil yapam qapısın, sevib sevilməyən çox olar.

sevgi ərklə deyil, sevilmə əldə deyil. (**ərklə**: istəklə. ixtiyarla).

sevgi gələr can alar, biz keçərik yol qalar.

sevgi gələr can verər, ölüm gələr can alar, biz köçəriz yol qalar.

sevgi girər baş itər. (sevgi girdi baş itdi).

sevgi gözdən su içir söz ürəkdən, gözdən ıraq sevgi batar, könül yoksa söz qatar. (**qatar**: qatlaşar. könlə yatmaz).

sevgi gözə kül eylər.

sevgi gözü könüldə olur. (başda yox).

sevgi gözü qarşılıqçı gözləməz.

sevgi gücü ölüm sıvay heç bir gücə əğilməz.

sevgi gücü, üstəlik ucu. (**üstəlik ucu**: qələbə açarı, rəmzi).

sevgi gülü tuxumsuz, söğmə kolu tikansız. (sevgi gülün tuxumu yox, söğməyin tikanı yox).

sevgi içində doğur, yanında olur.

sevgi ilə oynama, sevgini oynat.

sevgi ilə sevinc birgə yaranıb.

sevgi ilə sılaq yüz gəlsə, əlli əlli düz gələr. (**sılaq**: sıylaq: sayqı).

sevgi inamdan yaransa gərək, inam sevgidən ki yox.

sevgi inanc tanımaz, inanc sevgi doğurar.

sevgi işin qayınma, don dəğişər üz dəğişər tanınmaz. (**qayınma**: ciddi tutma).

sevgi işlə görünür sözlə səslənir.

sevgi keçmişdə qalmaz, sevgiyə keçmiş yaramaz. (eşqi, sevgini yaşamaq gərək).

sevgi kəndi gəlir, əlimdə deyil, ömür qısa, sevəni sev deyir.

sevgi kolu könüldə bitər, düşsə ələ dibindən itər.

sevgi korluğun bacılığıdır.

sevgi könüldə durur, bu dondu qurur.

sevgi qarnı doydurmaz.

sevgi qarnı doydurmur.

sevgi qarşılıqsız verilir, qarşılıqsız alınmır.

sevgi qaynaq ısığa ışığa, sevgisiz nə ısığ, nə ışıq olur.

sevgi nədir bilməyən, bayquş kimi tək ötər.

sevgi nədir, əlindəsə oyuncuq, əlindəsən qoyuncuq.

sevgi od kimi yaxar, od kimi sönməz.

sevgi odu tutunsa, öpgə ürək qavrılır.

sevgi oxu düz gedər, ovu ondan çaşmasa.

sevgi olar ölümsüz, doğmuş olsa içində.

sevgi olmasaydı, kini tanıyan olmazdı.

sevgi otdur düşdüyündə yandırar dörd bir yanı. (**dörd bir yanı: dördbiryanı**: hər yanı).

sevgi oyun götürməz, közə düşsə ötürməz.

sevgi oyun, başlanması bəllənməz, bitib batıb, sönər sönməz bilinməz.

sevgi oyun, itirəndə var qazananda, ötürəndə var, ötüşdürəndə, bıraxanda var bıraxılanda.

sevgi oyun, sindir içə ilk günün xoşluğunun, düşünmə heç son gününün qorxusun. **(sindir içə:** nuş elə).

sevgi oyun, yasasını bilgilən, sınmışisə, qalıqların silgilən. (**qalıqların**: xarabaların).

sevgi ölənə dək, hər yaşda yaşır. ama yaşla baş ara, uyar olmayınca, işlər çaşır. (**uyar**: təvafüq. munasiblik).

sevgi öz yolun gedər, sevənlər nisgilli düşər.

sevgi salsa ləngərin, sılağ onun dəngidir. (**sılağ**: sıylaq: sayqı).

sevgi savay hər nəyə var qarşılıq. (**savay**: alahı. istisna').

sevgi sayqı qovuşsa, ölməz evrən yaradar..

sevgi sayqız bitməz olsun.

sevgi sevənin olsun. (iş yiyəsin tapsın, sevən sevənin). (aşiq mə'şuqlar birbirinə çatsınlar).

sevgi sevənlə doğur, sevməzlə ölür.

sevgi seviş bir yana, hər nəyə var qarşılıq.

sevgi seviş əldə deyil, könül başlar, aşar başı.

sevgi seviş qarşılığı bəkləməz.

sevgi seviş sevənləri dəğişər, onu tutan ululuğa ərişər.

sevgi sınav götürməz. (sevginin bir yönü inancdır).

sevgi sınır tanımaz, keçmişlərin anımaz. {(anlamadı bitməz olur sev yolu. (anlamadı bitməyi yox sev yolu). (**sev**: aşq. eşq)}.

sevgi sınır tanımaz, keçmişlərin anımaz. {(anlamadı bitməz olur sev yolu. (anlamadı bitməyi yox sev yolu). (**sev**: aşq. eşq)}.

sevgi sorqu sorağ götürməz, tutduğunu gücləməklə ötürməz.

sevgi sözləşmə götürməz (**sözləşmə**: gəngəş. danışıq).

sevgi tanış görünməz darıxdığın anında, könül gəzər sevdiyin, görməz, olan yanında.

sevgi varkən könüllərə ölüm yox.

sevgi varlıqların başıdır.

sevgi verilməli yox alınmalı.

sevgi verilmiş, alınmamış. (sevgi yolçuluq sevər, yox dilənçilik).

sevgi ya içdədir, ya öndə, sevgi geri art qalmaz. (**geri art**: ard dalı).

sevgi yakdur, sevgi od, düşsə yakar canan evin!. (**düşsə yakar:** düşmüş yakar).

sevgi yalan götürməz.

sevgi yarqı götürməz. (**yarqı**: qəzavət).

sevgi yaş tanımaz.

sevgi yoxsa bilməzəm varlıq nədir yoxluq nədir.

sevgi yoxsa könül işi açılmaz.

sevgi yolçusu ol, yox dilənçisi.

sevgi yolu nisgil dolu, sonsuz qolu, sevgiligin yürüşü, sevənlərin üzüşü.

sevgi yolu sayqı sılaq döşəli.

sevgi yolu sayqı yolundan keçmiş.

sevgi yolun tapar.

sevgi yüksüz olmaz.

sevgi yükü sevən kiminə düşər.

sevgi zor götürməz.

sevgi, coşun çaydan, bərkiliyin dağdan, dərinliyin dənizdən alır.

sevgi, içdə durmalı, sevən, onu sarmalı.

sevgi, ölümdən güclüdür.

sevgi, şüşədir, tez sınar.

sevgiara tanışlığlar yoşansa, ayrılığlar qın çətin. (**yoşansa**: xoşa gəlimsə. yoşdursa. xoşdursa).

sevgidə sınan nisgilli qalır, yenidən sevən, sevisin tapır. (**sevisin**: sevgisin).

sevgidən uzaq keçirsə anın, yazma onu keçən ömürdən, daşda bitən sevgili gülün, içər suyun can könüldən.

sevgidən, sevgi doğur, sevgisiz, ürəkli olur. (**ürəkli**: ürəyi qalmış). (sevgidən, sevgi doğar, sevgisiz, umacsız qalar).

sevgidəndir doğrulur ıstıq ışığ, sevgi yoxsa yoxdurar ıstıq ışıq.

sevgidir tanrım, nərdə bulsam tapınım.

sevgilər çoxu qıraqkən doğulur, yaxınkən boğulur.

sevgilər daldı qonur aşq quşu bir duraq olsun deyərək. {çırpıntılar talaşlar çabalar aşqlar kəndimiz üçün, sevgililər dolama (mahana)}.

sevgilər günü təkinə qalan, alahı günlər dosları yalan.

sevgilər könlüdə yaranır, başda ona yular aranır. (**yular**: cilov).

sevgilər sayqı əsiri qayğı əsiri, olmasaydı nə bu nə o, sevgi olardı yellər yesiri.

sevgilər sönük, əlllər soyuq, havada donuq, buz devrinə alışsaq.

sevgilər təzə, arzular yeni, könül çarpan, ürək qocalır.

sevgilər ucuz tapılır, inanclar gücünə.

sevgilər uçurkən başqalaşar, qonurkən daşqalaşır.

sevgilər verir ışıq yaşama, sevgisiz dirik deyil yaşama.

sevgilər yaşadır, sevgisiz ölür yaşamaq.

sevgilər yenidən yaşanmır, yenidən yaranır.

sevgilər yolu buruğqan, kimi kəndinə buyruqan. (**kimi kəndinə buyruqdur**: hər kim öz bildiin edər, sürər).

sevgilərdə kəndimizlə itişdik, sevgilərdə kəndimizlə görüşdük.

sevgilərdə kəndimizlə itişdik, sevgilərdə kəndimizlə tapışdıq. (sevgilərdə kəndimizdən itişdik, sevgilərdə kəndimizlə tapışdıq).

sevgilərin gedməsini güdməyən, bəllənməmiş qadalara tuş gəlir.

sevgili göz əğri bilməz. (görməz).

sevgili göz kor olar.

sevgili könül qəmsiz olmaz, sevgisiz dəmə dolmaz.

sevgili könül qəmsiz, sevgisiz könül dəmli qalmaz.

sevgili ölür, sevgilər yaşır. (**sevgili**: mə'şuq. məhbub).

sevgili ürək kövrək olur. (**kövrək:** yumşaq**)**.

sevgilidə olma gülüm qar dənə, ayrı yağıb ayrı düşüb toxunmadan ərirsin.

sevgililər itərmiş, sevgiyə inanc itməsin.

sevgililər köngül içrə quylanırı**,** silinməz.

sevgililik bir dilək, dilənçilik götürməz, dilənçilik bir işdir, sevincilik ötürməz. (**sevincilik**: fəxr).

sevgilin gözü kor olur.

sevgilin gülü var, ciciyin, tikanı.

sevgilin qayğısı sevgi özü tək yoşqalıdır. (**yoşqalı**: ləzzətli. xoşa gəlim).

sevgilin uzaq, izini bıraq.

sevgilindən alanmasan sevdigin çək sevgivi. (**çək**: həd. dərək. qədər. əndazə).

sevgilinin qadasını alası, sevgi ocaq gözəlliklər balası.

sevgilinsə var sevgilinlə ol, sevgilinsə yox, sevgivi yaşat.

sevgilivə dərək ver, verənməsən dərib alınar, alındısa ahı qalınar. (yarıvı sevirsənsə qədir ver, qədir verməsən əlindən dərib, qoparılıb alnar, əldən verəndən son, nisgili, ahı yığılıb dağlarnar).

sevgilivə sevdigi gözlə yox, sevdigin gözlə bax.

sevgilsiz ürək köksüdə yükdür. (**köksüdə**: sinədə).

sevgim ana mən bir uşaq, vurub əzsə genə ondan qaçanmam. (**sevgim**: eşqim).

sevgin gedsə qayğırma, sənінkiymiş gedməzmiş.

sevgini acı öldürmür, yalan öldürür. (sevgi acı ilə ölən deyil).

sevgini bildir, sayqını qoru, çəkini bil. (**çəkini**: həddi. həddini).

sevgini qorumaq, onu tapmaqdan çətindir.

sevgini öğrəş quyəşnin eşqidən, hər gecə ölgi, gözəl aynı deyib. **(ölgi:** ölmüş. batmış). (**aynı**: ay ışığı) (**deyib**: istəyib).

sevgini övməyə yaranmamış bir söz, ən böyük söz yansıtır ən kiçik parçacıq dağdan.

sevgini sevən yaradır, sevgini sevməmək " yara "dır.

sevgini tapmaq, onu qorumaqdan qolaydır.

sevgini ver sevənə gör nə edər.

sevginin ardınca ol, dalınca yox. (sevgi yolçusu ol, yox diləncisi).

sevginin ilkin dadı sona qalmaz.

sevgisi olmaq, onu verməyə kimsəsi olmaq, çağı olmaq, olası (imkanı) olmaq. hərəsi bir olay, macəra sayılır. hamısı bir kişidə toplanması, tapılması umay adlanır. (**umay**: şans).

sevgisin atan kim, sevgidən atılan kim.

sevgisin paylaşa bilən mutlular.

sevgisində kəndi özün itirən, sevgisində kəndi özün taparmış.

sevgisinə nə çatır bilirəm, sevgisində nə çatışmır bilmirəm.

sevgisini sevdiyinə deyənməz, günü gəlir söğüş söyər kəndinə.

sevgisiz başda, düşüncə yurd salmaz.

sevgisiz könül gor yatağı. (solumağa yardım gözləməyən, sevməyədə gözləməz).

sevgisiz könül olmaz, yönəsiz yel.

sevgisiz könül üşəgən olur, sevgiyə dolu diləgən. (**üşəgən**: çəkingən).

(**diləgən**: istəgən. dovtələb. amator. könüllü).

sevgisiz sayqı yaranmamış, sayqısız sevgi duranmamış..

sevgisiz ürək qapısız qalır, ol ürəyi, pas kitir basır.

sevgisiz yaşam gor yaşamı.

sevgisiz yaşam, ölütün aşam. (**ölütün: ölüsün**: ölü kimi).

sevgisiz, varlığın nəyi var.

sevgivə düşdüyün seç.

sevgivi tanıtmaq üçün yaşma, sevgivi yaşatmaqla tanın.

sevgivi ver alana, yaman qalsın danana.

sevgivi ver sevənə gör nə edər.

sevgivin tümün heç nəyə vermə, hər nəyə hər kimə versən pay ver.

(**tümün**: bütünün).

sevgivin tümün heç nəyə vermə, hər nəyə hər kimə versən pay ver.

(**tümün**: bütünün).

sevgiyə aldanılan birdə inanmaz.

sevgiyə olma qul könül, çox sevdiyin alınır, külü başan savılır.

sevgiyə sayqu, sonuna qayqu, könülə duyqu gərək.

sevgiyə tapınan, sevgisin tapar, tapmmasa nisgilin yapar.

sevgiyə vergi qoyan ursansın. (**ursanmaq**: cəzalanmaq). (sevgi koşul tanımaz).

sevgiyə yad olanlar, tez atılar könüldən.

sevgiyə yad, könüldən at.

sevgiylə ölüm yarışı yaşam adlanır. (**yarışı**: gürəşi).

sevgiynən məhəbbət, yalançılar bazarında, alınar, satılar.

sevi aşqda bəkləyiş qadağ, bəkləyiş aşıqların belin qırar. (**qadağ**: məmnu').

sevi bir duzaq, ondan uzaq. (**sevi**: məhəbbət. eşq). (**duzaq**: tələ).

sevi sevənlərə, aşq aşıqlara oyunçaq. (**sevi**: məhəbbət).

sevi sevgi - (nə? niyə ? nasıl ?), götürməz!. (**sevi sevgi**: eşq məhəbbət).

sevi seviş yaşadır, aşq çəkir dara. (**aşq**: aşırı sevi. vunqunluq).

sevi yolu könüldən keçir.

sevi, sevgi, eşq, gerçək, kirtik, "donsuz" görkənə bilməz, deyilə almaz. {(**sevi**: məhəbbət). (**gerçək**: kirtik. həqiqət). (**donsuz**: simgəsiz) (**görkənə**: görsənə). ("sevi, sevgi, eşq, gerçək, kirtik" bunları nərsə ilə bildirmək, carlamaq gərək}.

sevigin paylamaq bönlük, payın almaq dilənçilik deyil. (**sevigin**: məhəbbətin) (**bönlük**: səfehlik).

sevilənlər göz önündən gedirlər, sevgiləriz könlünüzdən ayrılmaz.

sevilibsə unudulmaz, görünməmiş yada düşməz.

sevilmədən deyilənlər sevilibdə deyilməyənlər, dərd olur hərdən.

sevilmək uman, umusuq qalar, nisgilə batar, sevgini atar.

sevilməməkdən qorxan kişi, çevrəsinə toxunar. (**toxunar**: zərər yetirər).

sevilməyə alqın, sevilməməkdən dalqın olan, kəndin ucuz satar. (**alqın**: aşiq). (**dalqın**: darqın. müşəvvəş. müztərib. iztirablı).

sevilməyi gözləmə, sevmisənsə bəkləmə.

sevilməyi gözləməm, sevməksizin qalmaram.

sevilməyi gözləyəndən boşqafa elə özüdür. bunlar içiqurdlularının yemidir. (**boşqafa**: qafası boş).

sevilməyi gözləyəndən gözlən. **(gözlən**: ehtiyatlı ol).

sevilməyi, sevdirməyi, sevməyini bacarmaq, hər kişidə tapılmaz.

sevilməyib yanızlığı yaşamaq, ilan kimi, yalnızların başın əzər bu evrən.

sevim, sevgi, sevmə ayaqsız yüryəməz, qabsız duramaz, nədənsiz olamaz.

sevimin dərdinə nə sən qarısan yaki yaşıl, düşdüyü ornu yaxıb küydürübən ol keçəcək. **(yaşıl** gənc. cavan). (**dərdinə nə**: vecinə nə). (**ornu**: yeri).

sevimli söz sıcaq tutar ürəyi.

sevimsiz daşa dönər, çevrəsin əzən başa.

sevin sevilin, sevgi yaşam dadıdır.

sevinc ara, çilə kəndi gəzir səni. (**çilə**: dərd). (**gəzir**: gəzib tapar).

sevinc çəkdən aşa dəlilik, eyilik çəkdən aşa kotanlıq adlanır.

sevinc duyqudan doğur.

sevinc güvən yaradar, kin öc qalxar aradan.

sevinc irəli atar, bilik yarını yapar.

sevinc qorusan, onla ucalarsan, sevişli qocalsan, qoca deyil, cavansan.

sevinc paylaşılır, mutluluq paylaşılamaz, yaratılır.

sevinc su üzdə doğulur, gecikdin batıb boğulur.

sevinc tükənməz baylıq, istəyincə tükət. (**baylıq**: xəzinə) (**tükət**: işlət).

sevinc üzdə, mutluq içdə olur.

sevinc, şadlıq özbaşına gəlməz, bələtçi güdər, qaxınc çilə başçı aramaz, özbaşa gəlir. {açıqsa qapı, öğünc avucu güdür, qapıqsa qapı, döğünc döğməmiş girir. (**öğünc**: sevinc) (**avucu**: qarşılayan. alıcı. alan. qəbul edən)}.

sevincə qanan, mutlu!.

sevincə qulluq, seviş tanrı yoludur.

sevinclər mutluluqlar keçərmiş, qırıqlıqlar könül içrə tutuşmaz. (**tutuşmaz**: bitişməz. toxdamaz).

sevindinsə tükənməgin bilgil, bəğəndinsə bıkındığın bilgil.

sevinən, sevgisin yaşır, sevindirən, sevdiyin yaşatır.

sevini tapan qıvanar. (məhbubu tapan sevinər).

sevinməyə tezikmə, ağır işdən qaçınmağa çevikmə. (**çevikmə**: ivəmə. tələsmə).

sevinməyə tezikmə, eyku işə gecikmə.

sevinməyin bilməyən, savdiyini, sevilməyin, üzülməyin nə bilir.

sevirdi istəməyi, istəyirdi sevilməyi, sevirdi sevməyi.

sevirəm demə, ağır olur sevməyin yükü.

sevirəm demək, and içməklə yarışmaz. (**yarışmaz**: tutmaz. doğrulmaz).

sevirəm deyən dillərə yox, ağlar duran gözlərə işən. (**işən**: inan).

sevirəm deyən sözlərə deyil, ağlar qalan gözlərə deyil, könül bulduğun yapır, baş bildiyin.

sevirəm sözünü gətir dilinə, sevirəm özünü görüt gözümə.

sevirən səni deməklə nə sən ayağa düşdün, nə sevgi alçaldı.

sevirsə səni acısında ut, sevmirsə səni balında unut.

sevirsən sev, sevmisən sevmə, bu sevgidən ayrılıqdır sənin payın, axdarda tap harda çıxır sənin ayın.

sevirsin sev, verirsin ver, sevilməyi, alınmağı gözləmə.

seviş dinməz girir, bağırdıb çıxır. (**seviş**: eşq).

seviş quşu yuva qurmuş könüldə, ötür genə umut mahnısın, ötürdə yaş sönmək üzrə irəlir, ötüb keçən keçip gedən keçmişlərdə itgi yox. (mutluluq carçısı).

seviş sevinclə doğulsun, yoxsa sevinc boğulsun. (sevmə, seviş dilənçisinə görməzdən gəlmə ən iyi yanıt).

seviş söğüş birgə doğmuş, başqa yaşamış. (seviş söğüş: eşq nifrət).

seviş söğüş yasal değil, yasa dır. (**seviş söğüş**: eşq lə nifrət).

seviş sözünə yalan qatan, düz ilqarı duz çörəyi alanmaz. (**alanmaz**: dərək verəməz).

sevişənlərə atmayn daş!, olun duydaş.

sevişlə söğüş, soxuşlu döğüş. (**soxuşlu**: birbirinə keçmiş, ayrılmaz. əşdoğarlı. doğaşıq. toxuşlu. ekizli).

sevişlə sövüş birgə doğmuş.

sevişlə söyüş birgə doğur, dirgə yaşır. (**dirgə**: digər. ayrı).

sevişlər keçmişdə qalır, indivə yalnız kölgə salır.

sevişmə tez, tanışma gec tuş gəlir bizə, dinclik uzaq, ayrılıq qolay ilişir bizə.

sevişmədə əlli əlli oxumaz.

sevişmənin izi yox, çox qurcasan içi pox.

sevişməyi bacaran, unutmağın öğrəşsin.

sevmə birin tümünə, ən sevdiyin, ən acıdan kimindir. (**tümünə**: dibinə).

sevmə özləm, sevgi nisgildi verir anlamını bu yaşamın!.

sevmədiyin arpız, burnuvun dibində qoxur.

sevmədiyin düşünmə, düşündüyün sevgilən.

sevmədiyin yarpız, burnuvun dibində qoxur.

sevməğənə söykənmə, untun gedər, min qızıllıq başın bir pul edər. (**untun**: unatın. bahan. qiymətin. (**bir pul**: bir qəpik).

sevmək başqadır. -aşıqlığın sonu yok, tezli gecli yanıb küyüb ötərsən. (**ötərsən:** bitərsən. keçərsən. yoxalarsan).

sevmək bir quş durur, yuvasın könüldə qurur.

sevmək cocuqlar işi, kişilik unutmaqda. (**kişilik**: kimçilik).

sevmək çətin deyil, sevməmək qolay (deyil).

sevmək doğmadırsa, unutmaq öğrəşmılidir.

sevmək dolmaqdır, sevilmək doldurmaq.

sevmək əldə, durmaq bilməz tələsər, unutmağa çox tələsmə çağ istər.

sevmək ilə güvənmək ayrıq seçik götürməz. (ayrıq **seçik götürməz**: mütəmayiz olanmaz).

sevmək inanmaqdır, inanmaq istəmək.

sevmək könül işi nədən bilməz, başın sözü qıyın könlə girməz. (**nədən**: dəlil. istidlad) (**qıyın**: çətin. müşgül).

sevmək könül işi, qırmaq evrən peşi. (**peşi**: peşəsi. işi).

sevmək nədir bilməyir sevilməyi gözləyir.

sevmək sevilmədən, düdüklərin işidir!.

sevmək sevilmək olan yerdə, küsmək və darılmağa yer qalarmı?.

sevmək üçün ürək gərək, sevməmək üçün də. (**ürək**: qab, cürət).

sevmək üçün yürək, sürmək üçün əmək. (**əmək**: iş. çaba. ağrıq. zəhmət). (sevənə, yürək, sürənə, əmək gərək).

sevmək yaşam, onsuz boşam.

sevməkdən sevimlisi bulunmaz.

sevməklə sən dəğişirsin, sevilən yok.

sevməsəndə sən toprağı, toprağ səni çox sevər. (toprağ səni qucumaq istər) (toprağa sayqı gərək).

sevməyə gülməyə, alqışa yarqışa yan baxma!.

sevməyə nədən yox, sevilməməyə nədən çox.

sevməyə tələsən, tanımaz sevər.

sevməyən ürək, qorxunc qulu.

sevməyənlər əksik qalır, sevəgənlər butun alır. (**butun alır**: diləyinə çatır).

sevməyənlərnə dusdaq, sevənlərin bulamazlar.

sevməyi öğrədirlər, unutmaq öğrəşilir. (bilki unutmağı öğrənməsən, söğüş, iğrənc, qısqanc, cicik (nifrət) içivi qapsar, çürürsün artıq).

sevməyi öğrən, sevimli böyü.

sevməyi sevəmən, içi yoxsada, sevməyi söğəməm, sonu yoxsada! (**sevəmən: sevirəm**). (**söğəməm**: nifrət edəməm).

sevməyi yaşamaq, yaşamı sevmək deyil.

sevməyi, kordan öğrəş.

sevməyin bacarmıyan, küsməyin bilməz. (**bilməz**: bacarmaz). (hər nəyin yolu var).

sevməyin başqa dili, qarlığa ya yaşlığa baxmazda gülüm, könlə hopsa, başı başdan, canı candan, təni təndən eylər. **(qarlığa**: qarılığa. qocalığa). (**yaşlığa**: gəncliyə. cavanlığa).

sevməyin bilməyən, sevənin incidir.

sevməyin öğrəşdin, unutmağın öğrəşməsin unutma.

sevməyin sonu, sevənə ayrılıq yoxdur.

sevməyini bacaran, yaxşılığa uğramış, sevməyini bacarman, yamanlığa uğrarmış. **(bacarman: bacarmaz).**

sevməyini bacarma, sevilməyin tanıma, mutluluğun haçarı.

sevməyini bacarmaz, süycü yaşam quranmaz. (**süycü**: dadlı. şirin).

sevməyini bacarmıyan, boş başına iş açar.

sevməyini bilməyən söğüşdən almış payın. (**söğüşdən:** nifrətdən).

sevməyini öğrəşən, unutmağın bilməli.

sevməz yaşam durmağı, sevdin bitdi öt keçə, sevgi odur qaynaya, daşdan dağdan öt keçə.

sevmir səni unut gedsin yadilə, sevir səni qalsın qatda dadilə. (**qatda**: yanda).

sevmisin sevənin yok, vermisin alanın yok, doğru sözün yalanın yok, fırladıban çıpar yerə bu evrən.

sevməyənə mutluq üzü gülməmiş.

sevməyini bilməyən, qırmağını bacarmaz, darlıq günü görməyən, dinclikdə duranmaz.

sevnic tökülür sevgilə biləsən bunu, sevgilin törətməz sevinci sənə, gələn yollar gedərsiz olmaz, sevinc 'için keçməsə' doğmaz,.

sevsə könül önlənməz.

seziksiz yerdən gələn daş, yarar baş.

səbət içində görünür dolu qab, çün çıxartdın odur genə quru qab.

səfehdə susanda, ağıllı görünür.

səfehlik, düşünüb eləmax dəyir, düşünüb eləməmaxdi.

səfeyə ağıl oyrətməkdənsə, ondan ağıl öyrən.

səfeyin kiçi böyüyü olmaz.

səfeyin yolunu aç, uruşa qaç.

səfeyin, böyük çiçiyi olmaz.

səggiz sığır bəsləmə, səmiz sığır bəslə.

səhər durdun, günü görməsəndə, olduğuna inan.

səhərin uğurlu deyənlər, elə səni, günlərin bir günü, basdırıb yarıq (rəhmət) olsun deyər.

səksən doxsan bir gün yoxsan.

səlivər mala göz tikən, alıvar maldan qalar. (**alıvar**: almalı) (**səlivər**: salıvar.. sellə minə. yiyəsiz. ıssız).

sən ağa, mən ağa, inəkləri kim sağa. (hər qurumda verilər hər kəsin öz bəlli işi).

sən alma qələmi, yazma yazını, içində olan, necə yazılı.

sən atllıydın mən yürük, bir amaca yürüdük. (**yürük**: piyada).

sən baxmadan görməyəcək dan səni. (sən baxmadan gülməyəcək dan sənə).

sən baxmadan gülməyəcək dan sənə. (sən baxmadan görməyəcək dan səni).

sən bas yola ayağın, yol gərəkin baş çəkər. (**baş çəkər**: baş bilər).

sən bunu milli görüsən, sən məyə görmüsən.

sən damdırmağı öğrət, danmağı özü öğrəşər.

sən dəğməzsin, sən bir çöp, tutarsızsın, tutar bilməzsin. (**tutar**: qiymət).

sən doğru dur, əğri qadasın bulur.

sən dosları sorağla, düşman ocaq başında.

sən düşün qılın işlərivi, ötün atın acraş çapar. (**ötün**: zaman). (**acraş:** tələsik).

sən düşündüyün düşün, baş düşənin çəkər. (çevrəyi yoxlayıb düşünməsən, başa düşəni, başa düşməzsən). (**düşəni**: gələni).

sən evrənlə iyi davranmağın onun uğrunda deyil, qurd bilməzki sən onu yemək istəmirsən. (**uğrunda:** marağında).

sən ən gözəl duyqular, ən ağır sevgilər ölütü, yazıqlar sənə gedinən çağa. (**ölütü**: qatili). (**gedivən:** harcanan. xərclənən).

sən gedəli yuxu oldun gözümdə, təkcə səni görmək üçün yummalıyam gözləri.

sən gördüyün sevmisən, nə olduğun görmədən, olduğuyla yaşarsan, nə çəkdiyin görərsən.

sən gülüvü unutma, tikən gülü unutmaz.

sən gülüvü unutma, tikən unutmaz gülü.

sən kəndivi bəğəndiğintək kimsə səni bəğənəməz. kəndivə güvən.

sən kəndivi sevindirəntək kimsə səni sevindirəməz.

sən ki çıxmazdın yola, sevgin yanında olmasa, qopalırqa yolçuluq qıldın de bəs yalnız niyə. (**qopalırqa**: birdən. yügürək).

sən kimidin! yalan dolu yaratıq!. sən uydurdun yalanları, mən onları düz oxudum, qırıq ipdən, çürük sapdan mən sənə bir don toxudum.

sən könüldə dur yaşa, gözüm görməsə olar.

sən qalmağın diləndin, ol qaçmağa dirəndi.

sən qıl yaraq igitkən, yaşın keçsə devrir işin bəllənməz.

sən qoçaq oğlan ol, qaranlıq gecələr çoxdur.

sən maya qoy baxıb zad eləmə, gəlib burda yeri dar eləmə.

sən məminmləsən sevirəm, sevinirəm.

sən məndə sən mən sənlə yaşaram. -sən yoxikən, mən yaşardım olduğun, sənsiz olmaq alınmaz, nədir demək qanılmaz, sən yoxikən

başqa səni taparam, sən olmasan başqasıda tapılmaz, ürək pası açılmaz.

sən mənə nə üzül, nə süzül (qırcan). (**üzül**!: mütəəssif ol!).

sən mənə, mən sənə salığ. (**salıq: sancığ**. bağlı).

sən o sən deyilsən, kəndivə güvən. keçinmiş kiçmişləri qoğ, gələnləri qutluğa yoğ. (**keçinmiş**: ölmüş) (**yoğ**: yor).

sən ona, mən ona, boq yemək qalar ona. (sən razı, mən razı, pox yedi aradaki qazı. (**onamaq**: razı qalmaq).

sən öğrəş, aldış axar ardıca. (**aldış**: adət).

sən "sağ" ol, qalan "var" olar. kəndivə güvən.

sən sandığın sanırsın, yaşam sürər öz yolun, öz ornuvu bulmağa, yaşamdan alqıl yolun. (**ornuvu**: yerivi).

sən sardığın sar, o sağdığın sağacağ. (**sağmaq**: açmaq. boşaltmaq. çözmək). (**sarmaq**: 1. dolamaq. 1. doldurmaq).

sən sev səni sevəni, səni sevən sevəsin səni, sən sevməsən səni sevəni, səni sevən seveməz səni.

sən sev, sevilmək kəndi gəlir.

sən sevdiyin atarsan, mən sevdiyim yaşar mən, sən dediyin utarsan, mən duyduğum anar mən. (**utarsan: unutarsan**).

sən sevən değil yoldaşın, səni sevən yoldaşın.

sən sevənivi tut dişlə, sevməyənivi qapma ama!.

sən səfehləsən, ya özüvü səfehliyə vursan, ikisidə bir gəlir.

sən sən ol, el sözüylə yola çıxma. el sözüylə yola çıxan, el yolunda yorular. (**yorular**: məhv olar).

sən sən olsan tanqalıqla barışma, tanqalıqla heç bir kişi başarmaz. (**tanqalıqla**: < **tənhalıqla**. yalnızlıqla).

sən unutma gülü, tikən yanında gülün.

sən yapdığın söylə, keçəməz böylə, bir gün barış, başqası yarış, bitər ayrılıq, başlayar yenə, yeni sevgilər, əsgi bir oyun, olamam qoyun.

sən yiyə çıx öz dilən, gələn quşaq yanmasın, gəlib ötən danmasın. (**quşaq**: nəsl).

sən, dadlı bir uyal, acı bir anısın. (**uyal**: xiyal).

səndə kəndi düşünü yap. gəlcəyin dart, artığın at.

səndən demək, ondan inanmaq.

səndən ey can azdıra bilməz məni illa əcəl. (**azdıra bilməz**: münqəti' qılmaz).

səndən qalan geridə ölmüş, lap yenisi yerini tutmuş.

səndən öndə yox yazı, öz əlindi yol yazı. (**yazı:** 1. tale'. **1**. **yazır**. açır).

sənə bir sözdü deyildi, küsənin ardıca qaçma, keçəni bir daha anma.

Sənə güvəndiyim dağlar, sənə də qar yağarmış. (Araz Gunduz).

sənə sağır birinə, soğur olsan, götüvə güdən keçirir. (**güdən**: yoğun, qısa dayaq). (sənə kar birinin qarşısında kor olsan, əinə gələni yerləşdirər sənə).

sənə verdim bir öğüd, öz unuvu özün öğüt.

sənə yaxın səndən ıraq düşürsə, demək ona başqabiri yaklaşıb.

sənə yakışanı sev, yapışan olmasada. (**yakışan**: yaraşan).

sənətinə kim xor baxar, boynuna torba taxar.

səni adam edən dildir, sənə adamlıq öğrədən düşücən.

səni çox sevən səni gündə görən yox, səni gündə arıyandı.

səni görüm gözəlliyə dolasan, gözəllikdən doymuyasan.

səni qaldıranda süpürgədi, endirən də dəstəsi.

səni qutlu edən kim olası dənənmədən bəllənməz.

səni mutlu edən iç duyun.

səni özləyən ölmüş, gözləyən gedmiş, qalan geriyə, bir mənəm bir sən.

səni sevdiyim qədər, kəndimi sevseydim**,** sənə verdiyim dəğər, yarsını kəndimi verseydim.

səni sevəni ağıdursa ut, sevməyən səni baldursa unut!.

səni sevməyəni sevmək yazığlıq (bədbəxlik) deyil, hovanlıqdır, səfehlikdir. çürük iplə salıncaq, altın dərə boş quyu. (**hovanlıqdır**: axmaqlıqdır).

səni sevməyənləri başına bırax, sevənlərlə könüllü tutaş.

sənin başıva söz yoxdur, hər nə var quyruğundadır.

sənin köyün mənim köydən, bir yaşqadır ayıran, tutursa od, əsirsə yel, qalxar yaşıq, bu ayrıcı qayıran!!!. (**yaşqa: yaşıq**: pərdə).

sənin necə görünməyin necə olduğundan yox, başqaların necə baxdığından asılıdır. kəndivi düşün, özgədən üşün.

sənin özgün (sevgin) düşüb, göğsüm ara, od tütür.

sənin üçün dəğişən, səni satar, başqasiylə dəğişər.

Sənin yaşın böyüksə, mənim də yolum böyükdür. (Araz Gunduz).

səninlə olmayıb üzündə sökən, səninlə olub arxada sökəndən qorx. (**biri ilə olmaq**: əməkdaşlıqda, işbirliyində olmaq). (**üzündə sökmək**: gizli olmayıb açıq sözün deyib ilişdirən).

sənlə olan sənlə keçir, sənə ola sənə keçir.

sənsiz evrən tanışım, sənli günə alışmağa çalışdım.

sənsiz günüm aya dönər, xoşluq gedər vaya dönər.

sənsiz ötün ötmür, sənlə ömür yetmir. (**ötün**: çağ).

sənsizləsəm tayın bullam, yaxcı pisin yolun billəm.

sənsizligə alışmaq nə qolaymış, inanmayıb sanmadığım olaymış.

sənsizliyə yügürən bitər, sənsizliyi atan bitirər. (**atan**: tərk edən).

sənsizliyi unutdum, indi keçən xoş günlərin eşqinə.

səpəndə sandıraş olsa, ötgündə (biçində. xərməndə), irtiş olmaz. (səpəndə sanış, biçəndə barış). (səpən gülüşü, biçənə qalmaz).

səpəndə sandıraş olsa, ötgündə (biçində. xərməndə), irtiş olmaz. (səpəndə sanış, biçəndə barış. - səpən gülüşü, biçənə qalmaz).

səpici (aşçı. dəriçi. dəbbağ), sevdiyi dəriyi yerdən yerə endirər. (çırpır).

səpidə izin olsun, bükətdə üzün olsun. (**səpidə**: əkində. tarlada). (**bükətdə**: xərməndə. xırmanda).

səpilən dən yığılır, deyilən söz qaçınır. (atılan ox qayıtmaz).

səpilməyən toxum göğərməz.

sərçə səmirsədə, batman olmaz.

sərçə, yağış yağsa balasın, dolu yağsa öz başın qoruyur.

sərçədən qorxan darı əkməz.

sərmaya: damızlıq. anamal. aramal.

səs ışıq tanımaz, göz qaranqunu danmaz.

səssiz gizli sevənlər, dinməz inlər ölərmiş.

səvərsən səvilməsən, səvərlər səvənməsən, sevdiyinlə yox, sevəninlə ol.

səyasətdə düzlük, oğurluqda uğurluq olmaz.

sıça sıça gedən, yallıya yallıya gələr. (iş, sorum altda özün batıran yellənə yellənə geri dönər).

sıçan bacanı gəzir, kişi açarı.

sıçan balası torba deşər.

sıçan çıxdığı deşiyi tanıyar.

sıçan görəndə pələngə dönən pişik, pələng görəndə, sıçana dönər.

sıçan keçər, yol salar.

sıçan kimi, bir gözü var dəlikdə.

sıçan kimi, hər dəliyə baş vurur.

siçan pişik qorxusundan kiçik qalır.

sıçan sığmaz ininə, qəlbir bağlar belinə.

sıçan yaşır, seçən yaşır karvan durmaz yolundan, seçimli dur yaşamda, dən götürqıl yoldaşın. **(dən dənğ**: uyqun).

sıçan yolun tapsa izlər, tapdığın oğurlayıb gizlər.

sıçan yuvasıda ışığın gündən alır.

sıçandan törən (törəyən) torba dələn olur.

sıçanlardı çıxan taxda, pişiklər olmayan yerdə.

sıçanotu ila qarnıvı yarağlayıb (doldurub), sağlıq gözləmə.

sığar məndə iki cahan, mən bu cahana sığmazam.

sığın amaca dönmə araca.

sığınma daxmava, orasında gün çıxmaz, gül bitməz, günəş çıxıb, yetər kəndivi sərə ver, tək bıraxma dosduvu, uzandı əl tuta ver.

sığır sayqı sılamaz. (**sayqı sılamaq: sayqı sıylamaq**: kəsinliklə hörməti iyi qarşılamaq. qatı ehtiram, gözətiş göstərmək).

sığır sılağ götürməz. (**sılağ**: saya. hörmət, ikram).

sığır su içər süt törür, ilan su içər ağu.

sığır sütü ağızdan, kişi özü könüldən, kişi sözü başından.

sığırın sütü ağzında.

sığırın sütü, yılxının gücü ağzından. (**yılxının**: heyvanın).

sığırlı el, ac qalmaz.

sığmaz dilə sözə anlığa, yığlaş gülmək, sevişmək. **(anlığa:** dərkə). (**yığlaş:** ağlama).

sıxıntıdan qorxan, qorxudan sıxıtınya düşər. (**sıxıntıdan**: məşəqqətdən. əzabdan).

sıxsa ayaq başmağın, dünya başa dar gələr.

siqaretlə savaş olar, gürəş olmaz. (**gürəş**: gücəşmə. yarışma).

siqarın, tüstünün gözəlliyənə söylənmiş. -çağında ağrıları kölgəlirdi o, indi kəndi dönüb ölməz ağrıya. (**gözəlliyənə:** gözəlləməsi. tə'rifində).

sılağ təkin yüz gəlsə, sılağ gəlsə əllidir. (**sılaq**: sıylaq: sayqı) (sayqı, hörmətsiz sevgi yaramaz).

sılağa gücün yoxsa, sıylama dilin bolsun. {(**sılağa**: **sıylama** əzizləməyə. təkrim edməyə). {birin əzizləməyə olasın yoxsa, dadlı dilivə nə gəlib. (**olasın**: imkanın)}.

sılağa sılağ, qınağa qınağ. (**sılağ**: hörmət). (yağırsa yağ, yığırsa yığ).

silah sahibinə düşmandır.

sılaşıq iki başlı. (**sılaşıq:** 1. **sıylaşıq**. sayqı dəğər vermə. 1. **sıylaşqı**. kef əhval).

silən keçmişin izin, öz elində yada qalar, ağlamaq bilməz gülməyin itirən, dilin cayıb gülüncə qalar.

sili bıraq sini tut. (zahiri bıraq batini tut). (qapını bıraq, qarına keç) (**qarına:** içəri) (qapıda durma, qarına keç). {baxar dona, qalar dona. (bax dona, qal dona). (baxda dona, qalma dona)}.

sınağda sınmağından yox, qaçmağından qorx.

sınağlardan sına sına keçirik.

sınaq sınmaq deyil qalxdınsa, sınmaq sınaq deyil qaldınsa. (**qaldınsa**: yatdınsa).

sınalğan sınaq, min pitikdən irdək. (**sınaq**: **sınağ**: təcrübə). (**irdək**: əfzəl. irəli).

sınamasa arsıqar, saqınmasa utsıqar: dənməsə aldanar, gözləyib diqqət edməsə utuzar.

sınamasa, ər sınar, sağınmasa utsuqar.

sınamazlar, sınmamış.

sınan sevgi iz qoymamış bıraxmaz.

sınan şüyşə, sınan güvən, tutmur yama.

sınan yerdə çox çalışma, qalanında itirirsin. (ölümü görməyən kəndin itirir).

sınanamadan qorxmayan, sınınmadan qorxamaz, sınınmadan qorxmayan, qılınmadan arqamaz. (**arqamaz**: yorqamaz. yorulmaz).

sınanmamış güvənc, yürgünməmiş at kimidir.

sınanmasa bəllənməz, yumuşmasa bellənməz. (**yumuşmasa**: işlənməsə, yumuşanmasa). (bazara çıxan görür baxtı açıqdır qapalı).

sınanmıyan sınsa sındırar.

sınar evin oxları, ev başdağı (başqanı) ölürsə. (**ox:** dirək. situn).

sinə vardır sin kimi, girmiş olsan çıxılmaz. (**sin**: qəbir).

sinədə qalan sinədə gedər. **(sinədə:** qəbrədə).

sinəklə, sınaq olmaz.

sınğırmadan sınanmaz, sınanmadan açılmaz. (**sınğırmadan**: içinə girib uğraşmadan).

sınıb qalma, yıxıldın dur.

sınığ baş, tanıq (şahid) götürməz.

sınıq könlə, ısıtan bir söz, min tonqala dəğər.

sınıq könül çağlamaz, kəndi düşən ağlamaz. (**çağlamaz**: gülməz).

sınıq könül umut qılma boşuna, gözəl gözdə, gözəl üzdə yox ilqar.

sınıq qapda su qalmaz.

sınıq qolun tutayım, qırıq könlün alayım, nə istəsən olayım, kölən olum qulunmu?. {sevən sevənə (oxu -dəli dəliyə)}.

sınıq ürək tapılmaz, sınıxçı var olan yerdə, sınıq qalırda ürək, beyinçi gay olan yerdə.

sınırsa könlü bir kəsin, bitmiyəcək qırıqlığı heç kəsin. (bu söz yalandır. kişilər ayrı, könüllər başqa).

sınırsa qəfəs, uçulur içi, tükənir gücü.

sinirsə qızıq canına can çıxınca durar. (**qızıq**: sıtma. tov. təb).

sınmadıq, qaldıq, dirçəlib aldıq.

sınmağı geriyə baxan görür, irgəli baxan durmadan yürür. (**sınmağı**: eşeki. şikəsti). (**irgəli: irəli**).

sınmaqdansa əğil. (yer var sınmamaq üçün əğilməlisən).

sınmayıb qalarıq, dirçəlib alarıq.

sınmış olsa keçmişin, tulla uzaq verilsin, ulduzların ələnsin, yeni tapış dənənsin. (**tapış**: şans).

sınsa sınır, qalmaz sayıq. (**sayınğ**: sayıq. sıyıq. sayqı).

sinsiyərmiş aldışından ayrılan. (**aldış**: alışqanlıq. adət).

sıpdırmadan izini, qoğdu yağını, oydu gözün qarasın, yırtdı ağını. (**sıpdırmadan**. **sapdırmadan**: itirmədən). (amansız duşmana, aman vermədən, qoğdu, düşmanın yolatasın qırıb, tılısin dağıtdı).

sıpdırmadan izini, qoğdu yağını, oydu gözün qarasın, yırtdı ağını. (**sıpdırmadan**. **sapdırmadan**: itirmədən).

sır alan mindi, sır verən birdə, yox.

sır saxlama ürəkdə, sırlı könül yaş qapır. (**yaş qapır**: tez qocalır).

sıra çatar qutsuza, güllük dönər otluğa.

sıra çatmış qutsuza, güllük çönər küllüyə.

sıra çatsa qutsuza, utsuz çıxar qarşına. (**utsuz**: utanmaz).

sıraz olursa işin, sapıq sapan aşar olur. (**sıraz**: mürəttəb). (**sapıq sapan:** toğan boğan. dağ dərə. əğri üğrü. dağ daş).

Sırça köşkte (büyük ve gösterişli ev) oturan, komşusuna taş atmamalı: Küçük bir dokunuşla, büyük zarar görecek kişi, üzerine düşmanlık çekecek davranışlardan kaçınmalıdır. (Bayram Özdemir).

sirkə qalsa acıyar, bilək qalsa çürüyər, bilik qalsa yeyilər (**yeyilər**: azalar). (Bekleyen yiyecekler belirli bir zamandan sonra bozulur, insanlar yaşar ve olürler. Biligler kalırsa yaşar gelişir ve insanlığa hizmet eder) (Özdemir).

sirkəşirə, sirkədən dadlı olur.

sırlar haçarı söz durur, biliş dilərsin, dil ara.

sırlar haçarı söz durur, bilmək için dil ara. (dilivə dərək dəğər biç). (başlaq söz, bitlək sözdür. dildə söz üçün. dilsiz, sözsüz. dilsiz ellər, ölməyə **büktüm**). (**büktüm**: məhkum).

sirr ucunu söz açar.

sirri birinə, sorağı (sualı) mininə.

sırrın bilmədik atın sırtın sıypama. (**sırrın**: için). (**sıypama**: oxşama).

sirrivi dosdan qıy, dosduvu yağudan (düşmandan).

sırt çevirməsən, sırtdan yeməzsin.

sırtıqdan qorun, -üz verirsən asdarın, gün verirsən ayların, bez verirsən arşının (istər)..

sıyan (orucun qıran, yeyən) ki uğruya (xeyr edmək) pisin (şərri) sava, yeğ oruc tutandan ki dünya qova.

siyasət yoldu yolağ, bilməz onu kordu çolaq. (**yolağ**: tədbir).

sıylarqa nəyin yoxsa, sıypayqa dilin olsun.

siz daş qoyan yerə, mən baş qoyaram.

sızlanma könül səndə çoğundan, ki yapan nərsə əlində,yox onunda, yorqun kimilər dincə otursun, düşmüş kimilər qalxa durunsun.. (**sızlanma** şikayətlənmə). (**çoğundan**: fələkdən). (**kimilər**: kişilər. adamlar).

slın ayran, neslin ayran, kokarsa yağ kokar. bal kokmaz. her şeyin aslına döneceği anlamında. senin aslın kötü, ne kadar iyi görünsen aslına dönersin, ben iyiyim aslımda iyi. (Bayram Özdemir).

soğan acı olsada, sırfada öz yeri var.

soğan doğrar göz yaşını soğurar.

soğur gözdən yaş çıxmış, çin ürəkdən ağlamış.

soğur nə bilir sağura öğrətsin. (**soğur**: kor). (**sağur**: kar).

soğur sağur savul. (kor kar rədd ol).

soğur sağur, savul. (kor ol, kar ol, rədd ol).

soğura nə bükün nə oğna, sağura nə öt nə sarğay. (**soğura**: kora). (**oğna:** oyna). (**sağura:** kara). (**sarğay**: oxu. şarkı söylə).

soxma başın kolluğa, sanma görən yox səni. {kola soxmuş tülkü başın, gizləndiyin sanmış. (tülkü başını kola (tikanlıqa) soxanda, elə bilir onu heç kim görmür}.

soxma qonağ olunmaz, soxma qonağdan qorun. (**soxma**: basma. zoraki).

soxuda su döğülməz, ələkdə su daşınmaz. (**soxuda**: həvəhdə. həvəngdə).

soxulan bir soxuda soxqa kimi bil qısılar. (**soxu**: çivi, burqu kimi soxulan hər nə). (**soxqa**: soğaq. deşik. soxulan baca). (**qısılar**: **sıxılar**. zora düşər).

soxumlanmamış topraq, tuxum götürməz. (**soxumlanmamış:** şuxumlanmamış) **(şuxumlamaq < soxumlamaq)**. (sürülmədən əkilməz**)** **(**təpilmədən əkilməz).

sol əlin soyuq unda, sağ əlin sarı yağda. (gəlinə söylənir).

sol göz görəni, sağ göz anar.

sol gözlə görən, sağ gözümlə anılır.

solan güldən tomurcuq, qalar açar yazların.

soldan vurur, sağdan biçir.

soluğum solmuyacaq, solmuş olursan səndə, yaşamım bağlı deyil sən solusan ya solasan. (kəndivə güvən).

soluk varikən, çəkiləməyən acı yoxdur, undulmayan xoşluq.

soluq varca, umut var, yarın varca, umuq var.

soluq varkən, solmamış demək.

solumağa yardım gözləməyən, sevməyədə gözləməz. (sevgisiz könül gor yatağı).

son bilməmiş uymallıqla kahıllıq. (**kahıllıq**: cahıllıq) (**uymallıq:** avanallıq. təəssüb. mütəssiblik).

son çağan gələr, əzreyil öz canın alar. (**son çağan:** axirəzzaman. axirüzzaman).

son kərə olsun belə, üz gözüvü o yıxar, heç acımaz ağ kələtə çulqalar. (**kələtə**: kəfənə).

son ökünüş yaramaz. (**ökünüş**: püşmançılıq. peşmançılıq). (**yaramaz**: bərə verməz). (keçmişə qınaq yaramaz).

son peşmanlıq assı (asar. fayda) edməz, kəsilən baş geri bitməz.

Son pişmanlık fayda vermez (etmez): Bir iş düşünülmeden yapılırsa, insanı ya zarara ya da dönemeyeceği bir çıkmaza sokar. O zaman pişman olmak da bir şey değiştirmez. (Bayram Özdemir).

sonda gələn, qapını örtmüş.

sonğuku püşman, ötə düşman. (**ötə düşman**: oyana keçə bilməz. aşa bilməz. kara əlməz. nərpə yapamaz). (sonku peşmançılıq bərə verməz).

sonku peşmançılıq bərə verməz. {sonğuku püşman, ötə düşman. (**ötə düşman**: oyana keçə bilməz. aşa bilməz. kara əlməz. nərpə yapamaz)}.

Sonradan gelen devlet değildir, Her şey ihtiyaç duyduğunda, yararlanabileceğin çağda gerekir. İş işten geçtikten sonra gelen zenginlik, kısmetin bir anlamı yoktur. (Bayram Özdemir).

sonsuz arzular ölümlə bitir. (sonsuz arzular uçurum yolu).

sonsuz arzular uçurum yolu. (sonsuz arzular ölümlə bitir).

sonsuz dözüm ölümə bitir.

sonsuz olan yol batsın, başsız duran el batsın. (sonsuz olan yol batsın, başsız olan el batsın).

sonsuz umut kor elər. (sonsuz umut ölümə götürür). (sonsuz umut olanlardan azdırar, ölüm yolun gəzdirər).

sonsuz umut olanlardan azdırar, ölüm yolun gəzdirər. (sonsuz umut kor elər). (sonsuz umut ölümə götürür).

sonsuz umut ölümə götürür. (sonsuz umut kor elər). (sonsuz umut olanlardan azdırar, ölüm yolun gəzdirər).

sonsuzluğa inanmam, onsuzluğa inandım, böyləsinədə qandım. (**qandım**: razıyım).

sonsuzluq onun sonudur.

sonu boş yaşamı, dolu, sən yaşa.

sonu boşa uğradı oğulda baş olmasa, ata yurdun tez danar anadilin unutsa. (**boşa > puça)**.

sonucun güdən batırlığa çatmadı. (**batırlığa**: qəhrəmalığa). (quşqu inancın, güvəncin sinin qazar). (**sinin**: qəbrin).

sonuncu an, yaman, ölüm, birdə acı, güc basar.

sonuza umut bəsilməz, daşlığa tuxum əkilməz.

sora qıl sən öküzə boş qatısa yer durumu. (işi qılandan sor).

sora sora bilgin artar, dama dama dəngin artar. (**dəngin**: ağırlığın).

Sora sora kabe (Bağdat) bulunur, İnsan bilmiyorsa, uzak, bulunması güç olan yerler bile sorula sorula bulunabilir. (Bayram Özdemir).

soran yıxıldı qalxdı, sormaz yıxıldı qaldı.

soraş, sözün yarısı, yanaş, sözün barısı. (düz sorqu (sual), cəvabın yarısıdır, düz cəvab, sözün hamısıdır).

sorayan yetər, soramayan itər.

sorğu verən sorağ tapar. (sual verən cəvab almış).

sorqu - sual, göydə deyil, yerdədir.

sorqu yoxkən, sorağ yoxdurur. (**sorağ**: cavab).

sorma kişi kimliyin, söyləşirsə bəllənir!. (**söyləşirsə**: danışırsa, danşığa gəlisə) (kişi sözündən bəllənir).

sormayan başın gora soxdu, sorayan açılmazı yordu.

sormaz adın, sormaz yaşın alır canın, sən yığdığın, tökər dünya, səpər dünya.

sorulsa söz baş şişər, sorulsa su, iç şişər.

sorumlarız çözülsün, açılmasa dözülsün. (**sorumlarız:** düğünləriz).

soruşan dağlar aşar, soruşmayan düzdə çaşar.

soruşan taptı, soruşmayan itdi.

soruşan, dağı aşmış, soruşmayan, yolu çaşmış.

soruşan, dağı aşmış, soruşmayan, yolu çaşmış. (soruşan, dağlar aşar, soruşmayan, düzdə çaşar).

soruşan, dağlar aşar, soruşmayan, düzdə çaşar.

soruşdu halın necədi, söylədi: - baxtı çönmüşün, halı nec olar.

soruşdular: baxt istəyirsin, taxt. – söylədi: baxt olsa, taxt gələr.

sovğacda para, qumlluqda su durmaz. (**sovğacda**: müsrifdə).

sovğacda para qalmaz, qumlluqda su. (**sovğacda**: müsrifdə).

sovğat dediyində, kiçik böyük yoxdu.

sovqasa mal tez tükər, qazandınsa qut tökər. (**qut tökər**: bərəkət gətrər).

sovqatın bir adı var.

soydum əkdim, soyundum əkdim, genə soyuna çəkdi.

soylu xoruz, yumurtada ötər.

soyuq aş odlu qazan. (içi dışı əş olmayan. içi dışı uyuşmaz. içinində olmayanı üzdə artığına göstərən).

soyuq davranış üşüdür könül. (**üşüdür**: çəkindirir).

soyuq dəmir döğülməz.

soyuq girsə arıya, ipək sular qat olur, tam istilər yad olur.

soyuq ildə taxıl cücərər, yağışlıqda, ot.

soyuq söz ürəyə yetməzdən buza dönər, sıcaq söz boza. (**boza**: şəraba. məlhəmə).

soyuq söz, ürəyə çatınca, buza dönər.

soyuq suyu yanar odlar qaynadar, qaynab daşırsa sular, yanar odu uçdurar. (**uçdurar**: söndürər).

soyuq təndir kündəsinə küt deyər. (soyuq təndirə yoğur (xəmir) yapışmaz). (hər gərəyin gərəci var). (**gərəci**: gərəkli ayqıtı).

soyuqdan keçinən ilan, birinci onu ısıtan kişini çalmış. (**çalmış**: çaqmış).

soyun danan, küyməmiş yanar.

soyun dandı, demək yandı.

soyunmuş sudan qaytmaz, gəzingən yağıdan qaytmaz. (**qaytmaz:** qorxmaz). (soyunmuş olan sudan qorxmaz, kəzləyən, nişanlayan düşmandan qorxmaz).

söğə söğə sevilən, sevə sevə söğər.

söğəndə sevgi ocağı arama, sevmiyən söğürsə, qınama.

söğmə tikanı, sevgi gülündən su içər, orax gəlsə, kollu güllü biçər.

söğmənin tikanı yox, sövmənin tükanı yox.

söğüddən maşa, se.... paşa çıxmaz.

söğüşə, sağur! (sağruq ol). (yamana kar ol. yamana qarşı qulaqların tıxa).

söğüşlə seviş bir odada yaşanmaz. (**söğüşlə seviş**: nifrətlə eşq).

söğüşləşən yağışlar. (yamanlaşma sonunda düşmanlığa bitər).

söğüşüb tutuşub, otra don didişür.

söğüşüb vuruşub, ortada don didişir.

söğüt sulına, qayınğ qasına. (söğüd sulu, yumşaq yeri sevər. qan ağacı qas, bərk yeri).

söğüt sulınqa, qayınq qasınqa. (söğüdə yumşaqlıq, sululuq (ölülük, tərlik), qan ağacına qasnalıq, quruluq, qalınlıq yaraşır).

sökəl sökün sağ bilməz, acın qarnın tox bilməz. (**sökəl sökün**: xəsdə ağrısın).

sökərsə dan, sökülməz ürək, çox iş qalır, görülə gərək. (iş kişisindən asılıdır).

sökərsə dan, sönər gecə. (dan sökdü, yandı gecə. örtük düşdü, dan söküldü. başlıq düşdü, baş göründü. taqqa düşdü, kəl göründü).

sömürgəçiliyə ikisi gərək. -bolluca kotalan, azacıq danqalan. (**sömürgəçiliyə**: müstə'mərəçiligə) (**kotalan**: kahıl. cahil. hovan. qanmaz. axmaq). (**danqalan**: **döngələn**. kökün danan. xain).

sönməz uçmaz bolan, parlab duran sevgim.

sönük ocaq körük, kahıllıq ışıq sevməz.

söyənmədim evrənə yara mən, bitirdim işi ölüm yetmədən. (e'tibar edmədim dunyağə dosda mən, əcəl gəlmədən işlərimi bitirdim).

söykəndiyin sevməyən, sevdiyinə söykənməz.

söykənişən yıxılmaz, yalanışan ac bolmaz.

söykənişən yıxılmaz. (**söykənişən**: dayanan. dayağı olan). (kəndivə güvən, bırak söykənişi unutma). (**bırak**: ama).

söykənməqıl soyuva, tovun gedər suyuva, bacar edin yaşamı, bayındırlıq yazıva. (**tovun**: gücün).

söyləb durma dedin başla. (**dedin başla**: düş işə).

söylədi kimi yavlak sevərsin, didi: - səndən başqa sevdiyim kim olar yalaq.

söylədiğin bilgilən, hər bildiyin söyləmə. (nə sözlüsün bilgilən, hər bildiyin söyləmə).

söylədin öylə, adalın eylə. (**adalın**: aynısın). (söylədin öylə, dediyin eylə).

söylədin öylə, dediyin eylə. {söylədin öylə, adalın eylə. (**adalın**: aynısın)}.

söylədiyin yapdıran, istədiyin qoparan.

söyləmək gümüşsə, susmaq süm altun. {gəpləməklik gümüşsə, gəpləməzlik süm altun. (**süm**: şümş)}.

söyləməzdən, dib oyla. (ağzuvu açmadan, işin, konunun için, dibin düşün, açıqla, qan).

söyləməzlik söyləməkdən güc basar.

söylənəcək varsa sözün de gəlsin, saklı sözlər, gizli üzlər kölgələnər iç boğar.

söylənməsə duyulmaz.

söylənməzdən duyumaz.

söylər ağız durmasın, görən əllər armasın.

söyləsəm daşdı tutamaz, susursam, könül cıdamaz. (**cıdamaz:** dözməz). (deyirəmsə, qanmazdı, anlamır, demirəmsə ürək dözmür). (tanrım kimsəyi düşünməz ilə, küt ilə salmasın, tuş edməsin).

söyləsəm etgələməz, sussam dingələməz. (desəm könlün etgiləməz, deməsəm könlüm dincəlmir).

söyləsən ellər ara ayqıl oğul, bolqasız gəpdən, ucuz sözdən çəkin!. (**ayqıl**: 1. söylə. 1. ayıq ol). (**bolqasız:** ucuz. bihudə. boş. puç.. ola bilməyən).

söyləsən söz qəmbasan söylə açılsın könlümüz.

söyləvçi çaşırsa ağız, dinləvçi başlı gərək.

söyləyən dərdin, dərman bular, söyləməz dursa, it kimi ular. (**it kimi ulamaq**: pis günə qalmaq).

söyləyən var, söylədəndə.

söyləyənə yox, söylətinə bax.

söyləyiş gümüşdürsə, dinləyiş qızıl sayılmışdır.

söyləyücü qanmazun, dinləyici kar gərək. (**qanmazun**: qanmazsa).

söyüncsüz salıq gəlsə, güc gələr. (**salıq**: xəbər). (**söyüncsüz: sevincsiz**. muştuluqsuz. müjdəsiz).

söz açılsa aydınır, sevgi sözsüz yartınır. (**yartınır**: ışıqlanır). (sevgi, eşqin genişliyin, dərinligin açan söz yaranmış hələ).

Söz ağızdan çıkar, Mert olan, sözüne sadık insanlar sözlerini tutarlar. Sözlerini tutmaları kayt gamet gerekmez. (Bayram Özdemir).

söz ağızdaykən qulundur, çıxdısa, qulusan.

söz ağızdaykən ləpədi, eşiyə çıxdı dəvədi. (**ağızdaykən: ağızdakən**).

söz ağrısın ər çəkər, yük ağrısın nər çəkər.

söz anası qulaq, su anası bulaq.

söz artığı baş pozar, duz artığı dad pozar.

söz atanındı, iş edənin.

söz atası könül baş. (**baş**: ağıl).

söz aytanda, oylab ayt, irtəsini boylab ayt. (düşünmədən söz demə).

söz başla deyilir, özlə yox. (**özlə**: öz ilə) (**öz**: nəfs).

söz baylığı dil görkü, doğru sözlük ər görkü. (**baylığı**: zənginliyi). (**görkü**: göyçəkliyi). (**tuğra**: doğru).

söz biliyə yad deyil, əl biləyə.

söz bilməyən elbaşı, el başına, yov çəkir. (**yov çəkir**: yamanlıq, bəla, düşman gətirir).

söz bir olsa, kərən sındırar.

söz bir olsa, kərən sındırar. (**kərən**: çox gur olan nərsə).

söz çağında, dəmir tavında.

söz çırağı yanarsa, qanat gərməz qaranlıq, söz çırağı sönərsə, gərməz qanat yaranlıq. (**yaranlıq**: ışıqlıq. yağtılıq).

söz çırağı yanarsa, qanat gərməz qaranlıq, söz çırağı sönərsə, gərməz qanat yaranlıq. (**yaranlıq**: ışıqlıq. yağtılıq).

söz danışıqdan keçər. (aytışıqdan söz doğar). (danışıq, qonuşuq, gəpiş olan yerdə söz, oy gəlişər).

söz danışsan söyləqıl sən başqasın, dinləyən versin könül assın qulaq. (**başqasın**: ə'lasın).

söz daşıyan, ara pozan.

söz dediyin, yaxcıda olur, yadlıda (pis) olur.

söz deyən az olur, çeyneyen çox. (çox kişi özgələrdən öğrəşiklərin (tez, teori kimi bildiklərin) yansılır, bildiyin, düşündüyün demir).

söz deyəndə usdadı, iş deyəndə xəsdədi.

söz deyəndə usdadı, iş diyəndə kəstədi. **(kəstədi: xəstədi)**.

söz dəğəri, qılıc kəsəiylə ölçülür.

söz dildən, oğul beldən, iş əldən.

söz dinləməz baş yeyər. (**baş yemək**: öldürmək).

söz diyənin dustağı, diyən sözün dustağı.

söz düşüncənin güzgüsü.

söz evrənin dayağı, birelligin yarağı. (**birelligin**: bir millətliyin).

söz gəlsə deyər, aş gəlsə yeyər.

söz gücün deyən ağızdan yox, duyan qulaqdan sor. (**duyan**: eşidən).

söz gücün deyən yox, duyandan sor.

söz gümüş olsa, iş altın.

söz kəsəni qılıc kəsməz. (sonuncu yol, qutarıcı yol, sözdür).

söz kişinin baylığı. (**baylığı**: varı yoxu. devləti) {kişi için, söz açar. (**için**: 1. içində olanı. 1. ruhun). } (kişi kimliyin söz açar).

söz könül açar, bilgi beyin. {uçsa ışıq, ışıqlı göz kor qalır. (**uçsa**: sönsə). (lap iti görən göz qaranlıqda kor kimidir)}.

söz köz deyil dağlayır, piçaq deyil doğrayır.

söz qalası, dil qalası. (söz qalır, dilə qala olur).

söz quşdur, buraxsan uçar geder, geri gəlməz.

söz quşdur, buraxsan uçub gedməz, xiddəyindən yapışar.

söz mənim tinim. (**söz**: dil) (**tinim**: ruhum).

söz odur candan qopa, könlə sığa.

söz odur dildən qopa, könlə hopa.

söz ola kəsə savaşı, söz ola bitirə başı. (söz ola baldan dadıl, söz ola ağıdan qatıl. - söz ola can dərmanı, söz ola bağır yarı. - söz ola qaymaqla bal, söz ola odla alav).

söz oranın əkənlər, söz varın ondan duyub, söz üstünə söz qoyub, söz yapısın tikənlər. (ulu, bilgəli yazarlara bağışlanan söz). (**oranın**: miyzanın). (**ondan: onğdan** haqdan).

söz sözü çəkdi yol uzandı, verən olmadı, qol uzandı, ayaq getdi baş usandı, yalan dünya yalan dünya.

söz sözü çəkər yol usanar, qanan yoxsa söz uzanar, verən yoxsa qol uzanar.

söz susan yerdə, müzük başlır.

söz tanrımız, söz bilgimiz.

söz torbaya girməz.

söz tutanın, inci yığanın (dır).

söz uçar, açıq qulağa qonar.

söz üzatma dinləməz söz, axmağın yokdur qulağ.

söz var cana düzür (sınır), söz var canı üzür.

söz var desən qatar, söz var deməsən yatar.

söz var evdə gəzər, sözdə var eldə.

söz var iş bitirir, söz var baş itirir. (söz var iş bitirir, sözdə var ağıl itirir).

söz var söz var, birini, dinləmək çətin, birini, demək çətin.

söz var sütlac, söz var qırpaç, söz var gələr keçər, söz var dələr keçər.

söz verib tutmamaq, kəndi özün saymamaq.

söz verib tutmayasan çox mandır, nə gözəlki veribən kəndi sözündə durasan.

söz verir, bez vermir.

söz yalansız, yaban yamansız olmaz. (eşitdiyivə inanma, yabançıya alınma).

söz yayıldıqca cığır salar, danyırlara yollar açar.

söz yerin bulsa qılıncı yonar.

söz yetirər, iş bitirər.

söz yiyəsi, diliylə yaşar!.

söz, yiyəsi qınında, yiyəsi sözün qınında. (söz, deyənin dustağı, deyən sözün dustağı).

söz, yiyəsi qınında, yiyəsi, sözün qınında.

sözbir olmayan eldə danışma. (el ağzında alalıq, sözün başa qadalıq). (el içrə sözbirliyi olmasa, ağzındaki söz başan bəla olar).

sözçü gedər söz qalar.

sözçü işi, gəpirmə, ipçi işi, uzatma. (ipçi uzun gedər).

sözçü köçər söz qalar, sönmüş oddan köz qala, uçan közdən kül qalar.

sözçü köçər söz qalar, sönmüş oddan kül qalar.

sözçülər acından ölür, mözçülər yeyib gəbərir. **(mözçülər:** buynuzçular. boynuzçular. güjçülər. zorçular).

sözdə anlam, çöpdə dənə.

sözdən ağır, sözdən yüngül nə varki!.

sözdən söz, gəpdən gəp çıxar.

sözdü gücü sözçünün, eldi gücü elçinin.

sözdür çevirən çoğanı, yükü, keşişlər çəkir. (**çoğanı**: cihanı. dünyanı).

(**keşişlər**: çəkişlər **çəkərlər**. (> çakərlər). daşırcılar. hammallar).

sözdür gözəlligi andıran, iyiligi qandıran, yamanlığı danlıyan.

sözdür kişinin gərəki görkü, tutmasa sözün, yaramaz börkü. (**görkü**:

yaraşığı).

sözə bax kişini tanı, kişiyə baxıb sözü yox.

sözə bax, yox üzünə, yox gözünə.

sözə dil gərək, sözü dinləmək.

sözə qulaq as, oylab yola bas.

sözə sucunsa, bulun barır. { sözə şirnəşən, (sözə tutqun olub), işindən yesir

qalır}. **(sucunsa**: **suçunsa**. dadansa. dadalsa. şirnəşsə).

sözə süçünsə bulun barır. (sözə şirnəşən, əsir düşür).

sözə yiyə çıxmayan elin sonu qaradır qara!.

sözki çatmadı birinə, yeğ gəlir dinəməmək obirinə.

sözlə inanma, sözlə düşün, işlə tanı.

sözlə pilov pişsə, dənicən yağ məndən.

sözlə sap, istədiyin yerə dartılır.

sözlər qızıl, çürük qabda. (yaxcı sözlər, yabancı biçimdə).

sözlərivi söyləmədən düşünqıl.

sözlü başın dili bayraq irkədə, sözsüz başın düşmüş ayağa dili. (**irkədə**: taxda. qudrətdə).

sözlü iş görmə, işli söz tutma. (**sözlü iş**: çatışmıyan iş). (**işli söz: başavur söz**. baş ağrıdan söz) (elə iş görmə, sözə qalsan, elə söz demə, işə qalasan). (**sözə qalmaq**: üzünə söz gəlmək). (işə qalmaq: işə (soruya) düşmək).

sözlü kişi yaxcıda olur, yatlıda olur.

sözsüz gerçək olamaz, sözsüz durmuş yaramaz, anlamsız söz gərəkməz, sözsüz anlam olanmaz, anlamlı söz dil qurur, tanrı bu dildən olur.

sözsüz gələcəkdir, gələcək gün bizə gülsun.

sözsüz, ev olmaz. çalqısız, toy olmaz.

sözü boşla, işi yoxla.

sözü daşınan çəkməzlər, ipinən ölçməzlər.

sözü de anlayana, dedin demədin nə fərqi var qulağa pambıq tıxana. (sözü de anlayana, dedin ya yox nə fərqi var, qulağa pambıq tıxana).

sözü dəğərinən, qılıcı kəsərinən.

sözü dil deyər, işi əl görər.

sözü olana dil ver, söz eşidənə qulaq ver.

sözü olana dil ver, söz eşidənə qulaq.

sözü sözə oxşamaz, ağzı sözdən boşalmaz.

sözü, darı üstə qoyur.

sözün çoxu yalansız, pulun çoxu talansız (olmaz).

sözün acısı yandırar, acı istiyot daddırar. (dadlandırar).

sözün anlamı, çöpün dənəsi.

sözün azı, sözə duz gətirir, sözün düzü, sözə üz gətirir. **(duz gətirmək**: dadlandırmaq). (**üz gətirmək**: bəğəndirmək).

sözün çini, çinin sözü. **(çin:** doğru).

sözün çoxu iyi qoxmaz. (**qoxmaz**: **qoxumaz)**.

sözün damarı olar, çəkdikcə, uzanar.

sözün demir qulunc olur, deyir gülünc olur. (**qulunc**: sancı).

sözün denə güzgüyə, açma için özgüyə, güzgü sözün yanıtmaz, özgə qınar yandırar.

sözün dinlə, işin gör, gördüyünlə dəğər biç.

sözün doğrusu, doğru söz, bütün dillərdə, yazıleydi kaş!.

sözün düzü, "düz söz" ilə çəlişdə. (**çəlişdə**: çələngdə. savaşda).

sözün düzün qalıb kim deyə.

sözün düzün, yalançıdan öğrən.

sözün ən gözəli dildə, aşqın ən gözəli işdə saklıdır.

sözün həngi, əşin dəngi. (yoldaşın dəng, uyqun olmalıdır).

sözün qaqı qulaq yırtmaz, diş qırmaz. (**qaq:** bərk. möhkəm).

sözün qısası, ipin uzunu (öğüdün qısası, ipin uzunu).

sözün qısası, ipin uzunu.

sözün qıssası qızıldır, ortası gümüş, uzunu koluş.

sözün sonu yoxdur, duyqunun dibi. (**duyqu**: oyu. düşünmə. fikir. xiyal).

sözün ulusu, qoyar ulusu, qorar ulusu. **(ulusu**: böyügü). **(ulusu**: milləti). (**qoyar**: bərkidər. bərqərar edər**)**. (**qorar**: qoruyar**)**.

sözün verdin, işin yap, qaşıq oydun, sapın yap.

sözün yaxcısın dimmiyəndən öğrən, sırrın gözəlin demiyəndən.

sözün yaxşısı qısa olur, ipin yaxşısı uzun.

sözündə açıq düşman, yeğ durur, kitoz dosdan. (**kitoz**: iki üzlü). (düşmanın olan yerdə, dosduvun doğru, bir üzlü, düzgün olduğun dənə, sına). (evində dos tutduğun, iki üzlü kimsə, səni açıda görünən düşmanıva pay edər).

sözünən quş, qanatlı doğulur.

sözünü bilib söyləyən, üzdən suyu tökülməz, yerin bilib tükətən, əldən malı tökənməz. (**tükətən**: xərcləyən). (**tökənməz: tükənməz**: qutulmaz).

sözüvü de, işivi tut.

sözüvün al dadını söyləmədən, daha dönməz atılan ox gözəlim birdə geri.

su axar, yolun tapar.

su axar yolun tapar, külbaş gəzər çulun tapar. {**külbaş**: alçaq. alşaq (eşşək)}.

su axar, daş qalar.

su axar-axar yolun tapar.

su axarı ölən balığda gedir, diri balığda.

su axarı ölən balığda gedir, diri balığda. axarın tərsinə gedən diridir balığda oqqəddər çıxar var ki axarın tərsinə üzməsin.

su axmamış dərə yox, çalınmamış bərə yox. (**bərə**: yara. zədə). (hər dərə çağında su axıdıb).

Su akarken destiyi doldurmalı, İnsan gençken, çalışabilecek çağdayken, çalışmalı para, mal biriktirmeli, mal mülk edinmeye bakmalı. (Bayram Özdemir).

su altda gömişən, başında yığar. (su ayağında atılan, su başında yığılar).

su ayağında atılan, su başında yığılar.

su basırsa qarışqalar balıqlara yem olur, çəkilmişsə qarışqalar balıqları yərmiş.

su başdan aşmasın, durum kökdən pozulmasın.

su bulandırmaqla, balığ tutulmaz.

su buldunsa ver suya, daş buldunsa vur daşa, acıq adlı nərsəni, ata sözü böylədir, -acıq gələr göz qızar, acıq gedər üz qızar. (**qızar: qızarar**).

su çanın küydürən il acı, dəğirman çanın küydürən gün acı. (**çanın**: novbətin) (**küydürən**: yandıran).

su çəlləyi dəlinsə işligin dəğişər. (**işligin**: işlənmə yerin**)**.

su çiçiyin, söz böyüyündü.

su çuxura yığışar.

su çuxurda durar, pul qıtmırda.

su daşı oyar, su daşı utar. (su yumşaqlıq, itilik..... simgəsidir). (gücün çatmazsa nərsiyə, su kimi çəpərlik, yumuşaqlıq göstər. (dağlar boyda qayalar, suya sığar).

su daşmasa sel olmaz.

su dənin sən verən uşaq, böyüyüb ilkin sənə qarşı durar.

su dibində yaşlanan, su üzünə daşlanar.

su doğranmaz.

su gedər, daş qalar, vəsmə gedər qaş qalar.

su gəlib axar gedər, könüklünü yaxar gedər, bu dünya pəncərədir, hər gələn baxar gedər. (**könüklü**: armanlı. arzulu. həsrəti olan. həsrətli).

su gəlməzdən toğan tut. (**toğan tut**: bağaj, sədd bağla).

su göğüsdən aşan son, öykünüşdə nə kar var. (**göğüsdən**: köksdən. sinədən). (**öykünüşdə**: peşmançılıqda).

su görmədən ətəyin dartma. (su görməyincə ətək dartma).

su görməmiş, dartınma: (soyunma). (tələsmə).

su görməyən üzmək nə bilir.

su hər yanda qabarıq durar.

su içində gömül, üzündə görün.

su ilə yel qovuşdu, dağ ilə daş pozuşdu, bir yağu yad küy saldı, elim elgə boğuşdu. (**yağu yad**: düşman elli). (**küy**: şayiə). {öz ulağun diri tutan, yad söziylə aldanmaz. (ulağun: xəbər rəsanisin. xəbər yetirmə, ulatma aracların) (diri tutangözdə saxlayan)}.

su küzədə, gün bacada, dosd ürəkdə durur, içi gülməz, dosdu saymaz, durmuşundan olur. (**durmuşundan**: yaşamından).

su küzəsi su yolunda sınsada, öz işini sürgəməkdən üzülməz. (**sürgəməkdən**: qılmaqdan. icra edməkdən).

su küzəsi, su sızdırar. (ot kökündən içər, nə olduğun verər).

su min gətirmiş min aparmış. (suyun karıda çox zayıda).

su olsa axar, daş olsa qalar. (hər nə olduğuna görə uyum sağlar).

su ösrür otu, köçrür odu. (**ösrür**: cücətir. göyərtir). (**köçrür**: keçrir. söndürür). (əlində olan aracın, yaracın bilmək).

su sınrıdan aşırsa, püşmanlığın nə karda. (**sınrıdan: sınırından**).

su suya, yağ yağa qarışar.

su suyuq olar, quru quyuq.

Su testisi su yolunda kurulur, Kişi neye hizmet ediyorsa, hangi amaç için çalışıyorsa, o yolda kazaya uğrayabilir, o uğurda ölür. (Bayram Özdemir).

su tökülməz quyuya, çəkilər su quyudan.

su uğruynan (yolynan) gedən dənizə çatar.

su uğruynan gedən, dənizə çatar.

su verməzə süt ver. (su vermədi, süt ver).

su yaltusu (pisi. tündü) olur ki daş bitirir, söz ağduğu (acısı, itisi) olur ki baş itirir.

su yaltusu olur ki, daş bitirir, söz ağduğu olur ki, baş itirir.

su yatar, yağu (düşman) yatmaz.

su yüyəsin mal yiyəsin tapar (**yüyə**: yol, lülə).

su yüyəsin, mal yiyəsin tapar.

su, bütün yer üzünü tutsada, ördək batmaz.

subay gözü pişik tükün xəz görür.

subay gözü, kor gözü. (subay gözü ilə, qız alınmaz).

subay kişi yüyənsiz at, ərsiz arvad, yəhərsiz at,.

subay oğlan, mitil yorqan.

subaya qarısın gündə boşar. (subaya boşamaq bilməz nədir).

subayın malın it yeyər, canın, bit.

subayların getdi gedə təklikləri artarmış, bu təkliyə acı dərdlər qartarmış.

sucuğ aşı sındırzar. **(**içgi yeməyin sındırılmasına kömək eylər). (**sucuğ:** içgi).

sucuğ aşı sındırzar. **(**içgi yeməyin sındırılmasına kömək eylər). (**sucuğ:** içgi).

sucuğ başı əsrüdər (məsrüdər), yalançıqlıq dili kəsdirər. (**sucuğ:** içgi).

sucuğ başı əsrüdər (məsrüdər. məst edər), yalançıqlıq dili kəsdirər.

(**sucuğ:** içgi).

sucuq qatsan acına, uzaq çəkməz, tez keçər.

Suç samur kürk de olsa kimse üzerine almaz, Hiç kimse suçlu da olsa,

hatalı olduğunu bilse de kendisinin suçlu olduğunu kabul etmez.

(Bayram Özdemir).

suçların qabası, kəndini danmaqdır. kəndivə inan, kəndivi qına, güvəncli

ol!. (**qabası**: ən kötüsü).

suçludan iyilik bəklənməz.

suçsuz arama, suçlu dalama. (yaşamda orta yolu seç).

Suçu gelin etmişlerde, kimse yanına güvey olarak kimse girmemiş. Çekici de olsa suçu kimse kabul etmez. (Bayram Özdemir).

suçu yarqucla, suçar yoxla, toxla. (**suç**: yazıq. günah). (**suçar**: günahkar). (cinayəti məhkəməyə çək, canini, düzəltməyə çalış).

suda batan, ilanada sarılar.

suda batan, üzə yaxılar.

suda qayıq arabanı, quruda, araba qayığı çəkər.

sudan ayrılan balığ, oddan qorxmaz.

sudan dağsa dayanma, göz yaşına inanma.

sudan duri, aydan arı.

sululuqdan, yılılıq**:** (üz görkündən, ılıq davranış, yumuşaq, sevik qılış yürüş). (görgü, üz gözəlligindən, qılıq sıcaqlığı yeğdir). (ılılıq, cana qılıq: xuy gözəlligi, can dərmanı). (qılığ gözəlligi (sululuğu, yumşaqlığı) qat qat, üz gözəlligindən xoşdur).

suraqanqa bayqu ber, susağanqa yekə ber!: {istiyənə bedava ver. susayana (çox istəkliyə) yekə (daha artıq) ver!}.

susaqları suvaran, acıqları gidərən, acığanları doyuran, yorulanları oğudan, tusdaqları qutaran...

susan çox eşidər.

susana pay yok, qaçana yardım. (**qaçana:** çəkingənə. imtina edənə).

susduğa söz deyilməz.

susduğa söz verilməz.

susduğumda içimdəsən, konuşursam dilimdəsən, sən ki mənim hər yerimdəsən, arır əllər boş qalır ancaq.

susduğumu qananla, bütün yaşım qalam.

susduq kişi sorqulmaz, yanıtmağa zorqulmaz.

susduq kişi söz dinməz. (**dinməz**: eşitməz).

susduq kişiyə söz olmaz.

susduqca unutarsın, yaşadıqca alışırsın, güvəndikcə aldanırsın, kəndivə güvən.

susdum unutmadım, yaşadım alışmadım, güvəndim aldınmadım, sevdimdə itirdim, sevməkdən əl götürmədim, yalnızlığı alqılamadım. (**alqılamadım**: qəbul edmədim).

susmağın bilməz, danışsa çaşar.

susmaq danışığa yol açmış, danışmağa yok. (danışığa: barışa).

susmaq dinməmək deyir. çabalamaq ilərləmək deyil. oturmaq ölmək deyil.

susmaq nədir (nərə çatır) ?: -ölüşgəmək. ölsərmək. ölmək. batmaq. yoxolmaq.

susmaq yanıt deyil, dözüş toxdaq.

susmaq, dili ağrıtmaz.

susmaq, tanımaq deməkdir.

susmaq: -görüb görsətməmək, -duyub dinlənməmək, -bilib danışmamaq, -gedib gizlətmək.

susmaqın anlamı dili var, bilgə sözlü baş olan yerdə.

susmanı gələn dinməzin gedər. (susaraq gələn, səsin çıxarmanı gələn, dinməzək savulub gedər).

sussun ana dilin danan dil.

sustuq gəbə bulğanlara. (**sustuq**: sikut) (**bulğanlara**: tufanlara).

susub dinmək, çox yerdə, söyləməkdən, yeğ olur.

susuq duran man verməz.

susuq pişik, avlağan olur. (**susuq**: səssiz. sakit).

susuqluğun bir manı, susulmanın min yanı. (**yanı**: səhv. qələt).

susulduqda man çıxmaz.

susursa dilsiz, saymırsa kor, dinmirsə axmaq sayma.

susuz ağac, bar verməz.

susuz göldə balıq yox, ovsuz çöldə ovçu yox.

susuz qalan topraq çatlaq, gücsüz qalan yaltaq olağay. (**olağay**: ola bilər).

susuz yerin otu yiyəsiz, ərsiz yerin malı yiyəsiz.

suv verməzə süt ver: su vermədi, süt ver.

suvaq su alır (içir), könül qan alır.

suvuq kişi iş görməz, gördük işi xan sevməz. **(suvuq:** şol. veləngər).

suya çaxır, sütə su qatır.

suya girmədən üzüvü bil. (**üzüvü:** üzməyi).

suya qızıb bulağa küsmə.

suyu büksən göl olur, suyu dərsən çöl olur. (**suyu büksən**: suyu yığsan, toplasan) (**suyu dərsən**: suyu çəksən).

suyu çalxamaqla yağa durmaz. (sudan qaymaq alınmaz).

suyu çox olana qamış qoyan çox olar.

suyu gətirəndə bir, küzəni qıranda bir.

suyu gözəsindən içməli. (**gözəsindən**: gözündən. sərçeşmədən).

suyu inək içir yağ verir, ilan içir ağı.

suyu pambıqdan, od qorumur, pambığı oddan, su qorur.

suyu səp sinər yergə, sözü qoy sığar elgə.

suyu səp sinər yergə, sözü qoy, sığar elgə.

suyu səp, içən toprağa, sözü de, alan qulağa. (bu kişiyə söyləir ki, heç işi başlayıbda, başıvı sallayıb gedmək. ilkin dənə). (bir işi dənə, doğrulursa,

ardın tut, doğrulmasa, qılan işivə, qılınan ortama). (mihitə) quşqu (şəgg) ilə bax!).

suyuq aşdan aş bolmaz, qudadan qarındaş. (**quda**: ərkək dişi almaqla oluşan qohum. səbəbi qohum). (**qarındaş**: doğma qohum. nəsəbi qohum).

suyuq aşdan aş bolmaz.

suyuq aşın, dəni az olar. (**suyuq**: sulu. boş).

suyun çağlamayanı, yalqunun söyləməyəni. (yaman olur). (**yalqunun**: insanın).

suyun dadı yanıqlıq. (**yanıqlıq**: **yanqınlıq**. susuzluq).

suyun dənizdən içən, bulağ tanımaz.

suyun gəmişdiyi (gizlətdiyi), üzə çıxar.

suyun gətir əkin ək.

suyun imanın (su imanın) odda gör.

suyun işi aparmaq, odun işi yakarmaq.

suyun qamçısı yel.

suyun qaymağı buz, şorun qaymağı duz (**qaymaq**: bəkit. maya).

suyun lam axanı, kişinin yerə baxanı. (suyun sus axanı, yaluğun yerə baxanı).

suyun singin axanından, igidin yerə baxanından. **(singin > səngin**. içə hopan. içə yatan. ağır yüryən).

suyun şoru dadlanmaz!.

suyuna gömül, üzündə gül.

suyunan odun arası, inamdır (imandır).

süd ilə gələn sümüklə çıxar.

südüklə gələn, sümüklə çıxar.

sümük gəmir, çeğnəməqıl yad ətin. **(gəmirmək** < **gəvirmək**. dişlərilə qaşıyaraq nərsəni qazmaq).

sümük içində, ilik güvənər (sevinər. hər nə doğma yerində eyidir).

sümüklə dəri, yeməklə diri.

sümüksüz dil, sümük sındırar.

sümüyü içində, iliyi güvənir (sevinir).

sümüyü itdən əsir gəmə.

sümüyün iliyi, kişinin biliyi.

sünbülün boşu, dik dayanır.

süpürgənin qiyməti az olsada, evin asdanasın kəsər.

sür ged deməmişlər, gör keç demişlər.

sür sən qoşalıqda yaşamın qoy belə keçsin, olsunki olüm yalquz ayaqdur.

sürdü mənim qutumnu. (mənim bəxdimi dəğişdi, batırdı).

sürən ağrı, çorar canı. (**sürən**: müzmin. davamlı). (**çorar**: **çoradar**. çürüdər).

sürən atın yürüdü, əsn külək kürüdü, oturmuşlar çürüdü. (**yürüdü**: ilərlədi).

sürən çağdan bütün varlıq pay alar. (zaman heç nəyi etgisiz bıraxmaz).

sürən kimdi, çalan kimdi, buran kim. (**buran:** oynayan).

sürqal geyim çirkin içlər gizlədər, əğib geyim gözəl içlər bəzərmiş. (sürqal: durqal. bəzək düzəkli. tutarlı. tamtaraqlı. əşraflı). (**əğib:** yoxsulyana. sadə).

sürmə çəkdi gözünə, çıxdı çölün düzünə.

sürmək üçün bir yolun, seçimdə var min yolun.

sürü axsağını gizlər.

sürü axsaqsız olmaz, gözəl kəmsiz..

sürü itsiz, dəri bitsiz olmaz. (**dəri**: kürk).

sürü itsiz, el yetisiz dinc almaz. (**yetisiz**: bilgəsiz).

Sürüden ayrılanı (koyunu, kuzuyu) kurt kapar, Elinden, akrabasında, dostundan ayrılan ilişki kesen insanlar, bir başına iş yapmaya kalkışırsa zarar görür. istediği başarıyı elde edemez. (Bayram Özdemir).

sürüdə qotur alğa qaçar. (sürünün önündə, sürüdən ayrı gedər).

sürüdən ayır, toruva (tələvə) çağır.

sürüdən ayrılan quzunu qurd yemiş, elindən yan düşəni yad yemiş.

sürüdən qalın, qurda alın. **(qalın**: ayrı düş. geri qal).

sürüdən yalın, qurtlara qapın. (**yalın**: boşa. ayrıl).

sürünə bilsən oturma, dura bilsən sürünmə, yüryə bilsən dayanma, qaça bilsən yürünmə, uça bilsən qoşunma.

sürünü sürən öndəki qotur, daldaki çoban.

sürünüb qalmaqdansa, diz üsdə yaşamaqdansa, ayağ üsdə ölmək yeğ.

sürünür qulağa söz, dara baş çəkillir (**sürünmək**: çalınmaq).

sürütmə itə gəmlənər ata yox.

sütdən ağzı yanan, suyu üfləb içər.

sütdən ağzı yanan, yoğurdu püflər içər. (sütdən ağzı yanan, yoqurtü püflüyərək içər).

sütədə quşqu ilə baxsan, al (qan) görərsin.

sütlə girən qanla yaşar, gəmiklə çıxar. (sütlə girən, sümüklə çıxar).

sütlə girən, sümük bolsun! (aynası. -uşaq böyüdükdə, doğma anasının dilin danmasın). (**sümük**: **süngük**. gəmik). (**aynası**: anlamı. açıqlaması).

sütlən gəlib, sümüklə çıxar.

sütten ağzı yanan, ayranı üfleyerek (yoğurdu üfleyerek yer) Herhangi bir yaptığı işden zarar gören veya düşünmeden yaptığı işten acı çeken insan, sonra yapacağı benzer işlerde daha dikkatli davranır. (Bayram Özdemir).

sütün çönər yoğurda, düğün tutmaz yumurta.

süycü aşın yox ikən, süycü dilən nə gəlmiş. (**süycü**: dadlı) (**dilən:** dilivə).

süycü dil bir kan, vermək bilən tükənməz. (**süycü**: dadlı) (**bilən**: ilə).

süzülməsə durulmaz!.

səhər gedər naxıra, axşam gələr axıra.

səni sevmək içimdə bir düğüm, nə ölür, nə doğur!. (**düğüm**: tuxum. nütfə).

şaf şaf deyincə, şafdalı de.

şaftalı gəlməmiş, tabağı gəldi.

şağıda, yuxarıdan deyən sözləri, yuxarıda, aşağıdan demək gərək.

şahım ali dərgəsi, ulların yergəsi, ellər gəlir birgəşir, el birliyi dirgəsi.

(**dərgəsi**: barınqası. otrağı). (**yergəsi**: yeri). (**dirgəsi**: diriliyi).

şahım ali durur gəlir, yeşil sancaq əlində, türküm türkə dayaq gəlir, dədəm sözü dilidə.

Şahin ile deve avlanmaz, Küçük araçlar kullanılarak büyük şeyler elde edilemez. (Bayram Özdemir).

şahin qıynaqsız olmaz.

şahın, başı vəzirdi, vəzirin əli, şah.

şahında qaraçıya işi düşər.

Şakanın sonu kakadır. Şaka sürüp giderse tatsızlaşırsa, sonu kırıcı olur. Şakayı tadında bırakmak gerekir. (Bayram Özdemir).

şakşakalar nalçalar, iş bitirər akçalar. (şaq şaq eden nalçadır, iş bitirən akçadır).

şalqamı dadmasanda, barı tarlasından keç.

şarabın içməyi yaxcıdı, içip keflənməyi ondan yaxcı.

Şaraptan bozma sirke keskin olur. Kırkından sonra azanı teneşir paklar, Sonradan azan kişi daha genç yaşta yolunu şaşırana göre daha beter, azgın olur. (Bayram Özdemir).

şaşılqan el yetməz qalır ərinə, birikkən el yetib aşmış ərini. (**şaşılqan**: saçılqan. mütəfərriq). (**birikkən:** müttəhid). (**ərin**: mənzil).

şaşırma, dəğişməkdir evrənin işi, ərdəmli kişi uydurar işi. (**uydurar**: tətbiq edər).

Şaşkın (ahmak) konuk ev sahibini ağırlar. Türk geleneklerine göre konuğun bir ağırlığı vardır. Ev sahibi konuğa hizmet eder, mümkün olduğunca en güzel şekilde ağırlar. Bunun tersi ev sahibine hizmet etmek yakışık almaz. Yardım eymek istese bile ev sahibi konuğuna izin vermez. (Bayram Özdemir).

şaşqın oldun basılarsan, daşqın oldun asılarsan.

şaşmayan atıcı olmaz, yanılmaz bilgəc.

şeh güzgünü pasladar, çaxır başı yaslatır. (**yaslatmaq**: yatırtmaq).

şeh güzgünü pasladar.

şeh keçirməz, səs ötürməz.

Şeriatın kestiği parmak acımaz. Şeriat şartlar kurallar, islam hukuku kuralları. Yasaların ne diyorsa uygulanır. Yasalara karşı gelinmez. Kuralları tartışılmaz. (Bayram Özdemir).

Şeytan adamı kandırır, ama suyunu ısıtıvermez, Bizi aldatıp kötü duruma düşürenler bir daha yanımıza uğramazlar. Derdimize çare bulmazlar. Bizi kaderimizle başbaşa bırakırlar. (Bayram Özdemir).

şeytan bizi azdırıb, yaman gündə, yaman yerdə olmaz quyu qazdırıb.

şeytan ilə buğda əkən, samanın alır.

şeytan sapına ignədir.

şeytan şəhli olar, dönük (xain) xoflu.

şeytanın yoldaşlığı, dar ağacınacadır.

şeytanın yoldaşlığı, dar ağacında bitər.

şeytanla qabax əkənin, qabax başında patlar.

şeytanla ortaq olan, buğda əkər, saman biçər.

şəgg edib, inanc gətirənə, dos de, inanıb, şəgg edənə yox de.

şəri şeytandan, kələyi arvaddan, quru böhtandan, bəylər qəzəbindən – özüvü qoru.

şərrin azıda, çoxdur.

şıllaq atıb osduran, yelə verər əldəkin, dincəşibən düşüngən, ələ alır göydəkin.

şimdi təkillik üstəlir, köpçülük geridə qalmış olur. (**köpçülük**: çoxluq. mərdüm. cəmiyyət). (**təkillik**: fərdiyyət).

şimdi təkillik üstəlir, köpçülük geridə qalmış olur. (**təkillik**: fərdiyyət).

şimşəyi görən, bulutuda görüb.

şirin dilin olsun, ətin yağın, özüvün.

şirin dilin olsun, qoruyan sözün olsun.

şirin dilin, qoruyan sözün olsun.

şirin dişə dosdu, acı qarına.

şirin yalandansa acı gerçək yeğ.

şirinlik versən qurda, aylanıb gələr yurda. (**aylanıb**: dolanıb. dönüb. gəzib). (yamanı dadandırma).

şiş küyürsə kabab qalmaz. (**küyürsə**: yanırsa).

şişik başın lovğa işi çox olur. (**şişik başın**: az bilib qurralanan). (**lovğa**: içi boş. qozalaq).

şişik kesə, doluqqafa birbirinə oq yaraş. (**oq yaraş**: tam yaraşır).

şişip, köpən, əlin öptürən. qapıva gəldi isə qaçqunçu qul, sənə eydür gərəyi, sən et qəbul. (sənə eydür çıxarınca et qəbul).

şlək başlar, çalar qollar, verən əllər ac qalmaz, güdən gözlər, gözü yolda, qonşu gözlər tox olmaz.

şoru yağından baha. (tutarı, dəğəri tərs biçilmiş olan).

şunğarla dəvə ovlanmaz.

şüşə sındıqca itiləşir, diş, pıçaq, işləndikcə kortlaşır.

xala xatırın qalmasın,qazan dibin yanmasın.

xançı xanında, yolcu yolunda gərək.

xanım qızın kəsməsi, axşam əsin əsməsi. (**kəsmə**: birçək**..**pərçəm). (**qızın**: duşizə) (**kəsmə**: birçək**..**pərçəm). (**əsin:** nəsim).

xanım yoxsa ər ölməz, təki dinclik üzünü görməz.

xanımbəyin torğusu təlim, dəngəmədən (dəhləmədən) biçmə. (**torğu**: **toruğ**: ipək. incə, yumşaq sapdan, seyrək toxunmuş parça). (böyükxanımın ipəyi çoxdursada, ölçmədən biçməz).

xoş günlərin sonu varmış, həp gülüşün pozuşu.

xoşgünün qaratmaq üçün iki nərsə yetər, keçmişdə qalmaq, özgənə baxmaq. (**özgənə: ötgənə**: başqalarına).

xoşluqları vurun başa, qəm çanağı dəysin daşa, ömür güdə arzu uzun , qıssa diləklə yaşa.

qurda heçin basamaz, birləşirsə yüz kişi, qarşı dursa min qurda, quşqu yoxdur yüz üsdə yüz qurd sürüsün basarmış. (yüz insan əgər tək gedə ,bir qurda batanmaz,bahəm gedilən yolda nə üz versə zəfərdir).

su axır nola dolur, dağ yıxılır dərə dolur, baş olursa işlər olur.

tab yeyin tab için, artuğun buraxın.

Tabak sevdiği deriyi yerden yere çarpar, Tabak, deriyi terbiye eden kişi, deri ustası, Kişi, sevdiği, önem verdiği kişiyi eğitirken hırpalar, istediği kıvama getirmeye çalışır. (Bayram Özdemir).

tabutçu öldü, tabut tapılmadı.

tabutun özgə çiynində görməyən, ölümünə inanmaz.

tadırsa tay, at dinər, ərirsə oğul, ata**. (atadırsa tay**: böyüyüb at olursa dayça). **(ərirsə:** ərikirsə: kişi olsa). (dayça böyüyüb at olursa, at dincəlir, böyüyüb kişi olursa oğul, ata dincəlir).

taxarmış bəlliyin çatan yerə, paysız qoymamış, yaşanı ölüm. (**bəlliyin**: izin. simgəsin). **(yaşanı**: yaşayanı. dirini).

taxda qabı od üstünə, bir kərə qoyarlar.

taxda pıçaq kimi olma, nə kəsə biləsən, nə satıla biləsən.

taxıl atda sıçan ölməz, sümük atda it.

taxıl kəpəksiz olmaz.

taxılı, əkən bilir, daşqanı, çəkən.

taki oğlan ağlasun versin ana sütünü.

taqqa düşdü, kəl göründü (başlıq düşdü, baş göründü. sökərsə dan, sönər gecə. dan sökdü, yandı gecə. örtük düşdü, dan söküldü).

taladakini öydə bolcama. (evdəki hesab çarşıya uymaz). (qırdakiyi, bayırdakını evdə oranlama). (bolcama: tərh edmə. mətrəh edmə).

tam ilişgi tapar anlam varisə yalnız inanc.

tam sevincin tökmə sevginə, gedirsə sevəcin, sınar qolun qanadın.

tamahkarlıq baş yarar.

tamdır qızıq çörək yap, sürün varsa çoban tap. (**tamdır**: təndir).

tamqan tamcı, daş dələr.

tamrıq duran kişidə, damızlarda, güc alır, başlı olan kişidə damızlardan, tüv alır. (**tüv: tov**: tap. tab. güc. qudrət). (**tamrıq**: bağtur. qeyrətli). (**tamır**: bağut. qeyrət). (**damızlarda**: kiçik olan damcılarda). (tamır (qeyrət), damcılara tov verər. huşu başında olan kişi, damcılardan güc alır). sayı sığa (kəmmiyyəti keyfiyyətə) çevirmək üçün, kişidə istək, çaba, tamır qeyrət olmalıdır. böyük işlərə, yekə arac bəklənilməz. özüvə güvən, gücün al, elivə

güvən yolun al!. {tamır artallı (zəminəli) kişidə, damıc damcılar güclənər. (**damıc damcılar**: kiçik olan damcılar)}.

tamu qapısın açar tavar. { para tamı (cəhənnəm) qapısınada güc gələr}.

tamunu qızdır, uçmağı bəzə.

Tana kalan dona kalır. İşine gereken önemi vermeyen, zamanında işi bitiremez güç durumda kalır. (Bayram Özdemir).

tanatları dəğiş səndə. (**tanatıarı:** tə'rifləri). yalan sözdür gözəlliyin bir pul edməz, yetər artıq könül verib alan tapsan, təpən tapsan. {gözəlliyin bir pul edər, min pul edər, könül versən alan tapsan, tapoz dünya. (**tapoz:** qəhbə. (< **çıpmaq**). pozuq qadın)}.

Tandır başında bağ dikmek kolaydır, Lafla peynir gemisi yürümez, Düş kurmakla, çalışmadan hiçbir iş yapılmaz. (Bayram Özdemir).

tanğ açar, qaranğ qaçar. (**tanğ**: sübh. səhər). (**qaranğ** : qaranlıq. gecə).

tanğ açar, qaranğ qaçar. (**tanğ**: sübh. səhər). (**qaranğ**: qaranlıq. gecə).

tanğı satma axşama, axşam düşər dan keçər. (tanğı: səhəri). (hər günün öz işin bitir).

tanğsuq dadlar alıb, düz deyib, düz davranan düz oylanan. (**tanğsuq**: olmasın. az tapılan. çox dəğərli, gözəl).

tanıdıqca çox dərin düşmanların, itirirsin ən çox olmuş dosların.

tanıqlar yanılmazlar!.

tanılmasa yamanlar, yaxcı dəngi bəllənməz. (**dəngi**: qiyməti).

tanımadığım qorxularla tanışdım, tanışdığım sevincləri itirdim.

tanımadığım qorxularla tanışdım, tanışdığım sevincləri itirdim.

tanımadığın düz yoldan, tanıdığın dolama yol düz olar.

tanımaz sevgi, yaş.

tanınmamış qapıları, yonulmamış açarları, bu dünyanın, bu dünyanın.

tanınmasan atın tutulmaz. (bulunduğun yerdə adlım kişi olmasan atıvı yaraqlamala sayqı görməzsən).

tanıram tanrıdan olmuş köməyimdə əlidir, yağunu sırtını küpsən yerədə ol əlidir. yataram mən düşünü görsəm oyanlam yuxudan, nə görübsən kişilik örnəyim olsa əlidir..

tanışlıq qanun deyil, qanun kimi zorludur.

tanışlıq sıyışsız oluşur, düşünmə, sıyışla doğuşur. (**sıyış**: atifə) .

tanışmayan iki köpəh, qurdu görcək tanışır.

tanıyıb sevseydin, düşməzdi ara ayrılıq, sevib tanımazdan.

tanıyıb sevseydin, düşməzdi ara ayrılıq.

tanıyıb sevsənə, sevib tanıma.

tanqalıqda çınğın çıxmaz bunu bil, nəmə olsan elin ilən olarsın, durmuş anlamın biləyin desən, el ağlasa ağlab, gülsə gülərsin. (**oraz**). (**tanqalıqda**: təklikdə. yekəlikdə). (**çınğın**: səsin). (**durmuş:** yaşam).

tanqalıqla barışsanda, alışamazsın. (**tanqalıqla**: > **tənhalıqla**. yalnızlıqla).

tanqısız (insafsız) türk olmaz, başsız börk olmaz.

tanqopan işi, tünə qalmaz. (**tanqopan**: **tanduran**. taneritinçi. səhər tezdən duran. səhərxiz). (tünə: gecə gecəyə. axşama).

tanozlu baylara barma, tanıqsız dağlara barda. (**tanozlu**: minnətli) (**barma**: gedmə). (**barda**: getdə). (**tanıqsız**: minnətlsiz). {verimsiz baylara gedmən, ayaslı dağlara barda. (**ayaslı**: kərim. kərəmli. əsirgəməz). (açıq dağlara üz tut, qısımır varlıdan uzaq dur)}.

tanozlunun bir gün duzun dadsan, min il tosun çəkərsin. (**tanozlunun**: minnətlinin. minnət qoyanın. başa, üzə çırpanın) (**tosun: pozun**. fosun).

tanrı ağacı kişidi, onu ulatmaq onun işidir.

tanrı bilir, bəndə görür.

tanrı dağına görə qar, ağac kökünə görə bar verər.

tanrı dağının qurdu olunca, kəndi elivin qorcusu ol.

tanrı doğduğu dildə seçər, diləyin qılığında onilə biçər!. (**barını**: hamını). (**biçər**: mukafatlandırar).

tanrı görməmişə bit verib, dırnaq verməsin.

tanrı hamını doğulduğu dildə anlayar!.

tanrı kora, necə baxsa, korda ona, elə baxar.

tanrı qaldırdığın kim basa bilər ?, həq quran yayı kim yasa bilər ?.

tanrı qaldırdığın, kimsə basamaz, yayı ki həq basa, kimsə yasamaz.

tanrı qapısı gülənə açıq. (tarı qapısı gülənə açıq).

tanrı vara yox, ürəyə baxır.

tanrı verdi anı bizə qılavuz, ki doğru yolu anınla vararuz.

tanrı verim deyərsə, yalvaca (peyğəmbərə) nə söz qalır.

tanrı verincə kimin oğlu deməz.

tanrı verir verməz bilmərəm, çaba çalış qılarsan, istədiyin taparsan.

tanrı verirsə, el gətirir, sel gətirir, yel gətirir.

tanrı yarqısın başdan salsın, gözdən salmasın. (**başdan salsın**: yadlardan çıxartsın).

tanrı yazar onay sormaz. (sən boldiyin işləməlisin). (sən istdiklərindən bacardığın işləməlisin).

tanrı yormasın, şeytan yıxmasın.

tanrı, dərdi çəkənə verərər.

tanrıdan artıq görmə (güdmə).

tanrıdan gələnə nə demək.

tanrıdan qox işləmə, etmə bu işi, yavuz iş necə qılasın a kişi.

tanrıdan qorxmaz, kimdən utanar.

tanrıdan qorxmuyandan qorx.

tanrıdan son, ilki sənsin ayğısım. (**ayğısım**: əzizim. mehribanım).

tanrıdan su diləndik əkinə, yağış yağdı sel endi yerinə (işlərin uğramazın göstərir).

tanrıdan su istədik əkinə, yağış yağdı sel düşdü yerinə.

tanrım giclərin özü yolağsın. (**yolağsın**: hidayət, irşad edsin).

tanrım ki qurtuldum üzündən, qulağım dinc olmuştur sözündən.

tanrım kimsəni pul utlusu (utancı), uyat (namus) utlusu, qeyrət utlusu edməsin.

tanrım kişini, kəndinə tapşırıb. kəndin qurub, qorumalıdır.

tanrım könlüzce buyursun!.

tanrım mənə, məndə sənə.

tanrım sana bir dilək, toprağımı yaşlı qıl, yaşlılarım başlı qıl. (rəbbim səndən bir istəyim var. - toprağımın suyun bol elə, elimin yaşlılarına ağıl ver). (**soğur**: munacat).

tanrım sən özün əsirgə qoru, yağır yarçalıq səndədir yolu. (**yağır yarçalıq**: lütf inayət).

tanrım səni dəyməgözdən qorusun.

tanrım var, vardan eylər.

tanrım! iykular yaz başımıza, uğurlar çək qarşımıza. **(**alqış**)**. (**iykular**:

edqular. yaxşılıqlar).

tanrım! qapaxsız, qapaxlı görən, qulaqlı quylaqsız duyan.

tanrım, böyüklərdən ululuğu, qocalardan hörməti, cocuqlardan utancı

qoparma.

tanrıma görə varım olsun, varıma görə ürəyim.

tanrın olsun yarıcın.

tanrının adı var özü yox.

tanrının günü. (hər gün).

tanrının malı yox verə birinə, birindən alar (alır) verər o birinə.

tanrıya əğilən, pula dombalağ aşır. (**əğilən**: səcdə qılan).

Tanrıya güvən, ancaq işini də əldən qoyma. (Araz Gunduz).

tanrıya inan, darıya güvən!.

tanrıya inanc atadan sovqa, arda qalmış sevgidən qovqa.

tanrıya yalvar ki oldur yavlağın yavlaları.

tanşıvın yoldaşıvın hər nə olursa **"dili"**, olsun, mənə nə.

tap iyini yaşat onu, onsuz yaşın yoxdu sonu. (**yaşın**: yaşantının). (**sonu**: dəğəri. nəticəsi. hasılı).

tap iyini yaşat onu, onsuz yaşın yoxdu sonu. (**yaşın**: yaşantının). (**sonu**: dəğəri. nəticəsi. hasılı).

tap tap ayaq, şap şap ağız (işlə, dişlə).

tapan bəğənər, tanan alar. (**tanan:** tanıyan).

tapancanın dolusu bir kişiyi qorxudar, boşu qırx kişiyi.

tapancanın dolusu bir kişiyi qorxudar, boşu qırx kişiyi.

tapdanmış topraq bar verməz.

tapduğun tapusunda, qul olduq qapusunda. (**tapu**: huzur. nəzd. məqam). (**tapduğun**: pirin)**.**

tapılan dilək, tikilən dirək, biri çatılır, bir yapılır.

tapınan təpilməsin, tapan təpməsin. (düşünməkdə gərək).

tapındım görmədim kimki ola dingin, kimi qaçqun kimi köçgün, kimi alğun kimi çaşğun, kimi dalğun kimi darğun. **(dingin**: huzurlu. qərarlı). (**tapındım**: axdarışdım).

tapış keçmişdə axdarılmaz, axdarılsada tapılmaz. (**tapış**: şans). (yaşamda irəli, önə bax!).

tapış yalnız indi ilə gəlcəkdədir. (**tapış**: şans).

tapışlar, umatlar təprəşmədən, dəğşirmədən tapılmaz. (**tapışlar**: **umatlar**: şanslar. ehtimallar). (**təprəşmədən:** qımıldamadan**)**. **(dəğşirmədən:** dəğişmədən**)**.

tapışlarla dəğişməz, çapış yapda dəğişqıl. (**tapışlarla**: şanslarla). (**çapış**: iradə. çalışma).

tapmaq qın, itirmək onğ. (**qın**: çətin). (**onğ**: rahat).

tapmalısan mutluluğun kilidin, çevrəndəki əlindəki valıqdan.

tapmalısan mutluluğun kilidin, çevrəndəki əlindəki valıqdan.

tapta dəmiri tanı, qaçdır atıvı tanı.

tapundur (xitmətindir), yatancağım, yastancağım qapundur.

tarı sol gözü sağ gözə gərkitməsin (gərik qılmasın. möhtac edməsin). (tarı ən yaxınına belə əlin açdırmasın).

tarı verdi anı bizə qılavız, ki doğru yolu anınla vararız.

tarı versə quluna, alıb qoyar yoluna.

tarix inancla ölçülməz, yarqanmaz.

tarix keçmişləri qaytalar, yedikləri qaytarar, verməz gerin bir telində aldığın.

tarix qulağı kar, gözü kordu, bu evrəni bacaran, devranı sürən aparar. tarix təkərlənmir, tutduğun yapır, birin qaldırır, birin yıxıb aparır.

tarix umuq, umutla yazılmır, tarixi süngülər qazıb, qamışlar yazıb.

tarix vurmadan silgiyi, yazıya keçir bilgiyi.

tarım kimsəni bucağa salmasın.

tarım qorusun, elim yarusun (kömək olsun).

tarım qorusun, elim yarusun (**qorusun**: saxlasun) (**yarusun**: kömək olsun).

tarım qorusun, elim yorusun. (**yorusun**: dəğərləsin. qiymət versin). (yarqış sözü).

tarla koğuğu iki qulağı, kirpi yuvası sıçan yatağı.

tarla suvalmasa quruyar, quru qalsa, qurudar. (kişi varlığı tarıq (əkinəcaqdan) asılıdır).

tarlada iz əkən, xırmanda yüz biçər. (tarlada izi olmayanın xırmanda yüzü olmaz). (tarlada izin qalsın, xırmanda üzün olsun).

Tarlada izi olmayanın, harmanda yüzü olmaz. Tarlasını sürmeyen gübrelemeyen, ondan istediği ürünü alamaz, yüzü gülmez. (Bayram Özdemir).

tarlada izin, süfrədə üzün olsun.

tarladan izin kəsdi, süfrədən üzün.

tarlan geniş olmaqdansa, sıx olsun.

tarlanı düz al, qarını qız al.

Tarlayı düz al, kadını kız al. Engebeli yerlerden tarla alınırsa bakımı sıkıntılı olur, onun için düz yerdenalınmalı. Evleneceğin kadını da dul değil kız almalı, Kadın gözünü senin evinde açmalı, ne görürse senin evinde görmeli. (Bayram Özdemir).

tarlayı düz al, qarını qız al.

Tarlayı taşlı yerden, kızı da kardaşlı yerden. Taşlı tarlanın ürünü bol ve güzel olur. Erkek kardeşi olan kızda evleninceye kadar korunmuş olur, hemde erkeğe nasıl hizmet edeceğini öğrenmiş olur. (Bayram Özdemir).

Taş düştüğü yerde ağırdır (kalır), Kişiyi en iyi tanıyanlar kendi çevresindekilerdir. Onun için kendi çevresinde saygı duyulur, takdir edilir. (Bayram Özdemir).

Taşıma (dökme) suyla değirmen dönmez, Kişi, iş yapacak kadar kadar güce sahip değilse ufak tefek yardımlarla işleri yürütemez. (Bayram Özdemir).

tat ilə iti, vurduğca tanışrağ olur.

tat olsun türk olsun, söz gərək onğat (doğru) olsun.

tatı dadızdır, türkü qarışdır.

tatı gözündən vur, tikanı kökündən.

tatı gözündən vur, tikanı kökündən.

tatıq gözrə tikan tüprə: tatı gözündən vur.

tatıq gözrə, tikan tüprə. (tatı gözündən vur).

tatın kəlləsi qışda qızar, kasa aşdan isti olsa.

tatına qulluq, belinə çulluq (yada qulluq edən, eşəkə dönər).

tatlarqu dili olsada bal, ağzımı sancar, öz doğma dilimdir ki şirindir mənə baldan.

tatsız türk olmaz, başsız börk olmaz. (yağısız, düşmənsiz türk olmaz, baş olmadan, börk olmaz).

tavçaçısı qarqa olanın, dimdiyi poxda olar. (**tavçaçısı:** məsləhətçisi).

tavınmasa qına, qına ha qına!. (**tavınmasa:** dözməsə). (**qına ha qına**: danla ha danla). (biri ağrıya, zəhmətə dözməsə, dözmək istəməsə, qınamaq, danlamaq, pisləməklə doğrulmaz).

tavır qılın xoşqıluq, adın tutsun eykuluq.

Tavşan dağa küsmüş dağın haberi olmamış. Önemsiz kişi, önemli kişiye küsse, önemli itibarlı kişinin umurunda bile olmaz. (Bayram Özdemir).

tavuk giderse poxuda gider.

taydaşlarız qovuşsun, yamanlarız qoğuşsun, yağularız yoluşsun. (**qovuşsun**: çatışsın). (**qoğuşsun**: sizdən uzaqlaşsın).

tayğan yügürgəni, tülkü sevməz: iti qaçan tazını, tülkü sevməz.

tayxan qarda dinər, çoban gorda. (**tayxan:** < **dikkan. tikən**. əkinçi).

tayxan qarda dinər, çoban gorda. (**tayxan**: əkinçi).

tayxan yağanda dinər, çoban ölləndə. (**tayxan**: əkinçi). (**ölləndə**: **ölənğdə**: (< **öl**: h**öl**: şeh). otlağda).

tayı bəslərsən at olur, qurdu bəslərsən yad olur. (**tay**: at balası).

tayıvı tap, çiləmə bülbül.

taysız başmaq tapılmaz.

taza görən daylaqlar, çuluna baxar oynaqlar.

tazı kinin durnadan alar, bit kinin taktadan alar.

tazı kinin durnadan alar, bit kinin taktadan.

tazının topallığın, dovşan bilər.

Tenbel deyer: ver yeyim, ört yatım, gözle canım çıxmasın. (Kordus).

Tenbele iş buyur, O sana ağıl bulur. (Kordus). (Kordus).

tenqiri bergəy qılarsan eykuluq minlər ödəş, say sana bilməz sananmaz könlüdə olğan kimi. (**ödəş**: mukafat).

teşənin sapı meşədən.

teyxa altun tapılmaz, yanılmaz iş yapılmaz. (teyxa altun tapılmaz, yanlışsız iş yapılmaz). (**teyxa**: yalxı. yılxa. xalis).

tez aldanan. tez inanmışdır. (tez inanan, tez aldanır).

tez alışan tez sönər demişləriz, yanmışlarız. -tez alışan ömür dibin, enin boyun yaşarmış.

tez duran çox görər, gec yatan çox eşidər.

tez evlənib, gec ayrılan, tezin yatıb, gecin duran batırar, çox çalışıb azca yeyən, gecin yatıb tezin duran aparar.

tez evlənib boşansanda gec boşan.

tez gəlmədin, gej qaldı, soğan yedin gij qaldın.

tez qapılmış öcgüyə, çuxur qazar özgüyə. (**öcgüyə**: öc almağa. intiqam almağa).

tez savaşan, tez sovuşar.

tez tezdə, az azda olsa, ək.

tez yanan, tez sönər.

tez yetişən, tez pozular.

tez yol alan, gec yorular. (bu söz, kişiyə, hər nərsəni, erkindən (tez, gənclikdən) başlayıb, işləməyə qalxışmağı sürüclür (sezdirir).

tezdə qalxıb tez evlən, iyi keçirsən devrən.

tezdən duran, ac qalmaz.

tezdən qalxan çobanın, qoyunu əkiz doğar.

tezincə hopur, gecincə qopur, bir uşaq könül, qoyma başına.

tezliyən itdi, izləyən yetdi. **(tezliyən:** tələsən). (**itdi**: yetmədi).

təbil boş olsada, guruldar.

təbil səsi uzaqdan xoş gələr. (göz nə görür, qulaq nə duyur, ürək nə çəkir, kim bilir).

təbrizi ağüz edəndir qaradağ.

təbrizi ağüz edəndir qaradağ. (**ağüz**: üzü ağ).

təggə tikilməmiş, kor dayağın dikətdi.

təxdədən maşa, səfehdən paşa olmaz.

tək ağacdan bağ olmaz, tək qoyundan sürü, tək daşdan duvar.

tək ağacı, külək tez yıxar.

tək ayaqla uzaqlara gedilməz.

tək gözilə tək qulağ ötüşür, tək başına güc gəlir.

tək kişi gorda gərək. (kiş, tək, yalnız yaşama yox deməlidir).

tək kişi özü özünə gülər, iki kişi birbirinə, üç kişi, özgüyə.

tək kişi yerisə, iz açar, iki olsa yol.

tək qalana yaramamış bu evrən. tülkü kimi qurmuş kələyin, yalan deyib yalan durar bu evrən, çevirənlə çevrənər, devrilənlə çevrinməz,

yalançuqla kökləniri təməl kökü bu evrən. yalqızlığı danılmaz, yalqız qalsan alınmaz, kişiləri təkləyib, başın əzir bu evrən.

tək qanatla quş uçmaz.

tək qanatla quş uçmaz.

tək qanatlı quş, uçamaz.

tək odun ocaqdada yanmaz, qoşa odun çöldə də sönməz.

tək odun yanmaz.

tək tanrının qabağında əğildur, ondan başqa heç tovana əğilmə. (**tovana**: gücə. sultana).

tək tanrının qabağında əğildur, ondan başqa heç tovana əğilmə. (**tovana**: gücə. sultana).

tək ucalan ağac, hündürə qalxar.

təkbaşına öğrənən, yalnızlıqdan qorxamaz.

təkcə bir səsdi qalır biz kişidən dünyada. **(səsdi:** addır**)**. **(biz kişidən**: insanlardan).

təkcə sən kəndin özün yar olasan, hançı yerdə nə diləklər qılasan. kəndivə güvən.

təkə olsun süt versin. (işləri qolay tutmaq).

təki düşman dosd olmaz. (**tək**:. dibi).

təki göz bəğənsin-göz bəğənsə qulaq duymaz.

təki sev, yaşam başlar.

təki səndən savay hər kimsədən acıtmağı bəklərdim.

təkin kişi sözün tutdu, döğüş keçdi savaş utdu. (**təkin** : seçgin. quzidə).

(**təkin kişi**: təkcə kişiki).

təkin kişi sözün tutdu, döğüş keçdi savaş utdu. (**təkin**: seçgin. quzidə).

(**təkin kişi**: təkcə kişiki).

təkinə yatma, təkinə durma, ellərə qoşul təkinə qalma. (quraşın yaraqlan ol çıxırsan eşiyə, təkllik tanqalıq yaraşmır kişiyə. (**tanqalıq: > tənhalıq**).

təklik yamanaraq düzələr. (**təklik**: yalnızlıq). (**düzələr**: aradan qalxar).

təqmə kişi öz olmaz: yadla yağuq düz olmaz. (hər gələnə öz demə, hər gedəni, qov demə).

təlbə hamunu səfeh, dəli hamunu dəli görər. (**təlbə**: səfeh. axmaq).

təlbə söylə işin, ələn versin dişin. (**təlbə**: dəliyə). (**ələn**: əlivə). (dəlidən uyqun iş bəklənilməz).

tələsən cayır, suçağan yanır.

tələsən tələsir, iş çağında bitir. (tələsən tələsir, iş olacağına varır).

tələsən tələyə düşər.

tələsən tülə düşdü. **(tül:** tor. tələ).

tələsən, tez qapanar.

tələsən, tələyə düşər.

tələsən, yolda qalır.

tələsəndə biz, itirəndə, hər nə çağında bitir, çağında itir, tələsəndə biz, itirəndə biz.

tələsik düşünmə, düşündün tələs.

tələsmə, amma tez ol.

tələsməklə, yol qısalmaz.

təlpəng itirsə sağbaş , çox keçmədən tapılmış. yaman onda itsin baş, bir təlpəni qoranmaz. (**təlpəng**: təpələng. papaq) (**sağbaş** :əğli səlim). (**qoranmaz**: yiyələnənməz. saxlayanmaz). (**təlpəni** : təlpəngi. təpələngi. papağı).

təlpəng itirsə sağbaş, çox keçmədən tapılmış. yaman onda itsin baş, bir təlpəni qoranmaz. (**təlpəng**: təpələng. papaq) (**sağbaş**: əğli səlim). (**qoranmaz**: yiyələnənməz. saxlayanmaz). (**təlpəni**: təlpəngi. təpələngi. papağı).

təmbəl axşam yatanmaz, dan irtədə duranmaz.

təmbəl ayağda yuxlar, yatağda işlər.

təmbəl ayaqda yuxlar, yataqda işlər.

təmbəl, toyuğ yatanda yatar, zirək (sivrək), toyuğla durar.

təmbələ gənəşən, sənə bir dünya iş öğrədər.

təmbələ iş buyursan, sənə ağıl öğrədər. (təmbələ gəngəş, sənə bir dünya iş öğrətsin).

təmbələ yuxu dərman, loğaza gülmək.

təmiz su axar, kirlisi qoxar.

tən ağrısa, can sızar. (**sızar**: sızlar).

tən düşür tindən, tinin kəndi uçar yüksəklərə, çatmaz əl, yerdən ayaq üzmək gərək. (**tin**: iç. ruh).

tən yaxışı don. **(yaxışı**: bəzəyi.. iffəti).

tən yaxışı don. (**yaxışı**: bəzəyi. iffəti).

tən yükün ayaq, tin yükün, ürək. (daşır). (**tən**: gövdə). (**tin**: ruh).

tənbəl deyər. -ver yeyim, ört yatım, gözlə canım çıxmasın.

tənbəl olan oyğul olar, ağır işin çəmin tapar. (**oyğul**: fikirli).

tənbələ yuxu dərman, loğaza gülmək.

tənbəlin qamçısı az olmasın, gəvəzənin gəpi.

tənbir tinbir olanlar, ağ qarasın bulanlar, aylın aylın aylanar. (**aylın:** səma'). (**aylın aylın aylanar**: dönər dönər fırlanar).

təndə can, beş gün qonaxdı, çox günah arturma gəl.

təndə tənə dən gərək, tində tinə dən gərək. (**dən: dənğ**. əş). (**tən:** boy buxun. gövdə. bədən). (**tin:** iç. ruh).

təndə yatan istəklər tində doğan arzular deyil.

təndir issi olsa, çörək saxlar.

təndir sıcaq, saxlayar çörək, sıcaqlı söz, sevdirər ürək.

təndiri isdi görüb çörək yapma.

təndiri isdi görüb çörəyin yapma.

tənhalık tanqalıqdır.

təni açan uyutar, tini açan oyatar. (**təni**: gövdəni). (**tini**: ruhu. beyni).

tənim gəzir ayaqda, içim dönür ıraqda, başım qalmış bulutda.

tənim gəzir ayaqda, içim dönür ıraqda, başım qalmış bulutda.

təniyə görə budağı, dədiyə görə oğulu.

təniyə görə kötüyü.

təntiyə söz vermə, qoluna bel vermə. (**təntiyə**: təmbələ). (**söz vermə**: söz tapşırma). (**qoluna bel vermə:** işinə güvənmə. dayanma). (bel versən işin qalar, söz tapşırsan yerə düşər).

təpəgən qoç tez kəsilir.

təpələr bitməz aşmaqla, könül doymaz yaşamaqla. (bir baraqlar, amaclar gərək).

təpər təpər, sal düşmana təprəmi!.

təpərli dağ devirir.(**təpərli**: qeyrətli).

təpərli dağ devirir.(**təpərli**: qeyrətli).

təpiyə tübəndən aşır. (**tübəndən**: dabandan. ətəkdən. aşağdan).

təprəm gələr, yer cırılar şırıq qalar, sevgi keçər, könül sınar qırıq qalar.

təprəşən qır aşdı, dırmaşan dağ aşdı. {qımıldan qır aşdı. (**qımıldan: qımıldayan:** təprəşən). (**qır**: çöl. düz)}.

tər axırsa göz yanar, ondan qoran qaş olar, qanmağıla inanmaq birbirinə yad olar. (**qoran**: qoruyan).

tər axırsa göz yanar, ondan qoran qaş olar, qanmağıla inanmaq birbirinə yad olar. (**qoran**: qoruyan).

tər qanla göz damlası, biri əmək, biri düşük, biri seviş simgəsi.

tər qanla göz damlası, biri əmək, biri düşük, biri seviş simgəsi.

tərs baxışlı (qaramsər) kişilərdən uzaq!. onların hər bir yola əngəli var.

tərs baxışlı (qaramsər) kişilərdən uzaq!. onların hər bir yola əngəli var.

tərs çönəndə baxtlar, gülcərədə tikən batar ayağa, qışın günü ayran dolar çanağa. (**gülcərədə**: güllükdə. gülüstanda).

tərs kişilər almasa sənin çevrəvi, başda iyi duyqların tez dəğişər tərsliyə.

tərs tüs ilə doğru yolağ alınmaz. (**yolağ**: təriqət. məzhəb). (**alnamaz**: **alınmaz**. tutulanmaz).

təzə evə köçəndə, əsgi evdən kül götür.

təzək qarda yatışmaz, uyuş uysuz (eyuk eysiz) qatışmaz. (təzək qızışıb qarı əridər, yaxcı pis qarışmaz).

tıxan sınırı, tutar qırığı.

tıxanıbdır boğazım, dadsız ağız, yox gümanım atmış ola birdə danım, yarı can düşmüşəm əldən quruyub əl ayağım, duvağımda yıxılıb yox dayağım. (qocalıqla yalnızlıq).

-tıxıta taxılmayan, yaxılar. (fizulun qarşın almayan, suça batar).

tıxıta taxılmayan, yaxılar. (fizulun qarşın almayan, suça batar).

tik çıxsın, dilə gəlsin.

tikan biləməklə itilməz.

tikan butasından gül dərilər, yaman qoldan ürək dəlinər. (**qoldan**: əldən).

tikan ititməklə, itilmək.

tikan tikanı sökər. (tikanla tikan sökülər). (batan tikanı tikanla çıxardırlar).

tikan, biləməklə itilməz.

tikanı, tikanla çıxarırlar. (batan tikan, tikanla çıxar).

tikanla tikan sökülər. (tikan tikanı sökər) batan tikanı tikanla çıxardırlar).

tikansız gül baxcası. (tam iyiliklərin, gözəlliklərin olduğu yer).

Tikə qarın doyurmaz sevgi artırar. (Araz Gunduz).

tikən acısı gedərgi, dil acısı qalarğı.

tikən acısı gedərmiş, dil acısı qalarmış.

tikən batab yerdən, gömük quylağ yerdən çıxar. (**batab yerdən**: batmış yerdən). (**gömük**: gənc).

tikən bitər başına, yaşarikən gül bitir.

tikən quru, yandaq höl. (**höl**: şeh). (**yandaq**: tikan kolu. dəvə tikanı).

tikən mənim, qol sənin, dərməyə nə varki. (tikən yerdən, qol səndən, dərməyə nə varki).

tikən yerdən, qol səndən, dərməyə nə varki. (tikən mənim, qol sənin, dərməyə nə varki).

tikəndən darı ündüm demə. (tikəndən darı yetişməz).

tikəndən darı ürüdüm demə: - tikəndən darı yetişməz.

tikənlə gül ayrılmaz, əkrilməsə avrılmaz. (**əkrilməsə avrılmaz**: əkilməsə, səprilməsə, saçrılmasa yığılmaz, dərilməz).

tikənsiz gül olmaz, əngəlsiz yar olmaz.

tikənsiz gül, əngəlsiz yar olmaz.

tikməsə önməz, diləməsə bulmaz.

tikməsən çıxmaz, diləməzsən gəlməz.

tikməyincə onalmaz, dilgəmincə duralmaz. (**dilgəmincə**: dilməyincə. diləməyincə. sormayınca. qurcalamayınca. izləməyincə).

tikməyincə onalmaz, dilgəmincə duralmaz. (**dilgəmincə**: dilməyincə. diləməyincə. sormayınca. qurcalamayınca. izləməyincə).

tikməyincə onğamaz, diləməyincə bulnamaz. (tikməsə önməz, diləməsə bulmaz). (tikməyincə onmaz, diləməyincə, bulmaz).

tikməyincə onmaz, diləməyincə, bulmaz.

tikrar olunan söz, yalansılaşır. (qaytalan söz aldağan olur). (bir söz çox deyilirsə, təkərlənirsə, tikrar olunursa yalan olmaq olasılığı çoxalır).

tiksən biçərsin, sorsan bilərsin. (**tiksən**: əksən).

tin diləni (nəfs istəyəni), dil deyər, göz sezəni, qol edər.

tin diləni, dil deyər, göz sezəni, qol edər.

tin durar bir qurd dolum bilməz, doyum sanmaz. (**tin**: nəfs).

tin sağlığı, tən sağlığından qabaq. (**tin** : iç. nəfs. ruh).

tin sağlığı, tən sağlığından qabaq. (**tin**: iç. nəfs. ruh).

tıncıvı gəvə, sonası gəpə. (tikəvi çeğnə, sonra danış. düşün danış). (**tıncıvı:** tikəvi).

tini ölük təni qalıq kişilər. (**tini**: ruhu).

tini tindən, təni təndən, canı candan aralı. (**tin**: soluq. ruh. köksüdə, könüldə olan güc). (**tən**: gövrə. bədən. cism). (**can**: təndə, başda gəzən güc).

tirsin utan tərsəməz. (**tirsin**: hirsin) (**tərsəməz**: yanılmaz).

Tısbağa qınından çıxdı, qının bəyənmədi. (Araz Gunduz).

toğar görməz, yaş pişməz. **{tağar:** < **toğar**. **tuğar**. (< **tuğ**) (iki dalqa arasında oluşan qorxunc oyuq). təhlükə. risk}. (risksiz gənc pişməz).

toğlaçıya (kərpişçi) günəş, cütçüyə yağmır.

tox aca, ac toxa inanmamış.

tox aca, uvağ doğrar.

tox at yorulmaz.

tox bala, eçtəməni oylabayt. (**oylabayt**: oylamaz: düşünməz). (uşağın qarnı toxdursa, heç nəməni (heç nəyi belə) düşünməz).

tox çalxanmaz, ac doymaz. (**tox**: dolu).

tox dediyin düşünsün, ac yediyin.

tox deyib tülküyə barmaqdansa, ac deyib qurda var. (tox olan tülküyə barmaqdansa, ac olan qurda var). (kişilikdə tülkülük, yırtıcılıqdan qat qat yamandır).

tox dursun!. gerçək gülü qızarmaz, tikanlıqdan qutarmaz, yaşıl doğub, yaş qalar!. (tox dursun!: hak yaşasın). (yaş: gülən. gözəl. gənc. sulu. ölməz).

tox edəni ac edənməmiş, tox yıxanı ac yıxanmamış.

tox gözü ağzındakı doyurdu, ac gözü dünya doyurmadı.

tox xoca, ac qurddan yamandır.

tox ikən, yemək yeyən, dişi ilə qəbrin qazar.

tox it yuvasında hürməmiş.

tox it yuvasında hürməmiş.

tox qalmasın poxu deyər, ac qalmasın poxu yeyər.

tox qarın hər nə deyər, ac olan hər nə yeyər, bağın salan barın yeyər, igit varlı varın verər.

tox olmağa bir tikə çörək, bəliyə nə gərək, bəylər vardır gözü acın götündə. (tox durmaq üçün bəy olmaq, çox varlı olmaq gərəkmir).

tox olub, gözə baxma, ac olub, götə baxma.

tox, ac bağırın duymaz. (**bağırın**: bağırtısın. çığırtısın. fəryadın).

tox, acın götün güdməz.

toxar qapı, buldun tapı. (haqqa açılan qapını buldun, tapıntıvı (gəncivi) buldun). (bu qapıdan qolba qanat qırılmadan keçilməz, əşsiz dossuz, arman amac tutulmadan girilməz).

toxçuluq yoxçuluq birgə doğur.

toxdala isduyuvu qızma belə, yel gətirmiş qalamır, gedir yelə. (**toxdala:** cilovla. kontrol ed). **(isduyuvu:** ehsasatıvı).

toxdalı gəl iş olsun, əğri otur düz olsun (əğri otur düz danış).

toxdayan dincəlir, yeriyən yol alır.

toxdayan taxda oturmamış. (**toxdayan**: təskin tapan).

toxduğa, toxlu əti dad verməz (doyandan sonra, toxlunun əti toprax dadır)

(toxduğ: boğazına dək tıxmış).

toxikən, yemək yiyən, dişilə qəbrin qazar.

toxlar deyər acalmaz, aclar deyər toxalmaz, yaşlar deyər qocalmaz, evrən saymaz yaş neçə, gündüz ola ya gecə.

toxlar deyər acalmaz, aclar deyər toxalmaz, yaşlar deyər qocalmaz, evrən saymaz yaş neçə, gündüz ola ya gecə.

toxlu qarıncaya yol veririz, toxsuz fili yolundan ediriz, bəlkidə başı qarlı uca dağ değiliz, bir addımda keçiləcək təpədə değiliz. **(toxlu**: haqlı).

(**toxsuz**: haqsız).

toxlu toxu toxdadar. (çox, çoxa axar).

toxlu üzüb, quyruqda pıçaq sıma.

toxluq nə dedirtməz, aclıq nə edirtməz.

toxluq nə deditməz, para nə editməz, aclıq nə yeditməz.

toxluq nədir acdan sor.

toxmaq vardı daş yarar, toxmaq vardı baş oyar. (**toxmaq**: çırpma. tənqid). (**oyar**: oydurar. düşündürər).

toxşa deyir olmasın gərək, başım deyir dönəsən gərək, könül deyir dənəsən gərək. (**toxşa:** məntiq). (məntiq deyir mümkün deyir, ağıl deyir qayıtmalısan, ürək deyir sınamalısan).

toxu ağırlamaq, zor olur.

toxu təprətmə, acı gəplətmə.

toxu toxusan, bez olar, cəhrələsən, ip olar.

toxul gəzən hər nə gəlirsə deyir, acılgəzən hər nə tapırsa yeyir. (**toxul**: hər nədən tox olan) (**acul**: öləsi ac olan).

toxun acdan alası yok, acın toxa verəsi yok.

toxun başına bol yağar, acın başına dol. (toxun başına yağ damar, acın başına dolu).

toxunan dil ilə, açılmadı diş ilən.

toxunmasın kimsə dilə, dinimə, biri varlığımdır, biri inancım.

toxunmaz qaranın çoxu yaxşı.

tom ağaca quş qonur.

topal ilə gəzən, axsamaq öğrənir.

topallamaz axsaq yox, qan görməmiş sallax yox.

topdan çıx, kopdan yox. (qurupçuluqdan uzaq ol, cəmiyyətdən yox).

topla kəndin al ələ, el içində yararsan nəyə?.

toplum yaşam savaşda (cummada savunmada) keçir, bu savaşı qazanan itirməz. (ama özəl yaşam barış alanıdır. barışı qazanmasan itirdin!!).

toprada bitmiş güllər, ömür sürmüş üç günlər, bitən güllər könüldə banqu qalar evrəndə. (**banqu: manqu**. ölməz).

toprağ çörəyi ilə, kişi, əməyi ilə.

toprağın aldıran (itirən) ac qalar.

toprağın dəğəri, oturanındandır.

toprağın ululuğu (qiyməti) olanındadı, köçənində yox.

topraq bağlıdır dağına, dağı topraqdan ayırmaq olmaz, dağ ayrılırsa topraqdan, toprağı qorub saxlamaq olmaz.

topraq belinən, kişi bilinən. (topraq belnən, kişi bilnən). (topraq belinən işlənir, kişi bilinən). (toprağa bel gərək, kişiyə bil gərək). (toprağa bel gərəkir, kişiyə bil).

topraq diyər: tərlə mənə, zər töküm sənə.

topraq əkdirənin deyil, əkənindi.

topraq əkən ac qalmaz.

topraq günəşlə qatılır (bərkir), kişi iş ilə.

topraq nədir: -duran yerin topraq, qalan yerin topraq, gömən yerin topraq.

{tikilən gözü toprağa, oxlamasan toprağa, salar səni toprağa. (**oxlamasan toprağa**: oyub yerə tökməsən)}.

topraq öz payın həmməşə alacaq.

topraq şoraq gül bitməz, başdaqsız iş son yetməz. (**baştaqsız**: başçısız).

(**son yetməz**: sonuca yetməz).

topraq ülüş götürməz. (topraqdan pay olanmaz). (ülüş: bölüş. pay. səhm).

topraq üzü soyuqluq, para üzü istilik.

topraq verən yersiz qalıb gəbərir.

topraq, içindəkin gücədir (becədir).

topraq, qoynuna aldıqlarını vermir.

topraqda, güclülərdə çürür.

topraqların dadlısıda, yurd olmuş!.

topraqsız kişinin varlığı danılır. - quşlarında var umaq evi qonmağa, baş

götürüb çalsa qanat uçmağa.

torayğa yağış yağasa, balasın qorur, dolu yağsa, özün.

torba ağzı yığılmış, elin ağzı yığılmaz.

torba tikilib, qapı bağlanıb. (artıq hər nəyə gec).

torğay uçsa topmen. (**torğay**: tarla quşu). (**topmen**: topuyla. həp birlikdə).

torlağı bəslə, gözün çaxartsın.

Torpağın üzü soyuq olur. (ölənlər tez unudulur anlamındadır).

toruvu sal suya ki, var balığı.

tosunsan çox hələ pişmək üçün işlər gərək. (**tosun:** naşı. əcəmi. iş görmədik. pişmədik. bərkiməmiş. təcrübəsiz. xam).

tovca ölüm bilməz. (**tovca**: enerji).

toy aldışı oynama, yas aldışı ağlama. (**aldışı**: rəsmi. adəti).

toy çalqısız, yas ağıtsız olmaz.

toy gəlşiğü bağşıdur, sözün düzü yaxşıdur. (**gəlşiğü**: yaraşığı).

toy oynağsız, ev qonağsız olmaz.

toya isti çağın girsən yeğ, bitinmədən çıxsan yeğ.

toyda qız bəyənən, götünə xına yaxar.

toyda qız bəyənən, götünə xına yaxar.

toyda qız bəyənməzlər.

toydan sonra nağara xoş gəldin bayram ağa.

toyuğ həm toyda kəsilir, həm yasda.

toyuğ yesən bir gün, yumurtasın min gün yersən.

toyuğ, eşinə eşinə göz açar.

toyuğun başı dənə qarışıq, yumurta doğar götündən. (doğa yasaları qaçınılmaz).

toyuğun məməsi, dimdiyindədir.

toyuq həm toyda kəsilir, həm yasda.

toyuq kimi olma yesiri, pətəyin, dənləyib doldurur, tökür təzəyin. (**pətəyin**: çinəligin. qarnın). (yemək düşgünü olma).

Toyuq ölsə bir ovuc tükdü, Dəvə ölsə dərisi də bir yükdü. (Ara Gündüz).

toyuq ölsə bir tükdü, dəvə ölsə dərisi bir yükdü.

toyuq şişər, şişək olmaz, qubba (günbəz) üsdə, cəviz durmaz.

toyuq yatanda yat, xoruz duranda dur.

tozda duman, tündə tütün görünməz. (**tündə**: qaranquda).

töğülən dəmir sınmasa, sindan olur. (**sindan**: **zindan:** örsan. örsən. üstün döğülən ağır batman kündə dəmir).

tök boğazına sıç ağzına. (yaltağı, pulakını, qarınqulunu minik (ulağ. vəsilə. heyvan) edməyə nəvar).

tökəndikcə tükənmiyən varlığımız, sevgidir. (**tökəndikcə**: xərccləndikcə).

tökmə güllər, solmazmış. (**tökmə**: məsnovi).

tökmə su ilə, dəyirman dönməz.

tökülən çanaq geri dolmaz, keçən ömür geri dönməz. (yaşam irəli baxır, sular baxara axır).

tökülmüş süt, göz suyuyla yığılmaz.

törül sevgi bürürsə könül, baş dəlirir. (**törül**: cinsi).

tuğlayıca (kərpişçiyə) günəş, cütçüyə yağmır.

tuxum alda yerə var, hər nə səpsən ol gögər.

tuxum cücə, güzün gələr sayılar.

tuxum cücə, güzün gələr sayılar.

tuxum harda, əkən yoxdur, suvarma yox, biçən olmaz.

tuxumu bizdən suyu ondan. (**ondan**: tanrıdan). (tanrıdan artıq gözləməməli).

tuxumu yazdan, balanı yaşdan əkit. (**əkit**: becərt. tərbiyət ed). (**yaşdan**: yaşkən. uşaqkən. uşaqkən).

tulbar yükün ornatmaz. (**tulbar:** savaş atı). (**ornatmaq**: olduğu dəğərin vermək). (savaş atı, yükün ağırlığın var saymaz, sezməz).

tulla bata qorxunu, yanlış yaparsan işi, doğrunu sən yaparsan, yanlışı sən anlasan!.

tulla bata qorxunu, yanlış yaparsan işi, doğrunu sən yaparsan, yanlışı sən anlasan!.

Tullan baxaq! (Araz Gunduz).

tullananın ardıca tullanma.

turmuşda başın dikə tut, alt olan başa döğən çox olar.

turuzun doğumuna sevinməyən, ölümünə döğünməz.

tusqun qılıc sökənməz. (**tusqun**:. paslı).

tuş gətirsə yağdırar, tuş batırsa (batır isə) caydırar. (**tuşu:** bəxti).

tuş olsan yaman qadına, yaşın ötər qor ilən. (**qor:** şər).

tuşlamasan cayğıldığın min oli, tuşalayarsın cayğıldığın bir oli. (**tuşlamaq**. tuçlamaq.. tuş tuşlamaq**.** amaclamaq).

tuşlatı səndən, düşləti məndən. {görsəti səndən, qalanı məndən. sən görsət, qalanın mən özüm bilərəm (neylirəm).}.

tuşun tuşlamayan, düş qalır. (şansın əlinə almıyan, düşür, sınır, batır, məfluc yeyir.) (**tuşu:** bəxt).

tuşun tutub tuşlayar, quşun tutub quşlayar, işin tutub işləyər, keçər günü bal kimi, bir dad olmaz yağ kimi. (**tuşlamaq**. tuçlamaq.. tuş tuşlamaq**.** amaclamaq).

tut, tutulma!.

tutalım devrimizin həzrəti isası mənəm, bu soxa soxda necə mən mö'cüzə icad eliyim.

tutalım var tovanın, işlədə bilmək gərəkir.

tutan bitirdi, küsən itirdi!.

tutan, işin bitirən, gedən yerin itirən.

tutar qatıq, tutmaz süt.

tutar, kim pusu qoya gecə ilə, məsəldir ərlik on, doqquzu hiləilə. (**pusu**: tələ).

tutarın bilməlisən əldə olanda günüvün, yola çıxmazdan alunda yoluvun qıl yarağun. (**alunda**: qabağ. öncə).

tutcu verir bir gün alır. **(tutcu**: **tutuc. tutğuc.** həmməşə. barqın. barqan). həmməşə verən bir gün alır.

tutda qolum, sıxda güvən bırakma, ya qır itin qutar məni uzatma.

tutduğu işi bitirir, getdiyi yerdən gətirir.

tutduğun altın, qılıcın kəsgin, sözün keçgin olsun. (**tutduğun**: dəğdigin). (alqış).

tutduğun amac, verur işə tac. (**tac**: qiymət. dərək).

tutduğun amac, vər işə tac. (**vər**: verir). (**tac**: qiymət. dərək).

tutduğun qoyur, qaçanı qovur.

tutduğun yol doğrular uğru, kəndinvə güvən atavun oğlu.

tutduğun yol yasamır səni , sən yolun yasa !. (**yasmır: yasmır: yarmır: yaramır:** düzəltmir).

tutduğun yol yasamır səni, sən yolun yasa !. (**yasmır: yasmır: yarmır: yaramır:** düzəltmir).

tutduğun yollar çıxmazdan ərir, geddiyin yollar çıxmaza varır. (**ərir**: gəlir. dönür).

tutduğun yön, hızığından yeğ basar. (**hızığından**: çabuqluqdan). (**yeğ basar**: önəmli).

tutduğun yön, hızığından yeğ basar. (**hızığından**: çabuqluqdan). (**yeğ basar**: önəmli).

tutduğunda durarsan, istəyivə çatarsan.

tutğun alıb qul satan dünya. (əsir götürüb qulluğa, qul kimi satan).

tutqunluğun tükitən, uçqunluğa yol açar.

tutquyla öz işinə yapışır, gün görmədən gecə belə çalışır. (tutqu. düşgünlük. qurdluq. girişiklik. girşiklik. girişinlik. girşinlik. qurumsaqlıq. amatorluq).

tutma yüngül dilivi, türkcə dilin inci dəgər. (**inci**: mərcan. mirvarid).

tutsa işi kişinin qar əriyib yağ olu, dönsə işi kişinin, yağı donsa qar olu.

tutsa işin, qızıl olar əldə qum, batsa işin, qızıl əldə olar qum.

tutu budur tüm yaxşılar bəklənirkən az gəlir, hər bir yaman bəklənmədən güc gəlir. (**tutu**: qərar).

tutub duran utanmış, atıb qaçan utanmaz.

tutuğ barmaz dözümlə, çalış atış olmasa. (**tutuğ**: qəsd. murad).

tutuq deşik tüstü verməz.

tutuqla açıq dan atanca bəllənər.

tutuqları boşlamadan, dusdağıvı uçurtma. (**boşlamaq**: bıraxmaq. ötürmək).

tutuqlu (paslı) qılınc, baş kəsməz.

tutulan bir gün qutular. tez geci var, tezi qazaş geci bataş.

tutun qopuran iylənir. (tüstü salan tüstüyə tutular. odu pülüyən, oda düşər. aşıran, aşar. aşıran, aşacaq).

tutun qopuran iylənir. (tüstü salan tüstüyə tutular. odu pülüyən, oda düşər. aşıran, aşar. aşıran, aşacaq).

tutunmadan utunmur. (**tutunmadan**: müsəmməm olmadan). (iradə edmədən, çabamadan qazanılmır).

tutunmadan yol tutma, tanımazdan qol tutma. (**tutunmadan**: arxayınlıqsızın. müsəmməm olmadan) (qol tutma: əl tutma).

tutunmadan yol tutma, tanımazdan qol tutma. (**tutunmadan**: arxayınlıqsızın. müsəmməm olmadan) (qol tutma: əl tutma).

tutuşmadan tutuzluqlar əl verməz. (**tutuşmadan**: çalışmadan. döğüşmədən). (**tutuzluqlar**: müvəffəqiyyətlər).

tutuşmasa düzəlməz, tüpürməsə açılmaz.

tutuşmasa düzülməz, tüpürməsə açılmaz. vuruşmasa, qarışmasa, yarışmaz, əsişməsə açışmaz. üzülməzsə düzülməz, bulanmasa

durulmaz, solummasa sevilməz, gömülməsə görünməz, alınmasa qalınmaz, təpilməzdən tapılmaz, tapılmadan təpilməz, çalınmadan salınmaz.

tutuşmasa yanmaz, çalışmasa qanmaz.

tutuzlular utanmış, tutuzsuzlar utanmaz. (**tutuzlular**: bəfalılar).

tutuzuş varsa utan var, utuzan var.

tükan olsa doslarıvın ovlağu, alver köçər, çıxar onun çovlağu. (**çovlağu**: şoru. çürüyü). (iş yerinin dosluğu, alverivin poxluğu).

tükənib tanıq oldular.

tükənməz malın olunca, utanmaz üzün olsun.

tülkü ayıq gəzər. **(**tülkü gəzən dağ bərəni tanıyar).

tülkü deyər: özüm üçün demirəm, amma üzümsüz bağ qurusun.

tülkü əfə dadlı dillər söylədi, qarqa bəydən pəndirini almağa.

tülkü ətə gələr, dovşan ota.

tülkü gəzən dağ bərəni tanıyar. (tülkü ayıq gəzər).

tülkü ilə çaqqal bol olar, qurd olmayan meşədə.

tülkü ilə çaqqal nə gəzir, qurd olan meşədə.

tülkü qolay avlanar, tazı çıxsa yutdaşı. (oğru dosduyla, tanışıyla qolay tutulur).

tülkü quyruğun tanımaz.

tülkü quyruğundan övünməsin, xoruz banından.

tülkü olursa dosdun, qurulu qapanın olsun.

tülkü ovlayan iti, sınamazlar.

tülkü ölümü, aslan ağlatmaz.

tülkü öz quyruğun tanıq çəkər.

tülkü öz quyruğun tanımaz.

tülkü salar xolları, dovşan alar kollari.

tülkü vardır kəsir, qurdun adı yamandır.

tülkü yatağın bilir.

tülkünü min bir sapalağı var, ən güclüsü görünməzlik. (**sapalaq**: buruq. oyun. kələk).

tülkünün gəzib gəldiyi yer, kürkçü tükanıdır.

tülkünün quyruğu, başından dəyərlidir.

tülkünün min bir fəndi vardır, ən güvənlisi gözə görünməməkdir.

tülkünün türküsü, xoruz banı.

tülküsüz topraq, öz tazısız yurd olmaz.

tülküyə sevilməz, yügürən tazı.

tüm aləmə xeyri şərri sən yasadun. sığıncağım tapıncağım, tapundur (xitmətindir). yatancağım, yastancağım qapundur.

tüm anılar silinmiş, heç bir keçmiş yoxiymiş, keşmişdə məndə durmaz.

axıb keçən çayam mən.

tüm anılar silinmiş, heç bir keçmiş yoxiymiş, keşmişdə məndə durmaz.

axıb keçən çayam mən.

tüm barışa altın haçar, yarış iş. (**barışa**. çatağa. ərişə. nailiyyətə).

tüm barışa yollar açar iş çalış. (**barışa**. çatağa. ərişə. nailiyyətə).

tüm başarı saklı səndə, kəndivə güvən güclüsəndə.

tüm başınla düşün, tüm könüllə inan, tüm gücünlə çalış.

tüm böyüklər uşaqlıqdan böyümüş, ama çox az böyük uşalığın anıqlar.

(**anıqlar**: xatırlar).

tüm dalqalar oğurla yoğrular. (**dalqalar**: xəyallar). (**oğurla**: zamanla).

(**yoğrular**: düzən tapar). (zamanla çox şeylər düzələr).

tüm güvənmə kimsəyə, qoyar yaman günlərə.

tüm qayğı kitin söküb atmış, mutluğa, sevincə ultanmış. (**qayğı kitin**: qussə kədərin) (**ultanmış**: çatmış).

tüm qüllərdən yaz olmaz, bir gül ilə yaz başlar. (**başlar**: gəlir).

tüm nisgillər hamısı, çox əkilən, az cücərən, sevi adlı tuxumdandır. (**sevi**: məhəbbət).

tüm salıqlar yetərmiş, ölüm salıqdan sıvay. (**salıq**: xəbər).

tüm ulduzlar, bir aycanı dəğişməz.

tümün istəyən, tümü itirər.

tün düşürsə ağgünümuz qaralar, arman qalsa gənc könlüm yaralar, soyuq düşsə yağış dönüb qarolar, vırqın vırıb soldu ömür gülləri. (**vırqın**: bəla. fəlakət). (**arman**: çatılmamış, uzaq duran arzu).

tün ertinlə yarınar. (**tün:** gecə) (**ertinlə:** sabahla). (**yarınar:** ışıqlar). (gecə sabahla ışıqlar).

tün gün durma ağlayu, yaşın gözdən savlayu, balta götür yavuz başın yar gilən, qazma götür dərin gorun qaz gilən. (**savlayu**: coşub axıdıb. töküb).

tün günü, gün tünü, kölgə günü, gün kölgəni tanımaz.

tün qapısın tınq açar. (**tınq**: **tınqa**: **danqa.** qara pul).

tün yoğar, gün doğar.

tündə bəslənən, tanqası doğar.

tündə bəslənər, danda səslənər.

tündə görməyi bayquşdan, gündə görməyi bürkütdən. (**bürküt**: qartal).

tündə görməyi bayquşdan, gündə görməyi bürkütdən. (**bürküt**: qartal).

tündüz yerin, gündüz sevin, kiçdə evin, ulğuz sevin. (gecə yeri, günüz dincəl, yaşkən (gənckən) evlən, yaşlıykən dincəl).

tünlə belə basıldı, dəğmə yana pusuldu, tarla bağı pozuldu, uşaq ərən biçildi, dayanma dur indi gəl. (ər altunqaya qayğırış).

tünlü tünün tininə düşdük: çox pisin pisinə düşdük.

tünlükdə alçaq könüllər itir, itgin qalır, içlərin ucuz satanlar qabarır. (**tünlükdə**: çoxluğda. qalabalıqda).

tünlükilə gün keçsə acı dadlı bəllənməz.

tünlüyüzdən ay göründü, könlümüzə, car göründü. (**car**: ışıq).

tünüz oda, günüz düdə gedən çox. (**tünüz**: gecə).

tünüz oda, günüz düdə gedən çox. (**tünüz**: gecə).

tüpən qalxar bulut sürünər, tüpən yatar qalığ süzünər. (**tüpən**: tufan) (**qalığ**: hava) (**süzünmək:** durunmaq. saflanmaq).

tüpür acını, yala dadıını.

tüpür göyə, topar üzə. (**topar**: yığ).

tüpürdün utanmadan üzünə, utanmazın, tüpür üzünə!. (ana dilin danan).

tüpürüm mən üzüvə "dosd asdıran" dosdum sənin.

türdəşlər birbirilə ölçüşər. (dadla acı, yaxcıyla pis ölçülməz).

türk dəmir deyir, pas yeyə. (**pas**: 1. dəmir pası, pusu. 1. fars. tat).

türk dili bağa bənzər.

türk dili birdir, min qollu olsada. (türk dili birdir, türkcəmiz min).

türk dilinə tük bağlıyan, poxun yeyib, başı şişsin.

türk doğma demək, azeri yapma demək. (**yapma:** çıxma.qondarma).

türk doğma demək, azeri yapma demək. (**yapma:** çıxma. qondarma).

türk elin, tanrım yarqulasın, yarquladı, sona qoysun işin, çəksin bu qaraqlıqı, yaratsın ağı. atalar sözü söz yaraşığı.

türk ərin dönük qırar. (**dönük**: xain).

türk igidləri yaraqlandı, yaraq bəkli, sanki ulduz.

türk kimi türkana, çalışqan. (**türkana**: alçaqkönül. mütəvaze').

türk kimi yaşa, qonşunu boşa. (ilkin kəndivi düşün).

türk qonaqları, toylayıb, yaylamaq gərəkir (gərəkdir).

türk sözü yaraşır türkün adına, tez düşər, kim minər özgə atına.

türk tatlamaz, tatlayırsa dadığı çıxar.

türk tatsız olmaz. (**tat**: yad (yağu). (türk yağusuz olmaz. türkə qısqanan köp olur).

türk tək qalmaz. (türk olasan tək qalasan, olamaz).

türk türkü vurar, arada **'tat'** (yad) aparar.

türk, türkcəni yanlış yazamaz, kal olan bu dadlını anlayamaz. (**kal**: yad).

türk, türkü vurar, arada 'tat' aparar.

türkce düşün, türkce döğün, türkce sev.

türkcə canım, damarda qanım.

türkcə oyun, türkcə yazın, türkcə gəp!.

türkcəmizə qarışsa, yaban dili olar tat, qara qatıq qanmazları, kəltə beyin tulla at. (**qara qatıq qanmazları**: qəliz yoğun, gobudları). (**kəltə**: güdə).

türkcəni unudan türk qala bilməz.

türkcəni yaşatmaq, türkü yaşatmaqdır.

türkə bir səlam ver, yeməyi özü verir.

türkə düşman yaradan çoxdur, türkün doğma düşmanı yoxdur.

türkə, dilmac gərəkməz.

türkəm, qaçanı qovmaram, qovandan qaçmaram.

türklərə başqa dil ilə tanrını banlamaq olmaz. (**banlamaq**: çağırmaq).

türklük dillə inancdadır.

türklük yaşam diləyim sizə. (**türklük**. türk kimi).

türksüz tat olmaz, börksüz baş olmaz.

türkü anlamaq üçün kişidən dinləmək gərək!.

türkü tanı, türkə inan, türkü sev!.

türkü yazın besavatlarda oxusun.

türkün dəb ərdəmi kəməlməsin. (türkdən dəb ərdəm azalmasın).

türkün gözü, türk ardında durarar, erməni gözü, yad götündə uyar.

türkün gücü, türkə çatar.

türkün yoluna türkcəsi bayraq, dilçi çalışa, işçiyə qayrağ. (**qayrağ**: qayrat).

türlü ağac, türlü yemiş bəsləyir.

tüsdü kövrədən çıxar, evdəkin çöllərə yaxar. (**kövrədən**: bacadan). (**yaxar**: yayar).

tüsdüsüz od olar, odsuz tüsdü yox.

tüstü çəkib qızınmadın oduna, özgə dili özgə işi, qarışma sən poxuna.

tüstü çıkar yanandan, iş bəklənər qanandan.

tüstü görsən, od ara.

tüstü harda, od da orda.

tüstü oddan ayrılmaz.

tüstü odla törür, tüstü odu boğur.

tüstü odu, çis yağmuru andırır.

tüstü olub çıxar yolu tap, od olub yaxmağa navar.

tüstü salan tüstüyə tutular. (tutun qopuran iylənir. odu pülüyən, oda düşər. aşıran, aşar. aşıran, aşacaq).

tüstü salan tüstüyə tutular. (tutun qopuran iylənir. odu pülüyən, oda düşər. aşıran, aşar. aşıran, aşacaq).

tüstü sonsuz dadlı, sonu dönülməz acı!.

tüstülü ocaq, qonaqlı ev.

tüstüsüz od yandırır, sağı sola calıyır.

tüstüsüz yanmaq, türk olub, türklügün danmaq.

tüsü qaçmış, isi gedmiş, gülün tökmuş dalı qalmış. (**tüsü**: boyası). (**isi**: iyi).

tüşgə nəmə girməydi, yorcu nəmə diyməydi.

tüt çaydan vur geç, lam çaydan qox geç.

tütdürən tütün islənir. (kənkan pox iyi verər).

tütənlərə: -mator ol! düdü bas dışarı, yox içəri, boğar səni!. (**tütənlərə**: tüstüçülərə).

tütün çıxmaz alov olmayan yerdən.

tütün qopur, islənmə. (iz qoymadan iş yap.

tütün yandı kül oldu, yandıran külə döndü!.

tütün yandı kül oldu, yandıranı kül etdi!. (tütün yandı kül oldu, yandıran külə döndü!).

tütüşməsə düzəlməz, tüpürməsə açılmaz**. (**çalışmayınca, işlənməyincə düzəlməz, yel əsməyincə bürküt (göy bulutdan) açılmaz).

tüys sevgiyə qarşılıq, təmməl sevgi anlamı. (**tüys**: düz. çin).

uc verilsə tapılar onda haçar. (**uc vermək**: nişanə vermək).

uca ağacın gurultusu, dalıynan (daldadır). {uca ağacın gurultusu, dalıynan olur (dalındadır)}.

uca ağacın gurultusu, dalıynandır (dalındandır).

uca başlar enmiş olar ayağa, ağ günündə qara günün qarağa. (**qarağa**: 1. bax. önləm, tədbir qıl. 1. **qara ağa**: bax ağa). (necə uca olsa baş, günü gələr yerə düşər).

uca dağ, dərin dərə. (ucalırsa dağ, çökür dərələr).

uca dağdan duman durub əylənməz. (**əylənməz:** əsgilməz). {kətə (qata. ağır) işlərin yüküdə ağır olur. böyük işlərin qorunma qoşuluda yüngül olmur).

uca dağın başı qar olur, qutlu elin başı sağ. (**qutlu**: baxlı. (**başı sağ**: sağ duyulu. huşlu).

uca dağın ətəyindən düşən ölmədi, alçaq dağın təpəsindən düşən öldü.

uca dağlar qarsız, uca başlar qaysız olmaz. (**qaysız** : qayğısız. ağrısız).

uca dağlar qarsız, uca başlar qaysız olmaz. (**qaysız**: qayğısız. ağrısız).

uca dağlar min yamacdan bir amaca yol verir.

uca dağlar uzqaçqaşdıqca alçalar. (**uzqaçqaşdıqca**: uzaqlaşdıqca). (ötüşlə hər nəyə öğrəşilir, hər nə bayağılaşır).

uca dağlar uzqaçqaşdıqca alçalar. (**uzqaçqaşdıqca**: uzaqlaşdıqca). (ötüşlə hər nəyə öğrəşilir, hər nə bayağılaşır).

uca dağların suyu, çaya axar.

uca oğan burğanı, türlü dərdlər dərmanı. (**uca oğan burğanı**: böyük tanrı buyruğu).

uca tut düşüncəni, ələ al təcrübəni, yansıma, heç kimsəni.

ucalarda yalnız gəzməkdən, yamacda ol çoxluqla. (**yamacda**: ortada).

ucalıq boyda, dərinlik soyda. (ucalıq boydadır, dərinlik soyda).

ucalıq boydadır, dərinlik soyda. (ucalıq boydan, dərinlik soydan).

ucalıqdan qorxan çox, alçaqlıqdan qorxan yox. (ucalıqdan qorxan kimi, alçaqlıqdan qorxan yox).

ucalırsa dağ, çökür dərələr. (**çökür**: batır. dərinləşir). (uca dağ, dərin dərə. (uca dağların, dərin dərələri olur.

ucalmaq üçün, alçaqlardan uzaq dur!.

ucqarların bulutu, qalanarın unutu. (unutur).

ucraq ilən ortuşalı, artışıb. (ras gələnlə savaşıb, ardıda (geri) qalmış). (**ucraq ilən**: ras gələnlə)..(**ortuşalı**: urtuşalı.odlaşı). (**artışıb**: ardıda qalıb)**.**

ucraq ilən ortuşalı, artışıb. (ras gələnlə savaşıb, ardıda (geri) qalmış). (**ucraq ilən**: ras gələnlə).. (**ortuşalı**: urtuşalı. odlaşı). (**artışıb**: ardıda qalıb)**.**

ucuna çıxan, ucadan düşər, aşırı gedən, aşlığa düşər. (**aşırı**: ifratçılıqla. müfritliklə). (**aşlığa**: qarışıqlığa. bəlaya) (bu qısa yaşamda, aşırılıq, müfritlik, panlıq, fanatiklik bərə verməz).

ucuz dadımaz. (ucuzun dadı olmaz). (ucuzlu mal dadımaz).

ucuz verən ömür başa, heçin vurub başın daşa. (**heçin**: boşuna).

ucuz yoxdur ucuvsuz, untay yoxdur sağışsız. (ucuvsuz: illətsiz). (untay: bahalı). (**sağışsız**: hikmətsiz).

ucuza satan gülüşlərin, acıya utar qözyaşların.

uçan (əldən gedən) vara yaxınma, çıxmaz (girməz) yola, taxılma, gəlsə qonağ, qonağla, bilməz (izsiz) yola, alınma (inanma).

uçanmadın, qaçın, qaçanmadın, yürün, yürənmədin sürün, unutmaki ilğəri züyün. (**ilğəri**: önə. qabağa).

uçarsız döğmək olmaz, ac olmasa yemək.

uçqun kiçik durur, evrəni birbirə vurur. (**uçqun**: qığılcım).

uçqundan qorxan, dəmirçi olmaz.

uçmağa gedən (behişt istəyən), ölümə tablaşır.

uçmağı bacaran, sürünməyi bacarmaz.

uçmuş tından (kəsilmiş nəfəsdən) səs çıxmaz. **(uçmaq:** sönmək)..

uçsa ışıq, ışıqlı göz kor qalır. (**uçsa**: sönsə). (lap iti görən göz qaranlıqda kor kimidir). (söz könül açar, bilgi beyin).

uçsa uçuq (uşuq. eşq) od yanmaz, yaşsa (yaşalsa. ıslansa) odun, od qalmaz. **(uçmaq:** sönmək).

uçuq köydə it durmaz. (**uçuq**: xaraba).

uçurluq dəngə pozar. (**uçurluq:** ifrat təfrit. hədd hududun saxlayamazlıq). (ifrat təfrit ədaləti yox edər).

uçurum başı, uçmaq öğrədir, dənizə dalma, üzmək öğrədir.

uçurumda yaşırıq, sevgi yükün taşırıq, bağlanma çox evrənə, gün birində aşırıq. (**gün birində**: bir devirdə. bir günündə).

uçurumda yaşırıq, sevgi yükün taşırıq, bağlanma çox evrənə, gün birində aşırıq. (**gün birində**: bir devirdə. bir günündə).

uçuş bilməz quşun, qəfəsdədi yazısı, qurd ağzıda yuvası.

uçuşa qanat, oxuşa yanat. (**yanat**. ağır əmək. ağır zəhmət).

ufaqlı irili, hər türlü quşlar, var idi suda yaz ilə qışlar.

uğarlı don, dar gəlməz. **{uğarlı** (**< uy)**. məsləhətli **}**.

uğra düşünən, uğur tapar. (**uğur**: xeyir).

uğra yol aç, uğurlu ol. (**uğra**: xeyrə). (**uğurlu**: xeyirli).

uğraşları iş üsdə, oğraşları aş üsdə gör. (**uğraşları**: uğruq, doğruq yolda olanları. doğruları). (**oğraşları**: oğruq, əğrik yolda olanları. əğriləri).

uğraşlıq qapıva gəlməz, çıxıb tutmalısan. (**uğraşlıq**: müvəffəqiyyət).

uğrau izə qoyma. (**uğrau**: xeyr işi). (**izə:** dala. gecə). (xeyr işi gecikdirmə).

uğrsuzun burnuna, qoxu irişir, burun qanır!.

uğrun gözlə, oxu at.

uğrun gözlə, oxu at. (**uğrun**: nişan. fürsət).

uğrunu izun bırakma. (uğurlu işi izə, soraya qoyma).

uğur (yol) tapan var qılıncsız, qılınc vuran var, uğursuz. (**uğur**: yol).

uğur bolsa, oğru doğar. (**uğur**: imkan. fürsət).

uğur dilər, qızıl ələr.

uğur gəlincə, oğru işin görər. (**uğur**: imkan. fürsət).

uğur işi ertələsən yeğ durur. (xeyir işi yubatmasan yaxcıdır). (**ertələsən:** yubatmasan).

uğur verilməz, oğurlanır. (**uğur**: imkan. fürsət).

uğur, oğrusuna pay verər. {qutluq kor quş, tutanındır. (qutluq kor quşdur, oda tutanındır)}.

uğurlu iş qoyma qala yarına, yarın yetər olsunki sən yetmədin.

uğurluqlar ıraqda, qazanmağın bacarqıl. (**uğurluqlar:** müvəffəqiyyətlər**)**.

uğurluqlar ıraqda, uğursuzluqlar yaxında.

uğursuzluqlar evdə yatır, uğurluqlar dışarda. (**uğursuzluqlar**: müvəffəqiyyətsizliklər). (**uğurluqlar:** müvəffəqiyyətlər).

ukar qulaq, tez okur. (**ukar**: eşidən). (**okur**: anlar). (eşidən qulağ, tez anlar).

ukar qulaq, tez okur: eşidən qulağ, tez anlar.

uqqan qulaq yazğınmaz. (duyan qulaq suçlanmaz).

ula olsa yol azmaz, bilik olsa söz yazmaz. (**ula**: göndəri. iz. nişan. əlamət. dəlil. qılavuz). (**yazmaz**: çaşmaz. xətiya gedməz). (**bilik:** ağı. lhuş).

ula olsa yol azmaz, biliq olsa söz yazmaz.

ula olsa yol azmaz, biliq olsa söz yazmaz. (**ula**: qismət).

ulam ulam gedən, istəyə çatdı, ulamsız gedən, uluya qaldı. (ulam ulam: yavaş yavaş).

ulam-ulam gedən, istəyə çatdı, ulamsız gedən, uluya qaldı.

ulatalar deyərmiş, yelin əkən yel dərmiş. (**ulatalar**: ulu atalar).

ulcalar pula yetincə, alçaqları pul enər. (çevrəzdəki görməmişlərdə (yenigörmüşlərdə) dəğişikliyə baxın).

uldağan acı utur, utulan acı qutulur. (**uldağan**: yüksələn) (yüksələn acı, acıq, hirs hər nəyi yakır).

ulduzlu gecə, ay ışığı bir sən olaydın daha bir mən.

ulduzum gözlərin içindən keçir, yolum əllərin ortasından.

ulu başlılar, düşüncəyə döşənər, çal başlılar olayları, boş başlılar, başqaların düşünər!. {başları işləyənlər ulu düşüncələrlə uğraşar, ala, yarımçıq başlılar (çal başlılar) olanları, hadisələri düşünər boş başlılar, başqaları nə edir nə edmirlə uğrraşır}.

ulu dağlar geniş topraq usanar, doğma eli doğma dilin yadavsa, kəsər bolluq, olmaz qolluq ol elə, yaşan eli kəndi dilin danarsa. (**yadavsa**: yadırqasa). (**bolluq**: bərəkət). (**qolluq**: qulluqçu. köməkçi).

ulu qayğı keçərsə, kiçiklərə yol açar.

ulu qayğını iş, kiçi qayğını aş basar. (qayğı, iç bulğa önündə işsiz oturmamalı).

ulu olsada, ölü arslan, kiçik olsunda, diri siçğan!.

ulu yol ulu şəhrə gedər, kiçik yol dağ arası itər.

uludar eldə dəyər, bilik biləklə altun.

uluğ buldun, qulluğunda bulunqıl!. (böyük kişiyə rasladın, qulluğ qıl). (bu söz kişini, böyüklərə qarşı, böyüklərin qatında, yuturqanlığa, qulluğa tapşırır).

uluğ sevgi ərşilməyi güc olsa, kiçik sevgi, bağça gülü oxşarı, hər könüldə gül verər. (**uluğ**: böyük). (**oxşarı**: kimi).

uluğsuz yerin, uluyanları kəm gəlməz. (**uluğsuz**: böyüksüz).

uluqları ulu sevgiylə övən, alçaqları urğu astında yeyən. (**urğu**:. zərbə).

uluqlarla uluq bol, eniklərə göstər yol. (böyük kişilərlə oturub öğrəş). (**eniklərə**: kiçiklərə).

ulular evdə qalıb, kor pişik çöldə.

ulular sözünə baxmayan, uluya uluya qalar.

uluya sayqı gərək, kiçiyi kəmsitməmək. (böyüklərə hörmət gərək, kiçikləri alçatmamaq gərəkir).

uma gəlsə qut gələr, inam gedsə ut gedər. (qonaq özü ilə uğur, bar, bərəkət gətirər, iman geddiqdə, utanmaqda onla itər, gedər). **(uma:** bir yerə, nəyə umuqlu, umacaq, ümidli olan uğrayan, baş vuran, muraciət edən. qonaq).

uma gəlsə qut gəlir.

uma gəlsə, qut gəlir, cütü gəlsə, xoş gəlir.

uma uma, döndüm muma.

uma uma, undan qaldıq.

umac itir, umucu ölür, umuq (umud) qalır. (**umac**: amac) (amac gözdən itir, unudulur, umucu ölür, umuqa (umuda) ölüm yoxdur).

umacdan qalmayar oduncu gözü, tutar üz, gər sezərsə səndə üzü.

uman kişi yıxmasada yıxılmaz, umsuz kişi yıxanmadan yıxılmış. (umut, inanc, güvən).

umar bulmadı, bular ummadı. **{**yaşam bürküsü**)**. (**bürküsü:** müəmması}. (gözləyən tapmadı, çatmadı, tapan, çatan gözlımədi).

umar bulmadı, bular ummadı. **{**yaşam bürküsü**)**. (**bürküsü:** müəmması}. (gözləyən tapmadı, çatmadı, tapan, çatan gözlımədi).

umat gedsə qovub yet, yaman yetsə, qaçıb ged. (**umat**: baxt. şans).

umatlı suya düşdü, ağzında balıq çıxdı. (**umatlı**: şanslı).

umay bir quş durur seçimsiz, dili yox deyə, ərki yox seçə. tapdın dilin yapın, odur sənin umayun. **(umay:** baxt. şans**)**. (**ərki**: ixtiyarı).

umay quşu dimdiyindən bəslənir, çağrı versən səslənir. (baxt quşu öz başına ösüşməz, böyüməz. baxt quşu ilə uğraşmalısan, onu sayıb güdməlisən, baxmalısan).

umay quşun qonaru, tutanmasan uçaru.

umaysızın oğurluğu yağtı aya tuş gələr. (**umaysızın**: qarabaxtın). (**yağtı aya**: ay ışığına).

umaysızlıq yer salar, bacarışlar köçəndə. (**umaysızlıq**: şanssızlıq. korbaxlıq).

umduğun bilməyən yolsuz qalar.

umduğun gözəlligə aldanma könül!.

umduğun güdməyən, bulduğun xoş görər.

umduğun um, bulduğun sənin.

umduğunla yok, bulduğunla gül.

umduq yağı çıxsın, ağı çıxdı.

umduq yağı çıxsın, ağı çıxdı.

umma dəğər özgədən, ver dəğəri sevgiyə.

ummadığın daş, baş yarar.

ummadığın kötük, araba çevirir.

ummasan, küsügün olmaz, ölümə ölüm olmaz.

umud evi bilik ilə biləkdə.

umud könlüdə doğur, işdə səmirir. (**səmirir**: becərilir).

umud üzüb, boşun gəzmə.

umud yolun qazanqıl, umut, dilənmək olmaz.

umudu tükənən işsiz qalar.

umudum deyil göydən, yapan əldən, çapan eldən, deyən dildən!.

umuq edinir, umut yaşanır. (**umuq**: güman. umacaq).

umuq olandan, olasıklığa gedən yoldur. (**olasıklığa**: olması istənilmişə).

umuq olmasaydı kimsə aldanardımı!.

umuq olmasaydı kimsə aldanardımı!.

umuq uzar yarına, sarar səni şarına. (**umuq** : umsunuq. yoldakı umut. gözdə olan, içdə olan özlənti, bəklənti). (**şarına**: qozuna. daşşağına).

umuq uzar yarına, sarar səni şarına. (**umuq**: umsunuq. yoldakı umut. gözdə olan, içdə olan özlənti, bəklənti). (**şarına**: qozuna. daşşağına).

umuq yoxsa umutların kor olar.

umuq yoxsa umutların kor olar.

umuqlara inam yox, umutlara dayancım, əldəkinə güvəncim.

umuqlara inam yox, umutlara dayancım, əldəkinə güvəncim.

umun hara, yurdun ora. **(umun**: niyyət**)**.

umun hara, yurdun ora. **(umun**: niyyət**)**.

umuş buluş toş gəlsə, yaşam bürkü qalmaz. (**bürkü:** müəmma).

umut alma birindən, umut yarat içindən.

umut alma birindən, umut yarat içindən.

umut daddır ağızda olur, umuq addır, yarınlar dadır.

umut dənizi istəkəndədir, içənlərin sözüdür, umut dənizi istəkəncədir, umanların sözüdür. (**umanların sözüdür**: umurluların, umutlu olanların, ümidvarların sözüdür).

umut dündə, umut gündə, umuq gözdə olur.

umut edsən özgəyə, güvənc itər özüvə, güvənc itsə özüvə, oxdu batar gözüvə. (**oxdu batar gözüvə**: kor olarsan).

umut gərək yaşama, umutsuzsan yaşama.

umut gərək yaşama, umutsuzsan yaşama.

umut gücün bitinməsin. umut iyiləyişə, güc irəliyişə.

umut içində doğar, umuq yol üsdə durar.

umut məndən, qırma səndən, qurma məndən, yıxma səndən, çilə səndən, çəkmə məndən, pay düşdü sevgidən, adı səndən, dadı məndən.

umut tuxumu yazda əkilir, güzdə biçilir. (yaşam uzun sürməz, uzun sürünər).

umut varlığından gəlir, gün düşərsə qarlar ərir. (ayrılıq adlı yoxdurur yol, ardıca gəzilən umut, ayrılıq ölümdü demiş, 'əldə olan' umud adlanır). (ayrıldınsa unut, geriyə yoxdu umut). (belin bağlı əlindəkinə, göz yumular dalındakına).

umut verdə birinə, umsunma sən kiminə.

umut verdə birinə, umsunma sən kiminə.

umut versən birinə, umuq doğar içində. (**umuq** : umsunuq. yoldakı umut. gözdə olan, içdə olan özlənti, bəklənti).

umut versən birinə, umuq doğar içində. (**umuq**: umsunuq. yoldakı umut. gözdə olan, içdə olan özlənti, bəklənti).

umut yada yabana, qurbətə gedməz!. (özgüzə umut bağlayan çox tez sınar, qırılar).

umut yaşanır, umuq yaşatır.

umut yaşanır, umuq yaşatır.

umut yeməkdir, ağızda dad verər.

umut yoxsa at qoşmaz.

umutçuluq yol açar, umutsuzluq yol qapar.

umutçuluq yol açar, umutsuzluq yol qapar.

umutdan artıq umulmasın. (**ümütdən**: **umutdan**) (yalnız umutla yaşamaq hovanların işidir). (**hovanların**: axmaqların).

umutdu verən güc yaşama, umutsuzca yaşama!.

umutdu verən güc yaşama, umutsuzca yaşama!.

umutla yaşayan ölümün görməz. (umutla yaşayan ölümünə inanmaz, ama ölür, donbala dönür).

umutla yaşayan umuq köçər. (**umuq**: gözü yolda).

umutları unutma.

umutlu biri yaşamla dolur, umutsuz kişi yaşamdan olur.

umutlu biri yaşamla dolur, umutsuz kişi yaşamdan olur.

umutlu yaşayan umar köçər. (**umar köçər**: gözü yolda gedər).

umutlu, mutlu deməkdir.

umutu dad, umuqla yaşa.

unsuz çörək pişriləz, bezsizdə don tikilməz.

unun ələmiş, asmış ələyin. (oxun atmış, yayın asmış).

unun varsa, odu söndürmə.

unut dedin qolay deyill, anma dedin bolay deyil, bu varlığım ölməlidir, bir sənsizin doğmalıdır.

unut gedsin keçəni , sev könüldən seçəni.

unut gedsin keçənin , qıvancla alqış elə seçənin. (**qıvancla**: sevinclə). (**alqış elə**: alqıla. qəbulla. öv. sev).

unut keçəni, tutun olanı, bəklə gələni.

unut keçsin keçmişin , utar səni qoymaz qala bir işin.

unut unutanı, dos tuttunsan tanı.

unut unutanı, dos tuttunsan tanı.

unut yaşın, yaşın yaşa. (**yaşın**: 1. yaşıvı. sinnivi. 1. yaşamıvı).

unutamam səni, sevməsən məni, nə aytar mən, nə anlar sən!. (**aytar**: deyər).

unutan gözləmir, gözləyən unutmur.

unutan özün itmiş, itirən özün batmış.

unutqanlıq bir başa bəla gətirir, bir elin yazısın batırır.

unutqanlıq tapanmadı əl dosluğu poza, atdı tulladı yad olanları qoymadı yoza. (**tapanmadı əl** : bacaranmadı). (**yoza**: sapıta. münhərif edə). (kişi dünyasında qutsal qalan, ölünməz dönülməz olan nəsnə dosluq olub).

unutma çalış özlügün saxla.

unutma gülü sən, tikən güldən ayrılmaz.

unutma sən kölgəvi, sən ölsəndə o qalsın.

unutma umud, doğursun umuq, unutdun umut, boğursun umuq. (**umuq**: bəkləş. bəkləyiş. güdüş. gütgəniş. gözləyiş. intizar).

unutma!. başlanqıc əlindədi, qurtarış uğrunda. (**uğrunda**: baxtında. bəxtində).

unutmağı unudan, açıq gözə kor baxar. (unutmağı unudan, gördügünə kor baxar). (unutmağı unudan, açıq günə nisgilli).

unutmağı unudan, açıq günə nisgilli. (unutmağı unudan, açıq gözə kor baxar). (unutmağı unudan, gördügünə kor baxar).

unutmağı unudan, dəlirər. (**dəlirər**: dəli olar).

unutmağı unutan, gələcəyin uçutan. (**uçutan**: yox edən).

unutmağı unutan, gələcəyin uçutan. (**uçutan**: yox edən).

unutmağı unutma, keçmişlərdən umuqma.

unutmağı unutma, keçmişlərdən umuqma.

unutmağı unutma, unut gedə qalanı.

unutmağı unutma, unut gedə qalanı.

unutmağı unutsan, qıvanclar yad gələr. (**qıvanclar**: sevinclər).

unutmağı unutsan, unudulmağı unutma.

unutmağın bəğəməz, öz sevdiyini alanmaz, gülər günlər nisgili, qapıq qapı işgili.

unutmağın bəğəməz, öz sevdiyini alanmaz, gülər günlər nisgili, qapıq qapı işgili.

unutmaki güc təklikdə yok, qoşluqdadır. (**qoşluqdadır**: birlikdədir).

unutmaki hər qırılan sevgidə, tək bir könül qırılır.

unutmaki ölmək "unutulmaqdır".

unutmaki ölmək "unutulmaqdır".

unutmaki unutmağın əlində, unutulmağın yazında. (**yazında**: baş yazında).

unutmaq öğrədilmir, öğrəşilir!.

unutmaq ölüm kimidir, ölməyin bacarmayan, zırbazır olar (ayaqlaradüşər).

unutmaqdan qolayın tapmamış o, gələnlə dos gedənlə yad olarmış.

(**qolayın**: qolay iş).

unutmamış acını, dadanmamış yaxcını.

unutmasan keçəni, biçənməsən əkəni.

unutmasan keçəni, biçənməsən əkəni.

unutmasan keçəni, dönüm görməz yaşamın. (**dönüm**: dəğişiklik. təhəvvül).

unutmasan ötəni, ötər günlər, gələn günün yad olur. (**ötəni**: keçəni). (**ötər günlər**: boşuna keçər günlər) (**gələn günü yad olur**: gələcəyivi düşünəməzsin).

unutmayan, unutulur.

ura bilməz ulu dayağ götürür.

uran burğan qar yağsa, kırıxmaz bulan balası, mun görməyincə, ər olmaz ata balası. (**bulan**: ceyran). (**mun**: **munğ**. qayğı. əzab).

urcağın bilsən, at. (**urcağ**: hədəf tutulmuş. nişana).

urcalıq yalnız tutmaqda deyil, hərdən bıraxmaqdadır. (**urcalıq**: batırlıq. güc. cəsarət).

urğan sevinc almış canım, ürpək canım nərə qaçım. (**urğan**: yıxıcı. ev yıxan). (**ürpək**: ürkük. qorxuya düşmüş. tükləri dik durmuş). (qorxusan sevmə, sevirsin qorxma).

uruş söğüş olsada, görüş üçün yer saxla.

uruş söküş, görüşməyə yer saxla. **(uruş: vuruş**).

uruşda duruş yox. (vuruşda düşünməyə yer qalmaz). (döğüşə, düşünüb gir, girib düşünmə).

uruşda qandan qorxan, candan ayrılar.

us başda, altın daşda.(**us**: ağıl).

us başda, ut könüldə.

us dəgəri, uslu işdə bəlgirür. (ağlın qiyməti ağıllı işdə işlənsə bəllənir).

us saqqal ilə ösməydi. (**us**: ağıl). (**ösməydi**: böyüməz).

usağa su, aca çörək. (**usağa**: susağa).

usda görən usdə ular. (usda görməmiş usdə ərməmiş). (boşqadan baş çıxaran, başaq bağlamaz). (**başaq**: önüm. hasıl).

usda görməmiş usdə ərməmiş. (usda görən usdə ular). (boşqadan baş çıxaran, başaq bağlamaz). (**başaq**: önüm. hasıl).

usda qatda əlin güd, xoca qatda dilin. (**qatda**: yanında. huzurunda).

usda olub, usdasını unutmaq.

usda, görsədər yolu.

usdaların usdası, hər işin öz usdası.

usdan güc alan minin yıxmış, qoldan güc alan birin yıxmış.

usdan güdə uzun dilli olur.

uslu başın dənin dartar, ussuz başdan qəmin artar. (**uslu**: **huşlu**. ağıllı). (**qəmin**: dərdin).

uslu başlı ərənləriz, doğru yoldan gedənləriz.

uslu başlı, ağır yaşlı, qələm qaşlı sığmaşmaz. (**sığmaşmaz**: bir yerə sığmaz).

uslu bizi arayıb sormaz, dəli bacadan axar.

uslu bolsan yaxşılara yoldaş ol, hovan kişi qanmaz ilə yar olar, içdən sevən can alanın üzünü, bir görsəm deb, gecə gündüz zar olar.

uslu gördüyün, ussuz duyduğun söylər.

uslu irsən hər bir sözə uymaqıl, hər gələnə uyanlar, düşər aldan ala.

uslu kişi başa baxar, ussuzu yaşa.

uslu kişi özün övməz, doslu kişi təkəz qalmaz. (**təkəz**: **təkiz**. **təkin**. yalın. köməksiz. tənha < **tanqa**).

uslu kişi usdan dəğərlənər, uslu yaşar, usla yaşamaz. (**uslu: huşlu**. ağıllı).

uslu kişi uslu olsa üşlənməz, iş çağında oyaq olur düşlənməz. (**üşlənməz**: ikilənməz. quşqulanmaz. şəgg edərək çəkilməz). (**düşlənməz**: **düşlənməz**. mürgüləməz. yuxusun almaz).

uslu kişi usuyla, ussuz kişi şusuyla. (**uslu**: başlı. ağıllı). (**şusuyla**: zadıyla. şeyiylə).

uslu köprü arayıncaya dək, dəli dərəyi geçər.

uslu olsa savların, yadda qalmaz paltarın.

uslu olsan qurd ilə baxmaz cırar yırtar səni. (**uslu**: mə'qul).

uslunun qulu ol, dəlinin başı yox. (**uslunun**: ağıllının).

usluya bir söz yetər, ussuza min söz itər.

usnan atın dişi sanalmz. (**usnan**: peşkeş).

ussuz başın ağrığın ayaqlar çeker. (**ussuz**: ağılsız). (**ağrığın**: cəzasın).

ussuz olan iş sonunu qaramaz, buğda əkən, qoğun qarpız baramaz, bilgə içə yoldan keçən yaramaz, öğrəşib qıl gördüklərin unutma. **(baramaz**: bar endirəməz).

ustalığa, qılavuza varılmadan kəçilməz.

usu qısa uzun dil.

usu qısa uzun dil.

usuqmuşa (susamış), sağış qamu, su görünür.

usuqmuşa, sağuq qamuğ su görünür. (susamışın, tam xiyalları suyu andırar). (**usuqmuşa**: **(us <> su)** susamışa) (**sağuq qamuğ**: tam xiyalları) (öz istəyini hər gördüyündə arayan kimsəyə söylənir).

usullu baş yaşamında ən gözəli neyləyir, dadımlı baş yaşamına gözəlliklər ağdaranı axdarar. (**usullu baş**: mə'qul olan). (**dadımlı baş**: yaşam dadın seçən kişi). (**ağdaranı**: köçürdəni. gətirəni).

usullu baş yaşamında ən gözəli neyləyir, dadımlı baş yaşamına gözəlliklər ağdaranı axdarar. (**usullu baş**: mə'qul olan). (**dadımlı baş**: yaşam dadın seçən kişi). (**ağdaranı**: köçürdəni. gətirəni).

uşağ demək bilməz, almaq bilər. (uşağa demə, ver).

uşağ ki var, yox bilməz.

uşağ sevişdən, it çörəkdən qaçmaz.

uşağa iş buyur, geyindən özün buyur.

uşağa iş buyur, özündə dalınca yürü. (uşağı göndər suya, özündə ged suyunca. (uşağı yolla iş dalınca, özündə düş dalınca).

uşağa paradan yox, dəğərdən qonuş.

uşağa paradan yox, dəğərdən qonuş.

Uşağa söz buyur, özün dalınca yüyür. (Ara Gündüz).

uşağı göndər suya, özündə ged suyunca.

uşağı yolla iş dalınca, özündə düş dalınca.

uşağıdıq qaçdı kölgə bizdə onun dalıca, söndü ışıq itdi kölgə, bizdə ışıq ardıca.

uşağıdıq qaçdı kölgə bizdə onun dalıca, söndü ışıq itdi kölgə, bizdə onun dalıcan.

uşağıdıq qaçdı kölgə bizdə onun dalıca, söndü ışıq itdi kölgə, bizdə ışıq ardıca.

uşağıdıq qaçdı kölgə bizdə onun dalıca, söndü ışıq itdi kölgə, bizdə onun dalıcan.

uşağın gönü, döğdükcə qalınlaşır.

uşağın gücü atanasına çatar!.

uşağın poxu, böyüklər yıxar**. (**uşağ su tökər, böyük yıxılar. **(su tökmək:** əl suya yetirmək. sıçmaq).

uşağın poxu, böyüklər yıxar**. (**uşağ su tökər, böyük yıxılar. **(su tökmək:** əl suya yetirmək. sıçmaq).

uşağın poxu, böyüklər yıxar**. (**uşağ su tökər, böyük yıxılar. **(su tökmək:** əl suya yetirmək. sıçmaq).

uşağın poxu, böyüklər yıxar**. (**uşağ su tökər, böyük yıxılar. **(su tökmək:** əl suya yetirmək. sıçmaq).

uşağki iyidir, burnundan qoxar.

uşaxki var, yox bilməz.

uşaq ağızın yediyin görür, dediyin deyil, əlizin verdiyin seçir, yapdığın deyil, ayağın izlərin sezir, gəl gedin deyil.

uşaq arvadın bir əlin bağlar, təmbəllik iki əlin.

uşaq cocuq yansılaraq böyüyür.

uşaq çörəkdən, böyük sevidən qaçmaz. (**sevidən:** məhəbbətdən).

uşaq gördüyün götürür, böyük götürdüyün görür. (**götürür**: öğrəşir).

uşaq görsə deyər, it görsə hürər.

uşaq qulağı iti olur, yavaş desən eşidir.

uşaq nə görsə yapışar, nə eşitsə, danışar.

uşaq nədir piçaq nədir. (uşaq nədir tüfək nədir). (nə yapdığın bilməz). oğlan əlinə daş vermə. **(oğlan:** cocuq. uşaq).

uşaq olan tələsməz, ağır işə ilməşməz. (**ilməşməz**: can atmaz. maraqlanmaz. təcəvəccüh edməz).

uşaq oynamaqdan, təmbəl yatmaqdan yorulmaz.

uşaq öğrəşin qılar. (**öğrəşin:** öğrəşdiyin).

uşaq poxu, yekə yıxar.

uşaq sıçır. böyük yıxılır.

uşaq su tökər, böyügün qıçı sınar.

uşaq suya can atar, yaşlı oda.

uşaq yıxıla yıxıla ulalar. (**ulalar**: böyüyər).

uşaq, yıxıldığı yerə baxar.

uşaqki var keçmiş nədir anlamaz, ösüşmədən (böyükmədən) qalanmaz.

uşaqla pulu əldəkən qoru, bıraq izin qapdıqda börü. (**börü**: qurd). (qapdıqda börü: qurda yem olursa. doğru yoldan sapırsa).

uşaqla pulu əldəkən qoru, bıraq izin qapdıqda börü. (**börü**: qurd). (qapdıqda börü: qurda yem olursa. doğru yoldan sapırsa).

uşaqlığ yaz, igitlik yay, yaşın ortası oldu güz, qocaldın qış.

uşaqlığın dadın, böyüdükdə anlarsan.

uşaqlığın dadın, böyüdükdə anlarsan.

uşaqlığın dadını yaşlandıqda bilərsin.

uşaqlığın dadını yaşlandıqda bilərsin.

uşaqlığın dadını, yaşlandıqda dadarsın.

uşaqlığın dadını, yaşlandıqda dadarsın.

uşaqlığın itirən, güntaylığın basdırar. (**güntaylığın basdırar**: xoşbəxliyin quylkr. güntay ola bilməz. ürəkdən sevinə bilməz).

uşaqlığın unudan, sevgisinə utuzar.

uşaqlıq bənğlük simgəsi. (**bənğlük**: durğallıq. turuzluq. əbədilik). (böyük cocuq böyükməz, cocuq qalan ölükməz).

uşaqlıqdan böyüdük, böyüklərlə yürüdük, baş çatdısa uluduq, çatmaz başdıq çürüdüq. (**baş çatdısa**: ağlımız oldusa). (**uluduq**: böyüdük). (**başdıq: başıdıq**).

uşuq odu tutunub, öpgə ürək qoğrulur. (**uşuq**: eşq).

ut gətirməz ellər üçün ərkəlik. (**ut**: **uy**. utanma. həya). (**ərkəlik:** istiqlal. olma. varlıq).

ut nə bilir ilqarsız, ilqarsızlar utanmaz.

utan aldı utuzan qaldı.

utan utanmazdan, qorx qorxmazdan.

utan, utanmazdan!.

utanarsan, çiçiklə deyişmə, yıxılarsan, böyüklə ərişmə (icəşmə).

utanarsan, çiçiklə deyişmə, yıxılarsan, böyüklə icəşmə.

utanc gözdə, görk üzdə. (**görk**: göyçəklik).

utanıb utunan boğulmuş.

utanırsansa el içrə, üzü çoxlar utacaq. (**üzü çoxlar**: sırtıqlar).

utanma, inanma.

utanmaq gizlənməz.

utanmasan, kefə nə. fut o fənnin öğrənmək.

utanmayan, baxıcı olur, ərinməyən, qapıcı.

utanmaz üz, tükənməz söz.

utanmaz, utancağı qorxaq sanar.

utanmaza yol versən, saymazlara üz versən, təməkinə borc versən, alçaqlara göz versən, birincisi ayaqların yer üzündən üzərlər, ikincisi təpən üsdə göydən yerə vurarlar, sonuncusu səni səndən elərlər.. (**saymazlara**: sayqısızlara). (**təməkinə**: acgözə).

utanmaza, toy nədir, toz nədir. (**toz**: bulğaylıq. qaışıqlıq).

utanmazdan ıraq dur, yoxunlaşsan ut qalmaz. (**ut**: həya).

utanmazdan, utan!.

utanmazın qorxusu olmaz.

utansa qurd, qurd olmaz!.

utğan kişi qorxaq görünər. (**utğan:** utanan**)**.

utlluq kişilik əkiri, mutluq yaradan əsiri. (**utlluq**: hücb həya). (**əkiri**: becərisi. əl hasılı).

utlluq kişilik əkiri, mutluq yaradan əsiri. (**utlluq**: hücb həya). (**əkiri**: becərisi. əl hasılı).

utlluq kişilik əkiri, mutluq yaradan əsiri. (**utlluq**: hücb həya). (**əkiri**: becərisi. əl hasılı).

utlu, qorun utanmazdan, qanıq qorun qanıqmazdan. (**utlu**: həyalı) (**qanıq**: qane. arif). (**qanıqmazdan**: qanmazdan. doymazdan).

utlu, utun qorar, utsuz sanar, ondan qorxar! (**ut**: həya).

utlu, utundan susar, utsuz, susdurdum sanar. (**ut**: **uy**. həya). {əkili, əkidən susar, əkisiz, susdurdum sanar. (**əkili: əkitli**: ədəbli. tərbiyətli)}.

utmadan çeğnə, aytmadan oylan. (düşün qonuş, çeğnə utma).

utruq bazar tanımaz. (utruq pulla satılmaz). (**utruq:** abır).

utun birlə vuruş, ötün birlə dirəşmə. { həyalı (utun. uyun) kişiylə söz çıxsa, yol tapılar, həyasızla sözləşsən, baş çaxılar (yarılar) (savaş yapılar)}.

utun qoru utsuzdan. (üzün saxla üzü susuzdan) (yamandan gördüyün yetər, görkəzməyin istəmə).

utun utmuş, sevin atmış. (**utun**: utanmasın. hayasın). (**sevin**: mə'şuqun).

utun utmuş, suyun atmış. (**utun**: utanmasın. hayaın). (**suyun**: içə hopan gözəlliyin).

utuş kimdə, utuz kimdə, oyun bitər bəllənər.

utuş utuz sırayladır. birinə erkən birinə geykən. (utmaqda var utuzmaqda, gahdan biri tez düşür, gahdan biri gec).

utuş utuz sırayladır. birinə erkən birinə geykən. (utmaqda var utuzmaqda, gahdan biri tez düşür, gahdan biri gec).

utuzmağı düşünsən, utan kimi yaşarmaz. (**yaşarmaz**: yaş sürməz).

utuzmağı düşünsən, utan kimi yaşarmaz. (**yaşarmaz**: yaş sürməz).

uyalla dolursa yaşın, könlün əzik, başın boş qalır! (**uyalla**: xəyalla).

uyan sudan çəkin. (yatan sudan çəkin). (durqun sudan çəkin). (**çəkin**: ehtiyatlı ol).

uyar ağlını qəflət uykusunda, sağalmış tut qiyamət qorxusundan.

uyar isən doğuya, sən sürəcəksin ona. (təbiətin qanunların bilməklə, onu sürə bilirsin).

uyatsızlar bağlanmır, bağımsızlar utanmır. (uyatsızlar bağlanmır: utanmazlar bəfalı olmur, bəfasız utancın nə olduğun bilmir).

uydurmadan gerçək olan yaranmaz, inanmasan könül yağı coşanmaz.

uyğur yalğay yarışmaz. **(uyğur**: uyuq, yaxcı olan). (**yalğay**: pis olan**). (**yaxcı pislə yarışmaz, tutuşmaz).

uyğuş gəlsin, uysuz gedsin. (yaxcılıq gəlsin, yamanlıq qoğulsun).

uyku, yaşamla doğur, ölümlə bitir.

uykular sən görmədən barlanmır. (**barlanmır**: doğrulmur).

uyma çəkin hovandan, açıq gözün kor qalar. (**hovandan**: axmaqdan).

uyma şeytan sözünə, qul edər səni özünə.

uymallıq, qaramallıq. (**uymallıq:** avanallıq. təəssüb. mütəssiblik).

uysul susmuş, uysuz susdurub sanmış. (uylu utanıb çəkinmiş, utsuz, çəkindirib demiş). (uylu utanıb susar, utsuz, susdurdum sanar). (ədəbli susmuş, ədəbsiz, susdurdum.

uysuz çıxsa dağa, uylu qaçar bağa (**uysuz**: həyasız) (**uylu**: həyalı).

uytuğa dalan bulutda gəzər, ikidirsə ayaq yerindən üzər. (**uytuğa**: xəyala).

uyuyan qalmış, unutan çaşmış.

uyuyan, yuxusun görər. uyuyan, düşünü görər, uyuyan, düşündə görər.

uz dolabı inanmamış ısığa, üzü gəzən inanmamış içiğə. (üzə vurqun könlündəkin aramaz).

uz ged asda ged.

uz ged, asda ged. (**uz**: yaxcı).

uz gəlsə yavuz gedər.

uz yaşa, düz yaşa, duz yaşa. (**uz**: uzun). (**duz**: dadlı).

uzağdaki su, qorumadı oddan kişini.

uzağın buğdasından, yaxının arpası yeğ.

uzaq (ıraq) yerin xəbərin karvan gətirər.

uzaq (ıraq) yerin xəbərin, kərvan gəlsə, ıraqlardan sav gələr. (**sav**: xəbər).

Uzaq doğmalardan, yaxın qonşu yaxşıdır. (Ara Gündüz).

uzaq olsanda özün, könlüdə saldın yurdun, ey cana can olalı, dərdimə dərman olmuş,.

uzaq olsun oğrular, xoş gəlirlər doğrular.

uzaq olsun yol olsun, yava olsun, el olsun. (**yava el**: çağdaş olmayan el).

yolun uzaqlığı, yolsuzluqdan yeğ gəlir, elsizlikdən, millətsizlikdən, qara bir kütlə yeğ gəlir. (bu söz kişini, öz elin xorlamaqdan çəkindirir, gücdə olsa, hər kimsə doğulduğu elin becərik, gəlişməsində uzun yardımda bulunması görgətilir (tovsiyə edilir).

uzaq sevgi çıldıdar. (**uzaq**: artıq). (**çıldıdar**: dəlirdər.).

uzaq sevgi çıldıdar. (**uzaq**: artıq). (**çıldıdar**: dəlirdər.).

Uzaq yerin halvasın hoza ilə yeyərlər. (Hoza dəyirmanlarda unu dağarcığa tərə-basa yığmaq üçün olan ağac parçasına deyərdilər). (Araz Gunduz).

uzaq yol atı sınlar, ağır gün əri. (**sınlar**: sınağa çəkər. yoxlar).

uzaq yollar, qonut yoxlar (**yoxlar**: gözlər).

uzaq yolun yoldaşı, qalmaz yöndən tanınar.

uzaq yolun yoldaşı, tananmışdır hər yanı.

uzaq yolun yoldaşı, tananmışdır hər yanı. (**tananmışdır**: **tanınmışdır**.

dənənmişdir. dənələnmişdir. bəllənmişdir. bəlginmişdir).

uzaqda olan şişik, qıraqda olan dadlı görünür.

uzaqdasan girməz yuxu gözümə, yanımdasan valıq belə yuxu gələr gözümə.

uzaqdasan girməz yuxu gözümə, yanımdasan valıq belə yuxu gələr gözümə.

uzaqlıq, bir həsrət öldürür, başqa bir sevgi doğurur.

uzaqlıq, **"bir"** həsrət öldürür, "**başqa bir"** sevgi doğurur.

uzaqlıqla özgəşilir.(ıraqlıq yadatır, yadlaşdırır).

uzanır işi, usanır kişi.

uzansa gün, gecə qısalar.

uzansa söz, us batar, uzansa yol, dos batar. (**us**: ağıl). (**batar**: itər). (uzun sözdə ağıl çaşır, uzun yoldan, dosd ayrılır).

uzlu olsun, üzlü yox. (**uzlu**: başarıqlı).

uzlu, düzlü, duzlu: çıxarlı, doğru, dadlı.

uzun alıb ucuzluğa gedmə.

uzun arzu yolda qalar.

uzun arzu yolda qalar.

uzun boylu, dadlı sözlü, qıyma gözlü, ətli canlı bir igit.

uzun dərin bolluğuna bir yaşam, arzulayaq hər bir dosda ürəkdən.

uzun dil, kəsik baş gətirir.

uzun dil, yaşam güdəldər.

uzun dilin, yaşı uzamaz.

uzun dilli , ölümlüyə çox qolay.

uzun dilli , ölümlüyə çox qolay.

uzun dilli güdə uslu.

uzun hörgən, gen duzaq.

uzun ipində ucu var!.

uzun kölgə gün batınca, ağır gecə dan atınca.

uzun közgü əl küyməz, varın çoxu, baş bıqmaz. (**közgü**: maşa). (**baş bıqmaz**: baş ağrıtmaz).

uzun qıssalınca, qıssanın canı çıxar (üzülər).

uzun qıssalınca, qıssanın canı üzülər.

uzun qoysan hörgəni, gedib gəzər ölkəni. (**uzun qoysan hörgəni:** meydan vermsən).

uzun quyruqların uzunu yalandı yalan. (yalan dedikce yalanı gətirir).

uzun sürən yalanlar, gerçək donu geyərmiş.

uzun sürən yalanlar, gerçək donu geyərmiş.

uzun üz, uzun asdar.

uzun üzün, asın salın, qısın sıxın, çatın çapın: əl çəkmərəm dilimdən.

uzun yaşam dayaz olsun nəyimə, dərin olsun oyku dolu gərəyim.

uzun yol uzağa aparar.

uzun yoldan arığmış (yorulmuş), qayğı əldən darığmış, bənzi üzü sarığmış, çapıl (əcəl) gözlər can verə. { ümüdsüz kişi doğruda (haqda) söylənir}.

uzun yolun bir başında deyilən yekə yalana, o başında yalançı özüdə inanar.

uzun yolun, bu başında yalan danışan, o başında özüdə inanar.

uzun yorqan "güdə ayaq" uzatmaz, ayaq uzun qıssa yorqan neyləsin. (uzun ayaq uzun yorqan istəyər).

uzun yorqan qısqa ayaq, düşünəmmiyən qalar gayaq**. (gayaq**: gay. gic).

uzunayağın yorqanı uzanmaz. (uzunayağın yorqanı qıssa qalır). (uzunayağın yorqanı böyüməz). (geddikcə artan istəklər heç çağun dolmaz, uyqulanmaz, bir yerdə qırılır).

uzundu quyruğu dünyanın. – qança verə qança ala, kimi qala, kimi görə.

uzunluq ucalıq, şan san (şöhrət) gətirmir, inanmısansa adamın qulağına bax.

üç günlük dünyanın dadın bir ömür daşıdın, doymadın genə.

üç sözcükdür varlığımı anlatan, biri kimligim, bir ölkəcim, bir dilim.

üç şey kişilikdəndi 1. dil 2. topraq. 3. ərdəm.

üç taqan qaymaz.

ügey ananın, qaynamaz qazanı.

ügey ananın, qaynamaz qazanı. (ügey ananın, qazanı ağır qaynar).

ügey ananın, qazanı ağır qaynar.

üğəsiz kimsə bulunmaz. **(üğəsiz**: mansız).

üh var yardırır odu, üh var söndürür onu. (**üh: püh**. **püf)**. (**ühləmək**:

pühləmək. **püfləmək)**.

ük olmasa çula nə gərək, eşək olmasa palana.

ükəl yatsa el yatar, kahıl yatsa qal yatar. (**ükəl: uka**. dahi. zəki. ağil) (**kahıl**:

gic. səfeh).

ükəl yatsa el yatar, kahıl yatsa qal yatar. (**ükəl: uka**. dahi. zəki. ağil) (**kahıl**:

gic. səfeh).

ülgüçülər yaltaq olsa, izçiləri qaltaq olar. (**ülgüçü**. nimunə. önçü). (**qaltaq**:

arsız. arlanmaz. utsuz. utanmaz. hayasız. ədəbsiz. namussuz).

ülgülü olqu, yaşamın yolqu. (kişi kəndi olqusun, olduğun tanıya bilsə,

kəndi yaşamın, olduğuca, az itgilərlə, uyğun sürə bilər). (düşünülüb

biçilən vaqeiyyəti ülgü götürmək, yaşamın yoludur).

ülkü hamını toyuqçu sanır, pişik hamını sıçançı.

ümüd gün götürməz, ümüd günündə doğulur, günüylə boğulur. (**gün götürməz**: nisyə bilməz. yarın tanımaz).

ümülə yaşıyan, acından ölər.

ümüşlə yaşıyan, acından ölər. (ümülə yaşıyan, acından ölər).

ümüt bir gəvəzə quşdur, haçan susdu, bil ölüm yaxlaşdı.

ümüt ilə keçinən, aclıqda ölər.

ümütlə yaşıyan, acından ölər.

ünləksiz gələn, döşəksiz otur. (**ünləksiz**: çağrısız. də'vətsiz). (**otur**: oturur).

ünü çıxınca, düdü çıxdı. (adı çıxınca, düdü, tüstüsü çıxdı).

ünü dinlə, ün içindən yön tapırsın.

ünü var, unu yox.

ünüm anla, sözüm dinlə.

ürək açsan yağuya, gərəg qalmaz ağuya. (**yağuya**: **dığıya**. **düşmana)**. (sıırıvı düşmana açsan, ağuya, zəhərə gərəyin yoxdur). (düşmanı içivə alsan, başında yuva qurar, yorqanın sırar, döşək od vurar, belivi qırar). (düşman içində yaşa, içində düşman yaşatma). (qorunma içdən başlır). (düşmandan gəlin olmaz, üvey olmaz, ondan doğan oğul olmaz).

ürək ağrısından kef olmaz.

ürək armaz sevməkdən, nədən sormaz sevəndən. (**armaz:** yorulmaz. bıkmaz).

ürək baxmasa, gözdə görməz.

ürək bilməz erkək dişi nəyimiş, ürək yurtda eyi kötü varımış.

ürək bir, söyək bir. (**söyək**: sevgili. mə'şuq).

ürək coşsa, göz yaşar, baş ikisə, xoş yaşar (özgə işlərinə qarışmasa).

ürək daşsa, göz yaşmaz.(**yaşmaz: yaşarmaz**).

ürək dolar, könül doymaz. {güc bitər, istək (həvəs) bitməz, razı olmaz}.

ürək dolsa dil deyər, it istəyisə hürər.

ürək durur, baş unudur. (**ürək durur**: könül saxlır). (**baş**: ağıl). (**ürək, könül**: anılar ambarı). (acıq dadıq, könüldə yer salır, başda yox) (**acıq dadıq**: acılar dadlılar). (başa gələnləri baş unudurda, könül arar, unutmaz).

ürək haçarı könüldə yatır, tutuq ürəyi könüllər açır.

ürək istər dil söylər.

ürək küflə paslansa, sırt düşmana yaslansa, yurtda korlar çoxlansa, doğan günəş puslanar. (**paslanmaq**: dumanlanmaq).

ürək odu, başdan tüstülər.

ürək öldürən, yaşam bulur. (**öldürmək**: sulatmaq. yumşatmaq). (daş ürəklər yaşalmaz, öldür ürək, yaşam bul). (**yaşalmaz**: ölünməz. yumşanmaz).

ürək sevə, əl gedmiyə, ayaq dura, ağzın aşa, başın daşa dəğməli.

ürək sevənin ağıda olar, qarasıda.

ürək süsü, könül bəzəyi, ürək dişliyi (dincliyi) könül əğləyi (**əğləyi:** əğləncəsi. sevinci).

ürək tanar , könül danar. (**tanar: tanıyar**). (**könül**: istək. sevgi. arzu. arsu. həvəs). (**tapmaca)**. **(yaş**).

ürək tanar, könül danar. (**tanar: tanıyar**). (**könül**: istək. sevgi. arzu. arsu. həvəs). (**tapmaca)**. **(yaş**).

ürək yanar, göz yaşarar.

ürək yapan üzüz olsun, düşman qıran biləyiz.

ürək yurdu erkək dişi bilməmiş, yaman olan iyi alqış almamş.

ürək yurtda erkək dişi tananmaz, yaman olan iyi alqış alanmaz. (**tananmaz**: seçilməz).

ürək, bilik bilək birgəşər, göy üzdəkin aldırar. (**ürək**: cəsarət). (**göy üzdəkin:** əl çatmazın).

ürəkcəsi olmayanın tam bir qaracası var. (**ürəkcəsi**: cürətciyi) (**qaracası**: mahanası).

ürəkdə edən otraq, köçər günündə, ürək evi yıxılar boş qalan gündə.

ürəkdə sözün varsa, ağzda dilin olsun.

ürəkdə varsa, biləkdə görünər.

ürəkdə yollar qapalı sənin üzünə, silik izlərin, qayıt kəndi özünə.

ürəkdən gələn, ürəklərə yol tapar.

ürəkdən sev, başınla seç. {könül duysun başın tutsun. (**tutsun**: yönəlsin. təsmimləşsin)}.

ürəklə dilək qovuşsa, sevirəm sözü yaranır, ürəkdən qopursa dilək, söğüş savış yağanır. (**söğüş savış yağanır:** kin, soyqluq yayılır, calanır, yerində oturur).

ürəklənən yaraq tapdı, yaraqlanan, ürək yok**.** (**ürəklənən**: cürətlənən) (**yaraq**: vəsilə). (könül varsa, umut var).

ürəksiz kişi, dağıdar işi.

ürəyə göyçək, gözə göyçək.

ürəyi dil ilə yaran çox olur, onqaran (düzəldən) tap bu yaranı, hanı?.

ürəyi dil ilə yaran çox olur, yonqaran tap bu yaranı, hanı?.

ürəyi əlində saxla.

ürəyi kor olanın, gözü görməz.

ürəyin bir olsunda, başın iki tut.

ürəyin daşlığı, başın boşluğundan yeğdir (yaxcıdır).

ürəyinə dövmüş, düşük öcün alacaq, dar günün basırıb, aydın günə çatacaq. (**ürəyə dövmək**: niyyətlənmək).

üri (**ur qoğ**) qopsa, oğuş qağuş uklaşar, yağı qonsa, çəmrəm əmrəm toplaşar. **{**ur qoğ: vur qoğ. ür küy. səs küy. hay küy. (bang o həyahu) cağ cuğ}. (səs küy qalxsa, qohum qonşu yığışar, düşman gəlsə, el oba yığışar).

ürkməz olsan yaşamda, tüm qınçılıqla yoxar.

ürün umar əkin əkən əkindən, bərə görsün zumar yığsın işindən.

üs bəzəyi gözə gül, iç bəzəyi başa gül.

üs bəzəyi gözə gül, iç təzələ içə gül.

üs geyimi, yaşam keçimi. (yaşamda kəndi başarısın qanıtan dərək görgüsün, zahirində sağlamalıuıq).

üsdən boş, içdən pox. (nə görkəmi var, nə içgəmi).

üsdən boşsan, için dolu gəz. (geyimdən yoxsul olsanda, içdən zəngin ol).

üsdü boş, içi tox. (üsdü qabıq, içi dən).

üsdü yox, içi tox. (üsbaşlı olmasada, yoxsul oubda, içibaşı dolu, bilgin olan).

üstə bax düşün, alta bax öğün.

üstəlirsə yalan, çatmaz ona heç yaman.

üstü daş, altı topraq, sel basırsa uçar ev.

Üstümü unlu görüb, adımı dəyirmançı qoyma. (Ara Gündüz).

üşşəyi yiyəsi diyən yerə bağla, birdə döy qabırğasına.

üşüc ağırdan tutar. (**üşüc**: təmbəl). (təmbəl, üşəgənliyindən işi tez qurtarmaq üçün, yükün ağırından yapışar).

üşüdüm üşüdüm, yerimə düşdüm (tərpəşdim yığışdım yerimə düşdüm).

üşüyən üşüyənə baxıb qızışar.

üşüyənə ulduz – ot.

ütünü özüvə bas, ötməsə özgəyə.

üytgərə bilsən özüvü, evrən tapar öz yolun. (**üytgərə bilsən:** dəğişə bilsən). (sən kəndivi üstələyib, istədiyin dəğişiklikləri kəndində yap, çevrə sənə baxıb düzələr).

üz alma, asdar al.

üz altında, asdar yatar.

üz dad alar içindən, iç bəzəməz üzdəki (yaşam sürmür üz ilə, üzləşiri öz ilə). {çağı gəlir özün basar üzdəkin. (**özün**: içindəki). **(üzdəkin**: zahirdə olanı)}. {iç, üz basa. (**üz**: surət)}. (içdə olan üzə damar).

üz dadını göz alır, içdi alan öz dadın.

üz gedər, asdar çıxar.

üz görgüsü gözlə qaş, qanmaz yoldaş yolda daş, qanan yoldaş işdə baş. (**görgüsü**: gözəlligi).

üz görkəzi göz, kişi görkəzi söz. (**görkəzi**: yaraşığı. gözəlliyi).

üz görkü göz, ər görkü söz. (**görkü**: gözəlligi).

üz görkü göz, kişi görkü söz. (**görkü**: gözəlliyi).

üz gözəlliyi, başlar alır, iç gözəlliyi, könlə yatır.

üz gözəlliyin, göz seçən gözəlliyi danmaq, görə görə kor olmaqdır!!!. (**üz**: zahir).

üz unutulur, söz unutulmaz.

üz üzdən isti, topraq soyuq topraqdan. (üzə gələn üz, keçmiş üzlərdən sıcaqraq olur. bıraq (ama) topraq üzü ged gedə souqlaşır, uzaqladır).

Üz üzdən utanar. (Araz Gunduz).

üz verdik dəliyə, gəldi ~~ xalıya.

üz verdik dəliyə, palçıqlı çıxdı xalıya.

üz verdin, asdar özü gedər.

üz verən, üzə qalar.

üz verən, üzsüz qalar.

üz verib, üzsüz qalma.

üz verirsən arsız, az verirsən hırsız olur. (acındırsan arsız, acıqdırsan hırsız olur).

üz verisən asdar istir, yer salısan yatsı (**yatsı**: yatmaq).

üz versən başıva enər.

üz yamaq götürər, asdar yamaq götürməz. (**asdar**: iç. mə'nəviyyat).

üz yeyilsə asdar çıxar üz üsdə.

üz, ətəklə gizlənməz.

üzdə dadlı, dalda acı, üzdən uzaq!. (**üzdən uzaq**: **üzdən ıraq**: allah göstərməsin).

üzdəki göz içəri baxır.

üzdən dolu, içdən boş.

üzdən gedsə, könüldəsə düşməz uzaq gözündən.

üzdən olduq, asdardan qaldıq.

üzə bax ürəyi unut, ürəyə bax, üzü unut.

üzə baxma özə bax.

üzə dalma, öz dilə.

üzə gülür, ayaqdan çəkir.

üzə vurqun, könlündəkin aramaz. (buz dolabı inanmamış ısığa, üzü gəzən inanmamış içiğə).

üzən balıq iz qoymaz, ağzı açıq giz qoymaz. (**ağzı açıq**: çox danışan). (**giz** : sır). (**giz qoymaz**: sir saxlamaz).

üzən balıq iz qoymaz, ağzı açıq giz qoymaz. (**ağzı açıq**: çox danışan). (**giz**: sır). (**giz qoymaz**: sir saxlamaz).

üzəndən üz, verənə yüz. (səndən qırandan qır, sənə gələnə sarı yür).

üzəngidə bir ayaq, sözün düzün deyirsən.

üzgünlərə iyi kötü sayılmaz. (**üzgünlərə**: umutsuzlara). (əlin canından üzən iyi kötü sayanmaz). (batan biri saman ilan seçənməz). (dənizə düşən yılana sarılır).

üzi gözəl, qoyn alası, içi gözəli, kövn alası. (üz gözəli, qoynuva alsan gözəl, içi gözəli, könlüvə alsan gözəl).

üzlə özün, işlə sözün bir olsun.

üzləmə! üzü çıxar.

üzməgivi biləsən çay axarı, açmazın vardı yolu bir çıxarı.

üzmək bacaran, tolquna girməz, tolqunla üzən, çatdığı yollarını bilməz. (**tolqun**: dalqa. şəpə. movc).

üzsüz öz yoxdur, özsüz üz. (maddi olmayan zat yoxdur, zatsız maddə).

üzü asdarın tutmur.

üzü ballı, içi dallı.

üzü bəzək, içi təzək.

üzü dadlı, içi yadlı.

üzü dönmüşdə tanışsada səsi, dəğişər sözü.

üzü gedər, asdarı çıxar.

üzü gedmiş, asdar axdarır. (utsuz həyasız əlindən).

üzü gedmiş, asdarı çıxmış. (işlərin üsdü açılmış).

üzü gözəl beş günlük, içi gözəl yaş boyluq.

üzü ipək, içi iğək. (**iğək**: iğrənc). (**tapmaca)**. **(ilan)**.

üzü ışığa dursan, kölgə arxava düşər.

üzü ışığa dursan, kölgə arxava düşər.

üzü qərənin üzü yox, paxıl adamın gözü yox.

üzü qırmızı, utanmaz.

üzü pırıldır, içi qırıldır.

üzü yağu, içi ağu. (**yağu: yağlu**. yumşaq). **(tapmaca)**. **(ilan)**.

üzü yağu, içi yavu. (**yağu: yağlu**. yumşaq) **(tapmaca)**. **(ilan)**.

üzülmə yox olduğuna, sevin tapıldığına.

üzülmədən sevgi dönməz nisgilə.

üzülməkdən nə çıxar, nərsə yapsan üzülməyin evin yıxar.

üzülməkdən nə çıxar, nərsə yapsan üzülməyin evin yıxar.

üzülməsə, düzülməz.

üzülməzdin sevməseydinsə, küsəməzdin ummasaydinisə.

üzülüb ağlama canım, sevməyibdə gedibsə, sevənin tapılar biləməm, çalış sevdiyin qoru sən.

üzüm bitir, üzüm çürür, asma ondan salıqsız. (**asma**: möv) (**salıqsız**: xəbərsiz).

üzüm çöpsüz olmaz.

üzüm oğrusu, güzdə bəllənir.

üzüm üzümə baxa-baxa qaralar.

üzüm üzümə, kişi kişyə baxa baxa qızarar.

üzüm yesən çöpü var.

üzüm, çöpsüz olmaz.

üzümün yedə, bağın sorma. (üzümün yeyər, bağın sormaz). (işin nasıl olduğu nəyivə?!).

üzümünü yedə, bağın sorma.

üzün görkü qaşla göz, kişi görkü bilik söz. (**görkü**: gözəlliyi).

üzün görmə, yüzün gör**. (yüzün:** qılışın). **(yüzüş**: qılış. çalışma. yordam. ərdəm) üzün görmə, işin gör. görüşün sayma qılışın say. (surətə baxma, sirətə bax)**.**

üzün görüb, asdar biçir.

üzün qızsın, qulaqların çınlasın.

üzün o bargahə vur, bir qətrə fəzli min cihan cürmün yuya.

üzün saxla çox demə, sağlıq üçün çox yemə.

üzün saxla üzü susuzdan. (utun qoru utsuzdan). (yamandan gördüyün yetər, görkəzməyin istəmə).

üzün suyu tökülsə artıq daha yığılmaz, güvən əldən gedirsə, artıq geri qayıtmaz.

üzündə qut, sözündə tat, dilində manqu suyu.

üzündə topla belə, sovğan olursa yumruq. (bu yol, acgöz çinislər yolu, kişilər girməz olu). (irsin yumruq belə olsa, almağından vaz keçmə).

üzündən qaçan özünə çatar, içinə çatan, donunu atar.

üzündən qaçan özünə çatar, içinə çatan, donunu atar.

üzünə baxıb, asdar alma.

üzünə görə asdarı yox.

üzüntü bir dəniz, batdın geddin, ümüt bir qayıq, mindin, keçdin.

üzüvə görə asdarlı ol, asdara görə üzlü yox. (sözüvü boşa vermə).

üzüvü gördük, düzüvü görkəz, dadlıvı yedik, duzuvu görkəz.

vaxda (vaxıt) keçər, sular durular.

vaxtında əkilən, vaxtında bitər.

Vaxtsız oğul veren arıdan, Erinden sonra qalxan qarıdan, Ağustosdan sonra ekilen darıdan, xayır gözleme!. (Kordus).

valığını dananlar, yoxluğuna yanmazlar.

valığını dananlar, yoxluğuna yanmazlar.

var axar, yox baxar.

var böləndə böyükdən başlarlar, kiçiyə qalmaz, qınıyanda kiçikdən başlarlar böyüyə qalmaz.

var böləndə böyükdən başlarlar, kiçiyə qalmaz, qınıyanda kiçikdən başlarlar böyüyə qalmaz.

var çağında coşma, yox çağında çaşma.

var çevrədə qalır, içdəkin dışarı calır. (əldə olan var devlətlə necə davranmaq, kişinin iç üzün dışarı qoyur).

var durur öylə olaylarki dəğişməz oları heç gələcək.

var olmaq dəğişməkdir, dəğişməkdə gəlişməkdir.

var olmaq dəğişməkdir, dəğişməkdə gəlişməkdir.

var paxır, yox altun.

var sözünə qulluq qoyqıl bilənin, sonu heç yerə çıxmaz yalanın, ömür yaşı artar alqış alanın, qarqış qalındırmaz, yaşı sındırar. (maxtumqulu).

var vara yatır, yar yara.

var verənə, can nədir, can verənə, mal nədir.

var yarına yürüyən, yetər açıq görəsən.

var yetirsə yamanqa, kəndin qoyar xaqanqa.

var, bağırar, yox, çağırar.

var, paxır, yox, altın**. {(**əldə) olan mis sayılır, (əldə) olmayan altın}.

var, var işdən olar.

vara sayqı olunur, varlıya yox.

varcaq yerivə daş atma. (döncək yerivə daş atma).

vardan yığılar, yoxdan yıxılar.

vardan yoxsul keçərlik, usdan yoxsul ömürlük. (**usdan**: başdan).

vardı kimi sevgi ona yaramır, düşsə ona, sevgi onu yaralır.

vardı könül kömür qarası, vardı könül könül alası. (açıq könül səggiz uçmaq eşigin açar).

vardı odı, artıq yoxdu.

vardı ölmək dəğişir evrənizi evrəndən, qaçamaq yox bilisiz ən iyisin siz öndən, köçürüz don dəğişir, yoxdu təniz evrəndə, ölüm oldur köçüsən dalda qalanmır heç izin.

vardığınla sevinqıl, tapdığınla onunqıl. (**onunqıl**: onaylan. razılaş).

vardır pulun, yetən qulun. yoxdur pulun, dardır yolun.

varı bilməyən yoxu bilməz, azı bilməyən çoxu bilməz.

varı bilməyən yoxu bilməz, azı bilməyən çoxu bilməz.

varı dünyanın, olur buyruğuna üzlülərin, vay onaki baxaraq özgələrə min utana.

varı dünyanın, olur buyruğuna üzlülərin, vay onaki baxaraq özgələrə min utana.

varıkən əldə dərək verməlisən, çıxsa əldən quzular tək məlisən. (**dərək**: dəğər. qədir).

varın çoxsa ağrıtmaz, ağgün yoxsa yarıtmaz. (**ağgün**: fərahlıq. xoşbaxlıq). (**yarıtmaz**: fayda verməz).

varın ən yaxcısı, əldəkidi.

varın güdən evlənməz.

varın verdin utunma, küsük yerdən umunma.

varın verən utanmaz, küsük yerdən umanmaz.

varına baxıb dəğər biçilir, gora soxulub aşın içilir. (puldu görər hər işi).

varını verən uyalmaz, gözünü yuman oyanmaz. (**uyalmaz**: utanmaz).

varla bilik birləşədə, varlı güc doğur.

varlanan dilənçi, yovğa (sədəqə) verməz.

varlı bacı yaxında, yoxsul bacı uzaqda olmasın.

varlı bəzək, yoxsul təzək. (yoxsul ələ baxan yox, dolu əli süzən çox). (gidi acun (dünya) var donatar, yox soyatar).

varlı olan bir ayda, yoxsul qalır on ayda.

varlı olan yol tapar, yoxsul olan yolda batar.

varlı olub tükətməyən, yoxsulla yatar, bilibdə işlətməyən qanmazla yaşar.

(**tükətməyən**: sərf edməyən).

varlı soylu ol, yadlar yaxınlaşsın, yoxsul soysuz ol, tanış qardaş yadlaşsın.

varlı umduğun yeyər, yoxsul olduğun.

varlı varından keçmirsə, kütük yükə qatlanır. (**kütük**: ağır. dərin. qaba)

(**kütük yükə qatlanmaq**: ağırlığa düşmək).

varlı, ərkli. (varlı güclü olur. varlı ixtiyar shabı olur. varlı muxtar olur. varlı bildiyin yapır).

varlıdan borc alma, yoxsula borc vermə.

varlıdan var yukar, yoxludan nə yukar. (**yukar:** yoxar. bulaşar. sirayət edər).

(bu çevrən yarış evrənidi. yoldaş tutsan kəndindən yuxarı tut ki, nərsə öğrəşə biləsin).

varlığa darlıq yok. (varlıqda darlıq yox. bu sözün elara gəzən anlamı. - vardan, sıxıntı, bəla, zərər gəlməz. kişiyə pul ağırlıq edməz)). (bu sözün, için bilik (mə'nəvi), savsal (fəlsəfi) anlamı. - (var olmağa, hər çeşit ortam\imkan\şərayit var). yalnız bilən bilik (mə'rifətli şuur), görən göz gərəkir) (bu söz, kişini, göz açıqlığa çağrır) (bu söz, deyir ki: -əroğlu!, gözün açıq tutarsın, "olduğun (varlığını) görürsən, sandığın edgərirsin" (edgərirsin:

oldurarsın, qılqılarsan. qıla bilirsin)). (tüm darlıqlar, kişinin öz açısından doğur). (doğa\təbiət, hər kişiyə, hər kişinin, görüşünə, göz açısına görə verir) (kişi oğlu, özün görmək, anlamaq üçün, (hər dən), dışardan, kəndinə baxmalıdır).

varlığa nə darlıq.

varlığa nə darlıq.

varlığa yiyə olan yoxluquyla uğraşmaz. (varlığına sahab çıxan, ölüm sonrasın düşünməz) (yoxluq çolum, varlıq dolum). (varlıq bolum, yoxluq solum).

varlığı artırmayan, yoxluğu azaltmamış.

varlığı yalan dolu, oldağın oyunu oyu, yalın dünya, yalan dünya. (olağan, vaqeiyyət yalanla doludur, işi oynu iştə bu).

varlığı yarmayan, yoxluğu yozamaz. (dirlikdə nərsə qılamıyan, yoxluğu ilə heç nəyi pozamaz).

varlığımda bilməğisən mən kiməm, tapmağı sən anğlayıb gəlsənğ giləm. (**tapmağı**: tapınmağı).

varlığın sonu ilə yoxluğun sonu birdir.

varlığın sonu ilə, yoxluğun önü birdir.

varlığında dəğərlə, yoxluğunda üzülmə.

varlığında yox yarar, yoxluğuyla nə yarar. (**yarar**: ziyan verər).

varlığında yox yarar, yoxluğuyla nə yarar. (**yarar**: ziyan verər).

varlığız dildən asılı, onsuz siniz qazılı. (**siniz**: qəbriz).

varlıq bolum, yoxluq solum. (yoxluq çolum, varlıq dolum). (varlığa yiyə olan yoxluquyla uğraşmaz). (varlığına sahab çıxan, ölüm sonrasın düşünməz).

varlıq istərsən əgər, dünyada yoxluğu qoma, bütün olmağa həvəs etmə sınığlığı qoma.

varlıq nə dedirməz, aclıq nə yedirməz.

varlıq nisgili yoxluğunda, varlıq dadın qaçırır. {varlıq nisgili: nərsə olma həsrəti (yoxluğunda oyanır)}.

varlıq var ucraşa bağlı, varlıq var uçraşa. (ucraş: (ucun tutub gedmə. iradə). (uçraş: təsadüf).

varlıq yaraşdırar, yoxluq dalaşdırar.

varlıq yoxluq savaşı, sevgi söğüş havası. (**sevgi söğüş**: eşqlə nifrət).

varlıq yüzdürər, yoxluq üzüdər.

varlıqların sanaqıl, yoxluqların yanaqıl. (**yanaqılmaq**: böyütməmək. qıraq tutmaq).

varlıqların sanaqıl, yoxluqların yanaqıl. (**yanaqılmaq**:böyütməmək. qıraq tutmaq).

varlılar, su içir, bilginlər buz yalır.

varlılıq süt gölündə yüzdürər, yoxsulluq, acı sudan üzdürər. (acı su: şor su).

(acı sudan üzdürər: acı suya nisgilli qoyar, yoxsul qoyar).

varlılın eşşəginədə ağıllı deyərlər.

varlının əlin pıçaq kəsdi, yoxsul köynəyin kəsdi. (varlıya saxsı gərəksə,

yoxsul kasasın qırar).

varlının əlin pıçaq kəsəndə, yoxsul köynəyin kəsər.

varlının iti yatmamış, yoxsulun siki.

varlının iti yatmaz, yoxsulun siki.

varlının qızın almaq çətin, saxlamaq, qolay.

varlının min əsgiyi var, yoxsulun bir toxluğu var.

varlının topağından (duvarından) çay keçər yoxsulunkundan yol.

varlının torpağından çay keçər, yoxsulunkundan yol.

varlıya borclu, yoxsula borcun olmasın.

varlıya boşlu olma, yosuldan alacağlı.

varlıya boşlu olmasın, yosuldan (yoxsuldan) alacağın olmasın.

varlıya boşlu olmasın, yosuldan (yoxsuldan) alacağın.

varlıya saxsı gərəksə, yoxsul kasasın qırar.

varlıya verəcəyin, yoxsuldan alacağın olmasın.

varlıya yox daranlıq, çıraqlıya qaranlıq.

varlıya yox daranlıq, çıraqlıya qaranlıq.

varlıyı qısqanma, yoxsulu kiçimsərmə. **(kiçimsərmə: küçümsərmə)**.

varsa malın yadın sənə dosd olur, yoxsa malın yaxın belə yad olur.

varsa malın yadın sənə dosd olur, yoxsa malın yaxın belə yad olur.

varsa pulun cibində, dar evrənin gen gəlir, yoxunsa pul cibində, geniş evrən dar gəlir.

vay günün görməyən, hay gününə inanmaz, hay günün görməyən, vay gününə inanmaz.

vay o günki ola oğru, çağıran oğru tutun.

vaz geçməyin, boş verməyin, keçinməyin öğrəşən, tüm yaşadır sevgilərin uğurla.

ver yamana aşıvı, başında yığ daşıvı.

ver yeyim, ört yatım gözlə canım çıxmasın. (**deyim**).

verdigin unut, alduğun anut. (**anut**: an. yaddan çıxarma).

verdigini unutda, aldığını unutma.

verdin adındı, yedin dadın, sandığdakı yadın.

verdin adındı, yedün dadındı, sandıkdakı yadındı.

verdin alammadın: -

- verdin alammadın, aldın verəmmədin.

- aldın satammadın, satdın alammadın.

- qovdun çatammadın, çatdın tutammadın.

- atdın vurammadın, vurdun tutammadın.

- qaşdın yetəmmədin, tutdun yatanmadın.

- oğul, bundan, sən nə qanırsan? - heç nə!!. – eşit məndən o ki eşitməlisən, yoxsa at onuki atmalısan: - dünya verdiyin alar. sən itirdigin tapar. sən tutduğun buraxar.

verdinisə gözün yum, aldığıva umut yox. (verdinisə tam könüllə ver, geri dönməsinə, almaşına (qarşılığına, mükafatına) umut bağlama).

verdinisə unutda, aldınisə unutma. (verdiyivi unutda, aldığıvı unutma).

verdiyim çox yoxum sənə mən, sevgi bol bilsən, mən varam sevsən, yol bu, buda sən gedsən.

verdiyin bir yumurta, onuda yırta yırta.

verdiyin dəğər donuna dəğər. (biçdiyin dəğər, donun biçdirər). {dəğər ölçüsü, don biçdirər. (**ölçüsü**: əyarı)}. (özgələr sənin dəğər biçdiyivə görə don biçərlər).

verdiyin sorqu kim olduğunu, verdiyin sorağ nə bəklədiyin bəllər.

verdiyivi unutda, aldığıvı unutma. (verdinisə unutda, aldınisə unutma).

verən əldən alan çox, alan ələ verən yox.

verən əli kimsə, kəsməz.

verən əli tut, alan əli güd.

verən əli, hər kəs öpər.

verən əllər boş qalmaz. (bolluq dilə, bol olsun, korluq dilə, kor olsun). (ağzı uğra aç).

verən əllər boşalır, alan əllər boş qalır. {çəklə ver, yoxla al). (**çəklə**: ölçülə)}.

verən ərin əli açıq, görən ərin yolu açıq.

verən ərin əli açıq, görən ərin yolu açıq.

verən gərək olaki alan da alaı.

verən var alır, əkən var dəyir.

verəndə almadıq, diləb alar. (verəndə almayan, yalvarıb alar). (gedəni boş ver, gələni xoş ver, düşman başın yargilən).

verəndə tələsmə, alanda qapma.

verəndən al, vurandan qaç.

verənlər dinc yaşır, alanlar tox yaşır.

verərsən üzün olar, alarsan üzü olar.

verərsən üzün olar, alarsan üzü olar.

verəsi çörək yoxunsa, deyəsin çörəkli olsun. (sözün dadlı olsun).

verəsin kəndivə dəğər, biligin biləgin əğər!.

vergili üzülməz, alacaqlı üzülür. (**vergili**: verəcəkli. borclu). (**alacaqlı**: borc verən).

verib verən olunca, vermə saranğ ol. (verərək, yiğitliklə adlım olmaqdansa, ən iyisi vermə, çinisliklə tanınmış ol. qıslıq, xəsislik, axmaqlıq dəğildir).

verilən pay, alınan pay, yığılan pay, dağılan pay. kəndi payın, kəndivə güvən. (**pay**: qismət).

verilən sözləri, bırax umutları, əlində yüyən, kəndivə güvən. (**yüyən**: yular. cilov. kontrol).

verim göydən yol salar. (**verim**: para. hər ad ilə olur olsun). (para, olmasın işi yapar).

verimsiz baylara gedmən, ayaslı dağlara barda. (**ayaslı**: kərim. kərəmli. əsirgəməz). (**gedmən**: gedmə). (**barda**: getdə). (açıq dağlara üz tut, qısımır varlıdan uzaq dur). {tanozlu baylara barma, tanıqsız dağlara barda. (**tanozlu**: minnətli) (**tanıqsız**: minnətlsiz)}.

verirəm diyə quluna, çıxarıb qoyar yoluna.

verirsən doyur, vurursan duyur.

verməlin var vergilən, yoxsulluğa düşmədən, görməlin var görgilən, salığ daşın görmədən. (**salığ daşın**: əhləd daşın).

verməlisən düzən yolağ yaşama. - dərd çəkənin, kef görənin demişlər.

verməlisən düzən yolağ yaşama. - dərd çəkənin, kef görənin demişlər.

verməmək söz nə qözəldir verəsən tutmuyasan.

verməmək söz nə qözəldir verəsən tutmuyasan.

verməmiş gördügünü göz qulağa. (**gördügünü:** görmüş olduğunu).

verməyənin bir üzü qara, verənin iki üzü, alıb verməyənin içüzü qara.

(**içüzü**: vicdanı).

verməz ata dərək dilinə, cocuq baxar tərsə elinə. (**dərək**: qədir. qiymət).

(atası sayqı ilə anadilinə yanaşmadan son, qoduğundan nə gözləyə bilər).

verməz kişi qalar işi.

verməzin aşı qazandan çıxmaz.

vermə söz tutmayacaqsan bilisənki sorağın, biçinin vardı səninsə iti saxla orağın.

vermə söz tutmayacaqsan bilisənki sorağın, biçinin vardı səninsə iti saxla orağın.

versən yeyər vursan ölər.

və ol qutlu ağac ki tanrı yad qıldı.

vəlim ağacı nə göz yaşı diriltməmiş öləni, döndürməmiş köçəni, ayaq dirib gücünə, başın götür iləri.

vətən daşı olmayandan, olmaz vətəndaşı.

vətən dediyin düşmansız olmaz.

vətən elin evidi.

vətənin tüstüsüdə şirindi.

Vistül ırmağında Türk atları sulandıkça (suvarıldıkça) Lehler rahattır. Leh, Polonya halkı. Osmanlı Devletine bağlı akıncılar Polonya (lehistan) ya girmişler. Acıkmışlar bağlara girmişler. Bunu gören halk korkudan evlerini terkedip yüksek bir yere çıkıp, Türkleri gözlemeye başlamışlar. Bir taraftan tüm üzümlerimizi Türkler talan etti deyip, üzülüyorlarmış. Türkler karınlarını doyurmuşlar, biraz üzüm alarak gitmişler. Halk da korka korka bağlarına yaklaşmışlar. Birde ne görsünler üzüm alınan her asmada birer altın bırakmışlar. Halk memnun olmuş. Vistül ırmağında Türk atları sulandıkça, lehler rahattır sözü bir darbımesel haline gelmiş. (Bayram Özdemir).

vur dedi, vurdum, öl dedi, öldüm, at dedi, atdım, qal dedi, qaldım. artıq duran deyil mən, ölmüş tinim, çökmuş içim, ölən mən.

vur demək vurmaqdan irəli gəlir! (vur demək, qat qat vurmaqdan qolay gəlir). (vur deyən çox olur, vuran az). (vur deyib qana basdılar, de deyib bükə soxdular) (**bükə**: poxa. girifdarlığa).

vur deyən çox olur, vuran az. (vur demək vurmaqdan irəli gəlir!). (vur demək, qat qat vurmaqdan qolay gəlir). (vur deyib qana basdılar, de deyib bükə soxdular) (**bükə**: poxa. girifdarlığa).

vur deyib qana basdılar, de deyib bükə soxdular. (bükə: poxa. girifdarlığa) (vur demək vurmaqdan irəli gəlir!) (vur demək, qat qat vurmaqdan qolay gəlir). (vur deyən çox olur, vuran az).

vuran atar. (**atmaq**: ovlamaq).

vuranmaz, dayağın kəttəsin alır. (**kəttəsin**: yekəsin).

vurdun tutmadı, tut vur.

vurqunun günü yox ortası yox, danı yox irtəsi yox. (**vurqunun**: aşiqin).

vurmasını bilməsən, öz topuzun kəndi başında enər. **(topuz:** gürz. çomaq).

vursan ovsar kəndinə, dünya səni sayqılar.

vurub söküb xorlama, danış söylə açıqla.

vurulan yarqa dəğər. (vurulan yarıya dəğər). (hər olay adamın sınıq, qırıq, çılız zayıf yerin oynadır, etgilir). (kişi hər olayı, durumu kəndi açısıyla, düşüncəsi ilə çəkləşdirir (sanğlayır. ərzyablıq edir).

vurulmuş yara gizlidir çara.

vuruşda düşünməyə yer qalmaz. (döğüşə, düşünüb gir, girib düşünmə).

vuruşqan buğa buynuzsuz qalar.

vuruşqan xoruz, səmirməz.

ya adın çıxsın ya "od"un çıxsın.

ya al götür geri qalanımı, yada gəl bitir əksik olanımı. (**əksik olanımı**: əksik yanımı. yarı yanımı).

ya al təzələ, ya yama təzələ.

ya dəvə ölər – ya dəvəçi – ya üstündəki haci.

ya gümüş yalı ağ ol, ya dəmir yalı qara, hər nə olsan ol bırak, elin dərdinə yara. (**bırak**: vəli. vəlin).

ya hesab bilmisən ya götün çubuq görmüyüb.

ya ki qılıncı tut, yada qələmi.

ya qılıncı tut, yada qələmi.

ya qorxun gəbər, ya güvən təpər. (**təpərmək**: itmək. təpmək. yügürmək).

ya qorxun gəbər, ya güvən təpər. (**təpərmək**: itmək. təpmək. yügürmək).

ya lələ şələni yada şələ nənəni.

ya oxu ya toxu.

ya oxu ya toxu.

ya sayı bilmisən ya götün çubuq görmüyüb. (**sayı: sana**. hesab).

ya şələ nənəni, ya lələ şələni.

ya unçu ölər, yada dəgirmançı.

ya unçu ölər, yada dəgirmançı.

ya zor ya zər, yoxsa bu yerdən səfər.

yabun malın, mal sanma. (özgə malı, mal olmaz, bir gün geri alınır).

yaci işə gələr, yaman aşa.

yad baltaya sap olma!.

yad dildə çalışmaq elizə nərsə gətirməz.

yad elliyə yer versən, doğma eli, doğma yerdə yad edər. (**yad edər**: yad sayar).

yad əllərdən min tikə, doğma eldən bir tikə.

yad gülmədədir qayğımıza, biz dəğərində, içdənligilə ağlayırıq özgə qəmində. (şəhriyar). (**dəğərində: dəğişində**: bədəlində. yerində. vərində). (**içdənligilə: içdaşlığilə**: səmimiyyətlə).

yad itin quyruğu yamızında. (**yamız**: iki qıçın arası).

yad itin quyruğu yamızında. (**yamız**: iki qıçın arası).

yad ocağı qızdırmaz, yad kölgəsi ısıtmaz. (**ısıtmaz**: güvətməz).

yad ölkədə yardım sənə bircə özün bir paran.

yad ölkənin toxu ol, doğma yerin yoxsulu yox.

yad tatdan, tanış şeytan yeğdir.

yad varında gözün var, ürək qısıq, gözün qapıq, əlin dar. (**əli dar**: qıtmır).

yad varlının adı tanış gələr, tanış yoxsulun adı yad.

yad yaddi mənə yoxdu belə ilgisi mənlə, hər nə gələ başım əzilə dosduma bağlı.

yad yanaşdı doslaşdı, dos yolaşdı, yadlaşdı. (**yolaşdı**: uzaqlaşdı).

yada salma keçəni keçdi ömür durmazsan, gələcək gözləyəyiri olki gülər üzləri var. (**durmazsan**: qalmazsan. fanisən).

yadlar girəli, doğmalarım yad olmuş, doğmalıq qurqaca bir ad olmuş.

yadlar içində bilgin olan, bilginlər içində yad olu.

yadlar içində biliş oldum, bilişlər içində yad.

yadlardan qırın kəndivə sığın.

yağ başından yağ əksik, dağ başından qar əksik olmaz.

yağ başından yağu, dağ başından qaru.

yağ davarın savıldı, ərən kişin dağıldı. (dos köməyin vara baylığa bağlıymış).

yağ yağ üstədi, yarma yaman üstədi. (**yarma**: yırtma. çapma). (yaxşılıq yaxşılığı gətirir, tüm qavqalar yaman üstədir).

yağ yağa qovuşar yarma yavan qalar.

yağa manılsa çörək, bir tikəsi tutar ürək. **(manmq. banmq**: nərsənin <u>içinə</u> qoşulmaq, batılmaq).

yağan yağış uca dama tez düşər.

yağar yağmur əkin ösünər, əkən öğünər.

yağdırmadan göl olmaz, uydurmadan ev.

yağı ağısın içən, öz ölümün bilməz. (düşmanın zəhərin içən, susqun ölümə düşər). (**susqun**: dinməz. salasız. xəbərsiz).

yağı odun uçurğan, düşmən oxun çevirgən, toydan onu qaçurğan, işlər uzub keçirqan, bu gün öldü bir kişi. (düşman odunu, ocağını söndürən kişi, düşmən oxunun yanıtın verən kişi, oxunu qıran kişi, el içindən düşməni qaçaq salan kişi, işləri tədbirlə açıb yerinə qoyan kişi bu gün öldü) {artunqa ağısı (bir parça)}.

yağıdan qurtulluq, dosdum tutmasa (qoysa).

yağıq bulsan, yax yarava. (**yağıq:** mərhəm, dərman kimi işlənilən yağ, kirim).

yağın qayğıran yağa düşər. **(yağın:** yağısın). (yağısın gözləyən qaynar yağda pişər). **(**düşmanın oxşayan bəlaya düşər, mal yığmağı düşünən dinclikdən olar). (yağısın qayğıran qaya düşər, barını qayğıran borana).

yağın olsa didrü baxıb güdgilən. (**didrü**: iti iti. çox diqqətlə).

yağın yaxcı yağdı, yazıqki it dərisindədi. (**yazıqki**: heyifki).

yağına qıymayan çörəyin yoz (yavan) yeyər.

yağını aşaqlasan, başa çıxar. (**aşaqlasan**: alçaq görsən).

yağınlıqda dəlik qatlar damcılar. (**qatlar**: damlar).

yağır nəyin yalığ bilər. (**yağır**: at sırtındaki yara). (**yalığ**: yoxsul). (**nəyin**: nə oduğun). (atın sırtındaki yağırın anlamını yoxsul bilir). (onun, bu kimi atın yerinə qoymaya başqa bir atı yoxtur).

yağırsa hər yerə yağar, sağırsa, hər nədən sağar. (**sağırsa**: yağdırırsa. yetirirsə). (bir bölgənin bir bölümünə yağırsa, o bölümün hər yanın tutar. (toplumun gənəl dolanşığı, bayağı durumu bir külçə kimidir. birinə gurda yağsa, o birinə heç olmasa damar, o birini etgilər).

yağısın qayğıran qaya düşər, barını qayğıran borana. (düşmanın oxşayan bəlaya düşər, mal yığmağı düşünən dinclikdən olar) {yağın qayğıran yağa düşər. (**yağın:** yağısın). (yağısın gözləyən qaynar yağda pişər)}.

yağısına kövrələn (acıyan), bir gün başı asılır. (**yağısına**: düşmanına).

yağısına kövrələn (acıyan), bir gün başı asılır. (**yağısına**: düşmanına).

yağış damcısı, daş dələr.

yağış gəldi, yağdıda keçdidə.

yağış gəlir bulutla, el baylığı buluqla. (buluqla: bilgiklə).

yağış töksə sel alar, malın qalsa el alar. (el: yad).

yağış yağa toprağa, heyvan qaçar otlağa.

yağış yağar yer gögər, alqış alar ər gögər. (**gögər**: gövərər. cücərər.).

yağış yağdı, qoşa gəzdik səninlə, qaranlıqda tutdum sənin əlindən, od çaxnaşıb yandı könül odunda, qucaqlaşdıq qoyun boyun səninlə.

yağış yağdı, yağışda qaldıq, yağış kəsdi damcıda. (bir xoş gün, qolayın sağlamayadıq).

yağış yağır, bir sənidin birdə mən, nə yağdığı yağışdan, nə çəkdiyim soluqdan, nə verdiyin umuqdan, yoxdu artıq izizər, həpsi oldu pezəvər. (**pezəvər**: pükki. puç. sonsuz. dönük).

yağış yağsa qabın olsa yapınqu gərərk, yavuz kişi yakın gəlsə abınqu gerek. (**yapınqu**: örtmək) (**yavuz**: yaman) (**abınqu**: gizlənmək).

yağış yağsa qabın olsa yapınqu gərərk, yavuz kişi yakın gəlsə abınqu gerek. (**yapınqu**: örtmək) (**yavuz**: yaman) (**abınqu**: gizlənmək).

yağış yağsa toz qopmaz.

yağışdan çıxıb, çoğuna düşdük.

yağışdan qurtulub, doluya düşmək. (dayağdan qurtulub, toxmağa tutulma).

yağışı savıb damcıya düşdük.

yağıtlıq olsa, yarıqlıq düşər.

yağıya acan, yaralqın. (düşmana acıyan kəndisi yaralanır).

yağıya ayağan, yaralı, qadını qaralı. (düşmana acıyanın kəndisi yaralı, qarısı yaslı olur. (**ayağan**: acan: acıyan) (**qaralı**: yaslı).

yağıya baxıb dosduvu tanı, dosduva baxıb, yağını.

yağıya yavuz, dosda uz. (düşmana pis, dosda yaxcı).

yağqutmadı çağında, sağnağutdi yağında. (yağdırmadı gərəyində, sel kimi axıtdı yağışlıqda). (davranışda ölçünü, qılınışda, öğünü (zamanı) güdməli, gözləməli).

yağla doymayan, ətlə doymaz.

yağla dügü olmasa, açıq saçaq boş qalar. (**saçaq**: süfrə).

yağlaq yavlaq ayırqıl!. (yaxcı pisi seçgilə).

yağlı donsa, canı çıxmaz, çinis ərir, yağı çıxmaz.

yağlı günün yad yaxşı, qanlı günün qarındaş!!!???.

yağlı küyzə su yokmaz. (**küyzə**: küzə). (**yokmaz**: yoluğdurmaz. sızdırmaz).

yağlı küzə su verməz. (**yağlı**: sırlı. şirli). (**yağlı küzə** su yoqmaz).

yağlı küzə su yokmaz, bağlı qoldan iş yarmaz, qapıq beyin söz qanmaz, duymaz kişi uslanmaz (dinməz kişi uslanmaz) (**dinməz**: söz eşitməz) (**su yokmaz**: su verməz). **(iş yarmaz**: iş törətməz).

yağlı yerdən yağ damar..**(yağlı**: faydalı).

yağlıq alıb yağlayasan tat dilini yad dilin. (**yağlıq**: silgi. dəsmal).

Yağmadı yağış, bitmədi qamış. (Araz Gunduz).

yağmır altda, ağlar gözlə yaşama. (varlığıvı yanlış, tərs yansıtma).

yağmırdan dinilib, damcıya ilindik. (**dinilib**: qutlduq).

yağmış yağış cücərməmiş ayağ altda qalan gül. {ayağ altda qalmağın büktüsü budur. (**büktüsü**: hükmü)}.

yağmur bilə yer gögər, alqış bilə ər gögər. (**gögər: gögərər**. **gövərər**. ösər). (**alqış:** təşviq. xeyir dua).

yağmur bilən yer gögər, alqış bilən ər kökər. (**gögər**: göyərər). (**kökər**: bəsirir. becərir).

yağmur bilən, yer gögər, alqış bilən, ər gögər. (**gögər**: göğərər). (**alqış bilən**: dəğərləməklə, ərgişləməklə).

yağmur borana qatlaşan, gökqurşağın qarşılar.

yağmur yağsa barqası, yağmur yağmaz qurqası yetər. (**barqa**: fayda). (**qurqa**: ziyan. zərər). (su aydınlıqdır).

yağmurdan qaçıb doluya tutulduq.

yağmurdan qaçıb toğana düşduk. (**toğan**: qarlı küləkli tufanlı hava). (pisdən pisə, kötüdən kötüyə).

yağmurdan qaçıb, doluya tutulmaq. (dayağdan qurtulub, toxmağa tutulma).

yağmurdan savılan damcıya dözər.

yağmurluqda yaşar gözlər bəllənməz. (yoxsa ışıq, ağla qara seçilməz).

yağru yağı, yağısmaz. {piy yağı, kərə (sarı yağ) dadı verməz}.

yağsa yağış, bitər qamış.

yağsa yağış, bütün quşlar yuva arıb qaçarlar, bıraq qartal bulut tümün yenmiş olub üstələr. (bıraq: ama).

yağsız malı, qurd yesin.

yağtı suyun bir gün dönər ağuya. (**yağtı su:.** nazü ne'mət).

yağu çönüb dosd olmaz, gəlin gəlib qız olmaz. (ördək çönüb qaz olmaz).

yağu daldan, börü ormandan kəməlməz. (**daldan**: arxandan).

yağu dalında, börü ormanda. (yağu yox demə dalında, börü yox demə ormanda).

yağu dığadan bir tük belə olcadur. (**olca**: qənimət).

yağu gəlsə tənin verin, tin qoru. (düşman gəlsə özündən keç, gizindən yox).

yağu gözün yırta verər ərkişi, qorxaqlıqdur yaltaqluqdur yav işi.

yağu ilan kimi qıvrılar, doslar ara sızğırar. (**sızğırar**: süzər).

yağu nəmə deyməz, düşə nəmə girməz. (**deyməz: deməz)**.

yağu oylağı yağ başı, qar oylağı dağ başı.

yağu yağlu, yarmaz yağu deyilməz. (düşman sancmaz demə, düşmandan kar (fayda) bəklənməz).

yağu yağunun yasın tutmaz, sevən sevənin başın utmaz.

yağu yaxandan, it ətəkdən asılı. (biri yaxandan, biri ətəkdən asılı).

yağu yox demə dalında, börü yox demə ormanda. (yağu dalında, börü ormanda).

yağudan damsa uğur, ağqu kimi alqularam. (**uğur**: xeyr). (**ağqu**: **ağu**. **ağı**. zəhər) (**alqularam**: qəbul edərəm).

yağudan, dönük yaman. (**yağudan**: düşmandan) (**dönük**: xain)).

yağun qarşı kişi donun tanıtmaz. (**yağun**: yağın: yağuva. düşmanıva) (**tanıtmaz**: bəllətməz).

yağun qonaq saxlama, aşında yər, başında. (**yər**: yer. yeyər). (**yağun:** yağuvu. düşmanuvu).

yağunu arsılat (**arsılat**: zərərsizlət).

yağunu yavla, dosduvu yağla. (**yağunu**: düşmanı). (**yavla**: yavala. kötülə).

yağunun dışından içi aman. (düşmanın içində olub çalışmaq, qarşında durub çalışmaqdan yeğ).

yağuya ağu, dilənmə aman. (düşmanıva, öcmanıva zəhər arzula, sağlıq yox).

yaxa almadan ətək verməz: çox çimri, xəsis kişi.

yaxadakın yalayan, əlindəkin qaçqınur. (yaxadakın yalayıb, əlindəkin qaçırır).

yaxadakın yalayıb, əlindəkin qaçırır.

yaxadakın yalayıb, əlindəkin uçğunma. **(uçğunmaq:** əldən vermək, bıraxmaq. itirmək).

yaxan pişmiş, qazan düşmüş. (yaxma pişərsin, qazma düşərsin).

yaxar odda sönərmiş, sevgi yaxar yaxır yandırar.

yaxcı arvad var qadan alar, onun pisi qadan qalar. (**qada**: vırqı. bəla. ağrı).

yaxcı danış, iyi dinlə.

yaxcı danış, yaxcı yaz, uzun düşün, qonuş az.

yaxcı demişlər, vardan etmişlər, iyid demişlər, candan etmişlər.

yaxcı dosda can qurban, yerin tutmaz yaxçı olsa qardaşın.

yaxcı elər pis elər, hər nə elər dosd elər. (kişi bildiklərindən tanıdıqlarından öğrəşir).

yaxci işə gələr, yaman aşa.

yaxcı işləridə, iyi görməsən, pis qurtaracaq.

yaxcı oyunçunu topda görür.

yaxcı pisə qarışsa, yaxcı gedər güdaza.

yaxcı pisi saylayan, açmaz ağız əksiklərin qatında. (**saylayan:** seçən. ayıran). (**qatında**: hizurunda).

yaxcı sözlərin yaxcısından, yaxcılıq gözləyən, yamaşdan yavaş gedər.

yaxcı yaxcıya pay verər. dilənçi dilənçidən pay güdər. yaxcı yaxcıdan pay güdməz.

yaxcı, işə gələr. yaman, aşa.

yaxcıda əl sınınca, yamanda bel qırılsın.

yaxcıdan, yaxcını seçmək, önər deyir, yaxcıynan pisi seçmək görəvdeyir, yaxcıynan pisi seçmək kişilikdir.

yaxcılar içində lap yaxcısın, pislər içində lap pisin tanı.

yaxcılar, gəlir dar gündə. yaman verir, zay gündə.

yaxcılığa ırışma (öğünmə), pisliyinən barışma.

yaxcılığa ırışma (öğünmə. şişinmə), pisliyinən barışma.

yaxcılığa tapınnam, yamanlığı unutmam. (**tapınnam**: övərəm. sayqılaram).

yaxcılığa, başar, alış.

yaxcılığın yolun bilsən, pislik yolundan çıxar.

yaxcılıq bir gül dəyir əkib biçəsən, bir güldur, dərib atasan.

yaxcılıq igidə yük olmaz.

yaxcılıq igidliklə birgə doğulub.

yaxcılıq olub olmamaq deyil, olmamaq çox iyidir ağrısa başda, daşsa ayaqda.

yaxcılıq ürəkdən pasın silər.

yaxcılıq yiyəsin tanımaz. (yaxcılıq yiyəsinə qəribdir).

yaxcılıq, yiyəsinə qəribdir.

yaxcılıqla bitməmiş iş, bitməmiş iş. (yaxcılıqla bitməmiş iş, yarımçıq iş). (işləri iyiyə yormaq yolu).

yaxcın vermə hayıfdı, pisin vermə ayıbdı.

yaxcını basan yamanı açan qonşu.

yaxcını basan, yamanı açan qonşu.

yaxcını gözlüsən gəlsin qapıva! qapıvı bağlı qoy.

yaxcını yatluyan pisin çıxarar (pisinə batar).

yaxcını yeltəsən düşünər, yavuzu yeltəsən övünər.

yaxcını yeltəsən düşünər, yavuzu yeltəsən övünər. (**yeltəmək**: öğmək. tərifləmək).

yaxcını, pislər günülər, yaxcı çox olsa pisin güdülər.

yaxcının eddiyin gör, pisin yatdığın.

yaxcının eddiyin görsin, pisin yatdığın. (yarqış. dua).

yaxcının kim olduğu gorda, kişinin kim olduğu yolda bəllənir. (**gorda**: yoxluğunda).

yaxcının nə olduğun pisdən soruşma, pis bilməz yaxcılıq nədir.

yaxcının özündən um, bilənin sözündən.

yaxcının özündən um, bilənin sözündən.

yaxcının sözü dilində, yamanın kini içində (ürəkdə).

yaxcının sözü dilində, yamanın kini ürəkdə.

yaxcısı özüvə, pisi özüvə, yelə tüpürsən, yeldə təpər gözüvə.

yaxcıya yoxuş, yamandan üzüş.

yaxcıya yokuş (yapış), yamandan üzüş.

yaxcıynan (iyiynən) yatlu hara. altınla, tünç hara.

yaxdılarda, yıxdılarda başa baş, qomadılar dura daş üstə daş.

yaxı mənim, yağı sənin, batı mənim, butu sənin. (**yaxı**: əzabı) (**batı**: ziyanı).

(**butu:** bəhrəsi).

yaxın dalaşsa, yadqa cem. (yaxınlar savaşsa, yabancılara yem olur).

yaxın ettiyin, uzqa (özgə) edəməz.

yaxın qonşuya, yaman söz demə.

yaxın olmaq soğudar, uzaq olmaq üzüdər (üzükmək: özləmək. həsrət

çəkmək).

yaxın olsan az ol ıraq olsan çox ol.

yaxındakı saxsı, dışardakı daşdan bərk. (**dışardakı**: uzaqdakı. ıraqdakı).

(yaxındakı kəssək, dışardakı daşdan bərk). (**kəssək**: bərk topraq parçası).

yaxındakı tüstü, kor elər.

yaxınır könül, göz yaşarır.

yaxınlardan bəklərəm, ən gücümə gedəni.

yaxınlığın çəki var, iş uzansa çeti var. (**çəki**: ölçüsü. sınırı). (**çeti**: yadlığı).

yaxışa dartıq ara. (yaxşılıq edməyə layiqin axdar) (yaxşılıq etdiyivə layiqin ara).

yaxma pişərsən, qazma düşərsən.

yaxma pişərsin, qazma düşərsin.

yaxma pişərsin, qazma düşərsin. (yaxmadım pişmədim, qazmadım düşmədim). (yaxmamışdım pişirdilər, qazmamışdım düşürdülər).

yaxmasın için özüvü, gülər saxla həmməşəlik üzüvü, yaxsa dışın özgələrin gözünü, sayma kimin yumar saxla gözünü.

yaxşı adın tutmasan, yaman qapında yatar.

yaxşı arvad buğda unun aş edər, yaman arvad buğda unun daş edər. (yaxşı arvad buğda unun aş edər, yaman arvad hər ikisin daş edər).

yaxşı arvad ev qurar, yamanı uçurar.

yaxşı arvad, evin yarısıdır.

yaxşı aşıvı, yaman başıvı yeyər.

yaxşı atın dişinə baxma.

yaxşı başlar qara daşda, qaravaşlar dili aşda.

yaxşı canınqa yoldaş, yaman malınqa yoldaş.

yaxşı cocuq ertir durub saç darar, yaman cocuq irdən durub yem dilər. (**ertir durub**: tezdən durub) (**irdən durub**: sabah gözün açandan).

yaxşı demək kaşki deməkdən uluğ. (**uluğ**: ərcəh).

yaxşı demək kaşki deməkdən uluğ. (**uluğ**: ərcəh).

yaxşı dilək, bütün ürək. (yaşam güdə, vur çıx başa).

yaxşı gələr aşın yər, yaman gələr başın yər.

yaxşı gələr qalığları durquzar, yaman gələr uvatların uçqurar. **(qalığları durquzar**: xarabaları abadlar). (**uçqurar**: uçurar) (yaxşıdan bağ qalar, yamandan dağ).

yaxşı gəlin gülümdü, yaman olsa ölümdu.

yaxşı gəlməyincə, yaman gedməsin.

yaxşı gəp ilanı hinindən çıxarar, yaman gəp qılıcı yenindən çıxarar.

yaxşı gördüyündən deyər, yaman verdiyindən.

yaxşı görək sənki toxsun, nə bilirsin çəkdiyin yoxsun.

yaxşı görməyən dünya varını, bir əkmək üçün bir ömür gəzməli olar.

yaxşı gün, dan ertədən bəllənir.

yaxşı gün, dost yığır, yaman gün, yoxlur.

yaxşı xəbər uzaq gedər, yaman ondanda uzaq.

yaxşı xəbər, yalansada xoş gəlir.

yaxşı igid yaman qadın tüşlasa, azu atar azu qaçar qutulsun. (**azu**: ya).

yaxşı ilə yola çıx, yaman yol üsdə güdür.

yaxşı ilə yolda ol, qalan işin bitirsin, yaman ilə yolda ol, yürən yolun itirsin. (**ilə: bilə**. ilən. bilən. birlən) (**yürən yolun itirsin**: yeridiyin, tutduğun yoldan azdırsın).

yaxşı isən dos tapılar, gedər isən yol tapılar, işləyirsən pul tapılar.

yaxşı işlər aylasanğ, elgim sana boy aylağay, bir yaman iş, quşuqusuz adınğı edqəydir yaman. (**aylasanğ**: eyləsənğ). (**aylağay**: eyləgəy). (**elgim**: millətim). (**boy**: fəxr) (bəhram).

yaxşı işlər aylasanğ, elgim sana boy aylağay, bir yaman iş, quşuqusuz adınğı edqəydir yaman. (**aylasanğ**: eyləsənğ). (**aylağay**: eyləgəy). (**elgim**: millətim). (**boy**: fəxr) (bəhram).

yaxşı kişi yaxşı söz, könül açar qəm yuvar.

yaxşı kişi yaxşı söz, könül açar qəm yuvar.

yaxşı qadın ömür balı, yaman qadın can azalı.

yaxşı qadın ömür balı, yaman qadın can çoralı (zuvalı).

yaxşı qadın ömür balı, yaman qadın can zuvalı.

yaxşı mal can qaraldır. (iyi mal can qurtarır).

yaxşı mal yerdə qalmaz, gözü olan qurtlu almaz.

yaxşı oğlan yaman yoldaş tutunsa, qalar yoldan barçağına ərinməz.

yaxşı oğlan yaman yoldaş tutunsa, qalar yoldan barçağına ərişməz. (**barçağına**: mənzilinə. məqsədinə**)**.

yaxşı oğul öy düzər, yaman oğul toy pozar. (**toy**: əyləş. məclis).

yaxşı oğul yağışlıq yaman oğul qağışlıq. (**yağışlıq qağışlıq**: rəhmət lə'nət qaynağıdır).

yaxşı oldu savaşma, yaman oldu yanaşma.

yaxşı olsa bəydən, yaman olsa quldan sayılır. (iş iyi çıxarsa, bəydən görülür, kötü çıxarsa quldan görülür).

yaxşı olsa tarım verdi, pis olsa pü atovna. {**pü atovna**: atova qarqış. **(qarqış**: lə'nət}.

yaxşı olsa tarım verdi, pis olsa pü atovna. {**pü atovna**: atova qarqış. **(qarqış**: lə'nət}.

yaxşı olur qızların hamısı, hardan çıxır arvadın pisi.

yaxşı ölər, dərək görər. (yaxşının ölendən son dərəki bəllənər). (**dərək**: qədr) yaxşıya vermə dərək, onun nəyinə gərək. (yaxşıya sayqarlıq eləmə (minnətdarlıq bildirmə), onun belə yağlamlara gərəyi yoxdur). (**yağlamlara**: dadlı dillər tökməyə) (yaxşı, gördüyü, qılmışı qarşısnnda nə səndən, nə məndən qarşılıq gözləmir).

yaxşı söylə, yaxşı gəplə yaxşı de, eşidən qulaq var olsun, eşitməzin nə olsun!.

yaxşı söz can azığı, yaman söz baş qazığı (**qazığ**: mismar. mıx).

yaxşı sözə qulaq salqıl, tan ertəsi, oyaq bolqıl, yaxşılardan alqış alqıl, yaşın artıb, uluğ qalsın.

yaxşı sözlə ilan çıxar ninindən, yaman sözlə kişi çıxar dinindən.

yaxşı sütün qaymağı, yaxşı ətin kababı.

yaxşı şeyə gül ki, başına gəlsin.

yaxşı tanıb qapırar, yaman qapıp qanırar.

yaxşı yaxşıya könül atmış, yaman yaxşıya oxun atmış.

yaxşı yaman seçilməz, ölçək daşın olmasa. (**ölçək**: əyar).

yaxşı yaman, keçdi karvan.

yaxşı yaman, keçər kərvan.

yaxşı yamandan küsmüş, yaman ondan biliksiz, yaman izlər yaxşını, yaxşı ondan biliksiz. (**biliksiz**: xəbərsiz).

yaxşı yarın sıyı yok, yamanına düşmanca, öz yurdunun sıyı yok, özgə yurda aşmanca. (**sıyı yok**: dərəki yok. qədri yok).

yaxşı yiyə qılığ bilər atında, bağlar atın yaxşı atın qatında. (**qatında**: yanında).

yaxşı yiyə qılığ bilər atında, bağlar atın yaxşı atın qatında. (**qatında**: yanında).

yaxşı yolunqa yoldaş, yaman yolunda bir daş.

yaxşı yolunqa yoldaş, yaman yolunda bir daş.

yaxşıca yaltalan, yaxşıca yalvar, yaxşı yalvarana yaxşı da yal var.

(**yaltalan: yaltaqlan)**. (Heyder Oguz).

yaxşıdan ad qalınca, yaman pozar dadını.

yaxşıdan ad qalınca, yaman pozar dadını. {yaman, yavalıq yaxşıları izib əzməkdən dinc klmayacaqlar). (**izib əzməkdən**: izləyib əzməkdən)}. (iyiləri heçan (heç çağan unutamayız. iyilərin keşiyi tutmalıyız, yaman ocaq başında).

yaxşıdan bağ qalar, yamandan dağ.

yaxşıdan bağ qalar, yamandan dağ. {yaxşı gələr qalığları durquzar, yaman gələr uvatların uçqurar. **(qalığları durquzar**: xarabaları abadlar). (**uçqurar**: uçurar)}.

yaxşıdan uzaq olma, yamana yaxın durma.

yaxşıdan yaman törəsə çıxadır, yamandan yaxşı törəsə girədir (iyidən kötü doğarsa ziyandır, kötüdən iyi doğarsa qazanctır).

yaxşıdan yaman tutulsa çıxaşa, yamandan yaxşı tutulsa girəşə (iyidən kötü doğarsa ziyandır, kötüdən iyi doğarsa qazanctır). (**çıxaşa**:. zərərli). (**girəşə**: qazanc).

yaxşıla dost olsan səni əzizlər, yamanilə dost olsan dalıca pislər.

yaxşılara tiniş yox, yamanlara ölüm yox. (**tiniş**: dinclik. rahatlıq.).

yaxşılardan nə qalmaz, yamanlardan nə azalmaz.

yaxşıların yaxşılığı dar yerdə, yamanların yamanlığı hər yerdə.

yaxşılarla vuruşma, yamanlarla duruşma.

yaxşılarla yarışqıl, yamanlarla qarışma.

yaxşılığa qapınma, yaxşılığı unutma. (**qapınma**: aşrınma. kor olma. ifrat edmə).

yaxşılığa qapınma, yaxşılığı unutma. (**qapınma**: aşrınma. kor olma. ifrat edmə).

yaxşılığa qarşılıq unutma qıl yaxşılıq, yamanlığa qarşılıq hər nə yapsan düşün qıl.

yaxşılığa yaxşılıq ər kişinin işidir, yamanlığa yaxşılıq qorxaqların işidir.

yaxşılığa yaxşılıq, borclu qoymaz kimsəni, yaxşılığa yamanlıq, dincə verməz ölkəni.

yaxşılığı bəkləyən yaxşıların taparmış, çılqıncası çalışan ən yaxşısın dərərmiş.

yaxşılığı bəkləyən yaxşıların taparmış, çılqıncası çalışan ən yaxşısın dərərmiş.

yaxşılığı edisən yum gözünü ona sən, qarşı güdmə heç nədən, geri dönməz ır gedən. (**ır**: ıraq). (**ır gedən**: ölən).

yaxşılığı itirəndən, duz çörək umma.

yaxşılığın gələsi, yamanlığın batası. (eyilik gələrisə, kötülü qaça düşər).

yaxşılığın güdmə sən, yamanlığı yox ərdən.

yaxşılıq açan qapıya, sevgi qonar.

yaxşılıq ağac başında - tutmaq çətin, yamanlıq ayaq altında - atmaq çətin.

yaxşılıq ağac başında, tutmaq güc, yamanlıq ayağ altında, qaçmaq güc.

yaxşılıq bilməyən, yamanlıqdan qalmaz.

yaxşılıq ed, yaxşıların yarı ol, yamanlıqdan ıraq dur, yamanlara yağı ol.

yaxşılıq etdin unut, yaxşıları unutma!.

yaxşılıq güdmə, yamanlıq çıxmazın ərdən, göl olmağı güdülməz, su çıxmazın yerdən.

yaxşılıq qarşılıq görməz.

yaxşılıq qəribdir tanınmaz. {yaxşılıq uzqadır (özgədir), tanınmaz}.

yaxşılıq yola atılmamış, qızıl yerə.

yaxşılıqı su altında gəmiş, üzündə dilə.

yaxşılıqı su altında gəmiş, üzündə dilə. (**gəmiş**: quyla).

yaxşılıqla elə özün tanıdan, alqış alıb el içində yüksələr.

yaxşını anla, yamanı danla.

yaxşını qoru itməsin, yamanı batır çıxmasın.

yaxşını söz öldürər, yamanı çomaq.

yaxşını söz öldürür, yamanı dayaq. (iyi kişini söz öldürür, kötüyü dayaq öldürür). (kötüyə, yamana, qanmaza, kotana söz nə edəcək). (kağıl, cahılın önündə söz kar kəsməz).

yaxşını yada vermə, hayıfdır, yamanı yada vermə, ayıbdır.

yaxşının özü ölsə də, sözü ölməz. (iyi kişinin kəndisi ölürsə də, sözü ölməz).

yaxşının yaxşılığı dəgir hər yerdə, yamanın yamanlığı dəgir dar yerdə.

yaxşıya bala, yamana bəla demişlər.

yaxşıya gün yox, yamana ölüm.

yaxşıya özgə, yamana özümüzün ki demə.

yaxşıya tinim yox, yamana ölüm yox.(**tinim**: dinclik).

yaxşıya vermə dərək, onun nəyinə gərək. (yaxşı ölər, dərək görər). (yaxşının öləndən son dərəki bəllənər). (**dərək**: qədr). (yaxşıya sayqarlıq eləmə (minnətdarlıq bildirmə), onun belə yağlamlara gərəyi yoxdur). (**yağlamlara**: dadlı dillər tökməyə) (yaxşı, gördüyü, qılmışı qarşısnnda nə səndən, nə məndən qarşılıq gözləmir).

yaxşıya yaxşı de, yaxşılığın artırsın, yamanada yaxşı de, yamanlığın qaytırsın. (**qaytırsın**: qaytırsın. azaltsın).

yaxşıya yaxşı deqıl yaxşılığın artırsın, yamana yaxşı deqıl, yaman işdən qayıtsın. (bu o demək ki, toplum danışıq, yumuşaqlıq bilən, YOLUN İLƏN düzgünə düşər). {qandan qan doğar). (ölüm ölüm gətirir)}.

yaxşıya yaxşı desən çəkinər, yamana yaxşı desən övünər.

yaxşıya yaxşı desən, yaxşılığın artırar, yamana yaxşı desən, yamanalığın azdırar. (**azdırar**: azaldar).

yaxşıyada yaxşı malı tapışma.

yaxşıyada yaxşı malı tapışma. (tapşırma).

yaxşıyla yaxşı, yarışqan at, yamanla yaman qudurqan it.

yaxşıysa aş, yamansa daş.

yakışan tutulsun, yapışan duyulsun. (**yakışan**: yaraşan).

yakışanı sev, yapışan olmasada. (**yakışan**: yaraşan).

yakışanı sev, yapışanı yox. (**yakışan**: yaraşan).

yakmamış gerçək göz gözə baxıb deyənə, yalan üstələr barıq gey palan geyənə. (**yakmamış**: xoşa gəlməmiş).

yakmamış gerçək göz gözə baxıb deyənə, yalan üstələr barıq gey palan geyənə. (**yakmamış**: xoşa gəlməmiş).

yalacını dinlyibdə, yoxla da.

yalaçını, dönənçiyi qızılla dönsə belə, oğraqa alma.

yalaçıya inansan, qoymaz səni palansız.

yalan aytan kişi, uçuqludur işi. (**uçuqludur**: ziyanlıdır. xətərlidir).

yalan aytan kişi, uçuqludur işi. (**uçuqludur**: ziyanlıdır. xətərlidir).

yalan başdan, iş aşdan keçir.

yalan bir qıç üsdə durar, gərçək iki.

yalan bürünər, xoş görünər.

yalan cağız, çağsız açılmaz. (zamanı gəlmədən açılmaz, faş olmaz).

yalan demə güvəncəyən kişiyə, güvən edmə yalan deyən kişiyə.

yalan demə güvəncəyən kişiyə, güvən edmə yalan deyən kişiyə.

yalan desən yava yapsan, edər qalmaz. (**edər**:. dəğər. qiymət).

yalan deyən, öğurluqdan usanmaz.

yalan deyib bulandıq, doğrusunuda dandıq, yaxcı gələr günündə, günlər keçdi yubandıq.

yalan deyib inanmaq, boşqafanın işidir, yalan deyib qandıran, başarcanlıq kişidir. (yalan deyib qandırmaq, başarcanın işidir).

yalan deyib inanmaq, boşqafanın işidir, yalan deyib qandırmaq, başarcanın işidir. (yalan deyib qandıran, başarcanlıq kişidir).

yalan doğru barışsa, doğru yolundan çaşar, ip doğanaqsız olsa, dəngə qalxar yük aşar.

yalan doğru barışsa, doğru yolundan çaşar, ip doğanaqsız olsa, dəngə qalxar yük aşar.

yalan doğru barışsa, doğru yolundan çaşar, ip doğanaqsız olsa, dəngə qalxar yük aşar.

yalan doğru yarışmaz, od ilə su qarışmaz. {od ilə su sığışmaz. (**sığışmaz**: tutmaz)}.

yalan doğulmamış boğula, yalan doğulur doğrunu boğa.

yalan donun geyinən, qalan dondan utanmaz.

yalan dursun yağuya qarşı. (yağuya qarşı, yalanı kələyi yaşatmalıyıq).

yalan dursun yağuya qarşı. (**yalan dursun:** yalan yaşasın) (yağuya qarşı yalanı, kələyi yaşatmalıyıq) (yalanın yaman olduğunu vurqulayır).

yalan duyub doğru sanan, palan görsə eşşək anar.

yalan dünya qalan dünya. - (açıq qıl tut göz qulağ, yüz qonan var yüz köçən, gedən gəlməz, gələn qalmaz). {(dörd yaşada beş yaşa, barçıya gəlcək başa). (**barçıya**: hamı üçün)}.

yalan dünya, gələni qardaş tutar gedəni yad, içindən at.

yalan dünyanı bəzər özü lüt gəzər.

yalan əkilmədən doğarmış, önüm verməz yalan, dedilər, yalan dedilər.

yalan gircək qapıdan, doğru qaçmış, yapıdan. (**yapıdan**: gizlicə. dal qapıdan).

yalan girər tələsik, çıxmağa yol tapanmaz.

yalan ilən əğşilən, arman qalıb sevgi arar bulanmaz. (**əğşilən**: uğraşan. ərşilən. məşqul olan). (**arman**: çatılmay (çatılmaz) arzı).

yalan kök alıb gedir, hər gələn bildiyin edir, qolçamaq istəyin yeyir.

yalan oldağın, vaqiiyyətin bir bölümüdür. **(**yalansızca doğruqları doğrulmaz, könülsüzcə sevgililər yaşanmaz).

yalan olmuş yamanların yamanı, ondan betər yalanlığı dananı.

yalan olsa yol açıq, doğruya yollar qapıq. (yalandısa yol açıq, doğruya yollar qapıq). (yalançıya yol açıq, doğruçuya yol qapıq).

yalan olub kirtü donun girənlər, andın içib üsdən poxun yeyənlər, daşlı ürək, gözü yırtıq, başa sarığ geyənlər, kirtü yarqa,say sanavı gəl gətir.. **{kirtü. girtü:**doğru. düz. həqq. (**kirtükləmək**: doğrulamaq. təsdiqləmək)}. (**say sanavı**:hesab kitabıvı). (**kirtü yarqa**: həqq məhkəməsinə).

yalan olub kirtü donun girənlər, andın içib üsdən poxun yeyənlər, daşlı ürək, gözü yırtıq, başa sarığ geyənlər, kirtü yarqa,say sanavı gəl gətir.. **{kirtü. girtü:** doğru. düz. həqq. (**kirtükləmək**: doğrulamaq.

təsdiqləmək)}. (**say sanavı**: hesab kitabıvı). (**kirtü yarqa**: həqq məhkəməsinə).

yalan öğüt, doğru yola varmaz.

yalan sevər yalanlarla sığalar, çini sevən, doğrularla qıvanar. (**qıvanar**: sevinər).

yalan sevər yalanlarla sığalar, çini sevən, doğrularla qıvanar. (**qıvanar**: sevinər).

yalan söyləş, yaman öyləşə yol açır. (**söyləş**: söz. qonuşma). (**öyləşə**: oylaşa. düşüncəyə).

yalan tez utulur, gec unutulur.

yalan tutsa kərəsi qalar, tutmasa ayranı calar. (**ayranı calar**: hər nəyi bular, batırar).

yalan uzaq, yaman qıraq.

yalan üstə yaman bulunmaz.

yalan üstə yaman yox. (yalan üstə yoxdur yaman). (yalan üstə olmaz yaman).

yalan vardı, quyluğundan dışar vurar quyruğu. (çoxlu yalanların üstü gec olub açılır).

yalan vardır çox doğrudan yeğ basar, yaşam sürüb çalışmaq, yağun durağın yıxmaq, min ölümdən yaxşıdır. (**yeğ basar**: yaxşıdır). (**durağın**: evin. ocağın).

yalan yalançıdan iti qoşar.

yalan yalançıdan iti qoşar.

yalan yalanı gətirir.

yalan yalın qalmaz, doğru dos tapmaz. (**yalın**: lüt. tək).

yalan, çağında açılar.

yalan, dedikce uzanar.

yalan, qorxu, doğrunu boğur, yamanı doğur. (yalan, qorxu, doğrunu pozur).

yalan, qorxu, doğrunu pozur.

yalan, oğrunun yarağıdır.

yalan, palansız olmaz, palan, yalansız.

yalan, yalan anası.

yalan, yalan doğur!.

yalan, yalan doğurur.

yalana baş qoy, ayaq bulur.

yalana bürün, xoşuna görün.

yalana dolan oğurluqdan doyunmaz.

yalana dözən yamanın görər. (yalana dözən yamanın çəkər).

yalana inan, düzü dan.

yalana inan, kəndivi dan, tənivə inan, tinivi an.

yalana inanmayan, doğru yol tapmaz.

yalana inanmayınca, yalandan qorxma. (yalana qapılmayınca, yalandan qorxma).

yalançı çin aytmaz, çin aytsada, el inanmaz.

yalançı düz gəpirsə, kimsə ona inanmaz.

yalançı hamını yalançı sanır.

yalançı kimsəyə inanmamış.

yalançı küpü qıpsız olmaz.

yalançı küpü qıpsız olmaz.

yalançı qəssabən, qapında it görünməz.

yalançı qoşur, yalanı uçur.

yalançı qoşur, yalanı uçur.

yalançı odu yatsıya qalmaz. (**yatsıya**: gecə yatmaq çağı).

yalançı tez yorular, yalanı dünyalar uzar.

yalançı yalağçını tovlar.

yalançı, dos başın yeyər.

yalançı, iki üzlü.

yalançı, yalağçını tovlar.

yalançıda inam yox, inamlıda güvən çox.

yalançıda inam yox, inamlıda güvən çox.

yalançıdan baş uçsun, dildə olan suç nədir, kişi uçar başiylə, dilsiz uçan baş nədir. (**baş uçsun**: baş vurulsun). (o başın ki dili yoxdur dəğər bulmaz).

yalançılar utanmaz.

yalançılar yurdunda, ged ged yalan yoğunlar.

yalançılığı bilməyən, doğrunu itirər.

yalançılıq bazaraından yağ damar.

yalançını dos görən, uzun gedməz üzülür, ulların saymıyan, yaşam sürməz, sürünür.

yalançını qov, ta tumanı düşüncən.

yalançınımn ömrü qısa olsada, yalanın ömrü çox uzun.

yalançınımn ömrü qısa olsada, yalanın ömrü çox uzun.

yalançının doğrusunada inanma!.

yalançının dosdu çox, doğurçunun dosdu yox.

yalançının dosdu, inançı olur.

yalançının evi yandı, heç kəs inanmadı.

yalançının evi yandı, yalan deyir kim inandı.

yalançının evi yanmış, kimsə inanmamış.

yalançının gizi var. (yalançı nərsəni gizlətmək istir).

yalançının gözü çıxsın.

yalançının qarşına çıxmaqdansa, izindən qaçın. (**qaç**: çəkin). (yalançı ilə üzləşməmək yeğ gəlir, o keçən yolu belə izləməmək gərəkir).

yalançının quyruğu bir tutam. (yalançının mumu yatsıya dək yanar).

yalançının sözü quyruqlu, yetim cocuq buyruqlu.

yalançının sözündən yox gözündən bil.

yalançının sözündən yox, gözündən tanı.

yalançının sözünə inanma, ağıllının sözünə güvənmə.

yalançının şahidi çox, arasanda heç biri yox.

yalançının üzündə görmə, izində!.

yalançının yağı yağçıyacaqdır (candır).

yalançının yanında bilik bilsən söyləmə, yamanların aldında iç sözüvü aydama. (**aldında**: önündə). (**aydama**: aydınlatma. açıqlama. üzə çıxarma. əyan edmə).

yalançının, gərtisinə iman yox!.

yalançıya ut taxsan, yalançı utar, ut utanar. (**ut**: utanc. həya).

yalançıya yol açıq, doğruçuya yol qapıq. (yalan olsa yol açıq, doğruya yollar qapıq). (yalandısa yol açıq, doğruya yollar qapıq).

yalançıya yol açıq, doğruçuya yol qapıq. (yalan olsa yol açıq, doğruya yollar qapıq). (yalandısa yol açıq, doğruya yollar qapıq).

yalançıya, inamçılar utuzmuş.

yalanda kök olmaz, ilanda ayağ.

yalandan uzaq, yamandan qıraq, kəndivi yarat.

yalandan uzaq, yamandan qıraq, kəndivi yarat.

yalandək kişini yırtan, doğru tək onu örtən yox. (**yırtan**: dağıdan). (**örtən**: qoruyan).

yalandı: -

- susmaqdan yaxcı şey yoxdu, yalandı. yalan.
- ötmədən (deməkdən), yaxcı şey yoxdu, yalandı.
- doğrunun tərsin demək, yalandı.
- yalanı doğru demək yalandı.
- doğrunu yalan demək yalandı.
- yamanı yarın (yaxcı) demək yalandı.
- yaxcını yaman demək yalandı..... bu saymanı biz olmasın qədər saya bilərik. deməkki yalandan yalın yaxın şey yoxdu bizə.

yalandısa yol açıq, doğruya yollar qapıq. (yalan olsa yol açıq, doğruya yollar qapıq). (yalançıya yol açıq, doğruçuya yol qapıq).

yalanğuyla yatan, dilənçi doğar. (**yalanğu**:yalağçı. artığa qalan. artığçı. onun bunun artığ urtuğundan keçinən).

yalanı biri yapır, mini yayır.

yalanı inandırmaq çox çətindir, amma bir dəfə inandırdın unutdurmağı, ondanda çətin.

yalanı qapar, doğrunu atar.

yalanı qoğ, dazağı aç, kələyi poz, yaramaz sevgi düşə yad əllərə, güllər qala küllüklərə.

yalanı qoğ, yaman kəndi qaçar.

yalanı yapan başçı, yayan daşçı. (yalanı yapan başqa, yayan daşqa). (**daşqa**: əvam).

yalanı yapan başqa, yayan daşqa. (**daşqa**: əvam). (yalanı yapan başçı, yayan daşçı).

yalanı yapan birdir, yayan mindir.

yalanın anışı tanığı, şahidi çoxdu, çalış "doğruya" "yalandan" tanıq (şahid) tap.

yalanın doğrusun demək, doğurdan yalan deməkdən yeğdir.

yalanın ipi, yoğunsada, geddikcə incələr.

yalanın kökü pukadur, üzü ağ, gerçəyin daşı qara, üzü qara. (**puka**: boş, həvərə, qumlu daş) {**daşı qara**: **qaradaşlı**. (**qaradaş:** çaxmaq daş. dəmirli daş. daşların ən sicimi, bərki)}.

yalanın quyruğun yığmaq olmaz.

yalanın ömrü "az olur" deyillərsədə, dünyanın ən yaşlılarındanır!.

yalanın yaranıda var, yamanıda. (**yaranıda**: yaxşısıda. faydalısıda).

yalanışan acıqmaz, söykənişən yıxılmaz.

yalanla gerçək bir nərsənin iki üzü.

yalanla gerçək bir nərsənin iki üzü.

yalanla, qorxu bir kisədə olar.

yalanları doslar kimi görən çox olur, doslar içrə yalançılıq yox olur.

yalansızca doğruqları doğrulmaz, könülsüzcə sevgililər yaşanmaz. (yalan oldağın, vaqiiyyətin bir bölümüdür).

yalaşan duz, gəzişən düz, az tapılan dadlar alır.

yalaşılığı bilməyən, doğrunu itirər.

yalavac gücü dilində.

yalavacın, elçisin, başcısın yalanlayan eldən, el olmaz.

yalbırdağ minilən at həmməşə yağır olur. (**yalbırdağ**: yalfırdağ. çallac. çallağ. çalpaq. çıplaq. çəllək. səllək. donsuz). (**yağır**: beli sürtük yara).

yalçudan nə diləməm varisə təkcə diləyim. (**yalçudan:** > yolçudan dilənçidən). (**nə**: heç nə).

yalçudan nərsə diləngim varisə mən diləməm. (**yalçu:** > yolçu dilənçi).

yalğız kişi, ev olmaz.

yalğızlıq barışılmış, alışılmamış.

yalğu başdan, yılxu yaşdan pozular. (**yalğu**: kişi) (**yılxu**: heyvan).

yalğu dediyin: -üzünün yarısı yalan, geyminin yarısı palan. (**yalğu**: çiğ süt əmmiş ər oğlu). (kişioğlunun toplum yaşamının yarısı, yalan palanla keçir).

yalğu yaşad olar yaşdan doymaz.

yalğu, yalınğu (insan. bəşər) adı üstündədir.

yalxı düğüdən pilov olmaz. **(yalxı**. **yalxu**. tək).

yalxu olub, yalxu dərkin bilməyən, ondan yenə ot otlayan yaxşıdur, sözləyəndə söz sözünə ilməyən, ondan yenə sözləmiyən yaxşıdur. (**dərkin**: qədrin). (**yalxu**: insan) {(yalxu olub, adam dərkin bilməyən, yılxı olub, ot otlasa yaxşıdır). **(söz sözünə ilməyən:** sözün iç anlamın, fəlsəsini qavrayamayan)}.

yalxu soraşa soraşa, yılxu ısqaşa ısqaşa. (**yalxu**: kişi. insan). (**yılxu**: heyvan). **(ısqaşa:** iyləşə iyləşə).

yalın (tək) barmaqla, birədə tutulmaz. {yalınız (tək başına) iş tutubən umma uzluq (bacarıq)}.

yalın gəpir yalan yox. (**yalın**: açıq). (**gəpir**: danış).

yalın olsa basma ayaq tikənə, beyini kütə, sağır qulaq söz girməz.

yalınğaca yaz yaxşı. (**yalınğaca**: lütə. çılpaqa).

yalınğaca yaz yaxşı. (**yalınğaca**: lütə. çılpaqa).

yalınğaca yaz yaxşı. (**yalınğaca**: **yalınçığa**. çılpağa. lütə. geyimsizə).

yalınız (tək başına) iş tutubən umma uzluq (bacarıq).

yalınquq oğlı yoxazur, əyku adı qalır.

yalınquq oğlu yoqazur, əyku adı qalır. (**yalınquq oğlu** : bəni adım).

yalınquq oğlu yoqazur, əyku adı qalır. (**yalınquq oğlu**: bəni adım).

yalınquq, ürülmüş tuluq ol, ağzı yazıb alqınur: insan yellənmiş tuluq kimidir: - ağzı açılsa qapılır, alınır, boşalır.

yalınlıq yalan olmaz, doğruluğu alan doymaz. (**yalınlıq**: sadəlik).

yalınlıq yalanlıq sevməz. (**yalınlıq**: sadəlik).

yalınlıq yalanlıq sevməz. (**yalınlıq**: sadəlik).

yalqız atlı yarışcaq, yaman qadın uruşçaq. (tək atlı kimsə yarışı sevər. kötü qadın qavqayı).

yalqız dəvə, bağıraq olur, yalqız bala, ağlaq.

yalqız evdə qazan qanamış, kimsə duymuş inanmamış.

yalqız əldən səsi çıxmaz, səs çıxsada, ad çıxmaz.

yalqız əlin səsi çıxmaz, səsi çıxsada, adı çıxmaz.

yalqız qaz ötməz.

yalqız quş, yuva salma.

yalqız quş, yuva salmaz.

yalqızlıqla barışmaz kişi, yardımla bitirər hər işi. yalqızlıq yerastı yatana qalsın.

yalqu (insan) orulmuş qab, yazılsa ağzı alqınar. (insan pülənmiş tuluğ kimidir, ağzı açılsa içi dışa axar, çıxar). (kişi ağzıyla tanınar). **(orulmuş: horulmuş**. **(urulmuş).** üfürülmüş. pülənmiş).

yalqu (insan) orulmuş qab, yazılsa ağzı alqınar. (insan pülənmiş tuluğ kimidir, ağzı açılsa içi dışa axar, çıxar). (kişi ağzıyla tanınar). **(orulmuş: horulmuş**. **(urulmuş).** üfürülmüş. pülənmiş).

yalqu alası qarında, yılqı alası alında. **(yalqı yılqı:** insan heyvan). (kişi alası içdin, yılxı alası dışdın).

yalqun alı içdən, yılxı alı dışdan.

yalqun alı içdən, yılxı alı dışdan. (**yalqun:** insan). (**yılxı:** heyvan).

yalqun bənqu dirilməz, sınqa girimiş gerilməz: insan əbədi qalmaz, qəbirdən geri dönməz.

yalqun bənqu dirilməz, sınqa girmiş gerilməz. (insan əbədi diri qalmaz, qəbrə girən geri dönməz).

yalquzun qıl yardımın, olsun yarın.

yalnış demiş atalar "edməzimiş gözəlliyin qara pul, yoxsa sevgi könüldə", tapoz acun, acınmadan satarmış könül verib təpən tapsan. (**tapoz:** qəhbə).

yalnız ağac yelə düşsə, budaqları ilşilər (birbirinə ilişidi).

yalnız duymaq kəndini, yalnızlıqdan aşa güc, söz veribən tutmamaq, söz verməkdən qata güc. (**aşa** :qata. qatı).

yalnız duymaq kəndini, yalnızlıqdan aşa güc, söz veribən tutmamaq, söz verməkdən qata güc. (**aşa**: qata. qatı).

yalnız qalan öz ışığın özü söndrər. (yalnız yatan öz yerini özü yığar). (yalnız qalan özü danışar özü eşidər). (yalnız yeyən süfrasını kəndi qaldırar).

yalnız qalan özü danışar özü eşidər.

yalnız qalmaq heçin yaxşı deyir. başıvı topla, könlüvü aç, dosduvu tap!. (**heçin**: əslən. əsla).

yalnız qalmaq heçin yaxşı deyir. başıvı topla, könlüvü aç, dosduvu tap!. (**heçin**: əslən. əsla).

yalnız qalmaq heçin yaxşı deyir. başıvı topla, könlüvü aç, dosduvu tap!. (**heçin**: əslən. əsla).

yalnız qaz ötməz.

yalnız sevgi barışa yetmir. (**yetmir**: çatmır). (sevgi təkinə barışa yetmir.).

yalnız sevgi barışa yetmir. (**yetmir**: çatmır). (sevgi təkinə barışa yetmir.).

yalnız tutun, işləri utun. (müvəffəqiyyət üçün, sadəcə iradəli, müsəmməm ol).

yalnız yatan öz yerini özü yığar.

yalnız yiyən əkməğin, yükün kəndi qaldırar.

yalnız yiyən süfrasını kəndi qaldırar.

yalnız yolu ged düşün, durmaq çağı kəndi özü gələcək.

yalnız yolu ged düşün, durmaq çağı kəndi özü gələcək.

yalnızlığı düşünən, yalnızlığı yaşarmış.

yalnızlığı düşünən, yalnızlığı yaşarmış.

yalnızlığı içdə itirib, dışda arama.

yalnızlığı içdə itirib, dışda arama.

yalnızlığı sevmək, -bu özünü çox sevməkdir, yalnızlığın bir üzü.

yalnızlığı təkcə yoldaşı. (tək yaşıyanlara).

yalnızlığın güc gəlməz, öz kəndivə güvənsən.

yalnızlığın qamçısı ox deyilki dəlib keçə, qılıc deyir yarıb keçə, od deyil yaxıb keçə, kitir deyil üzüb keçə, yalnızlıq içdə doğur, tini boğur. (**kitir**: qəm. qussə). (tini: ruhu).

yalnızlığın yaşatan, cütlügünə daş atan.

yalnızlığın yaşatan, cütlügünə daş atan.

yalnızlıq baş yazı deyil, bir seçim. {yalnızlıq baş yazı deyil, tutduğun yolun sonucu. (seçdiyin yolun sonucu)}.

yalnızlıq baş yazı deyil, bir seçim. {yalnızlıq baş yazı deyil, tutduğun yolun sonucu. (seçdiyin yolun sonucu)}.

yalnızlıq başına buyruq, başyazısın bururuq, bir döngədə dururuq.

yalnızlıq başına buyruq, başyazısın bururuq, bir döngədə dururuq.

yalnızlıq çevrənin boşalması yok, başın boşalmasıdı. (için yoxalmasıdır).

yalnızlıq içində doğur içində yürür, içində büyür.

yalpıdaq minilsə at, götün bağlar qat (pinə) **{yalpıdaq:** lüt. yar qoraqsız. qaraq yaraqsız. (zin o bərgsiz)}.

yalpıt ata minilməz. (**yalpıt:** lüt üryan).

yaltaq hürməsədə, ağzı açıqdır, dolar.

yaltaq özünə sayqu (tə'zim) gözlər.

yaltaq yalançı olur. yalançıda yamanların yamanı!.

yaltıran hərnə qızıl deyil. (**yaltıran**: arlauan. ışıldayan).

yaluğ dözümlə çözər, evrən dözümə dözər. (**yaluğ**: insan). (**çözər**: başqa deyişdə **çezər**, açılar). (yaluğ dözümə doydu, evrən dözümə doymaz.

(dözüş bəkləş yol deyil, ömür keçər yaş bitər). (dözümün sonu ölümdür. keç işə!).

yaluğ sözdən, çaluğ gözdən, yılığ yemdən bəslənər. (adam sözdən, uşaq gözdən, heyvan yemdən bəslənər).

yaluğla yılığı ayıran DİL dir.

yaluğun toxu, yılxının acı qudurur. (**yaluğ**: insan). (**yılxı**: heyvan).

yaluza uçrur eldən ayra düşən, börüyə yemdir sürüdən. (**yaluz:** şeytan). (**uçrur**: yenilir. məhv olur. məğlub olur).

yalvarma, çalış.

yalvarmaqla, qurdun ağzı bağlanmaz.

yamağı tapılmayan geyimi, geymə.

yamaq üsdə yamaq gələndə, yamaqlar sevinər.

yamaq üsdə yamaq gələndə, yamaqlar sevinər.

yamalı ata min, yamalı ada yox.

yamalı ata min, yamalı ada yox. (**yamalı**: borc alınmış).

yaman acı çəkdirən, sevən sevənə olmuş.

yaman acı verənlər, ən sevdiyin adamlar.

yaman alayı girər, alayı çıxmaz. (**alayı**:. havayı. müfdə).

yaman arac doğru yola yaramaz, eyku işlər ağır yüngül qaramaz. (**eyku**: yaxcı). (**qaramaz**: baxmaz).

yaman arı bal verməz, suvsuz topraq bar verməz.

yaman arvad, tez kişini qocaldar, əsil arvad dərdlərini azaldar.

yaman arvad, tez kişini qocaldar, əsil arvad dərdlərini azaldar.

yaman arvad, yaman qonşu, yaman at, birin boşa, birin boşla, birin sat.

yaman asılar, yavaş basılar.

yaman at axırın pozar, yaman it yiyəsin üzər.

yaman bağışlansada, heç nəyin yalanı bağışlanmır.

yaman buğa öz başına çöp üşöt. (kötü boğa kəndi başına ot yığar).

yaman çağun dosları, güşatlıqda alnı açıq gəzirlər. (**güşatlıqda**: <gövşadlıqda. açıqlıqda. fərahlıqda).

yaman çalıt girər, çalta keçməz. (**çalıt: çalt**. **çalta**. birdən. cəld).

yaman çoğun bilənlərə qada çorun dağ verər, biləməzlərə əldən gələn yağ verər.(çoğun: fələk). (**çorun**: zulum. korluq).

yaman çoğun pis toğadur çomağın, işgə yerin tuşlur vurur orağun. (**çoğun**: fələk) (**toğadur** :fırladır).

yaman çoğun pis toğadur çomağın, işgə yerin tuşlur vurur orağun. (**çoğun**: fələk) (**toğadur**: fırladır).

yaman dil el dağıdar, yaman yol ayağ.

yaman dil, dünya yıxar, oxşayı əl ellər yığar. (**oxşayı**: yumşaq. mehriban. məhəbbətli).

yaman dili oda at, eyku dili elə sat. (**eyku dili elə sat**: özgələrlə dadlıca qonuş).

yaman dili oda at, eyku dili elə sat. (**eyku dili elə sat**: özgələrlə dadlıca qonuş).

yaman dilin acısı, qılıcdan yaman.

yaman dosla, doğru yola varılmaz. (**yaman**: pis. kötü).

yaman erkək toy pozar, yaman qadın ev pozar.

yaman əkini bıraxıb, biçini güdər.

yaman gəlsə qaçın, yaxşı gəlsə yaxın (yaxınlaşın).

yaman gəlsə yaxşıbirdən döğünmə, yaxşı gəlsə yamanbirdən söyünmə. (**söyünmə: < sevinmə**).

yaman gördün iz qoymadan qaçın qıl.

yaman gördün iz qoymadan qaçın qıl.

yaman gün uzaq göürünər.

yaman günlər ayağı, qara yaşlar axarı, elin durmuş dayağı, sınmaz beli, el dursun.

yaman günlər sürdüyüvə yanıqma, o günlərdən qutulmağı qutla qıl.

(**yanıqma**: şikayətlənmə. əfsuslanma. heyifsinmə).

yaman günlər sürdüyüvə yanıqma, o günlərdən qutulmağı qutla qıl.

(**yanıqma**: şikayətlənmə. əfsuslanma. heyifsinmə).

yaman günlər yaxşıyar, yaman kişi yaxşımaz. (**yaxşıyar**: yaxşılaşar).

(**yaxşımaz** yaxşılamaz).

yaman günün dosları, gündə durmaz yol üsdə. (yaxcılar az raslanır).

yaman günün külün, iyi gün gülün dibinə.

yaman gəplə gənc bala azaşar, yaxşı gəplə yavuz kişi hamaşar. (**azaşar**: yoldan çıxar). (**hamaşar**: yola gələr).

yaman gəplə gənc bala azaşar, yaxşı gəplə yavuz kişi hamaşar. (**azaşar**: yoldan çıxar). (**hamaşar**: yola gələr).

yaman ilan aylanar, dəğirmanın başında. (**aylanar**: çömələr. dolanar).

yaman ilan aylanar, dəğirmanın başında. (**aylanar**: çömələr. dolanar).

yaman ilan aylanar, dəğirmanın başında. (**yaman**: xain). (**yaman**: xain).

yaman ilə üzləşmə, üzləşdinsə söyləşmə.

yaman ilə yaman gərək, eşşəkliyə saman gərək. kopoyoğlu ilə kopoyoğluluq gərək. {eşəklə eşək gərək. {**eşək**: (< **eşmək**). eşici. tovlaq. kələkçi. hoqqaçı)}.

yaman ilə yoldaşsan, yamandan ön ölərsən, yaxşı ilə sırdaşsan, iygilikdə olarsan.

yaman ilə yürğüncə, yalqızın gəz olğunca.

yaman ilə yürğüncə, yalqızın gəz olğunca.

yaman kişi dad bilməz. (**dad**: duz).

yaman kişi dəğişməz, eykuluğa yad qalır, min veribdə min doyur, sonunğunku gün yav qalır. (**yav qalır**: düşman, yavuz qalır). (qarşınkın tanı).

yaman kişi işliyər acı, verdiyi acı, atdığı acı.

yaman qarın yarılsın, yaman ağız cırılsın, yaman başqan yıxılsın!.

yaman qarın yarılsın, yaman ağız cırılsın, yaman başqan yıxılsın!.

yaman qatta uzaq yaşamış, yaxşı çoxda uzaq yaşamır. (**qatta**: **kəttə**. çox).

yaman qohum, varın olsa, görə bilməz, yoxun olsa verə bilməz.

yaman qohum: - varın olsa, görə bilməz, yoxun olsa verə bilməz.

yaman qonşu yaman qılar günüvü, köçdütmədin, sat yerivi can qutar.

yaman qonşu yaman qılar günüvü, köçdütmədin, sat yerivi can qutar.

yaman oldun demə azsan, iyi oldun demə çoxsan.

yaman olursa kişi, gedər arvad dayanmaz, yaman olursa arvad, qaçar qonağ qayıtmaz.

yaman özü gedərdə, poxu qalar izindən.

yaman özü gedərdə, poxu qalar izindən.

yaman salıq carçı gəzməz. (pis xəbər tez yayılır).

yaman salıq qır çapar. (kötü xəbər tez qaçar).

yaman söyləb süycü gəpiş izləmə, yalan deyib doğru sorağ gözləmə.

yaman söyləb süycü gəpiş izləmə, yalan deyib doğru sorağ gözləmə.

yaman yaxşı içtə dursun. (yaman yaxşı içtə bolsun). (için sözü, içdə qalsın). (bir elin iç sözü, iyisi pisi dışarı, yada çıxmamalı).

yaman yaman bilən, yaxşı zaman bilən.

yaman yavqa yaxar. (**yavqa**: düşmana).(**yaxar**: yakışar).

yaman yıxı satılmış, yaman qardaş qaçılmış, yaman arvadın atılmış. **(yılxı:** heyvan**)**.

yaman yoldaş yol üsdə, yanmaz kabab köz üsdə. (yol üsdə tanımazla yoldaşlığın sonu, çoğun pis bitir).

yaman yoldaş yolda daş, ya qoğgilən yada qaç.

yaman yolun yolçusu, işində yox ölçüsü.

yaman yolun yolçusu, işində yox ölçüsü.

yaman, yoxdan yeğ. (kötü, yoxtan yeğdir). (yoxluq qarşısında, kötü, istənməz olan yeğ basır). (olan, heçdən yeğ).

yamana aş versəndə, iş vermə.

yamana çonğ ayağın göstərmə. (**çonğ ayağın**: böyük çanağın). (kötü adama böyük çanağını göstərmə).

yamana dursan qulluğa, yaxşını tullar korluğa.

yamana gündə qaradır, tün də.

yamana xoş baxan, yaxcını itirər. (yamanları, pis kötüləri oxşayan, onların üzünə gülən, yaxcıları əldən, çevrəsindən verər).

yamana kisə tikmə, yalana ambar.

yamana qarşı qarşılıq, yaxşıya qarşı yaxşılıq.

yamana qulluq olunmaz, yaxşıya qulçu yorulmaz.

yamana öz qayğısı, yaxşıya el qayğısı.

yamana uyan, yalana düşər.

yamana verdin aşın, o yerdən daşın.

yamana verdin aşın, o yerdən daşın.

yamana versən aşın, daşqalar başın.

yamana yanaşma, yaxşıdan adaşma. (**adaşma**: azaşma. ayrışma).

yamançılıq seçməyən, eykuçılıq seçənməz. (**eykuçılıq**: yaxşıçılıq).

yamançısın bilməyən, eykuçusun seçənməz. (**yamançısın**: yamanlıq edənin). (**eykuçusun**: yaxşılıq edənin).

yamançısın bilməyən, eykuçusun seçənməz. (**yamançısın**: yamanlıq edənin). (**eykuçusun**: yaxşılıq edənin).

yamanda keçər, dumanda.

yamanda yeğ aran, baş verib börk almış. (**yeğ aran**: iyilik gəzən) (kötüdən uman, götündə bulur).

yamandan gördüyün yetər, görkəzməyin istəmə. (üzün saxla üzü susuzdan) (utun qoru utsuzdan).

yamandan qaç, yaxşıya qoyun aç.

yamandan qaçın, yaxcıya yaxın.

yamandan sorulmamış yaxşı olanı, yaxşıdan sorulmuş yaman olanı.

yamandan yaxşı sorulmaz, sorulsada, onulmaz. (**onulmaz**: təsdiq olunmaz. təsdiğin tapmaz).

yamandan yarlıq uman, eyi günə nisgiili yatar (batar).

yamandan yeğ küsərmiş, yaman yeğdən küsənməz, dartmaz qoymaz dənini. yamanla dosd olan son, paysız qoymaz dosdunu (**yeğ**: yaxşı).

yamanı bırax yaxşını tut, dünəni bırax, günüvü tut.

yamanı qanmaz, amanı nə bilər!. (**amanı**: eyini. yaxcını).

yamanı pullu deyib yaxın durma, yabını yallı deyib satın alma.

yamanı yaxşıdan sor tanı.

yamanı yaman kəsər, acını acı.

yamanı yamandan soran ağ günə nisgil qalıb.

yamanı yamandan soran ağ günə nisgil qalıb.

yamanın adın çəkmə, adın çəkdin, üzün görmə, üzün gördün, dalın görmə. (üzün saxla üzü susuzdan) (utun qoru utsuzdan).

yamanın dilindən, ilanın dişindən ağı damar.

yamanın düz olduğundansa, yalan olmağı yeğdir.

yamanın oğlu olunca, yaxşının qulu ol.

yamanın sözü gəlsin, özü yox.

yamanın sözü gəlsin, özü yox.

yamanın üzü qurusun, gəpirgən sözü qurusun.

yamanın yaxşısı olmaqdansa, yaxşının yamanı ol.

yamanın yaxşısı olmaqdansa, yaxşının yamanı ol.

yamanın yaxşısı olunca, yaxcının yaxşısı ol.

yamanın yaxşıya verəsi nə, axmağın, ağıllıdan alası nə.

yamanın yamanı var, beterin beteri var, kötünün kötüsü!.

yamanisə seçməyir, yaxşını heç seçənməz.

yamanisə seçməyir, yaxşını heç seçənməz.

yamanışlıdan uzaq dur, düşman gördün duzağ qur. **(yamanışlıdan: yaman işlidən**. kötü, pis işlidən. bozəhkar)..

yamanla cənnətə girməkdənsə, yaxci ilə, cəhənnəmə gir.

yamanla cənnətə girməkdənsə, yaxci ilə, cəhənnəmə gir.

yamanla qalmaqdansa tək qal.

yamanla oturan, yalana batar.

yamanla yaxşı çıxdı doğru doğruya, doğru düzün gücü yetmədi. (**doğru doğruya**: üz üzə). {yamanla yalan çıxdı qarşı doğruya, doğru düzün gücü yetmədi. (**doğru doğruya**: üz üzə)}.

yamanla yalan birgə doğmuş, qonşu olmuş.

yamanla yalan əkiz doğmuş.

yamanla yoldaş olsan, yamandan ön ölərsən, yaxşıynan sırdaş olsan, yaxşılıqda olarsan.

yamanla yür, yaman bol, yaxşıyla yür, aman bol.

yamanlardan uzaq dur, qarşılınsa belin qır.

yamanlardan yaman dərdiz kahıllıqdır kahıllıqdır kahıllıq. (**kahıllıq**: qanmamazlıq. anlamazlıq. cəhalət. cahillik).

yamanların yaxşısı olmaqdansa, yaxşıların yamanı ol.

yamanlaşsa iki kişi, ən alçağı zor gəlir, savaş sada iki kişi, ən qanmazı zor gəlir.

Yamanlığa yamanlıq hər kişinin işidir, yamanlığa yaxşılıq ər kişinin işidir. (Ara Gündüz).

yamanlığı dəğməsin, yaxşılığı borc olsun. (bir kimsədən ki pislik yetmir, yetər, artığına yaxşılıq gözləmə).

yamanlığı görübdə, yaxşılığa dəğər biç. (**görübdə**: tanıyıbda. sınayıbda).

yamanlığı gücün çatsa qarşıla. (**qarşıla**: payın ver).

yamanlığı qanmıyan yaxcılığın nisgini. (**nisgin**: həsrətli). (yaşlı gözü qanmayan, gülər gözü tanımaz). (acı bilmərsən, güntay ola bilmərsən). (**güntay**: xoşbəx).

yamanlığın azı olmaz, yaxcılığın çoxu.

yamanlıq daşa yazılır, yaxcılıq quma.

yamanlıq düşən yerin küldürür, eykülük düşən yerin güldurür. (**küldürür**: külə döndərir). (**eykülük**: əzkülük. iyilik).

yamanlıq sanma bir kişi işinə, sonunda yamanlıq gəlir başına.

yamanlıq sanma bir kişi işinə, sonunda yamanlıq gəlir peşinə (başına).

yamanlıq yaxın, yaxcılıq uzaq.

yamanlıqdan qaçan qutuldu, yamanlığı qoğan tutldu.

yamansız yaxşı görmədim, köhnəsiz yeni.

yan gedən yardan yar olmaz.

yan gedər uçsa balıq bir tordan.

yan gedər uçsa balıq bir tordan.

yan üzər balıq uçarsa tordan. (yan gedər uçsa balıq bir tordan). (tordan qutulan avın sevincingöstərir).

yan üzər balıq uçarsa tordan. (yan gedər uçsa balıq bir tordan). (tordan qutulan avın sevincingöstərir).

yanağın tapmayan, evsiz qalar. (**yanağın:** yoldaşın. əşin).

yanağın tapmayan, evsiz qalar. **(yanaq**: cüft. ər arvad).

yanan düzlük söyütlük, ölən sığır süytlük (olar).

yanan ilə kül olma, hər tikana gül olma, qaçsa əlindən bəxdin, bırax bəxdin qoy qaça, qaçan bəxdə qul olma, bəx dediyin əlində, biri öldü biri doğar, quyla itsin öləni, əlində tut doğanı.

yanan odur, kəndi başan kül olma. (yanan odursa, sən niyə bəs kül olursan).

yanan ürək 'qəlb' olmaz, su tökməklə quy dolmaz. (**qəlb**: qəp. yalan. qondarma. yalançı). (**quy**: quyu).

yanar dağdan od gözlənər.

yandaqdan ətir çıxmaz, axmaqdan batır. (yandaq: devedikeni. dulavradotu).

yandı içim keçmişləri ansadım, könlüm qomu qopsadı. (**qomu:** qopu. movcu).

yandı içim keçmişləri ansadım, könlüm qomu qopsadı. (**qomu:** qopu. movcu).

yandığın dərək aşqın olur, sandığın dərək gücün. (**dərək**: qədər).

yandığın dərək aşqın olur, sandığın dərək gücün. (**dərək**: qədər).

yandınkı yanından ötür, özünkü canından. (yanda olan, yanındakı üzündən ötür, özününkü içindən?).

yanğalıq, yaşam yandırar. (yanğarlıq**,** tamahkarlıq, dincliyi pozar).

yanğar baş yarıq (**yanğar**: tamahkar). (artıq yanğı baş yarar. (**yanğı**: tamah).

yanğarıq baş yarıq. {artıq yanğı baş yarar. (**yanğı**: tamah)}.

yanğı olsa yol qolay, gəngəş olsa iş qolay. **(yanğı: yanğ**. ülgü.).

yanğına körüklə gedməzlər.

yanğına körüklə gedməzlər.

yanğından çıxdıq, alova düşdük.

yanı qaşınan qamığın, poxunu yeyən qaşığın arar. (**qamığın**: yaraqın. çomağın).

yanı qaşınan qamığın, poxunu yeyən qaşığın arar. (**qamığın**: yaraqın. çomağın).

yanığın nəyi varki yoluğa verə.

yanılıb, yanmaq, yanıb yenilmək yaşam donu. (yenilmək:. yenidən doğmaq).

yanılma kişidən, tüstü odundan.

yanılmalar iş görməyi qanıtlar. (iş görənlər yıxılmadan onmamış). (**onmamış**: qalxmamış. gəlişməmiş).

yanılmam artıq, ən böyük yanlış. (aldanmam artıq, ən böyük aldış). (daha yanılmaram demək, ən böyük yanılmaqdır).

yanılmasa, qul olmaz. (kişi (adam) öz ayağından yıxılır).

yanılmaz əl büdrəməz ayaq olmaz. (insan cayizülxətdır).

yanında yerin itirsə biri, sənə nə varı ölürsə diri. (**sənə nə varı**: sənə nə mərbutdu).

yanıt tapılınca, soru dəğişər.

yanku kimi qutluluq, duyulurda tutulmur. (**yanku**: səsin yanığı. əksi səda).

yanqudan, qaya yıxılır.

yanlış bitər çoraqda, doğru bitsə su istər.

yanlış bitər çoraqda, doğru bitsə su istər.

yanlış çıxsa sevdiyin, bəkləmədən almaşıl. (**almaşıl**: dəğiş).

yanlış çıxsa sevdiyin, bəkləmədən almaşıl. (**almaşıl**: dəğiş).

yanlış demək yanlış görünür, gözə seçdiyin görünür.

yanlış demiş: -sevənin qoğan sevgisiz qalar, sağındıki bu olmadı başqasın tapar. (**sağındıki**: müsəlləmdiki. əlbətki. əlbətdəki.).

yanlış demiş: -sevənin qoğan sevgisiz qalar, sağındıki bu olmadı başqasın tapar. (**sağındıki**: müsəlləmdiki. əlbətki. əlbətdəki.).

yanlış seçim gəlir başa qınamam, yalnızlığın düzlüyünə inanmam. (seçimin doğrulmasa geri oturma, qır dəğiş). (yaşamda hər nə qaytanır (təkərlənir. tikrarlanır), yaşamdan sıvay).

yanlış sorqu doğru sorağ tapanmaz, sorağlaşıb asda gedən azınmaz. (**sorağ**: yanıt. cəvab).

yanlış sorqu düz yolları qapıyar, əğri yollar hamarlayıb yapıyar.

yanlış sorqu, doğru sorağ tapanmaz.

yanlış sorquya doğru yanıt tapılmaz. (yumurta ilkin yaranmış toyuq. bu soru yanlış. doğru yanıt yok).

yanlış yolda dirəniş, qazma çalmaq gora iş.

yanlışı danmamalı, gerçəgi untmamamlı, kəndi yaşın yaşamalı.

yanlışımız, doğruqumuz yaşam içrə olalı, üzülsəndə, süzülsəndə budur yasa duğalı. (budur yasa duğalı: təbii qayda budur).

yanlışımız, doğruqumuz yaşam içrə olalı, üzülsəndə, süzülsəndə budur yasa duğalı. (budur yasa duğalı: təbii qayda budur).

yanlışlar çıxırsa yana, doğrular durmuşun doğar. (əğrilər yaşamından çıxdıqda, doğrular yaşamında doğar).

yanlışlara yol açıq, çalış doğrulara yol yapın.

yanlışları düşünqıl, doğruluqlar qorunsun.

yanlışları düşünqıl, doğruluqlar qorunsun.

yanlışları silərsin, doğruları bilərsin.

yanlışları silərsin, doğruları bilərsin.

yanlışları silməklə, doğrulara yer doğar.

yanlışları silməklə, doğrulara yer doğar.

yanlışları tanımadan, doğru olan bəllənməz.

yanlışları tanımadan, doğru olan bəllənməz.

yanlışları tanımadan, doğru olan bəllənməz.

yanlışları tanısan, doğruları bilərsin.

yanlışları tanısan, doğruları bilərsin.

yanlışlığı dananlar, kahıllıqdan ayrılmaz.

yanmadan sevgi yaranmır.

yanmasa düdməz, düşməsə tosməz. (**tosmaq**: tavuşmaq. səs çıxarmaq).

yanmasa tüstüləməz!.

yanmayanda yanmaz, ha yellə ha ətəklə.

yanmaz ocağa, götürsələr çıra kötüyü, yanmayınca, yanmayacaq.

yanmazağun yanmayacaq ətəklə sən yellə sən. (**yanmazağun**: yanmayacaq) {çaşıb diş qıranı dişləmə, işin onmazını işləmə. (**çaşıb**: kırıxıb. yanılıb. tələsib). (**onmazını**: sonu sonucu olmayacağı}.

yansarlıq"bilimin" düşmənlərindəndir. (**yansarlıq**: təvəhhüm, ovham. xiyalpərəslik).

yansılama, yansılayan sancılar.

yansın çıraqı, gəlsin sorağı.

yanşağı "dinməz" dəngələr. (çox danışan).

yanu qapısın açar davar. **(tamu.** yanu).

yapa yapa yapıcı, çəkə çəkə çəkici olur. (**çəkici**: daşqaçı. arabaçı. çarxçı).

yapa yapa yapıcı, çəkə çəkə çəkici olur. (**çəkici**: daşqaçı. arabaçı. çarxçı).

yapan işi sevərsin, özgürlük, sevən işi yaparsın, bayramlıq. (**bayramlıq**: mutluluq: sevinclik).

yapayalnızlığım almışda tükətmişdi məni, sanmam artıq qaçacaq bir bucağım var olacaq.

yapdal ata (yabı) minincə, bəy olduğun sanlayır.

yapdığından çəkən az olur, çəkdirən çox olur.

yapdığıvı sevməsən, iki yolun seçməyə, ya sevdiyin dəğişmək, ya yapdığın alışmaq.

yapdıqların bilmədən, kim olduğu bəllənməz.

yapdıqların bilmədən, kim olduğu bəllənməz.

yapdıqların ölçü durur yaşama, yapınmadın dəğər yoxdur yaşama.

yapdın iyi, kəndin üçün, yapdın kötü, kəndi için.

yapdın iyi, kəndin üçün, yapdın kötü, kəndi için.

yapı təməldən pozuq, sıva qayğısına bürünmə.

yapığlı göycə çimən, güzə qalmaz, dədə qurqud.

yapığlı göycə çimən, güzə qalmaz.

yapıq beşik, qazıq deşik. (başyazı).

yapılmışsa bir beşik, qazılacaq bir deşik.

yapın qılın hər nə varsa başında, yaşın keçib yaşlansan. sevda qalmaz başında. (**sevda**: istək. könül. həvəs).

yapın tapasan, yatın batasan. (yapın tap, yatın bat). (**yapın**: anıqlan. hazırlan. amadə ol. çalış. təprən).

yapınc atda ər yatar. (geyimlə kişi ölçülməz).(**yapınc**: örtük).

yapışan sevilirsə, yakışan uzaq durur. (**yakışan**: yaraşan).

yapıtsız (əsərsiz) bilgin (alim), yağışsız bulut.

yapmağa min, yıxmağa biridə yetər.

yaprağı qoyun yesə qığ olur, ilan yesə ağı.

yapraq əğilən yana, ağacda əğilir.

yapru (namus) gedər, dönməz geri, yoxdur onun bəlli yeri.

yar ilə vardı yolu doğru varan, yarı əldən qoymadı kirtü ərən.

yar yara qovuşar, yarmalar yarım qalar.

yar yara olmasa dayaq, yadda əzib, basar ayaq.

yar yarına yad olsa, yar yarını yad alar. (yar yarından yadalsa, yar yarını yad alar).

yara qan verməsə yaşarmaz. (**yaşarmaz**: təzələnməz).

yara sağalar, yeri qalar.

yara var bağlallar, yara var dağlallar. (yara var bağlayasan, yara var dağlayasan).

yara var bağlarlar, yara var dağlarlar.

yara var bağlayasan, yara var dağlayasan.

yaradan yar olsun!.

yaradınsa, yaramazdan sağın.

yaradınsa, yaramazdan sakın (sağın).

yaradırsa kişi kəndinə olası, könül çəkən başa sığmaz olası. (**olası**: 1. imkan. 1. ola bilər. uyqulaşası) (kişi oğlu yarqıdan, riskdən qorxmamalı).

yarağdan iyi arxadaş yox, kötü yoldaş yox.

yarağın gör, bilirlər bunu hamu, ki olur yaz uçmaq (cənnət), qışın tamu (cəhənnəm).

yarağın gör, bilirlər bunu hamu, ki olur yaz uçmaq (cənnət), qışın tamu (cəhənnəm).

yarağın görməyən axmaxdır erkən (tezdən), qışı göy (bitgi) üzrə qışlamaz bilirkən.

yarağın görməyən axmaqdır ərkən.

yarağın qıl gələcək atdımıvın atmağına. (yarağın qıl: yasan. hazırlan).

yarağın qıl gələcək atdımıvın atmağına. (yarağın qıl: yasan. hazırlan).

yarağın qılan, otraqın qılar.

yarağlan kefə başla, qayğının quşun daşla. -yarak oldu kefə başladılar, qəm qussənin quşun daşladılar.

yarağsız gəldilər. dənğsizdə dəğirman durqursan, yarağsızda yar barır. (**yarağsız**: gözlənilməz. qeyri müntəzirə). dəhlənməmiş (tapdanıb bərkinməmiş) yerdə dəğirman qurdursan, gözlənilməzdən yar (uçurum) ortaya çıxır. (işi çağında, əti yağında gör).

yaraq (silah) yiyəsinə yağıdır (düşmandır).

yaraqlanıb sazlanıb yola çıxdı.

yaraqlanıp, gecə gündüz demədən yeridilər.

yaraqlı oldur kim, duyur elinin səsin.

yaraqsız necə anda tuş (muqavimət, dayam, davam) tutasın, tutalım ağzın ilə quş tutasın.

yaraqsızdan yoldaş olmaz.

yaralansan qanın dadın, duzu olmaz yadın. (yara tanışdan gəlir).

yaralar yar axdaran gözlər kimi yar axdarır.

yaralı ələ iş vermə.

yaramaz aldış, azğışlığa yol açar. (**aldış**: adət).

yaramaz ata mindi, igəsin, atdan endi, atın unutdu. (**igəsin**: yiyəsin. ağasın. sahabın).

yaramaz birin. -arpaya qatsan at yeməz, kəpəyə qatsan it yeməz.

yaramaz deyib, yaramaz eşitmə.

yaramaz evdə, ölüyü neynərəm, girir ağlaram çıxır ağlaram.

yaramaz qılıqlı (xuylu), can xəstəsidir. yaramazdan arındız, tanrıza yoxunlaşdız.

yaramaz olsa yasa, yasa ha yasa, nə toya yarır, nə yarır yasa. (uyarıq olmayan qanun sınası olacaq).

yaramaz yoldaşdan yalnızlıq yeğdir.

yaramazdan sağın sən.

yaramazdan var genə (igən: artıq, çox) yaramaz.

yaramazı qeytərən, uğurlar gətirən.

yaranan ölünür, yasanan dövülür. (**yasanan**: düzələn.). (**dövülür**: sınır).

yaranı düzətən kim, yarıya duzatan kim.

yaranı düzətən, yarıya duzatanda var.

yaranıvı unutqıl, yarıtdığın unutma. (**yaranıvı**: itgi verənivi). (**yarıtdığın**: verdiyi dərsi. ibrəti).

yaranmağın köpçülügə çox qıyın. (köpə yaranmaq qıyın). (**qıyın**: zor).

yaranmasa kimi kimdən, adın çəkməz dibdibindən.

yaranmasanda, yaralama.

yarar yerə qaça get, yaman yerdən qopa qaç. (**yarar**: faydalı). (**yaman**: zərərli).

yarar yerə qaça get, yaman yerdən qopa qaç. (**yarar**: faydalı). (**yaman**: zərərli).

yararsa ələ, vermə yelə.

yararsız oğlad, yarağlı oğlan.

yarasaya gecə gündüz aydın.

yarasaya gecə gündüz aydın.

yarası olan qocunar. (**qocunar**: < **kovcunar**. qaşınar).

yarasın bilən dərman arar, yarasın sarar.

yaraşır igidə örü durmaq, qoca durmaz bulmayınca dayaq.

yaraşur göylər içində göycə mıncıq.

yaratdığın kimliyin qurur. (**kimliyin**: nə olduğunu).

yaratıq varki verməkdən acısın almaqdan dadlısın bilməz.

yaratqana sığın, sığa qol.

yaratmaq sağatmaqdan qın. (yaratmaq onarmaqdan qın). (**qın**: zor).

yarava yağu dart , quyruq yaman, kəsib at. (**yağu**: mərhəm). **(dart. sart**. sürt). {dərtlərivə dərman, işlərivə yolağ bul, quyruğun belə daş olsa yolunda, kəsib at. (**yolağ**: tədbir)}.

yarava yağu dart, quyruq yaman, kəsib at. (**yağu**: mərhəm). **(dart. sart**. sürt). {dərtlərivə dərman, işlərivə yolağ bul, quyruğun belə daş olsa yolunda, kəsib at. (**yolağ**: tədbir)}.

yarava yağu dart, quyruq yaman, kəsib at. (**yağu**: mərhəm). **(dart. sart**. sürt). {dərtlərivə dərman, işlərivə yolağ bul, quyruğun belə daş olsa yolunda, kəsib at. (**yolağ**: tədbir)}.

yarça verər, cığan partlar. (**yarça**: səxi. covmət). (**cığan:** paxıl).

yarça verər, qıtmır qımışar. (**yarça**: səxi. covmət). (**qıtmır:** paxıl). (**qımışar**: qaşınar. qımışa düşər).

yarçının yolu yarıq, işi alıq, yeri salıq. (**yarçının**: səxinin. səxavətlinin). (**yarıq**: açıq).

yarda daşı qan çıxmaz, köhnə başdan yolbaşçı.

yardan ayrılan yar tapınca, pulan ayrılan pul tapınca yanar.

yardım güdən özgədən, batalıqda can verir, hər gələn pay verən, ac qalıbən can verir.

yardım güdmə sevgi yükün çəkməyə.

yardıma ölçü biçilməmiş.

yardımlaşıb yov qaytar, baş çalışdır yaşam qur. (kömək yığqıl olan düşmanı enər).

yarələrin onğulacak çağıdır, gəl timar et yarəni sən eşq ilə.

yarıcın quda, köməyin özün ol belə.

yarıq tapan, dolağın tapar.

yarım çıxdı qanamaz, o kəsməsə qanamaz. (yarım çıxdı anlamaz, o kəsməsə, qan axmaz).

yarımçıq bilik, yolda qoyar.

yarımçıq iş, sınıq diş. {başlan işin daşlama. (**daşlama**: bıraxma)}. (işi başladın bitir).

yarın itirən yarsız qalmasın, biri varkən artıq almasın.

yarın itirən yarsız qalmasın, biri varkən artıq almasın.

yarın könül, arın ürək diləyim, dadlı bir söz duya istər ürəyim. (**yarın** : açıq. ışıqlı).

yarın könül, arın ürək diləyim, dadlı bir söz duya istər ürəyim. (**yarın**: açıq. ışıqlı).

yarın min olsada, topraq iki olmaz, yenidən doğmaz.

yarın nəsən, gün batardan yox, dan atar başlır.

yarın nəsən, gün batardan yox, dan atar başlır.

yarın varsa sıxıntı, yarın gəlsə görərsən, yesən qayğı bu gündən, gün gücüvü tükətər.

yarın varsa sıxıntı, yarın gəlsə görərsən, yesən qayğı bu gündən, gün gücüvü tükətər.

yarın yarğılmamış giz qalır, onu güdən qayğulanur gij qalur. dünkü günün ölmüş olur çəkmə onun nisgilin, bu günkü gün sənindir yadlara qoy pis günün.

yarın yolqansa, el yolqanır. (**yarın**: kürəyi quran iki ənli sümük). (**yolqanmaq: solqanmaq**: zayıflamaq. (**# bolqanmaq: şişmək**. **güclənmək**) hər nəyin gücü belində, kürəyindədir.

yarın, açan yazılmamış, ölməmiş, sini (qəbri) qazılmamış. (**gələr: gələcək**. ertə. açan).

yarın, açan yazılmamış, ölməmiş, sini (qəbri) qazılmamış. (**gələr: gələcək**. ertə. açan).

yarına kim ölə, kim qala, payın budur ya ye, ya yala. (yaşamda azcada olsa seçim var).

yarına umut çatmaz, bu gün umuq dadmaz.

yarını bilmək, keçmişi silmək daha yeğ.

yarını uy (xiyal ed), dünəni qoy, bu günü gör.

yarını uy, dünəni qoy, bu günü gör.

yarınlara güvənmə, yarın gələr?, bəllənməz. kimisi dan durar irdən, kim götürməz başın yerdən.

yarınlara keçən biz. keçmişini daşlamaz, yeni günə başlamaz. (**daşlamaz**: atmayan). (keçmişlərdən qalan yük, bassa ağır, dağ belini əğridər).

yarınlara yanındakıyla düşün.

yarınlara yanındakıyla düşün.

yarış işdir, tüm barışa yol açan. (**barışa**. çatağa. ərişə. nailiyyətə).

yarışlı söz yaraşlı gəp tüm görkünün qaynağı. (**yarışlı**: səfalı. ürək açıcı). (**yaraşlı**: ərdəmli). (**görk**: gözəllik).

yarıvı gör özün danış, evlər yıxıb arasözlər.

yarqanan bala, qarqatmaz ata. (**yarqanan**: tərbiyət görən. hidayət olan). (**qarqatmaz**: qınatmaz. cəzaya düşürməz).

yarqanmaz bala, qarqadar ata. (**yarqanmaz**: tərbiyət görməyən. hidayət olunmaya). (**qarqadar**: qınadar. cəzaya düşürür).

yarqılama hər nə ola kimsə ola başqaların söziylə.

yarqılama hər nə ola kimsə ola başqaların söziylə.

yarlı canı ardağlı, bayğın malı. (**yarlı**: yoxsul) (**bayğın**: zənginin) (**ardağlı**: dəğərli).

yarlı günü, yaz günü.

yarma, baş yarmaz. (sərçə nədir, küfdəsi, yarma nədir, yarması).

yarmaçalıq min işdən, doğru bilsən yeğ bir iş. (**yarmaçalıq**: qusurlu. kəsirli. nüqsanlı. naqis).

yarmadan düşün. -heç nə yüz yüzə pis, yüzə yüz yaxşı olamaz.. (**yarmadan :** yarqınmadan: qəzavət edmədən).

yarmadan düşün. -heç nə yüz yüzə pis, yüzə yüz yaxşı olamaz.. (**yarmadan:** yarqınmadan: qəzavət edmədən).

yarmadı çağun ər arvadlığa, dosdu tutun üç günluğa, sürsə uzun vur ged başa, sürmədisə vur çıx daşa. (**yarmadı çağun**: doğru fəsil olmadı. uymadı zaman).

yarmadı çağun ər arvadlığa, dosdu tutun üç günluğa, sürsə uzun vur ged başa, sürmədisə vur çıx daşa. (**yarmadı çağun**: doğru fəsil olmadı. uymadı zaman).

yarmaq ülət çıqaya: para çatdır yoxsula.

yarmaq yığın dar günə, qara gecə ağ günə.

yarpaqsız ağacdan, kölgə umma.

yasa yaratılmışdır, iştə yaşatmalı. (**işdə yaşatmalı**: işə uyqulamalı).

yasalar yasaqsa, qaçaqçılar yasa qurar. (**qaçaqçılar**: yasıya qarşınlar).

yasda ağlamaq, toyda gülmək hamının işi.

yasğa yaxcı pisi tanımaz, görük salğı bırakmaz. (**yasğa**: səyasət). (**görük salığ**. tədbir məsləhət).

yasılmamış yasda, ox atılmaz. (**yasılmamış:** açılmamış)**. (yasdan**: yaydan. kamandan).

yaslı könül sevəgən, paslı könül söğəgən. (**sevəgən**: isti. səmimi). (**söğəgən**: soyuq. qaçağan).

yastıq başı, yıllar yaşı.

yastıq başı, yıllar yaşı.

yastıqdan baş umutlu, baş yastıqda umuqlu. (dan duranda umutla, gecə yatsı umuqla).

yastuğa yastanmaq, döşəğə döşənmək gərək.

yaş çağulu tez keçər, gec çağulu gec. (**çağul**: fəsl). (**gec çağulu**: qocalıq devri) (gənclik tez keçər, yaşlılıq, qocalıq çox sürər).

yaş çürüdən arzular, gözü yolda, qarnı belə ac qoyar. (**yaş**: gənc).

yaş əğilər, daş sınar. {onsəggizin aşdı yaş, ət sümüyü oldu daş. (**yaş**: gənc)}.

yaş keçər sevgi ötər durca qalanmaz kimsə, kişi oldur o günə qılsın özüçün yarağın. (**durca** : dəğişməz. sabit).

yaş keçir, quru qalır.

yaş keçir, yaşlığı geridə qoyur. (**yaşlığı**: gəncliyi).

yaş keçirsə, ürək yaşalıb qocalar, sevgi varsa, könül yaşar uşaq qalar.

yaş kişini filozof edər.

yaş küyməz, yalavac ölməz demə. (yaş yanmaz demə, elçi ölməz demə).

yaş öğrəşər, qarı durqaşar (muqavimət edər).

yaş ösər, qart ölər. (**yaş**: gən). (**ösər**: ötər. böyüyər). (**qart**: qoca).

yaş ötər, ölüm ötməz, dəmim gələr, dilək çatmaz, əlim yetər, dişim batmaz, ayaq qaçar baş saxlar, ayaq yürür, yol bitirir, söz acısı baş. yalan dünya, yaman dünya.

yaş tənində, can tinində.

yaş tənində, can tinində.

yaş tənindədi, tinində yox.

yaş tənindədi, tinində yox.

yaş var yaşında, xam olur gənc çağında, yaş gərəyi qırk yaşında.

yaş var yaşında, yaş var, qırx yaşında. (xam var gənc çağında, xam var qırx yaşında).

yaş yaşama bolluca, yaşın yaşa dolluca. (**dolluca: doluca**).

yaş yaşama bolluca, yaşın yaşa dolluca. (**dolluca: doluca**).

yaş yetişirsə əlli yetmişə, ürək duyqulanar əğriyə düzə.

yaş yetişsə yetmişə, ağrıq olursa təndə, deşik yeğdir beşikdən.

yaş yetmiş, iş bitmiş.

yaşa yaşa gəlir başa.

yaşa yaşa, gəlmədən başa.

yaşa yaşa, gör tamaşa. (yaşamda başa gəlməz nərsə olmaz).

yaşadığın bilməyən, öldüyünü görənməz.

yaşadığın bilməyən, öldüyünü görənməz.

yaşadların tavçasın, yelli qulaq güc alır.

yaşam açmat, -kimi bilib yanıtdı, kimi bilməzin yandı. (**açmat**: müəmma).

yaşam alayqançılıqdır (oyunbazçılıqdır), ürkmədən, qaçınmadan, çəkinmədən çalış, doldur, tükət. izləyənləri, özlərinə bırax.

yaşam atın minib öndə çapda ged, kölgə yalı onun ardı sürünmə.

yaşam başarana yoldaş.

yaşam bilməz təkiz, onsuzda təkiz. (**təkiz**: 1. hamar. dalqasız. qayğısız. dinc). 1. yalnızız. yalınquyuz).

yaşam bir kürəklə dolar içə, bir küləklə gedər hiçə.

yaşam bir kürəklə dolar içə, bir küləklə gedər hiçə.

yaşam bir oyun, bir gün aparan, bir gün utuzar.

yaşam bir oyun, bir gün aparan, bir gün utuzar.

yaşam bir oyuncaq, kimi oynayacaq, kimi oynadacaq.

yaşam bir sınağ, sınan utuzur, sındıran utur, həp unutulur!!. (**həp**: hamısı).

yaşam bir soru, -bilən yanıtar, bilməyən yanar. (yaşam bir soru, -bilən yanıtdı, bilməyən yandı).

yaşam bir sürəcə, sürüncə deyil, çalıb çağlayıb yaşayan bilir.

yaşam bir tiyatr, - ya asılırsan ya asırsan ya oturub baxırsan.

yaşam bir yuxudur, ölüncə bitir, çalış ölmədən ön, yuxunu bitir. (yaşam bir uykudur, ölüncə bitir, çalış ölmədən ön, uykunu bitir).

yaşam bir yuxudur, ölüncə bitir, çalış ölmədən ön, yuxunu bitir.

yaşam bitər, əmik bitməz. (**əmik**:. əmgək.. əmək. zəhmət. mehnət).

yaşam biyol, tapanmasan, gedəndən son dönməyə. (**biyol**: tək yolludu).

yaşam boy verməz uzub düşünməyə, işə keçməlisin.

yaşam boy verməz uzub düşünməyə, işə keçməlisin.

yaşam boydan qısadır, uzun gələr ənin tutsan geninə.

yaşam böylə, biri görməz tüstüsün, cana alar istisin.

yaşam böylə. -ən gözəl anlar ansızın qurulur, anında cumulur, doyduğda untulur.

yaşam böylə. -ən gözəl anlar ansızın qurulur, anında cumulur, doyduğda untulur.

yaşam bu gün, yarın gələr bəllənməz, versən yelə bir dahada əldənməz. (**əldənməz**: əldə edinməz).

yaşam bu gün, yarın gələr bəllənməz, versən yelə bir dahada əldənməz. (**əldənməz**: əldə edinməz).

yaşam bu!bizi, biz edən seçimlərdir.

yaşam budur su verməsən quruyar, könül olsa qolay yerdən qol atar. yaşam seçənlərindir!. (yazı budur qazma alıb dərin quyu qaz gilən, çürük iplə ağırdaşla ol quyuya düşmə qıl). (taşutsuz böyük qazanc olmaz). (taşut: daşut. risk. xətər).

yaşam bulğanlı dəryadır dalağlu bir dəniz, açmazı keçmək üçün yelkənli bir keşti gərək. (**keçti: keşti: kəşti**).

yaşam bulğay, dolum olay, anlatılar, yaşantılar üstü üsdə düşməmiş. (**anlatılar**: eşitdiklər. rivayətlər). (**yaşantılar**: başa gələnlər).

yaşam bulğay, dolum olay, anlatılar, yaşantılar üstü üsdə düşməmiş. (**anlatılar**: eşitdiklər. rivayətlər). (**yaşantılar**: başa gələnlər).

yaşam buyruqda durmur, buyruqla yürmür, gələn çəkilir, olan seçilir.

yaşam cizilməmiş bir olay.

yaşam çevrən qınçılıqı yenənləri xoş görər. (**qınçılıqı**: bükdəni. mane'). (**yenənləri**: üstənləyi).

yaşam çəliş, çalış çəkiş, yol yarağın qıl yarağın, köçdür gedir, durmaq bilməz, duran gözləməz, devran izləməz. (**çəliş**: təzadd).

yaşam çönər istədiyin duyquya, sayqı versən, dəğər biçsən özüvə. (duyqların uyqulanar, gerçəkləşər).

yaşam çürür uzaq çatmaz arzudan.

yaşam dadın, duzun, acısın, birin dad, birin çək, birin at.

yaşam dadlı gerçəkimiş, gəlməmiş ölüm bilməzimiş.

yaşam dalqa dolu, alçaqda yüksəkdə olu.

yaşam dedin iki dodaq arası, iyi olmaz dost dilinin yarası, yol dedigin uzaq değil şurası, gec qalmasan indi dursan yoluva, amac yolun başa yürüb yetərsən.

yaşam degən acısın ağrısın dadlısın yağlısın dadmaqdır. (**degən**: dediyin).

yaşam deyil açmaz, yolun bilməsən açmaz. (yaşam bir müəmma deyil, ama yaşamaq yolun bilməzsən, yaşayamazsan).

yaşam deyil bir tapmaca tapmağa, yaşan onu düşmüş ələ bir bağış. (**bağış**: hidyə).

yaşam deyil bir tapmaca tapmağa, yaşan onu düşmüş ələ bir bağış. (**bağış**: hidyə).

yaşam deyil kəndi gücün toplamaq, yaşam dadı kəndi gücün töləşmək. (**töləş**: xərcləmə).

yaşam deyilən sevilən saymaz, dedigin yapmaz, buruğun qanmaz, duranı götürər, yatanı unudar.

yaşam dəğişir, çalış onla dəğiş.

yaşam dəğişmədən olmur, dəmi tut, qəmi unut.

yaşam dənək götürməz, vurub kəsib sındırar, inanıbda işənsən yular dartıb aparar, qara günə batırar, kəndivə güvən. (**işənsən**: inansan).

yaşam dolu çəliş düğün, çalışma düğünlə qarşı durasan, çalış birin çözəsən. (bilə yaşam qolay değil, ayrıq yaşam onay değil). (bilə: birlikdə. bahəm) (**onay değil**: ağla batan, mə'qul deyil). (bilə yaşam qolay değil, çiləli yaşam onay değil).

yaşam dolu çəlişik, olsunki bir yox demə, bütün yolu dəğişir. (**çəlişik**: əzdad).(**olsunki** : bə'zən).

yaşam dolu çəlişik, olsunki bir yox demə, bütün yolu dəğişir. (**çəlişik**: əzdad). (**olsunki**: bə'zən).

yaşam dolu dənəklər, utanları utuzanlar bəllənməz.

yaşam dolu şaşırıq, - düşə düşməyənlər, tuş gəlir. (**şaşırıq**: sürpiriz). (**tuş gəlir**: üzləşilir. başa gəlir).

yaşam döğüş deyil, yaşam yarış deyil, yaşam barışda yox, yaşam yaratışdır.

yaşam döğüş deyil, yaşam yarış deyil, yaşam barışda yox, yaşam yaratışdır.

yaşam durmuş bir kitab, heç sayfası təkərləmə oxunmaz. (**durmuş**: yaşam). (təkərləmə : tikrar olaraq).

yaşam durmuş bir kitab, heç sayfası təkərləmə oxunmaz. (**durmuş**: yaşam). (təkərləmə: tikrar olaraq).

yaşam durur buruşuq, hər buruqda min daşut, aşsan birin, bəklən geyin, qalanları bəllənməz. (**daşut**: xətər). (**bəklən geyin**: ardın gözlə).

yaşam durur yapmaca, yoxundursa bacarıq, oda olur tapmaca. (**yapmaca**: qurama. yaradıb yapma). (**yaşam olur tapmaca**: yaşam çönür açmaza (müəmmaya).

yaşam endigən yol görünər, engəbələr ondan düşər. (**endigən**: dəniz üzü kimi sonsuz düzə). (**ondan**: sondan).

yaşam gerçək, gülü göyçək.

yaşam geri verməz gedəni, ələ verməz itəni, istəklərin, çağunda yaşa, edinmədin, oturma yasa.

yaşam görüldüyü kimi yox, gördüyün kimidir.

yaşam gözəl, ağırsa belə. (**ağır**: zəhmətli) (yaşam güzəl, ağır olsa belə).

yaşam gözləmək bilməz, gedəni unudar, gələni qarşılar.

yaşam güdə keçənləri doğrutma, keçmişinlə savaşma, yaraların sanaşma, yüksək tutun əldəkin, ilgəri qoy gözdəkin. (**keçənləri doğrutma**: keçmişini təbrəə eləmə). (**ilgəri qoy**: önündə tut).

yaşam güdə, alanmadın sevdiyin, çalış sevə aldığın. (**sevə:** sevi qıl. sevgilən).

yaşam güdə, itirməyə çağız yox, bəkləməyə çatız yox. (**çatız**: fürsətiz).

yaşam güdə, saylmaz kaçı, günlərivə, qatma acı!. (**kaçı**: neçəsi).

yaşam güdə, sevgilər tütək, çalağan sevinər, çalmayan döğünər.

yaşam güdə, uzun yolu bəkləməz, sürər yolun, yaşıl yaşlı çəkləməz. (**yaşıl yaşlı**: gənc qoca). (**çəkləməz**: saymaz. vecə almaz).

yaşam güdmür sevəni, sevmir güdəni.

yaşam gümanla yok, inamla gəlişib, güvənlə gülüşüb, **güclükləri yenişmiş**. (**güclükləri yenişmiş**: məşəqqətləri yerə çırpmış).

yaşam günündə yaşanar, keçimiş günə qaşanar. (**qaşanmaq**: işəmək).

yaşam gürəş alanı, doğrusula yalanı.

yaşam gürəşlə qalır, gürəşdə durur, gürəşlə dadır, gürəşlə ösür. (**ösür**: gəlişir). (**gürəşlə**: mubarizə).

yaşam həmməşə tuğur (taşqıl. ciddidir), ama yoğşutmadan yaşanmaz. (yoğşutmadan: işləyib yumşatmadan. yuğşatmadan).

yaşam həp qazanmaq deyil. (ölümü görməyən kəndin itirir).

yaşam hər gün yaşama gülənlərindir.

yaşam hər nəyi enər, hər nəyi hopar, dağların sonuna çatar, ölümdən ayrı yatar. (**dağların**: acıların).

yaşam içrə doğma dosdun içində, doğru yolun özündə, nə dosduvu yadırqa, nə öz yolun azırqa.

yaşam içrə doğma dosdun içində, doğru yolun özündə, nə dosduvu yadırqa, nə öz yolun azırqa.

yaşam içrə gərəkim , bir könüldür qanmağa, bir qulaqdur duymağa, bircə əldir tutmağa.

yaşam içrə gərəkim, bir könüldür qanmağa, bir qulaqdur duymağa, bircə əldir tutmağa.

yaşam ilə ayaqlaş, öğrəndiyin unutma.

yaşam ilə ayaqlaş, öğrəndiyin unutma.

yaşam inanc üsdə yox, inancla qurulur.

yaşam istəyivə uymasa, əğ yaşama istəyin.

yaşam istəyivə uymasa, əğ yaşama istəyin.

yaşam işilə başlır, söz onu qaşlır. (**qaşlamaq**: 1. qarç qarç edmək. açıqlamaq. 1. bəzəmək).

yaşam keçir, yaş qurur.

yaşam kimsəni gözləməz. özləyi qov, nisgili boğ, olanı tut. (**özləyi**: həsrəti).

yaşam qorxmazları yeğənər, qorxaqları yerənər. (**yeğənər**: bəğənər). (**yerənər**: alçaqlar).

yaşam qorxmazları yeğənər, qorxaqları yerənər. (**yeğənər**: bəğənər). (**yerənər**: alçaqlar).

yaşam quşqular doğur, yaşamı boğur. (**quşqular**: artıqmac işlər, ağrıqlar).

(yaşamın devrə devrə dəğişdiyin gör).

yaşam nədir bilməcə, açа bildin gülməcə, açanmadın tün gecə. (**tün gecə**:

qapqaranlıq).

yaşam nədir bilməcə, açа bildin gülməcə, açanmadın tün gecə. (**tün gecə**:

qapqaranlıq).

yaşam olay, yapar səni qırar səni, qaçınma heç, qaçındınsa dolar səni.

yaşam olay, yapar səni qırar səni, qaçınma heç, qaçındınsa dolar səni.

yaşam oyun, bilgil oyun yasasın.

yaşam oyun, oynayanla oynayır, oynamazla dalaşır.

yaşam oyun, oynayanla oynayır, oynamazla dalaşır.

yaşam oyun, oynuyana eşq olsun.

yaşam oyun, oynuyana eşq olsun.

yaşam öcürki gərəklidir keçməkdədir, hər kim onu içindəki kimi görür.

yaşam öğrətdi ki, ağacı yemişi, yararı ilən tanı, sonra kökü ilən.

yaşam öğrətməmiş, yaşamdan öğrəşilmiş.

yaşam ölənə bitmiş, ölüm qalana qalır.

yaşam öz başına qurulmaz, çalxanan su durulmaz, asda gedən yorulmaz, seçim seçiş olmasa, yazın belə yazılmaz. kəndivə güvən, yaşamla yürən. **(yaşamla yürən**: yaşamla çağdaşlaş).

yaşam öz sözün boğaza soxur, utmaq bacarmıyanı, yerində boğur. (yaşamın özgül qaydaları, gərəkləri var, əroğlu, onları saymasa (işə tutmasa), o yasalar altda əzilir).

yaşam seçənlərindi.

yaşam seçim olasılığın həmməşə sənə bıraxmaz. (**olasılığın** : imkanın).

yaşam seçim olasılığın həmməşə sənə bıraxmaz. (**olasılığın**: imkanın).

yaşam sevgisi doğur ərəni, ölüm yanqısı yaşatmaz oni.

yaşam sevgiyimiş dedilər inanmadım, yaşım keçdi sevgimi tapammadım.

yaşam sevmir arda qalanı, kəndi özünə yalan satanı. **(yalan satanı**: yalan aytanı). (**aytanı**: deyəni).

yaşam sevmir könlü qalanları.

yaşam sevmir sevmiyənləri.

yaşam sizi dosduz bilə ötürür, bülbül güllügə, qarqa küllügə götürür.

yaşam sizi gözləməz, siz yaşamı gözləyin.

yaşam soluqla başlar, soluqla solar.

yaşam sonu bilinməz, axdardığın bulunmaz, boş çanaqlar dolunmaz, gəlmiş belə gedər belə sorulmaz.

yaşam sonu çıxılmaz, ölüm adlı ışılmaz. (**ışılmaz**: açıqlanamaz).

yaşam sürənlə sürür, duranla dirir. (**dirir**: sinsidir. çətinləşir).

yaşam sürənlə sürür, duranla dirir. (**dirir**: sinsidir. çətinləşir).

yaşam sürmə kölgələrin iziylə, bir kölgə qoy bənqu qılsın ol səni. (**bənqu** : ölməz).

yaşam sürmə kölgələrin iziylə, bir kölgə qoy bənqu qılsın ol səni. (**bənqu**: ölməz).

yaşam sürmədə çox yola dəğişməlisin, düz deyilsə yolun kəsin dəğişməlisin. (**dəğişməlisin**: 1. baş vurmalısın. 1. almaşdırmalısın. əvəzləməlisin).

yaşam sürmür üz ilə, üzləşiri öz ilə.

yaşam sürmür üz ilə, üzləşiri öz ilə. {çağı gəlir özün basar üzdəkin. (**özün**: içindəki). **(üzdəkin**: zahirdə olanı)}. {iç, üz basa. (**üz**: surət)}. (içdə olan üzə damar). (üz dad alar içindən, iç bəzəməz üzdəki).

yaşam sürmür, yaşam içrə sürənləriz biz, yaşam keçmir, yaşam içrə keçənləriz biz. keçən günlər keçinmiş, aydın günlər görənləriz biz.

yaşam sürür, sürməsən, süründüreccək.

yaşam sürür: -qırılıb, yıxılıb, çökmək, yeni bir gögət üçün yaprağın tökmək. (**gögət**: yaz).

yaşam tək başına alınır, tək başına sürülməz.

yaşam tək başına alınır, tək başına sürülməz.

yaşam təkliyi sevməz, təklərə gülməz.

yaşam uçmaq, ardın uçmaq yaşanmaz. (**ardın**: dalı dala) (**yaşanmaz**: imkanı yoxdur).

yaşam uçmaq, ardın uçmaq yaşanmaz. (**ardın**: dalı dala) (**yaşanmaz**: imkanı yoxdur).

yaşam uzaq görünən keçmişdə bitən bir yol.

yaşam üçün ökdə gərək igidə. **(ökdə:** ustad. mücərrəb). (işlərdə bilənin önəmi).

yaşam üçün yeyəndə var, yemək üçün yaşayanda.

yaşam varkən göz qurumaz, qan durmaz.

yaşam varkən göz qurumaz, qan durmaz.

yaşam verib ağlamağı doyunca, çalışgilən gülməgivi qazanqıl.

yaşam yarına baxır, keçəni utur, duranla axır. (**duranla**: yaşıyanla. hazırkı ilə).

yaşam yarısı buyruq, yaşam yarısı qoyruq. (**buyruq**: istək. həvəs). (**qoyruq**: istəmədən oluşan).

yaşam yarısı buyruq, yaşam yarısı qoyruq. (**buyruq**: istək. həvəs). (**qoyruq**: istəmədən oluşan).

yaşam yasası dələr (əğər) keçər.

yaşam yasası dələr (əğər) keçər.

yaşam yasası ələr keçər.

yaşam yasqın dəl. (yaşam engəbəsiz deyil).

yaşam yay deyil dartasan, dirik ox deyil atasan. (**yay**: kaman) (yaşamda baş saxlamağa kəllə gərək).

yaşam yazdığı yolu, kimsə pozmamış, çoxu əğmək istəyib, bacaranmamış.

yaşam yoxan, ölüm olan, gələn gedər, duran köçər. (**yoxan**: fani).

yeyənməsən doyunca, yaşanmasan boyunca, ötər yaşın köş keçər, yetənməsən barınca. (**barınca**: dincələk. dincəlgə. düşərgə. istirahətqah).

yeyib doymab, yalab doymaz. (**doymab**: doymayan).

yeyib doymaz, yalab doymaz.

yeyib yeddi olmayan, yalab yetmiş olamaz.

yeyici ki (orucun yeyən) uğruya (xeyir edə), pisin (şərri) sava, yeğ oruc tutandan ki, dünya qova.

yeyilən çörək gej durmaz!. (yeyilən çörək tez unudulur).

yeyim içim ölçüdə, dincər qarın qursağın. (**dincər**: dinc olar. ağrımaz).

yeyimli at armaz. (**yeyimli**: yeyəcən). (**armaz**: əldən düşməz).

yeyin gedən tez çatmaz, irtə qalxan gec çatmaz.

yeyin gedən tez çatmaz, irtə qalxan gec çatmaz.

yeyin gedən tez çatmaz, irtə qalxan gec çatmaz.

yeyip içip, qonup köçüp, illər oğun, çağdan soyun.

yədəyin görən əklənər, yədəyin atan təklənər.

yəhəhərsiz ata yük çatılmaz.

yəhər at belində, həmməşə qalmaz.

yəhər ata yük olmaz, arvad ərə.

yəhər gedmiş at qalmış, üzgü gedmiş iç qalmış. (yəhər gedsin at qalsın, üzgü gedsin iç qalsın). (**üzgü**: üzü. surəti).

yəhər, gah atın belində gəzər, gah yiyəsinin.

yəhər, gah atın belində gəzər, gah yiyəsinin.

yəhərin ağır yüngülün at bilir.

yəhərin qaşında duran, qazanın aşından olur. (durum var yenməli, durumda var yenilməli). (durum vardır sürüb çevirməlisin, durumda var boyun əğməlisin).

yəhərsiz ata, yük çatılmaz.

yələ dursa, yelə gedər. (yaşamda, seçilən amaca çatamaq üçün, yol salmalıdır).

yələdən (yaldan) tutanmayan, quyruğdan nə tutar.

yigid görkü, bilik yaraq. (**görkü**: yaraşığı. gözəlliyi).

yigit başı sağ olsun, mallısıda var malsızıda. (**yigit**: comət. centilmən).

yığılax biz araya, məlhəm qoyax yarıya.

yığılaq biz araya, məlhəm qoyax yarıya. (yığılaq bir araya, məlhəm qoyak yaraya).

yığışma deyirəm, yoluşma başa düşür.

yiğitlik keçməklə, ağalıq verməklə.

yiğitlik keçməklə, ağalıq verməklə.

yığmaq olmaz əl ayağın, söz düşərsə dillərə.

yığsan dağalar**,** səpən dağılar. (**yığsan**: ekonomi edsən). (**dağalar**: dağ olar. çoxalar).

yıxdınisə göydən yox, yıxıldınsa yerdən yox. (**yox**: görmə).

yıxdınisə göydən yox, yıxıldınsa yerdən yox. (**yox**: görmə).

yıxığı yığan (götürən, qaldıran), qalığı qoruyan.

yıxığı yığan, qalığı qoruyan.

yıxılan ağaca, minən çox olar.

yıxılan çatı (damı), bir kərpiç saxlamaz.

yıxılan qalxdı, yatan qaldı, ölən batdı.

yıxılan qalxmış, oturan batmış.

yıxılan özgədən görər, yıxan özündən.

yıxılan özgədən görər, yıxan özündən.

yıxılan, gürəşdən doymaz. (öc isi (hissi) için oyar).

yıxılanı əzmə, düşəni itmə (itələmə).

yıxılanı yer tutar, yer olmasa gor tutar. (**tutar**: saxlar). (yıxılmış olan durmuşsa, gorda yatan durmamış. ölü gəlib dirilməz).

yıxılanın üstünə tökülən çox olar.

yıxılanın, dosdu olmaz.

yıxılası daşqa, qırxgün öndən cırıldar.

yıxılcağın yerim bilsəydim, döşərdim saman yerinə.

yıxıldın özündən gör, yıxsan özgədən.

yıxıldın özündən gör, yıxsan özgədən.

yıxıldınsa gülən çox olar, eşitmə, dayandınsa dosdun çox, güvənmə!.

yıxıldınsa qalxmadın, ölüm gəlir sıradan.

yıxıldınsa qalxmadın, ölüm gəlir sıradan.

yıxıldınsa, toprağa sarıl.

yıxılıb qalxan çatdı, yıxılıb qalan batdı.

yıxılıb qalxan, öğrəşər, yıxılıb qalan, ölməyinə aldışar. (**aldışar**: adət edər).

yıxılıb qalxar, qalxıb düşər öğrəşər uşaq ayaqda durmaq.

yıxılıb qalxmaq, yanılıb yara almaq, öğrəşib onmaq, yaşamaq böylə. (**onmaq**: düzəlmək).

yıxılıb sınıb əzilməyə öğrəşən, çətin qalxa ösə dirsələ. (**ösə**: böyüyə. inkişaf edə. rüşd edə).

yıxılır özgəni döğür, yıxır özünü öğür.

yıxılır özgəni döğür, yıxır özünü öğür.

yıxılırısan, dəvə boynundan yıxıl.

yıxılırsa biri əldən tutasan sən kişisən,

düşənə vurmuyasan taqqa təkə sən kişisən, varasan malla davara yoluvu azmıyasan sən kişisən,

əzilib ya əzələr olsana topraq təki bərk sən kişisən,

istəyin salmaya əldən ələ, ovsarlıyasan sən kişisən,

kar koru kəl keçəli manlamasan sən kişisən

(**istəyin**: həvəsin. nəfsin). (**manlamasan**: ayıblamayasan).

yıxılmadan durğalmır. (bulanmadan duralmır). (qalxış yolu düşməkdən). (qalxış keçir düşməkdən).

yıxılmadan qorxan, düz yolda çaşar.

yıxılmağı danınma, qalınmağa inanma. (**qalınmağa** : sınıb qalmağa).

yıxılmağı danınma, qalınmağa inanma. (**qalınmağa**: sınıb qalmağa).

yıxılmağı gözləyən, göz görərək yıxılmış.

yıxılmağın bilməyən, ayağ üsdə qalanmaz.

yıxılmaq sənin üçün, qorunmaq sənin işin.

yıxılmasan, qoruyan var.

yıxılmayar ev olmaz, başıqanlıda baş olmaz.

yıxılmış ağaca, çıxmağa nə var.

yıxılsan dizindən gör, əzilsən dilindən gör.

yıxılsan ucadan yıxıl, otursan alçaqda otur.

yıxılsan, yerdən yapış, boğulsan çöpdən.

yıxır özündən, yıxılır özgədən. (yıxılsa özgədən görür, yıxsa özündən).

yıxmağa yarında var gec deyil, düzətməyə bu gün belə tez deyil.

yıxmağıvı göydən, yıxıldığın yerdən gör. (yıxıldınsa yerdən gör, yıxdınsa göydən).

yılxı susar, boynun uzar. (**yılxı**: heyvan).

yılxının dişin sana, yalxının işin. (**yılxının**: heyvanın). (**sana**: hesaba qoy). (**yalxının**: insanın).

yılxının dişin sana, yalxının işin. (**yılxının**: heyvanın). (**yalxının**: insanın).

yılığ ıslaşa ıslaşa, yaluğ söyləşə söyləşə (birbirin tanır). (**yılığ**: heyvan) (**yaluğ**: insan). (**ıslaşa ıslaşa**: iyləşə iyləşə) (söyləşə söyləşə: sözləşə sözləşə).

yılığın (qorxaq) otu qızdırmaz.

yılığlar arsaq ölür. (**yılığlar**: heyvanlar). (**arsaq**: mə'sum).

yılıqın (qorxaq) otu qızdırmaz.

yıparlıq kəsürgüdən yıpar gedər, iyi qalır.

yırıq ırmaq, yaşam bir çəmçəcikdir ondan. (**yırıq**: müzük).

yırqa deyər yuxladar, balam deyər oğşadar, incə yerin tuşladar, uf deməyə verməz aman bu dünya. (**yırqa** :mahnı. türkü). (**uf** deməyə: **of** deməyə).

yırqa deyər yuxladar, balam deyər oğşadar, incə yerin tuşladar, uf deməyə verməz aman bu dünya. (**yırqa**: mahnı. türkü). (**uf** deməyə: **of** deməyə).

yırqıça tarıq: - bir saz bir, söz (gərək, lazım). {yırqıca (yarqaçı, oxuyayana) tarık (gərək, lazım) bir saz, bir söz}.

yırtı süzü iş yarmaz. {dərdə dəğməz. (**yırtı: yırtıq**)}.. (**süzü**: süzgəc).

yırtıcılıq qazanda, yartcılığı qazanda. (pozuqluğ qazandadır, yasırdı, hazırdı, ama yaratcılıq, bəsləməyi qazanmalısan). (yırtıcılıq, doğal bir iş, yartıcılıq üçün iş gərək, yartıcılıq qazanılmalıdır). (**yırtıcılıq**: vəhşilik. yıxıb sökmə). (**yartcılıq: yartıcılıq**: iysəvərlik. xeyrxahlıq. yaradıcılıq). (doğada iyi kötü seçilməz, doğru yalan tapılmaz. bu konular kişiyə, kişiliyə özdür. (**doğada**: təbiətdə) (**özdür**: məxsusdur).

yırtıq ələk, yıxıq dam.

yırtıq ələk, yıxıq dam.

yırtıq ələk, yıxıq dam.

yırtıqları çatdıran, pozuqları onatan, sapıqları yolatan, yazıqları qutaran yasalar (qanunlar).

yiyesini ağırlayan, itinə gəmik atar.

yiyə çıxda saxla ara sevgidən, acınmadan qıymış olur sevgilər. (**qıymış olur**: zulum edir).

yiyə çıxda saxla ara sevgidən, acınmadan qıymış olur sevgilər. (**qıymış olur**: zulum edir).

yiyəli it sılanar. (**sılanar**: **sıylanar:** hörmət görər).

yiyəli itin, quyruğu dik durar.

yiyəlik hər nə olursa olsun, yiyəligə ərdəm gərək. (**yiyəlik**: milk. mülk) {**yiyəligə**: yiyəlik uyarın qorumağa. (**uyarın:** haqqın)}.

yiyəni su aparmaz, yemiyəni aparar.

yiyəsinə bax atın nalla.

yiyəsinə baxıb, mıxını çalır.

yiyəsinə gərək olan, qonşuya kütün demişlər. (**kütün**: haram).

yiyəsiz dərə, tülkü bey.

yiyəsiz dərə, tülkü bəyliyi.

yiyəsiz eşəgi qurd yemiş.

yiyəsiz göldə, qubağa xanlıq edər.. (qaz qopsa, ördək gölə yiğələnür)

(yiğələnür: iyələnir. əkələnir. malik olur). (**qopsa:** ölsə. köçsə. uçsa).

yiyəsiz qarqış yerin tapar.

yiyəsiz qoyunu, qışdada qırxarlar.

yiyəsiz mal, ya elə gedər, ya yelə.

yoğandan (yorğandan) artıq ayağ kösülsə (çözülsə. uzunsa) üşüyür.

yoğrulmamış xəmirdən, çörək çıxmaz.

yoğrulu söz, duzlağı gülşən edər, yontusuz söz, gülşəni duzlağ edib!.

yoğruluq sözdə, doğruluq özdə. (**yoğruluq**: yaxımlılıq. bacarlıq. incəlik).

yoğrun malı oğrun mala qatmaqıl. (**yoğrun oğrun**: həlal həram).

yoğşaq ürək çilələrin dəngirin, ağrıların ağırın, dilmə gözlər ağlaşların acırın gizlədir. (**yoğşaq**: yumşaq. kəvrək). (**dəngirin**: ağırın). (**dilmə**: can alan. dilbər). (**acırın**: ən acısın).

yoğun incəlincə, incə üzülər.

yoğun tüstü dar bacadan çıxanmaz.

yoğun yonulunca, incə üzülər.

yoğur (xəmir) tez gələndə arvad deyər ərim məni çox istir.

yoğur (xəmir) yetişəndə qabarır.

yoğur vermədən, uğur gözləmə. (**yoğur vermədən**: səyasət edmədən). (göz yumduğundan, uğur gözləmə).

yoğurçusu yoğurar, kilimçisi toxuyar, gəbəcisi doğurar, xırmançısı soğurar, çevrənçisi çevirir. (**gəbəci**: doğumu yaxın olan boylu). (işivin uzmanı, ustası ol. bilən iş ardıca ged).

yoğurt yoğurt danışmaqdansa yoğurub danışmaq yeydi.

yoğuş könüldə yaşır, başda yok. (**yoğuş:** sevi. rəhmət. məhbbət).

yoğuş tezraq düşür dan atmamış irtin önü. (**yoğuş**: kərəm. rəhmət).

yoğuşlu gəlin, güveyi yavaş bulur. (xələtli gəlin kürəkəni yumşaq, əxlaqlı görür, bulur, gözlür). (**yoğuşlu**: xələtli).

yox bir kimsə aldanmağa geciksin. (heçkəzin aldanmağa kimsə gecikməmiş).

yox bir yapı yapıqsız, yox qablama qapaqsız. (**yapıqsız**: qapısız. giriş çıxışsız).

yox bir yapı yapıqsız, yox qablama qapaqsız. (**yapıqsız**: qapısız. giriş çıxışsız).

yox dəğəri sevginin, duysa qulaq söz ilə, yox gözəlin dəğəri , baxsan ona göz ilə, könüldədi sevgi seviş kişidə, ona yiyə yaxcı gedər işində.

yox dinləmək diləməz, hən duymadan yorulmaz. (yaltaqçı kimsə).

yox ertiyə bir sözüm, keçmişimlə döğüşüm, işi qoymam yarına, gücüm çatsa gününə. (**ertiyə**: sonraya. gəlcəyə).

yox olmasın arçağlar, var qalmasın alçağlar. (fərqlər aradan qalxmasın, əsgiklər uzun sürməsin).

yox olsun yoxsulluq, varlığa nə darlıq.

yox salı, xoş salı. (**salı**: xəbər).

yox salı, xoş salı. (**salı**: xəbər).

yox salıq xoş salıq. (**salıq**: xəbər). (yaxınlarından uzaqda olanlara avunc üçün deyilən söz). (**avunc**: təsəlli).

yox salıq, xoş salıq. (**salıq**: xəbər).

yox salıq, xoş salıq. **(**yox xəbər, xoş xəbər).

yox yaşıyan ölüm çün.

yox yerdən əzrayılda can ala bilməz.

yoxa qoy keçənləri, ala dur olanları, görə tut gələnləri.

yoxa qoy keçənləri, ala dur olanları, görə tut gələnləri.

yoxa tut yaşıq, çəkmə simcimə, dinlən, solun, bırax, ötün, olduğun yaşa. (**yoxa tut**: yüngül tut). (**yaşıq**: yaşamı).

yoxa yürük yetməmiş, yoxu tutan olmamış.

yoxadan yoxa pay düşməz, qurudan qura yoğuşmaz. (**yoxadan yoxa**: yoxsuldan yoxsula). (**yoğuşmaz**: bələşməz). (**quru**: çinis. gözüdar).

yoxda uğur olmaz. (pozitivizm açıdan) (yoxluq iyi qarşılanmaz).

yoxdu çaqqal, giribən bir meşədə, heç gülün yoxsa tikanı demədə.

yoxdu çaqqal, giribən bir meşədə, heç gülün yoxsa tikanı demədə.

yoxdu gücü yaşamın yoxsa umut yerində, atdım atan irəli çilə qoyar geyində. (**çilə**: dərd). (**geyində**: ardında. dalında).

yoxdu gücü yaşamın yoxsa umut yerində, atdım atan irəli çilə qoyar geyində. (**çilə**: dərd). (**geyində**: ardında. dalında).

yoxdu gücün eyləməyə yaxcılıq, olsun gücün kötülüyə yox demək!.

yoxdu işgil danışıqla çözülə olmuyasi.

yoxdu qalan, yalan qalan, qalan yalan, axi dünya!, oda yalan.

yoxdu qapı qalsın qapıq sevgi gücü qarşında.

yoxdu qarşılıq verəsi aşqa, güdmə qarşılıq verdiyin aşqa.

yoxdu qarşılıq verəsi aşqa, güdmə qarşılıq verdiyin aşqa.

yoxdu yaxın kölgəsindən heç nəyin, düşsə qaranlıq oda çıxmış yoxa.

yoxdur mənə yar, oldu bu gündə gecə yarı, açdıca səhər qan oluri gözdəki yaşi.

yoxiydi qadası başın, olmasaydı ağızda dili.

yoxlamamış inanma.

yoxlu üzü soğuq olur, varlı üzü yoğuq olur. (**yoxlu**: yoxsul) (**yoğuq**: isti. yaxımlı).

yoxluğu dərk edəməm sən varikən köngüldə. (**dərk edəməm**: fərq edəməm. hiss edəməm. anlayamam).

yoxluğu düşünən varlıqdan olar.

yoxluğu düşünən varlıqdan olar.

yoxluğu düşünən, varlığa inanar.

yoxluğu düşünən, varlığa inanar.

yoxluğun bilməyən, varlığı qanmaz.

yoxluğunda varlığını düşünmə, dirligində, kəndi sində eşinmə. (**kəndisində:** kəndi gorunda). (o ki dirilikdə, ad qoymaq üçün çalışı, yaşlı ömrün, çürüklərə tapşırır. (yaşlı: yeni. taza, gənc. pöhrəli. verimli) ….

yoxluq çolum, varlıq dolum. (varlıq bolum, yoxluq solum). (varlığa yiyə olan yoxluquyla uğraşmaz). (varlığına sahab çıxan, ölüm sonrasın düşünməz).

yoxluq üzü soğuq olur, varlıq üzü yoğuq olur. (**yoxluq**: ölüm) (**yoğuq**: isti. yaxımlı).

yoxluqla ölüm arası yaşamdır. gerçək "yaratıb yaşadığındır", yansıma, yalan "öğrəşib sürməkdir".

yoxluqla ölüm arası yaşamdır. gerçək "yaratıb yaşadığındır", yansıma, yalan "öğrəşib sürməkdir".

yoxluqla toxluğun arasın, dağlar kəsir.

yoxluqları düşünən, varlığını unutar.

yoxluqları düşünən, varlığını unutar.

yoxluqları yaşatan, varlıqların nisgili.

yoxluqları yaşatan, varlıqların nisgili.

yoxpulun (yoxsulun) yoxsulluq, bəyin toxluq dərdi var.

yoxpulun, yoxsuluq, bəyin toxluq dərdi var.

yoxsa gücün ayaqda, başmaqda suç arama.

yoxsa ışıq, ağla qara seçilməz. (yağmurluqda yaşar gözlər bəllənməz).

yoxsa səndə itirməyə bir nəyin, yetmiş başa yaş qatarın bilgilən.

yoxsa səndə itirməyə bir nəyin, yetmiş başa yaş qatarın bilgilən.

yoxsa umut qurulmamış yaşamaq, dirik olsa umutsuz, adın qoyma yaşamaq.

yoxsa umut qurulmamış yaşamaq, dirik olsa umutsuz, adın qoyma yaşamaq.

yoxsa umut nərsiyə, bəkləməyin boşuna, yaşam balı dadlanar, keçsə xoşluq qoşuna. (**qoşuna**: cütlükdə).

yoxsa yaşamda yasa, kəndi başınca yaşa.

yoxsa yaşamda yasa, kəndi başınca yaşa.

yoxsul aclığından ölər, varlı, qorxusundan.

yoxsul arpa tapar, saxlamağa yer tapmaz!.

yoxsul aşı yarma köçə, oda pişər yarı gecə.

yoxsul bağında çor, cibində cüvə, torbasında bit gəzir.

yoxsul baylığı, can sağlığı. (yoxsulun çahlığı, tən sağlığıdır).

yoxsul biri nə versin, ondan nərsə istəsən, ol varlıdan istəki, paylaşmadan qaçınmaz.

yoxsul dedi var yoxum getdi, inanmadılar. varlı dedi: siçan dəmiri yedi, inandılar.

yoxsul ələ baxan yox, dolu əli süzən çox. (gidi acun (dünya) var donatar, yox soyatar). (varlı bəzək, yoxsul təzək).

yoxsul görür, yoxlur, varlı görür, poxlur.

yoxsul hər nə geysə gəlişir. (**gəlişir**: yaraşır).

Yoxsul itinin adını gümüş qoyar. (Araz Gunduz).

yoxsul kişi var taparsa yer tapmaz.

yoxsul qızına, qızıl demiş, kor itinə (itirdiyinə) gümüş.

yoxsul olda ucuz yox, istəyin ol yalan yox.

yoxsul olda ucuz yox, istəyin ol yalan yox.

yoxsul oldun görən işin bilinməz, görən düşün yorulmaz. (**bilinməz**: dəğərlənməz).

yoxsul oldun varın yoxun bir bolar, heçkim sözən işən qılmaz, kar bolar, uğur deyib tutan işin, qay bolar, qoldan uçub, umay adlı quş gedsə. (**varın yoxun**: varlığın yoxluğun). (**sözən: sözüvə**). (**uğur**: xeyir). (**qay**: şərr). (**umay**: devlət. dövlət. baxt. bəxt). (misgin qılıc).

yoxsul oldun, öz ölkəndə yad oldun, varlı oldun qərib yerdə, çağ (şad) oldun.

yoxsul olmaq man deyil, yoxsul qalmaq man olmuş.

yoxsul olsan ağa ini doğan qardaş yad olur. (**ağa ini**: böyük kiçik). (**doğan qardaş**: qohum qardaş).

yoxsul olsan bilik qazan, bilgin olsan, bilək qazan.

yoxsul olsan qarındaşın yad olur, varlı olsan yad ellərin qarındaş. (**qarındaş: qardaş**).

yoxsul olsan toplum içrə aydan sözün yer tutmaz, dinləməzlər tingə sözün dınq olar. (**tingə**: gözəl. dəğərli). (**dınq**: qara pul. dəğərsiz).

yoxsul olsan, qardaş yad.

yoxsul olunca, yox ol!.

yoxsul ölsə, ağu yox, arrıq ölsə yağu yok.

yoxsul toyux yeyirsə, ya özü xəsdədir, ya toyuğu.

yoxsula ağıl verən çox olur, çörək verən az.

yoxsula baylıq, can sağlıq. (**baylıq: bəylik**: devlət).

yoxsula dəğmə, varlıya güvənmə.

yoxsula əl ver, əl uzatma.

yoxsula gülən, varlıya bel bağlayan, sona çatmaz.

yoxsula vətən yoxdu, varlı oldun vətən çoxdu.

yoxsulçunun gördüyü iş bilinməz, gördüyü düş yorulmaz. (**bilinməz**: dəğərlənməz).

yoxsulda yox qayğı varın itirsin. (qazan boşsa qaynamaz).

yoxsuldan yoxsul olan, varlılardır.

yoxsullar tarixdə yazılmaz.

yoxsulları xor görəni savqıla, varlıları qısqananı atqılın. (**savqıla**: rədd ed). (**atqılın**: atgilən).

yoxsulluğa gülən çox, yoxsulluqla gülən yok.

yoxsulluğa öğrənən, dövlətlidən, iyi keçinər.

Yoxsulluğun üzü qara olsun! (Araz Gunduz).

yoxsulluğun yolun bilən, varlılardan xoş gülər.

yoxsulluğun, kimdə olsun güldürməz. **(yoxsulluğun:** yoxsulluq durumu**)**.

yoxsulluğun, nə olduğun bilməyən, varada çatar, varsızada.

yoxsulluq bolluq görməz, varlılıq yoxsulluq.

yoxsulluq duyqusu, bəylər yoxsulladar.

yoxsulluq əğrilik deyil.

yoxsulluq qırır, öldürür, güldürməz, diritməz, yaşatmaz.

yoxsulluq qırmasada, güldürməz. (**qırmasada**: öldürməsədə).

yoxsulluq mutluluq yolun qapamır, pulluluq mutluluq yolun hamayır.

(**hamayır**: safaldır).

yoxsulluq mutluluq yolun qapamır, pulluluq mutluluq yolun hamayır.

(**hamayır**: safaldır).

yoxsulluq öldürməsədə, güldürməz!.

yoxsulluq, bağımlığın anasıdır.

yoxsulluq, doğma topraq (vətəni), yad edər.

yoxsulluqda olmaq, istərmisənsə, xəşlə.

yoxsulluqda varından demə, qocalıqda zorundan demə.

yoxsulluqdan, vara nə, qocalıqdan, zora nə.

yoxsulluqlar yoxluqlara yol açır, baylıqlıqlar varlıqlara çatdırır. (**baylıqlıqlar** :

zənginliklər).

yoxsulluqlar yoxluqlara yol açır, baylıqlıqlar varlıqlara çatdırır. (**baylıqlıqlar**: zənginliklər).

yoxsulu vuran, ya varlıya, ya varına güvənir.

yoxsulu vurma, varlını qoğma.

yoxsulun baylığı, can sağlığı. (**baylığı: bəyligi**: devləti).

yoxsulun bəyi olunca, bəyin yoxsulu ol. (bəylər içrə yoxsul ol).

yoxsulun çöri qarın doyurmaz.

yoxsulun nəyi var qısmağa.

yoxsulun uşağı çox, zənginin quzusu çox olar.

yoxsulun varı yox, varlının yoxu çox. (yoxsulun varı yoxdu, varlının yoxu çoxdur).

yoxsulun yoxu artıq, varlının poxu.

yoxsulun yoxu varlının pozu.

yoxsulun yoxu verməyə, varlının əli almağa.

yoxsulun yoxun alan, varlının poxun yeyər.

yoxsulun yoxun güdən, varlının poxun güdər.

yoxsulun, yadı çox, varlının kimi yox.

yoxsun olsan suç yox səndə, yoxsun ölsən! suç səndə. (**yoxsun**: arman. məhrum).

yoxsuz olduq, yolsuz olmadıq.

yoxun dərdi yox.

yoxun, dərdi yox.

yokluğu ataq, varlığı tutaq. qoşa ol tək ol, sən gül mənsə butaq.

yoqandan artıq ayaq kösülsə üşüyür.

yol açar, dərd qaldırar düşünən, yollar qaqıb, dərd artırar üşünən. (yol yapar, dərdə açar bulur düşünən, yolları bağlar, dərdi çoxaldar qorxağan).

yol açar, dərd qaldırır düşünən, yollar qapıp, dərdə salar üşünən.

yol arac biz araçı.

yol arac deməkdir. aracın gözəlliyi amacı alamaz.

yol azabı, gör azabı.

yol bataqlıq gedilməz, köprü qırıq dönülməz, ışıq yoxsa görülməz, oğru çoxsa güdülməz.

yol bilən, kərvana qatılmaz.

yol bilən, kərvana qatılmaz. (sınavlı, bilgili (aqah) kimsə, işini tək başına görər, aşar, açar).

yol bilgisi almağa gözlə qulaq gərəkir.

yol bilməz, baş əğməz, baş əğər, yol bilməz.

yol colanı bilməzlik, azaşmağa yol açar.

yol değerin yolçudan, əkin nədir unçudan.

yol dərəkin dağ dərəyə düşən bilər. (**dərəkin**: qədərin).

yol doğrusa, yük ağır, min ömürlük çəkməyə nə var.

yol doğuru amac ilə durşunar. (**durşunar:** istiqamət tapar. müstəhkəmləşər).

yol dosluğu, kəndi görüncə olur.

yol düzən ol, yol pozan yox.

yol əri yolda gərək. (yoluna inanan, canına qıyar).

yol əzabı gör azabı.

yol gedənin, yol ardıca ağlama, ürək tövlə deyil, öküz inək bağlama.

yol igən (çox) ıraq, erkəndən yaraq.

yol igən (çox) ıraq, erkəndən yaraq. (yol uzundur, tezdən qalxıb yaraqlanmaq gərək).

yol ilə düşsən yola, barcaq başa tez çatar, özgə yolla sürünsən, batar, çatar bəllənməz. (**barcaq:** amac. məqsəd. mənzil).

yol korluğu, gör korluğu. (**korluğu**: əzabı).

yol qırağında ev tikənin, incinarı çox olar. (**incinar**: mühendis. injenyor. ənjenyor).

yol quran ol, yol qıran yox.

yol sormadan yol alma.

yol sormaqla bulunur. (işi aparmaq üçün, bilənlərdən sormaq gərək).

yol tapmasan könülə, evrən çönər dönülə. (**dönülə**: bulğana).

yol uzaq yağtu görünməz gözümə, qonşu yatsa yuxu görcək özünə.

(**yağtu** : ışıq. umut).

yol uzaq yağtu görünməz gözümə, qonşu yatsa yuxu görcək özünə.

(**yağtu**: ışıq. umut).

yol uzaq, eşşək çolaq. {yol uzaq, yük ağır, azıq qıtıq. (azıq: yemək. qıda)}.

yol uzaq, kütəl ağır. (**kütəl:** tuşə. {yanda götrülən nərsə (yük. ağraq)}. **(**{(**kütəl:**

1. < **götəl < göt**: kök. dib). (**1**. < güdmək **< göz**. **gözmək**. gözəmək). (**1**. **götürmək**)}.

yol uzun araba qoca, mən yorqun.

yol uzunsa kəsişər. (**kəsişər**: üz üzə gələr).(yaşam boyu biriylə daha üzləşmək çox olasıdı).

yol üstündə nə bulduğun gözləmə, keçən günlər nə əkdiyin izləmə, bu gün əkib, bu gün biçib tox yaşa.

yol üzü dərə dağ başına çatanmaz. (**yol üzü dərə**: axarı dərəyə olan yol). (seçilən yol amac bəklətər).

yol verdinsə, yol almağın qıyın iş. (**qıyın** : çətin).

yol verdinsə, yol almağın qıyın iş. (**qıyın**: çətin).

yol yarağ qılıyan, yolara qalmaz, atun ardağlayan, yağuya qalmaz.

(**ardağlayan:** ardında olan. gözləyən. muvazib olan). (**yağuya qalmaz**: düşmana əsir düşməz).

yol yarağı yemik, el dayağı bilik. (**yaraq**: ləvazimat). (**yemik**: yemək. çörək) (**dayaq**: hami. püştiban). (**bilik**: ilim).

yol yarağın bu günkündən tutmayan, yarın gecdir yolun tutar yaraqsız.

yol yarağın yoxdusa, yola çıxmaq gərəksiz.

yol yeriməklə, borc ödəməklə, pul sərpəməklə, yaş yaşamla tükənir.

yol yola çatır, yoluğ uzur. (**yoluğ:** səfər). (evrən sonsuz baş quyruğu yığılmaz, boş bir güdül tutmaqilə tıxılmaz). (hər kim gəlmiş kəndi ömrün yaşamış). (kəndi başın kəndi yolun tutqılan, ömür bitər səndən qalan iz olur). (yolçular bitər, yolçuluq sürər).

yol yolağ var yaşama, onu bilməz yaşama. (yaşamı iyi sürmək üçün qaçınılmaz yasaları öğrənib boyun olmalısan). (**boyun olmalısan**: cəvabdeh olmalısan. öhdəvə götürməlisin).

yol yoldaşı yoldaşına söyənər, qorxuq yatan tez tətinə oyanar. (**qorxuq**: xoflu. dehşətli). (**tez tətinə**: heç nəyilə).

yol yoldaşı, su yoldaşı (uzun sürməz).

yol yoldaşı, su yoldaşı (uzun sürməz).

yol yoldaşın it olsa, arxan güllə yaslaşmaz. (**yaslaşmaz**: iltaf olunmaz. oxşanmaz. bəzənməz).

yol yoldaşın yolda qoy.

yol yorağı bilsə kişi, daş durumda, görər işi.

yol yürənin, iş yapanın, at minənin. (yolu yürən, işi yapışan bitirmiş). {**yolu yürən yenər**, işi yapışan. (**yenər**: qutarar)}.

yol, birdir gedənə, yol, mindir itənə (yol birdir: doğru yol birdir. onğ, düz yol birdir). (yol, mindir: sapıq, çaşıq, münhərif yol mindir). (bu söz kişini, seçdiyi yolda, onal, doğru, sadiq durmağa, amacını güdüb, itirməməyə çağırır. yaşamda qaz vurub, qazan doldurmaq olmaz, düşünmək gərəkdir).

yola çıxdın, yaraqlı, iş başladın, ayaqlı. (**ayaqlı**: yeyin. iti. əzmli). (gedəndə, çörək götür, gələndə, ayaq götür). (yola çıxdın, yol gərəclərin unutma, gəlirsənsə, gəlişivi yubatma (gəl qutar). (işlərivi uslu, qeyim yap).

yola çıxsan azıqlı, toyun olsa aşıqlı.

yola çıxsan yoldaşlı, işə girsən qoldaşlı. (**qoldaşlı**: köməkli).

yola qafa işə çaba. (yol seçimi baş ilə, iş yürüşü çalışmaqla, qeyrətlə).

yolağ bilən bələdçi, açmazlara yol açar. (**yolağ**: tədbir).

yolağ bilən bələdçi, açmazlara yol açar. (**yolağ**: tədbir).

yolağ biriksin, yağun iriksin. (gəngəşdə söylənir). (ortaq bir yol yolağa, məsləhətə varasız, düşmanız məhv olsun, əzilsin).

yolağ biriksin, yağun iriksin. (gəngəşdə söylənir). (ortaq bir yol yolağa, məsləhətə varasız, düşmanız məhv olsun, əzilsin).

yolağ mən pişiyə, özü tutar, özü yiyər!. (**yolağ:** qurban).

yolağıyam ol kişiki söz qana. (**yolağıyam**: qurbanıyam).

yolatası keçi olanın, dərə dırnaq yeri olar.

yolbars tülkü izin güdləməz.

yolçu gedər yol qalar.

yolçu gedər yol qalar.

yolçu keçər iz qoyar, haylı keçər, vay qoyar.

yolçu keçsə izi qalar, topraq əssə, tozu qalar.

yolçu yoxsa yol batar, amac yoxsa yolçuluq.

yolçu yoxsa yol batar, amac yoxsa yolçuluq.

yolçu yoxsa yol batar, dili yoxsa el batar.

yolçu yoxsa yol batar, dili yoxsa el batar.

yolçu yoxsa yol itər, sevgi gedsə kin bitər.

yolçu yoxsa yol olmaz, az yığmasan çox olmaz. (yolçu yoxsa yol olmaz, az yığmasan çox olmaz). (yolçu yoxsa yol olmaz, su gəlməsə göl dolmaz). (yolçu yoxsa yol yoxdu, göy ağlamır su yoxdu). (yolçu yoxsa yol olmaz, su gəlməsə göl dolmaz). (yolçu yoxsa yol yoxdu, göy ağlamır su yoxdu).

yolçu, yol yolağu. (kişi işdə gərək). (kişi tutduğu yolda durmalıdır). kişi olğan, için ilə qılınar kəndi işin). (**için ilə**: içi candan. ixlas ilə) (**yolağ**: qurban. fəda). (**yolağu**: qurbanlıq. fədayi).

yolçuda nə var qırığa (yoluğa) verə.

yolçudan yolçuya pay düşməz.

yolçular bitər, yolçuluq sürər. {yol yola çatır, yoluğ uzur. (**yoluğ:** səfər)}. (evrən sonsuz baş quyruğu yığılmaz, boş bir güdül tutmaqilə tıxılmaz). (hər kim gəlmiş kəndi ömrün yaşamış). (kəndi başın kəndi yolun tutqılan, ömür bitər səndən qalan iz olur).

yolçuluq içindən başlır. (kəndivi tanı, kəndivə güvən).

yolçunu pula, qonşunu paya öğrətmə.

yolçusan yolun olsun, kənd özüvə güvən olsun.

yolçusan yolun olsun, kənd özüvə güvən olsun.

yolçuya yol gərək, qurbağaya göl gərək.

yolda bəklərin al ged, yolda tuşladın qoy ged. (**bəklərin**: səni bəkləyən).

yolda duran aparır, gözü yolda gəbərir.

yolda duran aparır, gözü yolda gəbərir.

yolda düşən yolda qalar. (yolla gələn yola gedər, yellə gələn yelə).

yolda işdə iki olda, yemək başı təkdə olsan ötüşər.

yolda qalar yük əğrisi, tuşlar amac ox doğrusu.

yolda qoşulan yolda qalar.

yolda yoldaş tapsana, yol üsündə atsana.

yolda yoldaşım, evdə sırdaşım.

yolda yoldaşın, evdə sırdaşın.

yolda yoluğan, yoldaş olmaz.

yoldalçının başı yolda qalat. (yol kəsənin, yağmacının qafası yolda qalır). (küzə su yolunda qırılır).

yoldan gəldin tozun sil, ağzın açdın sözün bil.

yoldan gəldin tozun sil, ağzın açdın sözün bil.

yoldan irəli - yoldaş, evdən irəli - qardaş.

yoldan qal, yoldaşdan qalma. (yoldan keç, yoldaşdan keçmə). (yaramaz biriylə, iyi yola çıxmaqdansa, iyi yolu sağlamaqdansa, iyi yoldaşın olsunda, otur, yaşa).

yoldan yoldur, yollar içi biyoldur. (**biyoldur**: bir yoldur).

yoldaş arar yoldaşın, yaxşı yaman yolunda.

yoldaş ilə, yol daşı. (tək yola çıxma).

yoldaş işdə sınalyar.

yoldaş var yola ayaqdaş, yoldaşda var ayaqa daş.

yoldaş var, yol üsdə daş, yoldaşda var, yola aş.

yoldaş yolda sınalyar.

yoldaş, arvad, qazanda, əsgidikcə yeğləşir (iyiləşir).

yoldaşı qarqa olanın, yediyi pox olur.

yoldaşı ölmüş türk, dəvəsi ölmüş ərəb. (yoldaşı ölmüş türk, dəvəsi ölmüş ərəb deyilsinki, əlin üzündən çək!. (əlin üzən qoyma). (arvadı ölmüş türk, dəvəsi ölmüş ərəb).

yoldaşım eldəndi, uşağım beldən, dosdum ürəkdən.

yoldaşın içi ağlar, üzü gülər, yağının içi gülər, üzü ağlar.

yoldaşın olsa qarqa, yemindən pox kəsilməz (yoldaşı qarqa olanın, yemindən pox kəsilməz). (əksilməz: əksilməz).

yoldaşın tanı, axşamın danı. (axşamın danı: axşamın səhəri). (hər gecənin gör sonun, sökük bağrı dan çağı).

yoldaşın yaxcıdısa, uzun demə yoluva.

yoldaşınla yavdaşın, iş başında bəllənər. (**yavdaşın**: öcdaşın. düşmanınıvın dosdu).

yoldaşların bilməyən, yolda daşa tuşlanar. (**bilməyən**: tanımayan).

yoldaşların yamanı, yol üstünün yoldaşı.

yoldu açar kişi içini. (yol kişinin için dışarı tökər).

yolğa güdən yola çıxar. (qazaş güdən qazana girər).

yolla gedən yorulmaz deyiblər bil, sevən könül, sevdirən könül, gəl yola gir.

yollar açıq gedənə, gücü düşər dönənə.

yollar ayrılmış, seçimə gec qaldıq.

yollar bitir, arzular itir.

yollar əsgi, yolçular yeni.

yollar körpüdən keçər, umud, altında yuva qurur. (umud onun altında).

yollar mənsiz, məndə yolsuz, evrən çönər bizi devirər.

yollar sərik yaşamda, seçilməgin seçəməgin sənlə yar.

yollar uzsa ayrılar, yalnız könül yarılar, qıssa götür yoluvi, canın təndən ayrılar. (**uzsa** : uzansa).

yollar uzun yüklər ağır, yaş qısa.

yolları kəsilmiş, gücləri kamanları yasılmış.

yolların ən çətini, yola qoşuntusuz (yaraksız) çıxanındır.

yolsuz azar, elsiz batar.

yolsuz yerdə karvan yürməz, öytgəp keçər ömür durmaz. (**öytgəp keçər**: 1. keçib gedər. 1. ötgür keçər).

yolsuz, yol aşınmaz, kovasız su daşınmaz. (**yolsuz**: yola düşmədən).

yolsuzlara can çəkibən yaranma, duz tanımaz aşın yeyər qab qırar.

(**yolsuzlara**: qaykişilərə. namərdlərə). (**can çəkibən**: can yadırıbda).

(**yaranma**: qulluq edmə).

yolsuzluqdan, anqur çanqur yol yaxşı. (**anqur çanqur**: ebgəbəli. atartutarlı).

yolu azana, itin səsi, bülbül səsindən xoşdur.

yolu bilən , yol üstünə tək çıxmaz.

yolu daşlı, qara qaşlı, özü yaşlı, gözü yaşlı.

yolu doğrunun, yükü ağır olsada, dosdu dağdırsa, kolay çəkilir.

yolu qıssa, qatı qatta, buda bir kələkmi ola. (**qatı**: kirası).

yolu qıssa, qatı qatta, buda bir kələkmi ola. (**qatı**: kirası).

yolu qovan gəncə varır, sözü qovan qavqaya (dağvaya).

yolu qovan xəznəyə varır, sözü qovan dağvaya qoparar.

yolu yolçudan, aşı aşçıdan sormuşlar.

yolu yolçudan, aşı aşçıdan sormuşlar.

yolu yürən bitirmiş, işi görən.

yolu yürən yenər, işi yapışan. (**yenər**: qutarar). (yolu yürən, işi yapışan

bitirmiş). (yol yürənin, iş yapanın, at minənin).

yolu yürən, işi yapışan bitirmiş.

yoluğ ağrı oğula qalar. (onğura yarası gec düzələr). **(yoluğ: oluğ..** onqura bölümü).

yoluğ ağrı oğula qalar. (onğura yarası gec düzələr). **(yoluğ: oluğ..** onqura bölümü).

yoluğ yoluğa ulaşar, yollar uzar, güdə ömür, uzun umur, yaşda bitər yolda qalar. (**yoluğ**: güdül. koridor. uzun yol). (**umur**: intizar).

yoluğda nə var yalığa nə versin. (yoluxda nə varki, qırığa verə).

yoluğun nəyi varki ölüğə verə. (**yoluğun** : çılpağın. lütün).

yoluğun nəyi varki ölüğə verə. (**yoluğun**: çılpağın. lütün).

yoluxda nə var yalığa nə versin.

yoluxda nə varki, qırığa verə.

yoluq verib, yarıqsayın (ehsan verin, rəhmət apartdıyın).

yolun açıq, düşmanın basıq (olsun).

yolun azana, ulduz ay kimi görünür.

yolun bilməz gej qalmış, yolun bilər tez varmış.

yolun bilsən od pırıldar daşından, barıt doğar qarından. (hərnə bilikdən asılı, bilik yoxsa gorun qazılı).

yolun boş olmasın.

yolun bular izləməz, adın bilər səsləməz. (gicoğlu gic).

yolun sevinci, isəiyip gedmaxda yox, gedə gedə istəməkdədir.

yolun sonğ bölümü, lap uzun gələr.

yolun tanışı, qıssa görünür.

yolun tutan, bardınqar, ağız güdən, aldınqar. (bardınqar: əlbəttə ki (hətmən) barqınar: amaca, mənzilə çatar). (aldınqar: əlbəttə ki (hətmən) mə'təl, avara qalar).

yolun tutan, barqınar, ağız güdən, aldınar. (**barqınar**: amaca, mənzilə çatar). (**aldınar**: mə'təl, avara qalar).

yolun tutan, çata çatdı, ağız güdən, yolat qaldı. (**çat**: məqsəd. mənzil) (**yolat**: yol üsdə).

yolun tutan, çata yetdi, ağız güdən, yola getdi. (yola getdi: heçə (götə) getdi).

yolun tutan, çatın almış, ağız güdən, yolda qalmış. (**çat**: məqsəd. mənzil).

yolun ucu məndən, ayağın gücü səndən.

yolun yaxın, yükün yüngül.

yoluna inanan, canına qıyar. (yol əri yolda gərək).

yolunan gedən yorulmaz, acdan yemək sorulmaz. (əğri olsun yol olsun, düz danışan dil olsun).

yolunuz açıq ola, yurduza bolluq ola. (alqış. dua).

yoluvu tut irəli, qoy qala itlər hürəli.

yolyarağı qılan, yolara qalmaz, atun ardağlayan, yağuya qalmaz. (yolyarağ qılıyan, yolara qalmaz, atun ardağlayan, yağuya qalmaz). (yolyarağ qılan, yolara qalmaz, atun ardağan, yağuya qalmaz). (**yolyarağ**: yolçuluq gərəçləri). (**ardağlayan: ardağan:** ardında olan. gözləyən. muvazib olan). (**yağuya qalmaz**: düşmana əsir düşməz).

yonca bitdi, torba tikdi, eşşək öldü.

yonca bitər, torba tikər, eşək qalsa yər.

yonca bitsə dizimdən, ölməz eşşək acından, yaz gəldidə bitmədi, eşək öldü acından.

yonğalır süngü qılış yarası çox, yonğalmağa dil yarası çarə yox.

yonulan haçar düşməz hər yola, yolun tapın, yonun haçarı.

yonulan qələm qızıl quşdan, yaxşılıq çəksin dartıqdan. (ləyaqətinə görə axşılıq görsün). (**qızıl quş**: sağlam, bərk qızıl boyasıl ağac çeşiti).

yordamında ərdəmdə, bayraq kimi görkəmli. (davranışında başarcanlığında örnək olan).

yorğa minən yoldaşından, çox yaşayan qurdaşından ayrılar.

yorğa minən, ayaqdaşın itirər. (**yorğa minən**: durmadan, yorulmadan, yüyrək, iti gedən). (**ayaqdaşın**: yol yoldaşın).

yorğa minən, yayıq yoldaşından ayrılar.

yorğan gedər, qovğa bitər.

yorqa ata ıraq yok, yürək ərə çatmaz yok, uslu ərə olmaz yok. (**yürək**: çevik. canlı).

yorqa ilə ayqa, bayqa ilə yalqa, bir yola çıxmış, ayrılmış. (**ayqa**: ayaq. yayaq. piyada). (**bayqa**: zəngin). (**yalqa**: yoxsul). (**ir**: tez).

yorqa minən yoldaşından ayrılır, çox yaşayan yaşdaşından ayrılır. (yorqa ata minən yoldaşın geridə qoyur, itirir, uzun yaşayan yaşıtların itirir).

yorqa minən yoldaşından, çox yaşayan qurdaşından ayrılar.

yorqan güdə qıs ayağun, için çəkmir, qıs boğazun.

yorqandan artıq qaçılsa ayaq, üşüyür. (**qaçılsa**: keşilsə. sösülsə).

yorqun ata şallaq vursan, şıllaq atar.

yorqun ata şallaq vursan, şıllaq atar. (yorqun ata şallaq vursan, şıllaqlar).

yorqun olan çağa uyqun gələməz.

yorqun olan çağa uyqun gələməz.

yorqun olub, acqın qurd, tez basar.

yorqunluq, təklik, qocalıq üçü, birləşsə bükər kişi belini.

yormadan qalan, sormadan gedən cocuq yox.

yortanın izindən, yürəndə yetər.

yorulmasan sevməgindən doymazsan.

yoşqarışlı hər nə kötü görürsə, iygərir. (**yoşqarışlı**: **xoşqarışlı**. uyumsar. optimisit. xoşbin). (**iygərir**: iyi sayır**)**.

yov üzdən eşər, daldan deşər. (**yov**: yağu) (**eşər**: toxur. bəzir).

yov yox demə yurdunqa, qurd yox demə malınqa. (yurd düşmansız, mal oğrusuz olmaz).

yovşan kölgəsi dovşanlıq, palıt kölgəsi sürülük olur. (yovşan kölgəsinə dovşan sığar, palıt kölgəsinə bir sürü).

yovu qarınca görmə. (yovu **"qarnı incə"** görmə). (**yovu**: düşmanı).

yovu "qarnı incə" görmə. (yovu qarınca görmə). (**yovu**: düşmanı).

yozulmamış qanun, oxunmaz.

yöndərilmədən ər olmaz, duzlanırsa, buz olmaz.

yudları ölkə edən bil eğitimdir, eğitimdir,eğitim. (**eğitim**: tərbiyət).

yudları ölkə edən bil eğitimdir, eğitimdir,eğitim. (**eğitim**: tərbiyət).

yuğarsa qanı su, qan suyu bular. (qan suyu bular, su qanı yuğar).

yuğunduqca yuğun, sudan arın (təmiz) olanmazsanki.

yuxarda tanrını, aşağda pulu unutma.

yuxarı tüpür üzündə yığ, aşağı tüpür, saqqalında.

yuxxarı bax qəm eylə, aşşağı bax dəm eylə.

yuxlama yoxdur oyaqlar çün, ölümdür son duraq, biz oyaqlıqdandır olmuş əsrəqüş, kül gerindən közgərib sönməz oduq, dan atan yollar üzə yağtu saçaq. (əsrəqüş: kefli). (**yağtu**: ışıq).

yuxlayan yuxudakıni haçan oyaldar (uyur uyuru haçan uyara?).

yuxu bassa yasdıq yoxdu nəyinə, könül sevsə görkü yoxdu nəyimə. (**görkü**: gözəlliyi).

yuxu durunca bitər, yaşam ölüncə sürər.

yuxu görməyə, yatmağ nə gərək.

yuxu görüb yola çıxma.

yuxu kişidən (adamdan), yavuzdu (ağırdı), ölüm yuxudan yavuz.

yuxu yuxlamıram quşqulanıram.

yuxuda balıq görən, yasdığın altın güdər.

yuxuya batan qalxdı, ona dalsınan batdı!(**yuxuya dalsınmaq**: özün yuxuya vurmaq).

yuxuya batan qalxdı, ona dalsınan batdı!(**yuxuya dalsınmaq**: özün yuxuya vurmaq).

yukarlarda qolu olanın, götü yer salar. (**qolu**: gücü. əli. ilişgisi).

yularsız at baxımsız bağ olmaz.

yularsız at yiyəsiz qalar. (**yularsız**: cilovsuz).

yumma gözün qoy gözlərin gözəllikdən pay alsın.

yumma gözün qoy gözlərin gözəllikdən pay alsın.

yummadan gözün bitir işlərin olduğun yerdə, son günün gəlir, geclərə qalır gözlənən irtə. (**geclərə**: uzaqlara. açmazlara). (**irtə**: səhər). (gün işivi yarına qoyma).

yumşağı döğdükcə bərkiyər.

yumşaq ağac qurda yem.

yumşaq ağacı qurd yeyər.

yumşaq basılır, qatı asılır.

yumşaq basılır, qatı asılır.

yumşaq dillə süfrəyə çatılır. {dilin dərgitə dəğir. **(dərgit**: süfrə)}. kişi dili altındadır.

yumşaq qorxaq, güdə alçaq deyil. (**güdə**: kəltə. qısaboy).

yumşaq olsan düşman tez qırar, qaqığan isən, xalq səndən doyar. (**qaqığan**: iti. tünd. quru).

yumşaq olsan düşman tez qırar, qaqığan isən, xalq səndən doyar. (qaqığan: iti. tünd. quru).

yumşaq üzlü evlənənməz.

yumulu ağıza nə girər. açıq ağıza nə girməz, açıq ağızdan nə çıxmaz.

yumurta sanı cücə sanı sayılmaz.

yumurtadan yun qırxan.

yumurtana görə, qaqqılda.

yumusan, küfdə deyir, yayısan, lavaş deyir.

yumuşaq atın şıllağı sərt olur.

yunağa gedər, qırnaya (şirə), düğünə gedər, zırnaya vurulur. (çapıq otuşan, çabıq ötüşür. çapıq bəğənib, çabıq vazkeçənlər üçün söylənir).

yunağda utanan, kirli qalar. (yunaq = hamam).

Yundun mu gızım demiş, kel başımı da daradım demiş. Yunma, arınma, temizlenme, kel, saçı dökülmüş, veya azalmış. Darama, tarakla düzeltme. Bir şeye gönlü olmayan, işi yapmamak için bahaneler ileri sürer, bahanelere sığınır. (Bayram Özdemir).

yurd içində nisgil qalar yurduna, uçsa inam, bitsə güvən bir eldə, ağızda dili nisgil qalar dilinə, gedsə güvən, yadavsa dil bir eldə.

yurd kiçik bolsa, anğut böyük tut. (çəmçən kiçik olsa belə, qazanı böyük tut).

yurd kiçik bolsa, anqut böyük tut: çəmçən kiçik olsa belə, qazanı böyük tut.

ayağın yekə olsa, atdımın kiçik tut.

ürəyin bir olsunda, başın iki tut.

ağzın bir olsada, qarnın iki tut.

yurd yuvanı od yel suv pozar, el arasın söz pozar.

yurd. -**'yurd aşq, sevi'** olmayana xor baxacam mən.

yurda seviş, yovqa söğüş birgə doğur. (**yovqa:** yağuya).

yurdsuz kişi, tuxumsuz topraq.

yurdun otlusundan qutlusu yeğdir.

yurdun yekəliyin, sən bilməsəndə, qar bilər.

yurqaş zırna qaval gəzdirməz. (**yurqaş**: ağbasan. ölü yuğan).

yurt dərəki, köçən son, pul dərəki, bitən son, eyku kişi, ölən sonra bəlgirür.

(**eyku**: yaxcı).

yurt dərəki, köçən yurtda bəlgürür, qın sınamaz, ballanmamış demişlər.

(dərəki: qədri**) (qın sınamaz,** bal olmamış: çətinlik görmədən dadlı ələ gəlməz).

yurtlar yürüb, dağlar aşıb, yollar eşib. (çox gəzib çox görən kimsə).

yurulub yorulmayıb gözlərə baxıram, tapdanıb oyanmayıb baxdıma yanıram.

yutlu danırsa özün, yatlı gəlib yurt salar.

yutuğ, içöz yoxsa, yaşam, doğa doğru əğri tanımaz. **(yutuğ:** içöz vicdan).

yuvanı dişi quş yapar. (erkək ev yapır, qadın oda).

yuvanı ərkək tikər, dişi saxlar.

yuvarlaq daş yosun tutmaz, göt tikilməmiş ev olmaz.

yuvarlaq daşda, yosun (ot) bitməz.

yuvarlaq daşda, yosun bitməz. (yosun: ot).

yuvarlanan daş, yosun bulmaz. (dığırlanan daşda ot bitməz).

yuvaş gedən yadamaz. (yuvaş gedən armaz). (yavaş gedən yorulmaz).

yügrük gedən yorular.

yügürən iti, sevəməz tilki.

yügürmə çoxa, düşərsin poxa. **(poxa**: bükə. dərdsərə).

yügürməyi gənc başarır, yürüməyi yaşam öğrədir.

yügürüb batmaq, çəkilib dayanmaq.

yügürük eşşək axsaq at, birin sat birin at.

yük ağırı çəkilir, söz ağırı çəkilməz.

yük altında, ipək çulla gəzilməz.

yük götürən dəvə, qamış belə götürür.

yükləsən kimsəyə, işin qaldı, kəndinə inanır, işin aldı. (inanc, güvənc kiməsniyə (kimsə olursa olsun) yaramaz!).

yüksək könül qırıq könüllərdə törür.

yüksəkdə uçan yer üzü görməz.

yüksəkdən baxan irini uvağ (kiçik) görər.

yüksəkdən baxan irini uvağ görər. (uvağ: kiçik).

yüksələndə çevrə bilər sən kimsin, düşən anda sən doslarun tanırsan.

yüksələndə çevrə bilər sən kimsin, düşən anda sən doslarun tanırsan.

yüksəyə ağan, devrilir bir gün.

yüksüz eşşək yorğa gedər.

yükü çəkən atdı, atı çəkən arpa.

yükü çəkəndən sor, atı minəndən, oxu atandan, düşü yatandan, aşı qazandan.

yükün ağdığı, barınmayar barınqa. (ağdıq yük, mənzilə çatmaz). (**ağdıq**: əğri).

yükün ağırın nər çəkər, dərdin ağırın ər çəkər.

yüngül dosdun, yükü ağır olar.

yüngül satma ərginligin qalasın, ərginlikdən kişi tapar sayasın, kor yaşasan çəkmə gözün qadasın, bələş qana, qurdurqana əğilmə.

(**ərginligin:** ərkinligin. özgürlügün). (**sayasın**: **sayqısın**. hörmətin).

(**qadasın**: minnətin).

yüngül tutsan, xoş gedər.

yüngül yapan yükünü, qolay çatar barçağa. (**barçağa**: məqsədə).

yüngülü yel alar, ağır yerində qalar.

yünğ əğirsən ip olar. (hər nə bir nəyin sonucudur). (hər nəyə bir nədən var).

yürəkdənisə sevənin, bırakma onu.

yürən, yetir, izər, ərir!. (yeriyən, çatır, izləyən, yetir).

yürən, yetmiş, izən, ərmiş. (**izən**: izləyən). (yeriyən, yetir, izləyən, çatır**)**.

yürənə yol yaxşı, qalana öy.

yürəngizdə qoyma verin yaman işdən cınqa pay. (ürəkdə yaman oylar işlər yer tutarsa, paslanar).

yürgən atın başına vurma.

yürgən ayaq, yol bitidər, çalışan baş, iş.

yürgənin yolu bitər, yatqanın günü.

yürqat bilən yorqalı, atlı bilən arbalı yoldaşlığı tutunmaz. (**yürqat**: yayaq. piyada) (**yorqalı**: yol atlı. yüyrək atlı). (**arbalı**: maşınlı) (**tutunmaz**: baş tutmaz).

yürsən sayaq, yərsin dayaq.

yürük baxlı, yoraq atlı. (baxtı yürük, atı yorqa).

yürük törük bacarsan, ucalığı taparsan. (**yürük**: rəfdar). (**törük** : devrik. davranma). (**ucalığı**: böyüməyi. ilərləməyi).

yürük törük bacarsan, ucalığı taparsan. (**yürük**: rəfdar). (**törük**: devrik. davranma). (**ucalığı**: böyüməyi. ilərləməyi).

yürüməyə üşənən, qoşmaya doyamaz. (**üşənən**: təmbəllk edən).

yürün bəylər döğüşə, yollar dözün günəşə.

yürüş bilməz, yol pozar, gəpiş bilməz söz pozar.

yürüş, gəliş irəliş.

yürüversən ömür bitməz yetərsən, başı sonu burda duraqın sənin. (yeri çalış istəklərinə çatdı, ilkin sonun burda bitir bilgilən).

yürüyən yoldan tapar, oturan hardan tapar.

yürüyən, sürünən, yügürən, uçan, görünən, yubunan (gizlənən), çapınan, qaçan.

yürüyürsən yürü ged kəndivi ver çaylar axarı, yoxsa hündürlüyə-bascaqdı səni gedmə yuxarı.

yüyən görməz, yəhər minməz, arpa yeməz at olmaz, pul qazanmaz, xanım gəlməz, ev olmaz.

yüyənli at, yəhərsiz, yəhərli at, iyənsiz qalmaz. (**yüyənli:** ovsarlı**)**. (**iyənsiz**: yiyəsiz).

yüyrəkli işdənsə, ürəkli iş üs bassın. (**yüyrəkli**: rayic. yerik olan. modda olan). (yapdığın işə könül ver). (çalış könlüvə yatan işi yapın).

yüz beynin olsada, birgə bilənlə danış.

yüz birə qoşulmaz, bir yüzə qoşular.

yüz dərəni bir sərə biçər.

yüz durandan min soruş, min ölüdən bircə yox. (qarşıvı tanı qarşıla).

yüz eşitməkdən bir görmək yaxşı.

yüz eşitməkdən bir görmək yaxşıdır. (yüz eşitməkdən bir görmək yaxşı).

Yüz gün yaraq, bir gün gərək. (Araz Gunduz).

yüz ildə bəslənən sevini, bir günlük ürəyə satdım. (**sevini**: eşqi).

yüz iligin umursun adam deyə əkdirsin, on iligin umursun ağac yalım tikirsin, bir iligin umursun buğda əkib biçirsin. (**əkdirsin**: **əkidirsin**. becərirsin. tərbiyət edirsin).

yüz iligin umursun adam deyə əkdirsin, on iligin umursun ağac yalım tikirsin, bir iligin umursun buğda əkib biçirsin. (**əkdirsin**: **əkidirsin**. becərirsin. tərbiyət edirsin).

yüz illər var bir günə sinər. (**sinər**: yerləşər. gizlənər).

yüz ölçək bir biçək, özümüzə uyğun seçək.

yüz sorasan mində sor, yanlış soru doğru yanıt alanmaz.

yüz söz, iki işləyən əli, dəğişə bilməz.

yüz 'vur' diyəndən, bir vuran yaxşı.

yüz" "birə" getmir, "bir" "yüzə" gedir, çox "aza" getmir, "az" "çoxa" gedir.

yüzdə var doxsanda var, öpməli daban gördüm, tüpürməli üzdə var.

yüzdən ayrı tək başına qurda gedsə bir kişi, quşqu yoxdur yüzdən bir az zaman hər nəyi bitirir.

yüzlükə dursan, ellə yürsən, işin yanar, könlün qalar. (**yüzlük**. rəsm).

zafranın sarılığın, görəndən (xəsdədən) sor, dadını, qoxlayandan.

zaman keçər söz qalar.

zaman yaşan ömürdü, gələn soluq, keçənləri alınmaz, daddan sayılmaz. (**yaşan**: yaşanılan).

zaman zamana uymaz.

zaman, tanrı yaşar, kişioğlu həp ölmək için var!.

zamana yatlu oldu, halal yeyilməz, haram ˇqiymətli oldu.

zamanaya qaqıyanın, qazığı samanla dolar.

zamanı keçdi samanı keçdi, itin hürdü karvanı keçdi, yarına umuq, günü bəklədin, yaşlığın keçdi, yaşın keçdi.

zengin bulsa “qutlu ola”, yoxsul bulsa “nerden ola?”.

zenginlik yürüyüş, yoxsulluq döğüş öğredir. (**yürüyüş**: oturuş duruş).

zəfranın sarısın, sayrudan (saruğdan. xəsdədən) sor, dadın, yeyəndən.

zənginin payı gəlincə, yoxsulun canı çıxar.

zər ilə zor iş aparar.

zərər maldan olsun başdan yok.

zərgər evində, pişik taqqıltıdan qorxmaz.

zərgər tükanın tozuda qızıldandır.

zərgər tükanın tozuda qızıldır.

zinə sular, çay olar.

zirək kişi bir sorunu qaldırar, bilgə kişi bu sorudan qaçınar.

zirək kişi bir sorunu qaldırar, bilgə kişi bu sorudan qaçınar.

zirəm sənə su verəcəm – bu gün verəcəm sabah verəcəm – özüm billəm haçan verəcəm.

zırnaçının göz nəyinə, anlamazın söz nəyinə.

zırnaçıyla, halvaçı yığnağı. (boş kavara kimsələr toplamı).

zirvələrin, öz zirvəsi var.

zolağ görməmiş ağ qaranı nə tanır, ağ qaranı görməmiş zolağı nə tanır.

zor - zoru, kor – koru görür.

zor altında yaşanar, qorxu altda yaşanmaz.

zor altında yaşanar, qorxu altda yaşanmaz.

zor qapıdan girince yasa bacadan çıxar.

zor qapıdan girincə, şəriət bacadan çıxar.

zor olsada başlaması, xoş olsunda qutulması.

zor zoru, kor koru görür.

zorla it sürüyə gedməz.

zurnaçının göz nəyinə gərəkdir.

zük üzüyü görər, dərdi deşilər.

zülmün ipi yoğunluğundan qırılar.